ŞAMİL VƏLİYEV

AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ MƏTBUATINDAN ARAŞDIRMALAR

II

ŞAMİL VƏLİYEV

AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ MƏTBUATINDAN ARAŞDIRMALAR

(2000-2010)

2 CİLDDƏ

II cild

Azf 335486

Azərbaycan milli kitabxanası

«Elm və təhsil»
Bakı – 2011

Redaktor: **Alxan Bayramoğlu (Məmmədov)**
filologyia elmləri doktoru, professor

Toplayıb
nəşrə hazırlayan: **Aygün Əzimova**
filologiya üzrə fəlsəfə doktoru
Afaq Sadıxova
Nülufər Vəliyeva

Şamil Vəliyev.
Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar (2000-2010).
Bakı , "Elm və təhsil", 2011, 544 səh.

Tanınmış ədəbiyyatşünas-alim, tənqidçi və publisist, filologiya elmləri doktoru, professor, əməkdar jurnalist Şamil Vəliyevin «Azərbaycan ədəbiyyatı və mətbuatından arşadırmalar» iki cildiyinə onun müxtəlif illərdə nəşr olunan monoqrafiya, portret-oçerk, elmi-nəzəri və publisistik məqalə, resenziya, müsahibə, məktub və şəxsi arxivindən seçmələr daxildir. Bu əsərlərdə mətbuat və jurnalistikaının dünəni və bu günü haqqında bəhs açılır, ədəbi tənqid və poeziya barədə araşdırmalar əsaslı yer tutur, zəngin fakt, hadisə, şəxsiyyət və problemlər kontekstində irs-varislik əlaqələri tədqiq olunur.

$V\frac{4702000000}{N098-2011}$ qrifli nəşr

© «Elm və təhsil», 2011

XX ƏSRIN ƏVVƏLLİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-TARİXİ VƏ ƏDƏBİ-MƏDƏNİ MƏNZƏRƏ*

XX əsrin əvvəllərində çar Rusiyasının sərhədləri daxilində olan Azərbaycan müstəqillik həyatını yaşayır, imperiya ərazisində baş verən ictimai-siyasi hadisələr, ədəbi-mədəni yeniliklər başqa yerlərdə olduğu kimi bu və ya digər şəkildə Qafqazda da əks-səda doğururdu. Ölkənin iqtisadi problemləri, ictimai-siyasi hadisələrin dramatizmi, ədəbi-mədəni düşüncədəki axtarış meylləri, yeniləşmə hərakatı Azərbaycana bilavasitə təsir edir, gerçək həyatda və xalq təfəkküründə mühüm islahatlara səbəb olurdu. XIX əsrdə çar Rusiyasında, xüsusən də mərkəzi şəhərlərdə, o cümlədən Moskva və Peterburqda baş verən ictimai-siyasi hadisələr, o cüilədən, dekabristlər hərəkatı, «narodnaya volya»çılar, xalqçılar hərəkatı, rus mətbuatı yenilikləri, çarizmə qarşı üsyan, terror, tətil və nümayişlər, sui-qəsd faktları, habelə Avropanın qabaqcıl ölkələrindəki demokratikləşmə olayları yeni Azərbaycanda böyük diqqətlə izlənilir, milli mühitin mütərəqqi meyllərə meydan açmasına səbəb olurdu. Rusiya və Avropada, Türkiyə və İranda yaranan çağdaş ədəbiyyatı, bədii düşüncə məhsulları Azərbaycana gətirilir, tərcümə və nəşr işi gücləndirilir, teatr və dramaturgiyaya geniş meydan açılır, müasir məktəblər qurulur, yeni dünyəvi dərsliklər yazılır və çap edilir, tədrisin prinsipləri dəyişilir, «üsuli-cədid» məktəblərinin sayı artırılır, kamil vətəndaş prinsipləri gücləndirilir, xalqın mədəni-mənəvi dəyər-

* AMEA Ədəbiyyat institutunun hazırladığı çoxcildlik "Aəzrbaycan ədəbiyyatı tarixi"nin V cildi üçün yazılıb.

lərini qorumaq, tarixi-milli həqiqətləri, yaddaş faktlarını mühafizə etmək mühüm vəzifə kimi irəli sürülürdü. Bu zaman Azərbaycanda Rusiya, İran, Avropa və Türkiyədəki «təcrübə dərsləri» xüsusi diqqət mərkəzində dayanır, inqilab-revolyusiya, məşrutə, tənzimat hərəkatlarının, parlamentarizm, konstitusiyalı dövlət tələblərinin, yeni sənət nəzəriyyələrinin mahiyyəti şərh və təhlil olunur, milli muxtariyyat hüquqlarına, ictimaiyyətin taleyüklü problemlərin həllində roluna yüksək qiymət verilirdi.

«Kürəkçay» (1804), «Gülüstan» (1813), «Türkmənçay» (1828) müqavilələrinin imzalanması ilə XIX əsrin birinci yarısında xanlıqlar dövrünün ictimai-siyasi ağrı-acılarını yaşayan Azərbaycan ikiyə bölündü və tale əzablarının yeni burulğanına düşdü. Dövrün ziyalıları bütün XIX əsr boyunca Azərbaycanın vəziyyətini düşünür, çıxış yolları arayır, milli mədəniyyəti qorumağı vacib vəzifə sayır, ən vacibi müstəqillik, azadlıq-istiqlal düşüncəsinin prinsiplərini ortaya qoyurdular. Xalqın və vətənin bütövlüyü, millətinin kimliyi diqqət mərkəzində dayanır azad vətəndaş və cəmiyyət idealı dövrün «Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə» və «Kəşkül» kimi mətbuat orqanlarında formalaşdırılırdı. «Azərbaycanlı» və azərbaycançılıq anlayışları bütün mahiyyəti ilə XIX əsrin sonu və XX əsrin əvvəllərində parlaq ifadəsini tapır, lakin bu birmənalı şəkildə, yalnız yüksələn xətt üzrə inkişaf etmirdi. Çünki ictimai-tarixi zamanın və siyasi düşüncənin ziddiyyətləri həmin vaxtda qərbçilik, islamçılıq, türkçülük, turançılığı, habelə bir sıra modernist məfkurə yönlərini meydana çıxarmışdı. Zamanın sosial-siyasi burulğanlarının ortaya atdığı problemlər ədəbi və elmi-nəzəri fikirdə diqqət mərkəzinə çəkilir, fəlsəfi mühakimədə və siyasi tərəf-müqabillikdə müxtəlifliyə demokratik qaydada imkan yaradılsa da vahid-böyük Azərbaycan idealı və azərbaycançılıq aparıcı xətt kimi yüksək qiymətləndirilirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində ictimai-siyasi vəziyyət və ədəbi-mədəni mühitin ortaya çıxardığı, obyektiv gerçəkliyin doğurduğu suallara – «Yolumuz hayanadı?», «Nədən bu hala qaldıq?» (H.C.Ayvazov), «Nədən bu günlərə qaldıq» (Ə.Ağaoğlu), «Nicat nədədir?» (N.Nərimanov), «Bizə hansı elmlər lazımdır?» (H.Zərdabi, Axund Əbu Turab, Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, Ə.Hüseynzadə) və başqa bu kimi suallara mətbuatda, publisistik yazılarda, eləcə də ədəbi-bədii əsər və tənqidi məqalələrdə aydın cavab verilir, milli tərəqqinin istiqamət və yolları göstərilirdi. Bildirilirdi ki, yolumuz bütöv, azad, müstəqil, suveren Azərbaycana, bütün türk dünyasının – Turanın tərkib hissəsi olan sivill Azərbaycanadır, xürafat, fanatizm, dövlətsizlik, ruhsuzluq, elmsizlik, maarifsizlik, dilsiz və dinsizlikdən və s. bu günlərə, bu hala qaldıq, «uçurum dərələrin» («Bahadır və Sona» N.Nərimanov) adamı olduq, nicat milli birlikdə, sinfi-siyasi sülhdə və anlaşmada, elmdə, maarifdə, mədəni intibahdadır, bizə bunun üçün dini və dünyəvi elmlər, yeni siyasi-fəlsəfi görüşlər, nəzəriyyələr, təşəbbüslər lazımdır. Dövrün həmin təzadlarında, ictimai-siyasi burulğanlarında Azərbaycan ziyalılarının mövqeyini satirik yazıçımız C.Məmmədquluzadənin «Vətən, vətən, vətən! Millət, millət, millət! Dil, dil, dil!» devizi çox mükəmməl ifadə edir, məşhur «Molla Nəsrəddin»dəki felyetonlarından birində söylədiyi «Bizə əməl lazımdır, əməl, əməl, əməl!» tələbi bütövlükdə xalqın fəaliyyət prinsipi kimi səslənirdi.

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi mühiti çoxpartiyalı sistemi ilə diqqəti cəlb edir, müxtəlif təyinatlı xeyriyyə cəmiyyətlərinin fəaliyyəti maraq doğurur, ən vacibi isə ictimai-siyasi münasibətlərdə sinfi-silki fərqlər əsas götürülür, kapitalizm dünyasının ziddiyyətlərindən yaranan burjua-mülkədar hökmranlığı, fəhlə-kəndli məzlumluğu cəmiyyətin əsas mənzərələrini, ictimai-tarixi lövhələrini meydana çıxarırdı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranan ictimai-tarixi şəraiti və formalaşan ədəbi-mədəni mühiti ikili düşüncə tərzi müşayiət etməkdə idi. Bunlar bir tərəfdən tarixən Azərbaycanda hökmfərma olan ənənəvi idealist təfəkkür modeli, digər tərəfdən XIX əsrin məhsulu olan və Avropada doğulan «Kommunizm kabusu»nun dünyayabaxışı kimi təşəkkül tapmış materialist düşüncə prinsipləri idi.

XIX əsrin sonu və XX əsrin əvvəllərində panxristianizm, pangermanizm, panslavyanizm (slavyanofillik), Avropasentrizm (avropamərkəziyyətçiliyi) bir çox ölkələrdə ayrı-ayrı qohum və yaxın mənsubiyyətli dini-etnik birliklərini təşkil edir, onların təməlçilik-fundamentalizm ideyalarını həyata keçirməyə geniş meydan açırdı. Qafqazda əks-sədası görülən bu ictimai-siyasi həqiqətlər bölgənin xalqlarını özünümüdafiəyə səfərbər edir, milli-etnik müqəddəratın, maddi və mənəvi mədəniyyətin qorunması başlıca vəzifə sayılırdı. Müstəmləkəçilikdən qurtuluşa çalışan Azərbaycanda islami dəyərlərə, türklük həqiqətlərinə, müasirləşmə hərəkatına xüsusi diqqət yetirilməsi, «türkləşmək, islamlaşmaq, müasirləşmək» kimi üçlü prinsipin vəhdətdə götürülərək ictimai-siyasi düşüncə, fəlsəfi konsepsiya halına gətirilməsi, başqa sözlə desək Azərbaycançılığın triadasına çevrilməsi dövrün mühüm keyfiyyət göstəricisi, ən xarakterik cəhətlərindən biri, bəlkə də ən başlıca tarixi mərhələ fərqi idi. Çar Rusiyası ərazisində, xüsusilə Cənubi Qafqazda siyasi quruluşun dəyişdirilməsi marağında olan Azərbaycan burjuaziyasının, ziyalılarının nümayəndələri, xüsusilə Rusiyanın Dövlət Dumasında təmsil olunan deputatlar ölkənin tarixi inkişafına maneə törədən bir sıra bürokratik təşkilatların, qurumların dəyişdirilməsi və ləğvini tələb edir, islahatlar təklifini irəli sürürdülər. Mütləq monarxiyanın parlament idarəçiliyi ilə əvəzlənməsi, konstitusiyalı dövlət tələbləri XX əsr Azərbaycan burjuaziyasının – aristokratiyasının mövqeyini müəyyənləşdirir, onların öz milli müqəddəratını təyin etmək hüququ uğrunda

mübarizəsi ictimai-siyasi fikirdə kütləviləşir, bu baxımdan mətbuat və ədəbiyyatın rolu məqsədli şəkildə daha da gücləndirilirdi. Bu işin geniş vüsət almasına 1905-ci il aprelin 17-də verilən «Manifest» də mühüm rol oynadı. Həmin fərmandan sonra Azərbaycanda petisiya kompaniyası başlandı, siyasi haqq və hüquqların tələbi ön plana keçdi. Dövrün siyasi həyatının mühüm məqamlarına diqqət yönəldən tarixçi-alim D.Seyidzadə yazır: «1905-ci ilin iyulunda «Bakı müsəlmanları»nın vəsatəti canişinə təqdim olundu. Bakı dumasına deputat seçkilərində müsəlmanlar üçün məhdudiyyətləri tezliklə ləğv etmək və 1905-1909-cu illər üçün onun tərkibinin seçilməsini dayandırmaq məsələsini qoyan Azərbaycan sahibkarları şəhər işlərinin həllində öz hüquqlarını genişləndirməyə çalışırdılar. Bununla yanaşı «Bakı müsəlman cəmiyyətinin ən nüfuzlu və ziyalı şəxsləri» ümummilli mənafeləri müdafiə edərək eyni zamanda Müsəlman Xeyriyyə Cəmiyyəti və Qafqaz Canişinliyinin Müsəlman Əhalisinin Savadlandırılması Cəmiyyəti nizamnamələrinin təsdiq edilməi barədə canişinə ərizə göndərdilər. Bu vəsatətlərin çatdırılması və izahı ilə əlaqədar bütün qayğılar Ə.M.Topçubaşova həvalə olunurdu».[1]

Dünya xalqlarının bir çoxu kimi, azərbaycanlılar üçün də XX əsrin ilk iki onilliyi böyük tarixi hadisələrlə əlamətdar dövrdür. Onun dərin, hərtərəfli xarakteristikasında ən başlıca cəhətlərdən biri V.İ.Lenin tərəfindən verilmiş «Asiyanın oyanması»dır[2] ki, Azərbaycan həmin oyanmanın canlı timsalı idi.

Azərbaycanın daxil olduğu Rusiya imperiyasında bu dövr ictimai, iqtisadi, siyasi və mədəni həyatda ziddiyyətlərin son həddə çatdığı illər, kapitalizmin öz inkişafının yüksək, axırıncı mərhələsinə – imperializm mərhələsinə daxil ol-

[1] D.Seyidzadə. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, Azərbaycan Respublikası «Kitab» cəmiyyəti, 1998, s.67.
[2] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 23-cü cild, s.158.

duğu dövr, «mürgüləməkdə olan Rusiyanın inqilabçı proletariat, inqilabçı xalq Rusiyasına çevrildiyi» (Lenin)[1] illər, bolşevik partiyasının obrazlı desək «inqilab gəmisini tufanlardan keçirib irəli apardığı» illər, burjua-demokratik islahatlarının baş verdiyi zaman idi.

Tarixi hadisələrin mürəkkəbliyi, füqərayi-kasibədə, proletariatda inqilabi şüurun böyük sürətlə inkişafı bu dövrün ən səciyyəvi xüsusiyyətlərindəndir. V.İ.Lenin yazırdı ki, 1905-ci il yanvarın 9-da «proletariatın inqilabi tərbiyəsi bir gündə adi, sönük və fərəhsiz həyatın aylar və illəri ərzində irəliləyə bilməyəcəyi qədər irəlilədi».[2]

1905-ci ilin 9 yanvarından (22-dən) - «Qanlı bazar günü»ndən sonra Çar Rusiyası ərazisində yeni dalğa ilə müşayiət olunan ictimai-siyasi hadisələr əslində 1904-cü ildə Rusiya-Yapon müharibəsində (port-Artur, Port-Smut) məğlubiyyətə uğrayan və monarxist üsul-idarəsinin yararsızlığını sübut edən reallıqlar idi. Artıq dünyaya meydan oxuyan «ikibaşlı qartalın xofu» aradan qaldırılmış, Çar Rusiyasının beynəlxalq nüfuzu azalmış, ölkədaxili inam itmiş, rus sosializmi imperiyanın ucqarlarına ayaq açmışdı. Yaranmış vəziyyətə istinad edən mərkəzin inqilabçı qüvvələri fəhlə-kəndli hərəkatına yeni təkan verir, islahat-reforma tələblərini irəli sürürdülər. Belə bir vaxtda – 1905-ci il yanvarın 9-da çara ərizə aparan Peterburq fəhlələrinin (140 min nəfərdən çox) dinc nümayişi güllələbaran edildi. Nümayiş keşiş Qaponun yaratdığı təşkilat tərəfindən hazırlanmışdı və çoxsaylı insan tələfatına səbəb oldu. Çara sonuncu inamı da qıran «Qanlı bazar günü» ölkənin ictimai-siyasi həyatına, ədəbiyyat və mətbuatına əsaslı təsir göstərə bildi. Həmin hadisədən sosialistlər və bolşeviklər səmərəli istifadəyə xüsusi diqqət yetirir, öz mətbuat orqanlarında bu hadisəyə geniş yer ayırırdılar.

[1] Yenə orada.

[2] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 9-cu cild, s.214-215.

Yanvarın 8-də M.Qorki başda olmaqla bir qrup ziyalı hazırlanan qanlı divanın qarşısını almaq üçün daxili işlər nazirinin yanına getdi. Nazir onları qəbul etmədi. Yanvarın 9-da bazar günü minlərlə fəhlə əllərində ikonalar, çarın şəkilləri, Saray meydanına doğru hərəkət etdi. Çarın əmisi, Peterburq general qubernatoru böyük knyaz Vladimirin əmri ilə fəhlələrə atəş açıldı. 4600 nəfər öldürüldü və yaralandı. «Bu, əli yalın və dinc xalq kütlələrinin ən alçaq və rəhmsiz qətli idi» (V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, c.9, s.228). Bu xəbər bütün Rusiyaya yayıldı. Çoxmillətli Rusiya proletariatı «Rədd olsun mütləqiyyət!» şüarı ilə çıxışlara başladı. Yanvar ayında 66 şəhərdə 444 min fəhlə siyasi tətil edirdi. Güllələbaran xəbəri Bakıya çatan gün (yanvarın 9-u) şəhər teatrında mitinq keçirildi. Bakı Komitəsi təcili müşavirəsinin qərarı ilə yanvarın 12-də «Bütün fəhlələrə!» adlı vərəqə buraxıldı.

Çar Rusiyası əhalisinin oyanıb siyasi şüur əldə etməsində əhəmiyyətli rol oynayan Rus-Yapon müharibəsinin nəticələri və 9 yanvar «Qanlı bazar günü»ndən sonra çar üsul-idarəsi bir sıra güzəştlər etməyə məcbur oldu. Bu güzəştlərin əldə edilməsində siyasi qüvvələrlə və təşkilatlarla yanaşı mətbuat və ədəbiyyatın da təsiri güclü oldu. Çar Rusiyasını sarsıdan bu iki mühüm hadisədən sonra hakimiyyətdən əlini üzən geniş xalq kütlələri və ayrı-ayrı millətlərin nümayəndələri özünüidarə formaları axtarır, müstəqillik və suverenlik iddialarını ifadəyə çalışırdılar. 1905-ci il oktyabrın 17-də Çar II Nikolayın imzaladığı «Xətti-hümayun (Əlahəzrətin manifesti) elani-rəsmi»sindən sonra imperiya ərazisində konstitusiyalı monarxiya ideyası güclənməyə başladı. Həmin dövrdə Avropa, Türkiyə, İngiltərə, İranda da konstitusionalizm hərəkata böyük nüfuz qazanır, xüsusən Türkiyə tənzimatçılarının (jön türklər – gənc türklər) və İran məşrutəçilərinin axtarışları örnək seçilirdi. Ədəbiyyat, mətbuat, maarif və sənətin müxtəlif növlərində yenilikçilik – təcəddüdçülük, ictimai-si-

yasi düşüncə prinsiplərinə, azadlıq uğrunda mübarizə ideyasına meydan açılırdı. 1905-ci il 17 oktyabr manifestində bildirilirdi ki, «əhaliyə hürriyyəti-şəxsiyyəyi-həqiqiyyə, hürriyyəti-vicdan, hürriyyəti-kəlam, hürriyyəti-ictimai və ittifaq üsul və qəvaidinə ibtina və istinad edən hürriyyəti-mədəniyyənin naqabil təğyir olan ərkan və əsasını əta etsinlər».[1]

Xalqa hər cür azadlıqların elan edilməsi və onun hüquqi təminatının qorunacağı haqqında vədlər ədəbi-bədii düşüncənin hərəkətə gəlməsinə yeni təkan verdi. Xüsusilə, qanunvericilik qaydaları ilə din, vicdan, söz, mətbuat, fikir, təşkilat, mülk azadlıqlarının tənzimlənməsi xalqın ictimai-siyasi fəallığını daha da artırdı. Lakin bu azadlıqlar rəsmi-idari və iradi qaydada çox az – təxminən iki il davam etsə də, 1907-ci ildən başlayaraq Stolıpin irticası həmin proseslərə maneə olmağa, onu özünün qaragüruhçu tədbirləri, siyasi təqib və inzibati təzyiqləri ilə dayandırmağa başladı. Rus ictimai fikrində və Azərbaycan mətbuatında populyarlıq qazanan

Çar manifest verdi öz qorxusundan,
Ölülərə azadlıq, dirilərə zindan –

misraları da həmin hadisələrin məhsulu idi. Stolıpin irticası ədəbi prosesdə «inkisari-xəyal»ın yaranmasına, yəni azadlığa olan xəyali sevginin və inamın sönməsinə səbəb oldu, bir sıra milli ziyalıların həbs və sürgünlərə düçar olmasını şərtləndirdi...

Bütün bunlarla yanaşı ölkədə yeni iqtisadi-mədəni həyatın – kapitalizmin formalaşması Azərbaycana öz təsirini göstərir, xüsusən də «rus kapitalizmi Qafqazı əmtə tədavülünə cəlb edirdi, onun yerli xüsusiyyətlərini – qədim patriarxal qapalılıq qalıqlarını aradan qaldırır və öz fabrikləri üçün özünə bazar yaradırdı»[2] XX əsrin əvvəllərində isə yerli kapitalistlərin və rus kapitalistlərinin səyi, habelə xarici kapitalın

[1] «Həyat» qəzeti, 25 oktyabr 1905-ci il, №87.
[2] Yenə orada, 9-cu cild, s.631.

neft sənayesinə nüfuz etməsi nəticəsində Bakı Rusiyanın məşhur sənaye mərkəzlərindən birinə, Qafqazın ən böyük sənaye və proletar mərkəzinə çevrilmişdi. V.İ.Lenin göstərirdi ki, «Bakı şəhəri əhəmiyyətsiz bir şəhər ikən dönüb Rusiyada, 112 min əhalisi olan birinci dərəcəli sənaye mərkəzi olmuşdur».[1] Azərbaycanın belə bir mühüm əhəmiyyət daşımasında Bakının tərəqqi edən dünyanın ən qaynar mərkəzlərindən birinə çevrilməsində səbəb yalnız Şərqlə Qərbin qovuşduğu bir ərazidə, ən qədim dövrlərdən Roma imperiyası ilə Çin arasındakı «İpək yolu»nda yerləşmiş Odlar yurdunun coğrafi üstünlüyü deyildi. Əsas amillər Azərbaycanın zəngin insan potensialının, təbii və mənəvi sərvətlərinin aktiv dövriyyəyə çıxarılması idi. Təkcə onu qeyd etmək kifayətdir ki, 1901-ci ildə Bakı bütün dünyada neft hasilatının yarıya qədərini – yəni ABŞ-dan da çox neft verirdi. Bakı şəhərini və onun ətraf rayonlarını əsil mənada «neft çılğınlığı» bürümüşdü. Azərbaycan «neft və milyonlar» ölkəsinə çevrilmişdi. Yerli kapital və Rusiya kapitalı neft sənayesinə sel kimi axıb gəlirdi. Şəhərin əhalisi minlərlə fəhlə, yüzlərcə usta, mühəndis, geoloq, kimyaçı və inşaatçıların, habelə digər peşə və sənət adamlarının hesabına durmadan artırdı.

Azərbaycan quberniyalarında sənaye inkişafının Gürcüstan və Ermənistanla müqayisəsi belə bir inkaredilməz həqiqəti də üzə çıxarır ki, bu inkişaf Gürcüstandakından, xüsusilə Ermənistandakından yüksək səviyyədə olmuşdur.

Kapitalizm cəmiyyətdəki ziddiyyətlərin o vaxtadək görülməmiş kəskinlik almasına səbəb olmuş, xalq kütlələrini daha ağır zülm və istismara düçar etmişdi. Ölkənin sərvətlərindən acgözlüklə istifadə edən sahibkarlar arasında daha artıq və şəriksiz qazanc uğrunda mübarizə, kəskin ziddiyyət və rəqabət hökm sürürdü. İri neft sənayeçiləri öz aralarında ittifaqlar bağlayır, inhisarçı birləşmələr və sindikatlar yara-

[1] Yenə orada, s.523.

dırdılar, böyük konsern və trestlər, gəmiçilik, poladəritmə, duz, ipək və s. sahələrin inkişafına geniş meydan açırdı.

H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, Mantaşev, Liozonov, Nobel qardaşları, Rotşild, Vişau, Simens və b. kapitalistlər - «Standart oyl», «Oleum» kimi trest, şirkət və kompaniyaların nümayəndələri Bakının qara qızıl sərvətini, onu istehsal və emal edən fəhlələri amansızcasına istismar edirdilər. Mədən, zavod və fabriklərdə, habelə ticarət müəssisələrində işləyən fəhlələr, qulluqçular həm kapitalistlər və onların prikazçikləri, həm də çar jandarmı tərəfindən təqib və təhqir edilir, həbs və sürgünlərə məruz qalırdılar.

Neft mədənlərinin və fəhlələrin o zamankı vəziyyətinin şahidi olmuş Maksim Qorki yazırdı: «Neft mədənləri mənim yadıma mənfur cəhənnəmin dahiyanə çəkilmiş bir lövhəsi kimi qalmışdır. Bu lövhə dəhşətə gəlmiş şüurun mənə tanış olan bütün xəyali uydurmalarını, təvəkkül və itaət vaizlərinin insanı cəhənnəmin sönməz alovlarında, qaynar qatranla dolu qazanlarda şeytanlar arasında yaşamaqla qorxutmaq üçün etdikləri bütün cidd-cəhdlərini kölgədə qoyurdu. Mən zarafat etmirəm. Bu təəssürat adamı mat-məbhut edirdi».[1]

Hökumətin qoyduğu saysız-hesabsız vergi və mükəlləfiyyətlər, feodal-burjua zülm və özbaşınalığı, çar idarələrindəki rüşfətxorluq, sürüdürməçilik, hökumətin müstəmləkəçi köçürmə siyasəti, kənddəki təbəqələşmənin törətdiyi acınacaqlı vəziyyət, sinfi ziddiyyətlərin kəskinləşməsi, təbii fəlakətlər nəticəsində baş verən məhsulsuzluq, qıtlıq və s. b.kimi hallar Azərbaycan zəhmətkeşlərini olmazın əzablara, ehtiyaclara düçar etmişdi.

1900-cü ildə Bakıda sosial-demokrat dərnəklərinin rəhbər mərkəzinin, 1901-ci ildə isə RSDFP Bakı Komitəsinin yaradılması Azərbaycan füqərayi-kasibəsinin inqilabi mübarizə tarixində çox ciddi hadisə idi. İnqilabi vərəqələrin nəşri və yayılması, sosial-demokratik ədəbiyyatın təbliği onların

[1] M.Qorki. Əsərlərin külliyyatı. 17-ci cild, M., 1952, s.113.

fəaliyyətinin mühüm hissəsini təşkil edirdi. İlk intibahnamə 1903-cü ilin may ayında çap olunmuşdu.

Çar jandarmının təqiblərinə, həbs və sürgün təhlükəsinə baxmayaraq sosial-demokrat xadimlər inqilabi vərəqə və intibahnamələri, marksist ədəbiyyatı Bakıdan savayı Gəncə, Şamaxı, Qazax, Şuşa, Nuxa və başqa şəhərlərdə də yayırdılar.

1904-cü ilin payızında Bakı Komitəsinin tərkibində sonralar təşkilat şəkli alan Azərbaycan sosial-demokrat «Hümmət» qrupu yarandı. İnqilabi hərəkatın bütün məsələlərinin həllində leninçi mövqedə duran, Azərbaycan füqərayi-kasibəsinin ideya-siyasi həyatında görkəmli rol oynayan «Hümmət» təşkilatında N.Nərimanov, A.Caparidze, M.Əzizbəyov, S.M.Əfəndiyev, Ə.Axundov, X.Səfərəliyev və başqa məşhur bolşeviklər fəaliyyət göstərirdilər.

Rusiyada yoxsul kəndlilərlə əlaqəni möhkmləndirməyə başlamış fəhlə sinfi çar mütləqiyyəti, burjuaziya və mülkədarlar əleyhinə qızğın inqilabi mübarizəyə qalxmışdı. Fəhlələr tətillər və nümayişlər zamanı «Yaşasın siyasi azadlıq!», «Yaşasın sosializm!», «Rədd olsun çar mütləqiyyəti!» kimi siyasi şüarlar irəli sürürdülər.

Rus proletariatı və kəndliləri ilə birlikdə Ukraynanın, Belorusiyanın, Pribaltikanın, Zaqafqaziyanın, Orta Asiyanın və Rusiyadakı digər milli rayonların fəhlə və kəndliləri çarizmə və istimarçı siniflərə qarşı mübarizə aparırdılar. 1902-ci il aprelin 21-də Bakıda keçirilmiş siyasi nümayiş haqqında leninçi «İskra» yazırdı: «Fəhlələr içərisində nümayiş çox gözəl təsir bağışladı. O, fəhlələri ruhlandırırdı və onlarda öz qüvvələrinə inam doğurdu. Bakı fəhlələrinin özləri barəsində olan rəyi dərhal yüksəldi...»[1]

Bakıda bir-birinin ardınca keçirilən əzəmətli fəhlə tətilləri və nümayişləri o zaman nəinki Rusiyada, hətta xarici ölkələrdə də əks-səda doğurmuşdu. 1903-cü il iyulun 19-da

[1] «İskra» 1 sentyabr, 1902, №24.

Bakıda baş verən tətil bu cəhətdən xüsusilə əhəmiyyətli oldu. O zamankı Almaniya sosial-demokratiyasının rəhbəri Bebel Reyxstaqda söyləmişdi ki, bu il fəhlə hərəkatı iki böyük müvəffəqiyyət qazanmışdı: onlardan biri Bakı tətili, o biri də Almaniya sosial-demokratiyasının seçkilərdəki qələbəsidir[1].

Azərbaycan bolşeviklərinin rəhbərliyi ilə keçirilən 1904-cü il dekabr tətilinə mərkəzi Rusiya fəhlələri coşğunluqla səs verdilər. RSDFP Peterburq, Moskva, Tiflis, Xarkov, Rostov, Qroznı komitələri Bakı tətilinə həsr edilmiş intibahnamələr buraxaraq, Rusiyanın geniş proletar kütlələri üçün Azərbaycan fəhlələrinin mübarizəsinin əhəmiyyətini qeyd edirdilər. Leninçi «Vperyod» qəzeti Bakı proletariatının inqilabi hərəkatda mühüm rolunu yüksək qiymətləndirərək yazırdı ki, «Bakıdakı hadisələr bütün Qafqazı inqilabiləşdirir».[2]

1917-ci ilə qədərki dövrdə, obrazlı desək «Avropa» kreyserinin yaylım atəşi açdığı zamana qədər çar Rusiyası ərazisindəki 53 müxtəlif yönlü siyasi partiya və ictimai təşkilatdan 22-si Azərbaycanda fəaliyyət göstərirdi[3]. Rusiya, İran və Türkiyədəki ictimai-siyasi hadisələri ardıcıl izləyən və analitik münasibət göstərən bu partiya və təşkilatlar anarxist, monarxist, bolşevik, menşevik, esser, kadet və s. xəttihərəkatını yürütməklə yanaşı ölkənin iqtisadi və mədəni həyatı ilə yaxından maraqlanır, mövcud ictimai-siyasi şəraitdən faydalanmağı məqsədəuyğun sayırdılar. Bakı, Gəncə, Şəki, Şuşa, Naxçıvanda siyasi dayaqları güclü olan «Hümmət», «İctimaiyyun-amiyyun», «Mücahid», «İttifaq», «İttifaqi-müslimin», «Qeyrət», «Difai», «Müdafiə», «Müsavat», «Mücahid» kimi azərbaycanlıların yaratdıqları partiyalarla

[1] S.M.Əfəndiyev. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən. Bakı, 1957, s.12.
[2] «Vperyod» qəzeti 23 (10) mart 1905, №11.
[3] İ.S.Baqirova. Politiçeskie partii i orqanizaüii Azerbaydjana v naçale XX veka. Baku, «Glm», 1997, s.16.

yanaşı erməni, rus, yəhudi partiya və təşkilatları da fəaliyyət göstərirdi. Əsasən sosialist, liberal və milli orientasiya güdən bu partiyalar dövrün ictimai-siyasi mənzərəsini təhlil edir, mətbuatın roluna mühüm əhəmiyyət verir, öz ideyalarını yaratdıqları çoxsaylı mətbuat orqanları ilə xalqa çatdırmağa çalışırdılar. Dövrün ictimai-siyasi düşüncəsindən doğan ziddiyyətlər, təzadlar, məfkurə döyüşləri, ideya burulğanları, nəhayət ümumxalq arzuları mətbuat aləminin publisistik polemikalarında özünü göstərir, mövcud gerçəkliyin sosial-fəlsəfi dərkinə kömək edir, bədii yaradıcılıq axtarışına ciddi təkan verirdi.

1904-1905-ci illərdə Rus-yapon müharibəsində çarizmin uğursuzluğu dövlət idarəçiliyinə xalq inamını əsaslı şəkildə sarsıtdı və birinci xalq inqilabı olan 1905-1907-ci illər inqilabı «aşağı təbəqələri», Rusiyadakı bütün millətlərin milyonlarla fəhlə və kəndlilərini oyadıb fəal siyasi həyata cəlb etdi. İnqilabın əsas vəzifəsi çar mütləqiyyətini yıxmaqdan, təhkimçiliyin qalıqlarını məhv etməkdən və demokratik respublika qurmaqdan ibarət idi.

Burjua-demokratik mahiyyəti daşıyan bu inqilab Rusiyada yaşayan digər xalqlar kimi, azərbaycanlıların da tarixi müqəddəratında böyük dönüş əmələ gətirdi.

Çar mütləqiyyətinin nümayəndələri xalqın gözündən pərdə asmaq məqsədi güdən 17 Oktyabr manifestinin elan etdiyi yalançı azadlıqlar, bir-birindən uğursuz dövlət dumaları, müsəlmanlar, ermənilər, yəhudilər, polyaklar və s. millətlər arasında ədavət salmaq siyasəti, fəhlə hərəkatını zəiflədən opportunist təmayüllərə himayədarlıq və s.b.kimi hadisələr inqilaba ciddi ziyan vurmaqla bərabər, çar üsuli-idarəsinin və ona nökərçilik edən burjuaziyanın büsbütün ifşa və rüsvay olması ilə nəticələndi.

17 oktyabr manifestindən sonra erməni-müsəlman münaqişəsinin qızışdırıldığını görən və onun səbəblərini, mahiyyətini dərindən dərk edən Azərbaycan ziyalıları Şuşada

doktor K.Mehmandarovun evində millətsevər, azadlıqpərvər Ə.Ağaoğlunun rəhbərliyi ilə «Difai» partiyasını yaratdılar. 1906-cı ilin payızında yaradılan bu partiya «Daşnaksütyun» partiyasının qaragüruh erməni niyyətlərini dəf etmək məqsədilə yaradılsa da ölkədə ictimai-siyasi təfəkkürün formalaşması, dövrün sosial-fəlsəfi təzadlarının dərki, xüsusən də milli azadlıq hərəkatı, müstəqillik uğrunda mübarizə, çarizmdən xilas olma məsələlərini və s. başlıca vəzifələrdən sayırdı.

İnqilabi düşüncənin getdikcə genişlənməsindən qorxuya düşən çarizm 17 Oktyabr manifesti ilə söz, mətbuat, yığıncaq, ittifaq azadlıqları tətbiq edəcəyini və qanunverici duma çağıracağını vəd etdiyi zaman, rus kapitalistləri kimi, Azərbaycan burjuaziyası da bunu «hökmdar imperatorun lütfkarlıqla bəxş etdiyi konstitusiya»[1] adlandırmışdı.

Padşahpərəstlik mövqeyində dayanan xristian və islam ruhaniləri burjuaziya, onun «kadet» («Konstitusiyalı-demokratik partiya»), «Rus xalqı ittifaqı», «Yakor», «Müsəlmanlar ittifaqı» kimi təşkilat və partiyaları ilə bir mövqeyi qoruyurdular. Gəncə ruhanilərinin manifest münasibəti ilə məsciddə keçirdikləri dua-səna məclisində «müqəddəs ata»lardan biri demişdi ki, «azadlıq yaxşı şeydir və Qurana görə hamı azad olmalıdır», «çar isə Allah tərəfindən göndərilmişdir və bütün rəiyyətin atasıdır» (...), «şəriətə görə özündən böyüyün üzünə ağ olmaq (oxu.: zülm və əsarətə qarşı çıxmaq) olmaz, hamımızın güzəranını təmin edən böyük çar II Nikolayın üzünə ağ olmaq isə əsla yaramaz (...) biz, mömin müsəlmanlar çara dua edəcəyik».[2]

Azərbaycan və ümumqafqaz müsəlmanlarının mövqeyindən çıxış edən deputatlar – Ə.M.Topçubaşov, İ.Ziyadxanov, Ə.Haqverdiyev, Ə.Muradxanov, M.Əliyev, F.Xoyski,

[1] «Kaspi» qəzeti, oktyabr 1905.

[2] Рагим Гусейнов. Очерки революционного движения в Азербайджане. Вп.1. Революсия, 1905-1907 гг. Баку, 1926.

M.Mahmudov, X.Xasməmmədov, M.A.Şahtaxtinski, Z.Zeynalov, M.Y.Cəfərov və başqaları Ümumrusiya siyasi partiyalarının fəaliyyətini yaxından izləyir, Rusiya Dövlət Dumasının Tavriya sarayında keçirilən iclaslarında fəal iştirak edir, bu və ya digər deputat fraksiyalarının mövqeyini təhlil edir, Azərbaycan, Qafqaz, Rusiya müsəlmanları ilə bağlı məsələlərin müzakirəsi və həllini mühüm vəzifə sayırdılar.

1909-cu ildə yaradılmış «İttifaqi-müslimin partiyası» Rusiyada yaşayan türk-islam xalqlarının iqtisadi-siyasi suverenliyi uğrunda mübarizəni məqsəd seçir, onların mədəni-mənəvi və təşkilat birliyini irəli sürürdü. İ.Qaspıralı, Y.Akçura, S.Məqsud, S.C.Canturin, Ə.R.İbrahimov, İ.Bəyazitov, K.Tevkelov ilə birgə Azərbaycan ziyalıları, xüsusən də Ə.Topaçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə və başqaları partiyanın fəaliyyətini, siyasi-ideoloji və təşkilati işini yürüdənlər sırasında idilər.

Az.f 336486

1905-1906-cı illərdə «Müsəlman Xeyriyyə Cəmiyyəti», «Nəşri-maarif», «Nicat», «Səadət», «Səfa» mədəni-maarif cəmiyyətlərinin yaradılması da həmin məqsədləri güdür, xalq mənafeyinin, demokratik prinsiplərin, ədəbi-mədəni dəyərlərin qorunmasını başlıca məqsəd bilirdi.

Azərbaycan bolşeviklçəri, inqilabçı-demokratları və ümumiyyətlə tərəqqipərvər ziyalıları kütlələrə mətbuat və ədəbiyyatın dili ilə aydın izah edirdilər ki, hökumətin elan etdiyi «azadlıqlar» da, vəd etdiyi qanunverici duma da büsbütün saxta, yalançı mahiyyətdədir, çarizm bu yolla xalqın inqilabi əzmini qırmaq, vaxt qazanıb qüvvələrini toplamaq və azadlıq hərəkatını boğmaq üçün yenidən hücuma keçmək kimi hiyləgərlik məqsədləri güdür. Azərbaycan inqilabi-demokratiyasının orqanı, məşhur «Molla Nəsrəddin» (1906-1931) jurnalı milli burjuaziyanın çarizmə bağlılığını ifşa edən satirik rəsmində «general Tağıyev»in dilindən yazmışdı: «Mən cəmi müsəlmanların tərəfindən canişin həzrətlərinə

Azərbaycan milli kitabxanası

ərz edirəm ki, biz müsəlmanlar canımızı və malımızı hökumətin yolunda fəda etməyə hazırıq»[1]. N.Nərimanov kütlələrin guya dinc yolla, «Rusiya parlamenti» vasitəsilə öz tələblərinə nail olacağı barədə vədlərin boş xülyadan başqa bir şey olmadığını göstərirdi. O yazırdı ki, hökumət bir yandan Dumaya hazırlaşır, «hürriyyət aləmindən dəm vurursa», o biri yandan mütərəqqi qəzetləri bağlayır, inqilabçılara amansızcasına divan tutur. Odur ki, artıq «yetər aldanmaq. Yetər bu qədər tökülən qanlar. Bəsdir vətənin həqiqi xeyirxahları ilə, hürriyyətin səmimi mücahidləri ilə qazamatları doldurmaq. Bəsdir aclığa davam etmək. Bəsdir milçək olub, hörümçəklərə yem olmaq».[2] Çarizmin hiylələrinə aldanmayıb, qəti vuruşlara başlamağı məsləhət görən N.Nərimanov alovlu bir dillə deyirdi: «...davasız vətən yüz illərlə bəslədiyi məqsuduna çatmyacaqdır... Yüz illərlə can çəkişdirib, axırda yenə də ixtiyarsız qul olmaqdansa, məhv və nabud olmaq, can verib getmək, lakin hürriyyət və bərabərlik yolu kimi şanlı, müqəddəs bir yolda ölmək, şəhid olmaq, əlbəttə, daha məsləhətdir. Ya hürr yaşamalı, ya hürriyyət yolunda getməli! Yoxsa bu yaşayış yaşayış deyildir!».[3]

Dövrün inqilabi hərəkatının genişlənməsində, kütlələrin siyasi, sinfi şüurunun qüvvətlənməsində milli demokratik və bolşevik mətbuatı böyük iş görürdü. Bakıda Azərbaycan, rus, erməni və başqa dillərdə bir sıra bolşevik qəzetləri, habelə çoxlu inqilabi vərəqə, intibahnamə çap olunurdu. RSDFP Bakı Komitəsinin nəşrləri Azərbaycan şəhər və kəndləri ilə bərabər, Orta Asiya və Şimali Qafqaza da göndərilirdi; bu nəşrlər Peterburqa, Ukraynaya, Həştərxana, Kazana və başqa yerlərə də gedib çıxırdı.

[1] «Molla Nəsrəddin»,, 31 mart 1907, №13.
[2] «Həyat» qəzeti, 9 may 1906, №100.
[3] N.Nərimanov. Bu yaşayış yaşayışmı? «Həyat» qəzeti, 21 iyun 1906, №134.

Bolşeviklər Bakı fəhlələrini silahlı üsyana hazırlayırdılar. 1906-cı ilin yazında M.Əzizbəyovun başçılığı ilə «Bayrağı-nüsrət» («Qələbə bayrağı») adlı döyüş drujinası təşkil olunmuşdu, fəhlələrə hərbi iş öyrədilirdi, silah əldə etmək üçün tədbirlər görülürdü.

Menşeviklərin, eserlərin və başqa opportunist, pozucu ünsürlərin xəyanəti nəticəsində silahlı üsyan baş tutmasa da, Bakı proletariatının fəaliyyəti Rusiya mətbuatı tərəfindən təqdir olunurdu. Bakı məşhur inqilab mərkəzlərindən biri idi.

Rusiyanı xalqlar həbsxanasına çevirən çar mütləqiyyəti qeyri-rus xalqlara qarşı xüsusilə amansız təzyiq və əsarət siyasəti yeridirdi. «Parçala və hökmranlıq et!» prinsipinə müvafiq olaraq, çarizm xalqlar arasına ədavət salır, millətlərarası çəkişmələr törədir və bütün bunlardan çoxmillətli proletariatın azadlıq hərəkatının qarşısını almaqla istifadə edirdi. V.İ.Lenin yazırdı: «Çar monarxiyasında millətlər üçün azadlıq və hüquq bərabərliyi ola bilməz».[1]

Azərbaycan bolşeviklərinin fəaliyyətində başlıca xətlərdən biri zəhmətkeşlərin, fəruqərayi-kasibənin proletar beynəlmiləlçiliyi ruhunda tərbiyələndirilməsi, Lenin «milli siyasətinin» dönmədən həyata keçirilməsi idi. Azərbaycan, rus, gürcü, erməni, latış, ləzgi və digər xalqların əməkçilərindən ibarət çoxmillətli Bakı proletariatı beynəlmiləl azadlıq bayrağı altında toplaşaraq Bakını xalqlar dostluğunun sarsılmaz qalalarından birinə çevirmişdilər. Bu tarixi qələbədə inqilabçı və tərəqqipərvər ziyalılar – N.Nərimanov, S.Musəvi, C.Məmmədquluzadə, M.Ə.Sabir, S.M.Əfəndiyev beynəlmiləlçiliyə səsləyən alovlu bədii-publisist sözləri ilə yaxından iştirak edirdilər. Bolşevik qəzeti «Dəvət» xalqı beynəlmiləl inqilab bayrağı altında mübarizəyə ruhlandıraraq yazırdı ki,

[1] V.İ.Lenin. Əsərləri, 19-cu cild, Bakı, 1951, s.250.

onun nicatı və səadəti bütün Rusiya proletariatı ilə birlikdədir, rus proletariatı ilə həmrəylik və ittifaqdadır.[1]

Azərbaycan milli burjuaziyası, mülkədarlar və onların ideoloqları arasındakı müxalifətçi hərəkat liberal mahiyyətdə olub, dinc islahatçılıq – reformizm səciyyəsi daşıyırdı. Rus burjuaziyası kimi, Azərbaycan burjuaziyası da çarizmin yıxılmasını istəmirdi. Kapitalist Bakısının sənaye, ticarət, gəmiçilik sahələrində ağalıq edən rus, erməni, ingilis, alman və s. millətlərin burjuaziyası da inqilaba düşmən idi. Bolşeviklərin silahlı üsyana çağırdıqları inqilabçı kütlələr arasında marksizm-leninizm ideyalarını təsdiq edib yaydıqları bir zamanda onlar burjua-millətçi və reformist ideyalara rəvac verirdilər. Burjua ideoloqları marksizmdən «taun»dan qorxduqları kimi qorxur, onun əleyhinə sistemli siyasi mübarizə aparırdılar; siniflər, sinfi mübarizə və sosial inqilablar haqqında marksizm nəzəriyyəsinə qarşı hücuma başlamışdılar. Fəlsəfi idealizm, pozitivizm, buddizm və s. nəzəriyyələrin təbliği dəb halını almışdı. Azərbaycan ziyalılarının tanınmış nümayəndəsi Ə.Hüseynzadə həmvətənlərinin aqibəti üçün təşviş keçirərək sosialist inqilabını «qırmızı qaranlıq» adlandırır, köhnə dünyanı uçurmaq üçün bomba və dinamitdən istifadə edənlərə, terror alovunu yayanlara qarşı çıxır, «milli sülh»ə, sinfi barışığa çağırırdı. Digər burjua ideoloqu modernist – islamçı filosof, təkamülçülüyün tərəfdarı Ə.Ağayev sosializmə, kommunizmə, fəlsəfi materializmə qarşı ardıcıl hücum edir, barışmaz mübarizə aparırdı.

Milli hərəkatdakı bu təmayül «Molla Nəsrəddin» tərəfindən «Bakı padşahı» adlandırılan H.Z.Tağıyevin başçılıq etdiyi Azərbaycan burjuaziyası, liberial mülkədarların və ruhanilərin nümayəndələrinin 1905-ci ilin aprelində Qafqaz canişini qraf Voronsov – Doşkova və nazirlər Şurasının sədri Vitteyə göndərdikləri ərzi-halda özünün qabarıq ifadəsini tapmışdı. Ə. Topçubaşov, Ə.Ağayev, Ş.Əsədullayev, Ə.Zi-

[1] «Dəvət-Qoç» qəzeti, 20 iyul 1903, №14.

yadxanov və başqalarının imzaladıqları bu ərzi – halda Azərbaycan burjiyası və liberal mülkədarları Azərbaycan kapitalistləri və bəylərinin hüquqca rus kapitalistləri və mülkədarları ilə bərabərləşdirilməsi, Qafqazda zemstvo idarələri və məhkəmə iclasçıları institutunun tətbiq olunması, müsəlmanların Qafqaz ölkəsinin bütün idarələrinə azad surətdə dövlət qulluğuna qəbul edilməsi, xanlar və bəylərin dvoryan hüququ haqqındakı məsələnin həll edilməsi, xüsusən onlara Rusiyanın daxili quberniyaları tipində dvoryan təşkilatları yaratmaq imkanı verilməsi və s. haqqında tələblər irəli sürmüşdülər.

Çar mütləqiyyəti nəinki belə tələblərə əməl etdi, əksinə 1907-ci il iyunun 3-də II Dövlət dumasını qovduqdan sonra bütün Rusiyada və onun ucqarlarında dəhşətli irtica tdbirləri həyata keçirdi. Kapitalistlər və mülkədarların, polis və xəfiyyələrin özbaşınalığı, kütləvi təqiblər, həbslər, axtarışlar getdikcə şiddətlənməkdə idi. Rusiyanın baş naziri Stolıpinin əmrilə bütün ölkədə dar ağacları qurulmuşdu. Xalq bunlara istehza ilə «Stolıpin qalstukları» adı vermişdi.

Digər ərazilə nisbətən Azərbaycanda irtica bir qədər gec başlansa da, 1908-ci idən sonra bütün başqa yerlər kimi, burada da göy üzündə «qara buludlar oynaşmağa» (Sabir) başladı. İrtica mədəniyyət sahəsində də hücuma keçdi. Mütərəddid xırda burjua ziyalıları mühitinə böyük çaxnaşma düşdü. Bu ziyalıların bir qismi dönüklük edib açıqdan-açığa irticanın qoynuna atıldı. Burjua ideoloqları əksinqilabi təbliğatlarını daha da gücləndirdilər.

Qabaqcıl Azərbaycan ziyalıları arasında böyük ideya-tərbiyəvi və təşviqat işi aparan hümmətçilər onlarla maarif, xeyriyyə cəmiyyətləri, mətbuat və s. vasitəsilə sıx əlaqə saxlayır, inqilabi təsir göstərirdilər. Təsadüfi deyil ki, mütərəqqi ədəbi-ictimai fikir irtica illərində də mübariz, demokratik istiqamətdə inkişaf edirdi.

İrtica dövrünün bütün ağırlığına baxmayaraq, Azərbaycan çar Rusiyasındakı proletariat inqilabi mübarizəsinin ön cərgəsində gedirdi. Çox səciyyəvidir ki, 1908-ci ildə, demək olar, bütün Rusiyada tətilçilərin sayı kəskin surətdə azaldığı bir zamanda, Bakıda tətilçilərin sayı təxminən 1907-ci il səviyyəsində qalmışdı. O zaman Peterburqda 17,4 min fəhlə, Moskvada 10, 9 min fəhlə tətil etdiyi halda, Bakıda tətilçilərin sayı 47 min nəfərə çatırdı. Sosializm uğrunda mübarizənin rəhbəri və baş ideoloqu V.İ.Lenin Bakı proletariatının fəallığını qiymətləndirərək yazırdı: «1908-ci ildə tətilçilərin sayı çox olan quberniyaların birincisi... 47 min tətilçisi olan Bakı quberniyasıdır. Kütləvi siyasi tətilin sonuncu mogikanları!»[1]

Süquta uğrayan 1905-1907-ci illər inqilabının çox ciddi tarixi əhəmiyyəti oldu. O, çarizmə, mülkədarların və kapitalistlərin hakimiyyətinə güclü zərbə endirdi və imperiyanın dağılması ehtimalını gücləndirdi. Buna görə də Böyük Oktyabr sosialist inqilabının «baş məşqi» (V.İ.Lenin) adlandırılan həmin illərin siyasi təcrübəsi dövrün ədəbi-mədəni həyatına yeni ideyaların gətirilməsinə təsir göstərdi.

Birinci rus inqilabı dünya fəhlə hərəkatının inkişafına qüdrətli təsir göstərdi. O, Şərq ölkələrində milli azadlıq hərəkatının genişlənməsinə və qüvvətlənməsinə, ədəbiyyat, sənət və mədəniyyətdə yeni təfəkkür tərzinin və məktəblərin yaranmasında da güclü təkan verdi. Demokratik inqilab bütün Asiyanı bürüdü. Bu tarixi hadisənin ən parlaq təzahürü 1905-1911-ci illərin İran inqilabı idi.

Azərbaycan ictimai-siyasi fikrini, elm, maarif, mətbuat və ədəbiyyatını təmsil edən ziyalılar İran hadisələrini diqqətlə izləyir, ümumxalq taleyini əks etdirən inqilabi-demokratik mübarizəni alqışlayırdılar. «Molla Nəsrəddin» və «Füyuzat» jurnalının redaksiyaları ətrafında birləşən satirik və romantik ədiblərin, habelə müxtəlif siyasi partiya, xeyriyyə cəmiy-

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 19-cu cild, s.423.

yətləri, teatr truppalarında birləşən ziyalılar Cənubi Azərbaycandakı hadisələri insanlıq naminə, qanun, haqq və hüquq uğrunda atılan addımlar kimi qiymətləndirirdilər. Bu dövrdə həmin mövzuda yazılan bədii əsər, məqalələr, nəşr edilən kitabların əksəriyyəti bütöv Azərbaycan idealının formalaşdığını təsdiq edən diqqətəlayiq yaradıcılıq nümunələridir. Ə.Ağaoğlu, M.Şahtaxtlı, Ə.Hüseynzadə, M.Ə.Sabir, C.Məmmədquluzadə, N.Nəimanov, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, S.Səlmasi, M.Möcüz, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, M.Hadi, Ə.Müznib kimi onlarla publisist, dramaturq, şair və nasirin çoxçeşidli əsərləri deyilənləri təsdiq edən nümunələrdir. M.Ə.Rəsulzadənin «İran məktubları» silsilə məqalələri, «İran türkləri» əsəri buna parlaq sübutdur. Müasirlərinin mövqeyini ifadə edən M.Ə.Rəsulzadə «İran inqilabı» məqaləsində yazırdı: «İranda həyat ölüb», «İran nizam və qanuna müstəid deyil», «İran ölmüş», «İran viran olmuş» kimi sözlər bu axır vaxtda adi bir sözlərdən olub, aramızda mütədavildir... Hər kəs «İran» dedikdə «viran» sözünü aşkar əlavə etməsə də ürəyindən keçiriyor... Neçə vaxt bundan ileri hürriyyət gününün Tülu İran üfüqündən görcəyin, «İrana hürriyyət» - deyə bir bənd yazdıq. Şükr Allaha ki, İran hürriyyətpərvərləri bizi allatmadılar, indi də «İranda inqilab» deyə yazmağa səbəb oldular. İnşallah vaxt gələr «İranda qanuni-əsası» namində bir bənd yazmağa dəxi müvəffəq olarız. Ürəyimizdə bəslədiyimiz arzu iştə bu... Yaşasın İran hürriyyətpərvərləri!» [1]

İran inqilabında Cənubi Azərbaycan xalqı müstəsna qəhrəmanlıq göstərirdi. Xalqın «Sərdari-milli» adı verdiyi məşhur sərkərdə Səttarxanın rəhbərliyi ilə inqilabçılar bir tərəfdən köhnəlmiş Qacar mütləqiyyətinə, daxili irticaya, fars millətçiliyinə, o biri tərəfdən də müdaxiləçi Qərb imperializ-

[1] M.Ə.Rəsulzadə. İranda inqilab. «İrşad» qəzeti, 21 iyun 1906-cı il, №145.

minə və rus çarizminə qarşı vuruşurdu. Xalq demokratik üsuli-idarə, məşrutə tələb edirdi.

Stolıpin irticasının bütün imperiya hüdudlarında, o cümlədən Qafqazda və Azərbaycanda tüğyan etməsi inqilabi-demokratik düşüncənin daha da alovlanmasına səbəb olur, müstəmləkəçilik əleyhinə mübarizənin güclənməsinə, ictimai-siyasi şəraitin gərginləşməsinə təsir göstərirdi. İrtica, senzura nəzarəti, polis təzyiqi, terror, təqib, həbs və sürgünlər artır, ədəbiyyat və mətbuat orqanları sıxışdırılır, imperiyanın islahatlar – reforma haqqında bəyanatının (17 oktyabr manifestinin) doğurduğu yüksək əhval-ruhiyyə, coşğunluq hissləri səngiyir, ziyalılarda yaranan nikbinlik, inam hissləri qırılır, bədii düşüncədə «inkisari-xəyal» (M.Hadi) yaranır, xəyallarda yaranan xoşbəxt gələcək mənzərələrinin yerini tənqidi realist və neoromantik bədii estetikanın doğurduğu obrazlar, mövzular, yeni məzmun həqiqətləri, psixoloji təzadların yaratdığı kontrastı cəmiyyət və ziddiyyətli düşüncə lövhələri tuturdu. Stolıpin irticasından sonra Əhməd bəy Ağaoğlu və Əibəy Hüseynzadənin Türkiyəyə, Məhəmməd Əmin Rəsulzadənin İrana mühacirətlə, Əliabbas Müznibin Sibirə sürgünü, Əlipaşa Səburun həbsi və bu qəbildən onlarla adamın müxtəlif formada təzyiqlərə məruz qalması Azərbaycanda inqilabi-siyasi gərginliyi azaltmır, ədəbi-bədii axtarışları zəiflətmir, əksinə yeni və güclü dalğa yaradır, ümumxalq təfəkkürünü təzələyirdi.

1912-ci ildəki məşhur Lena hadisələri, mövcud hakimiyyətə etiraz edən xalq kütlələrinin gülləbaranı, 1914-cü ildən I cahan savaşının başlanması çarizmi zəiflətdi və millətlərin öz müqəddəratını təyin etmə hüququ uğrunda mübarizəsi gücləndirildi.

1917-ci il fevralın 27-də Petroqrada fəhlə və əsgərlərin silahlı üsyanının qələbəsi nəticəsində çar mütləqiyyəti devrildi. Burjua-demokratik inqilabının qələbəsindən az sonra bütün ölkədə, o cümlədən Azərbaycanda da Sovetlər yarandı.

Lakin menşevik və eserlərin uğurlu və təsirli işi, Rusiyada millətçi-burjua baxışlarının hələ güclü olması xalqçı və millətçi partiyaların fəallığı və s. nəticəsində ölkədə ikihakimiyyətlilik əmələ gəldi. Sovetlərdə menşeviklər üstünlük təşkil etdilər. Proletar düşüncəsinin qalib gəlməsi zəhmətkeşlərin həqiqi azadlığa çıxarması üçün, sosialist inqilabının hazırlanması və qələbəsini təmin etmək üçün hələ çox böyük ciddi, gərgin iş tələb olunurdu.

1917-ci ilin aprelində V.İ.Lenin burjua-demokratik inqilabdan sosialist inqilabına keçməyin aydın proqramını hazırlayıb «Bütün hakimiyyət Sovetlərə!» şüarını irəli sürdü. Xalq kütlələrini qələbəyə doğru aparan bolşeviklər partiyası öz fəaliyyətini gündən-günə genişləndirərək, böyük səfərbəredici iş gördü. Azərbaycan bolşevikləri şəhər və kəndlərdə müvəqqəti hökumətin və onun yerli orqanlarının siyasətinə qarşı təbliğat aparır, zəhmətkeşləri bolşevik partiyası ətrafında sıx birləşməyə, sosialist cəmiyyəti uğrunda qəti mübarizəyə çağırırdılar.

Cənubi Azərbaycandan gəlmiş fəhlələr arasında inqilabi təşviqat və təbliğata xüsusi fikir verilirdi. Bakı Partiya komitəsinin tapşırığı ilə bu işi onların Bakıda təşkil olunmuş «Ədalət» təşkilatı, B.Ağayev, K.Ağazadə və başqaları aparırdı. Bu sahədə inqilabi təbliğatda «Molla Nəsrəddin» jurnalının da böyük xidməti vardı. 1917-ci ilin may yayında onun İran və Cənubi Azərbaycan xalqına müraciətlə çap etdiyi inqilabi intibahnamə ümumiyyətlə Azərbaycan zəhmətkeşlərini mübarizəyə ruhlandıran alovlu bir çağırış idi: «Qalxın! Qiyam edin!... Sübhi-sadiq açıldı, müəzzin təkbir çəkir... Eşitmirsiniz məgər?... Bəs qəsb olunan hüququnuzu nə vaxt alacaqsınız? İrəli, qardaşlar, irəli! Qanun, ədalət qabağında səf bağlayın!»[1]

1917-ci ilin oktyabrın 25-də (noyabrın 7-də) Çar Rusiyası ərazisində və bəşəriyyət tarixində misilsiz bir dönüş ya-

[1] «Molla Nəsrəddin» jurnalı, 12 may 1917, №12.

radan Böyük Oktyabr sosialist inqilabı qələbə çaldı. Burjua müvəqqəti hökuməti devrildi. Həmin günlərdə N.Nərimanov Oktyabr inqilabının dünya əhəmiyyətini izah edərək yazmışdı: «...Rusiya inqilabı bütün cahan tarixinin təzə, mühüm və gözəl bir səhifəsinin açılmasına səbəb olur... Bizim idealımız, sosializm idealı daha bir xəyal deyildir...»[1]

Rus proletariatının qələbəsi, dünyanın bir çox regionları və ölkələri kimi, Cənubi Azərbaycanda da milli-azadlıq hərəkatına qüvvətli təkan verdi. İran demokratik firqəsinin və onun rəhbəri Şeyx Məhəmməd Xiyabaninin (1880-1921) başçılığı ilə burada demokratik hərəkat yenidən alovlandı. Demokrat firqəsinin orqanı «Təcəddüd» qəzeti «Azərbaycan» sərlövhəli məqaləsində xalqı istibdad əleyhinə fədakar mübarizəyə çağıraraq yazmışdı: «...qırğınlar, soyqunlar, zülm və işgəncələr Azərbaycandakı istiqlaliyyət hərəkatını və azadlıq qələbələrini məhv edə bilməyəcəkdir... Ey qeyrətli Azərbaycan!.. Ey azadlığın qorxu bilməyən qəhrəmanları! Ey təriflərə ehtiyacı olmayan Azərbaycan!.. İstibdad əleyhinə qiyam, əcnəbi istilasına qarşı müqavimət, pozğun ünsürlərlə mübarizə, şücaət və qeyrət (...) tələb olunur...».[2] Dövrün ictimai-siyasi ideyalar burulğanı hər gün yeni hadisələr doğurması ilə səciyyələnir, onun ziddiyyətləri ədəbi-bədii fikirdə əks olunur, milli ədəbi hərəkatın sosial-fəlsəfi fikir yükünü zənginləşdirir, xalq, dövlət, vətən taleyinə bağlı düşüncələrə geniş meydan açılırdı. Bu mənada XX əsrin əvvəllərindən 1917-ci ilə qədərki dövrdə ideya-siyasi keyfiyyət tutumu və bədii sənətkarlıq yenilikləri ilə xüsusi mərhələ təşkil edən Azərbaycan ədəbiyyatının ənənələri 1917-1920-ci illərdə uğurla davam etdirildi və Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji kursu, siyasi platforması formalaşdırıldı, ümumxalq ədəbi-mədəni intibahının istiqamət və inkişaf

[1] «Hümmət» qəzeti, 21 noyabr 1917, №20.
[2] Sitat Q.Məmmədlinin «Xiyabani» (Bakı, 1949) kitabından gətirilir, s.38, 41.

prinsipləri müəyyənləşdirildi, ədəbiyyat milli vətəndaşlıq kodeksinin əxlaq normalarını yaratmaqda həlledici rol oynaya bildi.

***

XIX əsr boyunca dünyada inkişaf edən inqilabi-demokratik fikir ayrı-ayrı xalqların ədəbi-bədii düşüncəsində də parlaq şəkildə ifadə olunur, siyasi və ideoloji prinsiplər ədəbi hərəkatda istiqamətverici rol oynayır, bir çox ölkələrdə olduğu kimi, çar Rusiyasında da monarxizmdən demokratik dövlət tipinə keçməyin ilkin şərtlərini hazırlayırdı. Rusiya, İran və Türkiyədə ənənəsi inkişaf etdirilən Avropa inqilablarının təcrübəsi Qafqaza, o cümlədən də Azərbaycana gətirilir, ictimai-siyasi inqilablar, ədəbi-mədəni reformalar dövrünün hüdudları müəyyənləşdirilirdi. Dövrün ictimai-siyasi və fəlsəfi düşüncəsindəki uğurlu və uğursuz modernist axtarışlar, xüsusilə din təməlçiliyi – fundamentalizm, sosializm ideyaları, türkçülük, inqilabi-demokratik prinsiplər, islamçılıq, turançılıq, avropaçılıq – qərbçilik, habelə digər çoxsaylı kosmopolitik və mühafizəkar ideyalar da ədəbiyyata nüfuz edir, müxtəlif ədəbi janr nümunələrində ideya-bədii yön yaradır, milli ədəbi hərəkatın kolorit – zənginldiyini, rəngarəngliyini təmin edirdi. Bu təzadlı hal çar Rusiyasının milliyyətçi hakim dairələri ilə azadlıq uğrunda mübarizə aparanların ideya-siyasi qarşıdurmasında daha aydın şəkildə görünürdü.

Şovinist çar məmurları «özgələr» adlandırdıqları qeyri-rus xalqların mədəni tərəqqisinə mane olmaq üçün heç bir çirkin üsul və vasitədən çəkinmirdilər. Rus xalqının ən yaxşı oğullarını – inqilabçıları, tərəqqi və azadlıq uğrunda digər mübarizləri edam edən, sürgünlərə göndərən, hər cür hüquqdan məhrum edən bu qaragüruhçu hakimlər «ucqar»ların tərəqqipərvər xadimlərinə, qabaqcıl ziyalılarına, mübariz, demokrat adamlarına qarşı daha qəddar idilər. Vaxtilə uzun

illər A.Bakıxanov və M.F.Axundovun bilik, istedad və nüfuzundan öz xeyrinə istifadə edib, axırda onları «siyasi cəhətdən etibarsız adam» kimi sıxma-boğmaya salıb incidən çarizm yeni dövrdə də H.Zərdabi, E.Sultanov, C.Məmmədquluzadə, N.Nərimanov və başqa Azərbaycan ziyalılarını inqilabi görüşlərinə, mütərəqqi fəaliyyətlərinə, həqiqətpərəst əsərlərinə görə təqib edir, təzyiq altında saxlayır, həbs və sürgün edirdi.

Birinci rus inqilabı Azərbaycanın tərəqqipərvər ziyalılarını çarizmə qarşı daha artıq əzmlə mübarizə aparmağı öyrətdi. 1905-ci idən sonra ideoloji həyatın, demək olar, bütün sahələrində nəzərə çarpan ən mütərəqqi, işıqlı cəhət onların hər birinin öz daxili imkanları səviyyəsində inqilabiləşməsi, proletar ideologiyası ilə təmasa girişməsi, milli düşüncə və dövlətçilik yürütməsi, getdikcə daha çox demokratikləşməsi idi.

Bu proses ədəbiyyat, mətbuat və ictimai-fəlsəfi fikirdə xüsusilə qüvvətli, intensiv gedirdi və mədəni mühitin özəlliklərini müəyyənləşdirirdi. Bilavasitə konkret tarixi şəraitin, inqilabi varlığın təsiri ilə bağlı olan həmin proses üçün birinci dərəcəli ideoloji amil isə ildən-ilə geniş yayılan müstəmləkəçilikdən qurtuluş, milli azadlıq hərəkatı, marksizm-leninizm ideyaları, elmi kommunizm nəzəriyyəsi, suveren dövlət arzuları idi. Məhz cəmiyyətin bazis və üstqurumundakı inqilabi keyfiyyətlərin qanunauyğun səmərəsi olaraq Azərbaycan ədəbiyyatında nəsrdə, dramaturgiyada, poeziyada, bədii və siyasi publisistikada S.M.Qənizadə, E.Sultanov, M.Şahtaxtlı, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Sabir, M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət, N.Nərimanov, C.Məmmədquluzadə, C.Pişəvəri, S.Musəvi kimi erkən proletar, mili sosialist və inqilabçı demokrat yazıçıları yetişmişdi.

XX əsrin əvvəllərində «Hümmət» təşkilatının N.Nərimanov, M.Əzizbəyov, S.Əfəndiyev, Süleyman Mehmandarov, Ə.Yüzbaşov, İran kommunist firqəsinin M.Pişvəri,

Ə.Qafarzadə kimi görkəmli xadimlərinin mollanəsrəddinçi və digər qabaqcıl yazıçılarla şəxsi dostluq münasibətləri ideoloji baxımdan çox faydalı idi. Dövrün bolşevik mətbuatı səhifələrində M.Qorki, M.Ə.Sabir kimi inqilabçı yazıçıların və satiriklərin, romantik şair M.Hadinin əsərləri tez-tez çap olunurdu.

Məlumdur ki, orta əsrlərdə feodalizmin əsas savadlı təbəqəsi din xadimlərindən ibarət idi. Bu, XIX əsrə qədərki Azərbaycanda da belə idi. Yeni dövrdə vəziyyət dəyişdi, ziyalıların müxtəlif sinfi simalı, müxtəlif profilli yeni, böyük ordusu yarandı. Peşə və ixtisasca onların sıralarına yazıçılar, alimlər, mühəndislər, həkimlər, müəllimlər, jurnalistlər, artistlər, müsəlman üləması, ali məktəb, gimnaziya, seminariya tələbələri, hərbi xadimlər və başqaları daxil idilər.

Bəzi mədəni-maarif ocaqları, xüsusən möhkəm tellərlə doğma Azərbaycana bağlı olan «Molla Nəsrəddin» redaksiyası istisna edilərsə, Azərbaycan mədəniyyətinin əsas sahələri Bakıda mərkəzləşdiyinə görə görkəmli ziyalıların da çoxu Bakıda yaşayır və işləyirdi.

Ziyalılar mühitində heç bir zaman bu dövrdəki qədər sosial və yaradıcılıq fəallığı olmamışdı. Xalq kütlələrində maarif və elmə, ədəbiyyat və incəsənətə görülməmiş həvəs oyanmışdı. «Ayağı çarıqlı»lar nəinki yalnız özünün bərabərlik, «Hürriyyət payını» istəyirdi, fəhlələr nəinki yalnız «hüquq üstə» mübarizəyə başlamışdı, yoxsul kəndli nəinki yalnız mülkədar zülmündən fəryad eləyirdi, onların bir çoxu, eyni zamanda, yeni əsrə görə mənəvi qida almaq zərurətini başa düşüb, kitab, qəzet, jurnal oxumaq, uşaqlarını məktəbə qoymaq, «tamaşaxana»lara getmək barədə düşünməyə başlamışdı. Sabirin məşhur «Əhvalpürsanlıq» şeirində göstərildiyi kimi, artıq indi, tək-tək də olsa, «dam-daşını satıb» oğlunu «ənversetə qoyan»[1] azərbaycanlı atalar tapılırdı. Amma xalqın mədəniyyətə marağı ilə hökumətin bu iş üçün

[1] M.Ə.Sabir. Hophopnamə. Üç cilddə, 2-ci cild, s.23.

ayırdığı az vəsait, maarifə həvəsin artması ilə ona göstərilən diqqət arasındakı kəskin fərq getdikcə daha qabarıq şəkildə nəzərə çarpırdı.

Bakıda və bəzi başqa şəhərlərdə qabaqcıl ziyalıların təşkil etdikləri xeyriyyə cəmiyyətləri (onların bir çoxunun məktəb, teatr, nəşriyyat bölmələri vardı), habelə inqilabçı xadimlərin yaxından köməyi ilə yaradılan xalq evləri, «N.Nərimanov kitabxanası», xalq universitetləri və s. mədəni tələbi ancaq minimum dərəcədə ödəyə bilirdi. Eyni zamanda «Xeyriyyə cəmiyyəti», «Nicat», «Səfa» kimi cəmiyyətlərdə ayrı-ayrı vaxtlarda milli təəssübü ilə seçilən zialıların fəal iştirakı, ədəbi-mədəni tədbirlərin keçirilməsi həmin təşəbbüslərin faydasını xeyli artırırdı.

İnqilabçı-demokratik qüvvələrin fəal iştirak etdikləri mədəni ocaqlarda, xüsusilə, 1909-cu ildə yaradılmış «Qüvvə birlikdədir» adlı bolşevik klubunda (bu klubun Balaxanı, Suraxanı, Qaraşəhər və Bibiheybətdə şöbələri vardı), Sabunçudakı «Nur» kitabxanasında kütləvi izahat işləri aparır, habelə Bakı şəhərinin müxtəlif yerlərində teatr tamaşaları və konsertlər təşkil edir, ədəbi gecələr keçirirdilər. Belə tədbirlərdə S.Şaumyan, N.Nərimanov, Ə.Əzizbəyov, Ə.Axundov, İ.Anakşin kimi bolşevik xadimlərlə birlikdə M.Ə.Sabir, H.Ərəblinski, H.Sarabski, Ə.Haqverdiyev, M.Əliyev, H.Abbasov və s. yazıçılar, artistlər də fəallıq göstərirdilər. Bir müddət M.Əzizbəyovun sədr müavini olduğu «Nicat» cəmiyyəti kütlələrlə əlaqə yaratmaqda və onların sosialist inqilabı ruhunda tərbiyəsinə, maariflənməsinə yardım göstərməkdə xüsusi seçildiyinə görə çar polisinin diqqətini cəlb edib, nəzarət altına alınmışdı.

Bakıda yerləşən mətbəə-nəşriyyatlar, qəzet-jurnal redaksiyaları, kağız anbarları, kitab mağazaları, habelə teatrlar və digər mədəni-maarif müəssisələri əsasən ayrı-ayrı sahibkarların, özü maarifpərvər olan, yaxud mədəniyyət hamisi kimi tanınan varlı sinif nümayəndələrinin əlində idi.

Teatr Mayılovun, ən böyük mətbəələr, o cümlədən, «Kaspi» bu milyonçulardan birincisinin, H.Z.Tağıyevin, sonralar İ.Aşurbəyovun), «Təzə həyat» (sonralar «Səda») mətbəəsi – H.Vəzirovun xüsusi mükiyyəti idi. Mətbəələrin 60-dan çoxu rus kapitalı nümayəndələrinə (Polyanski, Şneyderov və b.) məxsus idi.

Bu vəziyyət demokratik ziyalıların işini olduqca ağırlaşdırıb çox vaxt əl-qollarını bağlayır, ya da onları böyük fədakarlıqlara vadar edirdi. Həmin ziyalıların çoxunun onsuz da ağır maddi ehtiyac içində yaşadığı nəzərə alınarsa, şəraitin gərginliyi daha da aydınlaşmış olar. M.Ə.Sabirin «Hophopnamə», C.Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları», F.Köçərlinin «Azərbaycan ədəbiyyatı» və s. çox qiymətli əsərlərinin uzun zaman əlyazması halında qalıb çap olunmaması, H.Ərəblinski, Ü.Hacıbəyov və başqa sənətkarların öz fəaliyyətlərində cürbəcür maniələrə rast gəlmələri buna yaxşı misallardır.

XX əsrin əvvəllərində Azərbaycan milli mədəniyyəti də, bütün başqa milli mədəniyyətlər kimi, cəmiyyətdəki sinfi antaqonizmi əks etdirən, daxilən ziddiyyətli mədəniyyət idi. Hər bir milli mədəniyyət kimi, Azərbaycan xalqının yeni dövrdə yaratdığı milli mədəniyyət də burjuaziyanın mənafeyini müdafiə edən kübar, elitar-aristokrat mədəniyyətdən və demokratiyanın mənafeyini müdafiə edən ümumxalq mədəniyyətindən ibarət idi. İstismar edilən əməkçi kütlələrin həyat şəraiti və mübarizəsi zəminində əmələ gəlib formalaşan yeni, qabaqcıl mədəniyyət 1905-1907-ci illər inqilabı dövründə və sonra inkişaf edib, burjua-aristokrat mədəniyyətinə qarşı çevrilmişdi, ictimai-siyasi düşüncədə və cəmiyyət həyatında olduğu kimi, ədəbi-mədəni düşüncədə də sinfi fərqlər açıq görünür, «zalımla məzlum» qarşıdurması Azərbaycan ədəbiyyatının, habelə sənətin digər sahələrinin mövzu rəngarəngliyini doğururdu.

Milli ziyalıların əksəriyyətini təşkil edən inqilabçılar, inqilabçı-demokratlar, maarifçi-demokratlar və başqaları yeni Azərbaycan mədəniyyətini azadlıq hərəkatının həll etdiyi ideoloji vəzifələrə, əməkçi xalqın arzu və ehtiyaclarına müvafiq inkişaf etdirməkdə idilər. Bu, vətənpərvərlik və xəlqiliyi özünə əsas şüar etmiş yazıçı və jurnalistlərin, rəsam və artistlərin, xanəndə və bəstəkarların xalq həyatı, zəngin mədəni ənənələr zəminində yaradıb inkişaf etdirdikləri mübariz ruhlu, qabaqcıl milli mədəniyyət idi.

XIX əsrdə Azərbaycanın Rusiya və Qərbi Avropa ilə qarşılıqlı mədəni əlaqələri hələ inkişafının ilkin dövrünü keçirirdi və çarizmin təqib və təzyiqi bu əlaqələrin möhkəmlənib genişlənməsinə mane ola bilmirdi. XX əsr öz tarixi yenilikləri, inqilabi ab-havası, möhkəmlənməkdə olan beynəlxalq münasibətləri, sürətlə inkişaf edən texniki və rabitə vasitələri ilə Azərbaycanda da mədəni intibah əmələ gətirdi. Azərbaycan yazıçı, mütəfəkkir və alimlərinin Şərq, Qərb və Rusiya ilə mədəni münasibətləri o vaxtadək görülməmiş səviyyəyə yüksəlməyə başladı, dünya ictimai, fəlsəfi, elmi və bədii fikrinə, sosiologiya, estetika, təbiətşünaslıq, siyasi təlimlər, etik və pedaqoji nəzəriyyələr, filologiya, müasir texniki elmlər və s. sahədələrə maraq ildən-ilə artıb möhkəmləndi. Qədim və orta əsrlər Şərq mənəvi irsinə – sufizm, zərdüştilik, məzdəkizm, əxilik, buddizm, Çin mədəniyyəti, Hind mifologiyası və fəlsəfəsi, XIX-XX əsrlərin İran və ərəb maarifçiliyi, Türkiyədəki «Tənzimat» dövrünün ədəbiyyat və siyasi fikri, antik yunan mədəniyyəti və fəlsəfəsi, XVIII əsr fransız maarifçiliyi, russoizm, volterçilik, pessimizm, klassik rus ədəbiyyatı, elmi və incəsənəti Azərbaycan müəlliflərini çox maraqlandırıb məşğul edən mövzular və sahələr idi.

O zaman təkcə Bakı şəhərində və onun rayonlarında maarifçi-xeyriyyə cəmiyyətlərindən əlavə, müxtəlif ictimai-mədəni məqsədlər izləyən və əsasən qeyri-azərbaycanlı əhaliyə xidmət edən çoxlu cəmiyyət, klub, dərnək yaranmışdı:

«Bakı gürcü qadın klubu», «Bakı rəssamlar cəmiyyəti», «Bakı və onun rayonlarının kantor və ticarət-sənaye işçilərinin klubu», «Bakı alman təhsil cəmiyyəti», «Ukraynalıların «Prosvit» cəmiyyəti», «Latışlar cəmiyyəti», «Erməni insansevərlər cəmiyyəti» və s. Cəmiyyətlərdən çoxunun ədəbi, dram, musiqi, idman, nəşriyyat şöbələri vardı. Üzvlərinin sinfi mənsubiyyətinə görə mürəkkəb və siyasi mövqecə ziddiyyətli tərkibdə olan bu cəmiyyətlər içərisində Bakının çoxmillətli əhalisi arasında maarifləndirici fəaliyyətləri, mədəni tədbirləri ilə çox faydalı xidmət göstərənlər olduğu kimi, mürtəce dini-millətçi xətt yeridənlər də yox deyildi.

Zaman Azərbaycan ziyalılarını çox ciddi bir seçim, mürəkkəb bir problem qarşısında qoymuşdu: XX əsrin yeniAzərbaycan mədəniyyətini yaradarkən milli irsdən necə və nə dərəcədə istifadə etmək, habelə Qərbdən və Rusiyadan nəyi və necə öyrənmək? Əsrlərdən bəri davam edib gələn Şərq həyat və təfəkkür tərzini Qərb və Rusiyanın bu sahələrdəki nailiyyətləri ilə necə, hansı yollarla, nə dərəcədə əlaqələndirib zənginləşdirmək ki, burada doğma, milli spesifika, çoxəsrlik qiymətli ənənələr zərər çəkməsin, əksinə davam və inkişaf etdirilsin. İrs və varislik problemi necə həll olunsun? Dünya mədəniyyətinə münasibət necə müəyyənləşdirilsin? Bu problemlərin müzakirə və həlli zamanı sırf mənəvi, subyektiv maraq və zövqlə bərabər, sinfi, milli, dini ehtiraslar da çox fəal, qüvvətli şəkildə işə qarışdığı üçün mədəni həyatda çox mürəkkəb, gərgin mübarizələr gedirdi. Məsələn, sözdə özünü müsəlmanların canyananı, tərəqqi, mədəni yüksəliş tərəfdarı göstərən mühafizəkar islam ruhaniləri və fanatiklər «Firəngistan» (Avropa) və Rusiya adı gələndə vaveyla qoparıb, onların nəinki mədəni sərvətini, hətta bütün xalqlarını və tayfalarını «kafir», «murdar» elan edirdilər. Əsl islam üləması və kamil din, mütəxəssisləri, «Quran» tərcümə edən və ona mükəmməl şərh yazan axund və qazilər, modernist təfəkkürlü islamçılar «Bəni-növi-bəşər»in yaratdığı sənət,

ədəbiyyat və mədəniyyət abidələrini dini, dili, irqindən asılı olmayaraq bütün insanların malı hesab edir, ondan «mənfəətbərdar» olmağı məqsədəuyğun sayırdılar.

Qabaqcıl Azərbaycan ziyalılarının böyük bir hissəsinin məşhur rus alimləri və pedaqoqlarının dərs dedikləri Rusiya ali məktəblərində təhsil almaları, rus dilini, rus həyatı, tarixi, elmi və ədəbiyyatını mükəmməl öyrənmələri yeni Azərbaycan mədəniyyətinin inkişafına çox qüvvətli, müsbət təsir göstərmişdi. Krılov, Puşkin, Belinski, Qoqol, Nekrasov, Çernışevski, Tolstoy, Qorki kimi dühalar yetirmiş rus bədii və fəlsəfi fikri Azərbaycan klassiklərinin vətənpərvər düşüncə və hisslərini daha da qüvvətləndirib, mədəniyyətini irəli aparmaqda, xalqa xidmətdə onlar üçün gözəl nümunə olmuşdu. Dövrün ziyalılarının bir qisminin də Avropada, Türkiyədə, İranda təhsil almaları həmin ölkələrin ədəbiyyat, sənət və mədəniyyət tarixi, habelə çağdaş bədii axtarışları ilə bağlı həqiqətlərin Azərbaycana gətirilməsinə geniş meydan açırdı.

Çarizmin, yerli istismarçıların və xürafatçı ruhanilərinin törətdikləri müxtəlif maneələrə baxmayaraq, 1905-1907-ci illər inqilabı dövründə Azərbaycan mədəniyyətinin bir çox sahələri sürəkli inkişaf yoluna düşmüşdü. Bədii ədəbiyyatla yanaşı maarif, elm, incəsənət, mətbuat da getdikcə xalqın mənafeyinə daha artıq xidmət etməkdə idi.

Hökumət ucqarlarda maarifin tərəqqisinə əhəmiyyət vermədiyinə görə əhalinin 90 faizi savadsız idi. Maarif sistemində yenə din xadimlərinin açdıqları «mollaxana» adlı köhnə məktəblər üstünlük təşkil edirdi. Təlim-tərbiyə prinsipləri dini-sxolastik mahiyyətdə olan bu məktəblər artıq çoxdan dövrün tələblərinə, elm və texnikanın müasir səviyyəsinə cavab vermirdi; vaxtilə Qahirə, Kərbəla, Bağdad, Məkkə, Nəcəf kimi müqəddəs yerlərin («ətəbati-aliyat»ın) darülfünun və mədrəsələrində təhsil almış müctəhid və axundları çox vaxt az savadlı məhəllə mollaları əvəz edirdi.

Qabaqcıl maarif xadimlərinin böyük səyi ilə Bakı, Gəncə, Şuşa, Naxçıvan və başqa şəhərlərdə hökumət hesabına açılan məktəblərdə tədris və təlim yeni üsulla gedir (bunlara «üsuli-cədid», yeni üsul məktəbləri deyilirdi), dünyəvi elmlərə, Avropa dillərinə və rus dilinə böyük yer verilirdi. Maarif şəbəkəsində ən mütərəqqi istiqamətli tədris ocağı olan bu məktəblər ənənəvi mühafizəkar zümrələrin müqaviməti şəraitində işləyirdi. Onlar üçün müəllim kadrları əsasən Qori müəllimlər seminariyasında hazırlanırdı.

Maarif sistemində gimnaziya, real məktəb, texniki-peşə məktəbi və s. təhsil ocaqları da vardı. Bakıda milli burjuaziya və ruhanilərin təşəbbüsü ilə açılmış «Səadət məktəbi»ndə Ə.Hüseynzadə, Ü.Hacıbəyov, F.Ağazadə kimi qabaqcıl elm, sənət və maarif xadimləri işləyirdilər. Bakı şəhər idarəsinə göndərilən bir sənəddə deyilirdi ki, «Səadət məktəbi»ndə «dini tərbiyəyə xüsusi fikir verilir».[1] Eyni sözü Bakıdakı «İttihad» məktəbi haqqında da demək mümkündür.

XIX əsrin birinci yarısından etibarən Azərbaycan dili və ədəbiyyatı tədrisi demokratik pedaqoji fikri ciddi məşğul etməkdə idi. Əsas tədris vəsaiti Quran (ərəbcə) və Sədinin «Gülüstan»ı (farsca) olan köhnə, mollaxana təhsili M.F.Axundov və S.Ə.Şirvanidən başlamış C.Məmmədqnuluzadə, Sabir kimi XX əsr klassiklərinə qədər Azərbaycan ziyalılarının bir neçə nəslinin tənqid hədəfi olmuşdu. Qabaqcıl maarif xadimləri Azərbaycan dili və ədəbiyyatının nəinki tədrisdən kənar qalmasına, onların şəriət dərsi içində öyrənilməsinə də etiraz edərək, milli, vətənpərvər hərəkət xətti yeridirdilər. Müəllimlərin 1906-1907-ci illərdə keçirilmiş iki qurultayında ana dilinin və ədəbiyyat tədrisi Azərbaycan maarifi qarşısında duran çox vacib məsələlərdən biri kimi gərgin ideoloji mübarizə şəraitində müzakirə olundu. İş onda idi ki, yerli məktəblərdə ana dili tədrisinə çarizm əhəmiyyət vermədiyi kimi, liberal milli burjuaziyanın da höku-

[1] Azərbaycan MDTA, f.389, q.1076

mət qarşısında bu barədə ciddi tələblər qoymağa cəsarəti çatmırdı. N.Nərimanovun həmin məsələ ətrafında H.Z.Tağıyevlə II qurultaydakı məşhur mübahisəsi Azərbaycanın demokratik pedaqoji qüvvələrinin mövqeyini bütün aydınlığı ilə göstərmişdi.Onların bu sahədə mübarizəsini mürəkkəbləşdirən səbəblərdən biri də bu idi ki, Türkiyənin «İttihad və tərəqqi» firqəsi öz türkçülük görüşlərinə müvafiq olaraq Rusiyanın müsəlmanlar yaşayan böyük şəhərlərinə xüsusi təbliğatçı müəllim və yazıçılar göndərmişdilər. Bakıya gəlmiş belə ziyalılar təhsil ocaqlarında və dövri mətbuatda ortaq türk dili, ortaq türk ədəbiyyatı yaratmaq cəhdlərini irəli sürürdülər. Ə.Hüseynzadə 1909-cu ildə «Tərəqqi» qəzetində çap etdirdiyi «Yazımız, dilimiz, İkinci ilimiz» sərlövhəli məqaləsində bunu açıq-aşkar izah edir, ümumtürk ruhunun müdafiəsi zərurətini ortaya atırdı. Öz fəaliyyətlərində ana dilinin və doğma Azərbaycan ədəbiyyatının tədrisinə xüsusi fikir verən vətənpərvər pedaqoqlar və dərslik tərtibçiləri belə cəhdlərə qarşı çıxır, Ə.Hüseynzadə və onun tərəfdarlarını tənqid edirdilər. «İkinci il» (M.Mahmudbəyov, S.Sani, A.Şaiq və b.), «Gülzar» (A.Şaiq) və s. məhz bu mövqedən yaradılan dərs kitabları idi.

Xalq maarifi sahəsində, fəal işləyən M.Ə.Sabir, Ə.Haqverdiyev, A.Səhhət, A.Şaiq kimi yazıçılar ədəbi yaradıcılıqla bərabər, Bakı, Şamaxı və başqa şəhərlərdə yeni üsulda məktəblər açılmasında yaxından iştirak edir, ardıcıl pedaqoji fəaliyyət göstərirdilər. Müsbət, mütərəqqi yeniliklərdən biri Peterburq, Parij, İstanbul, Moskva, Kiyev, Varşava, Tiflis, Kazan, Xarkov, Derft (Tartu) və s. şəhərlərdə universitet təhsili almış bir sıra gənc ziyalıların vətənə qayıdıb xalq maarifi sahəsində həvəslə işləməyə başlamaları idi (T.Şahbazi, R.Məlikov, S.Sani, S.Əbdürrəhmanbəyov və b.)

Milli azadlıq hərəkatının qüvvətlənməsi, dövrün qabaqcıl pedaqoji fikrinin təsiri nəticəsində Cənubi Azərbaycanda da yeni məktəblər, yeni təlim və tədris üsulları tətbiqi

sahəsində mühüm iş aparılırdı. Səttarxanın xüsusi əhəmiyyət verdiyi bu işlə nəzəri və əməli surətdə məşğul olan ən görkəmli maarif xadimi Mirzə Həsən Rüşdiyyə (1850-1943) idi. O, «Vətən dili» adlı qiymətli bir dərslik yazıb, 1905-ci ildə çap etdirmişdi. Cənubi Azərbaycanda maarif İran istibdadı və millətçi şovinist dairələrin ciddi müqavimətinə rəst gəlirdi. Müasir pedaqoji nəzəriyyələrlə silahlanmış xadimlər vətən balalarının savadlanması, maarifin tərəqqi etməsi üçün böyük səy və fədakarlıq göstərirdilər.

Birinci rus inqilabından sonra, irtica illərində, Rusiyada və onun başqa ucqarlarında olduğu kimi, Azərbaycanda da ictimai-fəlsəfi ideyalar güclənərək, mətbuat və kitab səhifələrini doldurmağa başladı. İdealist-metafizik təlimlərə, Spenserin pozitivizminə, Max və Avenariusun aqnostisizminə, materializmlə, habelə Şopenhauer (1788-1862) və Nitsşeyə (1844-1900), Şərqin mistik filosoflarına, buddizmə, K.Marks, F.Engels, G.Plexanov, V.İ.Leninin əsərlərinə və s. mənbələrə çox tez-tez müraciət edən yazıçı və sənət adamlarının əsərlərində açıqdan-açığa müxtəlif fəlsəfi ideyalar təbliğ olunurdu. İctimai-fəlsəfi fikir sahəsində cəmiyyəti köhnə dövrlərə qaytarmaq arzuları, islam mütəfəkkir, sərkərdə və şəxsiyyətlərini ideallaşdırmaq cəhdləri, idealizm, aqnostisizm kimi nəzəriyyə və təmayüllər xüsusilə diqqət mərkəzində idi. Dövrün ədəbi-mədəni həyatında, müsəlman üləmasının şəriətə, fiqhə, islam tarixinə aid bir-birinin ardınca mühafizəkar, sxolastik məzmunlu kitablar, risalələr çap etdirməsi faktı da əhəmiyyətli yer tuturdu. Əbdüssəlam Axundzadə «Vəz və nəsihət», Mirzə Əbutürab «İslamın tərəqqisi səbəbləri», Hüseyn Əfəndi «Zübtədül-əhkamüş-şəriyyə», Mirzə Hüseynqulu «Üsuliddin» və s.) buna misaldır.

XIX əsrin 70-ci illərində «Əkinçi» qəzetinin «Bizə hansı elmlər lazımdır?» mövzusunda keçirdiyi elmi mübahisə 1905-1907-ci illərdən sonra daha qızğın şəkil aldı. İdeologiyanın başqa sahələri kimi, burada da, əsas etibarilə bir-bi-

rinə müxalif iki cəbhə durmuşdu.[1] Axund Əbutürab, Ə.Hüseynzadə, Ə.Ağayev kimi müəlliflər hansı elmlərə yiyələnmək? – sualına cavab verdikləri zaman «dini elmləri» («elmi-ədyanı») ilk cərgəyə çəkdikləri halda, H.Zərdabi, C.Məmmədquluzadə, Ə.Sabir, Ə.Faiq və başqaları dünyəvi, təbiət-texnika elmlərini («elmi-əbdanı») təbliğ edir, dini-sxolastik elmlərin yeni əsrin mütərəqqi tələblərinə zidd olduğunu göstərirdilər.

C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, M.Ə.Talıbov, F.Köçərli, Ü.Hacıbəyov və başqaları XIX əsr maarifçilərinin işini davam etdirərək təbiət və cəmiyyətin bir çox mühüm məsələlərini kütlələr üçün anlaşıqlı dillə izah edirdilər. Onlar kainatın və yer kürəsinin quruluşundan, bitki və heyvanat aləmindən, yağış və quraqlıq səbəblərindən tutmuş mövcud cəmiyyətdəki sinfi ziddiyyətlərə, sosial ədalətsizliyə, «şərə zorla müqavimət göstərmək» fəlsəfəsinin dini-mistik mahiyyətinə, azadlıq əldə etmək şərtlərinə qədər çox mühüm fəlsəfi, ictimai-siyasi məsələlər haqqında elmi biliklər yayırdılar.

1905-1907-ci il inqilabı incəsənətin tərəqqisinə də böyük təkan vermişdi.

Azərbaycanda opera sənətinin tarixi məhz bu dövrdən, 1908-ci ildən başlanır. Milli operanın və müsiqili komediyanın banisi, böyük bəstəkar, istedadlı yazıçı, publisist Üzeyir Hacıbəyovun (1885-1948) Füzulinin «Leyli və Məcnun» poeması əsasında bəstələdiyi eyni adlı operasında, habelə «Arşın mal alan», «Məşədi İbad» və s. əsərlərində dərin humanist, demokratik ideyalar tərənnüm olunur. Fəaliyyətinin ilk illərindən Ü.Hacıbəyov Azərbaycan rəqs musiqisinin zəngin lad, melodiya, intonasiya xüsusiyyətlərinə əsaslanır, musiqidə xəlqilik prinsipini əsas götürürdü. Məhz buna görə

[1] Bizə hansı elmlər lazım?, Tiflis, 1907; «Həyat», «İrşad», «Molla Nəsrəddin» və s. mətbuat orqanlarında da bu mövzuda onlarca məqalə çap olunmuşdur.

idi ki, onun əsərləri az bir zaman içində geniş yayılmış, «Arşın mal alan» isə dünya şöhrəti qazanmışdır.

Ü.Hacıbəyovla birlikdə Azərbaycan musiqisinin görkəmli xadimləri M.Maqomayev (1879-1945), Q.Primov (1880-1865) və başqaları opera sənətinin tərəqqisi, musiqi irsinin xalq içərisində təbliği, yeni mahnı və nəğmələrin yaradılması, xalq musiqisi nümunələrinin toplanması sahəsində səmərəli fəaliyyət göstərirdilər. Bakı, Şuşa və başqa şəhərlərdə verilən «Şərq konsertləri»ndə muğamat, xalq mahnı və rəqsləri, aşıq havaları ifa olunurdu. Bu konsertlərin təşkilində istedadlı musiqi həvəskarı, yazıçı Ə.Haqverdiyev yaxından iştirak edirdi.

Məşhur el sənətkarları Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalğanlı, Aşıq Qurban və başqaları aşıq musiqisini yaymaq, zənginləşdirmək yolunda yaradıcılıq işlərini böyük həvəslə davam etdirirdilər.

Şair, müəllim, rəsam və musiqişünas Mirzə Möhsün Nəvvb Azərbaycan muğamlarının mənşəyi və xüsusiyyətləri haqqında «Vüzuhul-ərqam» (1913) əsərini bu dövrdə çap etdirmişdi.

İnqilabi qəhrəmanlıq nəğmələri azadlıq hərəkatında ilhamverici, səfərbəredici amillərdən biri idi. Xalqın qəhrəmanlığını tərənnüm edən «Nəbi», «Səttarxan» kimi mahnılar el arasında geniş yayılmışdı. Bakı fəhlələri 1905-1907-ci illərdəki nümayişlər zamanı «Marselyoza», «Beynəlmiləl» kimi mahnı və marşları böyük şövqlə öyrənib oxuyurdular.

Azərbaycan musiqisinin görkəmli xadimləri, demokratik ziyalılar, doğma musiqinin ən yaxşı ənənələrini yaşatmaqla və inkişaf etdirməklə yanaşı dünya musiqisinin nailiyyətlərini də böyük məhəbbətlə, həm də yaradıcı surətdə öyrənib təbliğ edirdilər. C.Məmmədquluzadə «Molla Nəsrəddin» jurnalında çap etdirdiyi «Elmi-musiqi» felyetonunda musiqini «Şeytan əməli», haram elan edən dargörüşlü müsəlman ruhaniləri əleyhinə çıxaraq, rus və Qərbi Avropa klas-

sik bəstəkarlarının irsinə yüksək qiymət verirdi: «... tarixə əgər əl vursaq, çox şeylər görərik: görərik ki... Almaniyada Bethovenlər, Motsartlar, Qaydnlar, Şuman və Şubertlər, Mendelsonlar və qeyriləri musiqi elmini övci-əlayə yetiribər: görərik ki, Rusiyada Qlinkalar rus mujikləri oxuduqları milli məqamatları elə bir məharətlə gözəlləndiriblər ki, bütün yer üzündə musiqi söhbəti düşəndə rusların Qlinkasına rəhmət oxuyurdular».[1]

Rus və Qərb musiqisinin yayılma yollarından biri də qastrollar idi. Böyük rus müğənnisi F.Şalyapin daxil olmaqla Bakıya qastrola gələn rus opera aktyor dəstələrinin göstərdiyi «Knyaz İqor», «Yevgeni Onegin» «Boris Qodunov», «Faust», «Hugenotlar», «Aida» və başqa tamaşalar, təbii ki, Azərbaycanda opera və musiqi sənətinin inkişafına mühüm kömək edirdi. Çaykovski, Bethoven, Rimski-Korsakov, Motsart, Vaqner və başqa klassik bəstəkarların simfonik əsərlərinin ifası Azərbaycan musiqi həyatında əlamətdar yenilik idi.

Azərbaycan teatrı əvvəlki kimi, yenə ağır şəraitdə inkişaf edirdi. Səhnə xadimləri tamaşaların bədii tərtibatında, geyim və s. əldə etməkdə böyük çətinliklərə ras gəlirdilər. Qadın rollarını oynamaq üçün azərbaycanlı qadınlarından aktrisalar yetişdirmək hələ də çətin bir məsələ kimi qarşıda dururdu. Bütün bunlarla bərabər, səhnə fədailərinin gərgin əməyi və səyilə milli teatr çətinlikləri aradan qaldıraraq təşkilati cəhətdən möhkəmlənirdi, aktyor qüvvələri artırdı, onların sənətkarlıq səviyyəsi yüksəlirdi. Artıq 1906-1907-ci illərdə Bakıda «Müsəlman dram artistləri şirkəti», «Balaxanı dram dərnəyi», bolşevik qəzeti «Təkamül»ün təşkil etdiyi «Həmiyyət» aktyorlar dəstəsi və s. truppalar fəaliyyət göstərirdi. 1914-cü ildə «Səfa» cəmiyyətinin teatr şöbəsinə məşhur artist C.Zeynalov rəhbər seçilmişdi.

[1] C.Məmmədquluzadə. Seçilmiş əsərləri, II cild, Bakı, 1954, səh. 221.

Azərbaycan səhnəsinin klassikləri C.Zeynalov, H.Ərəblinski, Ü.Hacıbəyov, Əbülfət Vəli, M.Əliyev, H.Sarabski, Sidqi Ruhulla, M.Kazımovski və başqalarının yaradıcılıq səyləri sayəsində kütlələrin teatra rəğbəti artırdı. Bu işdə ədəbiyyat və mətbuatın apardığı estetik təbliğatın çox müsbət təsiri vardı.

C.Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, S.S.Axundov, Ə.Qəmküsar və başqaları bədii ədəbiyyatla yanaşı teatr sənətinin inkişafına da əməli surətdə kömək göstərirdilər. Onların bir çoxu teatr tamaşalarında aktyor kimi çıxış edirdi.

Azərbaycan səhnəsinin fəxri, rejissor və aktyor Hüseyn Xəlifə oğlu Ərəblinski (1881-1919) realist rus teatrından yaradıcı surətdə öyrənərək öz sənət dostları ilə birlikdə professional milli teatrı formalaşdırdı. O, Azərbaycan səhnəsində Qacar (Ə.Haqverdiyev, «Ağa Məhəmməd şah Qacar»), Fəxrəddin (N.Vəzirov, «Müsibəti-Fəxrəddin») Otello (V.Şekspir, «Otello»), Frank («Qaçaqlar» F.Şiller) kimi ölməz surətlər yaratdı.

1906-1917-ci illərdə Azərbaycan teatrının repertuarı xeyli zənginləşdi. Əgər 1906-cı ilə qədər Qafqaz senzura komitəsi cəmisi 16 əsərin tamaşaya qoyulmasına icazə vermişdisə, 1906-1917-ci illər arasında 97 əsərə icazə verməli olmuşdu.[1] XIX əsrdə repertuarı əsasən M.F.Axundov və N.Vəzirovun əsərlərindən ibarət olan Azərbaycan teatrı indi Qoqol və Molyerin, Şekspir, Şiller və Tolstoyun dramaturgiyasına da müraciət etməkdə idi. Bu əsrələri azərbaycancaya N.Nərimanov, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, S.Qənizadə və başqa tərcüməçilər çevirirdilər. Xüsusilə 1905-ci il inqilabından sonra Bakı artistləri Azərbaycan müəllifləri ilə yanaşı rus, erməni, gürcü və başqa xalqların dramaturqlarının əsərlərini də tez-tez tamaşaya qoymağa başladılar. 1909-

[1] Azərb.SSR. Respublika Əlyazmaları İnstitutu, arxiv № 6, inv № II 6 (577).

cu ildə eyni bir gündə Bakıdakı dənizçilər klubu zalında göstərilmiş tamaşalar bu cəhətdən çox səciyyəvidir: Bakı artistləri bir-birinin ardınca rus, Azərbaycan və gürcü dillərində üç kiçik pyes tamaşaya qoymuşdular.

Həmin dövrdə repetuarda mərkəzi yeri Azərbaycan dramaturqlarının əsərləri tuturdu. M.F.Axundovun «Hacı Qara», N.Vəzirovun «Müsibəti-Fəxrəddin», Ə.Haqverdiyevin «Dağılan tifaq», C.Məmmədquluzadənin «Ölülər», N.Nərimanovun «Şamdan bəy» kimi realist əsərləri köhnə dünyanın yaralarını açır, xalqın ideya-estetik tərbiyəsində mühüm iş görürdü.

Ayrı-ayrı xeyriyyə cəmiyyətləri və teatr truppaları Azərbaycan səhnəsinin zənginləşməsində mühüm rol oynayır, bədii tərcümənin dramaturgiya sahəsində inkişafına meydan açırdı. Rus və Avropa dramaturqlarının əsərlərinin tərcüməsi və səhnəyə çıxarılması buna parlaq sübutdur. Dövrün teatr repertuarının əsasını müxtəlif mövzu və ideyalı milli əsərlər təşkil edirdi ki, bu sırada dini məzmun daşıyan «Xalid ibn Müaviyyə», «Xalid ibn Vəlid», «Səd Vəqqas» tipli pyeslərin də əhəmiyyəti böyük idi. İstər tərcümə olunan, istərsə də orijinal dram əsərlərində əsasən azadlıq-istiqlal ideyaları diqqət mərkəzində saxlanılırdı ki, bunu «Qaçaqlar», «Gavəyi-ahəngər», «Nadir şah» və s. bu kimi əsərlərin nümunəsində görmək mümkündür. Belə əsərlərdə xalq hakimiyyəti, demokratik idarəçilik, azad vətəndaş cəmiyyəti ideyası aparıcı yer tutduğundan daha çox maraq doğurur və rəğbətlə qarşılanırdı.

Sosial mədəni intibahla əlaqədar Bakıdan əlavə, Azərbaycanın bir çox başqa şəhərlərində və qəzalarında da teatr həvəskarları dərnəklərdə birləşib tamaşalar verirdilər. Tez-tez qastrola gedən səhnə xadimlərinin yaxından köməyilə Gəncə, Naxçıvan, Şuşa, Lənkəran, Nuxa və başqa şəhərlərdə verilən tamaşalar kütlələrin bədii tərbiyəsinə xidmət etməklə bərabər, yerli aktyor qüvvələrinin yetişməsinə imkan

yaradırdı. Məsələn, 1917-ci ildə Naxçıvanda «El güzgüsü» adlı dram cəmiyyəti təşkil olunmuşdu.

Azərbaycan teatrının yaradıcılıq nailiyyətləri İran, Orta Asiya və Tatarıstanda teatr sənətinin inkişafına az kömək etməmişdi. Səhnə xadimləri doğma Azərbaycanla birlikdə başqa xalqların teatra olan ehtiyacını da qismən ödəməyə çalışırdılar. Onlar Təbriz, Aşqabad, Mərv, Daşkənd və başqa yerlərdə, bir tərəfdən, qastrol tamaşaları verir, digər tərəfdən də həmin şəhərlərdə yerli teatr həvəskarlarına səhnə sənətini öyrənməkdə kömək edirdilər. 1909-cu ildə Sidqi Ruhullanın başçılığı ilə Təbrizdə teatr yaradıldı. Cənubi Azərbaycanda Səttarxanın rəhbərliyi ilə aparılan mübarizələr şəraitində doğulmuş bu teatrın Mehdi xan Şəfizadə, Şeyx Həsən Çörəkçi, doktor Rəhim xan kimi xadimləri həmin ildə xüsusi «Azərbaycan artistləri dəstəsi» təşkil etmişdilər .Təbriz və Tehranın aktyor qüvvələri uzun müddət Azərbaycan teatrının yolu ilə gedərək, repertuarını əsasən azərbaycanlı müəlliflərin əsərləri üzərində qurdu.[1] H.Ərəblinski başda olmaqla Azərbaycan artistlərinin Həştərxan, Kazan, Orenburq və başqa şəhərlərə səfəri Azərbaycan teatr sənətinin şöhrətini daha uzaqlara yaydı. 1911-ci ildə Ü.Hacıbəyovun rəhbərliyi ilə Daşkənddə göstərilən opera tamaşaları özbək teatr və musiqi xadimlərinə böyük müsbət təsir göstərdi.[2]

XX əsrin əvvəllərində rəssamlıq, heykəltəraşlıq, xalçaçılıq və başqa sahələrdə də ciddi canlanma əmələ gəldi. 1903-cü ildə «Şərqi-Rus» qəzeti «Qafqazda xalı, xalça və kilim» sərlövhəli silsiləvi məqalələrində Azərbaycan xalçaçılıq sənətinin bir çox mühüm məsələlərini işıqlandırmış və bu sənətin inkişafı üçün məsləhətlər vermişdi. Qəzet yazırdı ki,

[1] Rəşid Yasemi. Ədəbiyyati-müasir, Tehran, 1937, s.126-130.

[2] С.Гинзбург. Музыкально-историческое наследство Советского Узбекистана. Пути развития узбекской музыки. Сборник статеи, М., - Л., 1946, с.22

«Dərbənd, Quba, Gəncə, Qazax mahallarından çıxan mallar (xalça və kilimlərdən bəhs olunur) əksəriyyətlə Avropaya və Amerikaya gedir».[1]

Birinci rus inqilabı ideyalarının təsirilə yaradıcılığa başlamış rəssamların əsas fəaliyyət dairəsinə bir tərəfdən «Molla Nəsrəddin» jurnalı və onun yolu ilə getməyə çalışan «Kəlniyət», «Babayi-Əmir», «Tuti», «Arı» kimi satira jurnalları, ikinci tərəfdən də teatr tamaşalarının tərtibatı daxil-di. Nəşriyyat sahəsindəki canlanma ilə əlaqədar kitab qrafikasında da uğurlu addımlar atılırdı. 1900-cü illərdən başlayaraq Bakı, Şuşa və başqa şəhərlərdə rəssamlıq sərgiləri açılır, bu sərgilərdə rus və Qərbi Avropa klassik rəssamlarının əsərləri nümayiş etdirilirdi.[2]

Təsviri incəsənət sahəsində ən parlaq sima məşhur xalq rəssamı Əzim Əzimzadə (1880-1943) idi. O, hələ məktəbli ikən Azərbaycan nağıllarına, Puşkinin «Ruslan və Lüdmila», Yerşovun «Qozbel at» əsərlərinə illüstrasiyalar çəkmişdi. Dostu, rus rəssamı Maslov gənc Əzimin yaradıcılıq inkişafında mühüm rol oynamış, ona rəsm sənətinin bir çox sirlərini öyrətmiş, onunla birlikdə çoxlu əsər yaratmışdı. Ə.Əzimzadə karikatura sahəsində daha artıq fəaliyyət göstərirdi. İlk karikaturası 1906-cı ildə «Molla Nəsrəddin»də çıxmışdı («İrşad»ın müştərisi»). O zamandan Əzimzadə iyirmi il «Molla Nəsrəddin», «Kəlniyət» və digər jurnallarda Azərbaycan həyatının tipik səhnələrini canlandıran realist əsərlər çap etdirmişdir. Satirik – rəssamı Azərbaycan h yatı ilə yanaşı beynəlxalq irtica, çar mütləqiyyətinin yırtıcı siması, dini mövhumat kimi mövzular xüsusi məşğul edirdi. Zəngin milli və tarixi kolorit onun rəsmlərinin səciyyəvi xüsusiyyətlərindən idi.

Xalq şairi Sabirin «Hophopnamə» kitabına çəkdiyi illüstrasiya Əzimzadənin yaradıcılığında çox mühüm yer

[1] «Şərqi-Rus» qəzeti, 25 iyun 1903, № 36 və i.a.
[2] «Бакинские известия», 29 июля 1903, № 162.

tutur. Rəsam böyük şairin realist sənətinə tam müvafiq olan klassik karikaturaları ilə dövrünün sosial tiplərinin zəngin, geniş sərgisini yaratmışdır.[1]

Ə.Əzimzadə ilə təxminən bir zamanda fəaliyyətə başlayan Bəhruz Kəngərli (1892-1922) Tiflis Rəssamlıq məktəbində təhsil almış, milli rəsm ənənələri ilə birlikdə klassik rus təsviri incəsənətini də öyrənmişdi. O həm portret, mənzərə, natürmort, həm də teatr tamaşalarının tərtibatı sahəsində çalışırdı. 1912-1918-ci illərdə Naxçıvanda göstərilən bütün tamaşaların öz realizmi və kamil sənətkarlığı ilə seçilən tərtibatını B.Kəngərli vermişdi.[2]

Azərbaycanlı rəssamlarla yanaşı təsviri incəsənət sahəsində O.Şmerlinq, K.Rotter, İ.Keylixes, İ.Samoylov, B.R.Telinqatort və başqaları da çox səmərəli işləyirdilər. İllər boyu «Molla Nəsrəddin» səhifələrində karikaturalar və s. satirik rəsmlər çap etdirən O.Şmerlinq və K.Rotterlə jurnalın redaktoru C.Məmmədquluzadə arasında möhkəm yaradıcılıq əlaqəsi vardı. Böyük ədibin «Molla Nəsrəddin» ətrafında toplanmış rəssamlarla apardığı müntəzəm iş, inqilabçı-demokrat redaktorun dünyagörüşü təsviri incəsənətin inkişafına qüvvətli təsir göstərmişdi.

XX əsrin əvvəllərində Azərbaycanın qabaqcıl, istedadlı oğulları doğma mədəniyyəti irəlilətmək yolunda, onu azadlıq hərəkatında qüvvətli bir silaha və xalqın mədəni tərəqqisi işinin təsirli vasitəsinə çevirmək yolunda fədakarlıqla çalışdılar. 1900-1917-ci illər Azərbaycan ədəbiyyatı və bütövlükdə mədəniyyəti tarixində yeni, yüksək bir mərhələ intibah mərhələsi oldu. Bu mədəniyyətin mütərəqqi demokratik rolu bir tərəfdən milli azadlıq-istiqlal ideyalarının ümumxalq düşüncəsində təntənəsinə, Azərbaycan Xalq Cümhuriyyətinin

[1] Sabir. Hophopnamə, Bakı, 1914 (bu nəşrdə 22, həmin kitabın 1922-ci il nəşrində 33 şəkil verilmişdir).
[2] A.KAziev. Ob Azerbaydjanskom iskusstve naçale XX veka. Sb. «İskusstvo Azerbaydjana», Baku, 1954.

dövlətçilik kursunun müəyyənləşdirilməsinə, «yaşıl qələm»çilərin meydana gəlməsinə, «türklük, islamçılıq, avropaçılıq» prinsiplərini özündə ehtiva edən unikal təfəkkür modelinin formalaşmasına, yeni vətəndaş kimliyinin təsdiqinə, «imzasını imzalar içində» yaza bilən sivill xalq, azad vətən, suveren dövlət imicinin yaradılmasına və s. meydan açdısa, digər tərəfdən dövrün siyasi burulğanlarına bağlı, sosialist məfkurəyə xidmət edən xətti-hərəkatı, «qırmızı qələmçiləri ortaya çıxardı, onların proletar kütlələrlə ideoloji-estetik və sinfi-siyasi bağlılığı sayəsində, marksizm-leninizm ideyalarının, bolşevik mətbuatının təsiri ilə inqilabi varlığa, proletar hərəkatına rəğbət bəslənməsi və bu tarixi şəraitin tipik cəhətlərinin bədii obrazlarla canlandırılması sayəsində 1920-ci il aprel ayının 28-dən sonra Azərbaycanda yaranıb inkişaf edən sosializm realizmi ədəbiyyatı və mədəniyyətinin də möhkəm bünövrəsi qoyuldu. Bütün bunlar Azərbaycanda Sovet hakimiyyətinin, sosialist respublikasının qurulmasına qədərki dövrün tarixi həqiqətləri idi.

***

XX əsrin əvvəllərində Azərbaycanda ədəbi-bədii düşüncənin daha uğurlu axtarışlar aparmasına milli ictimai şüuru tənzimləyən mətbuat güclü təsir göstərir, ədəbi prosesin cəmiyyət həyatına müdaxiləsinə meydan açırdı. Mətbuatın ictimai fikir institutuna çevrilməsi, azad söz, haqq, ədalət, bərabərlik uğrunda mübarizə yolunda əvəzsiz vasitə rolunu oynaması onun nüfuzunu artırır, mətbu sözün dəyərini yüksəldirdi. Bu zaman Azərbaycanda mükəmməl mətbuat sisteminin yaranması, «mühərrir və jurnalist» əməyinə yüksək qiymət verilməsi sayəsində bədii-publisistik yaradıcılıqda iki böyük ədəbi məktəb – «Molla Nəsrəddin» və «Füyuzat» jurnalları ilə əsası qoyulan satirik və romantik «məktəb»lər bütövlükdə xalqın dünyabaxışını, ideya və arzularını əks etdirir, dövrün ziddiyyətlərlə dolu «Qırmızı qaranlıq-

lar»ından (Ə.Hüseynzadə) xilas yolunu axtarırdı. Ədəbi əlaqələrin gücləndiyi, tərcümə sənətinin populyarlaşdığı belə bir təzadlı zamanda Azərbaycan ədibləri ictimai-siyasi nəzəriyyələrə və müxtəlifyönlü bədii axtarış istiqamətlərinə də biganə qalmır, rəngarəng sənət üslubları nümayiş etdirirdilər. Həmin çoxplanlı yaradıcılıq axtarışları isə hər şeydən öncə «Molla Nəsrəddin» və «Füyuzat»ın adı ilə bağlı ədəbi məktəblərdə öz parlaq ifadəsini tapır, mollanəsrəddinçilər və füyuzatçıların milli-ədəbi mühitdə paralel fəaliyyət göstərməsinə əsaslı zəmin yaradırdı.

XX əsr Azərbaycan mətbuatının böyük bir hissəsi demokratik xarakter daşıyır. Burjua-mülkədar münasibətlərinin, ictimai ədalətsizliyin, dini mövhumatın tənqidi, xalqın mövcud quruluşdan narazılığı, azadlıq ideyaları, həyat şəraitini yaxşılaşdırmaq tələbləri və s. demokratik mətbuatın əsas ideya məzmununu təşkil edir. Demokratik mətbuat orqanlarının mühüm bir qismi isə satirik jurnallar idi. Azərbaycanın satirik jurnalları ictimai fikir tariximizin ən parlaq səhifələrindən olub, mətbuat və ədəbiyyatımızın inkişafında mühüm mərhələ təşkil edir. Azərbaycan dilində çıxan satirik jurnallardan «Molla Nəsrəddin» (1906-1931), «Bəhlul» (1907), «Zənbur» (1909-1910), «Mirat» (1910), «Arı» (1910-1911), «Kəlniyyət» (1912-1913), «Lək-lək» (1914), «Tuti» (1914-1917), «Məzəli» (1914-1915), «Babayi-Əmir» (1915-1916), «Tartan-partan» (1918), «Məşəl» (1919-1920) demokratik mövqedə idi. Bu dövrdə Azərbaycanda rus dilində də çoxlu satirik məcmuələr buraxılırdı («Djigit», «Vay-vay», «Adskaya poçta», «Biç», «Bakinskiye strelı», «Baraban» və s.).

Satirik jurnallar XX əsrin ictimai ziddiyyətlərini, xalqın azadlıq meyllərini, köhnə dünyaya maarifpərvər ziyalıların tənqidi münasibətini əks etdirən əhəmiyyətli mənbələrdir. Bu jurnallar «Molla Nəsrəddin» jurnalının yolu ilə get-

məyə çalışır, satiranın bədii fikirdə təntənəsinə meydan açırdılar.

Çarizm 1905-ci il inqilabı dövründə mətbuat sahəsində yeritdiyi siyasəti bir qədər yumşaltmağa məcbur oldu. 1906-cı il noyabrın 24-də «Dövri mətbuat haqqında yeni qayda» qəbul edildi. 1906-cı il martın 18-də verilən «ali fərman»a əsasən mətbuat sahəsində bir sıra «güzəştlər» edildi. Bu vəzyyətdən yerli ziyalılar istifadə etməyə, o zaman gizli çıxarılan qəzet və vərəqələrlə yanaşı olaraq, leqal qəzetlər buraxmağa başladılar.

«Molla Nəsrəddin» jurnalı yarandığı gündən əsil xalq sənətkarlarını öz ətrafında birləşdirən mərkəzə çevrilmişdi. Jurnalda «daimi yazıçı» kimi tanınan təxəllüslər çox idi: «Lağlağı», «Molla Nəsrəddin», «Cırcırama», «Mozalan», «Dəli», «Hərdəmxəyal», «Hop-hop», «Sijimqulu», «Kefsiz», «Xortdan», «Dabanıçatdaq xala», «Cüvəllağı» və başqaları buna parlaq misaldır. Bu imzalarla C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, M.C.Ordubadi, Ə.Nəzmi, Ə.Qəmküsar, Ə.Razi kimi «Molla Nəsrəddin» ədəbi məktəbinin görkəmli nümayəndələri yazıb yaradırdılar. Jurnalın ideya-siyasi məzmununun zənginləşməsində nəzərə çarpacaq dərəcədə xidmətləri olan Ömər Faiq Nemanzadə, Qurbanəli Şərifov, Məşədi Həbib Zeynalov, Əli Məhzun Rəhimov, Müceyri, Salman Mümtaz, Firidun bəy Köçərli, Mirzə Məhəmməd Axundov da az iş görməmişlər

Azərbaycan mətbuatının görkəmli tədqiqatçısı Nazim Axundov «Molla Nəsrəddin»in yayım coğrafiyası və oxucu auditoriyası ilə əlaqələrini nəzərə alaraq yazır: «Molla Nəsrəddin»in heç bir iştirakçısı vahid gizli imzadan istifadə etməmişdir. Üslubları ilə tez tanınan görkəmli mollanəsrəddinçilər belə imzalarını dəyişdirir, bəzi hallarda isə yazılarına imza atmırdılar.

Jurnalın görkəmli yazıçı və şairləri Azərbaycanın müxtəlif yerlərində – Ə.Nəzmi Gəncədə, Ə.Sabir Şamaxıda,

M.S.Ordubadi Culfa və Ordubadda, Ə.Qəmküsar Naxçıvanda, Ə.Haqverdiyev Gəncə, Bakı, Qarabağda yaşayır və yazılarını oradan redaksiyaya göndərirdilər. Ona görə də jurnal Azərbaycanın daxili həyatında baş verən müxtəlif hadisələri çox tez işıqlandırırdı.

«Molla Nəsrəddin»də əsas əməkdaşlarla birlikdə fəhlə və kəndlilər də müxbir sifəti ilə iştirak edirdilər».[1]

XX əsrin əvvəllərində satirik jurnallarda siyasi karikaturaya geniş yer verilirdi. Əzim Əzimzadə, İ.Rotter, O.İ.Şmerlinq, BENO (Gürcüstan xalq rəssamı Telinqaterin təxəllüsüdür) kimi məşhur rəssamların Azərbaycan satirik jurnalları üçün çəkdiyi yüzlərcə şəklin ideyası geniş xalq kütlələrinə çox tez çatırdı. Azərbaycan və rus dillərində çıxan satirik jurnalların arasında sıx ideya əlaqəsi var idi. Hər iki dildə çıxan jurnalların şəkillərini, demək olar ki, eyni rəssamlar çəkirdi. Misal üçün «Baraban» jurnalının da əsas rəssamı Ə.Əzimzadə idi.

XX əsr Azərbaycan satirik ədəbiyaytının C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi, Ə.R.Şəmçizadə, Ə.Müznib, C.Əsgərzadə İrəvani (Aciz), A.Bayraməli (Hammal), S.Mümtaz, C.Cabbarlı və başqaları kimi nümayəndələri olmuşdur. Yüzdən artıq yazıçını, daha doğrusu, dövrün əksər ədəbi qüvvəsini əhatə edən XX əsr Azərbaycan satirik ədəbiyyatı şeir sahəsində M.Ə.Sabir, nəsr sahəsində isə C.Məmmədquluzadənin yaratdığı ədəbi məktəblər şəklində formalaşıb inkişaf etmişdir. Dramaturgiya sahəsində isə satira, M.F.Axundovun əsasını qoyduğu tənqidi realizm yolu ilə gedərək daha yüksək bir səviyyəyə qalxmışdır.

«Molla Nəsrəddin»ə qədər Azərbaycan jurnalistikası tarixində mükəmməl peşəkarlıq təcrübəsi formalaşdırmış

[1] M.Axundov. Azərbaycan satira jurnalları (1906-1920-ci illər). Bakı, s.23.

«Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə», «Kəşkül», «Şərqi-Rus», «Həyat» və «İrşad»ın yazarları milli-ictimai mühitdə, ədəbi-mədəni həyatda hansı ideyaların real iş, əməllə təsdiq olunmasını istəyirdilərsə, C.Məmmədquluzadə və qələm dostları məhz həmin vətəndaşlıq prinsiplərindən çıxış edir, ümumxalq taleyinə və ikiyə parçalanmış vətənin aqibətinə bağlı mövcud problemlərin həllini diqqət mərkəzində saxlayırdılar. Onlar hər şeydən əvvəl «övhamat, mövhumat, ehkamat və xəyalət vadisində», «xabi-qəflətdə yatan» qardaşlarını oyatmağa səy edir, milli təfəkkürdəki doqmatizmə, ehkamçılığa, epiqonçuluğa, xalqı qəflət yuxusunda uyudanlara qarşı mübarizə aparır, Əhmədbəy Ağaoğlunun dediyi «Sübhi-sadiq xoruz kimi» qım-qım ya əyyuhəl qafilun», oyanın, oyanın ey qəflət yuxusunda uyanlar!» nəğməsini virdü-zəban edirdilər, «İrşad» qəzeti, 17 dekabr 1905-ci il, №1) yəni dillərində əzbər olaraq təkrarlayırdılar. Bu fikri Əhməd bəy Ağaoğlu «Kolebelniye motivır Tafarki» («Kaspi» qəzeti, 14 dekabr 1904-cü il, №279) məqaləsində də açıq-aydın ortaya qoyur, öz dövrünün ziyalılarının ümummilli qayğılarından ətraflı danışırdı. 1905-ci ilin son ayında dekabrın 17-də «İrşad»ın birinci nömrəsində irəli sürülən həmin ictimai-kulturoloji ideya az müddət sonra 1906-cı il aprelin 7-də işıq üzü görən «Molla Nəsrəddin»in birinci nömrəsinin üz qabığındakı karikaturada mükəmməl əksini tapdı. Qoca Molla Nəsrəddin, Ə.Hüseynzadənin dediyi kimi «Tiflisdəki Xacə» uyuyanları oyatmağı ən böyük vətəndaşlıq vasitəsi bildi. Molla Nəsrəddin – Cəlil Məmmədquluzadə ziyalıları birləşdirərək qədim və əbədi «qaranlıqdan işığa» ideyası ilə fəaliyyətə başladılar, müqəddəs «Quran»da adı hifz olunan «Əshabi-kəhf» əhvalatındakı yüz illərcə qaranlıq mağara küncündə yatanlardan ibrət götürməyi vacib bildilər, «Nə çox yatmışıq!» (Bax: «İrşad» qəzeti, №1) nidası ilə meydana çıxdılar. Bu nidanın söylənməsini dövrün özü, zəmanənin məntiqi, yüz ilə yaxın çar Rusiyası müstəmləkəsində yaşayan azərbaycanlıların «övzayi-halı», yaşayış tərzi, ömür-gün həqiqətləri diqtə edirdi. Odur ki, aradan illər keçəndən sonra C.Məmmədquluzadə xatiratında deyirdi: «Molla Nəsrəddini təbiət özü yaratdı, zəmanə özü yaratdı».

Xalq taleyinə bağlılığın, gerçək həqiqətlərə ayna tutmağın nəticəsidir ki, «Molla Nəsrəddin» həm milli tarixin konkret **dövrünün ensiklopediyası** rolunu oynayır, həm də özümüzü islahın təcrübə məktəbi kimi müstəsna əhəmiyyət daşıyır. «Molla Nəsrəddin»in meydana çıxması ilə Azərbaycan ictimai-mədəni həyatında **islahatçılıq** hərəkatı güclənir, milli gerçəklikdə özünüdərk, özünütəhlil, özünütəşkil və özünütəsdiq işinə geniş meydan açılırdı. Mollanəsrəddinçilər yeni satira ədəbi məktəbi əsasında xalqın mədəni tərəqqi konsepsiyasını formalaşdırır, milli maarifçilik əsasında realizm cərəyanını populyarlaşdırır, azadlıq, inqilabi-demokratiya, bərabərlik (müsavat), dövlət suverenliyi, vətən bütövlüyü kimi ideyaların gerçək həyatda reallaşmasına xüsusi önəm verirdilər. Bu və digər ictimai-tarixi, elmi-nəzəri və ədəbi-mədəni problemlərə islahatçı-reformist münasibətinə görə «Molla Nəsrəddin»in xidmətlərinə nəzər yetirərkən aşağıdakı koordinal problemlərə mühüm əhəmiyyət verilməlidir:

1. Novatorluq axtarışları, yeni satirik ədəbiyyatın formalaşdırılması.

2. Milli Azərbaycan realizminin təkmilləşdirilməsi və mükəmməl şəkildə gerçək həyata tətbiqi. Tənqidi realizmin Azərbaycan modelinin yaradılması.

3. Azərbaycan ədəbi dilinin saflığını qorumaq, sivil cəmiyyət və çağdaş mədəniyyət quruculuğu uğrunda mübarizə.

4. Müstəqil dövlət, azad cəmiyyət, bütöv vətən və kamil vətəndaş ideyasını yürütmək.

5. Çağdaş ədəbi qəhrəman və onun mənəvi zənginliyi məsələsini həll etmək.

6. Müstəmləkəçilikdən qurtuluş və totalitar rejimlər əleyhinə mübarizə.

7. Dil, din və vicdan azadlığının sözdə deyil, işdə, əməldə, gerçək həyatda təntənəsini görmək.

8. Yeni forma və düşüncə dəyirmanına – fabrikinə çevrilərək Azərbaycan jurnalistikası ənənələrini inkişaf etdirmək, onu yeni mərhələyə yüksəltmək, müasir çoxşaxəli üslubi axtarış meyllərini müəyyənləşdirmək.

9. Azərbaycançılıq ideoloji konsepsiyasını ümumxalq düşüncəsi tərzinə və ictimai-siyasi davranış normalarına çevirmək.

«Molla Nəsrəddin» nəşrə başlayanda artıq Azərbaycanda milli mətbuat mühiti yaranmış, H.Zərdabi başda olmaqla ayrı-ayrı jurnalistlərin zəngin publisistik irsi geniş xalq kütləsinə təqdim olunmuş, bir qədər də dəqiq desək ictimai-mədəni həyatda, sosial-siasi şüurda «məlumat və informasiya institutu» yaranmışdı. İndi mətbuat yalnız ictimai-mədəni tərəqqi problemləri ilə deyil, həm də ciddi siyasi mübarizə məsələlərilə məşğul olur, xalq, dövlət və vətən problemlərini həll etməyi vəzifə bilirdi. Azərbaycan jurnalistləri və mətbuatı qarşısında «təbiətin və zəmanənin yaratdığı» problemlər durur, onları bir sıra dünya xaoqlarının həyat təcrübəsinə istinadən, sivil yolla aradan qaldırmaq mühüm vəzifə sayılırdı. Azərbaycana dünyanın bir sıra ölkələrindən, o cümlədən Rusiya, İran, Türkiyə, Misir, Fransa, Hindistan, İngiltərə, Avstriya, Almaniyadan çoxsaylı mətbuat orqanları gəlirdi. Bunlar da öz növbəsində Azərbaycan gerçəkliyində mətbuat mühitini yaradır, özü ilə birgə xarici ölkələrin həyat təcrübəsini, intibah və islahat faktlarını gətirir, yenilik, novatorluq iddialarına meydan açır, təkan verirdi. Belə bir vaxtda Cəlil Məmmədquluzadə başda olmaqla mollanəsrəddinçilər ictimai-tarixi zamanın xarakterini müəyyənləşdirməyə çalışır, dövrün islahatçı-reformist səciyyəsinə uyğunlaşmağı məqsədəuyğun bilir, yeni ədəbi-bədii

axtarış meylinin, daha dəqiq desək realist – satirik ədəbiyyat axtarışlarının gücləndirilməsini mühüm vəzifə sayırdılar.

«Molla Nəsrəddin»in birinci nömrəsi çox böyük uğurla qarşılandı və nəinki Azərbaycan və Qafqazda, habelə İran, Türkiyə, Orta Asiya, Rusiyada ciddi əks-səda yaratdı, müsəlman aləmindəki geriliyi, fanatizmi, övham və xürafatı aradan qaldıracağını, obrazlı desək nadanlıq vadisindəki zəhərli ağacların rişəsinə balta vuracağını bəyan etdi. Dövrün görkəmli jurnalisti və mütəfəkkir ictimai xadimi Əhmədbəy Ağaoğlu «Molla Nəsrəddin»in mətbuat aləminə gəlişini yüksək qiymətləndirərək yazırdı: «Mən «Həyat» və «İrşad» qəzetlərinə şüru edəndə bir az vahimə ediyordum ki, əcəba, millətimizdə layiq və dana yazıçılar olacaqmı?! Lakin bir az keçdikdə mənə məlum oldu ki, böyük səhv edirmişəm. Çünki, millətimiz o qədər layiq, dana, müxbir, zəkalı köməkçilər meydana gətirdi ki, iki qəzetə degil, onlarca qəzetə aparmağa müstəiddirlər.

...Şimdi «Molla Nəsrəddin» və «Dəbistan»ın da zühura çıxması bunu sübut ediyor!!

Baxın «Molla Nəsrəddin»ə! Bu cəridə nə gözəl cəridə! Nə qədər əql, zəka, məharət və zövq göstəriyor!! Nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi taifələr böylə cəridələr ilə fəxr edə bilərlər! Onun nəqşləri, sözləri o qədər gözəl, o qədər pürməna, o qədər tənbihamiz nəqşələr və sözlərdir ki, insanın baxdıqca xoşu gəlib, baxdıqca bəsirəti artıyor!» (Əhmədbəy Ağaoğlu. «Dəbistan» və «Molla Nəsrəddin», «İrşad» qəzeti, 16 aprel 1906-cı il, №90)

Göründüyü kimi Ə.Ağaoğlu Azərbaycanda «iki qəzetə deyil, onlarca qəzetə aparmağa müstəid» ziyalıların meydana gəldiyini, «Şərqi-Rus», «Həyat», «İrşad», «Dəbistan», «Molla Nəsrəddin»ı nəzərdə tutaraq milli mətbuat mühitinin formalaşdığını təsdiqləyir, «Molla Nəsrəddin»in şəkilli olmasına və sözlərinin pürməna, tənbihamiz, bəsirətartırıcı olmasına xüsusi diqqət yetirirdi. Ümumiyyətlə «təhsili-kə-

malat kəm alətlə olmaz» («İrşad» qəzeti, 17 dekabr 1905-ci il) söyləyən Ə.Ağaoğlu mətbuatı milli intellektual kamilliyə yetişmək vasitəsi sayır, «Molla Nəsrəddin»in Azərbaycan ictimai-mədəni həyatında mütərəqqi rol oynayacağına böyük ümidlər bəsləyir, «nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi taifələr böylə cəridələr ilə fəxr edə bilərlər!» - deyə milli qürurunu ifadə edirdi.

«Molla Nəsrəddin» ictimai həyata atılanda qazandığı uğurlar hər şeydən öncə milli mənəvi dəyərlərə arxalanması, bədii SÖZ-ün təsir gücünə söykənməsi ilə bağlıdır. Çünki mollanəsrəddinçilərin «ağsaqqal yoldaşı» Cəlil Məmmədquluzadənin bəyan etdiyi kimi onlar «türkün açıq ana dilində» danışır və yazır, ümumxalq təfəkkürü ənənələrinə, bədii təhkiyə üsullarına əməl edir, milli mentallığın saflaşdırılmasını əsas vəzifə bilirdilər. Odur ki, «Molla Nəsrəddin» və onun ənənəni davam etdirən satira məktəbində ilk tənqid hədəfləri milli nihilistlər, yalançı-əsassız milli lovğalıq, özünəməftunluq, biganəlik, etiqadsızlıq, imansızlıq və sair «qeyri-vacib əməllər» tənqid olunur, itboğuşduran, xoruzdöyüşdürən, hamam küncündə yatanlar və başqa «zatlar» yeni obrazlar silsiləsi kimi ədəbi-bədii fikir səhnəsinə gətirilir, onların ictimai-siyasi haqq və hüququ tələb edilir, «adi əhvalatlarda böyük həqiqətlər»in (Firudin Hüseynov) təhlili jurnalistikanın ən vacib problemlərindən sayılırdı. Bunun üçün isə mütləq bədii sənətkarlıq məharəti ilə yanaşı sağlam ənənəyə söykənən milli qürur və qeyrət, təəssüb kimi duyğular kompleksinin bütövlüyü, yeniləşən, modernizə olunan, dövrə, zəmanəyə uyğunlaşan, «əsr təqazasınca» (A.Səhhət) kamil təfəkkür modelinin olması zəruri idi və onu «Molla Nəsrəddin»çilər özünün islahatçı-reformist rolu ilə gerçəkləşdirirdi.

Mollanəsrəddinçilər haqqında söylənən «tənqid», föhş, böhtan kompaniyası da elə bununla əlaqədar idi. «Əmmaməli jandarmlar», «taclı lotular», «padşahpərəstlik xəstəliyinə tutulmuş» şeyx və müftilər, «cəhənnəm əhli», «bitli-sirkəli marallar» və sair çoxsaylı və yeni ədəbi personajlar həmin səbəbdən satirik tənqid hədəfinə çevrilirdilər. İlk nömrəsindən ədəbi-estetik konsepsiyasını açıq-aydın dillə bəyan edən «Molla Nəsrəddin» sonralar bütün saylarında həmin yaradıcılıq kredosuna əməl edir, milli-ictimai fikirdə və elitar düşüncədə əsrlərcə köhnəlmiş, əprimiş, anti insani keyfiyyət göstəricilərini satira mövzusu kimi ön plana çəkirdilər. İlk uşaqlıq illərində, gözünü dünyaya açdığı zamanda «Allahü əkbər!» sədasını eşidən və «Quran»ı mükəmməl şəkildə öyrənən Cəlil Məmmədquluzadənin XX əsrin əvvəllərində dinsizlikdə, imansızlıqda ittiham olunmasına səbəb «sərbəstlər – başısarıqlılar»ın əleyhinə çıxması idi.

C.Məmmədquluzadə dövrünün digər elmə, savada meylli gəncləri kimi «Qurani-şərif»n nə olduğunu gözəl bilir, onun ilahi məntiqinə rəğbət bəsləyirdi. «Molla Nəsrəddin»in 1930-cu illərdə adının dəyişdirilərək «Allahsız» kimi qələmə verilməsi də bu səbəbdən ona mənəvi əzablar verirdi. İslam dini və «Quran» pərdəsi altında xalqa «vəz və nəsihət» oxuyaraq onu «övham və xəyalat vadisində» uyudanların, onu oyanmağa qoymayanların işi, əməli və ideyaları C.Məmmədquluzadəni və qələm dostlarını ciddi şəkildə narahat edirdi. Onlar «Qurani-Kərim»in «Əsr» surəsində deyilən: «Əsrə and olsun ki, bütün insanlıq ziyandadır. O kəslər xaric ki, onlar iman etmişlər, saleh əməl işləyər, haqqı tövsiyyə edər və səbr edərlər» – fikrinə inanır, bir ömürlük həyat haqqını bu klassik və əbədi məntiqin prinsiplərinə tabe tuturdular. Bu fikri yalnız «Ölürlər», «Danabaş kəndinin əhvalatları», «Cəhənnəm məktubları», «Hophopnamə» və s. kimi şedevrlər deyil, bütünlükdə mollanəsrəddinçilərin zəngin ədəbi irsi təsdiqləməkdədir.

Ümumiyyətlə XX əsrin əvvəllərində minbər, məscid və mədrəsələrdəki «söz sahiblərinin» xalqı ehkamlar burulğa-

nında saxlaması mollanəsrəddinçilər tərəfindən kəskin tənqid olunurdu. Təsadüfi deyil ki, M.Ə.Sabirin söylədiyi:

Quş kimi göydə uçur yerdəkilər
Bizi gömdü yerə minbərdəkilər –

misrası dillər əzbəri idi. Belə bir zamanda, şübhəsiz ki, min ildən artıq bir dövrdə Azərbaycan xalqının təfəkkürü və mənəviyyatında dini ehkamlar şəbəkəsi yaradanların sözünün qarşısına yeni dövrün ictimai-tarixi məzmununu ifadə edə bilən sözü yaradacaq bədii istedadla çıxmaq lazım idi. Həmin istedad sahibləri C.Məmmədquluzadə və mollanəsrəddinçilər oldular. Onlar dini düşüncənin stereotiplərini «ağlar-güləyən» gözlə görür, satirik ədəbi düşüncənin ifşa, təhlil və tənqid imkanlarından novatorluqla yararlanır və sürətlə dəyişən dünyada cəmiyyətin rəğbətini qazanırdılar. Bu rəğbətin əsasında xalq yaddaşı, folklor qaynaqlarına sistemli istinad dayanırdı. «Molla Nəsrəddin»çilərin yaradıcılığındakı xəlqilik keyfiyyətinin dominantlığı da bununla əlaqədar idi. Jurnalistikanın müxtəlif janr imkanlarından məharətlə istifadə edən «Molla Nəsrəddin» bu səbəbdən «eyham və kinayə» ilə ictimai-siyasi gerçəklikdəki fakt, hadisə və problemlərə yanaşır və onları «türkün açıq ana dilində» həmvətənlərinə anladırdı. Nümunəyə diqqət etsək bunu açıq-aydın görmək mümkündür ki, «Molla Nəsrəddin»in yaradıcılıq orijinallığı nəinki öz zamanında, yəni dünən, həm də bu gün nə qədər sağlam təfəkkür ənənələrinə əsaslanır və müasirdir. Gəlin birlikdə oxuyaq və düşünək ki, doğrudanmı belədir? «Molla Nəsrəddin»in birinci nömrəsində atalar sözünə düzəliş verən yazıda deyilir:

«Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur, zira ki mal-mülk tələf olur gedir, amma söz qalır. Belə ki keçmiş hükəmanın, şüəranın sözləri hala baqidir. Buna görə türk hükəmalarının təcrübəli və işə yarar zərb-məsələrindən «Atalar sözü» namilə bir neçəsini məcmuəmizdə yaz-

dıq ki, qarelərimiz oxuyub lazımi yerində onları dəsturüləməl etsinlər.

Atı atın yanında bağlasan – xan görüb deyər: Birini bağışla mənə.

Ata malı olan yerdə özün qazandığın haramdır.

Adamın ölümü bikarların bayramıdır.

Ata və arvada etibar etmə – hər ikisini qat töyləyə və qapısını bağla.

Aclıqdan kimsə ölməz – qələt eləyir, çörək vermə.

Adama sözü min kərə deyərlər, qanmaza eybi yoxdur.

Ölüdən şeytan da əl çəkər, arvadlar əl çəksə.

Ölmə, eşşəyim, ölmə, yaz gələr, hürriyyət bitər.

Uşağın şüurlusu dərsdən qaçar.

Plovun yağlısını yeyən yaxşı fatihə verər.

At at ilə boğuşar, hökumətin işi rast gələr.

İşsizlik dövlətlilik açarıdır.

İkiarvadlı ev bərəkətli olar.

Başladığın işi yarıda qoy. («Molla Nəsrəddin» j., 1906, №1)

Göründüyü kimi C.Məmmədquluzadə yeni həyat həqiqətlərini göstərmək üçün milli mentalitetdə özünü biruzə verən deformativ hallara diqqət yetirir, xalq həyatı və təfəkkürünün qüsurlarını təhlil edir və onlardan xilas olmağın zəruriliyini vacib bilirdi. «Molla Nəsrəddin» milli gerçəkliyin və şüur miqyasının «tüstü və duman» içində olduğunu sadəcə göstərmir, mövcud ab-havanı təmizləməyin yolunu göstərir, fantastik «xəyal vadiləri»ndən yerə enməyi, xalq, vətən və dövlət naminə çalışmağı mühüm vəzifə bilirdi. Bunun üçün sözdən böyük vasitə olmadığını nəzərə çatdıran C.Məmmədquluzadə «ezop» dilinə arxalanır, dünya xalqlarının satira mədəniyyəti ənənələrinə istinad edir.

Lafonten, Conatan Svift, Carlz Dikkens, Fransua Rable, Andrey Krılov, Qoqol və s. bu kimi söz sənətkarları-

nın milli intibah, özünü və millətini dərk konsepsiyasına əməl edirdi.

«Molla Nəsrəddin»in ictimai-tarixi uğuru hər şeydən əvvəl doğrunu, həqiqəti görməsi, yazması və söyləməsi ilə şərtlənirdi. Doğrunu səmimiyyətlə ifadə etməsi ona rəğbət qazandırır, «Doğru söz qızıl kimi bir şeydir, sürtdükcə parıldar» fikri onun iş, əməl və düşüncə prinsipinə çevrilirdi. Həmin səbəbdəndir ki, istər öz dövründə, istərsə də bu gün onun ictimai-tarixi qiyməti həqiqətpərəstlər tərəfindən hər şeydən uca hesab edilir. «Molla Nəsrəddin»in ilk nömrələri haqqında təəssüratlarını qələmə alan görkəmli Azərbaycan mütəfəkkiri Əlibəy Hüseynzadə deyirdi: «Həqiqətin də dadı və ləzzəti var. Guya həvasi-xümsədən qüvvəyi-zaiqəyə təsir ediyor. Binaənəleyh həqayiqi dad etibarilə acı və şirin iki qismə ayırmaq olur. Əksər adamların şirin, şəkərli şeylərdən xoşu gəlir. Mən bəharat və ədviyyəyi-mürəkkəbi kimi acı məvaddi sevnələrdənmi. İstiot, bibər və zəncəfil olmasa, xörəgin təmi, ləzzəti olmaz, qənə-qənə, ginə və acı otlar olmasa, vücud hummadan xilas olmaz, səlamət tapmaz!.. («Molla Nəsrəddin» və «Dəbistan», «Həyat» qəzeti, 1906-cı il, №91)

XX əsrin əvvəllərində bu həqiqətlər Azərbaycan mollanəsrəddinçilərin bir gözünü ağladır, o biri gözünü isə güldürürdü. «Ağlar-güləyən»lik Azərbaycan ictimai-mədəni fikrinə belə daxil olur və milli mühitin ən dərin «veyl quyularına» (Əbdürrəhim bəy Haqverdiyev) və ən qaranlıq nöqtələrinə işıq salırdı. Ə.Hüseynzadə «Dərvişin» (Nəcəf bəy Vəzirov) milli mentalitetə dair söylədiyi «Biz müsəlmanlar bənzərik nahəmvar qoz kötüyünə... Necə gözəl, əntiqə şeylər əmələ gəlir o kötükdən» – fikrinə haqq qazandırır, «qoz kötüyünə, mərmər daşına, qranit qayasına» bənzəyən həmvətənlərimizdən «Molla Nəsrəddin»in baltası kimi qəvi və kəskin bir alət» ilə «Molla Nəsrəddin»in meydana gəlməsini Ə.Hüseynzadə böyük ümid və fəxrlə qarşılayır, onun zahi-

rindəki xəndə (gülüş), batinindəki bol-bol axan gizli göz yaşlarına xüsusi diqqət yetirirdi. O yazırdı: «Qafqaziyamızda «qoz kötüklərini», qaya daşlarını yontmağa, yonmaq üçün müxtəlif alətlər icad etməyə əzim bir meyl və həvəs müşahidə olunur. Bu növ alətlərdən biri də Tiflisdə həftədə bir dəfə çıxan «Molla Nəsrəddin» adlı türkcə cəridəyi-müsəvvəreyi-əzhukiyyənin baltalarıdır.

Qoz kötüklərini yontmaq üçün «Molla Nəsrəddin»in ələ aldığı baltayi-zəhk və xəndə, istehza və rişxənddən, müstəhziyanə yazı və şəkillərdən ibarətdir...

Bu qədər qəmli bir zamanda böylə bir müzhik qəzetənin çıxması qərib görünürsə də, lakin yaxşı diqqət edilib dərin bir nəzərlə baxılırsa, görünür ki, bu zəhk və xəndə ancaq zahiri olub, onun təhtində bol-bol axan göz yaşları gizlidir.

Bu xəndənin üzündən pərdəyi rəf etsəniz, mavərasında ahu-zar, giryə və büka görərsiniz!.. Bu Qoqolun, Sviftin, Dikkensin xəndəsidir... Xeyr, bu ürəgi yəs və ələmlə dolu «Molla Nəsrəddin»in xəndəsidir. («Molla Nəsrəddin» və «Dəbistan», «Həyat» qəzeti, 1906-cı il, №91).

«Molla Nəsrəddin»in satirik təfəkkür tipini Azərbaycan üçün əvəzolunmaz milli sərvət sayan Əlibəy Hüseynzadə onun bədii istedadına güvənir, Azərbaycan mühitində onun varlığını ağır bir xəstəni müalicə edəcək məharətli bir həkimin zəruriliyi ilə müqayisə edirdi. O göstərirdi ki, həkim xəstəni sağaltmaq üçün acı dərmanlar verdiyi kimi, «Molla Nəsrəddin» də tənbeh, tənqid, ifşa, kinayə üsulu ilə, acı göz yaşları ilə cəmiyyətin islahına çalışır, xalqın mədəni intibahını məqsəd bilir. «Molla Nəsrəddin» dünya satirası ənənələrinə həmin məqsədlə müraciət edir, Şərqdə, eləcə də Azərbaycanda həcv ənənəsini satirik-sarkastik gülüş səviyyəsinə yüksəlirdi. O xalqına inanır, milli ziyalıların verdiyi dəstəyə arxalanır, beləliklə də gerçək mühitdəki eybəcərliklərin göstərilməsi, təhlili, tənqidindən çəkinmirdi. «Molla Nəsrəddin» satirasını xalqın bəsirəti – özünə qiymət vermək baca-

rığı kimi dəyərləndirən Ə.Hüseynzadə yazırdı ki, «Qarşımda «Molla Nəsrəddin»in üçüncü nömrəsi duruyor. Bu nömrə qırmızı və mavi rənglərlə müləvvən dörd ədəd gülünc rəsmlərlə müsəvvər və müzəyyəndir. Rəsmlərin dördü də qayət mənidardır. Biri dərəceyi-maarifimizi, biri dərəcəyi-təməddünümüzü, biri əhvali-siyasiyyəyi-islamı, biri də nisvani-islamiyyənin vəziyyətini surəti-müstəhziyanədə iraə edər. Bunlardan əhvali-siyasiyyəyi göstərən lövhənin təhtində «sərhəd məsələsi» yerinə «panislamizm» yazılsa idi, daha münasib olurdu – zənn eləriz... Bu növ gülünc şəkillərə məxsus bir istilah bulmaq lazım isə, ya «xatir nigar» vəznində «xəndənigar», yaxud «zəhrxənd» və «rişxənd» tərkibində «nigarişxənd» demək icab edər...

«Molla Nəsrəddin»in məzahlı məqalələri, lətifələri, həcviyyələri dəxi nigarişxəndələrindən geri qalmayır, böyük bir hünər və istedad ilə yazıldığı aşikardır... Hər halda «Molla Nəsrəddin»in müdiri və Molla Nəsrəddinin müridi Cəlil Məmmədquluzadə cənablarını müvəffəqiyyətdən naşi təbrik və qezetəsinin qiraətini bütün qarelərimizə tövsiyyə edəriz» («Molla Nəsrəddin» və «Dəbistan» «Həyat» qəzeti, 1906-cı il, №91).

Bu yolu tutmağındandır ki, C.Məmmədquluzadə Azərbaycanda tənqidi realizmin nəzəri-estetik prinsiplərini formalaşdırır, «Ölülər» dünyasından xəbər verir, Azərbaycan bədii ədəbiyyatının və jurnalistikasının çağdaş düşüncə və danışıq (təhkiyə) tərzini yaradırdı. Həmin səbəbdəndir ki, Azərbaycan ədəbi-bədii fikrinin mollanəsrəddinçilər tərəfindən yeni miqyası müəyyənləşir, milli tarixə tənqidi baxışın tələbləri əsasında xalq yaddaşının arxetipi bərpa olunur və ona yeni çalarlar, müasir gerçəklik faktları yüklənirdi. Bütün bunları C.Məmmədquluzadə bədii sözün gücü, sehri ilə yerinə yetirir və «Molla Nəsrəddin» ədəbi məktəbinin üzvləri onu məharətlə davam etdirirdilər. Bu mənada ədəbiyyatşünas - alim Mir Cəlalın «Molla Nəsrəddin»lə bağlı tədqiqlə-

rində göstərdiyi bədii özəllik, sənətkarlıq məharəti mollanəsrəddinçilərin ədəbi-tarixi mövqeyini işıqlandırmağa kömək edir. «Azərbaycanda ədəbi məktəblər» (1946) monoqrafiyasında C.Məmmədquluzadənin gülüş və satirik tənqid üsullarından danışarkən o bunları göstərir: 1. müqayisə, 2. sözləri tamam əks mənada olan kinayə, 3. üçüncü şəxsin dilindən istifadə, 4. ictimai istehza, 5. eyham, işarə, rəmz, iki mənalı söz və ifadələr, 6. şiddətli və müstəqim tənqidi gülüş, 7. hücumçü mübahisə.

«Molla Nəsrəddin» Azərbaycan ictimai-bədii şüurunda əsrlərcə ehkama çevrilən ənənəvi təsvir və tərənnüm üsulunun əleyhinə çıxır, «həqiqətin dadı və ləzzətini» müasirlərinə çatdırır, Əlibəy Hüseynzadənin nişan verdiyi «acı həqiqətlərin» təhlilinə xüsusi diqqət yetirirdi. C.Məmmədquluzadə deyirdi:

«...Özümüzü boş-boşuna mədh və təhsinlə yox, özümüzü quru tərif və yalançı alqışlarla yox, məhz acı həqiqəti meydana qoymaqla maarif evini abad edə bilərik... Qeyri yol yoxdur». (Molla Nəsrəddin» jurnalı, transliterasiya, 12 cilddə I c., 1906-1907, s.12, Bakı, «Elm» n. 1988)

Həqiqətin dadı və ləzzəti ilə yaşamaqdan qeyri bir yolun olmadığını görən C.Məmmədquluzadə və qələm dostları mövcud tarixi gerçəkliyin «bataqlıqlarını qurutmağa» çalışır, milli mühitdəki «zəhərli çiçəklərin» taleyinə acıyır, real həyat lövhələrinin mükəmməl təsvirini verir, təhlil etdiyi fakt, hadisə və problemlərin fonunda həm də vəziyyətdən çıxış yolunu göstərirdilər. Bunun üçün «Molla Nəsrəddin» hər bir işi özümüzdən başlamağı tövsiyyə edir, dünyanın və milli gerçəklik həqiqətlərinin lirik-psixoloji üslubda təhlilini vacib məqsəd bilirdi. Jurnalın birinci nömrəsindəki «Bilməli xəbərlər»ə diqqət yetirmək kifayətdir ki, «Molla Nəsrəddin»in realist bədii-estetik konsepsiyası, milli, ictimai və tarixi mövqeyi barədə ətraflı təəssürat əldə edək. Orada yazılır:

– O hansı şəhərdir ki, qlava divanxanasının on iki nəfər müsəlman vəkilinin cümləsi bisavad və məhz biri ancaq hıqqana-hıqqana adını yaza bilir?

– Bir qabdan ki sünniməzhəb su içə, o qabdan şiəməzhəb su içə bilər ya xeyr, o qabı yuyub təmizləmək lazımdır ya xeyr?

– Göydə ulduz çoxdur, ya müsəlman bazarında qumarxana?

– Yas evinə plov yemək üçün zor ilə hücum edən mollaları, ağlamaqdan ötrü cəm olan övrətləri rədd eləməyin çarəsi nədir?

– Harada bir elə təlim kitabı ələ gətirmək olar ki, müsəlman uşağına türk dilində savad öyrətmək mümkün ola?

– Tənbəllik və qeyrətsizlik hansı məmləkətin karxanalarından çıxır?

«Molla Nəsrəddin»in tənqidi təfəkkür tərzi XX əsr Azərbaycan mühitində, eləcə də qonşu ölkələrdə sürətlə populyarlaşır, öz ənənəsini yaradır və o oxucu auditoriyası ilə dialoqlara geniş yer ayırırdı. C.Məmmədquluzadə müasirlərinə düşündüyünü, arzuladığını deyil, gördüyünü, bildiyini yazmağı tövsiyyə edir, xalqın mövcud ictimai durumu, həyat tərzi, işi və əməlini mövzuya çevirməyi vacib bilirdi. Belə olduğuna görədir ki, o «dərviş nağılı»na qulaq asmağı, qədim dövrlərin mifik-mistik qəhrəmanları haqqında hekayətləri dinləməyi yox, Məhəmmədhəsən əmi, Zeynəb xala, Novruzəli, Usta Zeynal, Qurbanəli bəy, Xudayar bəy, Kefli İsgəndər, Hacı Həsən əmi kimi sadədil və sadəlövh insanların həyat tərzi və mənəvi iztirablarını qələmə almağı önəmli hesab edirdi. Elə həmin ideya – estetik mövqedə durduğuna görədir ki, C.Məmmədquluzadənin məsləhəti ilə Əbdürrəhim bəy Haqverdiyev, Qurbanəli Şərifov, Salman Mümtaz «Mozalan bəyin səyahətnaməsi»ni araya-ərsəyə gətirdi, Azərbaycan «Marallarım» kimi unikal bir bədii nəsr nümunəsinə sahib oldu, «Xortdanın cəhənnəm məktubları» milli bədii şüu-

rumuzun şedevri kimi tarix həqiqətinə çevrildi. Bu yöndə ardıcıl yaradıcılıq axtarışları apardığına görədir ki, «Molla Nəsrəddin»çilər Azərbaycanda milli satira mühiti və tənqidi realist yaradıcılıq məktəbi yarada bildilər. O həqiqəti görməsi və göstərməsi ilə deyil, həm də var olanları tənqid və təhlil etməsi ilə məşhurlaşdı. «Molla Nəsrəddin» doğrunu seçdi, doğruları örnək bildi. Çünki inamında sabitqədəm idi, doğrunun bir, yalanın isə min bir üzü və yolu olduğuna birdəfəlik qərar vermişdi. Həmin səbəbdəndir ki, «Molla Nəsrəddin»in tənqidi hədəfə düzgün dəyir, ictimai-mədəni həyatda islahedicilik funksiyası ilə rəğbət doğururdu. Lakin bundan narahat olan qüvvələr də yox deyildi. Milli tarixin qaragüruh qüvvələri, fanatizm və xurafat tərəfdarları, ifrat mühafizəkarlar, ehkamçı düşüncə sahibləri, yerli idarəçilik və çarizm «təəssübkeşləri», danosçular və başqaları «Molla Nəsrəddin»in meydana gəlməsini ilk nömrələrdən narahatlıqla qarşıladılar və son nömrəsindək onunla mübarizə apardılar. Lakin onların heç bir qazancları olmadı. Mollanəsrəddinçilər isə bizə milli tarix və mükəmməl yadaş miras qoydular. «Molla Nəsrəddin»in mübarizə əzmini möhkəmləndirən onun müasirləri idi. Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Üzeyir Hacıbəyov, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov kimi dövrün tanınmış ziyalıları və jurnalistləri onu müdafiə edir, milli mühitdə islahatlar aparmasına yaxından kömək edirdilər. Lakin qaragüruh qüvvələr də zəif deyildi. «İrşad» 1906-cı il 8 may nömrəsində bildirirdi ki, «İranın Batum konsulu rus qaradovoyları ilə əlbir olub «Molla Nəsrəddin»i oxuyanları «bədəfkar» dəftərinə yazırlar». Başqa bir xəbərdə isə deyilirdi: «Şiəməzhəb müsəlmanlarının Nəcəfdə oturan baş müctəhidlərindən Məhəmməd Kazım Xorasani və Abdulla Mazəndarani, Ordubadlı mollalardan Məhəmmədqasım, Murtuza Əlihüseyni Ordubadi, Əbdürrəhim Ənsari, Əbülhəsən Hüseynin imzası ilə vərəqə şəklində Təbrizdə fitva çap edilib yayılmışdır. Fit-

vanı imzalayanlar «Molla Nəsrəddin» jurnalının haram, onun redaktoru naxçıvanlı Cəlil Məmmədquluzadənin qətli vacib olduğunu elan edirlər» («Molla Nəsrəddin» j., 1908, № 4).

Mövcud gerçəkliyin ehkamları əleyhinə və siyasi haqq və hüquq uğrunda mübarizə apardığına görədir ki, «Molla Nəsrəddin» dəfələrlə senzor təqibinə, «əmmaməli jandarmlar»ın təzyiqinə məruz qaldı. Bu mənada Üzeyir Hacıbəyovun bir müşahidəsi «Molla Nəsrəddin»in mübarizə tarixinə aydınlıq gətirir. O yazır:

«Dövlət dumasını bağladılar. «Molla Nəsrəddin» jurnalını da bağladılar. Dövlət dumasını bağlayan hökumət oldu. «Molla Nəsrəddin»i də bağlayan hökumət oldu. Ancaq təfavüt burasındadır ki, Dövlət dumasını bağladılar padşah əmri ilə, amma «Molla Nəsrəddin» jurnalını danos ilə!!!

Bəli, alimi-məşhur olan qədim Molla Nəsrəddini dəxi müstəbid və müstəbüdlər xadimləri haqq və həqqaniyyəti üstündə sevməyib, o qədər incitdilər ki, yazıq axırda özünü dəliliyə vurdu...

«Molla Nəsrəddin»in bir o qədər «siyasi töhməti» yox idi ki, hökumət əhlinin xətrinə dəyə və onu da «müzürr məsləkinə görə» bağlaya idi. Xeyr! «Molla Nəsrəddin»in rus hökuməti ilə bir o qədər işi yox idi, bəlkə onun işi bizim öz hökumətimizlə idi. Yəni «Molla Nəsrəddin» haqq söz danışırdı.

Və haqq və həqiqət acı olduğuna görə, bizim həmişə «şirni» yeməyə öyrənmiş hökumətimizin xoşuna gəlmədi və gəlməyən surətdə «hökumət» hökumətə danos verib, haqq və həqiqətin ağzını yumdurdu...

Lakin yumdura bildimi?

Bu özgə məsələdir. Bunu get camaatdan xəbər al, desin! («İrşad» qəzeti, 12 iyun 1907-ci il, №109)

«Molla Nəsrəddin»in bağlanmasına səbəb kimi adətən onun rəsmən təsdiq olunmuş proqramından kənara çıxması, siyasi, milli məsələlərə geniş yer ayırması göstərilirdi. Jurnalın hökumət tərəfindən təsdiq olunmuş proqramı belə idi: «1. Söhbətlər, 2. Atmacalar, 3. Felyeton, 4. Yumorlu şeirlər, 5. Yumorlu teleqramlar, 6. Satirik hekayələr, 7. Lətifələr, 8. Poçt qutusu, 9. Yumorlu elanlar, 10. Şəxsi elanlar, 11. Karikatura və illüstrasiyalar» (Gürcüstan MDTA, f.17, s.e. qov. 5386, v-5).

Lakin «Molla Nəsrəddin» İranda məşrutə, türkiyədə tənzimat, Avropada inqilabi-demokratik hərəkat təcrübəsini bildiyindən, özünün dediyi kimi «Rusiyada çara atılan bombaların səsi ilə qəflət yuxusundan» ayıldığından daha ciddi ictimai-siyai problemlərin həllini məqsəd bilirdi. Bunun üçün sosial-siyasi mühit və tarixi zaman da yetişmişdi. Bu həmin vaxt idi ki, Rusiyada «Kukeruki» jurnalında çarın başı əvəzində xoruz başı rəsm olunur, «Rus «Molla Nəsrəddin»ləri (yəni Rusiyanın satira orqanları) «Novoye vremya» ilə Menşikovun şəklini çəkdikdə, həmişə bir adam və yanında bir ov iti çəkir»dilər. («İrşad» qəzeti, 19 iyun 1908, №91) Odur ki, «Molla Nəsrəddin» dünya ədəbiyyatının klassik satira ənənələrinə yaradıcı şəkildə istinad edir, Oskar Smerlinq, Rotter, Beno, Əzim Əzimzadənin satirik qrafika sənətinin gücünə arxalanır, bədii şüurun «eyham və kinayəsi ilə» milli gerçəkliyin və siyasi həyatın ən ağrılı problemlərinə toxunur, «milli mərəzləri» aradan qaldırmağa çalışırdı. Bu mənada «Molla Nəsrəddin» satirik ədəbiyyat axtarışında olan müasirlərinə ruh verir, millətin «bəsirət» gözünü açmağa çalışır, ədəbi qüvvələrin birləşdirilməsinə, vahid ictimai-siyasi mövqedən çıxış etməsinə mühüm əhəmiyyət verirdi.

Cəlil Məmmədquluzadə mollanəsrəddinçiliyin əhatə və nüfuz dairəsini genişləndirərək yalnız bədii sənətin və istedadın gücünə arxalanır, gənc ədəbi qüvvələrin ən ciddi məsələ-

lərə sadə və aydın dillə münasibət bildirməsini tövsiyyə edirdi. Azərbaycan satirasının inkişafında, xüsusən də milli komizmin düşüncə tipi kimi formalaşmasında əhəmiyyətli rol oynayan Üzeyir Hacıbəyovun tənqid üsulunu C.Məmmədquluzadə bəyəndiyi üçün, «Molla Nəsrəddin» jurnalının 1906-cı il 19-cu nömrəsində «Filankəsə cavab» satirasında onun izahları ilə zahirən razılaşmır, onları təshih edərək dəqiqləşdirirdi:

«...Yazırsınız ki, hər qurtaran mətləbdən sonra nöqtə qoyulur, məsələn, «Bu gün bazarda iki nəfər müsəlman dalaşıb bir-birini öldürdü. Bu mətləb qurtardı, bundan sonra nöqtə qoymaq lazımdır». Amma «Molla Nəsrəddin»in lüğəti lap özgə cür məna edir. Lüğətimiz yazır ki, əgər bazarda iki nəfər müsəlman dalaşıb bir-birini öldürdülər, burada nöqtə qoymaq böyük səhvdir, çünki hələ mətləb qurtarmayıb...». (Müəllimlərin keçmiş günlərindən. «İrşad», 16 avqust 1905, №193).

«Molla Nəsrəddin» milli mühiti zəhərləyən irticaçı və qaragüruh qüvvələri görür və göstərir, həm də onların islahı yolundakı çətinlikləri nəzərə çatdırırdı. Həmin çətinlikləri bildiyinə görədir ki, Cəlil Məmmədquluzadə 11 yanvar 1915-ci ildə Tiflisdən Məmmədəli Sidqiyə məktubunda yazırdı: «Bakıda Molla Nəsrəddin yazmaq olmaz, necə ki, sən özün də deyirsən» (Bax: Mirzə Cəlil və Məmmədquluzadələr. Məktublaşma. Bakı, Çinar-çap, 2003, s.39). Qarşılaşdığı bütün çətinliklərə baxmayaraq «Molla Nəsrəddin» böyük müasiri Əlibəy Hüseynzadənin dediyi kimi «bataqlığa daş atmaqdan, üstünün çirkaba bulaşacağından çəkinmir», dövrünün, milli gerçəkliyin və siyasi mühitin şəffaflığı uğrunda «zəhmət və qeyrət» sərf edir, «öz qövmümüzün başına əngəlkələf» olan, «millət necə tarac olur-olsun, nə işim var» deyən tiplərin zərərli ictimai-tarixi mövqeyini, antimilli psixologiyasını göstərir və tənqid edirdi.

Həmin səbəbdəndir ki, jurnalın redaktoru Cəlil Məmmədquluzadənin tutulması, yaxud öldürülməsi haqqında tez-tez şayiələr yayılırdı. Belə şaiyələrdən birinə «İrşad» qəzeti çox yaxşı cavab vermişdi: «Bir-iki nəfər məmmədquluzadələrin, nemanzadələrin ölümü ilə elə bilirsiniz ki, «Molla Nəsrəddin»i öldürəcəksiniz?... «Molla Nəsrəddin»i öldürmək mümkün olsa da, mollanəsrəddinçiliyi öldürmək olmaz» («İrşad» qəzeti, 21 fevral 1908-ci il.).

«Molla Nəsrəddin»dən sonrakı tarix sübut etdi ki, mollanəsrəddinçilik Azərbaycan xalqının milli-ictimai sərvəti, möhtəşəm təfəkkür həqiqəti, əbədiyyən var olacaq yaddaş abidəsi, vətən, dövlət və milləti üçün çalışanların «dildə, fikirdə, işdə» birlik prinsipləri ilə formalaşan yaradıcılıq və quruculuq konsepsiyasıdır. Tarix sübut etdi ki, «...onu başa düşməklə bərabər, onu hiss etmək də vacibdir» (Elçin) deyənlərin sayı onu öldürmək istəyənlərin sayından dəfələrlə çoxdur. Çünki «Molla Nəsrəddin» sözün doğrusunu danışırdı və deyirdi ki, hər bir zamanda sözün doğrusunu danışmaq ən böyük hünərdir. Bu gün «Molla Nəsrəddin» sözünün hikmətini yaşadan və onu əbədiyyətə daşıyan həqiqətlər həmin tarixi hünərə əsaslanır.

***

XIX əsrdə M.F.Axundov Azərbaycan mühiti üçün Qərb və Şərq mədəniyyətlərinin, o sıradan ədəbi-bədii düşüncə tərzlərinin sintezinə nail olan fenomenal bir şəxsiyyət, iki tərəfin müxtəlifliyini özündə ehtiva edən mütəfəkkir idi. XX əsrin əvvəllərində ictimai-mədəni xidmət arenasına çıxan «Füyuzat» və «Molla Nəsrəddin» ədəbi məktəbləri isə öz mənbəyini həmin fenomendən alan və ədəbi-mədəni intibah tariximiz üçün paralel istiqamətli (romantik və satirik istiqamət) işıq seli-axını rolu oynayan, habelə milli mədəniyyət nümunəsi və Azərbaycanda dünya standartlarına cavab verən bədii sənət yaddaşıdır. Bütöv bir milli mədəniyyətin

iki müxtəlif tərəfini təmsil edən bu mətbuat orqanları («Füyuzat» və «Molla Nəsrəddin») yanlış olaraq barışmaz tərəflər kimi qələmə verilmişdir.

«Füyuzat» jurnalının materialları ilə əsaslı tanışlıq belə bir qənaəti söyləməyə imkan verir ki: «Kitabi-Dədə Qorqud» qədim dövrdə, Füzuli irsi XVI əsrdə ümumtürk dəyərlərini mühafizə baxımından nə dərəcədə əhəmiyyətlidirsə, XX əsrin əvvəllərində həmin qiyməti yaşadan abidə «Füyuzat»dır. Bu ictimai-tarixi siqlətinə və xüsusi ədəbi məktəb yaratmasına görə «Füyuzat» və füyuzatçıların fəaliyyəti və yaradıcılığı aktuallıq kəsb edir.

Tarixin ən qədim dövrlərindən günümüzə qədər Azərbaycanda məslək-ideya, əqidə axtarışları, milli əxlaqi inkişaf problemləri ədəbiyyatla bağlı olmuşdur. XX əsrin əvvəllərində bu bağlılıq milli tərəqqinin bütün sahələrinə təsir edir, Azərbaycan istiqlal hərəkatının enerji mənbəyinə çevrilir. Həmin məslək və əxlaq bağlılığına əsaslanan milli ədəbi məktəblər – «Molla Nəsrəddin» və «Füyuzat»ədəbi məktəbləri ictimai fikir səhnəsinə daxil olur. Bu ədəbi məktəblər əsas nəşr orqanları ilə adlansalar da, bir sıra digər qəzet və jurnallar da həmin mövqeləri təmsil etmişdir. «Molla Nəsrəddin» (C.Məmmədquluzadə) və «Füyuzat» (Ə.Hüseynzadə) jurnalları bir-birinə məslək baxımından radikal müxalifətdə olmadılar, bədii-estetik düşüncə qarşıdurmasında oldular və beləliklə də müxtəlifliyin birliyi sayəsində hər iki tərəfin nümayəndələri Azərbaycan Xalq Cümhuriyyətinin müştərək ideoloji üstqurumunu yaratdılar.

XX əsrin əvvəllərində eyni ictimai-tarixi şərait və ədəbi mühitdə tərəf-müqabillik prinsipləri ilə fəaliyyətə başlayan mollanəsrəddinçilər və füyuzatçılar ideya-siyasi qarşıdurmada olmadılar və milli mədəni intibahın qaynaqlarını birgə yaşarnağa çalışdılar. Bu mənada XX əsr Azərbaycan ədəbiyyatının tanınmış tədqiqatçısı prof. X.Məmmədovun aşağıdakı mülahizələri mühüm elmi-tarixi səciyyə daşıyır.Həmin

qarşıdurmanın acı nəticələrini nəzərə alaraq o yazır: «Alimlərimiz bir qayda olaraq «ideya mübarizələri» ifadəsinə müraciət etmişlər. Bu isə son yetmiş ildə Cəlil Məmmədquluzadə və Əlibəy Hüseynzadənin, başlıca olaraq onların rəhbərlik etdikləri mətbuat orqanları – «Molla Nəsrəddin» və «Füyuzat»ın qarşı-qarşıya qoyulması ilə nəticələnmişdir. Alimlərimiz birincisini inqilabi demokratik mətbuat orqanı, realist ədəbi məktəb adlandırıb, haqlı olaraq tərəifləmiş, ikincisinə mürtəce romantik, əksinqilabçı pantürkist yarlıkı yapışdırıb, nəinki insafsızcasına pisləmiş, hətta müəyyən məqamlarda onun baş mühərriri və müəlliflərini təhqir etməkdən çəkinməmişlər»[1].

«Füyuzat»la «Molla Nəsrəddin» arasında olan bədii-estetik qarşıdurma, bəzi hallarda isə ziddiyyətlər radikal düşmənçilik xarakteri daşımır, tərəflər arasında təsir və əks-təsir mahiyyəti ilə səciyyələnirdi. Bu təsir bəzən ciddi ziddiyyət mənası daşısa da, bütövlükdə Azərbaycan ədəbi-mədəni inkişafının dialektik məntiqini şərtləndirirdi. Daha doğrusu, tərəflər arasındakı əksliklərin vəhdəti və ziddiyyəti həm milli ictimai, həm də ədəbi-bədii inkişafın dialektikasını təmin edirdi. Bunun nəticəsidir ki, «ağırbaşlı», təkamülçü-demokrat Ə.Hüseynzadənin rəhbərlik etdiyi «Füyuzat» ədəbi məktəbi H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq və başqalarının, «ağsaqqal yoldaş»[2] inqilabçı-demokrat C.Məmmədquluzadənin rəhbərlik etdiyi «Molla Nəsrəddin» ədəbi məktəbi isə M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmküsar, Ə.Haqverdiyev, Ə.R.Şamçızadə, B.Abbaszadə (Hambal), Ə.Məhzun və başqalarının ədəbi aləmdə öz yerini təsdiqləməsinə meydan açmışdır.

---

[1] Xeyrulla Məmmədov. Əlibəy Hüseynzadə «Molla Nəsrəddin» jurnalı haqqında. «Ədəbiyyat» qəzeti, 3 may 1991-ci il. №18.

[2] Çəmənzəminli Y.V. Ədəbi dövrün başçısı. «Ədəbiyyat qəzeti», 30 yanvar, 1934-cü il, №3.

Füyuzatçı ideya-bədii konsepsiyanın təkamülündə Türkiyə, İran, Rusiya, Fransa, İngiltərə, Almaniya və başqa ölkələrin ictimai-siyasi həyatı, ədəbi mühiti ilə tanışlıq xüsusi, təkanverici rol oynamışdır. Bu ölkələrdə ictimai düşüncə ilə bədii axtarışların inkişafını paralel şəkildə izləyən füyuzatçılar inqilabi keçid vəziyyətlərinə, tarixin ictimai-siyasi ziddiyyətlərinə mühüm diqqət yetirir, həmin ölkələrin demokratik dövlət mexanizmi qurmaq təcrübəsini xalq mentaliteti ilə əlaqəli öyrənməyə çalışırdılar. Bu baxımdan Türkiyə həyatı ilk maraq doğuran gerçəklik idi. XVIII əsrdən Osmanlı imperatorluğunda eşqiyallıq hərəkatları dövlətin idarəetmə işini zəiflətməyə əsas yaradırdı. Özbaşınalıq – ləvəndlik, dövlətdən narazılıq üzündən get-gedə güclənən qaçaqçılıq hərəkatı hətta, dövlət üçün ciddi təhlükəyə çevrilirdi. Odur ki, yerlərdə nəzarət artırılır, kadı, sancaqbəyi, naib, bəylərbəyi, müfəttiş, paşaların müstəqil qərarvermə və mürtəce səlahiyyətləri bir sıra zülm və haqsızlıqlar törədirdi. Həmin vaxtlardan «Osmanlı ədaləti»nin yerini «Osmanlı zülmü» almış olur»[1], dövlətdən narazılıqlar çoxalırdı.

XVIII əsrin ikinci yarısında meydana çıxmaqda olan bu kimi etirazlar, XIX əsrin birinci yarısında ciddi ictimai-siyasi mahiyyət kəsb edir, yeni osmanlılar və ya gənc türklərin islahatçı-reformist görüşlərinin təkmilləşdirilməsində gerçək zəmin rolunu oynayırdı.

İctimai idarəçilikdəki monarxizm əleyhinə siyasi mübarizə buradan qidalanır, yüksək Avropa təhsili görmüş vətənsevər türk ziyalılarının konstitusiyalı cəmiyyət, parlamentli üsuli-idarə arzusu, nəhayət, I (1867) və II (1908) tənzimat hərəkatları öz mənbəyini həmin səbəblərdən alırdı. Atılan hər bir addımda isə Vətən, Dövlət və Milətin taleyinə xüsusi həssaslıq göstərilirdi. Məhz həmin anlayışların bədii ədəbiyyata gətirilməsinə geniş yer ayıran, habelə fəaliyyətində ic-

[1] Mustafa Akdağ. Osmanlı tarihinde Ajanlıq düzeni devri 1730-1839. TAD, cilt VIII-VII , sayı 14-23, s.56-57.

timai-siyasi motivlərə bu dəyərlər kontekstində üstünlük verən tənzimatçıların işi Avropa ölkələrində və öz mühitində birmənalı qarşılanmasa da, onlar ideya mətinliyi göstərirdilər. Gənc türklərin I Tənzimat hərəkatına dair ilk xəbər – «İlk həvadis Parisdəki «La Liber tee» qəzetinin 8 iyun 1867-ci il saylı nəşrində görülmüşdür. Digər Avropa qəzetləri xəbəri «İstanbulda bir inqilab təşəbbüsü, Osmanlı imperatorluğunda parlamentar idarə qurulması yolunda çalışmalar başlıqları ilə vermələrinə müqabil bir qism qəzetlər də olayı hökumətə qarşı bir komplo, bir sui-qəsd təşəbbüsü olaraq vermişlərdir».[1] Tənzimatçıların normal hüquqi dövlət, monarxizmdən fərqli parlamentar dövlət tipi, konstitusiyalı cəmiyyət arzusu müxtəlif siyasi rəylər doğurub, bəzən yerli mühitin kəskin təzyiqlərə məruz qalsa da, onlar islahatçılıq yolundan dönməyəcəyini elan edir, vətən və vətəndaşlıq mövqeyini ardıcıl tərənnümə mühüm əhəmiyyət verirdilər. Bu isə onların demokratik düşüncə tərzi, sənətkar və şəxsiyyət tipi, azadlıq arzuları ilə bilavasitə bağlı idi.

Türk ədəbiyyatının tanınmış tədqiqatçısı V.A.Qordlevski tənzimat hərəkatı və ədəbiyyatının liderlərindən olan N.Kamal haqda düzgün olaraq yazır ki, «O sözün həqiqi mənasında demokrat idi, ömrü boyu yurddaşlarının azadlığına buxov olan mövhumata qarşı mübarizə aparmışdır. Şərqşünas Lunçi Bonelli onu Avropa ideyalarının apostolu adlandırmışdır. Buna əlavə edək ki, o, doğrudan da apostol kimi öz həyatı bahasına bu əqidəyə gəlmişdir».[2] V.A.Qordlevskinin «Osmanlı Mirabosu» kimi qiymətləndirdiyi N.Kamal ideya mətinliyi, fikir azadlığı, demokratik mübarizə üsulları, orijinal bədii sənət imkanları və şəxsiyyəti ilə füyuzatçıların maraq dairəsində əzəmətli yer tutur, rəğbətlə xa-

[1] Enver Koray. Meslek Kuruluşu ve faaliyyeti, Belleten, Ankara, Türk tarih kurumu, cilt I, IV,, say 211, aralık 1990, s.1158.

[2] Гордлевский В.А. Избранные сочинения (12-х томах. т.ЫЫ) изд Восточный лит. 1961, стр.358.

tırlanır və təqlid olunurdu. Çünki «Namiq Kamal fitrətən idealist (idealiste), təbən romantik (Romantique) və entuziazist (enthousiaste) yaradılmış bir ədib idi».[1]

Belə şəxsiyyət və yaradıcılıq dəyərlərini özündə cəmləşdirən N.Kamal romantik-füyuzatçıların mədəni-mənəvi tələblərini ödəyən bir sənətkar, ictimai-siyasi fikir adamı kimi Azərbaycan ədəbi mühitində böyük nüfuza malik idi.

«Füyuzat» jurnalında formalaşan orijinal ədəbi axtarış meyli, elmi-nəzəri və estetik prinsiplər sonrakı illərdə daha geniş və çoxplanlı şəkildə inkişaf etdirilirdi. «Füyuzat»çı ədəbi-bədii konsepsiya təkcə həmin jurnalda çıxış edən mühərrirlər tərəfindən deyil, ədəbiyyat səhnəsinə gələn gənclər tərəfindən də yeni mətbuat orqanlarının səhifələrində davam etdirilirdi. Bu zaman sənət və ictimai həyat, sənət və sənətkar azadlığı, bədii təfəkkürün nəzəri əsasları, din və onun mahiyyəti, qadının ictimai həyatda yeri, mətbuat, maarif və mədəni tərəqqi məsələləri, milli dil, ədəbi janrlar, inqilabi gerçəklik, bədii tərcümə, klassik irsin öyrənilməsi və s. məsələlər füyuzatçılar tərəfindən daha çox qabardılır, elmi ictimaiyyətin diqqəti belə məsələlərin həllinə yönəldilirdi.

«Füyuzat»çı ədəbi platforma «Mola Nəsrəddin» ədəbi məktəbi ilə ideya-bədii mübadilədə təkmilləşir, yeni bədii forma və məzmun axtarışlarına səbəb olur, milli-mədəni tərəqqini təmsil edən müstəqil xətti-hərəkat kimi meydana çıxırdı. İstər-istəməz belə bir sual meydana çıxır. «Füyuzat»ın ədəbi ənənələrini davam və inkişaf etdirən orqlanlar hansılar idi? İndiyəqədərki tədqiqatçılar bunu müxtəlif şəkildə müəyyənləşdirmişlər. XX əsr Azərbaycan mətbuatına dair öz əhatəli, icmal yazısında Ə.Mirəhmədov bildirir: «Həyat» və «Füyuzat» dan sonra, bir tərəfdən qatı burjua millətçiliyi cəbhəsi tutmuş «Yeni Füyuzat» (1910-1911), «Şəlalə» (1913-1914), «Açıq söz» (1915-1918), «Dirilik» (1914-1916) kimi qəzet və jurnallar, o biri tərəfdən də burjua məfkurəsi

[1] İ.Hikmət. Türk ədəbiyyatı tarixi (I hissə), Bakı, Azərnəşr, 1925, s.52.

ilə demokratik məfkurə arasında tərəddüd edən «Tərəqqi» (1908-1909), «Təzə həyat» (1907-1908), «İttifaq» (1908-1909) kimi qəzetlər çıxırdı. Göstərilənlərdən əlavə, o zaman hətta bir ay da ömür sürə bilməyən bir çox digər jurnal və qəzetlər də çap olunmuşdu ki, onlardan bəzisi pulsuzluq, bəzisi də müxbir, müəllif, məqalə, yoxluğu üzündən öz işini dayandırmışdı («Hilal», «Şəhabi-saqib», «Məlumat» «Asari-həqiqət», «Mirat» və s.)».[1] Lakin SSRİ-nin süqutu ərəfəsi və milli məstəqilliyin əldə olunması dövründə Ə.Mirəhmədov mətbuat və ədəbiyyat tarixinə dair düşüncələrinə düzəliş edərək sinfilik nəzəriyyəsinə əsasən apardığı bölgüdən imtina etdi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və başqalarının tarixi roluna böyük qiymət verərək «Təqsirimi yumaq istəyirəm» («Ədəbiyyat qəzeti», 21 fevral 1992-ci il) adlı məqaləsində «Füyuzat» ədəbi məktəbi və füyuzatçıların tarixi roluna da aydınlıq gətirdi.

«Füyuzat»çı müəlliflər sırasına H.Vəzirov, S.E.İbrahimov, Əhməd Midhət Rüfətov, M.Ə.Rəsulzadə, Ə.Müznib, X.X.Səbribəyzadə, A.Səfvət, Ə.Səbur, Ə.Cənnəti, S.Zərgər, İ.Azər, H.S.Səyyah, S.Mənsur, R.Zaki və başqalarını, mətbuat orqanları sırasına isə «Qurtuluş», «Yeni qurtuluş», «Lisan», «Səda», «Sədayi-həqq», «Sədayi-Vətən», «Övraqi-nəfisə», «Açıq söz», «İqbal», «Yeni iqbal», «Yeni İrşad», «Bəsirət», «Azərbaycan» və başqalarını da artırsaq, füyuzatçı ədəbi-estetik platformanı tanıdan qüvvələri müəyyənləşdirmək olar. Adı çəkilən mətbuat orqanlarından biri olan «İqbal» qəzetində «Füyuzat»ın ideya-estetik inkişaf istiqaməti nəinki davam etdirilir, hətta bu mövqe inamla müdafiə olunurdu. Qəzetdə dərc edilən «Tənqid ediliyoruz» məqaləsində deyilirdi: «Füyuzat»ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır. Türk hissiyyatı ilə mütəhəssis, islam dini ilə mütəddin və avropa mədəniyyəti – hazirəsi ilə mütəməddin olmaqdır»[1]. «Füyuzat»çılar mətbuatın roluna bö-

[1] Hüseyn S. Tənqid ediliyoruz. «İqbal» qəzeti, 1912-ci il, № 152.

yük əhəmiyyət verir, yeni ideya-bədii düşüncənin formalaşmasında və geniş xalq kütlələri arasında yayılmasında onun əvəzsiz olduğunu bildirirdilər.

«Füyuzat»çı ideya-estetik mövqeyin və bədii yaradıcılıq ənənəsinin davam və inkişaf etdirilməsində **«Yaşıl qələm»** ədəbi cəmiyyətinin fəaliyyəti mühüm elmi-tarixi əhəmiyyət daşıyır. Zəngin tarixi-mədəni ənənəyə malik olan Azərbaycan ədəbiyyatı əsrimizin əvvəllərində yeni yüksəliş mərhələsinə qədəm basır və çoxplanlı inkişaf, əvəzsiz intibah dövrünü yaşayırdı. Həmin vaxtda ənənəvi inkişaf normativləri dağıdılır və müasirlik meylləri ilə seçilən yeni ədəbi nəsil milli intibah naminə dünya mədəniyyəti orbitinə çıxmağa çalışırdı. Onlar xalqımızın tarixi taleyinə bağlı, dünya standartlarına cavab verən ədəbi əsərlərin yaradılmasını arzulayırdılar. Əsrin ilk illərində Ə.Ağaoğlu məişət mövzularında vodevil, dram əsəri, hekayə yazanları tənqid, Ə.Hüseynzadə tarixi-fəlsəfi romanların yazılmasını tələb edərkən, C.Məmmədquluzadə başda olmaqla bütün mollanəsrəddinçilər ənənəvi gül-bülbül, mey-məhbub ibarəpərdazlığının əleyhinə çıxarkən, Ə.Hüseynzadə və «Füyuzat»çı qələmdaşları romantik metodun tətbiqinə çalışarkən məhz həmin arzuda idilər. Milli-mədəni intibahı bəşəri fakta çevirməyə nail olan Mollanəsrəddinçi və Füyuzatçı Azərbaycan ədiblərinə həm də müstəqil məktəblər yaratmaq səadəti nəsib oldu ki, sonralar bir müddət bu yeni və orijinal məktəblər mədəni inkişafımızın istiqamətlərini müəyyənləşdirə bildilər.

«Füyuzat»çıların klassik irsə münasibətində «zəka səltənəti» əsas götürülür, əqli dəyərlər arasında milli sərhədlər qoyulmadığı kimi Şərq və Qərb mədəniyyəti, ədəbiyyatı arasında da regionallıq səddi çəkilmir, bunlar bir bütövün iki tərəfi, tərəfmüqabil olan mədəniyyətlər sistemi kimi qiymətləndirilirdi. Klassik Şərq və Qərb mədəniyyətlərinin tipologiyasını açıqlamağa çalışan "Füyuzat"çılar bu iki mədəniyyət və

ədəbiyyat tipinin vəhdətdə öyrənilməsi yolu ilə çağdaş milli intibaha xidmət göstərməyin mümkünüyünə inanırdılar.

Bu, həm də "Füyuzat"çıların gerçəkliyə qlobal fəlsəfi baxışı ilə bilavasitə bağlıdır. "Füyuzat"çıların Şərq və Qərb, müsəlman və xristian aləminin mədəniyyət və ədəbiyyatını qarşılıqlı əlaqə və müqayisədə təhlili onların bütöv dünyanı anlamaq istəyinə əsaslanırdı. Ona görə də "Füyuzat"çılar gerçəkliyə elmi və dini baxışın hər ikisinə haqq qazandırır, "elmi-əbdan və elmi-ədyan"a dair kəskin mübahisələrin sonunda bunların vəhdətinə haqq qazandırırdılar.

Milli ədəbi-mədəni yüksəlişi ümumdünya sivilizasiyasının tərkib hissəsi kimi qiymətləndirən "Füyuzat"çılar ayrı-ayrı millətlərin istər müasir, istərsə də tarixi ədəbiyyat və mədəniyyət örnəkləri arasındakı ideya-estetik əlaqə, sənətkarlıq ortaqlığına mühüm diqqət yetirir, qarşılıqlı bədii-tarixi yaradıcılıq inteqrasiyasının səmərəli yol olduğunu bildirirdilər.

Ədəbi-tarixi tədqiqatları ilə elmi ictimaiyyətin rəğbətini qazanan A.Sur eyni baxışı müdafiə edir, klassik irsin öyrənilməsi zamanı nəzəri-estetik prinsiplərin təkamül mərhələlərini araşdırmağı, bədii sənətkarlıq məsələlərini müxtəlif millətlərin ədəbiyyatı kontekstində şərh etməyi məsləhət görürdü. Qarşılıqlı ədəbi inteqrasiyanı mühüm hadisə kimi qiymətləndirən A.Sur deyirdi: "Məlum olduğu vəchlə cümlə millətlər maarif və mədəniyyəti əsasən bir-birlərindən iqtibas edərək gəlmişlər... Qərb xristianları bu günkü mədəniyyətin əsasını ərəblərdən aldığı zatən bəllidir. Bir vəqt vardı ki, nəsra paşaları Əndəlüsdə ərəb maarifi kəsb edirlərdi. Şərqdəki türklər, farslar həm ərəb mədəniyyətini tərvicə çalışırlardı. Rus qövmü maarifi-ibtidaiyyəyi Qərbi Avropadan almadımı? Şimdiki türklər dəxi firənglərin maarifi-mədəniyyətindən istifadə etmiyorlarmı?"[1] Klassik elmi-mədəni və ədəbi-bədii dəyərlərin ayrı-ayrı xalqlar tərəfindən mənimsə-

[1] A.Sur.Bir tövsiyy.ə, "İrşad" q., 3 sentyabr 1906-cı il.

nilməsini və daha da təkmilləşdirilməsini təbii bir hal kimi qiymətləndirən "Füyuzat"çılar bundan istifadə edərək milli məhdudluğu, elmi-mədəni geriliyi, sosial əzaləti tənqid edirdilər. "Elmi-əbdan və elmi-ədyan" qarşıdurması yaradan yalançı "üləmalar", müsəlman və xristian mədəni aləmi arasında sədd çəkən missionerlər həmin mövqedən tənqid olunurdular. Bu zaman tarixin və hətta mifoloji yaddaşın bütün dünya xalqları üçün örnək sayıla biləcək bədii mətnlərinə, ayrı-ayrı ədəbi-tarixi qəhrəmanlar, populyar süjetlər, qədim dövrün mütəfəkkirləri, elm və sənət adamları ön plana çəkilirdi. Bunun nəticəsidir ki, "Füyuzat"çıların, ən çox da Ə.Hüseynzadənin istər bədii əsərlərində, istərsə də elmi-publisistik yazılarında özünün ensiklopedik elmi biliyi və ədəbi-tarixi fəaliyyəti ilə dünya miqyasında tanınan Zərdüşt, Budda, Konq-Fuçeo, Şakiyamu, Ərəstun, Əflatun, Sokrat, Siseron, Aristofan, Horatsi, Yuvenal, İbn Sina, Biruni, C.Rumi, İbn Rüşd, Bəhmənyar, N.Tusi, F.Əttar, Ə.Məərri, İmam Qəzali, Farabi, Ə.Firdovsi, Sədi, Sənai, Şeyx Bəhai. Ö.Xəyyam, N.Gəncəvi, Ə.Nəvai, Qaani, Ə.Xaqani, Nəfi, Hafiz. Nədim, Şopenhauer, Spinoza, E.Hartman, Spenser, C.Bruno, Q.Qaliley, Kopernik, Lassal, B.Paskal, Nyuton, Ç.Darvin, Lavvuazye, Rentgen, Qalvani, Edisson, Kolumb, Kox, Marqoni, Berinq, Şarko, Lomonosov, Şarl Küvye, Vaqner, Menşutkin, Droper, Kitozato, Paster, Devü, Meçnikov, D.Didro, Volter, Montesküye. J.J.Russo, Mirabo, Laplas. Robespyer, O.Kont, İ.Kant, K.Marks, Mendeleyev və onlarca başqa bu kimi şəxsiyyətlərin adına tez-tez rast gəlmək mümkündür. Həmin mütəfəkkirlərə istinad edən "Füyuzaf'çılar klassik elmi-tarixi və ədəbi-mədəni dəyərlərin səyyar xarakter dasıdığını göstərir və bından istifadə edərək özünü təkmilləşdirməyi mühüm vəzifə sayırdılar. "Füyuzaf'çılar ictimai tarixlə ədəbi-mədəni fikrin təkamül yolunu paralel şəkildə öyrənir, türk xalqlarının vahid kökə bağlılığını ayrıca vurğulayırdılar. Onlar türk

xalqlarının ədəbiyyatını ortaq dəyərləri, keyfiyyətləri ilə birgə izaha çalışsalar da, milli-etnik məhdudiyyətə qapılmır, başqa xalqlarla, ən çox da Şərq xalqları ilə müqayisəli şəkildə təhlilə üstünlük verirdilər. Bu zaman Azərbaycan-türk ədəbiyyatlarının fərdi xüsusiyyətləri və onun ümumtürk xalqları, habelə başqa Şərq xalqları ilə ortaq yaratdığı ədəbiyyatın sintetikliyi şərh olunurdu. Xatırlatmaq lazımdır ki, bu bir tərəfdən "Füyuzat"çıların ədəbi-tarixi gerçəkliyə baxış səviyyəsi ilə əlaqədardısa, digər tərəfdən predmetin özündən doğurdu. "Füyuzat'çılar analitik təhlil və fərdiləşmə prinsipinə müqayisəli tədqiqatda üstünlük versələr də, türklük dəyərlərini bütöv bir sistem halında görməyi başlıca şərt sayırdılar.

«Füyuzat»çılar *Şərq* mədəniyyəti və ədəbiyyatının ilkinliyini, habelə onun ibtidai dövrlərdən bəri qazandığı elmi-tarixi və bədii-estetik dəyərləri düzgün qiymətləndirir, bir sıra hallarda isə bu bədii təfəkkür tərzinin regional təkamül xüsusiyyətlərini, tipoloji fərqini aydınlaşdırmağa ciddi səy göstərirdilər. Eyni hal Qərb mədəniyyəti və ədəbiyyatı ilə (eləcə də qədim yunan mifalogiyası və ədəbiyyatı ilə, habelə fransız, alman, ingilis klassikləri ilə) bağlı tədqiqatlarda da özünü göstərirdi. Bəşər tarixi və dünya mədəniyyətini bütövlükdə, bu mənada anlamaq istəyi "Füyuzat"çıların fərdi mövqeyini müəyyənləşdirən nəzəri-estetik keyfiyyətidir. Bu baxımdan Ə.Hüseynzadə milli-tarixi məhdudiyyətə qarşı çıxması, ümumbəşəri elmi-mədəni uğurları qorumaq istəyi çox önəmlidir. O, 1905-1907-ci illərdə "erməni xəstəliyinə" düşən qonşularımızın özünün şovinist fəaliyyəti ilə yanaşı yaşayan iki xalqı vuruşdurub milli "qəhrəman" kimi tanınan bəzi nümayəndələrinə üz tutub deyirdi:" Yüksəlin, qonşular, yüksəlin! Dar bir milliyyət, bir nasionalizmə dairəsindən dışarı çıxınız!... Əfradi-millətinizi zəlalətə düçar etməyiniz...Şekspirlərin, Hötelərin, Jan-Jak Russoların, Lassalların, Marksların, Tolstoyların məziyyətləri, qədr və qiymət-

ləri yüksəlib milliyyət xaricinə çıxdıqları balafərq qövm və milləti-ümumbəşəriyyətin, insaniyyətin vəlinemətləri olduqları üçündür...Bir işıq yüksəldikcə, yuxarılara çıxdıqca o nisbətdə uzaqları tənvir edər, odur ki, bütün aləmə işıq və hərarət verən şəmsi-taban ən uca, ən büləND bir nöqtədədir...Bu gün bu qədər elm və maarifinizlə, sərvətü-samanınızla bərabər degil, ümum insaniyyətə, hətta bir-iki qonşularımızı dəxi müstəfid edəcək, içinizdən bir fərd yetişmədi!...İçinizdən nə bir Əbu Əli Sina, nə bir Mollayi-Rumi, nə bir Uluğ bəy göstərəməzsiniz! İki min illik tarixinizi qarışdırsanız yenə göstərəməzsiniz! Əflatunlar, Aristolar, Homerlər yetişdirəıı yunanilərə, Musalər, İsalər, Spinozalar, Heynelər, Lassallar yetişdirən yəhudilərə heç bir vəchlə müşabihitəniz yoxdur!...Yüksəlmədikcə, əxlaqınızı təthir etmədikcə milliyyət xəyaləti-vahiyyəsini beyninizdən çıxarıb atmadıqca, ümumbəşəriyyətə, insaniyyətə İsalər, Məhəmmədlər, Buddalar kibi bir nəzərlə baxmadıqca məşabədə olamazsınız, bir vərtəyihəlakə düşüb gedərsiniz!..."(Bax: Ə.Hüseynzadə "Milliyyət və insaniyyət" məqaləsi).

"Füyuzat" ədəbi məktəbinin nümayəndələri fəlsəfi dünyagörüşündə idealizmə üstünlük verdiyinə görə klassiklərə və ədəbi-tarixi abidələrə də həmin mövqedən yanaşırdılar. Tarixi ədəbi-elmi təcrübəni və şəxsıyyətin fərdi imkanlarını vəhdətdə götürən "Füyuzat"çıların fövqəladə qabiliyyət, istedad anlayışına münasibətində bunu aydın görmək olar.

«Füyuzat»çılar klassiklərin yaradıcılığındakı ictimai-siyasi motivlərə mühüım əhəmiyyət verir və onların həyatı, yaxşılığa doğrıı dəyişdirmək uğurunda mübarizəsini diqqət mərkəzinə çəkirdilər. Bu baxımdan Nizami, Ö.Xəyyam, M.C.Rumi, Sədi və s. kimi Şərq klassiklərinin yaradıcılığındakı rasioual, fikirləri üzə çıxaran, yayan "Füyuzat"çılar XVIII əsr fransız maarifçi-materialistlərinin, habelə XIX əsr rus inqilabçı demokratlarının mübariz həyat tərzini, yaradıcılığını örnək hesab edirdilər. Azərbaycan poeziyası tarixin-

də həm də siyasi mübariz, döyüşkən romantik kimi tanınmış M.Hadi bildirirdi ki, "Fransa kimi mədəniyyət qucağında yaşayan, göz qamaşdıran bir həyata nail olanlar öz-özünə nail olmamışlardır. Bunu Volterlərin, "Məqalati-ictimaiyyə" mühərriri Jan-Jak-Rıssoların, Mirabo vo Robespyerlərin mürəkkəbləri dogurmuş və parlatmışdır. Vətəni şairlərin atəşin nəğmələrini də unutmamalı... Qalın qafaları incəldən, maziyi-eşqi, əfkari-nataraşidəyi rəndələyən, kiflənmiş dimağları silən həp ictimai yazıçılar olmuşdur"[1]. Belə bir aydın ictimai-siyasi və tarixi mövqeyi izləyən "Füyuzat"çılar "inqilabın ən yeganə yardımçıları"[2] idi.

«Füyuzat»çılar ədəbi fikirdə tarixən özünə bu və ya başqa dərəcə yer tutmuş, yaxud da onun inkişafına müəyyən təsir göstərmis dini təriqətlərə, siyasi təmayüllərə, ictimai hərəkatlara, fəlsəfi konsepsiyalara və elmi-nəzəri yeniliklərə böyük həssaslıqla yanaşırdılar. Bu isə hər şeydən öncə "füyuzat"çıların klassik irsdə ictimai motivlər araması və klassiklərin sosial-siyasi dünyagörüşünə ardıcıl marağı ilə bağlı idi. «Füyuzat»çıların yaradıcılığında sufizm, hənəfi, hənbəli, hürufi, şafei, hüluli, maliki, neməti, heydəri, vəhabi, qızılbaşlıq, katolik, protestant, xristianlıq haqqında geniş bilgi və düşüncələrin olması fikrimizi bir daha təsdiqləyir.

Ensiklopedik zəka sahibləri kimi təbliğ olunan antik yunan filosofları, qədim Şərqin poeziya nümayəndələri, XVIII əsr fransız maarifçi-materialist mütəfəkkirləri, Almaniyada "fırtına və təzyiq" hərəkatını doğuran ədəbiyyat xadimləri, ingilis romantikləri, Rıisiyanın inqilabçı-demokrat yazıçıları, Avropanın macəra romançıları və s. füyuzatçıların ədəbi-estetik ehtiyaclarını daha çox təmin etdiyinə görə onların özü və ya əsərləri haqqında tez-tez miixtəlif istiqa-

[1] M.Hadi. İctimai səhifələr. İnqilab fikri, yaxud müsəlmanların düşünməsi lazım gələn həqiqətlər, «İqbal» qəz., 19 fevral, 1914, №82.
[2] Yenə orada.

mətli ədəbi-elmi açıqlamalara rast gəlmək mümkündür. Haqqında söhbət gedən müəllifə və qaynaqlara "füyuzaf'çılar bir neçə məqsədlə üz tuturdular. Birinci: dünyanın elmi-tarixi, fəlsəfi fikrini öyrənib onu milli elmi-tarixi və fəlsəfi fikirlə müqayisə edə bilsinlər. İkinci: Bu müqayisədən əldə olunan elmi-nəzəri qənaət vasitəsilə xalqın ümummədəni təkamül yolu və mərhələlərini aydın işıqlandırsınlar. Üçüncü: Milli-mədəni inkişafa ziyan gətirən yad təsirləri, o sıradan missioner siyasətini sarsıtmaq, çağdaş milli ədəbiyyatı dünya ədəbi hərəkatının tərkib hissəsinə çevirmək mümkün olsun. "Füyuzat"çıların ədəbi-elmi axtarışlarında daim nəzərdə saxladığı bu üç məqsədi "Füyuzat" ədəbi məktəbinə mənsub olan müəlliflərin bədii yaradıcılıq prinsipi kimi də qiymətləndirmək olar, lakin unutmaq olmaz ki, bu üç tələb hər şeydən əvvəl klassik irsin ideya-siyasi fikir arsenalından səmərəli bəhrələnmək, milli özünü anlama və özünüqoruma işinə xidmət edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Türkiyə ziyalıları öz dövlətinin tarixi taleyi və xalqının ədəbi-mədəni inkişaf qayğılarını həmişəkindən daha çox düşünür, bu yolda həbs, sürgün və mühacirətlərlə dolu iztirablardan çəkinmir, bütün əməli fəaliyyətlərində vətən və vətəndaşlıq idealına sadiq qalmağı şərəfli vəzifə sayırdılar. Həmin dövrdə müxtəlif Avropa ölkələrinə təhsil almaq məqsədi ilə və yaxud da mühacirət səbəbi ilə gedən ziyalılar Qərbin çağdaş elm, mədəniyyət və ədəbiyyatı ilə yaxından tanış olur və onu dərindən mənimsəyərək doğma vətənlərində görmək arzusu ilə yaşayırdılar. Bu istəyin nəticəsidir ki, tənzimatçıların siyasi fəaliyyətinə paralel şəkildə türk təcəddüd ədəbiyyatı meydana gəlmiş və o qonşu müsəlman ölkələrinə, eləcə də Azərbaycan ədəbi-mədəni fikrinin intibahına müəyyən təsirlər göstərə bilmişdi. «Füyuzat» ədəbi məktəbinin nümayəndələri haqqında danışılan ədəbi hərəkat meylinə xüsusi diqqət yetirən, ondan səmərəli şəkildə bəhrələnməyə üstünlük verən Azər-

baycan ziyalıları idi. Onlar bu baxımdan «ədəbiyyati-cədidə» yaradıcılarının işini, Türk ədəbiyyatındakı «qərbləşmə» hərəkatını Avropaya atılan bir körpü misalında təqdir edirdilər. «Türkləşmək, islamlaşmaq, müasirləşmək" kimi üçlü prinsipə əməl edən füyuzatçıların müasirləşmək-avropalaşmaq fikri təcəddüdçülərin «qərbləşmək" ideyası ilə üst-üstə düşdüyündən Azərbaycan ədəbi-ictimai fikri üçün «ədəbiyyati-cədidə" həm də Avropaya açılan pəncərə demək idi. Odur ki, Avropada yetişən ictimai-siyasi düşüncə tərzi, parlamentarizm və demokratik ideyalar, habelə bunları özündə əks etdirən ədəbiyyatı dərindən mənimsəmiş "ədəbiyyati-cədidə" nümayəndələrinin fəaliyyəti füyuzatçılar tərəfindəu ardıcıl təbliğ və təqdir olunurdu. Bu zaman peşəkar ədəbiyyat xadimlərinin bədii tərcümə işi, müstəqil ədəbi yaradıcılıq uğurları diqqət mərkəzinə çəkilir, konkret olaraq ayrı-ayrı sənət adamlarının Azərbaycan ədəbi-ictimai mühitinə tanıdılması təxirəsalınmaz vəzifə sayılırdı.

Azərbaycan və Türkiyə çağdaş ədəbi əlaqələrinin çoxplanlı səciyyə daşımasını, bunun ideya-estetik ünsiyyət və bədii sənətkarlıq təsirləri səviyyəsində inkişaf etdirilməsini öncə "füyuzaf'çıların və "ədəbiyyati-cədidə"çilərin fəaliyyətindəki məqsəd eyniliyi doğururdu. Bu məqsəd eyniliyini isə təkcə ideya-estetik düşüncə yönündəki ortaqlıq deyil, həm də ədəbiyyatın, sənətin nəzəri əsaslarına vahid konseptual baxış bucağının olması şərtləndirirdi. Hər iki tərəfin "Sərvəti-fünun"da qətiyyətlə irəli sürülən "Sənət sənət üçündür" prinsipinə nəzəri-estetik doqma, ehkam kimi deyil, yaradıcılıqla yanaşması da həmin mövqe müəyyənliyi və eyniyyətini meydana gətirən amillərdəndir. Bu baxımdan şəlalələçilərin məşhur türk ədibi Səzai bəy yaradıcılığına münasibəti hər iki tərəfin novatorluq iddialarını aydınlaşdırmağa kömək edir. "Şəlalə"də onun haqqında yazılırdı: "Səzai bəy tətəbböati-həkimanə cəhətilə sərəfraz üdəbayi-əslaf olan "Rümuzül-hikəm" sahibi Sami paşa mərhumun nəsli-nəcibidir.

Üslub və ifadəsi müəşşəş və ülvi olduğu qədər, ehtisasati-rəqiqəsi də möhriq və atəşindir. "Sərgüzəşt" ünvanlı əsərində sərvətin səfalətə qarşı çıxardığı nidayi-təhqiri tamamilə təsvir etmişdir. «Kiçik şeylər» namındakı əsəri isə «Böyük şeylər» denilməyə həqiqətən şayəstədir»[1] Göründüyü kimi, Səzai bəyin «Kiçik şeylər» əsəri ona görə qiymətləndirilir ki, burada çağdaş ədəbiyyatın «böyük şeylər» ifadəetmə qüdrəti əsas keyfiyyətdir, ictimai həyatın reallıqları bədii təsvir obyekti seçilmişdir. Onun «Sərgüzəşt» əsərində də eyni keyfiyyətin təqdir olunması ədibin «sənət sənət üçündür» prinsipinə, «estetçiliyə doqma kimi yanaşmasını təsdiqləmir, əksinə ictimai gerçəkliyin doğurduğu sosial bəlaları bədii təhlil yönündən işıqlandırdığını nəzərə çatdırılırdı.

Şəlalələçilər çağdaş türk ədəbiyyatı örnəklərini təqdim edərkən sənətkar və ictğimai-siyasi mühit problemini əsas götürür, sosial paradokslara ədəbi təfəkkürün nüfuzunu vacib şərt sayırdılar. Bu zaman yaradıcı şəxsiyyətin həyatı və yaradıcılığı arasındakı əlaqələr – vəhdət mütləq nəzərə alınırdı.

1905-1920-ci illər dövründə ədəbi-mədəni və mənəvi sərvətlərimizin yaradılması, mühafizəsində əvəzsiz rol oynayan «Füyuzat» ədəbi məktəbinin təşəkkülündə, habelə formalaşaraq inkişaf etməsində bir sıra amillərlə yanaşı ədəbi əlaqələrin obyektiv elmi prinsiplər əsasında qurulması da əhəmiyyətli rol oynamışdır. Bu əlaqə «füyuzat»çıları bir tərəfdən klassik Şərq və milli divan ədəbiyyatı ənənələrinə bağlayırdısa, digər tərəfdən Anadolu-türk ədəbiyyatına və onun vasitəsilə modern Avropa ədəbiyyatı ilə bağlayırdı.

«Füyuzat»çı ideya-estetik konsepsiyaya söykənən mətbuat orqanları, bədii əsərlər, dərsliklər və başqa materiallar vasitəsilə görkəmli şəxsiyyətlər haqqında geniş bilgi verilir, onların modern Avropa ədəbiyyatı ilə əlaqələri açıqlanır, Azərbaycan ədiblərinə də yeni axtarış yollarına qoşulmaq

[1] Bax: «Şəlalə» j., 24 avqust 1913-cü il, №29, s.2.

tövsiyyə olunurdu. «Füyuzat»çıların həmin istiqamətdə apardığı səmərəli işin nəticəsidir ki, Əbdülhəqq Hamid, Abdulla Cövdət, Məhəmməd Əşrəf bəy, Əhməd Midhət, Namiq Kamal, Tofiq Fikrət, Rza Tofiq, Mahmud Əkrəm Rəcaizadə, Məhəmməd Əmin Yurdaqul, Məhəmməd Akif Ərsoy, Süleyman Nəzif və s. onlarca başqaları haqqında XX əsr Azərbaycan mətbuatında çoxsaylı məqalələrə rast gəlmək, adı çəkilən müəlliflərin mükəmməl ədəbi-tarixi portreti ilə tanış olmaq mümkündür. «Füyuzat»çılar bu və digər türk ədibinin yaradıcılığı və şəxsiyyəti haqqında bilgi verməklə kifayətlənmir, həm də onların yeni Türk ədəbiyyatı və mədəniyyətinin formalaşdırılmasında tutduğu mövqeyi aydınlaşdırmağa çalışır, bütövlükdə «ədəbiyyati-cədidə»nin mahiyyətini təhlilə çalışırdılar.

Ədəbi əlaqənin qurulmasını bu şəkildə həyata keçirən «füyuzat»çılar Türkiyə və onun vasitəsilə Avropaya çıxış yolunu daha səmərəli sayırdılar. Elə buna görədir ki, klassik Anadolu-türk ədəbiyyatı ilə yanaşı, çağdaş türk və Anadolu üslubunda yetişən sənətkar və sənət örnəkləri ciddi maraq doğururdu. Onların tərcümə, təbliği və nəşri ön plana çəkilirdi. «Füyuzat»çı sənətkarların yaradıcılığında və ayrı-ayrı mətbuat orqanlarının səhifələrində tənzimat dövrü ədəbiyyatının, «sərvəti-fünun»çuların, gənc türklərin, «Fəcri-ati» nümayəndələrinin təsiri bu və başqa şəkildə görünməkdədir. Bunların sırasında İbrahim Şinasi, Ziya Paşa, Namiq Kamal, Əhməd Midhət Əfəndi, Rəcaizadə Mahmud Əkrəm, Əbdülhəqq Hamid, Sami Paşazadə, Səzai, Nəbizadə Nazim, Müəllim Nacit, Rza Tofiq, Tofiq Fikrət, Abdulla Cövdət, Cənab Şəhabəddin, Süleyman Nəzif, Xalid Ziya Uşaqlıgil, Hüseyn Cahid Yalçın, Əhməd Hikmət Müftioğlu, Əhməd Rasim, Hüseyn Rəhmi Gurpınar, Əhməd Haşım, Cəlil Sahir, Midhət Camal Kuntay, Xalidə Ədib Adıvar və onlarla başqalarının adını çəkmək olar. Anadolu-türk ədəbiyyatı və mədəniyyətinin inkişaf xüsusiyyətləri ilə yaxından

maraqlanan «füyuzat»çılar Türkiyədəki yenilikçi-modernist ədəbi xətlə yanaşı milli ədəbiyyat tarixinə və qanunauyğunluqlarına arxalanan novator sənətkarlara da diqqət yetirirdilər. Bu baxımdan «bən bir türküm, dinim, cinsim uludur» - fikrini yaşayış məramına çevirmiş Məhəmməd Əmin Yurdaqulun rəhbərliyi ilə çıxan «Türk yurdu» dərgisi və onun ətrafına toplaşan müəlliflərin yaradıcılığı daha çox öyrənilir və təbliğ olunurdu.

Azərbaycanda Əhməd Kamal, Xalid Xürrəm Səbribəyzadə, İsmayıl Səfa, Bəha Tofiq, Hüseyn Tələt, Əbdülrəhim Məmduh, Səlma Sərvət Seyfi, İsmayıl Kamalbəy, Faiq Əli bəy (Süleyman Nəzifin kiçik qardaşı) İsmayıl Həqqi, Saleh Saim bəy, İsmayıl Kamal, Mütərcim Asim kimi ədəbiyyat, elm və din xadimləri də yaxşı tanınır, onların əsərləri tez-tez çap olunurdu. Çox vaxt «Şəlalə»də «Ədəbiyyati-cədidə», «Milli hekayələr» rubrikasında çap olunmuş bu müəlliflər və onların əsərləri Azərbaycanda yeni «tərzi-bəyan»ın, ədəbi-bədii təfəkkür elementlərinin gücləndirilməsinə təsir göstərirdi. Bu baxımdan «Şəlalə»də çıxan Əhməd Hikmətin «Altun ordu» hekayəsi, Arif Hikmətin «Məzarıstan» şeiri, Əşrəf bəyin, Əhməd Haşımın, Əhməd Rasimin şeirləri, Saleh Saim bəyin «Hafiz xanım» romanı, Səzai bəyin «Pədərimin məzarında» mənsur şeiri, Midhət Camalın «Vətən hissləri», Əhməd Rasim bəyin «Həp sənsin» şeiri, E.X.Ziyabəyin «Düşünüyorum» hekayəsi, Süleyman Nəzifin «Yaşamaq üçün», Xalidə Ədibin «Allahın nuru» əsəri, nəhayət X.X.Səbribəyzadənin roman, povest, hekayə və şeirlərini nəzərdən qaçırmaq olmaz. Eyni ilə də Orta Asiya, İran və Rusiyada, o sıradan Krımda yaşayan türklərin çağdaş ədəbiyyatı və mədəniyyəti «füyuzat»çıların rəğbət dairəsində idi və onlar ədəbi təhlil zamanı vahid müstəvidə götürülür, mənəvi dəyərlərin ortaq keyfiyyətdə olması önə çəkilirdi. Həsən Səbri Ayvazov, Sənətulla Eynullayev – İbrahimov, Əhməd Raiq, Əhməd Kamal, Əhməd Midhət Rüfətov, Mahmud

Nədim Qaragözov, Hüseyn Tələt, Teymuroğlu və başqa müəlliflərin yazılarında da həmin meyli aydın görmək olar.

«Füyuzat»çılar milli ictimai dünyagörüş, yaşayış tərzi, adət-ənənə ilə ədəbi-mədəni uğurları eyni mövqedən təhlilə çəkir, onların çağdaş örnəklərinin yaradılmasını və yayılmasını başlıca vəzifə sayırdılar. İstər klassik, istərsə də çağdaş ədəbiyyatda milli duyğunun əsas götürülməsini qiymətləndirən «füyuzat»çılar bədii əsərin ictimai gerçəkliyə təsiri məsələsini həmişə diqqət mərkəzində saxlayırdılar. Çünki onlar köhnə qəlibdə – janrda, mövzuda, ədəbi formada və s. qələm sınamaqla ədəbi-mədəni xidmətdə bulunmağın mümkünsüzlüyünü bilir, əsrin tələblərinə cavab verən bədii örnəklərin geniş xalq kütləsi tərəfindən necə qarşılandığını görürdülər. Odur ki, yeni ədəbi forma və mövzularda yaradılan çağdaş sənət əsərləri (məsələn, M.Ə.Sabirin şeirləri, C.Məmmədquluzadənin hekayələri, A.Şaiq, A.Səhhət, H.Cavid, Ə.Cavad, Ə.Müznibin şeirləri və s.) rəğbətlə təhlil, təbliğ olunurdu. Bu və başqa sənətkarlarımızın da dünya ədəbiyyatında özünü açıq-aydın göstərən yeni sənət meyllərindən (o sıradan romantizm, dekadentizm, sentimentalizm) bəhrələnməsinə çalışırdılar. «Füyuzat»çı mətbuat orqanlarında rus, türk və Avropa ədəbiyyatı örnəklərindən – «ədəbiyyati-cədidə»dən ardıcıl söz açılmasının, onların tez-tez çapının bir səbəbi də dediyimiz fikirlə əlaqədardır. Həmin fəaliyyətin səmərəsiz qalmadığını artıq ədəbiyyat tarixiniz təsdiqləməkdədir. A.Şaiqin və C.Cabbarlının, A.Səhhətin romantik şeirləri, H.Cavidin dünya standartlarına cavab verən mənzum tarixi faciələri, A.Divanbəyoğlunun sentimental povestləri dediklərimizə misal ola bilər. Müqayisə üçün xatırladaq ki, C.Cabbarlının təsvir etdiyi «Solğun çiçəklər», «Qürub çağı bir yetim», H.Cavidin «Vərəmli qız», X.X.Səbribəyzadənin «Sarı yarpaqlar», «Zəhərli çiçəklər», A.Şaiqin «İki müxtərib»i və s. «Füyuzat» ədəbi məktəbinin həmin yöndə bədii uğurlarıdır. Bu uğurun başlanğıcında isə «Füyuzat» jurna-

lında əksi verilən və haqqında geniş bioqrafik məlumat çap edilən A.Cövdətin «Dəryanı biçarəni içməyə məhkum quşcuğaz» obrazı dayanır.

Füyuzatçıların səyi ilə milli ədəbi-bədii düşüncə sənətinə yeni epitetlər, çağdaş qəhrəmanlar qrupu və nəzəri-estetik prinsiplər, dövrün sosial-iqtisadi durumu və siyasi-fəlsəfi problemlərlə bağlı təzadları mükəmməl əks etdirən təsvir vasitələri, ərəb-fars-türk dillərinin intellekt səviyyəsindən bəhrələnən zəngin leksik fond, yeni forma, janr, poetik ölçülər və s. gəlirdi. Bu zaman mövcud ictimai mühitin doğurduğu sosial-siyasi motivlər daha çox marağa səbəb olur, bədii sənətin çoxçeşidli janr və ölçülərinin yaradılmasına təsir göstərirdi. Daha dəqiq desək, yeni məzmun özünəməxsus çağdaş ədəbi formalarda ortaya çıxırdı. XX əsrin əvvəllərində «Həyat» qəzetində Ə.Hüseynzadə ilə birgə H.Zərdabi, N.Nərimanov, N.B.Vəzirov, Ü.Hacıbəyli, Ə.Haqverdiyev, H.Cavid, A.Şaiq, A.Sur, A.Səhhət, M.Hadi, S.M.Qənizadə kimi sənətkarların da müxtəlif problemlərlə bağlı məqalələrinin və bədii əsərlərinin çıxması onun ideya və ruhunu, sənətkarlıq imkanlarını daha da gücləndirirdi. Bu məqalələrdə ictimai həyat və milli tərəqqi, teatr və musiqi, dünya ədəbiyyatı və bədii tərcümə kimi problemlər diqqət mərkəzində idi. Ən çox maraq doğuran məsələlər isə yeni şeirin qayğıları – Azərbaycan poeziyasının inkişaf meylləri, çağdaş sənətkarlıq məsələləri, romantik bədii metodun nəzəri və təcrübi əsasının qoyulması idi.

«Füyuzat»çılar ictimai həyatda olduğu kimi, sənətdə də yenilikçi, islahatçılar idilər. Onlar bədii metodca və sənətkarlıq prinsiplərinə görə kəsgin seçilən realizm, romantizm, sentimentalizm, dekadentizm kimi ədəbi cərəyanların milli mühitə gətirilməsinə çalışır, xüsusilə yeni ictimai dövr baxımından sərfəli olan satirik və romantik ədəbiyyatın təşəkkülünə və inkişafına böyük ümidlər bəsləyirdilər. Onlar ədəbi məktəbin təşəkkül dövründə bədii sənətkarlıq normativli-

yinə və elementlərinə diqqətlə yanaşır, hər hansı bir əsərin forma, janr xüsusiyyətləri, dil və təsvir vasitələri barədə fikir söyləyir, ədəbi qəhrəman, metod, bədii ideya, süjet xətti, vəzn və üslub çalarlarına dair düşüncələrini geniş ictimaiyyətə çatdırırdılar. Belə mövqe tutmağın özü təsdiq edir ki, füyuzatçılar bədii sənətkarlıq tipologiyası ilə romantik olsalar da metod, cərəyan və janr məhdudiyyəti tanımır, ədəbi mədəni hərəkata bütöv bir proses kimi baxırdılar.

«Füyuzat»çılar klassik ədəbiyyatın, daha doğrusu, çoxəsrlik bir tarixi zaman dövründə bədii forma, məzmun və mövzular baxımından dəyişdirilməsi çox çətin olan Şərq ədəbiyyatının ənənəvi sxemlərini qəbul etmir və çağdaş həyatın ruhuna uyğun sənət örnəkləri yaratmağı, inkişafda olan gerçək hadisə, fakt və problemləri əks etdirə biləcək ədəbi əsərlərin meydana gətirilməsini arzulayırdılar. Ötən əsrlərdə fəlsəfi mühakimə, əxlaqi nəsihət, gül-bülbül, aşiqməşuq və s. bu qəbildən olan ünsiyyətin doğurduğu bədii ölçülər XX əsrin əvvəllərində daha çox ictimai mövzu və məzmuna üstünlük verən, habelə ədəbi forma baxımından modern Avropa tipini təqdir edən füyuzatçıların bədii sənətkarlıq ehtiyac və marağını yetərincə ödəmirdi. Əsərlərində ictimai-siyasi motivlərə və bunların doğurduğu sosial-siyasi problemlərə geniş yer ayıran «füyuzat»çıların həm də milliyyət, vətən və vətəndaşlıq, dövlət və dövlətçilik prinsiplərinə yeni baxışı, onların müstəmləkəçilikdən azad olmaq, çağdaş demokratik cəmiyyət qurmaq uğrundakı ardıcıl mübarizəsi klassik poetik standartlardan çıxmağı tələb edir, bədii sənətkarlığın yeni texniki imkanlarını aramağı zəruriləşdirirdi. Bunun üçün isə çağdaş Avropanın zəngin ədəbi təcrübəsi faydalı sayılırdı. Özünün ideya-mənəvi dəyərlərini, ictimai-siyasi mühitlə bağlı düşüncələrini və milli kimliyini yeni şəkildə çatdırmaq məqsədilə «füyuzat»çılar Qərb ölkələrində populyarlıq qazanan yeni sənət imkanlarından istifadəni də gərəkli sayırdılar. Məsələn, klassik poeziyanın «qaşları

kaman, saçları ilan, qönçə dəhan» gözəllərindən, təsvir epiqonçuluğundan «Xah, xah nə gülməlisən, xaniman-xərab» deyərək satirik inkara əsaslanan mollanəsrəddinçilərdən fərqli olaraq «füyuzat»çılar radikal yol tutmasalar da, təkamülçülüyə üstünlük versələr də, XX əsr «leylayi-islam»ının təsvirində ənənəvi epitet və təşbehlərə qapanmır, bu gözəlin gerçək həyatdan doğan ictimai bəlalarını da bildirir, onu yeni ədəbi-bədii vasitələrlə, müasir üslubda çatdırmağa çalışırdılar.

«Füyuzat» ədəbi məktəbinin müxtəlif üzvləri bu və ya başqa əsərində konkret olaraq satiraya meyl etsələr də, realist mövqe tutsalar da, mahiyyətcə romantik olaraq qalırdılar. Yaradıcılıqlarının ilk mərhələsində bu sintetikliyi daha aydın gördüyümüz «füyuzat»çılar bədii sənətkarlığını romantizm prinsipləri baxımından təkmilləşdirir və bu zaman ənənəvi Şərq ədəbiyyatı, habelə klassik və çağdaş Avropa ədiblərinin sənətkarlıq təcrübəsinə arxalanırdılar. Yenilikçi Avropa poeziya, nəsr və dramaturgiyası həm bədii məzmun, mövzu və ideya baxımından, həm də təsvir, ifadə vasitələri və üsulları baxımından füyuzatçıların diqqət mərkəzində idi. Qərb romantizminin bədii-estetik imkanları və sənətkarlıq xüsusiyyətlərini özündə ehtiva etməyə çalışan füyuzatçılar bu yolla «təzə şeirin» meydana gətiriləcəyinə inanır və inandığına görə də daha çox Avropa romantiklərinin sənətkarlıq təcrübəsindən çıxış etməyə çalışırdılar.

«Füyuzat» ədəbi məktəbini təmsil edən müəlliflər özləri həm elmi-tənqidi məqalələr yazır, həm də ədəbi hərəkatda tənqd və özünütənqid ovqatının gücləndirilməsinə şərait yaradırdılar. Odur ki, «füyuzat»çıların bədii sənətkarlıq ənənəsini davam etdirənlərin əsərlərində təqlid və təkrarlara, epiqonçuluq meyllərinə, obraz sönüklüyü və məzmun yaradıcılığına çox az rast gəlmək olar.

«Füyuzat»çıların bədii sənətkarlıq özəlliyini şərtləndirən ortaq amillər sırasında bunları ayrıca qeyd etmək lazımdır:

I. Hadisə, fakt və problemləri ictimai-tarixi kontekstdə təsvir və təhlil istəyi, onlardan konkret əxlaqi-mənəvi nəticələr çıxarmaq bacarığı;

II. Fəlsəfi ümumiləşdirməyə və qiymətləndirməyə ardıcıl meyl, tarixi keçmişin romantik planda idealizə olunması, habelə tarixi qəhrəman və hadisələrə tənqidi münasibət orijinallığı;

III. Psixoloji-fərdi duyğuların ümummilli yaşantılar səviyyəsində ifadə olunması;

IV. İctimai-tarixi tərəqqiyə münasibətdə olduğu kimi, bədii sənətdə də təkamülçü mövqe tutmaları, ardıcıl və şüurlu novatorluq, yeni yaradıcılıq iddiaları və s.

Bədii mətnin işlənməsi, cilalanması zamanı bu sənət mizanlarına əməl olunur, təsvir hədəflərinin romantik üsulda əks etdirilməsi məqsədi güdülürdü. Ə.Hüseynzadə başda olmaqla «füyuzat»çılar yaradıcılıqda klassik dünya romantizminin nəzəri-estetik prinsiplərini və bədii sənətkarlıq məharətini ön plana çəkir, Höte, Şiller, Puşkin, Bayron, Heyne, N.Kamal, T.Fikrət, Ə.Hamid, M.Ə.Rəcaizadə və onlarca başqalarının konkret poetik mətnlərini araşdırmaq, yaymaq, habelə təbdil, iqtibas və bəzən də təqlid yolu ilə ədəbi mühitdə romantik sənətkarlıq təcrübəsini zənginləşdirməyə çalışırdılar. Birbaşa klassik sənət standartlarına müraciət və həmin tələblərlə ədəbi mühitdən bədii əsər istəmək xeyli ziddiyyətli addım olsa da, ilk vaxtlar razılıqla qarşılanmayan belə radikal davranışlar[1] faydasız olmadı.

Nəticədə milli ədəbi-mədəni gerçəkliyimiz çoxsaylı romantik bədii nəsr, dramaturgiya və poeziya örnəkləri ilə zənginləşdi.

[1] Geniş bax: 1. A.Aqaev. «Otello» Şekspira i «Razboyniki» Şillera na tatarskom əzıke. – q. «Kaspi», 23 dekabrə 1903. q., №275.

«Füyuzat»çıların yaradıcılığında rast gəldiyimiz poetik parçalar, müxtəlif xarakterli qəhrəmanlar, əlvan üslub, çeşidli forma, janr biçimləri, təsvir və ifadə vasitələri belə bir fikri söyləməyə əsas verir ki, onlar irs-varislik əlaqəsini qorumaqla yanaşı, həm də yeni tipli bədii təfəkkür tərzi yaratdılar. Bu baxımdan «hululu» (A.Səhhət) sadəcə klassik ədəbi qəhrəmanın (Koroğlu dəlisi, Məcnun) varisi deyil, həm də o dövrün ictimai-siyasi təzadlarından doğan, yeni əxlaqi və intellektual dəyərləri özündə birləşdirən üsyankar milli liderdir. Elə bir lider ki, o VƏTƏN və VƏTƏNDAŞ probleminin, SƏNƏTKAR və ZAMAN, XƏYAL və HƏQİQƏT əlaqələrinin təkcə rasional fəlsəfi əsaslarını deyil, həm də real ictimai-siyasi mahiyyətini açıqlayır, vəziyyətdən uğurlu çıxışın spektrlərini işıqlandırır. Bu çıxış yolunda mübarizlik, dönməzlik, «qayeyi-amal», «lütfi-həqq» tələb olunduğunu bildirən A.Səhhətin – hululunun tərcümeyi-halı onun milll-tarixi faciələri ilə bağlıdır. Həmin faciələrdən qurtarmağın yeganə yolu isə romantik əzablarla dolu olan füyuzatçı sənətkarın azadlıq eşqidir. «Düşdüyü eşqi çətin sevdalar» bilən şairin mövqeyi klassik eşq və sevdadan fərqlənir, «Qəlbi qan, halı yaman xanəxərab» olan bu eşq dəlisinin – hululunun (klassik planda aşiq-şair Koroğlu və ya onun hər hansı bir dəlisinin, Cünunun-Məcnunun) – A.Səhhətin sevgisi yeni üsyankar, romantik qəhrəmanın «sevdayi-vətən-şövqü» kimi anılır.

«Füyuzat»çıların bir çox əsərlərindəki qəhrəmanların xarakterində aşiqlik keyfiyyəti üstündür. Amma bunlar klassik ədəbiyyatımızdakı gül-bülbül, mey-məhbub duetindəki eşq və aşiqlik deyildir. Bu eşq və aşiqlik dövrün sosial-siyasi təzadlarından, ictimai gerçəkliyin cansıxıcı mühitindən doğan əzab-iztirablara cəfakeşliklə dözmək qüdrəti, milli müstəqillik yolunda, mədəni-mənəvi intibah uğrunda sürgünlərə, terror və həbslərə tab gətirmək hünəridir. Bu, klassik ədəbiyyatımızdakı, ən çox da Füzuli sənətindəki «qafiləsa-

lari-karivani-qəm»in yeni məzmun və formada görüntüsü, müstəmləkəçilik məngəsində sıxılan, istismar olunan bir millətin yeni bədii ədəbiyyat qəhrəmanları düşərgəsinin yaradılması ilə nəticələnirdi.

Eyni halı Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Şaiq, S.Səlmasi, Ə.Səbur, A.Sur və başqalarının yaradıcılığında daha aydın görmək olar.Bu, həm də bir yandan klassik lirik-romantik qəhrəman tipinin çağdaş üsyankar-şair, mücadiləçi ilə əvəz olunması, digər tərəfdən isə bədii təfəkkür imkanlarının daha da genişləndirilməsi idi.

«Füyuzat»çılar müxtəlif janrlarda yazdığı orijinal qələm məhsulları ilə, habelə tərcümələrlə bədii sənətkarlıq emalatxanasına dünya ədəbiyyatının Prometey, Faust, Bonivar, Çayl Harold, Karl Moor, Hamlet, Otello, Janna Dark, Mefistofel, Robinzon Kruzo, Don Kixot, Gavə, Rüstəm-Zal, Səyvuş kimi müxtəlif xarakterli surətlər gətirir, ədəbi mühitdə yeni qəhrəmanların yaranmasına və mənəvi dəyərlərin formalaşmasına çalışırdılar. Azərbaycan ədəbiyyatında yeni üsyankar-mücadiləçi (Prometey; yaxud Gavə kimi əzabkeş üsyankar) qəhrəman tipi XX əsrin əvvəllərində həm də həmin bədii yaradıcılıq təcrübəsi işığında meydana çıxdı. Həmin qəhrəmanların gəlişi yad təsir bağışlamır, əksinə milli-ictimai əxlaq tərzinin kamilləşməsinə, ictimai-siyasi və fəlsəfi düşüncənin daha da cilalanmasına, təkamülünə kömək edirdi. Bunun nəticəsidir ki, milli ədəbiyyatımızın mifik-fantastik planda yaradılmış sehrli qəhrəmanlar panteonu əvəzinə XX əsrin əvvəllərində çağdaş üsyankar mücahidlərin bədii düşərgəsini reallaşdırmaq mümkün oldu.

«Füyuzat»çıların romantik bədii sənət kredosunda ideal olan gözəllik, əlçatmazlıq, əsrarəngizlik, gənclik, sağlamlıq (ruhani sağlamlıq), müqəddəslik, ülvilik və s. Bu kimi anlayışlar XƏYAL və HƏQİQƏT vəhdətinin bütövlüyü ilə təqdim olunurdu. Şairin ötən tarixi dövrləri və qəhrəmanları, gəncliyi və uzaq gələcəkdəki ideal cəmiyyəti bir sıra hallarda

bu gündən ayıraraq ülvi GÖZƏLLİK kimi verməsi də buradan doğurdu. Romantiklərimizin bədii düşüncəsində bu maneranın təşəkkülü və formalaşmasına İ.V.Hötenin «Faust» əsərində təsvir olunan şair də ciddi təsir göstərmişdi. XX əsrin əvvəllərində çağdaş sənət dili ilə öz müasirlərini mövcud ictimai-siyasi durumun əzici və istismarçı məngənəsindən qurtarmaq istəyən «füyuzat»çılar yeni «tərzi-üsuli-bəyan» aradığı, yeni tipli bədii ədəbiyyatın quruculuq yolları arandığı bir zamanda «Fırtına və təzyiq» şairi sənətkarın axtarış meyllərini və yaradıcılıq imkanlarının üzə çıxmasına yardımçı olurdu. Bunlar «həqiqətə şövqü» olan şairə görə təntənəli gələcək (yaxud xoşbəxt keçmiş), sağlam, nikbin gənclik idi ki, yalnız XƏYAL – RÖYA ilə HƏQİQƏT çevrəsində bədii təsir gücünə malik ola bilərdi.

«Füyuzat»la ədəbi mühitə gətirilən romantik sənət kredosu Ə.Hüseynzadə, H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq, A.Sur və başqalarının əməyi nəticəsində milli dəyərlər hesabına daha da təkmilləşdirildi. Romantizmin klassik Qərb (alman, fransız, ingilis, italyan) tipinə sadəcə milli mübarizlik pafosu deyil, həm də nikbin ruh (dözüm, sədaqət, vəfa, inam), ideal gələcək (azad utopik cəmiyyət) barədə çoxsaylı rasional düşüncələr və s. artırılırdı. Bu isə təbiət və cəmiyyət haqqında çeşidli bədii lövhələr yaradan «füyuzat»çıların yaradıcılığında sənətkarlığın artmasına səbəb olur, milli romantizmin fəlsəfi düşüncə qabiliyyətini göstərməyə meydan açırdı.

«Füyuzat»çılar bədii sənətkarlıqda Qərb romantizminin yaradıcılıq ənənələrinə şifahi xalq ədəbiyyatımızdan gələn, habelə klassik yazılı (ərəb və farsdilli ədəbiyayt da buraya daxildir) ədəbiyyatın özündə davam etdirilən milli nəzəri-estetik prinsipləri əlavə edir, beləliklə, novator sənət kredosunu ortaya çıxarırdı. Bununla da «füyuzat»çılar dünya standartlarına uyğun sənətkarlıq məharətinə malik olduqlarını təsdiqləyir, «bəni-növi-bəşərin» ictimai-psixoloji

yaşantılarını təsvir zamanı romantizmin beynəlxalq atributlarına (hüzn, kədər, məzlum, qürbət, ayrılıq, xəyal, röya, uzaqlar, yüksəklik, tənhalıq və s.) söykənməklə yeni sənət örnəkləri yaradırdılar. Bu baxımdan bir örnəyə baxaq: H.Cavid «Bir qızın son fəryadı, yaxud zindan guşəsində bir səs» şeirində deyirdi:

Ürəkdə qaldı məramım, duyulmaz oldu səsim!
Gözümdə qalmadı nur, ah, iştə son nəfəsim!
Məzalim atəşi yakdıkca qovrulur bədənim,
Nə hali-müdhiş! Aman, son günüm bumidi mənim?
...Hayır, hayır, yaşamam qeyri, ey kədərli həyat!
Çəkil də get, bana rahat ver! İstəməm, heyhat...
...Fəqət, üzər məni hər ləhzə bir vərəmli xəyal,
Əcəlmi yaklaşıyor? Ya nədir bu küskün hal?![1]

Hər hansı bir mövzunun beynəlxalq səviyyədə romantik etiket-atributlarla təsvir olunmasını Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət, Ş.Səlmasi, A.Divanbəyoğlu, Ə.Səbur, A.Sur, Ə.Cavad, Ə.Müznib, C.Cabbarlı, Ə.Kamal, X.X.Səbribəyzadə, Ə.Abid, M.B.Məhəmmədzadə, Ümgülsüm və başqalarının nəinki kiçik həcmli əsərlərində, hətta poema, dram, roman, povest, hekayələrində də görmək olar. Belə romantik «tərzü-üsuli-bəyan» «füyuzat»çıların tipoloji özünəməxsusluğu kimi formalaşdığından onların ictimai-publisist məqalələrində, elmi-nəzəri düşüncələrində də eyni hal görünür.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı sadəcə yeni, tarixi mərhələyə daxil olmur, həm də əsaslı bədii-estetik keyfiyyət dəyişmələrinə nail olur, ictimai-siyasi məzmunu ilə yeni yaradıcılıq meyl və metodlarının, cərəyan və üslubların formalaşmasına meydan açırdı. Ədəbiyyatda ideyalar aydınlığı və müxtəlifliyi bədii sənət palitrasının təsvir və ifadə vasitələri baxımından zənginləşməsinə təsir göstərir, ənənəvi duyum və deyim tərzinin yerini müasir inikas üsul-

[1] H.Cavid. Seçilmiş əsərləri (3 cilddə, I c.), BAkı, Azərnəşr, 1968, s.109.

ları, poetik təhkiyə tərzi alır, yeni qəhrəmanlar silsiləsi milli istiqlal fikrinin daşıyıcılarına çevrilirdilər.

Azərbaycan ədəbi-elmi düşüncə dövriyyəsində realizm, satira, romantizm, dramaturgiya və nəsrlə bağlı bir sıra bədii sənət elementlərinin əsaslı, çoxçalarlı şəkildə işlənməsi və kütləviləşməsi də XX əsrin əvvəlləri ilə bağlıdır. Həmin dövrlə əlaqədar bu və ya digər yaradıcı şəxsiyyət, fakt, hadisə, problem, ədəbiyayt-mətbuat orqanı, nəzəri-estetik keyfiyyət, bədii sənətkarlıq elementləri və s. haqqında çoxsaylı ədəbiyyatşünaslıq əsərləri yazılıb.

Bu baxımdan A.Şaiq, Ə.Nazim, H.Zeynallı, M.Cəlal, C.Xəndan, M.Cəfər, M.İbrahimov, K.Talıbzadə, Ə.Mirəhmədov, B.Nəbiyev, Ə.Şərif, F.Hüseynov, Y.Qarayev, Ə.Saraçlı, X.Məmmədov, M.Məmmədov, N.Axundov, İ.Ağayev, H.İsrafilov, K.Əliyev, V.Quliyev, İ.Həbibbəyli, V.Nəbiyev, A.Məmmədov (Bayramoğlu), A.Rüstəmli və başqalarının yazmış olduğu sanballı elmi-tədqiqat işləri, dərsliklər, məqalələr və ayrı-ayrı monoqrafiyalar son dərəcə böyük əhəmiyyətə malikdir. Kəskin ictimai-siyasi ziddiyyətləri, ədəbi-bədii keyfiyyət dəyişmələri, bədii metodoloji yenilikləri, qəhrəman-xarakter-tip orijinallıqları, ideyalar müasirliyi, sənətkar mövqeyi və s. baxımından XX əsrin əvvəllərində formalaşan Azərbaycan ədəbi prosesi hər zaman ciddi maraq doğuracaq.

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ƏDƏBİ-NƏZƏRİ FİKİR VƏ TƏNQİD*

Azərbaycanda tənqidi-estetik fikrin ədəbi prosesdəki rolu, əhəmiyyəti və vəzifələri haqqında ilk mülahizələr məlumdur ki, hələ orta əsrlərdə söylənmişdir. Sonralar onun məzmunu və istiqamətləri dəyişmiş, ədəbi-nəzəri və tənqidi fikrin qarşısında duran vəzifələr daha ətraflı təhlil və izah olunmağa başlanmışdır. Bunu da nəzərə almaq lazımdır ki, XIX əsrdə tənqid Şərq, sonralar Qərbi Avropa, Türkiyə və Rusiya ədəbi-estetik fikri ilə bağlı inkişaf etmişdi, onun qabaqcıl nümayəndələrinə bu regionların tənqidi irsi də az-çox tanış idi. Beləliklə, XX əsr Azərbaycan ədəbi mühitində tənqidin məqsəd və vəzifələri haqqında müəyyən aydın fikir var idi və yeni ədəbi-tarixi şərait bunun yüksəlişi üçün daha əlverişli imkanlar yaratmışdı.

XX əsrin əvvəllərində Azərbaycanda yeni fikri intibah dövrünə qədəm qoymuş cəmiyyət hər şeyə olduğu kimi, ədəbiyyata da tənqidi münasibət bəsləməyə ehtiyac hiss edirdi, həqiqət aclığı çəkirdi. Cəmiyyətin bütün sinif və zümrələrində belə bir ümumi fikir yaranmışdı ki, artıq tənqidsiz keçinmək mümkün deyil. Əlibəy Hüseynzadə yazırdı: «Mübarizə aləmində alatı-mübarizəsindən biri də tənqiddir. Nəyi tənqid? Hər şeyi! İstər o şey yaxşı, istər pis olsun. Hər şeyin yaxşılığını, ya pisliyini ancaq tənqid sayəsində meydana qoymaq olar».[1]

Azərbaycan ədəbiyyatı XX əsrin əvvəllərində elə bir mürəkkəb inkişaf pilləsinə yüksəlmişdi ki, onu təhlildən ke-

* "Azərbaycan ədəbiyyatı tarixi"nin V cildi üçün akademik Kamal Talıbzadənin arxiv materialları əsasında yazılıb.

[1] İntiqad ediyoruz, «Füyuzat», 26 iyul 1907, №23.

çirmək, saf-çürük etmək, istiqamətləndirmək, ədəbi döyüşə, mübahisə və müzakirəyə geniş meydan açmaq lazım idi. A.Sur yazırdı: «...bizi intiqad etsinlər ki, ortaya həqiqət çıxsın, millətimiz istifadə etsin, bu yol ilə «tənqid»ə dəxi alışalım».[1] Seyid Hüseyn tənqidin əhəmiyyətindən danışaraq deyirdi: «Tənqidsiz heç bir millətin mətbuatı və ədəbiyyatı tərəqqi edəməz».

Bu məzmunda o zaman mətbuatda onlarla məqalə nəşr olunmuşdu. «İntiqad-ayineyi-millətdir», «İntiqadın qiyməti», «İntiqad, yaxud ədəbiyyatın ələyi», «Tənqid», «İntiqad», «Tənqid nədir?» kimi məqalələrdə ədəbi tənqidin vəzifələrindən, ona olan ehtiyacdan danışılırdı. Ədəbi tənqid ətrafında mətbuatda başlanan bu qızğın müzakirələrdə iştirak edənlərin fikirləri bir-birinə yaxın idi. Onlar tezliklə işə başlamağa, mətbuatda ədəbi tənqidi gücləndirməyə, çap olunan əsərlər haqqında tənqidi fikirlər yazmağa çağırırdılar. Onlar belə hesab edirdilər ki, ədəbiyyatı tənqiddən ayırmaq mümkün deyildir. Tənqid ədəbiyyatla yanaşı inkişaf etməlidir. Abdulla Sur mədəni xalqların təcrübəsindən istifadə etməyi, səhnə üçün yazılmış və çap olunacaq bütün əsərləri qabaqcadan müzakirə etməyi, tənqidçilərin, ədəbi ictimaiyyətin rəyini bilməyi məsləhət görürdü.

Bütün bu çağırışlar, bu tələblər o zaman nəticəsiz qalmamışdı. Çox çəkmir ki, mətbuatda ədəbi-tənqidi məqalələrə geniş yer verilir, çap olunan onlarla qəzet və jurnalın hər nömrəsində ədəbiyyatın ayrı-ayrı məsələləri haqqında məqalələr, məlumat və xəbərlər çıxırdı. Mətbuat səhifələrində ədəbi tənqidə həsr olunmuş daimi rubrikalar açılır: «Tənqid», «Təqriz», «Tənqid və təqriz», «Tənqidat», «Mütaliələr», «Tənqid qismi», «Teatr və musiqi» və s. Beləliklə, tənqid dövrün çox yayılmış kütləvi bir ədəbi növünə çevrilir, tənqidi məqalələr nəşr etmək ənənə şəklini alırdı. Mətbuatın yazdığına görə bir vəziyyət yaranırdı ki, əlinə qəzet və jurnal

[1] İqtisad elmi, «İrşad» q., 14 sentyabr 1906, №216.

alan oxucu əvvəlcə ədəbi tənqid səhifəsinə göz gəzdirir, yazıçılar tənqidçisiz keçinə bilmirdi.

Azərbaycanda ədəbi tənqid ilə məşğul olan yeni tipli dərnək və cəmiyyətlərin təşkili də bu dövrdə olmuşdur. S.Hüseyn yazır ki, Bakıda 1908-ci ildə yaranmış ədəbi cəmiyyətdə yeni əsərlər oxunur və müzakirə edilirmiş. Hətta sonralar «Qafqaz türk ədəbiyyatı cəmiyyəti» adı altında bütün bir təşkilat və onun nəzdində «ədəbi və elmi kitab və məqalələri tənqid etməklə» məşğul olan ayrıca «Tənqid şöbəsi» yaratmaq nəzərdə tutulmuşdu. Ancaq gənc ədəbiyyatçıların bu təşəbbüsü o zaman baş tutmamışdı. Bir qədər sonra N.Nərimanovun rəhbərliyi altında Bakıda «Nicat» cəmiyyətinin nəzdində yaradılan «Tənqid gecələri» adlı dərnək tənqidçilik sənətinin inkişaf etdirilməsində, onun peşəkar bir səviyyəyə yüksəlməsində xeyli iş görmüşdü. Tənqidçi və yazıçılar (A.Şaiq, S.Hüseyn, S.Sani və b.) burada müxtəlif ədəbi mövzularda məruzə edirdilər. «Ədəb yurdu», «Qırmızı qələm cəmiyyəti», «Yaşıl qələm» dərnəklərinin, «Mütəhərrirlər cəmiyyəti»nin fəaliyyətində də tənqid geniş yer tuturdu. Gəncə, Şamaxı, Şuşa kimi şəhərlərdə də ədəbi əsərlərin müzakirəsi və tənqidi ilə məşğul olan belə dərnək və cəmiyyətlər yaranmışdı. Gəncədə A.Surun başçılıq etdiyi «Ədəbiyyat və sənayeyi-nəfisə cəmiyyəti»ndə yaxşı əsərlərə mükafatlar da verilirdi.

XX əsrin əvvəllərində tənqidin ictimai-ədəbi həyatda mövqeyi haqqında elmi fikir daha peşəkar məzmun daşımağa, konkretləşməyə başlayır. Əsrin əsas ədəbi fikir nümayəndələri «Ədəbi tənqid nədir?» sualına çox zaman belə cavab verirdilər: «İntiqaddan məqsəd tərəfi-müqabilin qələt, yaxud səhvini təshih etməkdir». «Hər cür asarın gözəl və fəna cəhətlərini göstərməyə tənqid deyirlər». «Tənqid ərəb sözüdür. Nəqd etmək mənasına istemal olunur. Yəni safı çürükdən ayırmaq, xalisi qəlpdən seçmək deməkdir».

Burada ədəbi tənqidin bütün tutumu görünməsə də əsas vəzifəsi düzgün açıqlanırdı.

Yeni əsrin əvvəllərində ədəbi müzakirələrin kəskinləşməsi ilə ədəbiyyatın ictimai mövqeyi və əhəmiyyəti də xeyli artmışdı. Ayrı-ayrı cərəyan və qrup nümayəndələrinin ədəbiyyata baxışlarındakı fərqlər də bu dövrdə daha aydın görünməyə başlamış və mətbut, nəşriyyat işlərinin genişlənməsi onlara öz ədəbi baxışlarını bildirmək və yaymaq üçün şərait yaratmışdı. Dövrün ədəbiyyatçıları ədəbi tənqidi bədii əsərin müsbət və mənfi keyfiyyətlərini meydana çıxaran elm adlandırırdılar. Onlar göstərirdilər ki, bədii ədəbiyyat kimi tənqid də dövrün ictimai-siyasi görüşləri axınından ayrılmamalıdır.

Əsrin filosof tənqidçisi Əlibəy Hüseynzadə «dövrün tənqidi düşüncələrini» çox dəqiq açıqlamışdı. O, «Molla Nəsrəddin» jurnalını «ətrafdakı çirkabları» təmizləyən təsirli mətbuat nümunəsi adlandırır və bildirirdi ki, mövcud çirkabları qurutmaq üçün mütləq onu daşa tutan, o çirkablara qayalar yuvartlamağa qadir olan **əqidəli, məsləkli tənqidçilər, fədailər** lazımdır: «Fədai, lazımdır, fədai! Yuxarı sıçrayan murdarlıqlardan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai! İngilis, amerikan kimi tizrəftar, yeni yaponlar kimi kutahdamən fədai!»[1]

Milli inkişafın mühüm notlarını özündə cəmləşdirən bu sözlərdə tənqidin məfkurə istiqaməti dəqiq müəyyənləşdirilmişdi. Çağdaş tənqidçinin düşüncəsi də, fikir dünyası da, təbiəti və xarakteri də müdrikanə deyilmiş bu ifadədə aydın açıqlanmışdı: O hər şeydən əvvəl, fədai olmalıdır!

Buna görə də çağdaş peşəkar tənqid ardıcıl olaraq zəif əsərləri tərifləyən, həqiqi sənətlə heç bir əlaqəsi olmayan müəlliflərə mədhiyyələr oxuyan, bəzən isə, əksinə, uğurlu əsərləri qərəzli yerə vuran məqalələrə qarşı çıxırdı. Heç bir

[1] İntiqad ediyoruz... «Füyuzat» jurnalı, 27 iyul,1907, №23.

nüfuza uymayıb, hər hansı ədəbi hadisə haqqında doğru fikir söyləmək. Obyektiv olmayan şəxsi zövq və hissləri cilovlamaq bu zaman tənqid qarşısında qoyulan əsas tələblərdən idi. H.Cavid onun «Sevinmə, gülmə, quzum!» adlı şeiri ətrafında «Şəlalə» ilə «İqbl» arasında başlanan mübahisələrə cavab olaraq göstərirdi ki, «Şəlalə»nin redaktoru X.Səbribəyzadə bədii əsər haqqında fikir yürütməyin ən adi qanun-qaydalarını belə bilmir. Səmimiyyətdən məhrum, yanlış tənqidi mülahizələr yaşaya və təsir edə bilməz: «Bir tənqid ki, məhəbbətdən və səmimiyyətdən ari, xudfüruşluq və xudxamlıq nəticəsi olaraq yürüdülərsə, əvvəla, yürüməz, daha doğrusu, yürüyəməz, yürüşsə belə, əmin olmalı ki, səbatsız olur, çapıq yorulur».[1]

«Əlif-Leyla»nın tərcüməsinin nəşri ilə əlaqədar çıxan məqalələrdə də tənqidi qərəzsiz, «nəzakətli» olmağa, hissə qapılmamağa, elmi fikir söyləmək vərdişinə yiyələnməyə, hər hansı müəllifə hörmətlə, «ədəb dairəsində» yanaşmağa çağırış əsas yer tuturdu: «Səda»nın axırıncı nömrələrində «Əlif-Leyla» barəsində yazılmış felyetonlar tənqid deyildir. Onlara fəhmdən başqa özgə bir ad vermək olmaz... Tənqid elmi, fənni, tərəqqi etdirəcək bir vəsilə olduğu üçün bütün mədəni millətlər arasında istemal olunur. Tənqid vasitəsilə bir əsərin nə dərəcədə gözəl və ya fəna oldğunu qare aşkar görür. Şayani-təəssüfdür ki, bizdə həqiqi tənqid yoxdur. Bəzi qərəzi-şəxsi ilə yazılmış müzürr məqalələrin adını tənqid qoymaq yolu ilə bu gözəl qayda camaat nəzərində başqa şəkildə görünmüşdür... Tənqid kimi ali bir mənanı föhşə alət etmək qələm əhlinə yaraşmayan böyük bir vicdansızlıqdır»[2].

Tənqidi obyekt olmağa çağırış o zamankı ədəbi mühitin öz tələblərindən doğurdu. Çünki tənqidi əllərində gəlir və şöhrət vasitəsi edən bəzi «tənqidçilər» meydana çıxmışdı. Onlar buyuruqla, təzyiqlə iş görür, istədiklərini yazırdılar.

[1] «İqbal» qəzeti, 12 may 1913, №356.
[2] «İqbal» qəzeti, 12 may 1913, №356.

Beləliəri Ə.Haqverdiyevin «Tənqid» hekayəsində təsvir edildiyi kimi, cibgir Xərkuşovların həqiqi sənətlə heç bir əlaqəsi olmayan «Göbəyin ağ dələməsi» kimi zəif, qondarma pyeslərinə müsbət resenziyalar yazır, bir anda eyni əsər haqqında yazılmış müsbət rəyi qara boyalarla əvəz edə bilirdilər. Belə simasız, məsləksiz qələm sahiblərinə cavab olaraq Ü.Hacıbəyov yazırdı: «Yazıq qələm, yazıq oxucular, yazıq ədəbiyyat ki, tərbiyəsizlər əlinə düşübdür. Nifrət olsun müqəddəs qələmi qərəzi-şəxs aləti edənlərə, nifrət!»[1]

Ədəbi tənqidin prinsiplərindən danışanda qabaqcıl ziyalılar bir mühüm məsələyə - tənqidçi ilə sənətkarın münasibəti və əlaqəsi məsələsinə də toxunurdular. Tənqidə etinasız yanaşan, haqlı tənqidlə razılaşmayan yazıçıları onlar həmişə məzəmmət edir, tənqidçinin şəxsiyyətinə, nüfuzuna hörmət bəsləməyə çağırırdılar. Yazıçı həqiqəti deyən tənqidçiyə minnətdar olmalıdır. Tənqidçiyə kin və ədavət bəsləyən yazıçı ancaq öz cahilliyini büruzə verir. Seyid Hüseyn Rəşidbəy Əfəndiyevin şəriət kitabı haqqında yazılmış tənqiddən inciyərək müxtəlif rəsmi idarələrə şikayət etməsini hörmətli bir yazıçı və müəllim üçün böyük qüsur sayırdı.

Teatr tənqidi sahəsində də eyni vəziyyət hökm sürürdü. Teatr tamaşaları haqqında tez-tez resenziyalar yazan jurnalist Hacı İbrahim Qasımov da bəzi müəlliflərin tənqidi lazımınca qiymətləndirə bilməmələrindən şikayətlənir, onları tənqidçilərə ehtiram göstərməyə çağırırdı: «Tənqid, yəni bir oyunun, bir əsərin yaxşı cəhətini yaxud nöqsanını göstərmək və gələcəkdə haman nöqsanların mümkün olduqca vüquuna məmaniət etməkdən ibarətdir... Lakin bizlər tənqidə başqa bir nəzərlə baxırıq. Guya tənqid olunduqda bir daha adam arasına çıxa bilməyəcəkdir. Bər-əks, tənqid olunan şəxs tənqidçiyə təşəkkür etməlidir... Şübhə yoxdur ki, tənqidçi də ədəb dairəsində qələm yürütməlidir».[2]

[1] «Tərəqqi» q., 24 avqust 1909, №190.
[2] «İqbal» qəz., 11 aprel 1912, №31.

Tənqid qarşısına qoyulan bütün bu tələb və vəzifələr o zaman nəticəsiz qalmamışdı. Tənqid müəyyən nüfuz qazanmışdı və yazıçılar onunla hesablaşırdılar. «Solğun çiçək» romanının müəllifi Əli Səbri Qasımov onun əsərlərini təhlil və tənqid etdiyi üçün Seyid Hüseynə razılıq məktubu yazmış və qəzetdə nəşr etdirmişdi. N.Nərimanov isə F.Köçərlinin tənqidlərinin təsirini belə qiymətləndirirdi: «Düz iyirmi il bundan müqəddəm mən «Nadanlığ»ı yazıb meydana buraxdım. Məşhur mühərrirlərimizdən biri, rəfiqimiz F.Köçərli «Nadanlığ»ı rus dilinə tənqid etdi, yaramaz bir şey hesab edib yazanını, yəni məni lazımınca çubuqladı. Oxuyan deyərdi: «Nadanlığ»ı yazan əlinə qələm götürməsin. Fəqət onun çubuqlamağı «Nadir şah»ın meydana gəlməsinə səbəb oldu».[1]

Mətbuatda tənqidin başqa xüsusiyyətləri və keyfiyyətləri haqqında da söhbət gedirdi. Tənqidin elmi xarakter daşıması, ali ədəbi rəy ilə tənqid arasında olan fərq, tənqidin ictimai təsir dairəsi, prinsipi və liberal tənqid kimi məsələlər ətrafında bu zaman xeyli danışılmışdı. Hətta ayrı-ayrı müəlliflərin tənqidə baxışları tam şəkildə formalaşmağa başlamışdı. Bunu dövrün görkəmli tənqidçisi Seyid Hüseynin tənqidi görüşlərində aydın müşahidə etmək mümkündür.

S.Hüseyn ədəbi məqalələrində tənqidin predmeti, faydası və vəzifələri haqqında çox yazmışdır. Əgər XIX əsrdə bu zərurəti hamıdan çox htss edib, onunla ayrıca məşğul olan M.F.Axundov idisə, yeni əsrdə bu işi, peşəkarlıq səviyyəsinə qaldıranlardan biri S.Hüseyn olmuşdur. Bu cəhətdən o, XX əsr ədəbi tənqidinin görkəmli siması F.Köçərlidən də fərqlənirdi.

XX əsrin əvvəllərində ədəbi-tənqidi fikrin inkişafı prosesində yerli marksistlər də iştirak edirdilər. Lakin Rusiyadan fərqli olaraq, Azərbaycanda marksist tənqid təzəcə cücərirdi. Odur ki, 1905-ci ildən sonra marksist tənqidin bəzi

[1] «Yeni İqbal» q., 11 yanvar 1916, №204.

nümunələri yaransa da onun XX əsr şəraitində mövqeyi, vəzifələri və prinsipləri ədəbi mühitdə o qədər də görünmürdü.

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının sürətlə inkişaf etdiyi illər idi, ancaq tənqid öz ümumi səviyyəsi etibarilə hələ bədii ədəbiyyatdan geridə qalırdı və bəzi müəlliflərin həqiqi ədəbi tənqidin yoxluğundan şikayət etməsi də bununla bağlı idi. Lakin bu da inkaredilməz faktdır ki, Azərbaycanda ədəbi-tənqidi fikir XX əsrdə yeni mərhələyə yüksəlmiş və tənqid əvvəlki dövrlərdən fərqli keyfiyyətlərlə zənginləşmişdi.

***

XX əsrin ilk onilliklərində baş verən ictimai-siyasi hadisələr Azərbaycan xalqının mədəni həyatında yeni səhifə açdı, ayrı-ayrı ədəbi, məfkurəvi cərəyanların istiqamətini təyin etdi. Yeni əsrin mürəkkəb tarixi şəraitini əks etdirən ədəbiyayt da öz mövzu və məndəricə zənginliyi, məsələlərin genişliyi və dərinliyi, ədəbi mübarizələrin kəskinliyi, ayrı-ayrı yaradıcılıq metodlarının yaranması və onların ayrılıqda öz ideya-bədii və estetik prinsipləri uğrunda mübarizəsi baxımından yeni bir ədəbiyyat, yeni bir mərhələ idi. XIX əsrin başlanğıcından Azərbaycanda maarifçi realist ədəbiyaytın yaranması zamanın başqa ədəbi ehtiyac və tələblərinin bəhrə verməsi üçün hazırlıq dövrü idi. Çağdaş ədəbiyyatın qarşısında isə hələ də öz həllini gözləyən bir çox vəzifələr dururdu. 1905-ci il inqilabı bu vəziflərin həyata keçməsinə geniş imkanlar yaratdı.

XX əsrin əvvəllərində milli realizm yeni keyfiyyətlərlə zənginləşirdi. Həyata, gerçəkliyə, daha kəskin tənqidi münasibət bəsləyən, inqilabi dünyagörüşə malik sənətkarlar öz inkişafında artıq yeni ictimai-siyasi mərhələyə qədəm basmış Azərbaycanın ideoloji və mənəvi həyatına ancaq maarifçilik görüşləri, mənəvi təkmilləşmə ideyaları və ağlın qüdrəti ilə təsir göstərməyin məhdudluğunu aydın hiss edirdilər. Za-

man özü bədii təsvirin yeni yollarını axtarıb tapmağı tələb edirdi və belə bir ictimai, estetik ehtiyacın nəticəsində realizm özünün yeni mərhələsinə - tənqidi realizm mərhələsinə qədəm qoymuşdu. Yeni əsrin realizmi, hər şeydən əvvəl, həyat tərzinə, ictimai münasibətlərə, siyasi quruluşa qarşı barışmaz mövqeyi ilə səciyyələnirdi. O, çağdaş cəmiyyəti dəyişdirə biləcək yeni məzmunla zənginləşmiş bir realizm idi.

Həyatı idrak istedadından, xalqa, onun azadlıq mübarizəsinə münasibətindən, yazıçılıq üslublarından asılı olaraq yeni əsrin realistləri müxtəlif cərəyan və qollara ayrılırdı. XX əsrin maarifçi realistləri, öz sələfləri kimi, qələmə aldıqları mövzuları, gerçəkliyi əsasən elm, maarif və ağıl kultundan asılı bir vəziyyətdə işıqlandırırdılar. Onları çağdaş cəmiyyətin ziddiyyətlərini açmaqdan, ictimai eybəcərlikləri ifşa etməkdən çox elm və maarifin əhəmiyyəti, onun ictimai həyatda, xalqın tərəqqisində rolu, yeni müəllim, təlim və tərbiyə, yeni məktəb və təhsil, insanların mənəvi, əxlaqi keyfiyyətlərinin yaxşılaşdırılması kimi problemlər düşündürürdü. Çünki vətən, millət, məktəb, elm, maarif idealı həmişəyaşar ideyalar idi. Cəmiyyətdə bu ideal uğrunda başlanan mübarizə başa çatmamışdı, əksinə, yeni, real məzmun kəsb etmiş, dövrün ən aktual məsələlərini həll etmək üçün vacib bir ideya-estetik vasitəyə çevrilmişdi. Odur ki. onların içərisində tənqidi mövzularda əsər yazan, xalqın azadlıq meyllərini təsvir edən, yoxsulların ağır güzaranını, ayrı-ayrı ziyalıların yaramaz həyat tərzini, mənəvi pozğunluğunu canlandıran, cəmiyyətdə pulun törətdiyi ictimai bəlaları tənqidə tutan müəlliflər də var idi. Lakin bu mövzu və problemlər maarifçi realistlərin yaradıcılıqlarının ümumi istiqamətini müəyyən etmirdi. Onlar əsərlərində maarifçilik ideyalarının yayılmasına daha çox meyl edirdilər. Didaktiv problemlərə, hadisələrin təsvirində əqlin, mühakimənin nəticələrinə verilən üstünlük bu əsərlərin quruluşuna, xarakterinə, konfliktlərin həllinə də güclü təsir göstərirdi.

XX əsr realistləri içərisində əsərlərini sol təmayüllü mətbuat səhifələrində nəşr edən yazıçılar da var idi. Fəhlə hərəkatının genişlənməsi, bolşevik təbliğatının yayılması nəticəsində yetişən belə yazıçılar şəhər və kənd zəhmətkeşlərindən bəhs edən əsərlər yazır, publisistika və tənqid sahəsində çalışırdılar. Onlar Bakıda nəşr olunan «Hümmət». «Qoç-Dəvət», «Prizıv», «Təkamül», «Yoldaş», «Qudok», «Bakinski raboçi», «Bakinski proletari» kimi leqal və qeyri-leqal mətbuat orqanlarında, yeri düşəndə müxtəlif məsləkli digər qəzet və jurnallarda bolşevik ideyalarını, sinfi mübarizə məsələlərini işıqlandıran məqalələrlə çıxış edir, çar mütləqiyyətinə qarşı mübarizəyə səsləyirdilər.

Həyat həqiqətini əks etdirmə prinsipini yanlış başa düşüb, onu ədəbi təcrübəyə də yanlış tətbiq edən, həyat hadisələrini təsvir pərdəsi altında, onun sadəcə olaraq sönük kölgəsini yaradan, sənətkarlıq və mədəniyyəti etibarilə çağdaş estetik tələblərə cavab verməyən yazıçılar da vardı. Onların yaradıcılıq metodları realizmdən daha çox naturalizmə yaxın idi. Bu yazıçılar həyat həqiqətinə sədaqəti onun üzünü kor-koranə köçürmək kimi başa düşürdülər. Qazanc güdən naşirlərin rəvac verdiyi, mühafizəkar jurnalistlərin təbliğ etdiyi belə yazılar demokrat tənqidçilərin haqlı müqavimətinə rast gəlirdi.

XX əsr Azərbaycan ədəbiyyatının əsas qüdrətli cərəyanlarından və yaradıcılıq metodlarından biri romantizm idi. Romantizmin öncül, işıqlı ideya-bədii prinsipləri bəzi nöqtələrdə realizm ilə çox yaxınlaşırdı. Yeni əsr ədəbiyyatının bu iki əsas ədəbi cərəyanı bəzi xalqların ədəbiyyat tarixlərindən fərqli olaraq yanaşı, biri-digərini təsdiq edə-edə yaşayır, ədəbi prosesdə qabaqcıl rol oynayırdılar.

Dövrün qabaqcıl ideyaları ilə bağlılıq romantizmin qabaqcıl xarakterini şərtləndirirdi. Rus çarizmi və onun milli müstəmləkə siyasətinə, zülmə, zorakılığa, müharibələrə, imperializmə qarşı çıxan, Cənubi Azərbaycanı milli və ictimai

asılılıqdan qurtarmağa çağıran, milli mədəniyyət və onun yüksəlişi məsələlərini yayan romantiklər köhnə sxolastik şeirin nüfuzunu qırmaqda, onun «toxunulmaz» qaydaları haqqında yaranmış ənənəvi təsəvvürləri alt-üst etməkdə böyük iş görmüşdülər. Yeni əsrin romantizmi mahiyyətcə yeni romantizm idi, sxolastik ədəbiyyata qarşı bir əks-səda kimi doğmuşdu.

XX əsrdə klassik şeir ənənələrini ancaq formal cəhətdən mənimsəyib, onu yamsılayan, dünyagörüşü, zövqü, savad və mədəniyyəti etibarilə zamanla ayaqlaşmaqda çətinlik çəkən epiqonçu şairlər vardı. Feodal ovqatlı təbəqələrin zövqünü oxşayan, klassik poeziya ənənələrini dövrlə səsləndirə bilməyən epiqonçular hər vasitə ilə öz yollarına bəraət qazandırmağa çalışırdılar. Onların arasında şeirin poetika və sənətkarlıq sirlərindən agah olan, nüfuzlu şairlər də var idi ki, bu da epiqonçularla mübarizəni xeyli çətinləşdirirdi. Həmin şairlərin qələmindən arabir mövcud cəmiyyətin ictimai bəlalarını tənqidə tutan, elmə məhəbbət, maarifə çağırış ruhunda yazılmış lirik, sənətkarane əsərlər də çıxırdı.

Yeni əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında baş verən bu mürəkkəblik, hər şeydən əvvəl, 1905-ci ildən sonra ölkədə yaranan yeni tarixi şəraitlə, fikri, estetik ayrılıqların kəsinləşməsi ilə bağlı idi. Bu zaman ədəbiyyat kimi, onun ayrılmaz və canlı sahəsi olan ədəbi tənqid də Azərbaycanın ictimai-siyasi və ədəbi həyatında baş verən yeniliklərdən, fikri ixtilaf və mübarizələrdən kənarda deyildi. Siyasət, tarix, fəlsəfə, əxlaq, təlim-tərbiyə, dil, əlifba və bir sıra başqa məsələlərə münasibətdə elm və mədəniyyət xadimləri, yazıçı və tənqidçilər arasındakı ixtilaflar ədəbi tənqiddə estetik prinsiplər, zövqlər arasında gedən mübarizə şəklində meydana çıxmışdır.

1905-ci ildən sonra sürətlə inkişaf edib, ədəbi həyatın üzvi və fəal bir sahəsinə çevrilən tənqid çağdaş ədəbiyyatın çox mühüm məsələləri ilə məşğul idi. Ədəbiyyatın həyata

münasibəti, sənət və ictimai həyat, xalq ədəbiyyatından istifadə yolları, ədəbiyyat və bədii dil, satira, ədəbiyyatda ideyalılıq, xəlqilik, klassik irsə münasibət, bədii tərcümə, ədəbi tənqidin əhəmiyyəti və s. XX əsr tənqidində bu və ya başqa dərəcədə izah edilən məsələlərdən idi. Mətbuatda çıxan məqalə və resenziyalarda ayrı-ayrı bədii əsərlər, teatr tamaşaları təhlil olunur, realizm, romantizm, naturalizm, dekadentizm ədəbi məktəbləri və onların mövqeyi müxtəlif mövqelərdən işıqlandırılırdı.

Bunlardan əlavə ayrı-ayrı yazıçılara həsr olnmuş elmi əsərlərdə, ədəbiyyat tarixi və təzkirələrdə, yuxarı siniflər üçün yazılmış dərsliklərdə, bədii əsərlərin müqəddimələrində ədəbiyyat tarixinin müxtəlif məsələləri ilə yanaşı, ədəbi irsə münasibət, ənənə, ədəbiyyatın tərbiyəvi rolu kimi problemlərdən də bəhs olunurdu.

Əlbəttə, bütün bu məsələlər müəlliflərin dünyagörüşündən, bədii zövqündən, məfkurəvi mövqeyindən, bilik dərəcəsindən asılı olaraq həll edilirdi. Bədii ədəbiyyat kimi, ədəbi tənqiddə də mövqelər iki istiqamətə ayrılırdı: realist ədəbiyyatı təmsil və təbliğ edən **realist tənqid** və romantik ədəbiyyatı təbliğ edən **romantik tənqid**. [1]

Azərbaycanda çağdaş ədəbiyyatın inkişafına kömək edən və inqilabi estetikanın bəzi prinsiplərini yaymağa başlayan, realist və romantik tənqidin təsiri altında olan milli ədəbiyyatşünaslıq meyli güclənirdi. XX əsr tənqidinin önəmli qolu realist tənqid idi. O, öz qidasını ötən əsrlərin tənqidi fikir ənənələrindən, M.F.Axundrv estetikasından alıb, XIX əsrin sonlarına doğru müəyyən inkişaf yolu keçmiş, 1905-ci

[1] Çağdaş elmi ədəbiyaytda «realist tənqid», «romantik tənqid» termini tez-tez işlənməkdədir. Oçerkdə bu terminlərdən şərti olaraq istifadə edilir. Çünki realizm, romantizm yaradıcılıq metodlarıdır və hər hansı tənqidi məqalənin, yaxud nəzəri əsərin bu və ya başqa yaradıcılıq metodunda yazıldığını təsəvvür etmək çətindir. Odur ki, «realist tənqid», «romantik tənqid» terminləri realizmi, romantizmi müdafiə və izah edən tənqid mənasında anlaşılmalıdır.

ildən sonra daha da güclənərək ədəbi prosesin ayrılmaz, üzvi bir hissəsinə çevrilmişdi.

Realist tənqidçilər ədəbi hərəkatda mühafizəkarlığın, köhnəlmiş, zamanın tələblərinə, müasirliyə cavab verməyən ideya-estetik normaların əleyhinə çıxıb, Azərbaycan ədəbiyyatının qabaqcıl, demokratik ənənələrini müdafiə edir, ədəbi hadisələrin qiymətləndirilməsində ümumxalq mənafeyini hər şeydən üstün tuturdular. Onlar həmişə eyni mövqedən çıxış etmirdilər. Təhsillərindən, dünyagörüşlərindən, konret ədəbi mühitlərindən, zövqlərindən asılı olaraq, onların tənqidi məqalələrində ziddiyyətli fikirlər, münasibətlər və təsirlərlə deyilmiş yanlış mülahizələr də olurdu. Romantizmin qabaqcıl xüsusiyyətlərini işıqlandıran romantik tənqid də bir çox hallarda realist tənqidlə birləşərək dövrün güclü və kütləvi ədəbi fikir istiqamətini - **demokratik tənqid** istiqamətini təşkil edirdi.

Realist tənqid yönümündə ardıcıl çalışan, tənqidi özünə peşə edən, öz dövründə nüfuzlu tənqidçi kimi tanınan müəlliflərin sayı çox deyildi. Firidunbəy Köçərli, Əhməd Ağayev (Ağaoğlu), Seyid Hüseyn (Kazımoğlu), Məhəmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Hüseyn Minasazov, Hacı İbrahim Qasımov, Əkbər Əkbərov, Xəlil İbrahimov və ara-sıra bir neçə tənqidi məqalə yazıb o qədər də məşhur olmayanlardan başqa, bu müəlliflərin sayını artırmaq çətindir. Ancaq bu siyahıya əsasən bədii yaradıcılıqda məşğul olub, yeri düşəndə ədəbi-tənqidi məqalələrlə çıxış edən C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Ə.Sabir, Ə.Haqverdiyev, Əliqulu Qəmküsar, Y.V.Çəmənzəminli, Ə.Müznib kimi sənətkarların adları da artırılsa, eləcə də bu zaman maarif və mətbuat sahəsində çalışan Ömər Faiq, Əli Fəhmi, Məmməd Sadıq Axundov, Fərhad Ağazadə, Mirzə Məhəmməd Axundov, Əli Səttar, Əbdürrəhman Tofiq, Qafur Rəşad, Rəhimbəy Məlikov, Eynəli Sultanov, Cəfər Bünyadzadə və başqalarının tənqid yönümündə gördükləri işlər

də alınsa, realist tənqidi tam şəkildə təsəvvür etmək olar. XX əsrin əv əllərində ədəbi hərəkata başçılıq etmək. onu istiqamətləndirmək vəzifəsi realist tənqidin öhdəsinə düşmüşdü. Müəyyən, aydın ənənəyə malik olan realist tənqid dövrün ehtiyac duyduğu bir çox vacib ədəbi məsələləri daha geniş ölçüdə əhatə edirdi.

***

1905-ci il inqilabı və Azərbaycanda inqilabi-demokratik ideologiyanın təşəkkülü, «Molla Nəsrəddin» jurnalının nəşri XX əsr realizmini maarifçiliklə yanaşı yeni dövrün bir sıra mühüm problemləri ilə - milli azadlıq hərəkatı və xalqın inqilabi mübarizəsi problemləri ilə zənginləşdirmişdi. Bu problemlər yeni dövr bədii ədəbiyyatı və realizmi kimi dövrün tənqidinin də əsas ideya-estetik istiqamətini müəyyənləşdirmişdi, onun təhlil hədəfinə çevrilmişdi. Bu dövrdə realist tənqid dövrün estetik tələblərinə daha əhatəli şəkildə cavab verən cərəyana çevrilir. Bu da XX əsr realist tənqidini XIX əsrdəkindən fərqləndirən əsas əlamətlərdən biri idi.

Yeni realistlər mütləqiyyət quruluşuna, istibdada, imperializmə qarşı mübarizə aparır, demokratik prinsiplərə əsaslanan dövlət qurulşu yaratmağı irəli sürürdülər; imperializmin yırtıcı təbiətini ifşa edən, millətlərin milli-azadlıq mübarizəsini alqışlayan, inqilabi qüvvələri qiymətləndirən, kəndli və fəhlələrin istəklərini, xalqlar dostluğu ideyalarını, elm və maarifi təbliğ edən, fanatizmi, sxolastikanı damğalayan əsərlər yazırdılar. Bütün bunlar isə XX əsr realistlərinin ədəbi-estetik görüşlərinin siyasi əsasını, ideya təməlini təşkil edirdi.

Romantik tənqidin ilhamçısı «Füyuzat» romantizm məktəbinin başçısı Əlibəy Hüseynzadə idi. «Molla Nəsrəddin» yeni realistlərin məfkurə, sənət dünyasının təşəkkülündə hansı işi görmüşdüsə, «Füyuzat» da Azərbaycan romantizminin, onun ayrı-ayrı nümayəndələrinin - maarifçi ro-

mantiklərin böyük ədəbi simalar kimi yaranmasında eyni müstəsna, əvəzsiz bir xidməti göstərmişdi.

Romantik tənqid Ə.Hüseynzadə, M.Hadi, A.Səhhət, H.Cavid və A.Şaiqin - Azərbaycan romantizminin başlıca yaradıcılarının sənət görüşləri əsasında cərəyanlaşmışdır. Romantizmin bədii metod kimi yaradıcıları, onun həm də ilk nəzəriyyəçiləri olmuş, onların ictimai-siyasi, fəlsəfi və estetik görüşlərindəki vəhdət isə romantik tənqidin cərəyan kimi formalaşmasını təmin etmişdir. Romantik tənqidi realist tənqidə yaxınlaşdıran cəhətlər çox idi. Xalq taleyi və gələcəyi məsələlərinə münasibətdəki mövqe uyğunluğu bu iki tənqidi cərəyanın ümumi **demoratik** istiqamətini təyin edirdi.

XX əsrin romantikləri dövrlərinin görkəmli maarifçiləri və demokratları idilər. A.Şaiqin «romantik məsləkli» qəhrəmanı şair Cavad da özünün «demoratiya tərəfdarı» olduğunu, sənətdə üstünlüyü formaya, ləfzə yox, mənaya verdiyini, sönük daxmalarda yaşayan «qırıq ürəkli» insanların «dərd-kədərlərinə» ürək ağrısı ilə yanaşdığını bildirirdi.

Romantiklərin ədəbi görüşləri onların siyasi və fəlsəfi ideyaları özülündə maarifçilik və demokratizm görüşlərindən qidalanaraq yetişmişdir. Bu da realist tənqidlə romantik tənqidin problemləri arasında bir yaxınlıq oldğunu göstərir. Romantik tənqidin nümayəndələri də bu fikirdə idilər ki, çağdaş ədəbi prosesi tənqidi fikirsiz istiqamətləndirmək mümkün deyil və hazırkı ədəbi hərc-mərcliyin əsas səbəblərindən biri elə tənqidin zəifliyidir. M.Hadi: «...vətənimizdə taziyaneyi-tənqid məhəki-imtəhan olmuş olsaydı, hər kəs öz həddini tapardı» - deyirdi. Göstərilirdi ki, tənqid «böyük, milli əməllərdən» (A.Səhhət) yazan sənətkarların həyata münasibətlərini, onların fikir və məsləkini açıqlamalı, ədəbiyyatın ictimai mövqeyini müəyyənləşdirməlidir. Bu ümumi estetik problemlər romantik tənqid qarşısında konkret sənət məsələləri də qoyurdu: həqiqətin bədii inikasında hiss və xəyalın yeri; həyat ilə sənətin münasibətindəki əlaqənin özünə-

məxsusluğu və dərəcəsi; cəmiyyət azadlığı və onun sənətkar, yaradıcılıq azadlığı ilə əlaqəsi, azad cəmiyyət və azad sənətkar problemi; sənətdə rəmz və ondan istifadə üsulları və s.

Romantik tənqidin realist tənqiddən fərqi məhz bu nöqtələrdə, eyni problemlərə başqa estetik mövqedən yanaşanda meydana çıxır. Tutaq ki, hər iki tənqidi cərəyanda gerçəkliyin bədii inikası problemi mərkəzi yerlərdən birini tutur. Eynilik problemin həllinin müəyyən nöqtəsində başa çatır, müəyyən sərhədə qədərdir. Gerçəkliyin təsvirində həqiqət axtarışları - romantik tənqidi tipik hadisələrin tipik vəziyyətlərdə təsviri şəklində yox, mövcud həyatın faciələrinə, ziddiyyətlərinə daha çox diqqət yetirməsi ilə cəlb edir, sənətarın faciəli həqiqətlərə necə üsyan qaldırması maraqlandırır. Romantizm estetikasında həqiqətə, gerçəkliyə çağırış dövrün pisliklərini rədd etməklə gələcəyə qovuşmaq arzusu ilə birləşir. Bu isə, gerçəkliyin ədəbiyyata gətirilməsinin konkret romantik xüsusiyyətlərinə yönəlməsini şərtləndirir.

Romantik tənqidin əsas ideya mənbəyi - maarifçilik idi. Bu ictimai-siyasi fikir cərəyanı romantik cəmiyyətin gələcəyi ilə daha çox məşğul olmağa, gələcəyə daha ardıcıl bir inamla nəzər salmağa imkan verirdi. Romantik tənqid inqilabi-demokratik fikirdən bəhrələnsə də, cəmiyyətin inkişafında maarifə, ağlın qüdrətinə, mənəvi-əxlaqi təkamül məsələlərinə daha böyük üsünlük verirdi.

***

Realist-demokratik tənqid milli realizmi* dövrün üstün, ən qüdrətli və yaşamağa haqqı olan bir yaradıcılıq

* XIX əsr Azərbaycan tənqidində «realizm» bədii yaradıcılıq metodu mənasını verən termin kimi işlənməmişdir. Bu terminin əvəzinə həmin dövrün tənqidi çox zaman «həqiqətnəvislik» sözünü işlətmiş, yaxud həqiqət - nəvisliyin nə demək oldğunu izah etməklə məşğul olmuşdur. XX əsr tənqidçiləri isə «həqiqətnəvislik», «həqiqətpərəstlik» terminləri ilə realizmi eyniləşdirmişlər.

metodu kimi müdafiə edirdi. Realizmi müdafiə ictimai, ədəbi inkişafın öz tələbləri və qanunauyğunluqları, realizmin o zamankı həyatın tələblərinə cavab verən, ölkənin ictimai, siyasi və iqtisadi həyatındakı yenilikləri dərindən qavraya bilən bir metod olması ilə bağlı idi. Xalqın azadlıq mübarizəsini əks etdirmək üçün realizmin geniş imkanları var idi, xalqın intibahına, oyanmasına, ictimai-siyasi həyata qoşulmasına yaxından kömək göstərirdi.

Realist tənqidçilərin çoxu realist ədəbiyyatın bünövrəsini, yeni ədəbiyyatın əsasını Vaqiflə, onun açdığı ədəbi yolla bağlayırdılar. Onların məqalələrində Vaqif ilə Zakir realist ədəbiyyatın möhkəm bünövrəsini qoyan, ilk dəfə ənənəvi şeirin vaxtı keçmiş prinsiplərini təzələyib ədəbiyyata demokratik ideyalar gətirən, onu xalq həyatına daha da yaxınlaşdıran şairlər kimi dəyərləndirilirdi. M.F.Axundov bu bünövrə üzərində realizmi qüdrətli bir cərəyan şəklinə salan ədəbi məktəb banisi kimi verilirdi. Onlar M.F.Axundovdan sonra yetişmiş S.Ə.Şirvani, N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, S.S.Axundov, M.Ə.Sabir, Y.V.Çəmənzəminli, S.M.Qənizadə kimi realistləri məhz bu məktəbin nümayəndələri sayırdılar. Odur ki, realist tənqidçilərin əsərlərində realizm Azərbaycanda ictimai-ədəbi həyatın inkişaf qanunauyğnluqları əsasında yaranmış, ədəbi inkişafın təbii axınında meydana çıxmış bir cərəyan kimi açıqlanırdı.

F.Köçərli yazırdı ki, Füzuli «türk şairlərinin babası hesab olunur». Vaqifi isə o, «...ədəbiyyatımızın banisi» adlandırırdı. Bu mülahizələrdə ziddiyyət yox idi. Tənqidçi demək istəyirdi ki, ədəbiyyatımızın Azərbaycan dilində yazan ən böyük, ən qüdrətli nümayəndələrindən biri Füzulidirsə və bu baxımdan o, bütün Azərbaycan yazıçılarının babası sayılırsa, Vaqif yeni ədəbiyyatın «müəssisi», «banisi»dir. Köçərlinin aşağıdakı izahatı da həmin fikri təsdiq etməkdədir: «Vaqifin milli ədəbiyyatımıza hüsnü xidməti bu olubdur ki, Tür-

kiyə və İranzəmin şüərasına müqəllidlik etməyibdir, bəlkə onun üçün asan və təbii bir yol açıbdır ki, ondan sonra gələn şairlər ona peyrəvilik edib bir çox gözəl əsərlər meydana gətiribdir. Bu cəhətcə Molla Pənah Vaqifin Qafqaziyada vücudə gələn ədəbiyyatın babası və ustadı adlanmağa haqqı vardır».

Azərbaycan realizminin sonrakı inkişaf mərhələsini F.Köçərli, Q.Zakir və M.F.Axundovun adı ilə bağlayır. Onların hər ikisini «yeni ədəbi cərəyanın», Azərbaycan ədəbiyyatında «yeni istiqamətin» baniləri kimi xarakterizə edir. Burada heç şübhəsiz, maarifçi realist ədəbiyyat başa düşülür.

F.Köçərlinin realizm nəzəriyyəsində M.F.Axundov ayrıca yer tutur. O, bütün ədəbi fəaliyyəti boyu Axundov realizminin yorulmaz tədqiqatçısı olmuş, bu realizm tipi onun əlində bir növ ölçü vahidi rolunu oynamışdır. Odur ki, tənqidçi Axundova «milli ədəbiyyatımızın atası, təmsilat (dram) yazanlarımızın ustadi-kamili, ədəbiyyatımızın fəxri» adlandırırdı.

F.Köçərli ədəbi fəaliyyətə əsasən tənqidçi kimi başlamışdı. Realist ədəbiyyatın sürətlə inkişafını təmin etmək, ədəbi inkişafa doğru istiqamət vermək onun bir tənqidçi kimi əsas məqsədini təşkil edirdi. 1895-ci ildə «Tatar komediyaları»[1] sərlövhəsi ilə çap etdirdiyi silsilə məqalələr bu məqsədlə yazılmışdı. Tənqidçi erotik hisslər ifadə edən, faydalı ictimai ideyadan məhrum sxolastik-formalistik şeirin artıq müasir tələblərə cavab vermədiyini göstərərək yazırdı: «Bu şeirlər öz ibarəbazlığı, forma və mündərəcə yeknəsəkliyi ilə hamını təngə gətirib və müasir oxucuların tələblərini qətiyyən təmin etmir».

F.Köçərlinin məqalələrində M.F.Axundovun, N.Vəzirovun, H.Vəzirovun komediyaları Azərbaycan həyatını doğru əks etdirən sənət nümunələri kimi qiymətləndirilir.

[1] «Novoe obozrenie», 3, 7, 16 iönə 1895, №3924, 3928, 3937.

F.Köçərli ədəbiyyatın təsvir hədəfi, mövzusu və vəzifələrini «Ədəbiyyatımıza dair məktub» adlı məqaləsində geniş izah edirdi. O yazırdı: «Həqiqi şair öz zəmanəsinin ayinəsidir»[1]. Bu ümumi tezis onun ədəbiyayt qarşısında qoyduğu tələbləri müəyyən edirdi. Köçərli realist ədəbiyaytın xüsusiyyətlərini həmin tezisin əsasında aydınlaşdırırdı. O göstərirdi ki, realist ədəbiyyat xalq həyatını bütün rəngarəngliyi və mürəkkəbliyi ilə əks etdirməlidir. Tənqidçinin öz dili ilə deyilsə: «...həqiqi şair dəxi öz cəmaətinin hər qism sədasına, - xah o səda suznak, nalə və fəryad olsun və xah fərəhəngiz, bəşaşət və şadyanalıq səsi olsun, - gərəkdir eyni ilə cavab verə»[2]. Eyni fikirləri Köçərli belə də izah edirdi: «Bir millətin ədəbiyyatı, demək olar ki, onun məişətinin ayinəsidir. Hər bir millətin dolanacağını, övzai-məişətini, dərəcəyi- tərəqqisini, mərtəbeyi-kəmalını, qüdrət və cəlalını onun ədəbiyyatından bilmək olar».[3]

Köçərli xalq həyatının doğru-dürüst əks etdirilməsini ədəbiyyatın ideyalılığı məsələsindən ayırmırdı. O, göstərirdi ki, həqiqi yazıçı xalq həyatını doğru əks etdirirkən «öz səsini millətin səsinə qoşub, onun qeyrət və təəssüb damarını hərəkətə gətirməlidir», «təsirli kəlamı ilə onu qəflətdən bidar edib tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət etməlidir».[4]

Ədəbiyyatın ideyalılığı məsələsi Köçərlinin ədəbi görüşlərində mühüm yerlərdən birini tuturdu. Bu görüşlər M.F.Axundovun sənətin tərbiyəvi rolu və ictimai təsir qüvvəsi haqqında söylədiyi fikirlərlə bağlı idi. Tənqidçi öz böyük müəlliminin sənətin vəzifəsi «insanların əxlaqını yaxşılaşdırmaq, oxucu və qulaq asanları ibrətləndirməkdir»[5] kimi

[1] «Şərqi-Rus» qəzeti, 18 dekabr 1904, №252.
[2] Yenə orala.
[3] Yenə orada.
[4] Yenə orada.
[5] M.F.Axundov. Əsərləri, II cild, Bakı, 1938, səh.75.

mülahizələri ilə də yəqin ki, tanış idi. Təsadüfİ deyil ki, o, elə həmin illərdə Axundovu Şərqdə ədəbi tənqidin banisi adlandırır,[1] təkrar- təkrar onun tənqidi əsərlərindən, ədəbi görüşlərindən bəhs açır, onlara yeri gəldikcə istinad edirdi. Bu görüşlərin təşəkkülündə Köçərlinin yaxşı bildiyi, oxuduğu, əsərlərində adlarını çəkdiyi rus inqilabçı demokratlarının, xüsusən «Ədəbiyyatı - həyatın güzgüsü» adlandıran Belinskinin də təsiri vardı. Belinskini o, «rus ədəbiyyatının korifeylərindən»[2] hesab edirdi.

«Ədəbiyyatımız haqqında məktub» məqaləsində irəli sürülən əsas məsələlərdən biri də sənət əsərinin bədiiliyi, gözəlliyi, bədii təsir qüvvəsinə malik olması məsələsi idi. Müəllifin dili ilə deyilsə, «kəlamın təsiri», «qarelərin qəlblərini təsxir etmək» məsələsi idi. Köçərli bədii əsərin insan qəlbinə yol tapa bilməsinin, yəni oxucuda bədii duyğular oyatmasının səbəblərini araşdırmağa çalışmış, bədiiyyatın bəzi normalarını göstərmişdir. Onun fikrincə həqiqi yazıçı geniş dünyagörüşə, ali fikirlərə, təbii hisslərə, açıq zehnə, sənətkar ilhamına malik olmalıdır. Bu keyfiyyətlərə sahib olan söz ustası ancaq yüksək keyfiyyətli bədii əsərlər yarada bilər. Tənqidçi yazırdı: «Nə qədər şairin təbi səlim, zehni açıq, nitqi guya, daireyi-əqliyyəsi vase, əfkar və hissiyyatı təbii və ali olsa, bir o qədər onun asari-qələmi və məhsulati-fikri ali olacaqdır, bir o qədər əsərlərinin əzhan və vicdan üzərində təsiratı külli, tərbiyeyi-əfkar və təhzibi-əxlaq yolunda faidəsi artıq, əhəmiyyəti böyük və məziyyəti ziyadə olacaqdır».

Köçərli bədii əsərin zehinlərə və ürəklərə yol tapa bilməsi, təsvirlərin rəğbətlə qarşılanması, ürəyə yatması, fikir və əxlaqın tərbiyəsinə əhəmiyyətli dərəcədə təsir göstərməsi

[1] Bax. F.Koçarlinskiy. Literatura azerbaydjanskix tatar, Tiflis, 1903, str.34.

[2] Bax. F.Koçarlinskiy. Literatura azerbaydjanskix tatar, Tiflis, 1903, str.24.

üçün xalq həyatının doğru-dürüst inikas etdirilməsi ilə yanaşı, yazıçının dünyagörüşünün, onun ali fikirlərinin təbii hisslərlə, ilhamla verilməsini lazım bilirdi. Beləliklə o, bədii əsərin ideyasını, məzmununu onun formasından ayırmırdı, əksinə, onları vəhdətdə götürürdü. Tənqidçinin fikrincə, məhz buna görədir ki, Sədi, Hafiz, Şekspir, Bayron, Hüqo, Göte, Şiller, Puşkin, Dostoyevski, Tolstoy kimi məşhur sənətkarlar bütün dünyaya səs salan əsərlər yaratmış, nəinki öz xalqlarının, hətta bütün dünya xalqlarının sevimli yazıçıları ola bilmişlər. Köçərli yazırdı: «Bunların təəllüqü cəmi aləmə çatar, bir millətə və taifəyə çatmaz. Bunlar ümum xəlayiq və insaniyyət müəllimi və mürəbbisidirlər, nəinki bir millət ədibi və şairi». «Ədəbiyyatımız haqqında məktub» müəllifi Vaqif və Vidadini, Zakir və S.Ə.Şirvanini də xalq həyatını, «əsrin təqazasına müvafiq» ideyaları «səmimi-qəlbdən və hissiyyati-həqiqi» ilə qələmə alan şairlərdən sayırdı.

Lakin Köçərli bədiilik, sənətin mənbəyi kimi məsələlərin izahında bəzən ziddiyyətli, birtərəfli fikirlər də yürüdürdü. O, idealist estetikanın təsirilə bəzən bədii yaradıcılıqda idrakın rolunu kifayət qədər qiymətləndirmir, sənətin mənbəyi olan həyatı arxa plana çəkir, hissiyyata üstünlük verirdi. Ümumiyyətlə bəzi sənət məsələlərini ardıcıl şəkildə materializm cəbhəsindən izah etmək sahəsində Köçərli öz müəllimi M.F.Axundova gəlib çata bilməmişdi.

Ziddiyyətli fikirlər Köçərlinin «Azərbaycan tatarlarının ədəbiyyatı» adlı əsərində də vardır. Yığcam şəkildə Azərbaycan ədəbiyyatının inkişaf yolunu işıqlandırmaq məqsədini izləyən müəllif kitabın son fəslini müasir ədəbiyyata həsr etmiş, dövrün ədəbi hadisələri, cərəyanları haqqında fikir yürütmüş, ayrı-ayrı yazıçılara qiymət vermişdir. Tənqidçi çox doğru olaraq qeyd edir ki, XIX əsrin son rübündən başlayaraq Azərbaycan ədəbiyyatında dramaturgiyanın sürətlə inkişafı M.F.Axundovun adı ilə sıx şəkildə əlaqədardır. O, M.F.Axundovdan sonra N.Vəzirov, N.Nəri-

manov, H.Vəzirov, V.Mədətov, Ə.Haqverdiyev, S.S.Axundov, Ə.Adıgözəlov kimi dramaturqların yetişdiyini göstərir, hər dramaturqun ədəbi mövqeyini müəyyənləşdirməyə çalışır. Tənqidçi N.Vəzirovun çox məhsuldar işlədiyini qeyd edərək yazır: «N.Vəzirov öz komediyalarında böyük istedad sahibi kimi meydana çıxır; o, mülkədar silkinin patriarxal həyatına məxsus müxtəlif səhnələri ustalıqla təsvir edir. Bu cəhətdən onun «Adı var, özü yox» və «Sonrakı peşimançılıq fayda verməz» adlı komediyaları ən müvəffəqiyyətli əsərlər sayıla bilərlər».[1]

Bununla bərabər o, XIX əsrin axırlarında bir-birinin ardınca «Ümdətül-ehkam», «Zübdətül-ehkam», «Tarixi-müqəddəs» və başqa dini kitabların nəşrini müsbət bir hadisə hesab edir; Əhmədbəy Ağayevin «Axund və islam» əsərindəki dini təəssübkeşliyə bəraət qazandırır. Ədəbi faktlara belə qeyri tənqidi münasibət tənqidçini bəzi hallarda burjua nəzəriyyəsi olan «vahid axına» aparıb çıxarırdı.

1905-ci ildən sonra Rusiyanın ictimai-siyasi həyatında baş verən böyük hadisələr, Azərbaycan ədəbiyyatında realizmin yeni bir mərhələyə qədəm qoyması və ədəbi mübarizələrin daha da kəskinləşməsi F.Köçərlinin ictimai-siyasi, eləcə də tənqidi görüşlərinin inkişafına müsbət təsir göstərir. Azərbaycan dilində yeni mətbuat orqanlarının meydana gəlməsi, nəşriyyat şirkətlərinin yaradılması mühərrirliyə və tənqidə sönməz bir həvəs bəsləyən Köçərlinin ədəbi fəaliyyətinin genişlənməsinə, öz oxucuları ilə sıxı əlaqə yaratmasına imkan verir.

Həyata, müasirliyə çağırış, həyat hadisələrini cəsarətlə ədəbiyyata gətirmək tələbi F.Köçərlinin 1905-ci ildən sonrakı ədəbi-tənqidi mülahizələrinin əsasını təşkil edir.

[1] Bax. F.Koçarlinskiy. Literatura azerbaydjanskix tatar, Tiflis, 1903, str.51.

Həyatla sənətin əlaqəsi məsələsi Köçərlinin yaradıcılığında xüsusi yer tuturdu. 1906-cı ildə C.Məmmədquluzadənin «Usta Zeynal» hekayəsi çap olunanda hamıdan əvvəl realist bir əsər kimi Köçərlinin diqqətini cəlb etmişdi. Tənqidçi müəllifin yazıçılıq məharətini həyatı yaxşı bilməsində, öz müşahidələrindən bacarıqla istifadə etməsində, «boş təxəyyüldən» deyil, «bilavasitə həyatdan götürülmüş» hadisələri ədəbiyyata gətirməsində görürdü. «Usta Zeynal» adlı məqaləsində yazırdı: «...onun (C.Məmmədquluzadənin - red.) hekayələri bilavasitə həyatdan götürülmüşdür, boş təxəyyülün məhsulu deyildir...».[1]

1909-cu ildə Abbas Ağa Qayıbov Nazirin 60 illik yubileyi münasibəti ilə çap etdirdiyi məqalələrdə[2] də Köçərli dövrün şairlərinə eyni yol ilə getməyi məsləhət görürdü: «Həqiqi şair öz əsr və zəmanəsinin gərək ayinəsi olsun; ənvai-vətəni ağlamaq zamanı ağlatsın, gülmək zamanı güldürsün».

Y.V.Çəmənzəminli də ilk realist hekayələri ilə Köçərlinin diqqətini cəlb etmişdi. Onun «Yeddi hekayə» kitabçasındakı hekayələr haqqında fikirlərini Köçərli belə izah etmişdir: «Yazdığınız hekayələr artıq dərəcədə xoşuma gəldi... Sizin hekayələrin yaxşılığı və xoşuma gəlməkliyi ondadır ki, onlar məişətdən götürülübdür və ədibanə təhrir olunublar».[3]

Lakin Köçərli ədəbiyyatın vəzifəsini sadəcə olaraq həyatın təsvirində görmürdü. Onun fikrincə, həyati həqiqətləri əks etdirən sənət əsəri, eyni zamanda, həyata təsir etməlidir, yəni o, elə qabaqcıl ideyalarla aşılanmalıdır ki, xalqın inkişafına istiqamət verə bilsin, xalqın azadlıq mübarizəsinə kömək etsin. Beləliklə, Köçərli bitərəf ədəbiyyatın əleyhinə çıxır, sənətin tərəfkirliyi məsələsini irəli sürürdü. O, Nazirə

[1] «Znanie» 23 noəbrə 1906, №31.
[2] «Səda» qəzeti, 20, 26 noyabr, 2, 3 dekabr 1909, № 35, 40, 45, 46.
[3] Azərbaycan SSR Elmlər Akademiyası, Respublika əlyazmaları fondu, Y.V.Çəmənzəminlinin arxivi, arx.25, Q-13, (271).

həsr etdiyi məqaləsində yazırdı: «Həqiqi şair... millət və vətən yolunda canlar fəda etmək lazım isə vətən oğullarının ürəyinə yandırıcı od salıb onları hər qism fədakarlığa və cannisarlığa şövqmənd eləsin».

Bu mülahizələr ədəbiyyatın ideyalılığı məsələsi ilə bağlı idi. Tənqidçinin həqiqi gözəllik haqqında, məzmun və forma haqqında olan fikirləri ilə bağlı idi.

Köçərli formaca gözəl olub, faydalı məzmundan məhrum olan heç bir şeyi gözəl hesab etmirdi. O, həqiqi gözəlliyi məzmun ilə formanın birliyində görürdü. Tənqidçi göstərirdi ki, ancaq simaca gözəl olan qadını gözəl hesab etmək olmaz. Bu gözəllik zahiri gözəllikdir. Xaricən gözəl olan qadın o zaman tam gözəlliyə malik olur ki, onun əqli də, kamalı da, idrakı da gözəlliyinə uyğun gəlsin. Köçərli məzmun ilə formanın birliyi məsələsində çox mühüm bir cəhəti - yəni məzmunun «əvvəlinci şərt» olduğunu qeyd etməklə məzmunun aparıcı rolunu da təsdiq edirdi. «Həqiqi gözəllik və hərəkətsiz nisfimiz» adlı məqaləsində o yazırdı: «...insanın zahiri məlahət və hüsni lətafətdən ibarət olmayıb, onda əql və fərasətin mövcud olması dəxi əvvəlinci şərtlərdəndir. Zahiri gözəlliyi və hüsni-cəmalı kəmala yetirən əqlin nuru və mərifətin ziyasıdır. Əqilsiz və mərifətsiz gözəl məqbul və müstəhsin deyildir».[1]

Eyni fikirlərini Köçərli gözəl göz haqqında olan mülahizələrində daha da əsaslandırmağa çalışırdı. Tənqidçi yazırdı: «...fikir və fərasətin məzhəri hesab olunan gözlər zahirdə nə qədər göyçək və eyibsiz olsa da, insanın qəlbini tərpədib diqqətini cəlb edə bilməz, vəqta ki, onlarda əql və şüur əlaməti görünməyə. Maral, əlik, ceyran qismi çox heyvanlar var ki, onların gözlərinin tərifi şairlər kəlamına düşübdür. Fəqət həqiqət halda ahu qismi heyvanların gözləri nə qədər zahirdə göyçək olsa da, insana cəndan təsir edə bilmir. Əzbəs ki, onlarda şuxluq yoxdur, əql, fitrət və cibilli asarı görünməyir».[1]

[1] «Tərəqqi» qəzeti, 26 aprel, 1909, №88.

Məqalələrindən birində Köçərli yenə həmin məsələdən bəhs açaraq deyirdi: «...nəzmi-qeyri-müqəffa ilə şeir demək müqəffa mənzumələrdən daha asan kimi görünürsə də, həqiqət halda daha çətindir: çünki...bəyəndirmək qayət də müşkildir. İş də kəlamı bəyəndirməkdir, yoxsa qafiyələri yanyana düzmək deyildir».[2]

Tənqidçi öz fikirlərini ədəbi hadisələrə tətbiq edir və doğru nəticələrə gəlirdi. Onun fikrincə, Vaqifin tərənnüm etdiyi qadın, təsvir etdiyi gözlər ona görə gözəldir ki, o, gözəlin daxili aləmini, onun gözlərindəki «fitnələri, felləri», «şux baxışı» təsvir edibdir. Buna görə də şair bu təsvirdə həqiqi gözəlin real surətini yarada bilmişdir. Köçərli öz fikirlərini sübut etmək üçün Vaqifin:

Qaynar gözlərindən, şux baxışından,
Əcayib fitnələr, fellər görünür -

misraları ilə başlanan şeirini misal gətirib yazır: «...şairin sevdiyi «qaynar gözlər» o gözlərdir ki, əql və fəhmin əlaməti ondan zahir olur və onların «şux baxışlı» gözləridir, ahunun zahirdə göyçək, amma həqiqətdə qəlbi-insanı hərəkətə gətirməkdə aciz olan qara gözləri deyil».[3]

Köçərli həmişə müasir yazıçıları həyata dəvət edirdi. Həyatın cəmiyyət üçün faydalı cəhətlərini əks etdirməyə və buna ciddi əhəmiyyət verməyə çağırırdı.

«Usta Zeynal» hekayəsi ona görə Köçərlinin diqqətini cəlb etmişdi ki, bu gözəl sənət əsərində xalqın inkişafına, yüksəlişinə son dərəcə mane olan «allah kərimdir» fəlsəfəsi ifşa olunurdu. Ətalət doğuran bu mürtəce zehniyyət əks-inqilabi bir mahiyyət daşıyırdı. Bu, insanları fəaliyyətdən, hə-

[2] «Həyat» qəzeti, 28 mart 1906, №68.
[3] «Tərəqqi» şəzeti, 26 aprel 1909, №88.

yata bağlanmaqdan, nəhayət, azadlıq mübarizəsinə qoşulmaqdan çəkindirirdi.

Köçərli bu zehniyyətin xalq üçün böyük fəlakətlərə səbəb olduğunu görür və buna qarşı ardıcıl, amansız mübarizə aparırdı. Onun «Həyata dəvət», «Dünyada bəla nədən törəyir?» kimi məqalələri belə bir məqsədlə yazılmışdır. Müəllifin tənqid hədəfi «dünya beş gündür, beşi də qara», «beş günlük ömründən ötrü bu fəna dünyada səy və tələş etmə», «həyata vəfa yoxdur» kimi cəfəngiyatla xalqı «dünya zindəganlığından soyudan» vaizlərdir. O, yazırdı: «Bu qism vəd və nəsihətlərin bərəkətindən müsəlman qardaşların var qüvvətləri zəifləşir... cürət və hünərləri bir iş də büruz etməyir, qəzalarına razı olub hər bir cəfa və məşəqqəti qəbul edirlər, hər növ zəhmət və əziyyətə qatlanıb məişətin pozğun və cəfalı övzaına tab gətirirlər və hər işdə «migüzərəd» deyib rahət olurlar».[1]

Köçərli bir çox inqilabçı mütəfəkkir və yazıçılar kimi, öz qədəm yoldaşları Sabir və Cəlil Məmmədquluzadə kimi, hər cür zülmə, «məişətin pozğun və cəfalı övzaına» dözmək, səbr etmək fəlsəfəsinin qəti əleyhdarı idi. O, çox açıq şəkildə səsini tolstoyçuluğu tənqid edənlərin səsinə qoşur, onun «şərarətə müqavimət etmə» nəzəriyyəsini «batil və müzürr əqidə» hesab edənlərə bəraət qazandırırdı.[2] Bu görüşləri ilə Köçərli o zaman Rusiyada, eləcə də Azərbaycanda marksist tənqidçilərlə mürtəce burjua tənqidçilərin arasında gedən kəskin mübarizədə birincilər ilə birləşirdi. Tənqidçi «Ey qafil, dünya ibrətxanadır, dünyaya uyma, axirəti əldən qoyma... bu dünyayi-dunə rəğbət etmə»[3] - deyən din xadimlərinə hücum edərək, vətəndaşlarını «övzai-məişətini islah etməyə», oyanmağa, «üfunətli və ağır havanı» dəyişdirməyə çağırırdı: «Ey qardaşlar, həyatın qədrini biliniz, ...ayrılınız,

[1] «Haqq yolu» qəzeti, 1911, №1.
[2] Bax: «Haqq yolu» qəzeti, 1911, №1.
[3] Bax: «Haqq yolu» qəzeti, 1911, №1.

hərəkət ediniz, qapı-bacalarınızı açınız, evinizə işıq düşsün, üfunətli və ağır havası dəyişilsin. Gözlərinizin tozunu silib diqqət ilə ətrafa baxınız, hər kəs işləyir, çalışır, həyatdan nəfbərdar olur».[1]

F.Köçərli «Usta Zeynal» hekayəsini dövrün belə mühüm, qabaqcıl ideyasını əks etdirdiyi üçün çox yüksək qiymətləndirir və mətbuatda onun haqqında uzun müddət fikir deyilməməsinə heyrət edirdi. O, C.Məmmədquluzadəni Azərbaycan xalqının dünyagörüşündəki xüsusiyyətləri yaxşı bilən yazıçı adlandıranda, onun «Usta Zeynal»dakı dini dünyagörüşə açdığı atəşə işarə edirdi. Tənqidçi düzgün olaraq Muğdusi Akopu usta Zeynala qarşı qoyaraq yazırdı: «Öz vətəninin həqiqi oğlu olan usta Zeynal Muğdusi Akop ilə tam ziddiyyət təşkil edir. Axırıncı üçün vaxt qızıldır, hər bir dəqiqə qiymətlidir və insan ondan istifadə etməlidir; birinci üçün isə...tələsmək lazım deyil, hər şeyi tələsmədən, sakit şəkildə, allahın köməyinə bel bağlayıb etmək lazımdır. Tələsmək və həyəcan işi ancaq poza bilər, «inşallahsız» heç bir iş görmək olmaz və heç bir işə girişmək lazım deyil. Muğdusi Akop nə qədər əməli, hesabını bilən və işgüzardırsa, usta Zeynal bir o qədər fəaliyyətsiz, cürətsiz və hədsiz dərəcədə sadəlövhdür».[2]

Tənqidçi usta Zeynalı «vətəninin oğlu» adlandırır. O, həqiqətən öz dövrünün minlərlə usta zeynallarının dünyagörüşündə kök salmış zehniyyəti ümumiləşdirən bir surət idi. Bu keyfiyyətləri nəzərə alaraq Köçərli usta Zeynalı tip hesab edirdi.

F.Köçərli XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin saflığı uğrunda gedən mübarizəyə başçılıq edən görkəmli şəxsiyyətlərdən idi. O, Azərbaycan ədəbi dilinə yad təsirlər gətirən, onu xalqdan uzaqlaşdıran yazıçı və mühərrirlərlə ar-

[1] Yenə orada.

[2] «Znanie», 23 noəbrə 1906, №31.

dıcıl mübarizə aparmış, bunu çox mühüm ictimai-siyasi və ədəbi məsələ hesab etmişdir. Azərbaycan ədəbi dilinin saflığı uğrunda mübarizə Köçərlidə ədəbiyyatda realizm və demokratizm uğrunda mübarizənin bir hissəsini təşkil edirdi. O, realist yazıçının ən başlıca xüsusiyyətlərindən birini onun təmiz, saf xalq dilində yazmasında görürdü. Odur ki, XX əsrin əvvəllərində ədəbi və bədii dil məsələləri ətrafında ciddi mübahisələr getdiyi zaman, tənqidçinin özü dediyi kimi «dil məsələsi məhəlli-müzakirəyə qoyulub onun üstündə məclislərdə, qəzetə sütunlarında və jurnallarda bəhs olunduğu»[1] vaxt Köçərli «Ana dili» məqaləsini çap etdirir və mübahisələrə düzgün istiqamət verir.[2] O zaman bütün demokratik qüvvələrin rəğbətini qazanmış həmin məqalədə deyilirdi: «Hər millətin özünə məxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsinlədir... hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir».

Bu hökmlər Azərbaycan dilinin inkişafını öz zəmanəsindən, öz kökündən ayırıb, ona yanlış bir istiqamət verməyə çalışanlara qarşı aydın bir cavab idi. Köçərli deyirdi ki, hər millətin özünə məxsus dili vardır, yazıçılar, mühərrirlər də bu dildə yazıb-yaratmalıdırlar. Məşhur rus realistləri belə olmuş, onların əsərlərini «rus əkinçisi, rus dehqanı oxuyub asanlıq ilə başa düşmüşlər». M.P.Vaqif, M.F.Axundov, Q.Zakir, S.Ə.Şirvani kimi Azərbaycan klassikləri də belə olmuşlar, onlar «ana dilini canü dildən seviblər və yazılarını açıq və aydın yazıblar».

Köçərlini narahat edən bu idi ki, XX əsrdə ortaya çıxan bir qrup yazıçı və mühərrir bu ənənəni pozur, «dilimizə xələl gətirir», «qəliz ibarələr atına minib ədəbiyyat meydanında cövlan» edirdilər. O, yazırdı: «Allah Əlibəy Hüseynzadəyə insaf versin.. Kaş o alicənab İstambulda rahət əyləşib bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi. O cənabın elm və kəmalına sözümüz yoxdur. Sözümüz ondadır ki, dilimizə pozğunluq saldı, təzə dil gətirdi. Ətrafını bir dəstə meymunlar bürüdü... Az vaxtın içində Qafqaz türklərinin dili osmanlı sözləri və istilahları ilə doldu».

[1] «Molla Nəsrəddin» jurnalı, 16 sentyabr, 1913, №22.
[2] Yenə orada, 16 sentyabr, 12 oktyabr, 1913, №22, 23.

Köçərli belə bir inadkarlıqla Azərbaycan dilini fars, ərəb söz və ibarələrilə ağırlaşdırmağa çalışanları tənqid edirdi. O, göstərirdi ki, ədəbi dil ilə oxucu arasında sıxı əlaqə yaratmaq üçün onu mütləq sadələşdirmək, xalqa yaxınlaşdırmaq lazımdır. Buna görə də tənqidçi məqaləsini aşağıdakı çağırışla bitirirdi: «Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəksinlər, fikirlərini açıq və sadə dildə yazsınlar, - ta ki, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazan və oxuyanın arasında dostluq, ittifaq və birlik əmələ gələ bilər».

Eyni fikirləri Köçərli öz müasirlərinə, əlaqə saxladığı yazıçı və şairlərə təkidlə başa salırdı. A.Şaiqin, Y.V.Çəmənzəminlinin əsərlərində bəzən Azərbaycan dilinin sadəliyinə ziyan vuran ibarə və sözlərin işlədilməsini o, həmin yazıçıların yaradıcılığı üçün mənfi hal hesab edirdi. A.Şaiqə göndərdiyi bir məktubunda Köçərli ədəbi dilin mənbələri və inkişaf yolları haqqında bir sıra doğru elmi fikirlər yürüdürdü, ümumxalq dilinin hələ kifayət qədər öyrənilmədiyini, ondan istifadə edilmədiyini göstərirdi: «Biz dilimizi bilmirik və bunda təqsir bizdədir, dilimizdə deyil. Fars və ərəbə meyl və rəğbətimiz o qədər çox olubdur ki, öz dilimizdə olan sözləri atıb əvəzinə əcnəbi dillərin qəliz ibarələrini və sözlərini götürmüşük və götürdüyümüz sözləri və ibarələri öz dilimizin şivəsinə uydurmayıb eyni halı ilə dilimizə qarışdırmışıq və naqabil pinəçilər kimi əlimizə hər nə düşübsə paltarımıza yamamışıq... Bizim qəzetlərdə çap olunan məqalələr, teleq-

ram, hətta elanlar o qədər dolaşıq və çətin dildə yazılır ki, oxuyanlar başa düşməyir və başa düşmədikləri halda qəzetə oxumaqdan rəğbətləri kəsilir... Dilin şivəsini itirmək və üslubunu pozmaq böyük fəsaddır... Mərhum Həsənbəy Məlikovun «Əkinçi» qəzetəsinin nömrələri əlinizə düşsə oxuyub bu mətləbin barəsində bir az fikir eləyin».[1]

Y.V.Çəmənzəminliyə yazdığı məktubda da Köçərli gənc yazıçıya məsləhət görürdü ki, dilin sadəliyinə daha çox fikir versin, «Molla Nəsrəddin» jurnalının yolu ilə getsin: «Dilimizi saxlamaq üçün «Əkinçi» kimi bir ruznamə çıxarmaq lazımdır. Mərhum Həsənbəy həmişə Əlibəy Hüseynzadə ilə dil üstündə cəngü cidalda olub və öz «Əkinçi»sini ona dəlil göstərirdi ki, ən çətin fənni və elmi məsələləri açıq və sadə dildə yazmaq mümkündür... Meymunların ədədi günü-gündən artıb çoxalmaqdadır. Az-çox bunların qabağını «Molla Nəsrəddin» jurnalı kəsibdir».[2]

F.Köçərli Azərbaycan realizminin sonrakı mərhələləri haqqında yazmış və çoxsaylı fikirlər söyləmişdir. Lakin Axundov yaradıcılığına valehlik, ona realizmin yeni dövrdəki inkişafını görüb lazımınca qiymətləndirməyə imkan verməmişdir. Məsələn, F.Köçərli, M.Ə.Sabir realizmi ilə M.F.Axundov realizmi arasındakı fərqi görə və göstərə bilməmişdi.

Y.V.Çəmənzəminlinin Azərbaycan realizmi haqqındakı fikirlərində isə bu məhdudluq qismən islah edilmişdi. O, Azərbaycan ədəbiyyatının İ.Nəsimi ilə başladığını söyləsə də, Vaqifin Azərbaycan ədəbiyyatında yeni bir dövr açdığını göstərir və onun təsirinin hakim olduğu dövrü «Vaqif dövrü» adlandırırdı. Realizmin Vaqifdən sonrakı mərhələsini isə o belə səciyyələndirirdi: «Köçərli Firidunbəy haqlı olaraq Mirzə Fətəlini «milli ədiblərimizin atası» deyə adlan-

[1] Məktubun əsli A.Şaiqin arxivindədir.

[2] Azərbaycan SSR Elmlər Akademiyası Respublika əlyazmaları fondu, Y.V.Çəmənzəminlinin arxivi, arx.26, Q-13 (269).

dırır. Çünki milliyyət hissi birinci dəfə olaraq bu ədibdə oyanmışdır və intibahın dəlili olan kritisizm də Mirzə Fətəlinin əsərləri ilə başlayır. Şair Zakir Axundov ilə bərabər tənqid dövrünün nəsr və nəzminin də baniləri sayılırlar. Bu dövr gələcək üçün yollar təmizləmiş, milli inkişaf üçün böyük sahələr hazırlamışdır».

Y.V.Çəmənzəminli realizmin inkişaf tarixinin yeni dövrə qədərki mərhələsini təxminən F.Köçərli kimi qiymətləndirir. Lakin Çəmənzəminlinin yeni dövr - XX əsr realizmi haqqındakı fikirləri göstərir ki, bu sahədə o, Köçərlidən irəli getmiş, realdizmin yeni mərhələsinin xüsusiyyətlərini qismən görə bilmişdir. Məsələn, onun Sabir satirasına verdiyi qiymət, yaxud Zakirlə Sabir satirası arasında fərqlər haqqındakı mülahizələri bunu sübut etməkdədir. O, milli realizmi inkişaf prosesində alır. Sabiri isə onun ən böyük nümayəndəsi hesab edirdi: «Mirzə Fətəli və Zakir ilə başlanan həqiqətnəvistik dövrünün son və ən böyük müməssili, şübhəsiz ki, Sabirdir. Sabir tam mənası ilə milli bir şairdir. Sabir Zakirin həcvlərindən doğma bir şairdir. Aralarındakı fərq budur ki, Zakir xəstə millətin bir əzası ilə məşğul olmuş, onu məhv edən mikrobları göstərmiş, Sabir isə bütün millət vücudunu təşrih edib çürümüş cəhətlərini meydana çıxarır. Zakir məhəlli şairdir... Sabir isə başqa bir zamanda vücuda gəlib ümumşərqin intibahının şahidi olduğu üçün mövzularını geniş sahələrdən alır. Odur ki, bəzən Sabir azərbaycanlılıqdan çıxıb ümumislam və bəlkə ümuminsaniyyət şairi olur... Sabirin oxları itidir, kimsədən qorxmaz və çəkinməz».

Bu mülahizələrdən aydın olur ki, Y.V.Çəmənzəminli XX əsr Azərbaycan realizmi üzərində apardığı müşahidələrdən düzgün nəticələr çıxarmış, Sabir realizminin əhatə miqyasını, mövzu genişliyini və novatorluğunu müəyyənləşdirə bilmişdir.

XX əsrin onuncu illərində yazılmış məqalələrdə də Sabir yaradıcılığına eyni münasibət hakim idi. Sabir «Azərbay-

can ədəbiyyatında yeni bir cığır açan», «ədəbiyyatda əzim bir inqilab vücuda gətirən» sənətkar kimi təqdim edilirdi. Hətta N.Nərimanov da realist ədəbiyyatın başqa böyük bir nümayəndəsi C.Məmmədquluzadənin «Ölülər» pyesini «ideyası inqilablı» əsər adlandırmış və bu fikir tənqidçilər tərəfindən müdafiə edilmişdi.

Demokratik tənqid Azərbaycanda realist ədəbiyyatın yaranmasını fars ədəbiyyatı təsirinin azalması və aradan çıxması ilə, sxolastik şeirin öz nüfuzunu itirməsi və türk dilli ədəbiyyatın inkişafı ilə əlaqələndirirdi. «Əcəm təsiri» milli mədəniyyətin, o cümlədən ədəbiyyatın inkişafını ləngidən bir maneə kimi səciyyələndirilirdi. Y.V.Çəmənzəminlinin «Əcəmlik möhrü və onunla mübarizə» adlı məqaləsi də bu məqsədlə yazılmışdı: «Ədəbi dil el ədəbiyyatından götürülməlidir... Ədəbiyyat aydın bir məslək təqib etməlidir. Həqiqətnəvisliyə artıq meydan verməlidir. Nəsri nəzmdən uca tutmalıdır. Çünki nəzm qafiyənin düzlüyü üçün fars və ərəb kəlmələri ilə sui-istemal edir. O söz ki. türkdə var, onun əvəzinə qeyri söz yazmaq, danışıqda işlətmək, əlbəttə, böyük xətadır».

XX əsrin onuncu illərində bir sıra maraqlı tənqidi mülahizələrlə çıxış edən İrəvan seminariyasının müəllimi Əkbər Əkbərov da Azərbaycanda realizmin meydana gəlməsini fars ədəbiyyatı təsirlərinin aradan qalxması və onunla başlanan mübarizə ilə bağlayırdı. Tənqidçi göstərirdi ki, Azərbaycan ədəbiyyatının «ərəb və fars ədəbiyyatının təhti-nüfuzundan» və «ərəb və fars şüəralarına nəzm yazmaqdan» qurtaran XIX əsr maarifçiləri olmuşdur. Azərbaycan ədəbiyyatının çağdaş səviyyəyə yüksəlməsi üçün, biz hər şeydən əvvəl, onlara minnətdarıq. Ə.Əkbərov yazırdı: «Müsəlmanların türk olub da türk ədəbiyyatına ehtiyacları olmasını ən əvvəl düşünənlərdən məşhur komediya yazanlardan mərhum Mirzə Fətəli Axundov, Həsənbəy Məlikov və məşhur şüəramızdan Sidqi cənabları olmuşdur. Bu cənablar sadə türk dilində

teatrolar yazmaqla, qəzetə çıxarmaqla və məktəblərimizdə neçə yüz illərdən bəri qəflət yuxusu ilə yumulmuş gözlərini açmağa səy və himmət etmişlər».

Beləliklə, realist tənqidçilər Azərbaycan realizmini ədəbi inkişafın yeni qanunauyğun bir mərhələsi kimi göstərir, onun tarixini, yaranmasını ölkənin ictimai həyatından, oradakı fikri ixtilaflardan ayırmırdılar.

Bu dövrdə realizmi bir yaradıcılıq metodu kimi bütün prinsipləri ilə aydınlaşdıran nəzəri əsərlər yaradılmamışdı; ancaq ədəbiyyat nəzəriyyəsinə dair bəzi əsərlər yazılmışdı ki, onların bir qismi mətbat səhifələrində, dərsliklərdə çap olunmuş*, bir qismi isə əlyazması halında qalmışdı.** Bu əsərlərdə realizmdən bir küll halında deyil, onun ancaq ayrı-ayrı prinsiplərindən danışılırdı. XX əsr demokratlarının realizm haqqında fikirləri əsasən onların müxtəlif ədəbi məsələlərə həsr edilmiş məqalələrində verilmişdir.

Azərbaycan realizminin inkişaf yolunu və onun ayrı-ayrı mərhələlərini araşdırarkən ədəbi tənqid sənətin həyata münasibəti, tipiklik, ədəbiyyatın ideyalılığı, xəlqilik, müasirlik, bədii dil və sənətkarlıq, köhnə və yeni şeir kimi nəzəri məsələlərin izahına çalışırdı. Bu məsələlər sisteminə klassik Azərbaycan ədəbiyyatına və eləcə də dünya xalqları ədəbiyyatına münasibət, Azərbaycan dramaturgiyası və onun inki-

* Azərbaycan türklərinə məxsus ədəbiyyat, ədəbiyyat xüsusunda bir para məlumat, Rəşid bəy Əfəndizadə. Bəsirətü ətfal, Badikubə, 1901, səh.144-222; Əli Məhzun. Ədəbiyyata dair «Bürhani-həqiqət» jurnalı, 20 yanvar, 15 fevral, 5, 15 mart, 7 may, 5 iyun 1917, №2, 3, 4, 5, 6, 7, 8, Abdulla Şaiq, Hüseyn Cavid. Ədəbiyyat dərsləri. Bakı, 1919.

** Fərhad Ağazadə. A.Səhhətin «Türkcə əruz» adlı əsər yazması haqqında məlumat verir. Lakin çox heyf olsun ki, «Edil boyu səyahət» romanı, bir çox əlyazmaları ilə bərabər Şamaxı talanı əsnasında yanıb tələf olmuşdur. İki ziya. Azərbaycan qəzeti, 3 qanuni-sani, 1919, №78. İrəvan müəllimlərindən Cabbar Məmmədovun 1912-ci il 22 iyun tarixli bir məktubundan məlum olur ki, A.Şaiq «Qaideyi-ədəbiyyat» adlı bir əsər yazıbmış. Bu əsər də əldə yoxdur.

şaf yolu, bədii yaradıcılıq metodları, folklordan istifadə yolları, bədii tərcümə, satira, teatr sənəti kimi məsələlər də daxil idi. Əlbəttə, sadalanan bu məsələlər bəzən səthi, bu və ya başqa ədəbi hadisə ilə əlaqədar deyilmiş mülahizələr şəklində işıqlandırılırdı. Bu məsəllərdən bəhs edən məqalələrin ümumi nəzəri səviyyəsi də çox vaxt aşağı olurdu. Lakin realist ədəbiyyatın özü irəlilədikcə, bədii yaradıcılıq sahəsində əldə edilən təcrübələr zənginləşdikcə realist tənqidin sübutları, dəlilləri də qüvvətlənir, məsələlərin izahında ümumiləşdirmələr daha artıq nəzərə çarpmağa başlayırdı.

Tənqidi məqalələr realizmin izahından daha çox realist ədəbiyyatın müdafiəsinə həsr olunurdu. Bu məqalə və bəzən məlumat xarakteri daşıyan yazıların ümumi nəzəri səviyyəsi M.F.Axundovun qoyub getdiyi irsdən, onun ədəbi-tənqidi, fəlsəfi məqalələrindən aşağı olsa da realizmin öyrənilməsində ilk addımlar kimi qiymətli idi. Bir də nəzərə almaq lazımdır ki, M.F.Axundovun ədəbi, estetik görüşləri, əsasən, onun məktublarında, çap olunmamış məqalələrində, həmçinin ancaq sovetləşmədən sonra nəşr edilmiş məşhur «Kəmalüddövlə məktubları» fəlsəfi traktında irəli sürülmüşdü ki, bunlar da o zaman geniş yayıla bilməmiş, M.F.Axundovun yaxın xələflərinin çoxuna məlum olmamışdı.

1905-ci il inqilabı illərində və daha sonralar realist ədəbiyyatın yeni mərhələyə qədəm qoyması və realist ədəbiyyat uğrunda mübarizənin daha da kəskinləşməsi tənqidin genişlənməsinə, qüvvətlənməsinə səbəb olur, realizm məsələlərinin həlli yeni bir istiqamət alır.

Əhməd bəy Həsən bəy oğlu Ağayev (sonralar Ağaoğlu) - M.F.Axundovdan sonrakı dövrdə tənqidin ən görkəmli nümayəndələrindən biri idi. O tənqidçilik və ədəbiyyatşünaslıq fəaliyyətinə XIX əsrin sonlarında başlamışdır. İlk təcrübə hədəfləri isə əsasən Azərbaycan ədəbiyyatı tarixi və müasir ədəbiyyat, dünya ədəbiyyatı və ondan tərcümə məsələləri olmuşdur. Onun «Şekspirin «Otello»su və Şillerin

«Qaçaqlar»ı tatar dilində» məqaləsi buna ən yaxşı sübutdur. Məqalə klassik dramaturgiyanın ən gözəl nümunələrinin Azərbaycan səhnəsində tamaşaya qoyulması münasibətilə yazılmışdı. Müəllif bu mühüm mədəniyyət hadisəsini «odlu-alovlu xülyalarda» dolaşan «yeniliklərdən» biri kimi mənalandırır, tərcümə və tamaşaların Azərbaycan oxucu və dinləyicilərinə Avropa ədəbiyyatının nailiyyətləri ilə tanış olmaq imkanı yaratmasının böyük idraki əhəmiyyətini qeyd edir.

Bununla belə məqalənin ümumi ruhundan görünür ki, müəllifin məqsədi dünya ədəbiyyatı incilərinin təbliği ilə məhdudlaşmır. O, fürsətdən istifadə edərək müasir ədəbiyyat haqqında öz fikirlərini söyləyir. Obyektiv tarixilik prinsipini, hər milli ədəbiyyatın özünəməxsus inkişaf mərhələsi olduğunu unudan tənqidçi Avropa ədəbiyyatını milli yazıçılara, milli ədəbiyyata qarşı qoyur, Azərbaycan ədəbiyyatının yeni, müsbət keyfiyyətlərini qiymətləndirə bilmir. Beləliklə, Ə.Ağaoğlu yeni bir inkişaf yoluna düşmüş müasir milli ədəbiyyata klassik Qərb şedevrlərinin meyarı ilə yanaşır və bircə əsər belə tapa bilmir ki, öz bədii dəyəri etibarilə onu qane etsin: «Orijinal əsərlərə gəlincə, mənim fikrimcə, onların böyük hissəsi Avropa klassiklərindən edilən tərcümələrin bir səhifəsinə belə dəyməz. Hər dəfə tatar dilində orijinal bir əsər oxuyanda, yaxud «rəy üçün» hər hansı orijinal bir kitab alanda, mən kədər hissi içində onlara sərf olunan vaxta hayıfsılanıram».[1]

Ümumi şəkildə deyilmiş fikirləri Əhmədbəy Azərbaycan klassik ədəbiyyatının ayrı-ayrı nümunələrinə də tətbiq edir və konkretləşdirirdi. Məsələn, «Hacı Qara» komediyasına Ağaoğlu belə qiymət verirdi: «Ümumiyyətlə, Axundovun komediyalarının müvəffəqiyyəti müəllifin özünün bəzi xüsusiyyətləri ilə izah edilir. Başqa əsərləri kimi, «Hacı Qara»nı da ciddi mənada komediya adlandırmaq olmaz.

[1] «Kaspi» qəzeti, 1903, №214.

Onlarda nə tip var, nə də ictimai və psixoloji təhlil. Bu, hər şeydən əvvəl, adi farsdır».

N.Vəzirovun dramatik cəhətdən qüvvətli əsərlərindən olan «Yağışdan çıxdıq, yağmura düşdük» isə Ə.Ağaoğlunun nəzərində həm ideyaca, həm də bədii cəhətdən yararsız komediya idi: «Burada müəllif əsasən kütləni teatr ətrafına toplamaq məqsədini izləmişdir. Buna görə də hər şey əsərin quruluşu, bütövlüyü, məzmunu, bir sözlə, bədiiliyi və ideyalılığı xarici effektə qurban verilir». Ə.Haqverdiyevin «Dağılan tifaq» faciəsi haqqında da onun fikri təxminən belə idi: «Ancaq təəssüf ki, əksər tatar pyesləri kimi, o da quruluş bütövlüyü cəhətdən qüsurludur. Bu, texniki şəkildə bir-birinə quraşdırılmış və bir-birilə daxili əlaqəsi olmayan həyatdan götürülmüş bir neçə epizoddan ibarət əsərdir. Burada nə ehtirasların məntiqi inkişafı və nə də onların mübarizəsi vardır».

Ə.Ağaoğluna elə gəlirdi ki, Azərbaycan öz mənəvi inkişafında çox geridə qalıb, o hətta Avropadakı fikri cərəyanları mənimsəmək üçün belə yetişməyib, odur ki, bizim müəllimlər, yazıçılar nahaq yerə bədii yaradıcılıqla məşğul olurlar. Onların yazdıqları tamamilə təsirsizdir: «Heyhat! Biz onlar haqqında düşünmək üçün həddindən artıq miskinik, yoxsuluq. Biz hələ o təmənnada olmamalıyıq. Bizə dolanmaq üçün gündəlik kasıbyanə bir pay lazımdır.

Təəssüf ki, vəziyyətimizin bu cəhətinin aydınlığına baxmayaraq, bizi də süstlük bürümüşdür... Müəllimlərimizin sinifdənkənar bütün fəaliyyəti heç nəyə yaramayan komediyalar, gülünc dramlar və son dərəcə pis qrammatikalar yazmağa həsr olunmuşdur. Və bütün bu ədəbi cəfəngiyyatı bazara çıxaran bizim pedaqoqlar, yarışlardan çıxmış qaliblər kimi asudə nəfəs alır və özlərinin bu fəaliyyətləri ilə doğma ədəbiyyatı zənginləşdirdiklərinə, dili inkişaf etdirdiklərinə, bəşəriyyətə böyük xidmətlər göstərdiklərinə ciddi inanırlar. Heç bir mübahisə və dəlil ilə siz bu yazıçılıq xəstəliyinə tutulmuşları inandıra bilməzsiniz ki, onlar heç kəsə xidmət etməmişlər... Bu isə o deməkdir ki, siz boş yerə öz qiymətli vaxtınızı itirirsiniz, çağırılmayan yerə gedirsiniz, o yerə ki, siz orada ancaq naşı və yadsınız».

Əlbəttə, Əhmədbəyin məqalələrində ədəbi inkişafın çətinliklərindən doğan böyük ürək ağrısı da var idi, o öz ədəbiyyatını Şekspir, Şiller, Hüqo, Dostoyevski və Tolstoy səviyyəsində görmək istəyirdi, bu dahilərin əsərləri vasitəsilə «zövqləri hərəkətə gətirməyə», müsəlmanların «əqli qənaətlərini, hisslərini tərbiyə etməyə» çağırırdı. Zəngin ədəbi bilik və məlumat sahibi Ə.Ağaoğlunun bədii inkişafın ümumi qanunauyğunluqlarını təsdiq edən fikirləri də çox idi. Onun əsas nəzəri istifadə mənbələri Avropa alimlərinin əsərləri olsa da, öyrəndiklərini müasir ədəbi təcrübəyə tətbiq edəndə, çox zaman doğru nəticələrə gəlirdi.

Əhmədbəy nihilizminin müəyyən mənada təcrübi faydası da vardı. O, ədəbi ictimaiyyət qarşısında çox mühüm vəzifələr qoyurdu, qələm sahiblərini yüksək ədəbi zirvələri tutmağa çağırırdı. Bu tələbkarlıqda irəliyə, məsuliyyətə çağırış var idi, bu tələbkarlıq bir çox həqiqətləri meydana çıxarırdı, nəhayət, bu tələbkarlıqda böyük bir məhəbbət, qayğı və ürək yanğısı da var idi.

Rus ədəbiyyatı və onun ayrı-ayrı şəxsiyyətləri Ə.Ağaoğlunun fəaliyyətə başladığı illərdən tez-tez müraciət etdiyi sahələrdən olmuşdur. O, bu zəngin bədii fikir xəzinəsini öyrənmək üçün tükənməz ədəbi təcrübə məktəbi hesab etmiş, rus ədəbiyyatşünaslığı, tənqidi və onun ayrı-ayrı nümayəndələrinin irsi ilə yaxından tanış olmuş, Qoqol, Qorki və başqaları barədə müxtəlif münasibətlərlə, məqalələr dərc etdirmişdir. Ağaoğlu Bakıdan Ttürkiyəyə köçəndən sonra da bu sahədəki işini davam etdirərək İstambul universitetində rus dili və ədəbiyyatından dərs demişdir. «Rus ədəbityyatının ümumi səciyyələri» adlı monoqrafiyada həmin illərin

məhsuludur, rus ədəbiyyatı haqqında oxunmuş mühazirələrin əsasında yaradılmışdır.

«Rus ədəbiyyatının ümumi səciyyələri» bir ədəbiyyat tarixi kimi, özünəqədərkilərdən xeyli seçilir. F.Köçərlinin ədəbiyyat tarixlərindən fərqli olaraq burada ədəbi-tarixi proses dövrlər və mərhələlərdə təhlil edilir. Ədəbi hərəkata ümumiləşdirici bir bir nəzər salınır, ədəbi hadisələr ictimai-siyasi həyatla sıx əlaqədar işıqlandırılır. Doğrudur, bu cəhətdən Abdulla Surun əldə bəzi fraqmentləri qalan «Türk ədəbiyyatına bir nəzər» əsəri ilə «Rus ədəbiyyatının ümumi səciyyələri» arasında həm quruluş, həm də təhlil üsulu arasında bir yaxınlıq və səsləşmə vardır. Ancaq Ə.Ağaoğlu qarşısına ayrı məqsəd qoyduğu üçün portret oçerklərə müraciət etməmiş, şəxsiyyətlərin mövqeyini ədəbi prosesin içərisində müəyyənləşdirməyə çalışmışdır. Bu təhlil ədəbi hərəkatı bütöv, inkişafda göstərməyin çətin yolu olsa da rus ədəbiyyatının ümumi cəhətlərini meydana çıxartmaq üçün ən səmərəli üsullardan biri idi və məhz belə yolla getməsi müəllifə öz vəzifəsinin öhdəsindən uğurla gəlməsində imkan yaratmışdır.

***

XX əsrdə Azərbaycan ədəbi-nəzəri fikrinin əsas qütblərindən birində romantik tənqidin tərəfdarları dururdular. Onlar hərtərfli biliyi, ali təhsili olan, bir neçə xarici dil bilən, Yaxın Şərq, Avropa və rus ədəbi-bədii fikrinə bələd, müxtəlif elmlərdən – fəlsəfə, iqtisadiyyat, tarix, ədəbiyyat, sosiologiya pedaqogika, dilşünaslıq, şərqşünaslıq və dinlər tarixindən xəbərdar, müntəzəm siyasətlə məşğul olan fəal ictimai xadimlər idilər. Bütün bu üstünlükləri ilə yanaşı onların milli mədəniyyət və ədəbiyyat tarixinə, ədəbi ənənələrə, müasir ədəbi prosesə lazımınca bələdlikləri yox idi. İdeya mövqeləri, müxtəlif sənət cərəyanlarına meyil göstərmələri onlara bir çox müasir ədəbi hadisələri, milli ədəbi prosesin mürəkkəbliklərini, incəliklərini obyektiv qiymətləndirməyə bəzən mane olurdu.

«Azərbaycan burjuaziyası tarix səhnəsinə cəmiyyətin iqtisadi, ictimai, mədəni həyatına güclü təsir göstərən bir sinif kimi qədəm basmışdı. Azərbaycan burjuaziyası öz təşəkkülünün başlanğıcı dövründə feodalizim qalıqları ilə mübarizədə, eləcə də Azərbaycanda yeni mədəniyyətin inkişafında müəyyən müsbət rol oynamışdır»[1]. Bu cəmiyyət tarixinin labüd qanunlarından biridir ki, yaranan və hakimiyyət sürməyə başlayan hər hansı sinif öz istehsal, ictimai və ideoloji münasibətlərini daim yeniləşdirmədən yaşaya bilməz. Eyni vəziyyəti Azərbaycan burjuaziyasının tarixində də aydın müşahidə edirik. O nə qədər zəif və iqtisadi cəhətdən Rusiya burjuaziyasından asılı olsa da, öz milli ehtiyaclarını da, milli tələbatları da unutmurdu, xalqın ictimai, mədəni inkişafı üçün ciddi tədbirlər görürdü. Təkcə «millətin atası» kimi öz dövründə tanınan Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin (1823-1924) fəaliyyəti deyilənlərə canlı sübutdur. Xalqın milli, mədəni ehtiyaclarının qayğısına qalan Tağıyev kimi başqa dövlətlilər də vardı və onlar mətbuatın, nəşriyyat işlərinin, maarifin, elmin, ədəbiyyatın tərəqqisi üçün xeyli faydalı iş görmüşdülər. Təbiidir ki, milli burjuaziyanın mənafeyi ilə bağlı ideoloqlar da xalqdan ayrı deyildilər, bu və ya başqa məsələnin həllində onunla birləşir, ümumi tərəqqiyə xidmət göstərirdilər.

Eyni vəziyyəti biz XIX əsrin axırları, XX əsrin əvvəllərində ədəbiyyat, sənət və ümumən ideologiya sahələrində fəaliyyət göstərən Azərbaycan burjua ziyalılarının, sənət və ədəbiyyatla əlaqədar gördükləri işlərin məzmununda da aydın müşahidə edirik.

1905-ci il inqilabı dövründə və ondan sonrakı ilk illərdə romantik tənqidin ilhamçısı və başçısı **Əli bəy Hüseynzadə** olmuşdur. Jurnalist, yazıçı, ictimai xadim, tərcüməçi, həkim

[1] Azərbaycan tarixi, 2-ci c., Bakı, 1964 s.276.

və rəssam olan Əli bəyin tənqidi görüşləri çox maraqlıdır. O, «Molla Nəsrəddin» jurnalının nəşrini mühüm ədəbi hadisə sayır, onun gülüşünü Qoqolun, Sviftin, Dikkensin gülüşünə bənzədirdi. Ədib jurnalın vaxtında yarandığını, cəmiyyətin yaralarını cəsarətlə tənqidə tutmasının əhəmiyyətini obrazlı dillə belə qiymətləndirirdi: «Qoz kötüklərini» yontmaq üçün «Molla Nəsrəddin»in ələ aldığı balta... istehza və rişxənddən, müstəhziyanə yazı və şəkilllərdən ibarət...

Bu qədər qəmli bir zamanda böylə məzhək bir qəzetənin çıxması qəribə görünürsə də, lakin yaxşı diqqət edilib dərin bir nəzərlə baxılarsa, görünür ki, bu zöhk və xəndə ancaq zahiri olub onun təhtində bol-bol axan göz yaşları gizlidir. Bu xəndənin üzündən pərdəni rəf etsəniz, mavərasında ah və zar, giryə və büka görərsiniz!... Bu, Qoqolun, Sviftin, Dikkensin xəndəsidir!... Xeyr, bu, ürəyi yəs və ələmlə dolu Molla Nəsrəddinin xəndəsidir»[1]

Əli bəy öz mətbuat orqanlarında o dövrün qabaqcıl şəxsiyyətlərinin fəaliyyətlərini işıqlandırır, N.Nərimanovun «Həftə fəryadı» adı ilə silsilə publisist məqalələrini buraxır, sosial-demokrat partiyasının proqramını belə onun imzası ilə oxucularına çatdırırdı. Bununla yanaşı «Həyat» və «Füyuzat» səhifələrində Ü.Hacıbəyov, C.Məmmədquluzadə, N.Vəzirov, Ə.Haqverdiyev, M.Hadi, A.Şaiq, H.Cavid, A.Səhət kimi dövrün qabaqcıl sənət adamlarının da əsərləri çap olunur, Avropa və rus ədəbiyyatlarının təbliğinə (Bayron, Höte, Şiller, Dostoyevski, Çernışevski, Tolstoy və b.) Şərq ədəbiyyatına, o cümlədən Azərbaycan və türk ədəbiyyatları tarixinə dair maraqlı yazılara geniş yer verilirdi. Maraqlıdır ki, N.Nərimanovun ədəbi, inqilabi fəaliyyətindən istifadə edərək Əli bəy tətilləri, inqilabları – mənəvi etirazları boğmağa çalışan çarizmin zorakılıq tədbirlərinin əleyhinə çıxır, Odessada oxuduğu illərdə Nərimanovun polis tərəfindən «kötək yeməsini» istehza ilə oxucularına çatdırır, hətta

[1] «Həyat» qəzeti, 1906, ¹ 91.

Bakı qoçularının onlara nisbətən daha səbrli olduğunu söyləyir: «Lakin insanlar sadə maddi acılıqlar üçün fəryad etməyirlər. Bir tərəfdən də mənəvi acılıqlar başlayır. Rusiyada mütəəddid məktəblər, darüfünunlar bağlanıyor, ülüm və fünundan məhrum olan tələbələr həyəcana gəliyor, fəryad edəmiyorlar. Etsələr də Odessa şəhərində olduğu kimi mükəmməl bir kötək yeyirlər... Biçarə bizim «nər»imiz Nəriman burada fəryad eylədi, lakin heç olmazsa döyülmədi. Ancaq Odessa tələbəsi arasında fəryadlar kötək yemədən keçməyor. Görünür ki, Odessanın ağ bayraqlı qara dəstələri Bakı qoçuları qədər fəryadlara mütəhəmmül deyillər imiş...»

Azərbaycanda ictimai-siyasi və ədəbi fikrin inkişafında, onun ayrıca bir istiqamətinin – romantik tənqidin ideya-fəlsəfi və estetik əsaslarının hazırlanmasında Ə.Hüseynzadənin mühüm rolu olmuşdur. Əli bəyin ədəbi görüşlərindəki realist tənqiddən fərqli cəhətlər hansılar idi və bunlar hansı anlarda daha qabarıq şəkildə üzə çıxırdı?

Bu fərqlər – romantik tənqidin əsas xüsusiyyətləri iki estetik məsələyə münasibətdə daha aydın meydana çıxırdı: bu, sənətin həyata münasibəti və onun ideyalığı məsələləri idi. Doğrudur, Ə.Hüseynzadənin bir çox məqalələrində ədəbi tənqidin faydasından, zərurətindən bəhs edilmiş, konkret bədii əsərlərin ideya təsiri, əhəmiyyəti xüsusi qeyd olunmuşdur. Ancaq o. ümumiyyətlə sənətin cəmiyyətin irəli sürdüyü problemlərlə əlaqəsi və bu əlaqənin müəyyən ideyaya xidmət etməsi məsələsindən danışanda realist tənqidin əsas tezislərinin əleyhinə gedirdi. Məsələn, məqalələrindən birində ədib yazıçıları günün, həyatın mühüm məsələlərindən yazmağa çağıran Həsən bəy Zərdabiyə belə cavab verirdi: «Osmanlı türklərinin ədəbiyyatı-cədidələri müstəsna olduğu halda, İranla bərabər sair türklərin əşar və ədəbiyyatları tilsimə girifdar olmuş kimi bir nöqtədə donub qalmışdır... Bəzi rəhbərlərimiz buna çarəsiz olmaq istədilər. Lakin şairlərimizi daha fəna yollara sövq etdilər. Bunlara dedilər

ki, canım, bülbüldən, məhbubdan əl çəkiniz, bir az da elmə, maarifə, sənayeyə, məktəbə mədhiyyələr yazınız... biçarə şairlər də məktəbin, elm və sənətin xidmətçisi olmağa başlayıb, şeri bütün-bütün tədənniyə uğratdılar... Canım, nəqqaşa ya rəssama demək olurmu ki, nə üçün bir kuhsarın, bir məşcərənin... bir qürubun lövheyi-mənzərəsi ilə məşğul olursan? Bizə bol-bol məktəb rəsmləri ver, camaatımızı elm və maarifə təşviq et. Şairliyin, rəssamlığın meydani-hünəri ayrıdır»(«Füzuyat» j., 1906, №1).

Şübhəsiz, bu etirazdakı doğru notlar göz qabağındadır. Ancaq müasir bədii sözün hansı həyat problemləri dairəsində istiqamətləndirilməsi kimi mühüm estetik məsələyə laqeydlik də göz qabağındadır.

Aydın mövqe isə aşağıdakı parçada aşkarlanır: «min növ xovfü əndişə, yəs və ələm içində bulunaraq əllərinə qəzetə ya məcmuə alan qarelərimiz, şübhəsiz, istərlər ki, mən mühərrir də onlara aləmin bu əhvalını ətraflı təsvir edəydim ... Lakin xeyir! Mən nə aləmin bu vəlvələyi- qiyamətini eşitmək, nə də qarelərimin tələbinə qulaq vermək istərəm... Mən öz kefimə tabe, bədayepərvər bir adamam... Aləmdə istərsə tufan qopsun, min vəlvələ, min qiyamət olsun, mən yenə nəğəmat və əşar ilə həm özümü, həm də qarein və sameinimi məşğul etmək fikrindəyəm... Hər nə deyirlərsə desinlər... Mən həm özümü, həm qarelərimi ancaq vəzn və qafiyə zümzümələri ilə əyləndirib uyutmaq, aləmin qiylü qalından, vəlvələrindən bixəbər etmək istəyorum» («Füzuyat», 1906, № 9).

Sənətin ictimai əhəmiyyətini gizlədən, onun həyatla, cərəyan edən hadisələrlə əlaqəsini görməyən estetik tənqid cərəyanına mənsub tənqidçilər kimi Əli bəy Hüseynzadə də şeirin, sənətin cəmiyyət məsələlərinə müdaxiləsini lazımsız sayırdı. Eyni mövqe, əhval-ruhiyyə Ə.Haqverdiyevin «Həyat» qəzetində çap olunan «Qəmərin şahidliyi» hekayəsinə redaksiyasının verdiyi qeydi üçün də səciyyəvidir. Ədib

məşhur İtaliya rəssamı və heykəltaraşı Mikelancelonun (1475-1534) heykəllərindən birinə naxışlanan misraları yada salır: «Burada yavaş gəzin! Gurultu etməyin, qoyuunz rahat yaşayım. Böylə yəs və ələm zamanında, zülm və istibdad dövründə zihəyat və bidar olmamaq, biləks xabdə qalmaq, ələxüsus daş halında bulunmaq böyük bir nemət və səxavətidir».

XX əsr tənqidi məşğul edən ədəbi şəxsiyyətlərdən biri Lev Tolstoy idi və onun bütün Rusiya miqyasında oyatdığı ədəbi maraq Azərbaycana da təsirsiz qalmamışdı. Tolstoy irsinə müxtəlif münasibətlər mövcud idi və Ə.Hüseynzadənin «Tolstoyluq nədir?» adlı geniş həcmli məqaləsi bu münasibətlərin mühüm bir istiqamətini aydınlaşdırmaq üçün kifayət qədər material verir. Əli bəyin Tolstoya ədəbi marağının mərkəzində məqalənin adından da göründüyü kimi ədibin bədii yaradıcılığı durmurdu. O zaman istər rus, eləcə də Azərbayvcan tənqidi fikri Tolstoyun bədii yaradıcılığı ilə yanaşı dünyagörüşü məsələlərinə də xüsusi diqqət yetirdi.

Tolstoyun bədii irsinin qiymətləndirilməsində ümümi cəhətlər çox idi. Ancaq onun dünyagörüşü, «məzhəbi» müxtəlif mövqelərdən araşdırılırdı və bu, 1905-ci ildən sonrakı dövrün əsas müzakirə, mübahisə problemlərindən birinə çevrilmişdi. Problemin həllində açıq-aşkar iki tərəf var idi. Onlardan biri ədibin dini dünyagörüşü ilə, «şərrə müqavimət göstərməmək» əxlaqi prinsipi ilə onun bədii yaradıcılığı arasında müəyyən ahəngdarlığın, vəhdətin mövcudluğunu təsdiq edənlər idi. Bu, öz ictimai, estetik mahiyyəti etibarı ilə mühavizəkar səciyyə daşıyırdı. Bir də onun bədii yaradıcılğı ilə dünyagörüşü arasındakı ziddiyyəti açıb-göstərməyə çalışan, mütilik, təvəkkül dünyagörüşünün antidemkratik mahiyyətini sübut etməyə çalışanlar var idi. O, zaman Azərbaycanda geniş şəkil almış bu ədəbi fikir mübahisəsində Əli bəy Hüseynzadə ikincilər tərəfində, demokratlar cəbhəsində dururdu.

Ə.Hüseynzadə Tolstoyu «Rusiyanın deyil, bəlkə bütün cahanın ən böyük üdəbasından biri» adlandırır, onun adını dünya ədəbiyyayının Şekspir, Höte, Hüqo kimi simaları ilə yanaşı çəkir, aydın şəkildə deyirdi ki, biz Tolstoyun böyüklüyünü, onun bədii yaradıcılığında görənlərdənik. Bu, demokratik tənqidin mövqeyindən deyilmiş sərrast, qəti və dürüst mülahizə idi.

Məqalə orqanik nəzəriyyənin düsturlarının ədəbi prosesə, cəmiyyətə tədbiqi ilə başlanır. Hər millətin inkişafında Əli bəy insan orqanizminə məxsus üç mərhələ görür: doğulma, kamala çatma, dönüş, geriyə getmə.

Məqalə sahibinin fikrincə XX əsr rus cəmiyyətinin, ədəbiyyatının «dövri-kamalı»dır: «Çünki meyvələrinin bolluğu və yaxşılığı bir ağacın kamalda bulunduğuna dəlalət edir kimi, bu gün də bədayeyi-elmiyyə və ədəbiyyənin kəsrət və nəfasəti rusların sinni-kamala yetişdiklərinə dəlildir və bürhandır... Bu gün Rusiyada yetişmiş olan bir zümreyi-kəsireyi-hükəma və üdəbaya bütün Avropa və Amerika qibtə edir. Lakin bu zümrənin başçısı, heç şübhə yoxdur ki, qraf Lev Tolstoydur. Tolstoy sadə rusiyalı deyil, bəlkə bütün cahanın ən böyük üdəbasından biridir. Onun yazdığı əksər əsərlər əqvamın dillərinə tərcümə olunur, sürətlə və milyonlarca nüsxələrlə intişar edir. Onun hər bir sözü böyük bir diqqətlə istima olunur, hər bir nəsihəti böyük bir rəğbətlə qarşılanır; onun fikirlərindən bütün aləmi-mədəniyyət feyziyab olur».

Tolstoyun Şərqlə əlaqəsini əyaniləşdirmək üçün çox maraqlı təhlil üsulundan istifadə olunur. Müəllif deyir ki, Avropa tənqidçiləri bədii təhlillərində tez-tez müqayisə üsuluna müraciət edirlər. Tolstoyun Şərqdə çox yayılmadığını nəzərə alaraq Əli bəy Tolstoyun haqqında doğru, «səhih bir fikir» yaratmaq məqsədilə, onu bir ədəbi şəxsiyyət kimi müsəlman aləminin məşhir sənətkarları ilə müqayisə etməyi məqsədəuyğun hesab edir.

Məqalədə Tolstoy öncə türk şairi Namiq Kamalla müqayisə olunur. Çox ötəri üzləşmədən sonra müəllif bu qərara gəlir ki, «bu iki təb arasında heç bir vəch ilə müşahibət yoxdur... hər nə hal isə mühitlərin, dərəceyi-mədəniyyətlərin müxtəlif simasındanmıdır, nədənmidir, türklər arasında Tolstoyun mislini bulamayıram».

Belə bir müqəddimədən sonra məqalədə Tolstoy İran ədəbiyyatının üç böyük kassiki ilə – Firdovsi, Sənai və Sədi ilə müqayisə olunur. Beləliklə, biz bütün məqalə boyu tənqidçinin tTolstoya və eləcə də fars ədəbiyyatına dərindən bələd olmasının, geniş məlumatının şahidi oluruq. Müəllif üç İran klassikini təkcə Tolstoyun şəxsiyyətində belə cəmləşdirir: «Tolstoy ayrı-ayrı bu şairin heç biri degildir. Fəqət hər birindən guya bir hissə alıb təbində cəm etmişdir. Tolstoyun həyati-ədəbiyyəsi üç dövrə bölünə bilər, birinci dövr Firdovsiyanə, ikinci dövr Sənaipəsəndanə, üçüncü dövr isə Sədiraftəranədir»

Bundan sonra biz ədəbi şəxsiyyətlərin, bədii əsələrin maraqlı müqayisəsi üsulu ilə tanış oluruq, şəxsiyyərtlərin özləri, əsərləri, əsərlərin məzmunu, təsvir üsulları, janrları ön plana çıxır. Firdovsi ilə Tolstoyun müqayisəsindən bir parça: «Birinci dövrdə Tolstoy Firdovsi kimi bir Şahnamə vücudə gətirir.» «Hərb və sülh» adlı əsəri bir rus şahnaməsidir. Firdovsi Keykavus və Əfrasiyab dövründəki iranlılar və turanlıların mübarizə və müharibələrini tərif edir. Tolstoy birinci Aleksandr və birinci Napoleon zamanındakı ruslarla firənglərin müharibəsini təsvir eyləyir. Hər iki əsər bir silsilə hekayətdən ibarətdir. Hər iki əsərdə insan gah camaat və el şəklində, gah şəxs və fərd halında təsvir olunur. Hər iki ədib xeyr və şərin nədən ibarət bulunduğunu araşdırmaqda böyük bir cəhd və qeyrət göstərirlər... Hər ikisi də əsərlərini öz müllətlərinin tarixlərini dərin və ətraflı mütaliədən sonra yazmışlardır. Hər ikisi də vətənpərvərdir. «Hərb və sülh» də

yerlər vardır ki, Tolstoy Firdovsiyə təfəvvüq edər, «Şahnamə»də qitələr vardır ki, Firdövsi Tolstoya qalibdir»

Lakin Əli bəy müqayisəni yarımçıq kəsir, göstərir ki, Firdovsi «ömrünün axırına qədər tutduğu məsləkdən ayrılmadığı halda, Tolstoyun həyatında mühüm bir böhran mövqe olur. Bu böhrandan sonra başlayan ikinci dövrdə Tolstoy nə Homerdir, nə də Firdovsi. Burada Tolstoyun halı həkim Sənainin halını andırır». Tənqidçinin təhlilindən aydın olur ki, XI-XII əsrlər fars ədəbiyyatının görkəmli klassiki Sənai yaradıcılığının ilkin mərhələsində dünyapərəst, həyata bağlı bir sənətkar olduğu halda, bir qədər sonra bədbinləşərək öz divanını yandırır, guşənişin bir həyat keçirməyə başlayır, əxlaqın gözəlliyinə, dinə, mənəviyyata dair əsərlər yazır. Iş o yerə çatır ki, Tolstoy kimi ortodoksal din nümayəndələri Sənayini də islama zidd mövqe tutan kafir elan edirlər.

Əli bəy Sənainin vəsiyyəti ilə Tolstoy arasında böyük yaxınlıq görür, o da «Hərb və sülh», «Anna Karenina» kimi əsərlərinə «nifrət edərək» şübhələr, tərəddüdlər içərisində yaşayır, qurtuluşu dində görür, əxlaqa və dini zehniyyətə dair əsərlər yazır. Ancaq xiristianlıqda haqq ilə nahaqqı ayırmağa çalışdığı üçün keşişlər onu kilsəyə yaxın buraxmırlar.

Tolstoyun bu mərhələdən sonrakı yaradıcılığını Ə.Hüseynzadə Sədiyə bənzədir. Şərqin, müsəlmanlığın əxlaq müəllimi olan. «Gülüstan», «Bustan» ilə kiçikdən-böyüyə qədər «el məhəbbəti» qazanmış Sədidə yaradıcılığının sonlarında xalqa yaxınlaşan, camaatın mənəviyyatını, əxlaqını islah etməyə çalışan, bu yolla xaçpərəstliyə xidmət göstərən Tolstoyu görür.

Bu müqayisədə Tolstoyun qüvvətli və zəif cəhətlərini obyektiv təhlil yolu ilə meydana çıxardıqdan və oxucusuna Tolstoya Şərq mühitində, ümumşərq kontekstində tamaşa etməyə əyani şərait yaradandan sonra müəllif əsl diqqətini «Tolstoyluq nədir?» sualının şərhinə yönəldilir.

Ə.Hüseynzadə göstərir ki, Tolstoyun məzhəbinin mərkəzində dindarlıq durur. Bu isə hazırkı «ortodoks məzhəbihazirini guya tövtəsiyyə edib isəviyyəti ayrı bir tərzdə anlamaqdan», yəni xaçpərəstliyi saflaşdırmaq, onun yeni şərhini verməkdən ibarətdir. Böyük sənətkarın bu təşəbbüsü isə, Əli bəyə görə zəlalətlə, yanlış fikirlər və ziddiyyətlərlə doludur. Fikrini təsdiq üçün tənqidçi leqal marksistlərin mətbuat orqanı «Jizn» jurnalında çap olunan Y.A.Solovyova istinab edir, ondan gətirdiyi iri bir iqtibasda Tolstoyun əxlaqi, dini görüşləri ilə bədii əsərləri arasında aşkar bir ziddiyyətin olduğunu söyləyir: «...Tolstoy bir adama bənzəyir ki, səfərə çıxıb müstəqil yol gedir, yolu təftiş edə-edə, araşdıra-araşdıra gedir, lakin yolu bir tərəfə çıxaramayır, nöqteyi-məqsədə irməyir, hər vaxt yuxarı yoldadır... Tolstoy məzhəbinin üsuli bu qısa cümlə ilə ifadə oluna bilər: Fənalığa müqabilə etmə!», yəni zülm və sitəmdən, dövrü cəfadan, bəla və müsibətdən ibarət olan fənalığa qarşı səbr və təhəmmül edin».

Bu iqtibasdakı fikirlərlə həmrəy olan Əli bəy yazır ki, «pisliyə müqabilə etmə» çağırışı tolstoyluğun əsas müddəasıdır və onun başqa əxlaqi, dini görüşlərinin mərkəzində dayanır.

Tolstoy məzhəbinə qarşı Ə.Hüseynzadə öz əqidəsini irəli sürür: «...həyatın bütün zövqü fənalıqla mübarizədədir. Fənalıqla mübarizə lazım deyilsə, o halda xalqa məhəbbət və kömək et!» - vəzifəsini ifa etməlidir? ...Hər halda anlaşılır ki, Tolstoy burada bir girəvəyə düşmüşdür, o girəvədə çapalayıb durur, oradan çıxacaq bir qapı bulmayır». Ə.Hüseynzadə Tolstoyun məzhəbini əsrin əvvəllərindəki Azərbaycan mühitinə tətbiq edir və onun qeyri-həyati, cəmiyyətin mübarizə qanunları ilə daban-dabana zidd olması nəticəsinə gəlir.

Tolstoyun dünyagörüşünə və «yeni məzhəbinə» Ə.Hüseynzadənin münasibəti, habelə «fənalığa qarşı çıxma» dünyagörüşünün belə kəskin tənqidi tənqidçinin XX əsrin əvvəllərindəki bir çox siyasi, fəlsəfi və ədəbi hadisələrə münasibətini, eləcə də «nicat məhəbbətdədir» şüarının ictimai-siyasi məna-

sını, sülhə, «füyuzata» - yaxşılığa çağırışlarının mənasını şərh etmək üçün tutarlı açardır.

XX əsrin əvvəllərində milli ədəbi-nəzəri fikir və tənqidin çoxşaxəli inkişaf meyllərini formalaşdıran Azərbaycan mütəfəkkirləri siyasi mövqeyi, savad səviyyəsi, dünyagörüşü və sairdən asılı olmayaraq bədii ədəbiyyatı və mətbuatı xalqın ümumbəşəri haqlarının qorunması vasitəsi kimi yüksək qiymətləndirirdilər. Bu məqsədlə onlar yalnız milli ədəbi-mədəni prosesə deyil, inkişaf etmiş dünya xalqlarının da həyat və mədəniyyət təcrübəsinə istinad edir, Azərbaycanda tərcümə ədəbiyyatının yayılmasına ciddi əhəmiyyət verirdilər. Bunun nəticəsidir ki,həmin dövrün ictimai-siyasi fikri, ədəbi-nəzəri mühakimələri və tənqidi düşüncələrində bədii ədəbiyyatdan alınan qənaətlər və «dildə, fikirdə, işdə birlik» (İ.Qaspıralı), «Türkləşmək, islamlaşmaq, müasirləşmək» (Ə.Hüseynzadə), «Mübahiseyi – əfkardən bariqeyi-həqiqət parlar» (A.Sur) kimi elmi-nəzəri konsepsiyalarda əks etdirilir, «ilərisi işıq və çəmənlikdir» (Ə.Hüseynzadə) deyə «xoş günlər» (M.Hadi) uğrunda mübarizə aparanların «azadlıq, bərabərlik, qardaşlıq» cəmiyyəti quracağına inamda ifadə olunurdu.

XX əsrin əvvəllərində ədəbi-nəzəri fikir və tənqid axtarışlarının söz və mətbuat azadlığı, müstəqil vətəndaş cəmiyyəti, suveren dövlət ideyasına tabe tutulması onun əsas keyfiyyət göstəricisi kimi diqqətəlayiqdir. Həmin dövrdə ədəbi-elmi fikrin və tənqidi düşüncəsinin sosial-siyasi ideyaları əsas götürməsi, ictimai- fəlsəfi mühakimə tərzi ilə maraq doğurması ədəbi-bədii prosesə ciddi təsir göstərir, milli mədəniyyətin zənginləşməsini təmin edirdi. Belə olduğuna görədir ki, Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji əsaslarını formalaşdırmaq və azərbaycanlıların sivil mədəniyyət sahibi kimi «imzasını imzalar içində» (M.Hadi) tanıtmaq mümkün oldu.

«ƏKİNÇİ»NİN AZƏRBAYCAN İDEALI, YAXUD TARİXDƏN İBRƏT GÖTÜRƏKMİ?

«Əkinçi»dən nə az yazılıb, danışılıb, nə də çox. Amma nə qədər çox yazılıb-danışılsa o qədər lazımlı, faydalıdır. Bunu «Əkinçi»nin özü də, onun haqqında yazanlar da, danışanlar da təsdiq edirlər və yəqin ki, gələcəkdə də belə olacaq. Çünki «Əkinçi» Azərbaycanda müasir tipli vətəndaşyaratma məktəbinin əsasını qoyub, onun ideya-nəzəri prinsiplərini işləyib-hazırlayıb və ilk təcrübə nümunələrini bizim milli tariximizə bəxş edib.

«Əkinçi» ənənəvi milli təfəkkür tipinin dəyişdirilməsi, yeni ictimai-mədəni davranış normalarının müəyyənləşdirilməsi, sivil, demokratik, azad cəmiyyət quruculuğunun ilk təşəbbüskarı olduğuna görə Azərbaycanda həm də reformizmin – islahatçılığın əbədi abidəsi məqamındadır.

İndiyədək Abbas Zamanov «Vətəndaşlıq rəşadəti» («Əməl dostları» kitabında, 1979), İzzət Rüstəmov «Həsənbəy Zərdabi» (1969), Sadıq Hüseynov «Əkinçi» qəzetinin izahlı biblioqrafiyası» (1977), Esmira Cavadova «Səfirlərdə döyüşən ürək» (1983), Qəhrəman Behbudov «Həsənbəy Zərdabinin siyasi-hüquqi görüşləri» (2004) kimi məqalə və monoqrafiyalarında «Əkinçi»nin tarixi rolunu və Həsən bəy Zərdabinin fəaliyyətini araşdırmağın ictimai-mədəni faydasını nəzərə çatdırıblar. «Hənifə xanım Məlikova – Abayevanın xatirələri» (Həsən bəy Zərdabi və «Əkinçi», Bakı, «Adiloğlu» nəşriyyatı, 2005) adlı kitab da bu mənada diqqətəlayiqdir. Daha bir sıra kitabların adını çəkmək olar. Məsələn: V.Quliyev: Böyük Əkinçi, Z.Göyüşov: Mirovozrenie Q.B.Zardabi, Sovremenniki o Q.Zardabi, Ş.X.Mamedov: Mirovozrenie Q.B.Zardabi – Melikova, «Əkinçi» (1875-

1877) və s. Həsən bəy Zərdabinin müasirləri olan M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, M.Hadi, A.Şaiq kimi ədiblər və Ə.Ağayev, Ə.Hüseynzadə, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Rəsulzadə kimi tanınmış, nüfuzlu ziyalılar və mətbuat xadimləri «Əkinçi»nin milli mədəniyyət və mətbuat tariximizdəki rolunu yüksək qiymətləndiriblər.

Məlumdur ki, mətbuat milli-tarixi yaşayışın, etnopsixoloji düşüncənin, ictimai-siyasi hadisələrin sənədləşən, rəsmiləşən formasıdır. Mətbuatı öyrənməklə biz həm də özümüzün kimliyini formalaşdırır, yaşanan tarixin həqiqətlərinə aydınlıq gətirir, ötən dövrlərin ictimai həyat təcrübəsindən nəticə çıxarmağa müvəffəq oluruq. Diqqətəlayiq haldır ki, Azərbaycanda mətbuatın zəngin bir tarixi var və ona həm xalq, həm də dövlət səviyyəsində yüksək qiymət verilir. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının milli mətbuatın 130 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncamında deyyilir:

«Azərbaycan Respublikasının müstəqillik qazandığı və suveren dövlət quruculuğu prosesini yaşadığı müasir dövrdə kütləvi informasiya vasitələri, o cümlədən milli mətbuatımızın qarşısında tamamilə yeni vəzifələr durur. Bu gün mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həvata keçirilməsində, cəmiyyətdə sosial ədalət və saflığın təmin edilməsində, insan hüquqlarının müdafiəsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamalıdır. Hazırda ölkəmizdə həyata keçirilən bütün bu proseslərin mətbuatın, kütləvi informasiya vasitələrinin iştirakı olmadan reallaşdırılması təsəvvür edilə bilməz». (Azərbaycan milli mətbuatın 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, «Xalq qəzeti», 21 iyun 2005-ci il).

«Əkinçi» qəzetinin nəşri ilə Azərbaycan milli mətbuatının əsası qoyulub. İlk nömrəsi 1875-ci il iyulun 22-də çıxan bu qəzet Azərbaycan xalqının ictimai-mədəni tərəqqisini mühüm məqsəd bilən, milli-mədəni dəyərlərin qorunmasına çalışan ziyalıları öz ətrafında birləşdirir, maarifçilik ideyalarını yayırdı. Qəzetin əsas müəllifləri Həsən bəy Zərdabi başda olmaqla Türkiyə, Rusiya və Avropada olduğu kimi, «zəka səltənəti» yaratmağa çalışır, elm, təhsil, mədəniyyət məsələlərini diqqət mərkəzində saxlayırdılar. Təsadüfi deyil ki, Azərbaycan mədəniyyəti və ədəbiyyatındakı, habelə ictimai-siyasi həyatındakı bir sıra yenilikçi meyllər «Əkinçi»lərin adı ilə bağlıdır. Azərbaycan jurnalistikasının təsisi, milli siyasi mübarizə və milli yaddaşa qayıdış ideyaları, azad, bütöv və müstəqil Azərbaycan dövlətinin qurulması ideyası, milli teatrın təsisi, yeni tipli (üsuli-cədid) məktəblərinin yaradılması, müasir tərcümə sənətinin formalaşdırılması kimi məsələlər «Əkinçi»lərin tarixi xidmətinin nəticəsidir.

Azərbaycan jurnalistikasının başlanğıcı, ilk və parlaq nümunəsi olan «Əkinçi» Bakıda iki həftədə bir dəfə nəşr olunurdu. Qəzetin banisi, redaktoru, naşiri, korrektoru və bəzən də mürəttibi Həsən bəy Zərdabi olmuşdur. Burada M.F.Axundov, S.Ə.Şirvani, N.B.Vəzirov, Ə.Gorani (Adıgözəlov), Ş.Ə.Səlyani, H.Q.Hadi, M.Rəhimbəy, M.Seyidrza, M.N.Əlqədari, Ə.Qəvaid və başqalarının əsərləri çap olunurdu. Qəzetin əsas fəaliyyət istiqamətləri belə müəyyənləşirdi; 1. Daxiliyyə. 2. Əkin və ziraət xəbərləri; 3. Məktubat; 4. Elmi xəbərlər. 5. Təzə xəbərlər.

Qəzetdə əsasən məqalə, məktub, xəbər, şer, felyeton, redaksiya qeydi və s. janrda yazılar çap olunur, milli demokratik ideyalara üstünlük verilirdi.

«Əkinçi» 1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə isə 20 nömrəsi, beləliklə, cəmi 56 nömrəsi çapdan çıxıb.

Qəzet Yaxın və Uzaq Şərq ölkələri, Rusiya, Türkiyə, İran və Avropa haqqında ictimai-siyasi əhəmiyyət kəsb edən

yazılar, xəbərlər dərc etdirir, dünya hadisələrindən əməli nəticə çıxarmağa səsləyirdi.

«Əkinçi»nin Gürcüstan, Özbəkistan, Dağıstan və başqa ölkələrdə oxucuları olmuşdur. Çar senzurasının dəfələrlə təqibinə məruz qalan «Əkinçi» Azərbaycanda bir sıra yeni ictimai-siyasi və ədəbi-mədəni fəaliyyət yönlərini formalaşdırmaqla yanaşı, həm də müasir təfəkkürlü çağdaş Azərbaycan vətəndaşının meydana gəlməsində mütərəqqi rol oynayıb.

«Əkinçi»dən danışılarkən mütləq onun meydana gəldiyi ictimai-tarixi şərait nəzərə alınmalı, milli tarixi mühit faktorları təhlilə cəlb olunmalıdır, XVIII əsrdə Azərbaycan xanlıqlarının bir-biri ilə ziddiyyətləri, müxtəlif siyasi mövqelər nümayiş etdirməsi səbəbindən İran və Rusiya arasında ikiyə parçalanan Azərbaycanın başı üzərindən qara buludlar axmağa başladı, taleyinə müstəmləkə həyatını yaşamaq düşdü. Şimali Azərbaycanda ərazi-inzibati idarəetmə forması tətbiq edən çar Rusiyası özünün «parçala hökm sür!» siyasətini yeritməyə üstünlük verdi. Xalq müstəmləkə qanunçuluğun və idarəçilik prinsiplərinə dözmək istəmir, «Çıxmadı qurtulaq, gündə bir zakonu görən canımız» (Q.Zakir) deyərək düşdüyü vəziyyətin ağrı-acılarını yaşayır, təhlükədə olan ictimai-tarixi taleyini düşünür, qurtuluş yollarını axtarırdı. Ümumxalq taleyini düşünən Azərbaycan ziyalılarının millət, vətən, dövlət qayğıları, mənəvi narahatlığı XIX əsrdə müxtəlif formalarda ifadə olunurdu. Bunun ən kamil və populyar forması heç şübhəsiz ki, «Əkinçi» qəzeti oldu. «Əkinçi»nin işıq üzü görməsi ilə Azərbaycanda peşəkar jurnalistika məktəbinin əsası qoyuldu və milli intellektual dairənin adamları geniş xalq kütləsi ilə birbaşa əlaqə yarada, mövcud vəziyyəti və ondan çıxış yollarını onlara anlada bildi. Ölkədə olan maarifsizlik, məlumatsızlıq, biliksizlik, xürafat, cəhalət, fanatizm, nadanlıq kimi ictimai problemlərdən qurtulmaq, dünyanın sivil xalqları ilə birgə addımlamaq «Əkinçi»nin

başlıca arzusu idi. Həmin arzunun həyata keçirilməsi üçün böyük ümid və inamla işə başlayan Həsən bəy Zərdabi «Rusiyada əvvəlinci türk qəzeti» («Həyat» qəzeti, 28 dekabr 1905-ci il, №129) məqaləsində mövcud ictimai-tarixi şəraiti təhlil edərək yazırdı: «Hər kəsi çağırıram gəlmir, göstərirəm-görmür, deyirəm-qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də. Ələlxüsus doğru söz... Belədə qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur... Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar... Sonra düşmənin düşmənliyi, dostun doğruluğu və dost göstərən doğru yolun doğru olması aşkar olar». Belə yüksək vətəndaşlıq amalı ilə milli mətbuatın əsasını qoyan H.Zərdabi fəaliyyətə başlayanda bir sıra çətinliklərlə üzləşir, maddi ehtiyaclarla qarşılaşır, senzuranın təzyiqlərini hiss edir, erməni Minasov və bir sıra digərlərinin danoslarını təkzib etmək məcburiyyətinə düçar olur, lakin Azərbaycana şərəflə xidmət idealı kimi bir həqiqətdən heç zaman əlini üzmür, bunun insana əbədiyyət haqqı gətirəcəyinə inanırdı. Elə buna görədir ki, indi Azərbaycanda ideal vətəndaş nümunəsindən bəhs açılanda H.Zərdabinin adı fəxrlə çəkilir. Ola bilər ki, bu sözlərin bir məqalə xatirinə söyləndiyini iddia edənlər də tapılsın. Lakin unutmayaq ki, dünyada işi, əməli, ideyaları ilə yaşayanlar var və onlardan Azərbaycanda da az deyil. Sadəcə həmin şəxsiyyətlərin yolunu tutub gedə bilmək bəsirəti hər birimizdə olmalıdır ki, bizlər də tarixin adamına çevrilə bilək...

H.Zərdabi xalqı «xabi-qəflət»dən oyatmaq istəyən, Azərbaycanda sivil cəmiyyət qurmaq istəyən ziyalıları «Əkinçi»nin ətrafında birləşdirir, elmin, maarifin, ədəbin

mənimsənilməsini birinci dərəcəli vəzifə hesab edirdi. O bildirirdi ki, yalnız dini və dünyəvi elmlərdən (elmi-əbdan və elmi-ədyan) xəbərdar olan insan öz taleyini dərk edə bilər, kamil insan, vətəndaş kimi yaşayaraq xalqına, dövlətinə, vətəninə xidmət göstərər, azadlığı uğrunda mübarizə aparmağı bacarar. Buna görədir ki, H.Zərdabi «Əkinçi»nin başlıca vəzifəsini milli maarifçilik işində görür, çar Rusiyasının ucqarlarda, eləcə də Azərbaycanda ənənəsi qalan təhkimçilik prinsipləri əleyhinə çıxırdı. O deyirdi: «Heyvan haraya getsə gedir, hər tərəfə istəsə baxır, hər nə istəsə eləyir, nə vaxt kefi istəsə mələyir, amma insan nəinki öz istədiyini edə bilmir, hətta ürəyi istədiyi kimi danışa da bilmir. İnsanın malikidünyalıq ixtiyarı payimal olub, ağlı məhz tavanalar (varlılar) üçün işləyir». («Əkinçi» qəzeti, №15, 21 iyul 1875-ci il)

«Əkinçi»lər ictimai-mədəni həyatda maarifçilik yolu ilə islahatlar-reformalar aparmağa çalışır, məişətdə, siyasi düşüncədə, fikirdə, ruhda, ideya və əməldə yeniliklərin meydana gəlməsi uğrunda fədakarlıqlar göstərirdilər. Onlar bu fikirdə idilər ki, mövcud vəziyyəti «elmlə, hünərlə» dəyişdirmək, yeniləşdirmək mümkündür və bunu yalnız müasir düşüncəli vətəndaş yerinə yetirə bilər. Odur ki, «Əkinçi»lərin özü həmin vətəndaş rolunda çıxış edir, yalnız xalqın başa düşəcəyi dildə danışmır, xalqı başa salmaq üçün lazım olan dildə danışmır, həm də özlərinin dərdini danışır, hər kəs yaşadığı, gördüyü həqiqəti obyektiv olaraq çatdırır, öz ağrı-acısını öz dilində danışır, özü dərk etdiyi kimi başqasına çatdırırdı. Onların səmimiyyəti də elə buradan doğur, qazandıqları rəğbət də elə buna əsaslanırdı. Həmin səbəbdən onların sözü hədəfə dəyir, «gözü kor, qulağı kar, dili lal» olanların köməyinə gəlirdi. Lakin buna hər zaman müvəffəq olmaq mümkün idimi? Əlbəttə yox. Müsəlman mühitinin ictimai-siyasi təzadları və onun doğurduğu kədər mənzərələri bunu təsdiqlənməkdədir. H.Zərdabinin xatırladığı bir gerçək tarix hadisəsi bu mənada çox mətləblərə aydınlıq gətir-

mək gücündədir. Həmin hadisəni qələmə alan H.Zərdabi belə söyləyir: «... qədim adətlərimizi dəyişdirməmək nə qədər bizləri geri salmağını sübut etməkdən ötrü bizim qonşu ermənilər və biz müsəlmanlar Bakıda keçmişdə cəmiyyəti-xeyriyyə açmağından danışacağıq.

Bu halda Bakıda olan ermənilərin cəmiyyəti-xeyriyyəsi 40 il bundan əqdəm açılıbdır. O vaxtdan Bakıda erməni çox az idi. Bir neçə yüzdən artıq deyil idi. Əsl Bakı ermənisi 10-15 evdən artıq yox idi. Sonra quberniya buraya gələndə hökumət əmələsi və qeyri dadüsted edənlər də gəlmişdi. O vaxtda onların oxumuşları da bizimkilərdən artıq idi. Onlardan (universitet də) darülfünun da qurtaranlar var idi. Bunların birisi – doktor Rustamyan cəmiyyəti-xeyriyyə üçün nizamnamə tərtib edib bir neçə adam ilə ərizə verib onu təsdiq etdirəndən sonra cəmiyyəti-xeyriyyəni açdılr və adamlar bir yerə cəm olub Bakıda olan ermənilərin hamısını oraya dəvət edib, dəftər açıb pul yığdılar. Cəmiyyəti bina edən Rustamyan və qeyri zikr olan ərizəyə qol çəkənlər dəftər üzü ilə səpki edib hər kəsdən özləri müəyyən elədiyi məbləği istəyib aldılar və heç bir kəs olmadı ki, onlara cavab etsin ki, mən bu məbləği vermirəm və ya verə bilmərəm. Hər kəs növbət ilə pulunu verib, qəbzini alıb ötürdü. O vaxtda Bakıda üç Qarabağ etmənisi suçuluq edirdi, yəni eşşəklə su daşıyıb satırdı ki, onların ikisi sonra milyonçu oldular. Üçüncüsü Karapet qeyrətli, xeyirxahi-millət olduğuna suçuluqda vəfat etdi. Cəmiyyəti-xeyriyyəni bina edənlər məclis açdığını bu Karapet eşidib, gəlib eşşəyini qapıda bağlayıb, gedib məclisə daxil olub təvəqqe elədi ki, onu stolun yanına qoysunlar. Elə ki, ona yol verdilər, basa-basa qabağa çıxıb Rustamyandan xəbər aldı ki, bu pul nə üçün cəm olur? Ona cavab verdilər ki, xahiş edirik məktəbxanalar açıb fəqir-yetim erməni uşaqlarını oxudaq. O vaxtda Karapet çarıqlı ayağının birisini qalxızıb stulun üstə qoyub çarığının bağını, sonra dodağını açıb şalvarının balağını yuxarı çəkib baldırından dəridən tikil-

miş bir təlatını açıb, doktor Rustamyana uzadıb dedi: mənim övladım yoxdur, ermənilərin hamısının uşaqlarını mən özümə övlad hesab edirəm və onların oxumağını çox istəyirəm. Sabahlar eşşək üstə su daşıyanda küçələrdə qoltuqlarında kitab məktəbxanalara gedən erməni uşaqlarını görəndə çox şad oluram. Ona görə bu təlatının içində olan pulu mən bir neçə ildir ki, cəm etmişəm, bu cəmiyyəti-xeyriyyəyə bağışlayıram. Bu sözü eşidib tamam məclis Karapetə mərhəba dedi. Təlatının içindən çıxan pulu sanayıb gördülər ki, min manata qədərdir. Məclis dübarə mərhəba deyəndən sonra Karapet təlatını götürüb, gedib eşşəyin üstə oturub oxuya-oxuya su daşımağa getdi. Bu tövr bina olan cəmiyyəti-xeyriyyə indiyəcən baqi qalıbdır və bu 40 ilin müddətində çox yetim füqəranı oxudub adam edibdir. Bu halda ermənilər məzkur Karapetə rəhmət oxuyurlar. Amma onun suçu yoldaşlarının ki, sonra milyonçu olmuşdular, yurdları xaraba qalıbdır,

Bir neçə il bundan sonra, 1871-ci sənədə mən də bizim müsəlmanlar üçün bir belə cəmiyyəti-xeyriyyə nizamnaməsi tərtib edib və bir neçə qeyri adamlara da onun ərizəsinə qol çəkdirib, sərdara verib təsdiq elətdirdim. Amma mənim çağırışıma nə ki, bir qeyri müsəlman, hətta ərizəyə qol çəkənlər də gəlmədi. Axırda bir neçə adamı vasitə salıb qazı Molla Cavad Axunddan təvəqqe elədim ki, şəhərin mütəşəxxislərini öz mənzilinə çağırıb bu xeyir iş bina olmağa səbəb olsun. Həzərat cəm olanda onlara cəmiyyəti-xeyriyyə nədir və onun gələcəkdə xeyri nə olacağını ərz elədim və cənab Hacı Zeynalabdin Tağıyev də bu barədə çox danışdı. Amma pul sözü araya gələndə hacılar iztiraba düşdülər və onların birisi: «bu xeyir işə bir xeyir duaçı da gərəkdir. Təvəqqe edirəm məni belə duaçı hesab edəsiniz» - deyib, durub getdi. Bir qeyri hacı durub «abidəstə gedirəm» - deyib çıxıb qaçdı. Sonra məclisdə qalan əşxas bir-birinə baxıb təşrif apardılar. Biz məclisdə olan 3-4 adamlar da onlardan sonra durub get-

dik. Mən dəftərləri qoltuğuma vurub mənzilimə gedəndən sonra bizim bədbəxt müsəlmanların fikrindən bir neçə gün xörək yeyə bilmədim və gecələr mənə yuxu haram oldu. (Cəmiyyəti-xeyriyyə binasi. «Həyat» qəzeti, №107, 25 noyabr 1905-ci il).

Bu tarixi hadisələr ilə tanışıq insanı sövq edir ki, çağdaş həyatımızın problemlərinə göz yetirsin, düşünsün ki, XIX əsr bizdən gün-gündən uzaqlaşsa da onun həqiqətləri bizim üçün nə qədər aktualdır? Bu tarixin təkrarı deyil, biganəlik üzündən unudulmuş faktların yenidən bərpası, təkrarı, dərkidir, yaşanmasıdır, yaddaşsızlıq sindromudur. İndi tarixi unutmağımızın faciəsini yaşamaqla başqa bir istirab dənizindəyik. Onun adı «Qarabağ dərdi»dir...

Azərbaycan jurnalistikasının «baniyi-karı» H.Zərdabinin bizlərə əbədi abidə kimi miras qoyduğu «Əkinçi» ona görə bütün zamanların fövqündə dayanır ki, o xalqını işıq gələn tərəfə səsləyir, köhnə dünyanın qaranlıqlarından sıyrılıb çıxmağın yolunu göstərirdi. Hamıya bəllidir ki, hər dövrün öz elmi-nəzəri səviyyəsi ilə yanaşı həm də nadanlıq, cəhalət ampluası var və ondan qurtuluş ənənəsi mütləq davam etdirilməlidir. İndiki texnogen əsrdə, kompüter zamanında bu yeni texnologiya ilə işləyə bilməyənlərlə «Poçt qutusu»nu tapnımayanların fərqi nədədir? – sualı yəqin ki, dediklərimizə aydınlıq gətirir. Belə isə H.Zərdabinin «müəllim qardaşlarımıza» ünvanladığı «Açıq məktub»dakı fikirlər bu gün öz klassik nidası və məzmunu ilə diqqəti cəlb edir. O deyirdi: «Müəllim qardaşlarımız, siz məgər qəzet oxumursunuz? Eşitmirsiniz nə qədər yazırlar, «oxuyun, elm təhsil edin». Məktəblərdə şagirdlər ağlaşırlar ki, oxumaq üçün kitablarımız yoxdur. Zavodlarda fəhlələrimiz fəryad edirlər ki, onları oxumadıqlarına görə adam hesab etməyib məvaciblərini tamam vermirlər. Xülasə, keçən ildə bir tərəfdən tətil edənlərin «yaşasın hürriyyət» sədası və bir tərəfdən də daşnak-Satyonun tapanca, tüfəng və top gurultusu hamı müsəl-

manları ayılıb, hamı oxumaq istəyir. Belə zamanda ki, hər tərəfdən «yandıq» səsası gəlir, «elm! elm!!» fəryadı ərşə büləпd olub, insafdırmı ki, siz müəllimlər guya ağzınıza su almısınız, heç bir cavab vermirsiniz. Yazın görək nə oxuyaq, necə oxuyaq, harada oxuyaq? Oxutmaq sizin işinizdir... Damcı-damcı ilə yaramız sağalası yara deyil. İndi sel vaxtıdır. Elm gərək sel kimi axsın ki, hər istəyən ondan içib doya bilsin. Belə yanğı vaxtında hər millətini istəyənin borcudur ki, birə beş artıq işləsin». (H.Zərdabi. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1960, s.249).

H.Zərdabi və qələm dostlarının fəaliyyətinin nəticəsidir ki, XIX əsrdə formalaşan milli maarifçilik hərəkatı XX əsrin əvvəllərində ictimai-mədəni həyatın bütün sahələrinə nüfuz edə bildi, Azərbaycan mətbuatı istiqlal mübarizəsinin ideya-siyasi prinsiplərini, ideoloji əsaslarını və istiqamətini müəyyənləşdirməyə nail oldu. Bu dövrdə «Əkinçi»nin tarixi təcrübəsinə istinad edən «Molla Nəsrəddin» və «Füyuzat» xətti-hərəkatı yalnız yeni ədəbiyyat və sənət nəzəriyyələrinin intişarı-yayılması ilə deyil, həm də milli-siyasi ideyaların gerçək həyata tətbiqi ilə şöhrət qazandı. Azərbaycanda qəzetçilik işinin milli-mənəvi dəyərlərə əsaslanması, ictimai-siyasi ideyaların daşıyıcısına çevrilməsi, xalqın özünüdərki, özünütəşkili və özünütəsdiqinə xidmət göstərməsi, demokratik cəmiyyət, hüquqi dövlət quruculuğunda təkanverici rol oynaması «Əkinçi»nin arzularını reallaşdırdı. «Əkinçi»nin arzularının və yaradıcılıq ənənələrinin milli ictimai mühitdə təsdiqini tapması, ümumxalq rəğbətini qazanması seçilən yolun doğruluğunu sübut etdi və geniş xalq kütlələrinin jurnalist əməyinə və adına rəğbəti artdı, **Qəzetçi-mühərrir-jurnalist** şəxsiyyəti cəmiyyətin ən nüfuzlu, mötəbər subyektinə çevrildi. Çünki «Əkinçi» dediyi sözün mənəvi məsuliyyətini daşıyır, danışdığı sözlə işi, əməli arasında fərq qoymur, obyektivlik hissini qoruyurdu. 130 il bundan əvvəl H.Zərdabinin qəzetlə bağlı söylədiyi fikirlər indi də öz aktuallığını saxla-

maqdadır. O yazırdı: «Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun. Yəni o vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə onların hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan, xalqı aynada görən kimi görsün» («Əkinçi», №11, 18 dekabr 1875-ci il, s.78).

Peşəkar Azərbaycan jurnalistikasının banisi H.Zərdabinin tələbi bu gün də öz əhəmiyyətini saxlayırsa demək hələ də hamının bildiyi, rastlaşdığı fəsadlar var və onları aradan qaldırmaq zəruridir. Bu günki Azərbaycan mühitində qəzet bolluğu zamanında mətbuat, əlbəttə, öz klassik vəzifələrini layiqincə yerinə yetirir, lakin ümumi işə manea olan kimsələrin də mövcudluğunu danmaq mümkün deyil. Buna qəzet reketçiliyi, mətbuat piratçılığı da demək olar, pornoqrafiyaya aludələrin qazanc və əyləncə istəyi də. Belələrinə «Əkinçi»nin tövsiyyəsini hər zaman xatırlatmaq vacibdir ki, «qəzetənin belə ayna kimi olmağı xalq ilədir. Yəni hər kəs gərək öz dərdini və xahişini qəzetlərində bəyan etsin ki, onların barəsində işdən xəbərdar olanlar mübahisə etməklik ilə onların yaxşı-yamanlığını aşkar etsinlər. Taki o işi görən onun yaxşı ya yamanlığından agah olub, sonra peşimanlıq çəkməsin. Pəs hər bir qəzetin ümdə mətləbi mübahisədir və əgər bizim dünyadan və elmdən xəbərdar olanlarımız «Əkinçi» qəzetində yazılan mətləb barəsində mübahisə başlasalar çox şad olarıq. Amma çifayda, qəbristanlıqdan səs gəlməyən kimi, bizim xalqdan bir səda gəlməyir. Qəzeti oxuyanlar o mətləblərə bir cavab yazmayırlar. Belə olan surətdə biz mübahisəyə həsrət olmaqdan savay, hətta qəzetimizi oxuyanlar ondan narazı olduğunu da buçağacan bilməyirik («Əkinçi» qəzeti, №11, 18 dekabr 1875-ci il).

XIX əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən maarifçilərin ideya-estetik fikir tribunasına çevrilən «Əkinçi» və «Əkinçilər» Qərbi Avropa maarifçiləri kimi feodal-patriarxal dünyanın qalıqları əleyhinə mübarizə aparır, ro-

mantik «zəka səltənəti»nin yaradılması uğrunda sistemli, ardıcıl mübarizə aparılmasını vacib bilirdilər. Bunun üçün onlar bir sıra ictimai-siyasi vəzifələr müəyyənləşdirir, «hər bir qələm fəhləsinin vətən uğrunda» mübarizəsini mücadiləçi qəhrəman tipi ilə əlaqələndirirdilər. Həmin qəhrəman ictimai-siyasi həyatda və ədəbi-bədii axtarışlarda konkret məsələlərin həllinə nail olmalı idi: -

- Təhkimçilik hüququna və iqtisadi, ictimai hüquq sahələrində onun doğurduğu bütün nəticələrə qarşı barışmaz mövqedə dayanmalı idi.
- öz müqəddəratını təyin etməli, özünüidarəni bacarmalı, vətəndaş azadlığına nail olmalı idi.
- xalq kütlələrinin, fəhlə və kəndlilərin ictimai rifah halını yaxşılaşdırmağı məqsəd bilməli idi.
- Dildə sadəlik, təmizlik, işdə-əməldə mətinlik, fikirdə aydınlıq, dəqiqlik nümayiş etdirməli idi.
- Milli-etnik psixologiyanı qorumalı, tarix və yaddaş ənənələri ilə yaşamalı idi.
- Ailə, cəmiyyət və Vətən əxlaqına sahib olmalı idi...

«Əkinçi»nin 56 sayında dərc olunan materiallarda nəbatat, təbabət, ziraət və sairə dair elmi-nəzəri məqalələrdə, habelə ədəbiyyat, sənət və mədəniyyət haqqında zəngin mülahizələrdə ifadə olunan prinsiplər məhz həmin mücadiləçi qəhrəmanın – Həsən bəy Zərdabinin yaşam tərzini, məfkurəvi axtarış istiqamətini müəyyənləşdirirdi. H.Zərdabidən sonra yaşanan tarix sübut edir ki, onun arzu və əməlləri gerçək həyatda təsdiqini tapdı. Lakin sağlığında bütün bunlara necə əzab və iztirablar hesabına dözdüyünü Qarabağdan aldığı kobud və təhqiredici bir həcvə cavabında belə ifadə edir: «Fikrim budur ki, bizim Zərdab kəndində Qarabağın sərhəddində bir daş qoydurub onun üstündə zikr olan həcvi qazdırım ki, gələcəkdə bizim övladlar o yadigara baxıb bilsinlər ki, mən bu zəhmət ilə milləti-islami qəflətdən ayıltmaq

istəyən vaxtda necə nadanlara rast gəlmişəm!» («Əkinçi» qəzeti, 29 sentyabr 1877-ci il, №20).

İndi o vaxtdan 130 il keçir. Azərbaycan mətbuatı və jurnalistikası zəngin bir tarix yaradıb. Onun sabahı haqqında da böyük vətəndaşlıq qüruru ilə danışmaq mümkündür. Lakin təəssüf ki, yenə də «həcvgu şairlər», «təqlidçi mühərrir və mübəlliğlər», müasir ifadə ilə desək qərəzkar, təkəbbürlü və s., və i.a. bu kimi qələm «aşiqləri» də yox deyil. Bunları ona görə xatırlatdım ki, indi bizim hər birimiz Həsənbəy Zərdabidən danışarkən «Əkinçi»nin Azərbaycan idealı, yaxud tarixdən ibrət götürəkmi?» – sualı ətrafında fikirləşməyi bacarmalı, doğru-düzgün cavabı tapmağa can atmalıyıq.

"Yeni Azərbaycan" qəzeti,
22 iyul, 2005-ci il

«ƏKİNÇİ»NİN JURNALİSTİKA DƏRSLƏRİ

Ən qədim dövrlərdən «Əkinçi»nin nəşrinə qədər Azərbaycanda informasiya mübadiləsi müasir jurnalistika vasitə və üsulları ilə olmasa da həyata keçitrilirdi. Belə ki, tarixən müxtəlif vasitələr, yəni yazılı və şifahi nitq materialları, xüsusən də bədii ədəbiyyat cəmiyyətdə tərəflərarası informasiyalaşmanı və sözün geniş mənasında ictimai ünsiyyətin qurulmasını təmin edirdi. Bu zaman bədiilik, obrazlılıq, rəmzilik və şərtilik nitqdə informativliyi üstələyir, fərdi-eqoist baxış və davranışlar əsas götürülürdü. «Əkinçi»nin Azərbaycan dövrü mətbuatının ilk nümunəsi kimi meydana gəlməsi milli şüur və ictimai mühitdə altruizmin – özünü cəmiyyətinə həsr etmənin, sosial maraqların uğrunda mübarizənin əsasını qoydu və ümumxalq həyatı üçün mühüm əhəmiyyət kəsb edən həqiqətlərin qiymətini artırdı. Artıq hər hansı bir müəllif tərəfindən yazılan mətnlərdə fərdi duyğular, lirik-psixoloji düşüncələr, bədii-sentimental obrazlar deyil, ümumxalq maraqlarını ödəyəcək həqiqətlər, obyektiv gerçəklər ön plana keçirdi. Başqa sözlə desək bədii «yalanların» yerini jurnalistin-mühərririn söylədiyi «qaibanə gerçəklər» alırdı. Bu baxımdan «Əkinçi» sadəcə ilk peşəkar-praktik işin başlanğıcı, Azərbaycan milli mətbuatının banisi kimi səciyyələnmir, o, həm də jurnalistikaya dair elmi-nəzəri fikrin və milli təcrübənin tarixi abidəsi kimi mühüm əhəmiyyət daşıyır. Əvvəla; ona görə ki, «Əkinçi» milli mətbuatı yaratmaqla yanaşı, həm də ona dair jurnalistika ənənəsini də formalaşdırıb. Mətbuatın yaranması ilə birgə burada mətbuata münasibətin, qəzetçilik işinə dair elmi-ictimai fikrin formalaşması jurnalistikanın meydana gəlməsinə münbit zəmin yaradıb. İkincisi; «Əkinçi»də formalaşan jurnalistika XIX əsrin hüdudları ilə məhdudlaşmır, onun ta-

rixi dərsləri bu gün də özünün yaradıcılıq meyarları ilə maraq doğurur, müasir dünya jurnalistikasının izlədiyi və qoruduğu liberalizm, obyektivlik, tərəfsizlik, qərəzsizlik prinsipləri ilə uzlaşır. «Əkinçi» bu həqiqətləri özünün fəaliyyətində əsas götürdüyünə görədir ki, indi onun tarixi dərslərindən, praktik işi ilə yanaşı yürütdüyü yaradıcılıq konsepsiyası, analitik prinsiplərdən geniş danışmaq və həm də bu təcrübə əsasında jurnalistikanın mahiyyətini, yaradıcılıq, axtarış sirlərini müasirlərimizə anlatmaq mümkündür.

XIX əsrin ilk onilliklərində «Gülüstan» (1813), «Türkmənçay» (1828) müqavilələri ilə Azərbaycan ikiyə bölündükdən sonra milli ziyalıların yaşadığı «vətənsizlik, dilsizlik, dinsizlik, elmsizlik» dərdini H.Zərdabi sadəcə müşahidə etməklə kifayətlənmir, ona imperiyanın mərkəzində təklif olunan imtiyazlardan əl çəkərək vətəninə qayıtmağı və milli xidmətdə bulunmağı ilə tarixdə möhtəşəm yer tutur. Bu fikir ona görə öz təsdiqini tapır ki, H.Zərdabiyə qədər Azərbaycanda qəzet çıxarmaq arzusunda olanlar var idisə də, bu işi gerçəkləşdirən, ölkədə ictimai rəyi formalaşdıracaq ilk informasiya vasitəsini o yaratdı və «dördüncü hakimiyyət» adlandırılan fenomenin təşəkkülünə, inkişafına bütün ömrünü sərf etdi. H.Zərdabi «Əkinçi»dən sonra «Kaspi», «Həyat» kimi qəzetlərdə də həmin missiyanı davam etdirdi, milli jurnalistika məktəbinin yaranmasına çalışdı, mətbuatın ictimai fikir institutuna çevrilməsini varislərinə anlada bildi.

H.Zərdabi XIX əsr Azərbaycanının problemlərini həll etmək üçün mətbuatın vəzifələrini şərh edərkən maarifçilik ideyalarını, «zəka səltənəti» arzularını bəyan etməklə yanaşı, həm də mövcud gerçəklikdə, elmdə, dildə və fikirdə dəyişikliklərə nail olmaq, reformalar aparmaq istəyini də açıq bəyan edir, müasirlərini bu yolda konkret əməli iş görməyə səsləyirdi. O, əski, arxaik elm və təhsildən, milli şüurdakı ənənəvi cəhalət və ətalət mənzərələrindən bu məqsədlə imtina edir, klassik divan ədəbiyyatının bədii «yalanlar»ını,

gülə, bülbülə, meyə, məhbubə aludə olan qəhrəmanları tənqid hədəfinə çevirir, folklor nümunələri və yazılı ədəbiyyatdakı əsassız təşbehlərin gen-bol işlənməsi əleyhinə çıxırdı. Doğruları, gerçəkləri yaradıcılıqda ön plana çəkən H.Zərdabi qəzetin, mətbuat və jurnalistikanın vəzifəsini müəyyənləşdirərək deyirdi: «qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq öz nikibədindən xəbərdar olub onun əlacının dalınca olsun.

Amma bizim xalqın işlərinə baxanda bir əməli-kamil görmək olmur ki, millət təəssübü çəkən qardaşlar ona fəxr etsin. Libasdan tutmuş bəzi yeməli şeylərəcən xarici dövlətlərindən gətirdirik. Pəs heç olur ki, bu yoxsulluğumuzdan danışanda onun səbəbi elmsiz qalmağımız olduğun bəyan etməyək?

Ey qardaşlar, rəva deyil ki, sizin qəzetiniz də bircə qəzetiniz ki, «Əkinçi» olsun, sizə Əlif-Leyla nağılı etsin.

Bu halda müsəlman milləti tufana düşmüş gəmi təkidir ki, hər ləpə onların bir hissəsini aparıb qərq edir. Belədə çox həmiyyətsizlik istər ki, qardaşlarımızın qərq olmağına baxa-baxa inək irəlidən yediyi çörəyi gövşəyən kimi Rüstəm Zalın nağılı oxuyub keçmişdə olanların qüvvətinə fəxr edək və öz qərq olmağımıza əlac etməyək.

Pəs, dostum, doğru deyiblər ki, əlhəqq mürrün (doğru söz acı olur). Amma bizə hökm olub ki: qülil-həqq və lövh kanə mürrün (deyin sözün doğrusunu acı da olsa)!» «Əkinçi» qəzeti, 1876-cı il, №7.

H.Zərdabi «Əkinçi»ni nəşrə başlayarkən onun «zəhmət və zərərini» düzgün müəyyənləşdirir, feodalizm ənənələrinin hökm sürdüyü Azərbaycanda «söz anlayan kəslərin» az olduğunu görürsə də, öz mövqeyindən əl çəkmir, doğru sözü, dünya haqqında həqiqətləri «ona qulaq verməyən kəslərə» (C.Məmmədquluzadə) söyləməkdən usanmırdı. Bu məqsədlə H.Zərdabi orta əsrlərin qaranlıqlarına aludə olan həmvə-

tənlərini «zəka səltənətinə» qovuşdurmaq istəyir və bunun üçün hər şeydən öncə qəzetin – informasiya vasitəsinin vacibliyini vurğulayırdı. Dünyanın düzgün dərki və şərhini, həmvətənləri ilə dərdləşməni, xəbərləşmə və dialoqu milli-ictimai mədəniyyətin əsası sayan H.Zərdabi tarixdə şəxsiyyətin roluna nə dərəcədə qiymət verirdisə, qəzetin əhəmiyyətini də bir o qədər zəruri hesab edirdi. Buna görədir ki, H.Zərdabi «xabi-qəflətdə» qəflət yuxusunda olan müasirlərinin dünyanın gərdişindən xəbərdar olmasını ən vacib yaşam şərti sayırdı. O deyirdi: «qəzeti müsəlmanlar üçün vacib bilib onun zəhmətini və zərərini qəbul edib başlayırıq və müsəlmanların anlayan və pirşov kəslərindən iltimas edirik ki, xalqa bu qəzeti oxumağa mane olmasınlar, bəlkə səy etsinlər ki, onu oxuyan çox olsun. Bu təvəqqei anlayan kəslərdən elədiyimizə səbəb odur ki, bizə məlumdur bizim müsəlmanlar həmişə öz anlayan kəslərini əziz tutub onların sözlərinə əməl ediblər. Əlbəttə, anlayan və pirşov kəslərə lazımdır ki, xalqın bu etibarına xəyanət etməyib onun gözləri açılmağa səy və kuşeş etsinlər» («Əkinçi» qəzeti, 1875-ci il, №1).

H.Zərdabi «Əkinçi»də jurnalist işinin mahiyyətini şərh edərkən xəbərçilik barədə geniş danışır, xəbərin hazırlanması texnologiyası və onun mənbələrinin düzgün müəyyənləşdirilməsi məsələsinə aydınlıq gətirirdi. Köhnə və vaxtı keçmiş, habelə ikinci, üçüncü əl tərəfindən hazırlanmış, təkrarlanmış xəbərin qəzet səhifələrinə çıxarılmasına etiraz edən H.Zərdabi «tazə xəbərlər»in əhəmiyyətini şərh edərək deyirdi: «Təzə xəbərlər cümləsində Osmanlı dövlətinin borcundan və bir iranlının Moskvada xaçpərəst olmadığından danışdıq, bu iki xəbər bizim xalqa xoş gəlməyib. Əvvələn, təzə xəbərləri biz özümüzdən yazmırıq. Onları xaricilərin qəzetlərindən yazırıq. Ona binaən ol xəbərlər dürüst də olmasa, onları eşitmək bizim xeyrimizədir. Ol səbəbə ki, onları oxuyub xaricilər bizlərə necə baxmağından xəbərdar oluruq. Saniyən, təzə xəbərləri yazanda biz səy edirik ki, müsəlman

vilayətlərindən çox xəbər yazaq. Ona binaən ki, bizim xalqa ol xəbərlər gərək xoş gəlsin. Amma bizim müsəlmanlar elm və ədəbdən qaçmağına xaricilərə gülüş olublar. Ona binaən bizə xoş gələn xəbərlər onların qəzetlərində çox az olur. Bu səbəblərə yaxşı-yaman hər bir xəbəri yazdıq. Salisən, ol xəbərləri yazandan irəli təhqiq etmək müşküldür. Əgər onları təhqiq edib sonra yazsaq, gərək heç təzə xəbər yazmayaq» («Əkinçi» qəzeti, 1875-ci il №11).

Göründüyü kimi, H.Zərdabi qəzetdə xəbərin təqdimi – zamanı, yalnız peşə və sənətkarlıq tələblərini irəli sürmür. Həm də, «bizim xeyrimizə, olanları oxuyub... xəbərdar» olmağı vacib sayırdı. Lakin yenə də hər şeydən yüksəkdə peşə və sənət həqiqətləri, obyektiv olan doğrular yüksəkdə dayanır. Xəbərə müdaxilə etməmək tələb olunur, «əgər onları təhqiq edib sonra yazsaq, gərək heç tazə xəbər yazmayaq» fikri diqqət mərkəzində saxlanırdı.

H.Zərdabi «Əkinçi»nin vasitəsilə milli jurnalistikanın elmi-nəzəri əsaslarını formalaşdırır, qəzetçi tipini sadəcə yeni insan obrazında təqdim etməklə kifayətlənmir, onun xəbərçilik, haqpərəstlik, ədalətsevərlik, azadlıq aşiqi olduğunu ayrıca vurğulayır, jurnalistin qələm məhsullarında «lazım olan şeylərin», daha doğrusu xalqın «dərdi və xahişi»nin əsas yer tutmasını tələb edirdi. Tərəfsiz və qərəzsizlik, liberalizm tələblərinin rəhbər tutulmasını tələb edən H.Zərdabi obyektivlik prinsipi və dialoq, mübahisə-diskussiyanı milli jurnalistikanın ən ciddi meyarı kimi qiymətləndirərək deyirdi: «Hər bir vilayətin qəzeti ol vilayətin aynası olsun, yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə, onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan xalqı aynada görən kimi görsün. Əlbəttə, qəzetin belə ayna kimi olmağı xalq ilədir, yəni hər kəs gərək öz dərdini və xahişini qəzetlərində bəyan etsin ki, onların barəsində işdən xəbərdar olanlar mübahisə etməkliklə onların yaxşı-yamanlığını aşkar etsinlər, ta ki, o

işi görən onun yaxşı, ya yamanlığından agah olub sonra peşimanlıq çəkməsin.

Pəs hər bir qəzetin ümdə mətləbi mübahisədir və əgər bizim dünyadan və elmdən xəbərdar olanlarımız «Əkinçi» qəzetində yazılan mətləblər barəsində mübahisə başlasalar, çox şad oluruq. Amma çifayda, qəbirstanlıqdan səs gəlməyən kimi bizim xalqdan bir səda gəlmir. Qəzet oxuyanlar ol mətləblərə bir cavab yazmırlar.

Belə olan surətdə biz mübahisəyə həsrət olmaqdan savayı, hətta qəzetimizi oxuyanlar ondan narazı olduğunu da bu çağacan bilmirdik» («Əkinçi» qəzeti, 1875-ci il, №11).

«Əkinçi»də çıxış edən əsas müəlliflər sırasında Mirzə Fətəli Axundov (vəkili-nameləmi-millət), Seyid Əzim Şirvani (Seyyid). Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani (Adıgözəlov). Əbülfət Şahtaxtinski, Gəncəli Hacı Məhəmməd Sadiq (Əhsənül-Qəvaid). Mirzə Həsən Əlqədari (Məmnunəlqədari). Məhəmmədtağı Əlizadə və başqalarının adını çəkmək olar. Onlar milli ictimai fikirdə «əkinçilik» hərəkatını formalaşdırmaqla ölkədə şəffaf informasiya mühiti uğrunda mübarizə apardılar. «Əkinçi»lərə arxalanan H.Zərdabi «Əkinçi»ni nəşr etməklə Azərbaycanda milli jurnalistika və dövrü mətbuatın əsasını – yeni ictimai-mədəni görüşlərin formalaşmasına əsas yaratdı. Azərbaycan mətbuatının banisi

xalqçılıq, millilik və bəşərilik ideyalarını yaydı,

dini və dünyəvi elmləri təcriddə deyil, əlaqəli öyrənməyin faydasını izah etdi,

fanatizm, xürafat və cəhalət əleyhinə ardıcıl mübarizə apardı.

«Əkinçi» H.Zərdabinin təbirincə desək – «Rusiyada əvvəlinci türk qəzeti» idi və bu böyük Azərbaycan mütəfəkkirinin doğru sözə inamından yaranmışdı. Görkəmli maarifpərvər deyirdi: «Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın, necə ki, bir bulağın suyunun altına nə

qədər bərk daş qoysan bir neçə ildən sonra o su tökülməkdən o bərk daş mürür ilə əriyib deşilir, habelə söz də, ələlxüsus doğru söz, qanmazın başını deşib onun beyninə bərk əsər edər... Böylədə...qəzetə çıxartmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin... Heç olmaz ki, doğru söz yerdə qalsın». (H.Zərdabi. «Rusiyada əvvəlinci türk qəzetəsi». «Həyat» qəzeti, 28 dekabr 1905-ci il, №129).

«Əkinçi» nəşrə başladığı dövrdə Azərbaycanda şəffaf informasiya mühiti yox idi və yalnız ölkənin ərazisində məhdud şəkildə yayılan əcnəbi qəzet və jurnallardan məlumat almaq mümkün idi. Bunların haqqında «Əkinçi» qəzetinin səhifələrində fikir və mülahizələrə rast gəlmək mümkündür. «Əkinçi»nin müəllifləri və H.Zərdabinin istinad etdiyi qəzet və jurnalların sırasında «Ruznameyi-İran», «Türküstan», «İberiya», «Kafkaz», «Peterburqski vedomosti», «Politik korrespondent», «Tayms», «Tifliski vestnik», «Qolos», «Novı teleqraf», «Odesski vedemosti», «Tems» (fransızca İstanbulda). «Odesski vestnik», «Miqo Hayastan», «Mşak», «Pustoy», «Narodnı poveriya», «Pravitelstvenni vestnik», «Tifliski vedomosti», «Birjevoy vedomosti», «Naş vek», «Framdelbat» (İtaliya), «Droeba» (gürcü), «Debat» (fransız), «Korrespendas büro» (Vyana), «Purdez» (erməni jurnalı, 3 ayda bir İstanbulda çap olunan erməni qəzeti), «Məcməul-həvadis», «Ararat», «Hayranik», «Novoye vremya», «London qazet», «Pyuz» (Hindistan), «Morninq post» (İngiltərə), «Əxtər» (İstanbul, farsca), «Əndipindaş Belgi» (Hollandiya), «Ekonomi» (London), «Misyon katolik», «Kazanski iyerarxalni vedemosti», «Cavab» (İstanbulda ərəbcə çıxıb), «Press» və başqaları əhəmiyyətli yer tutur.

Doğru sözə istinadla fəaliyyətə başlayan H.Zərdabi və əkinçilər dünya mətbuatına, zamanın ictimai-siyasi həqiqətlərinə, mövcud milli reallıqlara əsaslanaraq yazmağı və söyləməyi vacib bilirdilər. Əsrlərdən bəri milli düşüncədə for-

malaşan və ehkama-doqmaya çevrilən ənənəvi təsəvvürlərin aradan qaldırılmasını, millətin xabi-qəflətdən oyanması, ətalət, cəhalət və xürafat «burulğanından» qurtulmasını ümdə vəzifə bilən H.Zərdabi və əkinçilər məhz doğru olana, obyektiv gerçəklərə əsaslanır, dünyanın düzgün dərki, təsviri, təhlil və tənqidini yaradıcılığın məqsədi sayırdılar.

1877-ci ildə «Əkinçi»nin bağlanmasından sonra H.Zərdabi kəndlilərin və yoxsul şəhər əhalisinin haqq və hüquqlarını qoruduğuna görə «arzuolunmaz» şəxs sayılırdı və dövlət üçün təhlükəli hesab edilirdi. Buna görədir ki, onun həyat yoldaşı Hənifə xanımın xatirələrində deyilir: «1877-ci ildən başlayaraq jandarmlar hər gün Həsən bəyin mənzilində qaravul dururdular» (Hənifə xanım Məlikova – Abayevanın xatirələri. Bakı, «Adiloğlu» nəşriyyatı. Bakı, 2005, səh.31).

H.Zərdabinin işi və ideyalarını XIX əsrdə «Ziya», «Ziyayi-Qafqaziyyə» və «Kəşkül» kimi mətbuat orqanları, XX əsrin əvvəllərində mollanəsrəddinçi və füyuzatçı jurnalistlər davam etdirdilər. H.Zərdabi «Kaspi», «Həyat» kimi mətbuat orqanlarında ardıcıl çıxış etmiş, elmi və publisistik əsərlərini nəşr etdirmişdir. Onun məqalələrinin mövzu dairəsi yerli mühitlə məhdudlaşmır, həm də Rusiya, İran, Türkiyə, Avropa, İngiltərə həyatını əhatə edir, oradakı inqilabi-demokratik hərəkatlara ayna tuturdu. Görkəmli Azərbaycan mütəfəkkiri Əlibəy Hüseynzadə onun mətbuata dair xidmətlərini qiymətləndirərək deyirdi: «Aləmi-islam bir qaranlıq içərisində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışmışdır. O məşəl nə idi? Əvvəlinci mətbu kəlam idi...»

H.Zərdabinin mətbuat və jurnalistika haqqında dediklərindən bir neçə kəlmə bu mənada maraqlıdır;

- Hər vilayətin qəzeti gərək o vilayətin aynası olsun.
- Qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq... xəbərdar olub, onun əlacının dalınca olsun;

- Doğrunu söylə, acı olsa da;
- Heç olmaz ki, doğru söz yerdə qalsın;
- Doğru söz qızıl kimidir, sürtdükcə parıldar;
- Boş söz danışmaqda heç bir fayda yoxdur;
- Hər bir qəzetin ümdə muradı mübahisədir ki, aqil kəslər bir-birilə mübahisə edib işləri xalqa bəyan etsinlər...

«Əkinçi» və əkinçilərin irsi ilə tanış olarkən bir daha inanırıq ki, jurnalistika haqq, ədalət, doğru və həqiqətləri axtarmanın tarix təcrübəsi nəticəsində meydana gəlmiş ictimai fəaliyyət və elm sahəsidir. Jurnalistika doğrunu axtarmaq, tapmaq və onu olduğu kimi başqasına, cəmiyyət üzvlərinə çatdırmaq sənətidir. Bunu doğruları söyləmənin tarix təcrübəsi təsdiqləyir. «Doğru söz söyləyəni doqquz köydən qovsalar da», «Düz söyləyən düzdə qalsa da» - bu belədir.

Diqqətəlayiq məqamlardan biri də bundan ibarətdir ki, H.Zərdabi milli mətbuatın banisi oldusa da, «Əkinçi» və əkinçilər Azərbaycan jurnalistikasını «dördüncü hakimiyyət» səviyyəsinə yüksəldə bildilər, onun zəngin və koloritli politrasını, üslub çoxçalarlığını formalaşdırmağa müvəffəq oldular

H.Zərdabinin mətbuat və jurnalistikaya dair iş təcrübəsi, «Əkinçi»nin dərsləri, yaradıcılıq – sənətkarlıq ənənələri və ideyaları Azərbaycanda sistemli şəkildə davam etdirildi və bu gün də milli mətəbuatımızın elmi-nəzəri və metodoloji əsasını təşkil etməkdədir.

"Azərbaycan" qəzeti, 8 iyul, 2010-cu il

AZƏRBAYCANIN ŞƏXSİYYƏT SİMVOLLARINDAN BİRİ – ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

Azərbaycan tarixində elə şəxsiyyətlər var ki, onların kimliyi ilə tanışlıq, əməl və ideyalarına bələdlik bütövlükdə tarixin konkret dövrünü bilməyə bərabər tutulur. Belə şəxsiyyətlərdən biri də çoxsahəli və aktiv fəaliyyəti ilə XX əsrin əvvəllərində fərqlənən Əlimərdan bəy Topçubaşovdur. Təəssüf ki, uzun zaman siyasi səbəblərdən sovet dövründə onun kimliyinə kölgə salınmış, Azərbaycan Xalq Cümhuriyyətinin bu parlaq simasının xidmətləri geniş araşdırılmamışdır. Arxiv materialları təsdiqləyir ki, hələ çar hökuməti zamanında o təqib olunmuşdur. Tarixdə «Qara kitab» adı ilə məşhur olan və 1920-ci illərin əvvəllərində Bakıda rus dilində çapdan çıxan "Zaqafqaziyada rus siyasətinə dair" adlı kitabın 60-62-ci səhifələri bu fikri aydın şəkildə göstərməkdədir. Ə.Topçubaşov Sovet dövründə tədqiqlərin əksəriyyətində siyasi cəhətdən tənqid edilmiş, bilavasitə geniş araşdırma hədəfinə çevrilmişdir. Hətta 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasında onun "burjua millətçiliyi idealarını təbliğ" etməsi ayrıca vurğulanmışdır. Yalnız Azərbaycanda sovet hakimiyyətinin süqutu ərəfəsində və ondan sonrakı dövrdə Ə.Topçubaşovun fəaliyyəti obyektiv olaraq işıqlandırılmağa başlayıb, Mövsüm Əliyev, Dülarə Seyidzadə, Nəsib Nəsibzadə, Vilayət Quliyev və başqalarının XX əsrin əvvəllərinə dair araşdırmalarında onun ictimai-siyasi və diplomatik xidmətlərinə, şəxsiyyətinin bu və ya digər cəhətlərinə aydınlıq gətirilib, əsərləri nəşr edilərək ictimaiyyətə çatdırılıb.

Çar rusiyası dövründə siyasi fəaliyyətini gizli olaraq həyata keçirən Ə.Topçubaşov bir tək Azərbaycanın deyil, Ümumrusiya müsəlmanlarının lideri kimi çıxış edir və böyük nüfuz, rəğbət sahibi kimi müsəlmanların hüquq və haqlarının qorunmasına çalışırdı. Araşdırıcı M.Əliyev həmin dövrü səciy-

yələndirərək yazır: "Ə.Topçubaşovun təşəbbüsü, ciddi hazırlığı və rəhbərliyi altında 1905-ci il avqustun 15-də Nijni-Novqorodda yarmarka zamanı, Oka çayında "Qustav Struve" gəmisində Ümumrusiya müsəlmanlarının birinci qurultayı açılmışdır. Qurultayda Qafqaz, Krım, Qazan, Ural, Türküstan və Sibirdən 150 nəfərə qədər nümayəndə iştirak edirdi. Topçubaşovun yazdığı və qurultayın cüzi dəyişikliklə bəyəndiyi qətnamədə göstərilirdi ki, Rusiya müsəlmanlarının bütün məsələlərdə: siyasi, mədəni, həmçinin Rusiyanın hazırkı vəziyyətində irəli gələ biləcək məsələlərdə həmrəy olması zəruridir. Birinci qurultayın göstərişinə əsasən "Ümumrusiya Müsəlmanlar İttifaqı" – "İttifaqül-müslimin" partiyası təşkil etmək qərara alındı. "İttifaq" Rusiya müsəlmanlarını birləşdirməyi və beynəlxalq imperializmə qarşı vahid cəbhədə çıxış etməyi məqsədə uyğun sayırdı. "İttifaq"ın mərkəzi Bakı şəhərində yerləşirdi.

1906-cı il yanvarın 13-dən 23-dək Peterburqda gizli olaraq çağırılmış ikinci Ümumrusiya müsəlman qurultayı "İttifaq"ın Əlimərdan bəy tərəfindən hazırlanmış 23 maddəlik yeni Nizamnaməsini qəbul etdi" (Azərbaycan Demokratik Respublikası, Bakı, Gənclik, 1990, s.50).

1917-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə beynəlxalq miqyasda diplomatik fəaliyyət göstərən Ə.Topçubaşovun açıq-aydın mövqeyi sonralar sovet siyasi dairələri, sovetoloji prinsiplərlə təhrif olunur, guya onun Azərbaycan xalqına burjuacasına düşmən kəsilməsi "əsaslandırılırdı". Ömrünün son mərhələsini Fransada mühacir həyatı yaşayan Ə.Topçubaşovun tale acıları səbəbindən qürbətə düşməsi də sovet dövründə siyasi ittihamla qarşılanır, ölkəsinə, xalqına bağlı bu böyük şəxsiyyət əleyhinə təbliğat aparılırdı. Lakin doğru deyirlər ki, "həqiqət nazilsə də, üzülmür". Onun kimliyi və fəaliyyəti öyrənildikcə, obrazlı desək "aysberqin görünməyən tərəfi" meydana çıxdıqca, əsl həqiqət ortaya çıxmış olur, çar rusiyası imperiyasının sərhədləri daxilində cildini dəyişən və qırmızı qan rəngi ilə məşhurlaşaraq SSRİ adı ilə tanınan, çoxlu gizlinləri olan "kabus"un işlək əməlləri aşkarlanır, şəx-

siyyətləri sındırmaq, xalqı və dövləti məhv etmək meyarı görünür.

Əslində Əlimərdan bəy Topçubaşov kimdir? Vətən, Xalq və Dövlət xadimi! Bu fikrə bir söz də əlavə etmək olar – Mücahid! Fikir, ideya, söz və əməl mücahidi! O XIX əsr Azərbaycanın maarifçi ziyalılar ordusu mühitində yetişən, Sankt-Peterburqda dünyanın məşhur universitetlərindən birində hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirən (1888) Azərbaycan gənci idi. Əlimərdan bəy Ələkbər oğlu Topçubaşov 1862-ci il mayın 4-də Gürcüstanın mərkəzində – Tiflisdə anadan olub, 1934-cü il noyabrın 8-də Parisin Sen-Klo rayonunda vəfat edib və orada dəfn olunub.

Universiteti bitirdikdən sonra orada qalıb işləmək şansı olsa da xristian dinini qəbul etmək şərtinə əməl etmir və Bakıya qayıdır. Atasını ilk uşaqlıq illərindən itirən Ə.Topçubaşov görkəmli Azərbaycan ziyalısı H.Zərdabinin qızı Pəri xanımla ailə həyatı qurur və bu böyük şəxsiyyətlə qohumluq ünsiyyəti onun ömrünün yeni mərhələsini müəyyənləşdirir. Həmin dövrdə Bakıda nəşr olunan "Kaspi" qəzetinin mətbəəsini və həmin qəzeti maarifpərvər–messenat Hacı Zeynalabdin Tağıyev pul ilə alıb Ə.Topçubaşovla Ə.Ağaoğlunun istifadəsinə verir. Ə.Topçubaşov qəzetin redaktoru olur.

Ə.Topçubaşov "Kaspi" qəzetində elmi ictimai fikri maraqlandıran ən ciddi problemlərin həllinə çalışır, xalqın mədəni səviyyəsinin, hüquqi haqlarının qorunmasını məqsəd bilirdi. "Kaspi" qəzetində nəşr etdirdiyi çoxsaylı məqalələrdə, o cümlədən "Литература азербайджанских татар" (1903 № 234, "Газета на татарском языке" (1905, № 18) "Начала реформ на Кафказе" (1905, № 140), "К организации земства в Закавказье" (1905, № 142), "К отмене ограничения прав мусулман в городском самоуправлении" (1905, № 150), "К организации земельского представительства" (1905, № 157), "К самоуправлении Кавказе" (1905, № 218), "Эра возрождения мусульман" (1905, № 221), "К умитворения национальностей" (1905, № 222), "Когда же коней национальной

распр?" (1905, № 226), "Письмо турецкого конституционалиста" (1905, № 228), "Санитарные заметки" (1904, № 203, 205, 206, 211, 213, 214), "У учереждения в Баку мусульманского блоготворительного общества" (1904, № 235), "Первый татарский драматург" (1903, № 203), "Татарский юбилейный спектакль" (1903, № 232), "Наши среднее учебные заведение" kimi aktual mövzulara həsr olunan məqalələrdə Ə.Topçubaşov ədəbi-mədəni həyatın müxtəlif problemlərinə aydınlıq gətirir, Azərbaycanda milli mətbuat, ədəbiyyat tarixi və onun elmi-nəzəri dəyərləri, kəndli hüququ, konstitusiya hüququ, şəhər idarəçiliyinin islahatı, səhiyyə məsələləri, səhnə və teatr, orta və ali məktəb qayğıları, milli müxtariyyət məsələlərini işıqlandırırdı. Sadalanan mövzuların təsviri və problemlərin həlli zamanı Ə.Topçubaşov bu və ya digər formada ictimai-siyasi problemləri də ortaya atır, xalqın taleyinə aid ən vacib siyasi məsələlərin diqqət mərkəzində saxlanmasına çalışır, milli istiqlaliyyət-azadlıq, müstəqil suveren dövlət, konstitusiyalı özünüidarəetmə prinsiplərinin təbliğ edirdi.

Həmin dövrdə Əlimərdan bəy Topçubaşov milli ədəbiyyatla yaxından maranlanır, ayrı-ayrı klassiklərin təbliği və onların əsərlərində ifadə olunan siyasi ideyaların örynəilməsi məsələlərini diqqətə çatdırır, xalqçılıq və dövlətçilik prinsiplərinin ədəbiyyat vasitəsilə yürüdülməsinə mühüm əhəmiyyət verirdi. Ə.Topçubaşovun ədəbiyyatla bağlı düşüncələrində də onun ictimai-siyasi xadim olması görülməkdədir. Belə ki, ayrı-ayrı şəxsiyyət və sənətkarların fəaliyyətinə aydınlıq gətirən Ə.Topçubaşov onların xidmətlərinin yalnız bədii məziyyətlərinə görə deyil, daha çox Milli maarifçilik, ideya-siyasi tələblər və milli-etnik dəyərlər mövqeyindən qiymətləndirirdi. O, 1904-cü ildə gənclərə teatr qrupları yaratmağı məsləhət görəndə də, 1910-cu ildə aktyor Cahangir Zeynalovun səhnə fəaliyyətinin 25 iliyinə, 1911-ci ildə M.F.Axundovun 100 illik yubileyinə həsr olunan təntənəli tədbirə rəhbərlik edəndə də həmin mövqedən çıxış edirdi. Məlumdur ki, XIX əsrin sonu XX əsrin əvəllərində Çar Rusiyasının dövlət xadimləri tənəzzül etməkdə olan imperatorluğun taleyini düşünür, bu səbəbdən inqilabi-demokratik hərəkata qoşulan millətlərin əsas məqsədini pozmağa çalışır, müstəqillik və istiqlal uğrunda mübarizə aparan xalqların arasına milli nifaq toxumu səpir, onları siyasi tələblərdən yayındırmağa çalışırdılar. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman münaqişələri bunu bir daha əsaslı şəkildə sübut etdi və onun bədii əksi çoxsaylı əsərlərdə (o cümlədən C.Cabbarlının "1905-ci ildə" pyesində) əksini tapıb, arxiv sənədləri və mətbuat səhifələrində tarixə çevrilib. Həmin hadisələr zamanı sülh anlaşması üçün Azərbaycanı təmsil edən intelleektuallar arasında, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Ziyadxanov və başqaları ilə yanaşı Ə.Topçubaşov da var idi. Sülh danışıqlarında iştirak edən Ə.Topçubaşov məkrli erməni mövqeyini açıq-aydın söyləyir, konkret əməli işlər görməyi təklif edirdi. Bu danışıqların mahiyyətini aydınlaşdıran, tarixi stenoqram ilə tanışlıq indi çox mətləblərə işıq salır. Gəlin diqqətlə oxuyaq: ŞAHMALIYEV: - Siz ermənilər görürsünüz ki, biz buraya hökumətə mədh və tərif demək üçün gəlməmişik, biz açıq deməyə gəlmişik ki, dövlət adamları terrordan qorxub erməni tərəfini müdafiə edirlər. Belə vəziyyətə səbr və davam etmək olmaz.

Bundan əlavə, belə işlər bizim də camaatı xarab edir. Bizim də camaatımız bu fikirdədir ki, hökumət və dövlət kişilərini qorxu və hədə ilə vahiməyə salsınlar, bəlkə bundan sonra onlar insafla iş görsünlər. Biz bunu deməyi borc bilirik ki, nə qədər terror var, sülh mümkün deyil.

ARTYUNOV: - Biz buraya sülhdən ötrü cəm olmuşuq və müsəlmanların bu məsələsini qaldırmaları sülhə əsla kömək eləməz. Harada və nə vaxt hökumət adamları terrordan qorxub müsəlmanlara cəbr ediblər? Öz tərəfimdən mən elə bir iş görməmişəm. Biz gərək burada danosçuluq etməyək. Biz jandarma deyilik. Jandarmalar özgə yerlərdədir. Buna görə gərək bu məsələ barəsində əsaslı danışıq olsun.

ƏLİMƏRDANBƏY TOPÇUBAŞOV: – Biz gözlərimizi bağlayıb kor ola bilmərik. Bizi bu məsələni qaldırmağa bizim

vəziyyətimiz vadar edir. Vətənimizdə elə bir vəziyyət yaranıb ki, hökumət kişiləri öz insaf və ədalətlərinə iş görə bilmirlər. Əlbəttə, böyük yerlərdə hədə və qorxu kağızlarına etina etmirlər. Lakin vilayətlərdə kiçik qulluqçular belə kağızlardan qorxub işlərini insaf üzrə apara bilmirlər. Onların təqsiri nədir?

Onlara deyəndə ki, niyə belə iş görürsünüz? Cavab verirlər ki, qorxuruq, külfətimiz var!

Biz də ancaq onu deyirik ki, vəziyyət elə olsun ki, bu cür qulluqçular qorxmayıb daha insafsızlıqlarına son qoysunlar.

KALANTAR: – Biz ermənilər müsəlmanların sözlərini əsla anlamırıq. Gah qoşundan, gah qəzetdən, gah hökumətdən şikayət, gah da erməni əsgərlərinin götürülməsini tələb edirlər. Gah bəzi firqələrin götürülüməsini deyib terrordan və firqədən qoxurlar. Biz də çox deyə bilərik, lakin demirik. Çünki yaxşı adamlar (?) bəzi şeylər barəsində əsla gərək danışmasınlar. Çünki bu cür məsələlərin işə dəxli yoxdur. Keçək əsl mətləbə.

GENERAL MALAMA: – Keçək-keçək (M.S.Ordubadi. Qanlı sənələr. Bakı, 1991, s.113-114).

Ümumiyyətlə, 1914-cü ilə - I Cahan savaşına qədərki dövrdə Ə.Topçubaşov Rusiya siyasi mühitində xüsusi fəallıq göstərir, bu imperiya daxilində yaşayan müsəlman əhalisinin taleyini düşünür, ölkədaxili iqtisadi-siyasi islahatların aparılmasını vacib məsələ sayırdı. Bu mənada rəsmi siyasi dairələrdə, I Dumanın işində aktivlik göstərən Ə.Topçubaşov Çar Rusiyası üçün arzuolunmaz şəxs hesab edilir, onun fəaliyyəti məhdudlaşdırılırdı. Bu mənada V.Quliyevin bir müşahidəsi diqqətəlayiqdir. O yazır: hakim dairələrin həbs və digər təzyiq yolları ilə Ə.Topçubaşovu ölkənin siyasi həyatından, həmvətənlərinin hüquqları uğrunda mübarizədən uzaqlaşdırmaq cəhdləri uğurla nəticələndi. Əksinə, təzyiq və təqiblər onun nüfuzunu daha da artırdı. Maraqlı bir detal: Ə.Topçubaşov Dumaya seçilmədiyi halda II və III Dövlət Dumalarında və Müsəlman Traksiyasının bürosuna rəhbərlik etmişdir. Müsəlman deputatlar mühüm sənədlər hazırlananda bu və ya digər qanun layihəsinə fraksiyanın münasibəti bildiriləndə onunla məsləhətləşib, rəyi ilə müt-

ləq hesablaşırdılar. 1907-1912-ci illər ərzində Ə.Topçubaşov dəfələrlə Peterburqda olmuş müsəlman fraksiyası bürosunun iclaslarında sədrlik etmişdir (Xalq qəzeti, 6 aprel 1997-ci il).

İctimai-siyasi mühit və tarixi zamanın qeyri müvafiq olmasına baxmayaraq Ə.Topçubaşov digər müasirləri H.Zərdabi, M.Şahtaxtlı, Ə.Ağayev, Ə.Hüseynzadə, C.Məmmədquluzadə və başqaları ilə birgə Azərbaycanın istiqalalını düşünür, xalqının milli haqlarını qoruyur, vətənində yenilikçilik və müasirlik hərəkatının təmin olunmasına çalaşır, xüsusilə maarifçlik düşüncəsinin, yeni məktəbdarlıq işinin və mətbuatın canlanmasına səy göstərirdi. Məhz Ə.Topçubaşov və onun müasirlərinin tarixi xidmətinin nəticəsidir ki, XX əsrin əvəllərində Azərbaycanda milli maarifçilik konsepsiyası formalaşıb dünyəvi elmlərin tədrisi gücləndirilir, "üsuli-cədid" məktəblərinin sayı artır, kapitalizmin tərəqqisi sayəsində "neft və milyonlar səltənətinə" çevrilən Azərbaycanın tarixi taleyi həll olunurdu. Dövrünün həmin xarakterik cəhətlərini nəzərə çatdıran Ə.Topçubaşov 1918-ci ildə milli intibahın əsas xüsusiyyətləri haqqında yazırdı. "1905 sənəsi zərfində Bakı şəhəri daxilində bir "islam cəmiyyəti-xeyriyyəsi" təsisi müsaidəsi güc - bəla bir çox müraciət və istihamlardan (yalvarışlardan) sonra rus idarəsindən istehsal oluna bilmişdir. Qəzetə nəşri, kitab təbi milli lisandə teatro güşad və təsisi rus bürokrat məmurlarının ən zalımanə və şiddətli sansuru (senzoru) altında bulunmaqda və şiddətli təqib edilməkdə idi.

Lakin, bütün dünyaya dəhşət salan katolik, inkizisyon (katolik - inkvizisiya) dövrü əzani - bəşəri (insan cəmiyyəti üzvləri) imha (məhv etmə) üçün icad və tətbiq elədiyi zalımanə tədbirləri ilə nasıl məqsədinə müvəffəq olmuyaraq, aləmi - bəşəriyyət böyük "Qaliley"in ağzı ilə zalımlara və zülmət xadimlərinə qarşı protesto etmiş və Qalileyin: "Lakin, ərz yenə hərəkət ediyor", cümleyi - peyğəmbəranəsi nuri - elm ilə bu protestyonu təmhir (təsdiq) və təsbit etmiş isə, bitəb çarın "cahil və rüşvətçi məmurlarının" da eyləcə sansur təftişatı və tədavili - məniyyəsi (maneçilik tədbirləri) ilə məqsədlərinə iri-

şəmiyəcəkləri (yetişməyəcəkləri) və aləmi - islamın və islamiyyətlə mütədəyyin millətləri son zamanlarda girdikləri qurtarıcı oynaqlıq yolunda göstərməyə başladıqları asari - təyəqqüz (gözü açılmaq) və inkişafı durduramayacaqları pək bədihi (aydın) olmaq icab (vacib) edərdi.

Bütün bu maneələrə rəğmən iyirmi beş milyonluq Rusiya müsəlmanları və bunlar içində həpsindən əvvəl Azərbaycan türkləri "mədəni-dini və siyasi hürriyyət əfkari - nəcibə və aliyəsindən (nəcabətli və yüksək fikirlərdən) bitəb uzaq qalamazlardı. Hürriyyət fikirləri Rusiyaya Qərbi Avropadan XIX əsr ibtidalarında girmiş və rus millətinin təbəqati - aliyəsinə (yüksək təbəqələrinə) nüfuz etdiyi kibi, 1860 tarixindən sonra digər millətlərin də təbəğati - müxtəlifəsinə kür (canavar) kibi təsir-icra eləmişdi.

İş bu əfkari - aliyənin füyuzatından (müvəffəqiyyətlərindən) hissədar olmaq və intifa edə bilmək (xeyir görmək) üçün hər birimizin nəzərində əyan idi (aşkar idi ki) hər şeydən əvvəl, "mərefəti - nəfsə" və "mərefəti - millətə" lüzum vardır; kəndi millətini, tarixini, bu günkü vəziyyətini, ehtiyaclarını, fikir və xəyallarını bilmək, hasili "milli şəxsiyyətini" (mənliyini) ishar etmək iqtiza etməkdədir (lazım gəlməkdədir) (Azərbaycanın təşəkkülü. "Hərbi bilik" jurnalı, № 4, 1996, s.85).

Göründüyü kimi şəxsin, fərdin inkişafını millət və xalq intibahı ilə vəhdətdə götürən Ə.Topçubaşov ümumxalq ehtiyaclarından çıxış edir haqq və ədalətə əsaslanan cəmiyyət quruculuğunu ön plana çəkir, milli istiqlalı azad və yetkin şəxsiyyətlə əlaqələndirirdi.

Ə.Topçubaşov da digər müasirləri kimi XX əsrin əvvəllərində inqilablar dalğasının gətirdiyi ümummilli iztirabları yaşayır, süqut etməkdə olan çarizmin törətdiyi çətinliklərdən çıxış yolları arayıb, yaranmış ictimai - tarixi və siyasi vəziyyətin təhlilini mühüm vəzifə sayırdı. I Dünya müharibəsindən sonra xeyli zəifləyən çar Rusiyası nəinki ucqarlara, hətta mərkəzi məntəqələrə də nəzarətini əvvəlki kimi saxlaya bilmir, getdikcə güclənməkdə olan siyasi mübarizənin və ümumxalq intibahının qarşısını ala bilmirdi və buna görə də inqilabi - demokratik proseslərə geniş meydan açılır, "Kommunizm kabusu" bütün Rusiyanı xofda saxlayıb, xüsusilə avropadan əsən "azadlıq, bərabərlik, qardaşlıq" duyğularının yaratdığı siyasi romantika ictimai-mədəni islahatların zəruriliyini ortaya qoyurdu. Beləliklə, 1917-ci ilin fevral burjua və oktyabr sosialist inqilabları yaxınlaşır, çar müstəmləkəsi sayılan bölgələrdə öz milli müqəddəratını təyin etmə hüququ aktallıq kəsb edir, xalqlar müstəqilik ruhunun gücü ilə suveren dövlət quruculuğuna səy göstərirdilər. Ədəbiyyatşünas alim Vilayət Quliyevin də göstərdiyi kimi həmin dövrdə çarizmin süqutu Ə.Topçubaşovun yenidən böyük siyasətə qayıtmasına təkan oldu. 1917-ci il martın 6-da onun səsi artıq Bakıda öz işinə başlayan Ümumqafqaz müsəlmanlarının qurultayından gəlirdi. Qurultayı giriş sözü ilə açan Ə.Topçubaşov deyirdi: "Rusiyada yaşayan qeyri-rus xalqlara münasibətdə köhnə rus hökuməti ayrıseçkilik siyasəti yürüdürdü, bu xalqları bir-birinin üzərinə qaldırmaq siyasəti yürüdürdü. Ermənilərlə müsəlmanlar arasında toqquşma da insana nifrət üzərində qurulmuş bu siyasətinin nəticəsində meydana çıxmışdır. Əgər azərbaycanlılar və onların ardınca Qafqazın digər xalqları azadlığın və yeniləşmənin həqiqi yoluna çıxmaq istəyirlərsə, onlar Müəssislər Məclisinə birlikdə ümumi istək və ideallarla getməlidirlər". Hələ 1905-ci ildən Qafqaz seymi ideyasını irəli sürən Ə.Topçubaşov bu qurultayda da köhnə istibdad rejimindən birdəfəlik xilas olmaq, özlərinin müstəqil, demokratik, hüququ dövlətlərini qurmaq üçün Qafqaz xalqlarının nümayəndələrini qarşılıqlı etimada, iş birliyi və ərnakdaşlığa səsləyir. Regionun xilasını yalnız burada məskunlaşan toplulukların həmrəyliyində görürdü. Bu fikirlər özünü qurultayın qətnaməsində də tapmışdır. Lakin bizim günlərdə olduğu kimi 1917-ci ildə də erməni separtçlığı konsolidasiya ideyasının həyata keçirilməsinə imkan vermədi. 1917-ci ilin mayında isə Ə.Topçubaşovun səsi artıq Rusiya müsəlmanlarının Moskva qurultayından gəlir. Mayın 1-dən 11-nə qədər Moskvada azərbaycanlı milyoner Şəmsi Əsədullayevin paytaxt mü-

səlmanlarına hədiyyə etdiyi əzəmətli binada keçirilən bu tarixi qurultayın da aparıcı simalarından biri Əlimərdanbəy idi. Qurultayın on iki nəfərlik rəyasət heyyətində azərbaycanı o təmsil edirdi. Müvəqqəti hökumətin nümayəndəsi Əcnəbi Məzhəblər Komitəsinin sədri professor S.A.Kotlyarevskinin təbrik nitqi qarşısında cavab sözünü də Ə.Topçubaşov söyləmiş, keçmiş imperiyanın türk və müsəlman əhalisinin fevral inqilabından sonrakı istək və tələblərini bütün ciddiliyi ilə Kerenski hökumətinə çatdırmışdı. (Xalq qəzeti, 6 aprel, 1997-ci il). Çar Rusiyası ərazisində yaşayan xalqların taleyində 1917-1920-ci illər öz qaynar mahiyyəti, ziddiyyətli məqamları ilə uzun müddət tədqiqə və mübahisələrə səbəb olacaq. Lakin bir həqiqəti heç zaman danmaq, gizlətmək, təhrif etmək mümkün deyil. O da bundan ibarətdir ki, həmin dövrdə-sovet ideoloji aparatı tərəfindən təhrifə məruz qalan, "qadağan zonası" elan edilən həmin üç ildə bu ərazidə yaşayan xalqlar, o cümlədən azərbaycanlılar azadlığın "dadını" tanıdılar, dünyaya milli kimliyini, müstəqil dövlətini bəyan edə bildilər. Ancaq siyasai qüvvələrin məqsəd ayrılıqları və düşüncə müxtəlifliklərı, habelə imperiyapərəst qüvvələrin irticaçı niyyətləri, ikihakimiyyətlilik şəraiti və digər səbəblərdən xatırlanan üç il ərzində Azərbaycan da daxil olmaqla Rusiya ərazisində və çevrəsində ictimai-siyasi gərginlik son həddə çatırdı. Azərbaycanın mütəfəkkir oğulları və ictimai-siyasi xadimləri zamanın bu dramatik səciyyəsini düzgün dərk edir, imperiya mərkəzindən törədilən milli münaqişələrin qarşısını almağa çalışır, sinfi mübarizə adı altında aparılan millətdaxili qırğının aradan qaldırılmasını məqsəd seçir, humanizm və beynəlxalq hüquq çərçivəsində davranmağı məqsədəuyğun sayırdılar. Ə.Topçubaşovun həmin illərdəki səmərəli fəaliyyətinə aydınlıq gətirən V.Quliyev yazır: Ə.Topçubaşov göstərirdi ki, bu hadisələri "yalnız Qafqaza məxsus məsələlər saymaq olmaz bu bütün müsəlmanların və rusiyanın taleyi ilə bağlıdır". O, "ən çox əzilən və təzyiq görən Qafqaz müsəlmanlarının" çar üsul - idarəsinin süqutundan sonra da eyni vəziyyətdə qalmasını dözüməz hal sayır və keçmiş

imperiyanın bütün müsəlman əhalisini bu məsələdə Müvəqqəti hökumətə təzyiq göstərməsini tələb edirdi. Hadisələri bir qədər qabaqlayaraq demək lazımdır ki, 1918-ci ildə Bakıda, Şamaxıda, Qubada, Qarabağda, İranda, Qarsda və s. cərəyan edən dəhşətli hadisələr, ermənilərin nəzarətində olan Bakı Kommunasının və Sentrokaspi diktaturasının törətdiyi qanlı cinayətlər Əlimərdanbəyin xəbərdarlığının real əsası olduğunu göstərirdi. Qurultay regionda yaranmış qorxulu vəziyyətlə Müvəqqəti hökuməti daha yaxından tanış etmək və təcili tədbirlər görülməsinə nail olmaq üçün dərhal Əlimərdanbəy Topçubaşovun rəhbərliyi ilə Peterburqa səlahiyyətli nümayəndə heyətinin göndərilməsi barəsində yekdilliklə qərar çıxardı. Heyətin tərkibinə polkovnik Hacı Murad, Mirzə Əsədullayev, Səlim Girey Canturin, Xeyransa xanım Axundova, habelə Peterburqdakı fəhlə və əsgər deputatları sovetinin üzvü Sultanbəy Məmliyev daxil idi. Seçilmiş nümayəndələr qurultayın sona çatmasını gözləmədən mayın 9-da Peterburqa yola düşdülər. Müvəqqiti hökumətdən bir sıra ümidverici vədlər alınsa da, ölkədə yaranmış anarxiya şəraitində onları həyata keçirmək mümkün olmadı ("Xalq qəzeti" 6 aprel 1997-ci il). Artıq həmin vaxtda rus imperatorluğunun çökməsi zərurətini mükəmməl şəkildə dərk edən və birmənalı qiymətlənldirən Azərbaycan ziyalıları, dövlət və siyasət xadimləri vəziyyətdən çıxış yolu arayır, illərdən bəri arzuladıqları müstəqil dövlət ideyasını gerçəkləşdirməyin zamanı gəldiyini görürdülər. Cəmiyyət həyatının daxili inkişaf dinamikasını və çevrədəki siyasi mühit faktorlarını nəzərə alan Azərbaycan münəvvərləri ölkənin və xalqın mənafeyindən çıxış edib müxtəlif səbəblərdən yarana biləcək siyasi diversiyanın qarşısını almağa çalışır, beynəlxalq təzavüz imkanlarını zərərləşdirir, əhalinin ən çox əziyyət çəkdiyi iqtisadi çatışmazlığın mahiyyətinin izah edir, Qarabağla bağlı faciələrin aradan qaldırılmsını, bu hadisələrin dramatizmini sona çaidırmağın başlıca məqsəd sayırdılar. Buna isə müstəqil dövləti olmayan əməl etmək mümkün deyildi. Odur ki, "Azad xalq, müstəqil dövlət və bütöv vətən" ileyasını 1828-ci ildən – "Gülüstan"

müqaviləsindən sonra uzun illər həyata keçirməyi arzulayan Azərbaycan xalqının adından bir qrup ziyalılar 28 may 1918-ci ildə İstiqlaliyyət bəyənnaməsi imzaladılar. Bəyannamənin Ə.Topçubaşovun şəxsiyyəti və fəaliyyətinə bilavasitə aidiyyatı olduğu üçün onun mətnini olduğu kimi nəzərə çatdırmağı vacib bilirik. Orada deyilirdi: ***"Azərbaycan istiqlalın mübəyyin əqdnamə*** (28 may 1918-ci il).

Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə, Zaqafqaziyanın Rus orduları tərəfindən tərkinə mövcud bir vəziyyəti - siyasiyə hasil oldu. Kəndi qüvveyi - məxsusilərinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə osmanlı imperatorluğu arasında zühur eden müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti - hazireyi - siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi - Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumuna təlqin ediyor.

Buna binaən arayi - ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi - Milliyyəyi - İslamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1.Bu gündən etibarən Azərbaycan xalqı hakmiyyət həqqinə malik olduğu kibi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamilə hüquq müstəqil bir dövlətdir.

2.Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor.

3.Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibətihasənə təsisinə əzm edər.

4.Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovunda yaşayan bütün

vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5.Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geyiş meydan buraxır.

6.Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqəti durur.

Bu əqdnamə 1918 sənəsi mayis ayının 28-də Tiflisdə elan olunmuşdur (Bax. Азербайджанская Республика. Документы и материалы 1918-1920 г. Баку, изд. "Элм", 1998, с.12).

Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra onu qoruyub saxlamaq və dünya dövlətləri sırasında yerini müəyyənləşdirmək əsas vəzifələrdən sayılırdı. Ə.M.Topçubaşov AXC dövründə 06.10.1918-ci il tarixli kabinədaxili dəyişikliklərdən sonra II kabinədə Xarici İşlər Naziri vəzifəsini tutmuş və ölkənin xarici diplomatiya sahəsində ən səriştəli mütəxəssis kimi yüksək qiymətləndirilmişdir. Azərbaycanı dünyaya tanıtmaq, onun iqtisadi və mədəni, ictimai-tarixi həqiqətlərini və siyasi məqsədlərini beynəlxalq aləm tərəfindən qəbul etdirmək mühüm strateji əhəmiyyət daşıyırdı və bu işdə Ə.Topçubaşovun əməyi hazırda da diqqətəlayiq örnək rolunu öynamaqdadır. Ə.M.Topçubaşov Xarici İşlər Naziri kimi 1918-ci ilin noyabrında hazırladığı "Memorandum"da Azərbaycanın tarixi, coğrafiyası, iqtisadiyyatı, mahiyyəti və mövcud ictimai-siyasi həyatı barədə ətraflı bəhs edirdi. Antanta dövlətlərinin İstanbulda yerləşən fəxri nümayəndələrinə və digər diplomatik missiyanın üzvlərinə "Memorandum"u təqdim dən Ə.M.Topçubaşov müxtəlif Avropa ölkələrinin, Rusiya, İran, Türkiyə, Amerika dövlətlərinin rəsmi nümayəndələri ilə görüşlərində və diplomatik davranışlarında Azərbaycan gerçəklərini, onun ərazi və əhalisinin taleyini diqqət mərkəzinə çəkirdi. Bu gün Ə.M.Topçubaşovun "Azərbaycanın təşəkkülü", "İstanbulda diplomatik söhbətlər" (1918-1919), "Parisdən məktublar",

"Memorandum" əsərləri və bir sıra məqalələri Azərbaycanın ictimai-siyasi fikir tarixini öyrənmək və taleyini müəyyənləşdirmək baxımından son dərəcədə əhəmiyyətli materiallardır. Bu əsərlər indi həm AXC ilə bağlı şəxsiyyətlərin, milli dövlətçilik təcrübəmizin, həm də Ə.Topçubaşovun taleyini araşdırmağın etibarlı mənbələri kimi son dərəcədə qiymətlidir. Dövrün tarixi sənədlərini tədiq edərkən məlum olur ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclası 1918-ci il dekabr ayının 3-nə nəzərdə tutulsa da, dekabrın 7-də H.Z.Tağıyevin ünas qız məktəbində (indiki Əlyazmalar institutunun binasında) keçirildi və M.Ə.Rəsulzadənin təbrik nitqindən sonra Şəfi bəy Rüstəmbəylinin təklifi ilə bitərəf hüquqşünas kimi Ə.M.Topçubaşov sədr, müsavat partiyasının üzvü, hüquqşünas Həsən bəy Ağayev onun birinci müavini seçildi. Həmin vaxt Ə.M.Topçubaşov Bakıda olmadığından, İstanbulda diplomatik danışıqlarda Azərbaycan hökumətinin nümayəndəsi kimi iştirak etdiyindən parlamentin iclaslarına rəhbərlik Həsən bəy Ağayevə həvalə olunmuşdu.

Əslən Gəncədən olan məşhur siyasi xadim və həkim Həsən bəy Ağayev (1875-1920) Hacı Zeynaləbdin Tağıyevin vəsaiti hesabına Moskva Universitetinin tibb fakültəsini bitirmiş və 1906-cı ildə Bakıya gələrək ilk müsəlman sosial-demokratik təşkilatına daxil olub, təşkilatın tapşırığı ilə müəllifi anonim saxlanan "Mülk-sinif-firqə" adlı kitabı rus dilindən tərcümə edib, Tiflisdəki "Qeyrət" mətbəəsində 1906-cı ildə nəşrinə nail olmuşdu. 1906-1907-ci illərdə İrana mühacirət edən H.Ağayev 1907-ci ildə vətənə qayıdır və həmin ildə Qafqaz müsəlman müəllimləri qurultayının mərkəzi komitəsinin sədri seçilir. 1911-1912-ci illərdə Gəncədə rusca çıxan "Yujnı Qafqaz" adlı qəzetin redaktoru, 1917-ci ildə Gəncədə yaradılan "Türk-ədəmi-mərkəziyyət" partiyasının banilərindən biri olur və 1920-ci il aprel ayında AXC devrildikdən sonra muzdlu qatil gülləsi ilə öldürülən Azərbaycan hökumətinin başçısı Nazirlər Şurasının sədri Fətəli xan Xoyskidən düz bir ay əvvəl, iyulun 19-da Tiflisdə muzdlu qatil gülləsi ilə öldürülmüşdür.

Ə.M.Topçubaşov İstanbulda diplomatik missiyanı yerinə yetirərkən bir sıra çətinlik və ziddiyyətlərlə qarşılaşır, Azərbaycan haqqında yaranan yanlış təsəvvürləri dəf etmək, ona qarşı düşmən mövqelərin niyyətlərini aradan qaldırmaq, zəngin tarixi ənənələri olan Azərbaycanın beynəlxalq imicini formalaşdırmaq onun rəhbərlik etdiyi diplomatik heyətinin üzərinə düşmüşdü. Bunu "İstanbulda diplomatik söhbətlər" əsərindəki faktlar, müxtəlif ölkələrin səlahiyyətli nümayəndələri ilə rəsmi görüşlərdəki diplomatik danışıqlar əsaslı şəkildə təsdiqləməkdədir. Bu söhbətlərdə diqqəti çəkən bir sıra məqamlar çağdaş Azərbaycan diplomatiyası üçün son dərəcədə gərəklidir. Öz dövrünün ictimai-siyasi ab-havasından çıxış edən Ə.Topçubaşov o dövrdə "müsəlman aləmində vahid bir dil-ərəb dili olmalıdır" fikrini tənqid edir, türk dili ailəsinin vahid kökə bağlı olmasını təhrif edənlərə ortaq türklük dəyərlərinə, ortaq türk mədəniyyətinə və bu kontekstdə Azərbaycan həqiqətlərinə kölgə salanlara qarşı çıxır, fəal vətəndaş, kamil diplomat məharəti ilə cavab verirdi.

Bu barədə tədqiqatçı Sona Vəliyevanın araşdırmasından bir parçaya diqqət edək: "Birinci Dünya müharibəsindən sonra dünya siyasətinə təsir imkanlarını xeyli artırmış ingilis hərbi elitasının nümayəndələri nəinki Azərbaycan haqqında elementar məlumatlardan xəbərsiz qalmışdılar, hətta Azərbaycan xalqının dövlət müstəqilliyinə hazırlıq məsələsinə də şübhə ilə yanaşırdılar. Amerikalı diplomat mister Braunla 23 dekabr 1918-ci il tarixli söhbətində də Əlimərdan bəy bu əcnəbini azərbaycanlıların erməni olmadıqlarına inandırmaqdan ötrü xeyli əmək sərf etmişdi.

Təbiidir ki, Azərbaycanın dünya xalqları arasında lazımınca tanıdılmaması, onun haqqında yanlış informasiyaların yayılması bir yandan erməni lobbisinin məqsədyönlü siyasətinin, digər tərəfdən isə ziyalılarımızın yetərli fəaliyyət göstərməmələrinin nəticəsi kimi qiymətləndirilməlidir. Lakin bu cəhətdən ən qısqanc və radikal mövqeyi İranın şahlıq rejimi turdu ki, Topçubaşovun qeydlərindən bu haqda kifayət qədər

geniş informasiya almaq olar. İran diplomatları o dövrdə yeni qurulmuş milli hökumətimizin öz doğma adı ilə "Azərbaycan" adlanmasının belə əleyhinə çıxış edirdilər. 1918-ci ilin 16 noyabrında İranın Türkiyədəki səfiri Mirzə Mahmud xanla görüşən Topçubaşov belə bir predmetsiz dialoqa sövq edilir:

"İran səfiri: Ancaq siz öz dövlətinizi "Azərbaycan" adlandırmısınız, bəs bu nə məna daşıyır? Bu, sizin hazırda İran hüdudlarında yerləşən həqiqi Azərbaycana idiialarınızı göstərmirmi?

Mən: Qafqaz azərbaycanlılarının belə iddiaları yoxdur və heç zaman da olmamışdır. Axı, bu coğrafi termindir: Azərbaycan İranda da mövcuddur, Qafqazda da.

O: Xeyr, ekselans. Burada məsələ coğrafiyadan daha genişdir. Daha sonra, Siz özünüzü Azərbaycan türkləri hesab edirsiniz. Halbuki Azərbaycanda-ümumiyyətlə, nə Qafqazda, nə də İranda türklər yoxdur: hamı farsdır; sizin atalarınız və babalarınızın hamısı fars olmuşlar" (S.Vəliyeva. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası. Bakı, "Azərbaycan", N., 2003, s.40).

Ə.Topçubaşov 1918-1919-cu illərdə İstanbulda olarkən burada yerləşən beynəlxalq diplomatik korpusun çoxsaylı nümayəndələri ilə tez-tez görüşdə Azərbaycanın paytaxtı Bakı şəhərinin erməni-bolşevik birləşmələrindən azad edilməsi, Qarabağın taleyi, ölkəmizin beynəlxalq aləmdə tanıdılması məsələləri ilə ardıcıl məşğul olurdu. Türkiyə sədr-əzəmindən tutmuş müxtəlif nazirlər, onların müavin və müşavirləri, habelə İstanbuldakı Rusiya, Avropa, Amerika, Hollandiya və s. səfirliklərinin nümayəndələri ilə söhbətlərində ermənipərəst qüvvələrin siyasi məkrlərini dəf etmək üçün Ə.Topçubaşov gərgin iş aparır, siyasi informasiya mübadilə və mübarizəsində uğurlu diplomatik ustalıq nümayiş etdirir, erməni terrorizminin mahiyyətini açıqlayır, azadlıqsevər Azərbaycan xalqının müstəqil, suveren dövlət qurmaq istəyinin haqlı olduğunu müxtəlif siyasi dairələrin nəzərinə çatdırırdı. Faktları təhrif edən, hadisələrə obyektiv mövqedən yox, məhz öz mənafeyi baxımından yanaşan, erməni siyasəti nümayəndələrinin və onların təəssübkeşlərinin yalanları, iftra və böhtanları həmin illərdə diplomatik kanallarda ayaq açıb yerisə də Ə.M.Topçubaşovun fəaliyyəti sayəsində əsaslı dəlil, sübutlarla təkzib olunur, dünya ictimaiyyətinə Azərbaycan haqqında doğru, dürüst məlumat çatdırılır, xalqımızın tarixi, gerçək həyatı, mədəniyyəti, ölkəmizin coğrafiyası, iqtisadiyyatı və s. barədə ətraflı tanışlıq yaradılır, onun sivil dünyanın layiqli üzvü olmağa haqqı təsdiqlənirdi. Bu mənada Ə.M.Topçubaşovun "İstanbulda diplomatik söhbətlər" əsəri sadəcə ədəbi-tarixi memuar səciyyəsi daşımır, həm də Azərbaycanda diplomatik düşüncənin özünəməxsusluğunu etiva edir, vətən, xalq, dövlət təəssübünün tarixi həqiqətlərinə aydınlıq gətirir.

Ə.Topçubaşovun "İstanbulda diplomatik söhbətlər" (1918-1919) əsrindən məlum olur ki, həmin vaxt dünyanın nüfuzlu dövlətlərində, Paris sülh konfransında həlledici səs sahibi olan dövlətlərdə Azərbaycan xalqının mədəni səviyyəsi, həyat tərzi və s. haqqında informasiyalar kifayət qədər tutqun və yetərsiz olmuşdur. 1918-ci ilin 19 noyabrında ingilis polkovniki Tamplla görüşün mətni bunu əyani surətdə əks etdirir:

"polkovnik: Deyirsiniz Azərbaycandansınız. Eləmi, cənablar?

Biz: Bəli, cənab polkovnik.

Polkovnik: Bir halda ki, Azərbaycan İranda yerləşir, deməli, siz farssınız. Deyilmi?

Biz: Xeyir, cənab, biz Qafqaz Azərbaycanındanıq.

Polkovnik: Bu, Bakı və onun ətraflarıdır, deyilmi?

Biz: Bəli, məhz Bakı, Yelizavetpol, Zaqatala quberniyaları və s.

Polkovnik: Sizin ərazinizin ölçüləri necədir?

Biz: 85-90 min kvadrat kilometr".

Daha sonra polkovniklə Topçubaşovun mükaliməsi aşağıdakı şəkildə davam edir:

"...Polkovnik: Sizin xalqınız osmanlılardan daha çoxmu inkişaf etmişdir?

Biz: Müqayisə olunmayacaq dərəcədə.

Polkovnik: Sizdə savadlıların faizi nə qədərdir?

Biz: 25

Polkovnik: Mən ehtiyat edirəm ki, sizin ölkəniz müstəqil həyata tam hazır deyildir. Ölkənizi ruslar işğal edənədək siz kimin hakimiyyəti altında olmusunuz?

Biz: Nadir şahın hökmdarlığı dövründə biz fars hakimiyyəti altında yaşamışıq. Şahın ölümündən sonra fars anarxiya hakimiyyəti Qafqazda kiçik, lakin tam müstəqil xanlıqlara parçalanmışdır.

Polkovnik: Ölkəniz hansı dövrdən işğal olunmuşdur?

Biz: 1813-cü ildən başlayaraq.

Polkovnikin müavini: Siz nail olduğunuz inkişafa görə özünüzü rus mədəniyyətinə borclu bilmirsinizmi?

Biz: Biz bunu inkar etmirik, rus işğalının ilk illərində bu, bizə müsbət təsir göstərmişdir, lakin son vaxtlar öz azadlıq yolumuzu yaxşı görə bilməyək deyə rus hökuməti amansızlıqla bizi inkişafdan saxlamağa çalışırdı" (Geniş bax: S.Vəliyeva. Göstərilən əsəri, s.39-40).

İstər "Memorandum" və "İstanbulda diplomatik söhbətlər", istərsə də "Paris məktubları"nda (mart-dekabr 1919) Ə.M.Topçubaşov yalnız diplomatik məharəti ilə seçilən siyasi xadim, dövlət və hökumət adamı kimi yaddaşımıza hakim kəsilmir, həm də vətənə, xalqa və dövlətinə bağlı yüksək vətəndaş duyğuları ilə yaşayan, onun simvoluna çevrilə bilən əzabkeş qəhrəman obrazı ilə ucalır. İztirablarda dolu bir ömürün mühacirətdə, qərib ölkədə keçən günləri ona narahatlıq, nigaranlıq acıları çəkdirsə də vətəni, xalqı və dövlətinin xaricdə-vətəndən çox-çox uzaqlarda, Avropa və bir sıra digər məmləkətlərdə sözun həqiqi mənasında simvoluna çevrilmək kimi tale xoşbəxtliyini nəsib etmişdi. Azərbaycanın tale ağrılarını şəxsi həyatında bütün dramatizmi ilə yaşayan Ə.Topçubaşovun kimliyi və milli tariximizə aydınlıq gətirdiyi üçün, habelə yüksək müasirlik əhəmiyyəti kəsb etdiyinə görə yenə böyük bir sitata müraciət edirik: İranın xarici işlər naziri, müşavirüləvvəl

Məmalik Əli Qulu xan da Əlimərdan bəylə 1919-cu il yanvarın 9-dakı görüşündə Azərbaycana zidd mövqedə dayanır:

"Mən: Bu barədə sizin səfiriniz də bəyan etmiş, birbaşa demişdir ki, biz guya Azərbaycan dövlətini türk xadimlərinin diqtəsi altında yaratmışıq və onların da məqsədi guya Azərbaycan adından istifadə edərək, İran Azərbaycanını ələ keçirməkdir. Bu məni həddən artıq təəccübləndirir; zira bizim İran Azərbaycanına qarşı heç bir iddiamız yoxdur və biz sizdən dostluq və dəstəkdən başqa heç nə gözləmirik. Bir halda ki, siz nə Ermənistan, nə Gürcüstan respublikalarına qarşı çıxmırsınız, onda bizim əleyhimizə niyə çıxasınız?

Nazir: Tamamilə doğrudur. Biz sizin müstəqilliyinizi xüsusilə arzulayırıq. Sizin söylədikləriniz yalnız "Azərbaycan" sözündən doğmuş anlaşılmazlıqdan irəli gəlmişdir. Bu cəhətdən, mənca, siz tərəfdən səhvə yol verilmişdir: axı, indiyədək "Azərbaycan" deyiləndə mərkəzi Təbriz olan bizim ərazilər nəzərdə tutulmuşdur. Ancaq məsələ bunda deyil. Siz müstəqilliyinizi necə saxlayacaqsınız? Axı, qonşularınız – ermənilər, gürcülər sizə düşməndir. Antanta ölkələri də Türkiyəyə görə inanmıram ki, sizi dəstəkləsinlər.

Nazirlə söhbətdən də rəsmən aydın olduğu kimi İran dövləti Azərbaycanın düşdüyü çətin vəziyyətdən sui-istifadə edərək Vətənimizin adını belə milli hökumətə çox görür, müxtəlif imkanlara işarə edərək, onun üzərində təsir və nəzarətlərini bərqərar etmək istəyirdilər. Nazirin öz təbiri ilə desək, doğurdan da, məsələ yalnız bir addan ibarət deyildi. Yanvarın 15-də İran XİN-in keçirdiyi qəbulda nazir öz dövlətinin əsl məramını açıqlamaqdan çəkinmir:

Nazir: Bilmirəm, sizin son qərarınız necədir, ancaq mənə belə gəlir ki, sizin Azərbaycanın məsələsi öz həllini İranla ittifaq və birləşmə mənasında sizin üçün daha əlverişli tapa bilər.

Mən: Necə?!

Nazir: İcazə verin, izah edim. Bununla mən heç də demək istəmirəm ki, siz Tehranın asılılığına düşəsiniz. Qətiyyən. Sizin Azərbaycan, əlbəttə, öz daxili muxtariyyətini saxlayacaq-

dır. Xarici vəziyyətə gəlincə, o, xüsusi aktla müəyyənləşəcəkdir. Bütün bunlar əlbət ki, konqresdə sənədləşəcək. Məsələyə yaxşı müdaxilə olunsa, bu cür həll yolu həm bizim üçün, həm də sizin üçün faydalıdır və Antantanın sanksiyasını ala bilər (Geniş bax: S.Vəliyeva. Göstərilən əsəri, s.40-42).

Azərbaycanın siyasi haqlarının tanınması yolunda mühüm xidmətlər göstərən Ə.Topçubaşovun diplomatik səylərinin nəticəsidir ki, 1918-1920-ci illərdə dünya siyasi elitasının diqqətini vətənimizə, onun problemlərinə yönəltmək mümkün oldu. AXC-nin yenicə elan olunması, Osmanlı imperatorluğunun I Cahan savaşından zəif çıxaraq süquta uğraması, İran monarxizminin Azərbaycan istiqlalına düşmən gözlə baxması, erməni separatizmi, təcavüzkarlığı və ona havadarların aktiv fəaliyyəti şəraitində Ə.Topçubaşovun məharətli diplomatik davranışları vətənimiz və xalqımız haqqında yaradılan səhv mülahizələrin, fikir və rəylərin aradan qaldırılmasına mühüm təsir göstərə bildi. Bunun nəticəsidir ki, Azərbaycan o zaman Paris Sülh Konfransında iştirak etmək hüququ qazandı.

Paris sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov Məmməd Həsən Hacınski (müavin), Əkbərağa Şeyxülislamov, Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Məhəmməd Məhərrəmov, Miryaqub Mirəhmədov, Abbasbəy Atamalıbəyov (məsləhətçilər), Əlibəy Hüseynzadə, V.Marçevski, (əməkdaşlar) S.Məlikov, Ələkbər Topçubaşov (kitablər), tərcüməçilər A.Qafarov (fransız dili), Q.Qafarova (ingilis dili), Rəşid bəy Topçubaşov, K.Məmmədov (fransız, türk dilləri üzrə sədrin şəxsi katibləri) ilə birgə fəaliyyət göstərirdi.

Xatırladım ki, Ə.Ağayev və Ə.Hüseynzadə Antanta ölkələri tərəfindən gənc türklər hərəkatı ilə əməkdaşlıqda ittiham

olunduqlarına görə Parisə gedə bilməmişdilər, hətta Ə.Ağaoğlu Malta adasına sürgün edilmişdi. Həmin məsələyə "Paris məktubları"nda aydınlıq gətirən Ə.Topçubaşov bildirir ki, ingilis və fransızların Ə.Ağayevi "arzuolunmaz şəxs" hesab etməsinin əsasında erməni məkri durur, çünki, ermənilər fransız və ingilis dilli mətbuatda, o cümlədən "Renaissanse" qəzetində Ə.Ağayev əleyhinə vicdansızcasına, çox kəskin kompaniya aparır və onu "Unionizm çempionu" adlandırır, türk Parlamenti və mətbuatında unionizmin aktiv tərəfdarı kimi qiymətləndirir, "İttihad və Tərəqqi" partiyasının dövlət kabineti və Ənvər paşa ilə əlaqədar işlərdə onu ittiham edirlər. Lakin Ə.Ağayevin Paris sulh konfransına "zəruri şəxs" kimi aparılmasına ciddi səylər göstərən Ə.Topçubaşovun zəhməti nəticəsiz qalır, hətta general Tomsonun zəmanət məktubu belə kömək etmir. Həm də Ə.Ağayevin bir həftə sonra ciddi xəstələnməsi Əlimərdan bəyin onsuz getməsinə səbəb olur.

12 yanvar 1920-ci ildə Azərbaycan nümayəndə heyətinin 8 aylıq işindən sonra Versal sülh konfransının ali Şurası Azərbaycanın de-fakto tanınması haqqında qərar verdi. Lakin az müddət sonra 1920-ci il aprel ayının 28-də bolşevik istilası Azərbaycanın başı üstünü aldıqda milli müstəqillik itirildi və Ə.Topçubaşov ömrünün mühacirət günlərini yaşamağa məcbur oldu. Bir müddət Azərbaycan dövlətinin rəsmi nümayəndə heyətinin başçısı, sülhpərvərlik missiyasının rəhbəri kimi vətənə qayıtmaq üçün çalışsa da, buna müvəffəq ola bilmədi və 1920-ci ilin sentyabr ayında Cenevrədə Millətlər liqasının mənzil-qərargahına Azərbaycanın azadlıq, suverenlik və hüquqi dövləti haqqında memorandumu təqdim etdi. Ə.Topçubaşov Memorandumda Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik Ru-

siyası tərəfindən istilası əleyhinə çıxır, dünyanın bir sıra ölkələri tərəfindən de-fakto Tanınan anına Azərbaycan dövlətinin haqlarını qoruyurdu. Ə.Topçubaşovun 1920-ci ilin noyabrında Cenevrə Millət Liqasında, 1922-ci ildə Genuya və Lozanna Konfranslarında, 1923-cü ildə Londonda Azərbaycan adından danışması, onun haqlarını, siyasi müqəddəratını qorumaq baxımından son dərəcədə əhəmiyyətli tarixi faktlardır. Əlimərdan bəy Topçubaşov Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra mühacirət həyatını yaşamalı oldu və bir Azərbaycanın yox, bütövlükdə Avropada yaşayan Qafqaz əsilli mühacirlərin tərəfindən rəğbət qazanan və onların liderinə çevrilən şəxsiyyət kimi tanındı. Antisovet Qafqaz siyasi mühaciratının bir araya gəlməsi və onların siyasi-iqtisadi birlik və cəmiyyətlərinin yaradılmasında Ə.Topçubaşov mühüm rol oynamışdır. Mühacirətdə Azərbaycanın siyasi haqlarının qorunması yolunda əzmlə çarpışan Ə.Topçubaşov milli birlik, Azərbaycançılıq qayəsi, müstəqil dövlət, azad vətən, milli mənəvi əxlaq, mədəni dəyərlər məsələsinə gündəlik iş və həyatında, məqalələrində xüsusi yer ayırırdı.

1934-cü ilin iyun ayında azərbaycan, gürcü, erməni və Qafqazın dağlı xalqları Ə.Topçubaşovun təşəbbüsü və iştirakı ilə "Qafqaz konfederasiyası" (indiki anlamda "Qafqaz evi") haqqında müştərək Pakt imzaladılar. Onları birləşdirən mətbu orqan isə məşhur "Prometey" jurnalı idi və sovetlər birliyinin basqasında yaşayan, əsirliyə, yeni müstəmləkəçiliyə düçar olan xalqların simvolu kimi Qafqaz dağlarına Zəncirlənmiş Prometey obrazı siyasi mühacirələrin, o cümlədən Ə.Topçubaşovun taleyi və tarixi düşüncə baxımından son dərcədə əhəmiyyətlidir.

Sözardı kimi bir məsələ ayrıca vurğulanmalıdır ki, Ə.Topçubaşov öz həyatını vətəninə həsr etdiyinə görə onun irsi və şəxsiyyəti yalnız siyasi intibah anlarında xatırlanmayacaq, təhlil və tədris məqsədilə öyrəniləcəkdir. Məhz həmin niyyətlə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda (indiki Prezident aparatı yanında Dövlət İdarəçilik Akademiyasında) 1997-ci ilin may ayında "Ə.Topçubaşov və Azərbaycanda parlament ənənələri" mövzusunda elmi konfrans keçirilmişdir.

1997-ci ilin aprel ayında Bakı Ali Diplomatiya Kollecində Ə.Topçubaşovun 135 illiyinə həsr edilən elmi-təcrubi konfransda onun dövlətçiliyimiz və diplomatiya tariximizdəki rolu diqqət mərkəzində olmuşdur. Bu və digər faktlar, xüsusilə irsinin nəşri, təhlil və təbliği bir daha təsdiqləyir ki, Azərbaycan xalqı var olduqca onun görkəmli diplomat oğlu, millətimizin şəxsiyyət simvollarından biri Əlimərdan Topçubaşovun da ruhu əbədi diri qalacaqdır, cismi mühacirətdə – Parisdə olsa da.

"Mədəniyyət dünyası" məcmuəsi,
Bakı, 2004, c.73-85

ƏHMƏD BƏY AĞAOĞLU*
(1868-1939)

Zəngin yaradıcılığı və müstəsna şəxsiyyəti ilə yalnız Azərbaycanın deyil, həm də ümumtürk və islam dünyasında, Şərq aləmində əhəmiyyətli yer tutan Əhməd bəy Həsən bəy oğlu Ağayev vətəninə, xalqına və mənsub olduğu milli mədəniyyətə xidmət baxımından fərqlənən tarixi şəxsiyyətdir. O, Azərbaycan ictimai-siyasi fikri, ədəbiyyatı və mədəniyyəti tarixində islahatçı-reformator ictimai xadim, mübariz və intellektual siyasətçi, nəzəriyyəçi alim, filosof, sosioloq, mətbuat xadimi, fəal publisist, tərcüməçi, yazıçı, ədəbiyyatşünas-tənqidçi, orientoloq-şərqşünas, teoloq-islamşünas kimi tanınır. Fenomenal bir şəxsiyyət olan Əhməd bəy Ağaoğlu öz zamanında yalnız Azərbaycanda deyil, bütövlükdə Qafqazda, Ümumrusiya ərazisində, Anadolu və dünya türkləri arasında, İranda və Türküstanda, islam dünyası və Şərq aləmində görkəmli mütəfəkkir kimi qiymətləndirilir, azadlıq və demokratiya ideyalarını yürüdən çoxsaylı əsərləri rəğbətlə oxunurdu.

***

Əhməd bəy Ağaoğlu 1868-ci ildə Şuşa şəhərində Qurtlareli qəbiləsindən Mirzə Həsənin ailəsində dünyaya göz açıb. Babası Mirzə İbrahim xəttat olub və azərbaycan, fars dillərində şeirlər yazıb. Atasının və əmisi Mirzə Məhəmmədin ərəb, fars və rus dillərini bilməsi onun ailəsinin öz dövrünə görə mükəmməl ziyalı ailəsi olduğunu təsdiqləyir. Anası Qarabağ köçəriləri içərisində məşhur olan Sarıcaalı ailəsindən Rəfi bəyin qızı Tazə xanım dövrünün savadlı qadınlarından olub.

* "Azərbaycan ədəbiyyatı tarixi"nin V cildi üçün yazılıb.

Elmə, təhsilə böyük rəğbət göstərən bir ailədə Əhməd bəyin alacağı ixtisas barədə müxtəlif fikirlər olsa da o yüksək təhsil ala bilir. Əvvəlcə Şuşa real gimnaziyasında erməni uşaqları ilə birgə çətin şəraitində ilk təhsilini alır, sonra orta məktəb təhsilini Tiflis şəhərində davam etdirməli olur. Bu zaman Tiflis şəhəri Çar Rusiyası Qafqaz canişinliyinin mərkəzi kimi məşhur idi və siyasi, elmi-mədəni mərkəz olaraq tanınırdı. Burada mətbuatın olması, gizli siyasi təşkilatların fəaliyyəti Əhməd bəy Ağaoğlunun da dünyagörüşündə azadlıq və müstəqillik rüşeymləri cücərməyə başlayır.

Ə.Ağaoğlu Tiflis litseyini böyük müvəffəqiyyət və 300 manat mükafatla bitirib Şuşaya dönür, az müddət sonra 1887-ci ildə ali təhsil almaq üçün Peterburqa yola düşür. Həmin ildə Peterburq Texnologiya İnstitutuna imtahan versə də Ağaoğlunu yəhudi kimi tanıyan professorun şovinist münasibəti üzündən sonuncu cəbr sınağından müvəffəqiyyət qazana bilmir və Fransaya – Parisə getməyə qərar verir.

Atasına teleqramla müraciət edən Ə.Ağaoğlu ondan az məbləğdə pul alır (150 manat) və Parisə gedir. 1888-ci ildə o Paris Hüquq Məktəbinin tələbəsi adını qazanır və çətinliklərlə də olsa yeni ictimai-mədəni mühitə düşən Ə.Ağaoğlu burada «Avesta»şünas C.Darmstaterlə, şərqşünaslar Şefer və Barbiye de Meynarla, yazıçı Mari Rabinzonla, Ernst Renan, İppolit Ten, Oppert, Delakrua ailəsi və Qaston Parislə tanış olur. Parisdə altı aylıq fransız dili məşğələlərindən sonra o, tələbə adını qazanır və onun dünyagörüşündə Qərb-Şərq qarşıdurmasına yeni obyektiv elmi münasibət formalaşmağa başlayır. XIX əsrin sonunda Fransada hüquq təhsili alan «Rusiya təbəəsi», sadə müsəlman Ə.Ağaoğlu XVIII əsr Fransası ilə yaxından tanış olur, D.Didro, Ş.Mönteskü̈ye, Volter, J.J.Russo kimi ümumbəşəri mütəfəkkirlərin dövlət, hüquq, cəmiyyət, ailə, din, əxlaq və s. barədə sosial-fəlsəfi irsini mənimsəyir, «Azadlıq, Bərabərlik, Qardaşlıq» cəmiyyəti uğrunda mübarizə aparan Fransa-

nın, bütövlükdə Avropanın ictimai-tarixi təcrübəsindən faydalanır. İnqilablar, üsyanlar baxımından yalnız Fransanın deyil, həm də Avropanın paytaxtı olan Parisdə bir tərəfdən 1789, 1793, 1848-ci il hadisələri, Paris kommunarlarının ictimai-siyasi mübarizəsi ilə yaxından tanış olur, digər tərəfdən Türkiyədən təzyiq və təqib səbəbindən buraya qaçan gənc türklər (jön türklər) və ittihadçılarla dostluq əlaqələri qurur, onların ideya və fəaliyyətlərini öyrənir. Parisdə Ə.Ağaoğlu «Kolej dö Frans» da təhsil görməklə yanaşı, həm də «Şərq dilləri» və «Şərq millətlərinin tarixi» kurslarında dinləyici kimi iştirak edir, kollecin müdiri Ernsf Renanın sevimli tələbəsinə çevrilir və az müddət sonra Sarbonnda hüquq fakültəsində dinləyici olur. Fransada təhsil dövründə Türkiyənin II Təhzimatını hazırlayanlardan ittihadçı Əhməd Rza, doktor Nazim və göz doktoru Əsət Paşa ilə Parisin məşhur Lüksemburq baxçasında çoxsaylı fikir mübadiləsi, onun sadə evini «başqalarının zəngin saraylarından üstün tutan» Şeyx Cəmaləddin Əfqani ilə dostluğu və həmfikir olması Ə.Ağaoğlunun Şərq-Qərb qarşıdurmasına dair düşüncələrinə, Azərbaycan, Türkiyə, İslam aləmi ilə bağlı mühakimələrinə aydınlıq gətirir. Ə.Ağaoğlu ilk məqaləsini də elə burada 1890-cı ildə 21 yaşında fransızca yazır və «Jurnal de Deba» da nəşr etdirir. 1892-ci ildə isə Ə.Ağaoğlu Londonda «Şərqşünaslar» (Müstəşriqlər) konqresində iştirak edir və burada şiəlikdə məzdəki inancları adlı məruzə ilə çıxış edir, həmin məruzə Kembric Universiteti tərəfindən ingiliscə çap olunur.

Kembric universitetinin xərci ilə bir neçə Qərb dilində də nəşr olunan bu məqalə Ə.Ağaoğluna ilk və böyük şöhrəti gətirmişdir. «Şiə məzhəbinin qaynaqları» kimi təqdim olunan həmin məqaləyə görə ədibin qızı Sürəyya Ağaoğlunun bildirdiyi kimi «İran şahı tərəfindən firuzə üzük hədiyyə»[1] edilmişdir. Tələbəlik illərini Fransada – Parisdə keçirən

[1] Ağaoğlu. Sürəyya. Bir ömür böylə keçti. «Ağaoğlu» yayınları, 1984.

Ə.Ağaoğlu yalnız Qərbi deyil, həm də Şərqi elmi əsaslarla öyrənir, hər iki tərəfin fərqli, özəl cəhətlərini təhlil edir, Şərqin «demokratiya» baxımından geriliyi barədə qayğılanmağa, din, fərd, şəxsiyyət, cəmiyyət, dövlət, ailə, mülkiyyət, hakimiyyət haqqında düşüncələrini ifadə etməyə üstünlük verir. Həmin dövrdə «Ə.Ağaoğlu Parisdə tanınmış salon sahibəsi və yazıçı Madam de Adamın (1836 - ?) aylıq «Navel Revyü» və həftəlik «Rövyü Blö» jurnallarına Şərq xalqları, onların tarixi, ədəbiyyatı, mədəniyyəti və s. barəsində silsilə məqalələr yazmağa başlayır. Onun Tiflisdə rus dilində çap olunan «Qafqaz» qəzeti ilə sıx əməkdaşlığı da həmin dövrə təsadüf edir. Qəzetin səhifələrində azərbaycanlı gəncin Parisdən göndərdiyi məqalə və korrespondensiyalar çap edilirdi».[1]

Avropada şərqşünaslıq elminin və hüquqşünaslığın zəngin təcrübəsini öyrənən Ə.Ağaoğlu «Tərcümeyi-hali-acizanəm» də bildirdiyi kimi 1894-cü ildə atasının vəfatı xəbərini alır, Türkiyə üzərindən vətəni Qarabağa qayıdır. Onun qayıdışı İstanbul şəhərində «aləmi-islamca məruf» olan Şeyx Cəmaləddin Əfqani ilə Mülaqat» etməsi ilə yadda qalır. Ədib Parisdə və İstambulda panislamizm lideri ilə görüşlərini ömür boyu xatırlayır, islam aləmindən çıxan bu böyük mütəfəkkirin Paris və Londonda «Ürvətül-vüsqa» qəzetini çıxarmasını, onun beynəlxalq imperializmə, yerli zülmkarlara qarşı mübarizə ideyalarını davam etdirməsi, ümumbəşərilik mövqeyində dayanması ilə fəxr edirdi. Ə.Ağaoğlu Qafqaza qayıtdıqdan sonra ilk olaraq Tiflis ədəbi-ictimai mühitinə daxil olur, dostlarının təkidi ilə «Narodnik» adlı gizli cəmiyyətin iclaslarında iştirak edir. Özü həmin dövrü təsvir edərək yazır: «Qafqasiyənin məqərri-hökuməti olan Tiflis şəhərinə əzimət eylədim. Burada nəşr olunan rusiyül-ibarə «Qafqaz» qəzetəsinin heyəti-təhririyyəsi cümləsinə daxil olduğum kibi bir tərəfdən də şəhri-məzkurədəki jemnaziya

[1] Quliyev V. Ağaoğlular. Bakı, «Ozan», 1997, s.10.

məktəbi - al sində bir-iki dərs öhdə eylədi»[1]. Az müddət sonra (1896) isə Ə.Ağaoğlu ailə qayğıları səbəbindən Tiflisdən Şuşaya gəlir və burada realnı məktəbdə fransız dili müəllimi kimi çalışır, «Firəng Əhməd» ləqəbi ilə tanınır. Ə.Ağaoğlunun Fransada təhsilini təsvir edən «Bir firəngin mənə yazdığı məktubat» adlı məqalə onun həyatının Paris günləri haqqında geniş məlumat verir. O günləri xatırlayan Ernst Renan Ə.Ağaoğluna müraciətlə deyir:

«Rəfiqi-dirinim!

İyirmi sənə bundandan əqdəm Parisdə təhsil etdiyimiz xatirindən çıxmayıb, zənn ediyorum! Nə gözəl zamanlar!! Siz Məqribə məftun, mən Məşriqə aşiq. Hər ikimiz cahanın bu dərəcədə biri-birinə zidd və əks olan iki qitələrinin hikməti-məaş və əsrar həyatını düşünməyə çalışıyorduq.

Mən Məşriqdə olan bətalət və kəsalətə, hərəkətsizlik və sükunətə, dəvam və səbatə mütəhəyyir qalıb, siz də Məğribin bu qədər səy və guşişinə, tələş və hərəkətinə təəccüb etməkdə idiniz!

Sübhdən axşamadək bir yerdə olub birlikdə məkatib və mədarisi, məhafil və məcalisi dövran etməkdə idiniz.

Siz fransız, ingilis dillərinə güc verdikdə, mən də ərəb və farsi dillərinə güc verirdim. Siz Volterlərə, Russolara, Viktor Hüqolara, Bayronlara, Hötelərə, Kantlara alışdığınız zamanlar, mən də «Mülaqati-səbə»lərə, İbn Xəldunlara, Ömər Xəyyamlara, İbn Rüşdlərə, İbn Sinalara, «Əxlaqi-Nasiri»lərə alışıyordum.

Yeddi il böylə bir yerdə çalışdıq. Sən Şərqli ola-ola «müstəğrib», yəni məğribin övzai-əhvalına, ümuri-miləl və məaşına, ülum və fününuna, ədəbiyyat və məarifinə ilaət kəsb edən bir şəxs oldun. Mənəmsə Məğribi ola-ola «Müstəşriq», yəni Məşriqin və bilxassə islam Məşriqinin övzai-əh-

[1] Ə.Ağayev. Tərcümeyi-hali-acizanəm. Avtoqraf. RƏİ, Arx.26, Q-14 (302), inv.19769, s.3.

valına, ümuri-miləl və məaşına, ülum və fününuna ədəbiyyat və məarifinə itlaət kəsb edən bir şəxs oldum».[1]

Ə.Ağaoğlu Tiflisdə «Qafqaz» qəzetinə yazdığı məqalələrdə «pərdə dalında iş becərən» Şeyx Cəmaləddin Əfqaninin «ümməti-islam arasında» islahat-reformalar aparmaq ideyasına tərəfdar olduğunu nümayiş etdirir, ətalət, cəhalət, nadanlıq əleyhinə mübarizə aparan şəxsiyyət kimi tanınırdı. Ədibi yaxından tanıyan görkəmli yazıçı Y.V.Çəmənzəminli bildirir ki, «İslam və türk tarixinə hər kəsdən artıq vaqif idi... Məclisdə danışanda heç bir molla cəsarət edib onun fikirlərinə qarşı çıxa bilmirdi. Əhməd bəy sərt və əsəbi bir adamdır, bilxassə bəylərin qudurğanlıqlarına dözə bilməzdi, onlarla bir məclisdə qarşı-qarşıya gəldimi, həmişə dalaşardı; həmişə də tapancasını hazır saxlardı».[2] Şəxsiyyətindəki çılğınlıq, üsyankarlıq və haqpərəstlik tezliklə Ə.Ağaoğlunun həmvətənləri arasında nüfuz qazanmasına səbəb olur, onun bir şəxsiyyət və ictimai xadim kimi tanınmasına təsir göstərir. Ədib həmin dövrdə Şuşada qiraətxana açır, maarifçilik fəaliyyətini davam etdirir. Lakin bütün bunların yetərli olmadığını görən Ə.Ağaoğlu maarifçiliyin cəmiyyət miqyasında yürüdülməsi zərurətini dərk edir və həmin məqsədlə qəzet-mətbuat orqanı yaratmağın vacibliyini müəyyənləşdirir. XVIII əsr Fransa maarifçi-materializminə, fransız mütəfəkkirlərinin «zəka səltənəti» uğrunda mübarizə təcrübəsinə dərindən bələd olan Ə.Ağaoğlu «volteri» xarakteri ilə haqq-ədalət carçısı kimi davranır, cəmiyyət həyatının «vadiyi-cəhldən» qurtarılmasında mətbuatın rolunu yüksək qiymətləndirirdi. Buna görədir ki, Fransadan qayıtdığı ilk günlərdə o Peterburq Baş Məlumat İdarəsinə müraciət etmişdi. 1893-

[1] Əhməd bəy Ağaoğlu. Bir firəngin mənə yazdığı məktubat. «İrşad» qəzeti, 18 aprel 1906-cı il, №92.

[2] Y.V.Çəmənzəminli. Həyatımın 20 ili. Bir cavanın dəftəri. Bakı, 1966, s.90.

cü il 6 dekabr tarixli ərizədə bildirilirdi ki, «Bakı şəhərində senzuranın nəzarəti altında tatar (azərbaycan) dilində «Məşriq» adlı yeni dövrü mətbuat nəşr etmək arzusunda olub, icazə istəyirəm»[1]. Ə.Ağaoğlunun ərizəsi imperiyapərəst məşturiyyət tərəfindən birmənalı «yox» cavabı ilə qarşılanıb və rəsmi rədd sənədi ilə cavablandırılmışdır. Həmin sənəddə deyilir: «Tatar dilində (Azərbaycan) qəzet jurnalların nəşri tamamilə arzu edilməzdir. Baş mətbuat idarəsi belə hesab edir ki, cənab Ağayevin xahişi rədd edilsin».[2] Bundan az sonra Ə.Ağaoğlu Bakıda məskunlaşır və Bakı orta ixtisas və Bakı Ali Ticarət məktəblərində fransız dili müəllimi işləyir. 1897-ci ildə H.Z.Tağıyev tərəfindən dəvət alır və onun sponsorluğu ilə Bakıda nəşr olunan «Kaspi» qəzetinin «sərmühərrirliyini dəröhdə edərək» rus dilində silsilə məqalələr yazır. Dövrün tanınmış neft sənayesi şəhəri olan Bakıda Ə.Ağaoğlu məşhur ziyalılar mühitinə düşür, Peterburq, Moskva və Qafqazdakı ictimai-siyasi hadisələri diqqətlə izləyir, Rusiya, Avropa, Türkiyə və İrandakı inqilabi hərəkatlara dair maraqlı məqalələr müəllifi kimi tanınır, öz xalqının müstəqilliyi və mədəni intibahı yolunda əzmkarlıqla çalışmağa başlayır. XX əsrin əvvəllərində Tiflisdə «Şərqi-Rus» (1903) nəşrə başladıqdan sonra görkəmli mütəfəkkir həmin qəzetdə də çıxışlar etmişdir.

1905-1907-ci illərin hadisələri bütün ölkə həyatında dəyişikliklərə səbəb olduğu kimi Ə.Ağaoğlunun da tərcümeyi-halına ciddi təsir göstərmişdir. Xüsusilə 1905-ci il 17 oktyabr manifestinin söz, mətbuat və vicdan azadlığına meydan açması Ə.Ağaoğlunun çoxillik arzuları ilə üst-üstə düşdü. 1905-ci ilin əvvəllərindən ölkədə başlayan mitinq, üsyan və ictimai-siyasi etiraz dalğaları gücləndi, «xalqlar həbsxanası»

[1] Rusiya MDTA, t.776, siyahı 12, iş 65, vərəq 1.
[2] Bax: Zeynalzadə A. Azərbaycan mətbuatı və çar senzurası (1850-1905), «Elm», 2006, s.226.

olan Rusiya imperatorluğunda reformaların həyata keçirilməsi sürətləndi. Belə bir vaxtda Ə.Ağaoğlu görkəmli mütəfəkkir Əlibəy Hüseynzadə ilə birlikdə və H.Z.Tağıyevin maddi yardımı ilə «Həyat» qəzetinin nəşrinə (1905-ci il 7 iyun) nail oldu. 1904-cü ildə Rus-Yapon mübarizəsinin monarxist Rusiya üçün uğursuzluqla nəticələnməsi ölkənin ictimai-siyasi həyatında ciddi gərginlik yaratdı, habelə azadlıq, müstəqillik, demokratik həyat uğrunda mübarizə aparanların işinə meydan açdı. Rusiya imperiyasının idarəetmə mexanizmlərinin zəifləməsi, ucqarlarda nəzarətin azalması, xüsusilə «əzilənlərin köhnə qaydada yaşamaq istəməməsi və idarəedənlərin əvvəlki kimi idarəetmək iqtidarını itirməsi» (V.İ.Lenin) mühüm problemə çevrilmişdi. Bundan çıxış yolunu millətlərarası münaqişədə görən imperiyapərəst, irticaçı və mühafizəkar qüvvələr Qafqazda erməni-müsəlman qarşıdurmasını asanlıqla yarada bildilər. Erməni-daşnak birləşmələrinin bolşeviklərlə müştərək fəaliyyəti Azərbaycanı təhdid etməyə başladı və həmin qaragüruha qarşı yalnız qələmlə deyil, həm də təşkilati baxımdan mübarizə zərurətini görən Ə.Ağaoğlu «Difai» partiyasını yaratmağa müvəffəq oldu. 1905-1907-ci illərdə o, dəfələrlə Tiflisdə keçirilən sülh danışıqlarında iştirak edir, Peterburqa rəsmi səfər edir, millətlərarası münaqişənin səbəbləri, zərəri bu hadisələrin qızışdırıcıları və dözülməz nəticələrinə dair «Sankt Peterburqskiye vedomosti» qəzetinə və digər rusdilli qəzetlərə məqalələr yazır. Bu arada Ə.Ağaoğlu özünün yazdığı kimi «iki dəfə Qafqaziyə müsəlmanları tərəfindən bil-vükəla Peterburqa»[1] gedir. Səfərdə məqsəd qaz yağı mənbələrinin Rotşild və Nobel kimi əcnəbi sahibkarlar tərəfindən mənimsənilməsi barədə yerli sərmayəçilərin şikayətini çar Nikolaya çatdırmaq idi. Onu da qeyd etmək lazımdır ki, Ə.Ağaoğlu Azərbaycan cəmiyyətinin möhkəmlənməsi üçün ictimai-siyasi və ədəbi-

[1] Ə.Ağaoğlu. Tərcümeyi-hali-acizanəm. Avtoqraf, RƏİ, Arx.26, Q-14 (302), inv.19769, s.3.

mədəni tədbirlərdə tez-tez iştirak edir, «Cəmiyyəti-xeyriyyə», «Nicat», «Nəşri-maarif», «Səadət», «İttihad» kimi təşkilatların yaranması və fəaliyyətinə yaxından kömək edirdi. Yeni məktəblər, qiraətxanalar, teatr, kitabxana və s. açılmasında fəallıq göstərən Ə.Ağaoğlu «Həyat» qəzetinin 102-ci nömrəsindn sonraredaksiyadan ayrılır və 1905-ci il 17 dekabrdan etibarən Bakıda «gündəlik çıxan ədəbi, siyasi, elmi, iqtisadi, ictimai qəzet»[1]in «İrşad»ın nəşrinə başlayır. Qəzet «Hürriyyət, Müsavat, Ədalət» şüarı ilə nəşr olunur və öz ətrafında dövrün ən məşhur ziyalılarını, o cümlədən Ə.Hüseynzadə, M.Hadi, Ö.F.Nemanzadə, S.M.Qənizadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, N.Nərimanov, A.Sur, F.Köçərli, A.Səhhət, A.Şaiq, N.Vəzirov və başqalarını birləşdirirdi.

Ə.Ağaoğlu yalnız Azərbaycan deyil, bütövlükdə Rusiya müsəlmanlarının birləşdirilməsi yolunda mühüm addımlar atmış, müxtəlif bölgələrin ziyalıları vasitəsi ilə ideya-mənəvi birliyin və həmrəyliyin əldə olunmasına çalışmışdır. Həmin məqsədlə Ə.Ağaoğlu 8 aprel 1905-ci ildə Peterburqda Rəşid İbrahimin evində Rusiya müsəlmanlarının liderləri sayılan Alim Maqsud, Əhməd Bünyamin, Ə.M.Topçubaşov, Ə.Hüseynzadə ilə birgə siyasi partiya yaratmaq qərarına gəlir və sonralar «Ümumrusiya müsəlmanları ittifaqının» 1905-1907-ci illərdə üç konfrans keçirməsində yaxından iştirak edir. Ə.Ağaoğlu Rusiyanın hakim dairələri qarşısında millətinin hüquqlarını qoruyur, öz üsyankar çıxışları ilə yadda qalırdı. Bu mənada Ə.Mirəhmədovun bir müşahidəsi maraqlıdır. O yazır: «1907-ci ildə «İrşad» redaktoru paralel surətdə «Proqress» adlı rusca qəzet də buraxırdı. Nömrələrindən birində «Proqres» dövtələb bir ruhda yazırdı ki, çar bürokratiyası şeyxülislama orden, Tağıyevə general rütbəsi verməklə biz müsəlmanları aldada bilməz. Biz qoyun sürüsü

[1] N.Axundov. Azərbaycanda dövrü mətbuat. Bakı, AMEA nəşri, 1965, s.45.

deyilik. Həmin il fevralın 18-də çıxan «Proqres» «müzürr məsləkinə görə bağlan»dı.[1] Ə.Ağaoğlunu Azərbaycan ədəbi-ictimai mühitində tanıdan onun mövcud problemlərə münasibətindəki aydın mövqe və islahatçılıq, yenilikçilik iddiaları idi. İctimai həyatda və milli şüurda özünü göstərən ətalət, cəhalət, nadanlıq, mühafizəkarlıq, məhdud millətçilik əleyhinə çıxan Ə.Ağaoğlu teokratik görüşlərdəki ənənəçilik, ehkamçılıqla barışmaz mübarizə aparırdı. Bunun üçün mətbuat və ədəbiyyatın rolunu yüksək qiymətləndirir, ölkədə yeni tipli satirik və romantik jurnalistika məktəblərinin formalaşmasını alqışlayırdı. Onun «Axund və islam», «İslamda və islama görə qadın» (rusca) əsərləri, habelə «Həyat», «İrşad», «Kaspi», «Proqress» və «Tərəqqi» qəzetlərində dünya dinlərinin tarixi, ayrı-ayrı şəxsiyyətlər haqqında çoxsaylı məqalələri, «İslam və demokratiya» kimi aktual mövzulu yazıları ictimai fikirdəki ehkamçılıq-doqmatizmi aradan qaldırmağa xidmət edən ciddi yaradıcılıq məhsulları idi. Buna görədir ki, Ə.Ağaoğlu şəxsiyyəti, fəaliyyəti və düşüncələri ilə ictimai-mədəni mühitdə reformizm ideyasını formalaşdırmağa nail olur, müstəqillik və demokratiya duyğularının cəmiyyətə çatdırılmasında aktivlik göstərirdi.

Ə.Ağaoğlu dövrünün ən mühüm problemlərini, o cümlədən, suveren dövlət və müstəqillik, demokratiya, qadın azadlığı, milli maarifçilik, azad söz və mətbuat, din və vicdan azadlığı kimi məsələlərini diqqət mərkəzində saxlayır, ümummilli problemləri ictimaiyyətin köməyi ilə müzakirə və həll etməyi vacib bilirdi. Lakin bu zaman çarizmin təqibləri, siyasi senzuranın təzyiqləri və yerli mühafizəkar qüvvələrin yaratdığı maneələrlə üzləşsə də ruhdan düşmür, xalq, dövlət və vətənə bağlı arzularını gerçəkləşdirməyi hər şeydən üstün tuturdu.

[1] Ə.Mirəhmədov. Əhmədbəy Ağayev. «Fikrin karvanı». Yazıçı, 1984, s.38.

1907-ci ildə Rusiyada Stolipın irticası başlayanda Ə.Ağaoğlunun dediyi kimi «ən çox əndişə yaradan», monarxist dövlətin qorxusuna səbəb olan müsəlmanlar oldu və onlara siyasi təzyiqlər gücləndirildi. «Ərbabi-qələm təqib» olunmağa başlandı, «İrşad» qəzeti bağlandı. Bir müddət sonra yenə mətbuatə müsaidə verilincə «Tərəqqi» ünvanı altında yeni qövmü bir qəzetə ehdas»[1] eyləyən Ə.Ağaoğlu inqilabçı-demokrat kimi tanınır, müstəmləkəçilik əleyhinə çıxan üsyankar ziyalı, millətçi-vətəndaş kimi məşhurlaşırdı. Buna görədir ki, o hakim dairələr tərəfindən təqib olunurdu. Həmin səbəbdən Ə.Ağaoğlu 1909-cu ildə II Tənzimatın qələbə çaldığı Anadoluya köçür və İstanbul şəhərində yaşamağa başlayır.

Ə.Ağaoğlu Qarabağın ən böyük və məşhur nəsillərindən olan Vəzirovlardan Sitarə xanımla 1902-ci ildə evlənib. Övladları Sürəyya, Tezar, Abdurəhman, Səməd Bakıda, Gültəkin isə İstanbulda dünyaya gəlib. Oğlu Səməd Ağaoğlu və nəvəsi Təkdaş Ağaoğlu Türkiyədə yazıçı kimi tanınmaqdadırlar.

Ə.Ağaoğlunun Türkiyə dövrü həyatını və fəaliyyətini araşdıran F.Gülsevən yazır ki, «Türkiyəyə gəldikdən sonra öncə vəqf məktəblərində müfəttiş olur... Bir müddət sonra Süleymaniyyə kitabxanası müdirliyi də ona verilir. Eyni zamanda fransızca çıxan «Jön Türk» (Gənc Türk) qəzetinin baş yazarı olur. Daha sonra ona «Tərcümani-həqiqət» qəzetinin baş yazarlığı təklif edilir, bu təklifi qəbul edərək yazmağa başlayır.

Ağaoğlu 1909-cu ilin oktyabrından etibarən İstanbul darülfünununda türk tarixi professorluğu və rusca öyrətmənlik də edir.

1912-ci ildə məmurluqdan istefa verir, «İttihad və Tərəqqi» firqəsinə daxil olur və firqənin Mərkəzi Komitə üzv-

[1] Ə.Ağaoğlu. Tərcümeyi-hali-acizanəm. Avtoqraf RƏY. Arx.26, Q-14 (302), 19769, s.4.

lüyünə seçilir. Həmin il yapılan seçkilərdə Afyonqarahisardan millət vəkili seçilərək «Osmanlı Məclisi-Məbusanı»na girir».[1]

Ə.Ağaoğlunun Türkiyə ictimai-siyasi həyatında fəallıq göstərməsi və işinin yüksək qiymətləndirilməsi səbəbsiz deyildi. O, Türkiyə sərhədlərindən kənarda yaşayan türklərin haqq və hüquqları uğrunda mübarizə aparan bir şəxsiyyət kimi tanınmışdı. Anadoluya gələndən sonra Ə.Ağaoğlu «Xalqa doğru», «Siratül-müstəqim», «Səbilülrəşad», «Hikmət», «Türk yurdu» və s. mətbuat orqanlarında çoxsaylı məqalələr yazır, ictimai-siyasi və mədəni tədbirlərin təşkilində iştirak edirdi. Burada 1911-ci ildə o Türk Yurdu Cəmiyyətinin qurucularından biri olur, cəmiyyətin ideoloqları sırasında fəxri yer tutur. Ə.Ağaoğlu Türkiyədə Əhməd Rza, Yusif Akçura, Ziya Göyalp, Mehmet Akif Ərsoy, Mehmet Emin Yurdaqul, Həmdullah Sübhi, Əhməd Naim Babanzadə, Süleyman Nazif kimi onlarla tanınmış şəxsiyyətin mühitində olur, fikir mübadiləsi və müzakirələrdə iştirak edir.

Ə.Ağaoğlu 1915-ci ildə Çar Rusiyasının milli azlıqları tərəfindən Lozannada keçirilən beynəlxalq konfransda Azərbaycan nümayəndəsi kimi çıxış edir, antiimperialist fikirlərini söyləyir, 1917-ci ildə Rusiya türklərinin ağır vəziyyəti barədə ABŞ prezidenti Vidro Vilsona təqdim edilən sənədi imzalayanların sırasında olur. Görkəmli mütəfəkkir və ictimai xadim Ə.Ağaoğlu 1918-ci ildə gənc türklərin tərəfindən Azərbaycana göndərilən Qafqaz-İslam ordusunun siyasi müşaviri kimi Bakıya gəlir, vətənin erməni-daşnak və bolşevik birləşmələrindən qurtuluşunda iştirak edir. Həmin gəliş zamanı Ə.Ağaoğlu Gəncədə cəmi iki nömrəsi çıxmış «Türk sözü» qəzetini nəşr etdirmişdir. 1918-ci ildə Azərbaycanda olan Ə.Ağaoğlu Milli Məclisə üzv seçilir və Ənzəlidəki ingilis qoşunlarının rəhbərliyi ilə danışıq aparan qrupa başçılıq

[1] F.Gülsevən. Əhməd Ağaoğlunun həyatı, fikirləri, siyasi və sosial mücadilələri. «Ulduz» jurnalı, 1991, №5, s.22.

edir. O, 1919-cu ildə Türkiyəyə qayıdır. Həmin vaxtda Paris Sülh konfransına getməli olan Ə.Ağaoğlu ingilislərin İstanbuldakı işğal qüvvələri tərəfindən həbs edilir və «İttihad və Tərəqqi» partiyasının liderləri ilə birgə Malta adasına sürgünə göndərilir. Ədib özünün məşhur «Üç mədəniyyət» əsərini burada yazmışdır. Ə.Ağaoğlu azadlıq uğrunda mücadilə xatirələrini, N.Nərimanova, oğlu Səmədə və qızı Sürəyyaya dərin ictimai-siyasi məzmun daşıyan məktublarını da bu dövrdə yazır.

1921-ci il mayın 30-da Ə.Ağaoğlu əsirlikdən azad olunur və 33 əsirlə birgə İtalyaya gəlir, Torreno şəhərindən N.Nərimanova yazdığı məktubda Ə.Ağaoğlu bildirir ki, «Rusiyada hökm -fərma olan ideal... Şərqi əsarətdən xilas edəcək və onunla bərabər Qərbi də qurtara biləcək».[1] Malta adasından qurtuluşdan az sonra N.Nərimanovun vətənə qayıdış təklifinə baxmayaraq o Azərbaycan gələ bilmir, ağır-əzablı bir tale yaşamasını, Türkiyəyə və türklüyə xidmət istəyini əsaslandıraraq deyir: «Türklük bölünmə qəbul etməyən tamdır. Məqsəd ona xidmətdir. Bu xidmət harada edilirsə, müqəddəsdir, mübarəkdir».[2] Ə.Ağaoğlu Türkiyədə yaşamağı qərara alır və ömrünün axırınadək orada mühacirət həyatına məhkum olur, «təpədən dırnağa qədər bir azəri türkü olaraq... düşünür, söyləyir. Hətta ölüncəyə qədər şivəsini belə düzəltmir» (Əhməd Cəfəroğlu).

İtaliyadan Türkiyəyə (İstanbula) gələn Ə.Ağaoğlu bir müddət sonra Quzey-Doğu Anadolu ərazisində Ankara Milli Hökumətinin dəstəyi ilə «İrşad heyətlərinə» qoşulur, Qarsda ikən Mətbuat-Çap Baş müdirliyinə təyin edilir və Ankaraya çağırılır. Beləliklə, Mustafa Kamal Atatürk və onun silahdaşları ilə bir sırada olan Ə.Ağaoğlu Türkiyə Mil-

[1] «Kommunist» qəzeti, 19 iyun 1921-ci il, №;109.
[2] F.Gülsevən. Əhməd Ağaoğlunun həyatı, fikirləri, siyasi və sosial mücadilələri. «Ulduz» j., 1991, №5, s.25.

li Mücadiləsi və Qurtuluş savaşının öndərlərinin yanında yer alır. Ə.Ağaoğlu bu illərdə «Hakimiyyəti-milliyyə» qəzetinin baş redaktoru olur, habelə M.Kamal Atatürkün razılığı ilə Anadolu Agentliyinin yaradılması işinə başlayır, türk ictimaiyyətinə və dünyaya türklük həqiqətlərini yaymağa başlayır. Onun bir-birinin ardınca «Üç mədəniyyət», «İslamiyyətdə qadın», «İngiltərə və Hindistan», «Sərbəst insanlar ölkəsində», «Sərbəst firqə xatirələri», «Könülsüz olmaz», «1500 ilə 1900 arasında İran», «Mən kiməm?», «Altmış yeddi il sonra», «Etrüsk mədəniyyəti və bunların Roma mədəniyyəti üzərinə təsiri», «Hüquq tarixi», «Dövlət və fərd», «İran və İnqilabı», «İxtilalmı, inqilabmı?» və s. bu kimi kitabları nəşr olunur, tərcümə materialları, çoxsaylı publisistik yazıları işıq üzü görür.

Ə.Ağaoğlunun XX əsrin əvvəllərində Bakıda nəşr etdirdiyi «Şiə məzhəbi və mənbələri», «İslam, Axund və Hatifülqeyb», «İslama görə və islamlıqda qadın», «Rus ədəbiyyatının ümumi səciyyələri» kimi əsərlərini, rus, azərbaycan və qeyri dillərdə olan yüzlərlə publisistik məqalələrini də buraya əlavə etsək onun yaradıcılığının miqyasını müəyyənləşdirmək asan olar.

Əhməd Ağaoğlu qurtuluş savaşından sonra iki dəfə Qarsdan Millət vəkili seçilir, Ankara universitetinin hüquq fakültəsində konstitusiya fənni üzrə professor olur, M.K.Atatürkün istəyi və Fəthi bəy Okyarın rəhbərliyi ilə Sərbəst Cümhuriyyət Firqəsinin qurulmasında iştirak edir, «Axın» qəzetinin baş yazarı kimi fəaliyyət göstərir, Avropa, Şərq, Rus ədəbiyyatına dair araşdırmalar aparır, çoxsaylı elmi-nəzəri məqalələr və monoqrafiyaları ilə tanınır, demokratiya, din, fəlsəfə, hüquq, siyasət, filologiya sahəsində görkəmli mütəxəssis kimi böyük rəğbət qazanır.

***

Yaradıcılığa elmi-nəzəri və publisistik məqalələrlə başlayan Ə.Ağaoğlunun dünyagörüşü, həyata baxışı və əsaslandığı metodoloji meyarlar Azərbaycan ədəbi-bədii fikrinin tarixi tərəqqisi baxımından maraq doğurur. XIX əsrin sonu və XX əsrin əvvəllərində Çar Rusiyasının müstəmləkəsi statusunda olan Azərbaycanda ziyalıların hürriyyət və demokratiya mübarizəsinin önündə gedən Ə.Ağaoğlu H.Zərdabinin dini və dünyəvi elmləri birləşdirmək ideyasını əzmlə davam etdirirdi. Həmvətənlərini arxaik təfəkkür ənənələrindən, «xabi-qəflətdən», cəhalət və fanatizmdən, təqlidçi düşüncədən, məhdud milliyyətçilik və mühafizəkarlıqdan qurtarmağa çalışan Ə.Ağaoğlu Avropa dəyərlərinə üz tutur, Azərbaycanı «Məğriblə Məşriqi» birləşdirən körpü misalında təqdim edirdi. Buna görə də görkəmli mütəfəkkir Şərqin ilkinliyi və Qərbin müasirliyini vəhdətdə götürür, bu tərəflərin sintezi əsasında Azərbaycan ictimai-mədəni həyatının inkişafını məqsəd bilirdi.

Ə.Ağaoğlu ensiklopedik təfəkkür sahibi olmaqla öz dövrünün və millətinin yetirməsi idi. Onun yaradıcılığı bu mənada XVIII Fransız maarifçi-materialist filosoflarını xatırlatsa da XX əsrin əvvəlləri Azərbaycan mühiti və reallıqlarını əks etdirir. Avropada təhsil illərində islam dini, Zərdüşt fəlsəfəsi, şiəlik məzhəbi və məzdəki inanclarına dair araşdırmalarında özünü bir teoloq kimi tanıdan Ə.Ağaoğlu Azərbaycanda Qərbin materialist fəlsəfəsinə, elm və texnologiyasına, müxtəlif sənət və siyasət nəzəriyyələrinə dair mülahizə və məqalələrində özünü filosof və sosioloq kimi tanıdırdı. O, Qərbin iqtisadi inkişafı və mədəni tərəqqisindən, dövlətçilik təcrübəsi, hüquq tarixi və nəzəriyyələrindən bəhs açarkən Şərq-Qərb təcrübəsini əlaqələndirməyi faydalı sayır, qarşılıqlı bəhrələnməni vacib bilirdi. Bir sıra hallarda Qərbin elmi-texniki nailiyyətlərini ideallaşdırsa da, o Şərqin tarixi zənginliyi, ədəbi-mədəni rəngarəngliyini inkar etmir, əksinə bu tərəflərin vəhdətini yaratmağı mühüm vəzifə sayırdı.

Dünyanın müxtəlifliyinə fəlsəfi baxışlarında bir sıra hallarda ziddiyyətlər özünü göstərsə də, nəhayətdə Ə.Ağaoğlu məntiqi mühakimənin, fəlsəfi ümumiləşdirmənin gücünə arxalanır, özünü sosial psixologiyanın, milli-etnik dəyərlərin bilicisi kimi tanıdırdı.

Əhməd bəy Ağaoğlunun dünyagörüşündə modernizm, islahatçılıq əhəmiyyətli yer tutur. Bu bir yandan Peterburq və Paris kimi şəhərlərdə təhsildən qaynaqlanırdısa, digər tərəfdən XIX əsrin sonu, XX əsrin əvvəllərində kapitalizmə meydan açan Azərbaycanın yeni ictimai-iqtisadi münasibətlər sisteminə qoşulmasından güc alırdı. Kapitalizm Azərbaycanı dünya iqtisadiyyatı və mədəniyyətinə qovuşdurur, demokratiya və novatorluğa səhnə açırdı. Bunun nəticəsidir ki, Azərbaycanın bütün ictimai fəaliyyət sahələrində islahatçılıq təşəbbüsləri uğur qazanır, əhali tərəfindən rəğbətlə qarşılanır, yeni milli mədəniyyət və ədəbiyyatın nümunələri ortaya çıxırdı. Əhməd Ağaoğlu Avropadan qayıtdıqdan sonra vətənindəki modernizm təşəbbüslərinə qoşulur, din, ictimai-siyasi fikir, mədəniyyət, dövlət, məişət və s. mövzularda mətbuatda aparılan mübahisələrin ən fəal iştirakçısına çevrilir.

Avropada orientalizmin (şərqşünaslığın), sosiologiya və etnoqrafiyanın elmi uğurlarına bələd olan Ə.Ağaoğlu öz vətənində hər şeydən əvvəl elmi-nəzəri və ictimai-siyasi təfəkkürdəki epiqonçuluğu, birtipli düşüncə ənənəsini aradan qaldırmağı vəzifə bilir, «ata-babadan qalma bir sıra vaxtı keçmiş ənənələrin» dəyişdirilməsini zəruri sayırdı. İstər öz zamanında, istərsə də sovet hakimiyyəti illərində «kosmopolitizm» damğası ilə qarşılanan bu fəaliyyət yönü Ə.Ağaoğlunun cəmiyyətdə, mədəniyyət və ədəbiyyatda yeni avropatipli inkişaf istiqaməti formalaşdırması ilə bağlıdır. Bu bir tərəfdən onun həyatının təzadlarını təşkil etsə də, digər tərəfdən mövcud xaosdan – Azərbaycan ictimai-mədəni mühitindəki ziddiyyətlərdən qurtuluş yolunu arayan bir vətəndaşın tale həqiqətləri idi. Həmin ziddiyyətlər hər şeydən çox ənənəvi

düşüncə tərəfdarları, mühafizəkarlar, «hakimi-mütləq» olanlar tərəfindən yaradılır, xalqın əsarətdə və cəhalətdə qalması onlara sərf edirdi. Odur ki, Ə.Ağaoğlunun əsəbi, sərt, barışmaz, iddialı adam obrazını da onlar yaradır, «bu Avropa qafalı və qiyafəli» mütəfəkkir-şəxsiyyətin ictimai-siyasi arzuları və elmi-mədəni istəkləri mövcud gerçəkliyin həqiqətləri ilə uyğun gəlmirdi.

Əhməd bəy Ağaoğlu XIX əsr Azərbaycan və XVIII əsr Avropa maarifçiliyi (xüsusən də Fransa) təcrübəsini öz yaradıcılığında birləşdirir, içində yaşadığı milli ictimai mühitin düzgün dərki, təsviri, təhlil və tənqidi yolu ilə onu dəyişdirməyi, yeniləşdirməyi əsl vətəndaşlıq vəzifəsi kimi qiymətləndirirdi. Bunun üçün ədib realizmə əsaslanır, milli tarixi fakt, hadisə və şəxsiyyətlərinə irs-varislik əlaqələri miqyasında qiymət verməyi tələb edirdi. O deyirdi: "İrfan və hikmətə məşğul olan şəxslər haman bu mətləbi hüsnlə gətirmək üçün cürbəcür yollar götürdülər. Bəziləri dərviş silkini qəbul edib, cürbəcürə təriqətlər icad edib guya riyazətə məşğul oldular. Digərləri tiryək və şərabə məşğul olub guya əvalimi-nasut, fəlakut, mələkut və lahuti seyr etdilər. Bit və sirkəyə ruzi olan, məcnunsifət, cahilsərf, hər bir elm, hünər, sənət, qeyrət və namusdan məhrum olan dərvişi kəşf və kəramətdən dəm vurdular! Tiryəkin tüstüsü ilə və şərabın hərarəti[1]lə məxtəl və məxşuş olan aqillər aləmi-namusdan söhbət açdılar! Və əvam-əl-nas onların cünunluğuna uyub yavaş-yavaş onları özləri üçün imtisal etdilər və onların fəsadlı əqidələri şöhrət tapdı! Guya sər icadi-aləm onlara kəşf olub və kövnü-məkanın çegunəligin anlayıb özlərini cəmi-təkalifi-insaniyyədən müstəğni hesab etdilər!».[1]

Göründüyü kimi Ə.Ağaoğlu milli tarixə tənqidi münasibət bəsləyir və «Nədən bu günlərə qaldıq?» sualına cavab axtarırdı.

[1] Əhmədbəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? 18 iyul 1906-cı il, №168.

Ə.Ağaoğlunun din tarixi və onun tipologiyası, teologiya, xristianlıq, islam, buddizm, iudaizm, İncil, Zəbur, Tövrat, Quran, protestantlıq, katolik, şiə, sünni və sair mövzularda müxtəlif məqalələri, çoxsaylı mülahizləri ciddi elmi-nəzəri və ictimai-mədəni əhəmiyyət daşıyır. Onun din mövzusunda yazdığı məqalə və monoqrafiyalarında tarixi təcrübə ilə elmi-nəzəri düşüncə vəhdət təşkil edir. Ədibin fəlsəfi mühakimələri ilə bədii publisistik axtarışları qovuşuq şəkildə ifadə olunur. Ə.Ağaoğlunun din mövzusunda yazdığı əsərlərin başında 1892-ci ildə Londonda keçirilən «Müştəşriqlər» (Şərqşünaslar) konfransında iştirak edərək burada söylədiyi «Şiə məzhəbinin mənbələri» adlı məruzə dayanır. Bu məruzə həmin adla Kembric universiteti tərəfindən ingiliscə çap olunur və müəllifinə böyük elmi uğur qazandırır. Ə.Ağaoğlu bundan sonra bir-birinin ardınca Azərbaycanda dini mövzuda «İslam və Axund», «İslama görə və islamlıqda qadın», «Əmir-əl-möminin Əli ibn Əbu Talibin vəfatı», «Mövludi-nəbəviyyə», «Rük və Kərbəla» və s. adlı əsərlərini çap etdirir, islamşünas alim kimi tanınırdı. Ədib özünün «Aləmi-islamə bir nəzər», «Bunun axırı nə olacaq?», «Eydi-fitr və cəmiyyəti-xeyriyyə», «Müfsidlər», «Yəsmi, şəəfmi?», «Hicrəti-kübra» və s. onlarla bu kimi məqalələrində də həmin suala cavab verməyə çalışır, hər şeydən öncə mövcud ictimai-tarixi gerçəkliyin mahiyyətini müasirlərinə anlatmağı, baş verən hadisələr barədə həqiqətləri söyləməyi, «əsr təqazasınca» düşünməyi ön plana çəkirdi.

Həmin məqsədlə Ə.Ağaoğlu yazırdı: «Pəs insandır öz səadət və nikbətini, rəfahiyyəti-vəfaqiyyətini yaradan! Odur özünü bəlaya salan və odur özünü bəladən xilas edən! Bir şəxs və ələlxüsus bir cəmaət istəsələr özlərini həm xoşbəxt və həm bədbəxt edərlər: bir fransız həkimi deyirdi ki, insan üçün istəmək bacarmaqdır, hər kəs ki, bacarmıyor istəmiyor.

Cəmi təvarix, ələlxüsus biz müsəlmanların tarixi bu əmrin təsdiqi üçün bir şahidi-fəsihdir!».[1]

Tarixə tənqid və təhlil meyarları ilə yanaşan Ə.Ağaoğlu onu «dalğalı və köpüklü bir dənizə» bənzədir, müsəlmanların «bu tarix dənizində» gedəcəyi yolu düzgün müəyyənləşdirməsini tələb edirdi. O bildirirdi ki, «əcnəbilərin seyrə balonlarla çıxdığı» bir vaxtda özünü və cəmiyyətini düşünməyən xalqlar tarix qarşısında, gələcək nəsillər qarşısında aciz qalacaq və başqa millətlərin təsirinə dözməyəcəklər. Odur ki, Ə.Ağaoğlu deyirdi:

Əvət! Bir millət ki, təqazayi-zəmanəyi, ləvazimati-dövranı düşünüb də əql və dərrakə sayəsində bu müqtəziyyat və ləvazimatə görə rəftar edə, heç vəqt məhv və nabud olmaz. Vay, o taifənin, o millətin əhvalına mühiti-əsrdən gözünü yumub, zəmanəyə qulaq verməyib kor-koranə bir dəfə olduğu halətdə inad edib qala! Bu günə taifələri zəmanə və əsr əzib keçir».[2]

Əhməd bəy Ağaoğlu Avropanın ən yüksək elm və təhsil mərkəzlərinin işi ilə yaxından tanış idi və nəzəri hazırlığı da həmin səviyyəyə uyğun gəlirdi. Lakin buna baxmayaraq o doğru olaraq həmvətənləri ilə həm «əvami-xas»ın, həm də «əvami-nas»ın, dili ilə danışır, yəni ziyalı və kübar təbəqə ilə, habelə sadə kəndli ilə onların «öz dilində» danışmağı məqsədəuyğun bilirdi. O göstərirdi ki, «Quran»da buyurulan «mənim bilmədiklərim mənim düşmənimdir» fikrinə istinad etməli, elm, sənət və mədəniyyətin rolunu da bunda axtarmalıyıq. Həmin məntiqə üstünlük verən Ə.Ağaoğlunun dünyagörüşündə bu səbəbdən dünyanın müxtəlif üsullarla dərki, təsviri və təhlilinə xidmət edən çağdaş elm, sənət və mədə-

[1]Əhməd bəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 12 iyul 1906-cı il, №163.

[2]Əhməd bəy Ağaoğlu. Aləmi-islamə bir nəzər. «İrşad» qəzeti, 11 dekabr 1907-ci il, №126.

niyyət sahələri fanatizm, cəhalət və xürafata qarşı qoyulur, sağlam dini düşüncə ilə dünyəvi elmlərin vəhdəti sayəsində insanın özünü təsdiq edə bilməsi əsas götürülürdü. Ağaoğlu yazırdı: «Dünya dünyanın üzündə məişət edən, sakin olan cümlə məxluqundur! Cəmi aləmi-insaniyyətin ixtiyar və həqqi var ki, cəmi aləmdən bəhrədar olsun! Heç bir millətin həqq və ixtiyarı yoxdur ki, bir yeri tutub da cəhl və cəhaləti, öz nadanlığı sayəsində həm özünü və həm qeyrilərini bu yerin bəhrə və faidəsindən məhrum etsin!»[1]

Göründüyü kimi bir sıra müasirlərindən fərqli olaraq ümumbəşəri mövqedə dayanan Ə.Ağaoğlu insanlar arasında sinfi bərabərsizliyi deyil, «aləmi-insaniyyətin ixtiyar və həqqi»ni düşünür, onun «aləmdən bəhrədar» olmasını elm və mədəniyyətlə əlaqələndirirdi. Ə.Ağaoğlu əski təsəvvürlər və ənənəvi davranış normalarından xilas olmaq məqsədi ilə cəmiyyətin etik və estetik görüşlərində islahat aparmağı vacib bilirdi. Bunun üçün ailə əxlaqı və cəmiyyət həyatında milli dəyərləri qorumaqla, mənəvi azadlıq və dünyəvi düşüncəni vəhdətdə götürməklə Ə.Ağaoğlu əsrlərdən bəri ehkama çevrilən, doqmatik prinsiplərə əsaslanan, dini-mistik təfəkkürü tənqid edirdi. O milli tarix həqiqətlərinə bu mənada tənqidi yanaşır, baş verən hadisələri təftiş yox, təhlil etməyi məqsədəuyğun bilir, keçmişi ideallaşdırmaq yox, ondan müsbət nəticə çıxarmağı tövsiyə edirdi. Ə.Ağaoğlu dünyabaxışı və elmi-nəzəri görüşlərində irəli sürdüyü prinsiplərə şəxsi yaradıcılığında əməl edərək yazırdı: «Beş-altı yüz ildən bəri islam içində adına arif və ya həkim deyən şəxslər bir ani göydən yerə enməyiblər. Məsailidiniyyə və dünyəviyyəyi bilmərrə unudub əvalimi-xəyal və töhmətə məşğul oldular. Hər kəs özü üçün bir aləmi-mövhum götürüb seyr etdi və seyr etdikcə qəribə və əcaib aləmlər açdı. Lakin cümləsi bir mətləbdə müttəhid oldular. O mətləb də budur: «dünya nə qədər artıq

[1] Əhməd bəy Ağaoğlu. Bunun axırı nə olacaq? «İrşad» qəzeti, 3 iyun 1908-ci il, №79.

unudulsa, insan nə qədər artıq fəqir və məzlum olsa, aləmi-xəyal nə qədər artıq pəhən və açıq olsa guya bir öylə yaxşıdır»[1].

Göründüyü kimi Ə.Ağaoğlu milli tarixə tənqidi münasibət bildirərkən «adına arif və ya həkim deyən şəxsləri» ideallaşdırmır, onların elm və irfan sahibi olmasını qəbul etməklə yanaşı nəzərə çatdırır ki, həmin şəxslər «göydən yerə enməyiblər», onlar tarixin yetirməsidirlər. Ayrı-ayrı yaradıcı şəxsiyyət, hökmdar, sərkərdə və şairlərə tənqidi mövqedən yanaşan Ə.Ağaoğlu «islam içində» yetişən bir sıra şəxsləri «aləmi-xəyal»ə uymasına, «aləmi-mövhüm götürüb seyr etdiyinə», habelə milli şüurda «qəribə və əcaib aləmlər açdığına» görə və bu əsasda ehkam və doqmatizmə meydan yaratdıqlarına görə ittiham edirdi. O həmin ehkamların mövcud zaman həqiqətlərini dərk etməyə ciddi maneə olduğunu vurğulayır, Azərbaycan xalqının sivil dünyaya qovuşması üçün yeni yollar arayırdı. Bunun üçün Ə.Ağaoğlu çağdaş ictimai-siyasi proseslərin mahiyyətini düzgün müəyyənləşdirməyi mühüm vəzifə bilir və həmin münasibətlə yazırdı: «Hər bir millətin tərəqqi və təalisi və həmçinin tərəqqi və tənəzzülü məlum və məşhur qeyri-qabil təbdil qanunlara tabedir. Bu qanunların arasında iki ümdəsi təkamül (Gvolution) və inqilab (Revolution) denilən qanunlardan ibarətdir... Bir millətin təbəqə və sinifləri arasında toqquşma, xüsusiyət vücudə gəliyor. Təkamülün ikinci pilləsi haman bu halətdir. Bu halətə elm istilahında differensiya (Defferencie) deyirlər».[2]

Ə.Ağaoğlu Azərbaycanı müsəlman aləminin ayrılmaz bir hissəsi kimi qiymətləndirir, islamı qılınc gücünə deyil, «əql, kəmal və irfan» ilə qəbul edən həmvətənlərinə onun tarixi inkişaf yolunu izah edirdi. Məhəmməd peyğəmbər və

[1] Əhməd bəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 12 iyun 1906-cı il, №163.

[2] Əhməd bəy Ağaoğlu. Yəsmi, şəəfmi! «İrşad» qəzeti, 13 iyun, 15 iyun 1908-ci il, №88.

onun ailəsi, həyat tərzi haqqında, «Quran»ın müqəddəsliyi barəsində danışan Ə.Ağaoğlu islamın təməl faktorlarını mühafizə etməyi – qorumağı vacib sayırdı. O bildirirdi ki, allah kəlamı ilə insan kamillik dərəcəsinə çatıb. Klassik Azərbaycan elmi-fəlsəfi və ədəbi-bədii fikrinə, eləcə də Şərq fəlsəfəsi və ədəbiyyatı tarixinə, istinad edən Ə.Ağaoğlu «Quran»ı dünyanın dərki vasitəsi sayır, onun məntiqi ilə yaşamağı cəmiyyət həyatının əsas göstəricilərindən hesab edirdi. O deyirdi:

«Ayati-allah möcüzdür və möcüzün nəticəsi olaraq Quranın hər ayəsi cəmi islamə, islamlığa havi və caizdir. Bu ayə isə qəlb və ruhi-islamdır: «Xəlayiqi dəvət et, yəni mücahidə et, iltifatını, qəlbini təmiz saxla, xeyr işlərdə, etdiyin xeyratda özgələrə minnət qoyma, allahın xahişlərinə təslim olub hər bir məşəqqət və zəhmətə səbr və dəvam et». Nə gözəl hökm, nə ali fərman!

İnsanları dərəceyi-heyvanatdan xilas edib məratibi-namus, fələkut, mələkut və lahuti seyr etdirib övci-əlayi-vüsalə çatdıran haman bu ayəyi-hidayətamizin məna və məzmununa əməl etmək degilmi?![1]»

Bununla yanaşı Ə.Ağaoğlu digər müasirləri kimi islam tarixinə münasibətdə, xüsusilə din xadimlərinin ictimai şuarda formalaşdırdığı mütilik, asketlik, tərki-dünyalıq əhvalruhiyyəsinə münasibətdə barışmaz mövqe tuturdu. O Azərbaycanın islam dünyasının tərkib hissəsi soymaqla yanaşı bildirirdi ki, müsəlmanların elmi və mədəniyyət tarixində nə varsa ona varis kimi yanaşmalıyıq. Elə bana görədir ki, islam aləmini bir bütöv halında qiymətləndirən Ə.Ağaoğlunun irsi sovet hakimiyyəti illərində tənqidə məruz qalır, özü «panislamist» kimi xarakterizə olunurdu. Sovet Azərbaycanında «panislamist» sayılsa da dünya islamşünasları, xüsusən də

[1] Əhməd bəy Ağaoğlu. Eydi-fitr və cəmiyyəti-xeyriyyə. «İrşad» qəzeti, 5 noyabr 1906-cı il, №258.

Türkiyə və İran teoloqları onu modernist islam filosofu kimi dəyərləndirir, yaradıcılığından bəhrələnirdilər...

XX əsrin əvvəllərində Azərbaycan elmi-ictimai fikrində ilk dəfə «bütöv islam» obrazını yaradan və ona bədii səciyyə verən də Ə.Ağaoğludur. Ədibin «xadimi-millət» imzasıyla çap etdirdiyi «İslam, Axund və Hatifülqeyb» (Bakı, 1902) əsəri bu mənada diqqətəlayiqdir. Əsərdə İslam zəif, yoxsul, natavan cındır geyinmiş, arıq bir kişi surətində təsvir olunur. Göstərilir ki, İslamın tənəzzülünün əsas səbəbi «ruhani atalar»dır. Çünki, onlar və onların «qayırma hədislər»i xalqı dindən uzaqlaşdırıb və dinə düşmən edib. Bədii publisistik və elmi üslubda yazılan bu əsər İslam və Axundun sosial-fəlsəfi məzmun daşıyan dialoqları üzərində qurulub. Əsərdə M.F.Axundovun «Kəmalüddövlə məktubları»nın və Z.Marağalının «İbrahimbəyin səyahətnaməsi»nin təsiri görünməkdədir. Əsər çap olunduqdan az müddət sonra onun haqqında yazılan bir resenziyada deyilirdi: «Bu günlərdə tatar dilində yeni kitab – «İslam və Axund» çapdan çıxıb satışa buraxılmışdır. Bu öz məzmununa görə ciddi əxlaqi səciyyəli məsələlərə toxunan ilk tatar broşurasıdır. Kitabça müəllifi «Xadimi-millət» («Xalq xadimi» mənasında olan ləqəbdir) şəxsləndirilmiş İslami ruhani xadim Axundla dialoq şəklində danışdırıb müsəlman həyatının bir sıra düşündürücü, canlı məsələlərinə toxunur. Axundun dili və ruhanilərin əqli və əxlaqi görüşlərindəki elə nöqsanları meydana çıxarır ki, onlar müsəlmanlara arzuolunmaz təsirlər göstərir. İslam ruhanilik nümayəndəsinə çox suallar verir: o, dini necə başa düşür, müsəlmanlar arasında nəzərə çarpan əxlaqi təmayüllərə necə baxır, dinin həyatla daha bağlı olan bu və ya başqa hökmlərini necə dərk edir? Axundun söz oyunbazlığından, həyatın ən ciddi məsələlərinə səthi münasibətindən doğan cavabları oradaca Quran mətnləri arasında yoxlanılır, onun əxlaqi cəhətdən yekəxana iddiaları və riyakarlığı oxucunun gözləri qarşısında qabarıq halda canlanır.

Qədim klassik faciələrdəki xora bənzər əsrarəngiz səsli üçüncü bir şəxs – Hatifülqeyb də var. Hansı ki, özünün acı, kəskin iradları ilə söhbətə qarışıb, ona xoş, oynaq bir şuxluq gətirir. Məzmunun ciddiliyinə baxmayaraq, kitabın dili sadə və anlaşıqlıdır.

Müəllif müsəlman həyatındakı nöqsanlardan çoxunun haradan irəli gəldiyini, müsəlman əqlinə təsir edən şərin kökünün harada olduğunu göstərdiyindən müsəlman oxucular əsərdə özlərini maraqlandıran çox suala cavab tapacaqlar».[1]

Ə.Ağaoğlu ümumislam tarixi həqiqətləri və Azərbaycan dini düşüncə gerçəkləri fonunda qələmə aldığı «Müsahibəyi-islamiyyə; İslam, Axund və Hatifülqeyb» əsərində İslamı canlı orqanizm kimi təqdimə çalışır, məşhur türkoloq Vamberinin «İslam» əsərinin təsiri ilə Məşriqi-Şərqi «qoca və xəstə»[2] surətində təsvir edən Həsən bəy Zərdabinin «indi Məşriq elm yollarını xalqdan gizlin saxlayır»[3] qənaətinə haqq qazandırır, «islamda olan hikmətlər heç bir məmləkətdə yox idi»[4] deyən milli mətbuat banisinin davamçısı olaraq o «sahibi-zəka kişinin» «böyük və azarlı cəsədə oxşatdığı» möhtəşəm Müsəlman obrazının sağlamlığı qayğısına qalırdı. Lakin bu ictimai və ədəbi-tarixi mövqe nəinki xürafatçı din xadimləri, hətta Ə.Ağaoğlunun bəzi opponentləri tərəfindən də kəskin tənqidlə qarşılanmışdı. Misal üçün «Şərqi-Rus»un naşiri və redaktoru Məhəmməd ağa Şahtaxtlı öz hiddətini gizlətməyərək deyirdi: «Müsahibəyi-İslamiyyə» adlı çıxardığı risaləsində əimmə şiəlik, əimmə əthar və üləmayi-imamiyyə barəsində hər bir ədəbsizlik və istehzanı özünə rəva görüb, şiə məzhəbinin nəüzü-billah (Allah eləməsin) bir tə-

[1] Bax: Məmmədov X. Xadimi-millət kimdir? «Azərbaycan» j., 1998, №8, s.154.
[2] Daxiliyyə, «Əkinçi» qəzeti, 1876, №9.
[3] Yenə orada
[4] Yenə orada

qəllübdən, adam aldatmaqdan, cib kəsmək kibi bir rəzil canidən ibarət olduğunu isbat etməyə çalışır.

Əvamın (camaatın) gözündə iki dəqiqəlik bir şöhrət qazanmaq və ya panislamist qəzetlərindən bir təhsin almaq üçün Əhməd bəy kimi məsləksiz, əxlaqsız, ağılsız adam nələr tapmaz».[1]

Əsər dövrün görkəmli maarifpərvər messenatı H.Z.Tağıyevin «hüzuri-alilərinə» müraciətlə yazılıb və Bakıda doktor Əbdülxalıq Axundovun «əvvəlinci şirkət» mətbəəsində çap olunub. «İslam, Axund və Hatifülqeyb» az müddətdə ədəbi- ictimai mühitdə böyük əks-səda doğurmuş və haqqında dəfələrlə danışılmışdır. F.Köçərli, M.Şahtaxtlı, H.İ.Qasımov və başqalarının məqalələrində əsərə geniş təhlil verilmişdir. Əsərdəki «üçüncü şəxs», Hatifülqeyb şübhəsiz ki, Ə.Ağaoğlunun prototipidir və onların xarakterik cizgiləri bir-birinə çox oxşardır. Bu əsərin ədəbi-ictimai mühitdə səsküy yaratmasını bildirən H.İ.Qasımov onun çapından on il sonra 1912-ci ildə yazırdı: «Bakıda bir neçə il bundan əvvəl Əhməd bəy Ağayev cənabları «İslam və Axund» adında bir kitabça nəşr etmişdi. Bu kitab nəşr olunan günün sabahı neçə nəfər adam Əhməd bəyin evinin qarşına gedib ona föhş verməkdən belə çəkinmədilər. Amma indi o şəxsləri əhvali-aləm öylə dəyişmişdir ki, haman kitabçayı yanından belə ayırmayır. Cahil müsəlmanlara haman kitabçayı oxuyub şərhi-bayan edir».[2]

Lakin heç bir «föhş və böhtana», təhqir, təzyiq və təqiblərə baxmayaraq Ə.Ağaoğlu öz mövqeyindən geri çəkilmir, «Aləmi-islamın tədavisini» vacib bilir, «Nədən bu günlərə qaldıq?» sualının cavabını arayırdı. Çoxsaylı və silsilə məqalələrində Ə.Ağaoğlu müasirlərinin istəklərindən çıxış edir, onların demədiyi və deyə bilmədiklərini gur səslə oxu-

[1] Məhəmməd ağa Şahtaxtlı. Seçilmiş əsərləri. Bakı, «Çaşıoğlu» n., 2006, s.75.

[2] «İqbal» qəzeti, 18 may 1912-ci il, №63.

cuları çatdırırdı. Ə.Ağaoğlunun islami görüşləri Şeyx Əbdo, Şeyx Cəmaləddin Əfqani və Ərəbi Paşanın elmi-dini düşüncələri ilə üst-üstə düşür. Ədibin ideya və məslək dostu Ə.Hüseynzadə və XX əsr Azərbaycan maarifpərvər ziyalıları, habelə «inqilabi-demokratik mübarizənin görkəmli xadimləri həmişə ona dəstək olmuş, islahatçı-reformist təşəbbüslərinə həmrəylik ifadə etmişlər. Müasirlərinin «aləmi-islama» ədəbi-bədii münasibətini Ə.Ağaoğlu belə xatırladır:

«Sahibi-zəka kişilərdən birisi bu günkü islamı bir böyük və azarlı cəsədə oxşadıb, nə gözəl oxşatmaq?!» Başı İstanbulda, qolları bir tərəfdən Çini-Maçinə qədər, o biri tərəfdən Mərakeşə qədər uzanmış və ayaqları Hindustan və Yava cəzirələrində olan bu böyük cəsəddə ancaq bir axır rəmiq qalmış; bədəni başdan ayağə cərahətli, xunalud, əzaları yaralanmış, təhərdən çıxmış, burada ayağın biri kəsilmiş, orada qolu, digər yerdə beli sınmış, bu azarlı haləti-nəzidə axır nəfəsidir. Lakin bu axırıncı nəfəsi nəyə işlədir?

Haman əbavü əcdaddən qalmış, onu bugünə salmış mübahisələrə, burada şiə şiəligini, orada sünni-sünniligini isbatə yetiriyor. Sünnilər də dörd parça olub və hər parça da öz arasında min-min şöbə olub hər kəs özünün həqqaniyyəti barəsində dəm vurur. Şiələrə gəlincə birisi üsuli, birisi şeyxi, digərləri, kərimxani, babi, sufi, ismaili, zeydi və qeyri-qeyri olub bir-birilə heç bir mənfəəti-diniyyəviyə, axırı olmayan mübahisələrə məşğuldurlar. Mübahisə nədir, bir-birilə cəngü cidal, ədavət edərlər!».[1]

Ə.Ağaoğlu müsəlman aləminin mədəni tərəqqisinə manea olan səbəbləri müəyyənləşdirir, onun birliyi və bütövlüyünə zərər vuranlara diqqət yönəldirdi. Həmin mövqedə dayanması, islam coğrafiyası miqyasında problemlərə aydınlıq gətirməsi Ə.Ağaoğlunu müsəlman dünyasının mütə-

[1] Əhmədbəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 5 iyul 1906-cı il, №157.

fəkkiri kimi tanıdır, onun «düzü düz, əyrini əyri söyləməsi» ədəbi-ictimai mühitdə rəğbətlə qarşılanırdı.

Ə.Ağaoğlu islamçı görüşlərində də irs-varislik əlaqələrinə əsaslanır, onun müasir həyatda oynadığı rola mühüm əhəmiyyət verirdi. Ədibin ictimai-mədəni, tarixi və müasir həyatı vəhdətdə təhlil etməsi imkan verirdi ki, o həm də tənqidi mülahizələrini söyləyə bilsin. Bunu Ə.Ağaoğlunun istər rus, istərsə də anadilli əsərlərində aydın görmək mümkündür. Ədib həmin məqsədlə deyirdi: «Hər koca mirəvi asiman haman rəng əst!». Nerəyə gediyorsun, get, müsəlmanlar haman zillət və pərişanlığa, haman xarlıq və sərnigunluğa giriftardırlar.

Hankı taifə olursa olsun, hər yerdə olursa olsun, fəqət müsəlman olduqda zülm və cəfayə, sitəm və xarlığa giriftar olacaqdır. Hər yerdə haman halət, haman övzai, yəni fəqri-vəfaqət, elmsizlik, məktəbsizlik, pərişanlıq, cəhalət, ədəmi-ittihad və vəfalıq!»[1]

Nümunədən göründüyü kimi milli tarixi problemlərin hələ də qaldığını kədərlə qarşılayan Ə.Ağaoğlu mövcud vəziyyətlə barışmır, onun aradan qaldırılması zərurətini irəli sürürdü. Ədib islam dini mühitini təsvir və təhlil edərək onun tarixi və müasir vəziyyətinə diqqət yönəldir, ayrı-ayrı «üləma, hükəma və üdəbanın» şəxsiyyəti və xidmətlərini yüksək qiymətləndirirdi. İslam dini tarixinə moralist (əxlaqpərəst) prinsiplərlə yanaşan Ə.Ağaoğlu müxtəlif fakt, hadisə və sənədlərə əsasən fəlsəfi mühakimələr yürüdür, onlardan ibrət götürməyi vacib bilirdi. Bu zaman o yalnız islam dini deyil, ümumiyyətlə dünya dinləri arasında ideya əlaqələrinə mühüm əhəmiyyət verir, haqq, ədalət və mənəvi azadlıq meyarlarını ön plana çəkirdi. Həmin tələblərə cavab verməyən çağdaş ictimai vəziyyəti tənqid edərək ədib özünün şəxsi kədərini obrazlı şəkildə nəzərə çatdırırdı. «Millət qeyrəti ilə

[1] Əhməd Ağaoğlu. Zillətmi, müsəlmanlıqmı?! «İrşad» qəzeti, 8 may 1906-cı il, №134.

qəlbi vərəmli olan, islam himməti ilə ruhu mücəssəm olan, insaniyyətə xidməti özü üçün vəzifeyi-müqəddəsədən ədd eədn, millətinin, taifəsinin ələldəvam tərəqqi, təali etmək arzusunda olan bir mücalüd bahadıru göz önündə haman o sanki, qəlbini, ruhunu fəda etdiyi milləti cəhl və cəhalətə, fəsad və zülamə, rəzalət və səfalətə və ələlxüsus bir tağım dərdə, vəhşi həvavü həvəs, keyfi-mayeşayə və iğrazi-şəxsaniyə dənayətlərinə mübtəla olmuş binamusların əllərində xar və zəlil gördükdə təbii degilmi ki, bu mücahid bahadıra yəs və naümidlik ariz olub özündən, vətənindən, millətindən, göydən-yerdən və varlıqdan belə ikrah və tənəffür etməsin?!»[1]

Sovet dövrü tədqiqatçılarının birmənalı şəkildə «panislamist» kimi qiymətləndirdiyi Ə.Ağaoğlu islamın tarixi keçmişinə dair həqiqətləri örnək seçib ondan gen-bol bəhrələnməyi, bir sıra hallarda «müsəlmanların yaşıl bayrağına» sevgisini, bariz şəkildə, pafosla söyləsə də onları ideallaşdırmır, əksinə müasirləri kimi müsəlman aləmindəki «qaranlıq və dərin quyuları» kəskin tənqid edirdi. Bu zaman o Avropa şərqşünaslığının realist prinsiplərinə əsaslanır, səmavi kitablara toxunulmaz, anlaşılmaz məxəz kimi yox, gerçək həyat vasitəsi kimi baxır, dini düşüncənin modernizə olunması əleyhinə çıxanların mövqeyini rədd edirdi. O «Quran»ın Azərbaycan dilinə tərcüməsi ilə bağlı deyirdi: «Binayi-aliyə əgər bu alimnümalərin qəsdi islamə və Quranə xidmət etmək isə gərək daireyi-ədəbdə tənqidlər yazıb tərcümənin qüsuratını görkəzsinlər!

Bəndənin gümanınca Mir Məhəmməd Kərim cənabları bu günə tənqidlərdən rəncidə-xatir olmaz. Bərəks çox minnətdar olarlar.

Təəccüb burasıdır ki, Quran fars dilinə (Təfsiri-molla Fətulla), osmanlı dilinə (Tabiyan), hindu dilinə və qeyri-islam dillərinə tərcümə olunmuş. Tənha bizim bu xaraba vila-

[1] Əhməd bəy Ağaoğlu. Naümidlik. «İrşad» qəzeti, 16 oktyabr 1906-cı il, №244.

yətimizdə heç bir şeyə və işə iqdam etmək olmuyor! Quru iğrazi-şəxsiyyəyə, övhamati-nəfsaniyyəyə aludə olanlar meydana atılıb insanın balü-pərini qırıyorlar».[1]

Ə.Ağaoğlu dünyanın sivilizasiya tarixində dinlərin müstəsna rol oynadığını tez-tez xatırlatsa da, onun ehkamlarına müasirlik mövqeyindən yanaşırdı. Bu mənada ədibin islama qədərki dövrlə sonrakı mərhələni qarşılıqlı təhlil etməsi, islam və xristian dinlərini tarixi-müqayisəli üsulla öyrənməsi, hər bir fakta bəşərilik və müasirlik meyarı ilə qiymət verməsi son dərəcədə diqqətəlayiqdir. XX əsrin əvvəllərində Azərbaycan ictimai-mədəni mühitində, xüsusilə materialist düşüncənin dəbə mindiyi bir vaxtda, bolşevizm-sosializm ideyalarının gücləndiyi zamanda bu mövqe mühüm əhəmiyyətə malik idi. Ə.Ağaoğlu ictimai-siyasi fikir və mədəniyyət tarixinə ümumbəşəri tələblərlə yanaşı, «bəni-növi-bəşərə» faydası olan elm və sənət sahələrinin Azərbaycanda yayılmasını vacib bilirdi. O, islamın təşəkkülü dövrünü bu baxımdan xatırladır, ərəblərin bütpərəstlikdən, qəbilə münaqişələrindən qurtulmasında dinin böyük rol oynadığına diqqət yönəldirdi: «Musalər, İsalər dünyaya gəlib getdilər. Yunandan, Rumdan başlamış Çinədək böyük-böyük səltənətlər, dinlər məhv və nabud oldular. Ancaq tənha ərəb Şəbb cəzirəsi və ərəblər öz bütpərəstliklərinə alışıb müxtəlif qəbail arasında nəzai, xüsumət, ədavət dəvam etməkdə idi.

Yəhudi və xristian dinlərini ərəb arasında intişar etməkdən ötrü gələn dayələr səm yellərindən zəhrəçak olub və yainki qum dəryalarına batıb ölümdən qeyri bir şey bulamadılar.

Haman Lat, Üzra, Mənat, Şəms, Təriqlər min illərcə ərəblərə allahlıq edib ərəb uşaqlarının qurban ünvanı ilə qanlarını tökməkdə idilər.

[1] Əhməd bəy Ağaoğlu. Bunun axırı nə olacaq? «İrşad» qəzeti, 3 iyun 1908-ci il, №79.

Haman beytülhərəmin səhnində nəsb olunmuş ənsablər (böyük daşlar) mövsimi-həccdə bu uşaqların qanları ilə aludə olmaqda idi.

Haman binizamlıq, biqaidəlik, cəhalət, fisq, fücur, zülm, təəddi dəvam etməkdə idi.

Külli-millətlər arasında sərnigun olan bu taifə dünyanın ən cahil, ən bədəi, ən qeyri-qabil əqsami hesab olunmaqda idi.

İştə kimin ümidi olardı ki, nuri-həqq, ziyayi-hidayət mükəmməl və təmam bir surətdə haman qitədən zühur etsin?!»[1]

Azərbaycanda ictimai mədəniyyətin və sosial düşüncənin islahına çalışan Ə.Ağaoğlu «elmsizlik, vətənsizlik, dilsizlik, əqidəsizlik və əməlsizlik»dən şikayət etməklə kifayətlənmir, həm də bunların aradan qaldırılmasında fəallıq göstərirdi. İslamı sonuncu və mükəmməl din, Məhəmməd peyğəmbəri isə Allahın sonuncu elçisi bilən Ə.Ağaoğlu «kürreyi-ərzin» bütün nöqtələrinə eyni gözlə baxır, budda, xristian, brəhmən və iudaizmi birləşdirən ortaq məqamlara aydınlıq gətirirdi. O dövrünün liberalizm, klerikalizm, sosializm kimi ictimai-siyasi fikir axınlarına və tarixin təcrübəsindən keçən elm və sənət nəzəriyyələrinə dünyanın doğru-düzgün dərki şərhi üsulu kimi baxır və bunların cəmiyyətin inkişafında yerini müəyyənləşdirirdi. Səmavi kitablara, Allah kəlamına və peyğəmbər sözünə inam gətirməyi də Ə.Ağaoğlu həmin məqsədlə vurğulayırdı. Ədib «Hicrti-kübra» adlı əsərində bu münasibətlə deyirdi: «Həzrət buyurdu: «Bilin və agah olun ya Al-qüreyş! Mən sizi buraya cəm etmişəm bir olan və yeri-göyü yaradan allahımın fərmanı ilə! Məni və Sizi yaradan o bir tanrı məni Sizə peyğəmbər göndərib və mənə buyurub ki, Sizi haqq olan yola dəvət edib Sizi zülməti-cəhalətdən çıxarıb nuri-fəlahətə hidayət edim! O bir xa-

[1] Əhməd bəy Ağaoğlu. Mövludi nəbəviyə. «İrşad» qəzeti, 18 aprel 1908-ci il, №72.

liqi-vahiddir ki, kövni-məkanda cəmi mövcudatı yaradıb tərbiyə verir; hər şeyə buyuranda ol olur, olma olmuyor! Onun qəbzeyi-iqtidarındadır mənim və sizin həyatınız! Odur yeri və göyləri yaradan! Odur külәkləri əsdirib yağışları yağdıran! Odur dirilikdən ölüm və ölümlükdən dirilik çıxardan! Onu göz ilə dərk və ya hiss ilə məhsus etmək olmaz! Onun zatının künhündə hiss nədir, əql və xəyal mütəhəyyir və matdır! Anadan olmayıb və olmaz, şəriki və misalı yox, zatiyekta və bihəmtadır, nə əvvəli var və nə axırı. Lakin həm əvvəldir, həm axır! Əgər belə bir tanrıya şəhadət edib və mənim onun rəsulu olmağıma iman gətirsəniz, yəqin ki, nicat və fəlahətdə olursunuz və əgər ata-babanıza müqtədi olub öz əliniz ilə qayırdığınız bütlərə itaət edəsiniz, yəqin ki, zalım və zəlil qövmlərdən olursunuz! Haqq gülüb, batil gərək puç olsun. Çünki, külli-batilin xüsusiyyəti puçluqdur».[1]

XX əsrin əvvəllərində Azərbaycan ictimai-mədəni mühiti və sosial-siyasi şüurunda «dərin quyular», «qaranlıq dünya», «Qırmızı qaranlıqlar» mövcud ikən Ə.Ağaoğlunun dinlər və mədəniyyətlər arasında ortaq məqamlara üstünlük verməsi, «Haqq gülüb, batil gərək puç olsun» istəyi, habelə «ata-babaların dar cildinə girib» onların görmyən gözləri ilə ətfi-nəzər qılmaq»dan uzaqlaşmaq arzusu, milli-etnik təfəkkürdəki ehkamlardan xilas olmaq tələbi yüksək rəğbətlə qarşılanırdı. O nəzərə çatdırırdı ki, «səadəti-millət ata-baba donuna bulaşmaqdan və qədim adat və rüş əlində əsir olmaqdan ibarət olmayıb, əql və zəka, şüur və hünərə piruyi olmaqdan ibarətdir».[2]

Ə.Ağaoğlunun gənclik illəri və təhsil dövründən ömrünün sonunadək təqib etdiyi ədalətpərəstlik, doğrunu söyləmək iddiası onun ilk məqalələrindən tutmuş sonuncu əsərlərinədək bütün yaradıcılıq məhsullarında özünü göstərir. Di-

[1] Əhməd bəy Ağaoğlu. Hicrəti-kübra. «İrşad» qəzeti, 19 may 1906-cı il, №117.

[2] Ə.Ağaoğlu. Hicrəti-kübra. «İrşad» qəzeti, 19 may 1906-cı il, №117.

gər tərəfdən ədibin ensiklopedik biliyə malik olması onun rəngarəng mövzulara aydınlıq gətirməsinə, dövrün ən ciddi, ziddiyyətli məsələlərinə birmənalı münasibət bildirməsinə hər zaman rəvac verib. Onun din, əxlaq, fərd, şəxsiyyət, ailə, cəmiyyət, hüquq, dövlət, hökumət, siyasət, millət, azadlıq, mədəniyyət və s. bu kimi məsələlərə dair elmi-nəzəri mülahizələri həmin fikri təsdiqləməkdədir. Misal üçün ictimai-tarixi və ədəbi-mədəni həyatda şəxsiyyətin rolunu dünya təcrübəsinə, Şərq və Qərb gerçəklərinə nəzərən müəyyənləşdirən Ə.Ağaoğlu «Kafər-müsəlman», islam-xristian qarşıdurmasını birmənalı şəkildə tənqid edir, tarixi prosesləri düzgün təhlil edib onun gedişinə müsbət mənada təsir göstərən şəxsiyyətləri bütün dünyanın tərəqqisi üçün «məşəl və nişangah» sayırdı. Bu mənada ədib İsa və Məhəmməd peyğəmbərləri vahid tarix səhnəsində görür və onları bəşəriyyətin mədəni-mənəvi təkamülündə yölgöstərən hesab edirdi. O yazırdı: «Əgər dünya üzrə sakin olan bir milyar altı yüz milyon insanların ruhlarını, qəlblərini, övzai-əhvallarını, əfkar və həvəslərini dürüst təftiş və təchis edəsən, məlum olar ki, cümləsi biruh, biqəlb, biəfkar və bihəvəs olub, ancaq qeyrilərin ərvah və qəlbləri ilə, qeyrilərin əfkar və həvəsilə zist və məişət ediyorlər. İştə bu qeyrilər haman məşəllərdən, nişangahlardan ibarətdir ki, işarə olundu.

Beş yüz milyon xristianların əksər əfkari-həvəsləri, ruh və qəlbləri haman **İsa əleyh-əl - islamın** və ona mənsub taifələrin bərgüzidə etdiyi bir qədri-əfkari-ali sahiblərinin ruh və qəlblərindən ibarətdir.

Və həmçinin dörd yüz milyon müsəlmanların binayihəyat və məişətləri, məxəzi-əfkar və hissləri, ərvah və qəlbləri haman peyğəmbərimiz **Məhəmməd-əl-Mustafa əleyh-əl islamın** və ona mənsub taifənin bərgüzidə etdigi zəvaəti-kiramilərin əfkar və hissləri, ərvahi-qəlbləridir.

Hər sahibi-bəsirət üçün haman bu nöqtə bəsdir ki, bu günə zəvati-kiramilərin nə dərəcədə böyük, nə dərəcədə aliqədr olmaqlarını bəyan etsin».[1]

Ə.Ağaoğlu Qərb və Şərqi ənənəvi olaraq yalnız dini fərqlər, kafər və müsəlman qarşıdurması müstəvisində görmür, əksinə daha geniş planda – elm, mədəniyyət, tarix, ədəbiyyat, siyasət sahəsindəki uğur və uğursuzluqlar, ümumbşəri nailiyyətlər və geriliklər miqyasında araşdırırdı. O «İslam və xristianlıq» məqaləsində bir tərəfdən Şərq-Qərb qarşıdurmasının tarixi köklərinə işıq salır, səlib-xaç yürüşlərinin Müqəddəs Lui, Şirürəkli Riçard, qəhrəman Barbaros kimi simalarını xatırladır, digər tərəfdən onlara qarşı Səlahəddin Əyyubi, Məhəmməd Fateh, Mütəəssib və sairlərin çıxmasını göstərir, "hələ XVS əsrdə belə ingilis ədəbi-şəhiri və müsənnifi-bimisli Şekspir kibi ziyalı bir şəxs Məhəmmədə "Maleond" deyib duruyor»[2] söylyərək ziddiyyətlərin səbəblərini işıqlandırır, habelə tərəflərin düşmənçiliyini bir-birini mükəmməl tanımamaqda görürdü. Buna görə də ədib həm elmi-nəzəri məqalələrində, həm də fəlsəfi-publisistik əsərlərində Qərb və Şərqi bir-birinə tanıtmaqda fayda görür, Avropada aldığı təhsil və təəssüratın təsiri ilə «böyük və azarlı cəsədə oxşayan» Şərqin gözqamaşdırıcı tarixinə bədii ekskurslar edir, ayrı-ayrı şəxsiyyətlərin xidmətlərini xatırladırdı. Bütün bunları Şərqin ilkinliyi və qədimliyi, Qərbin müasirliyi və ümumbəşəriliyi ilə əlaqələndirərək Ə.Ağaoğlu deyirdi: «Hər bir həqiqət, hər bir həqq və həqqaniyyət ümuminsaniyyətin malıdır. Bunlar bir yerdə tülü etdikdə labüd və naçar qeyri yerlərə də intişar edəcək, qeyri insanları da bəhrədar edəcək. Hürriyyət, ədalət, müsavat, tərəqqi, mədəniyyət, üsuli-məşrutə və qeyri öylə həqiqətlərdir ki, əgərçe bu günədək Yevropayə məxsus edərlər və Yevropalılar güman

[1] Əhməd bəy Ağaoğlu. Mövludi-nəbəviyə dair. «İrşad» qəzeti, 26 iyul, 1905-ci il, №98.

[2] Ə.Ağaoğlu. İslam və xristianlıq. «Tərəqqi» qəzeti, 1908-ci il, №80.

edərdilər ki, «Asiyalıların onlara malik olmağa istedadları yoxdur, lakin Asiyalılar gec-tez onlardan istifadə edəcəklərində şəkk və şübhə yox idi.

Bununla bərabər Asiya zatən bunlardan balkülliyyə məhrum və qafil degil idi! Vaqidə şu həqiqətləri yaradan Asiya özüdür. Yevropayə və ümumaləmə bu qədər peyğəmbərləri, bu qədər kətəbi-müqəddəsəni verən Asiyadır! Tövrat, Zəbur, İncil, Quran, Zənd-Avesta, Vedalar cümləsi Asiyada təvəllüd etmişlər!

Musalar, İsalar, Məhəmmədlər, Zərdüştlər, Budda və Brəhmənlər, Konfusiyoslar Asiyada nəşvünüma edib, Asiya ab-havası ilə tərbiyə olunmuşlar. Əcəba! Əlan, ümuminsaniyyət, ümumdünya haman o öz mədəniyyətinə, öz tərəqqi və təalisinə iftixar edən Yevropa və Amerika Asiyanın bu yetirdikləri zəvati-kiramə sitayiş etmiyorlar! Bəzilərinə allah deyib öz varlıqlarını belə onlara mənsub etmiyorlarmı?! İştə insaniyyətə Tövratı, Zəburu, İncili, Quranı, Zənd-Avestayı, Vedaları bəxş edən, insan arasından Musaları, İsaları, Məhəmmədləri, Zərdüştləri, Budda və Brəhmənləri, Konfiyusları yetirən Asiya – haman insaniyyətdən bir üsuli-idarə, bir fənn, bir elm əxz etməsi ağırdırmı? Bu təatidən hankı tərəf artıq qazanıb?! Kim kimə borcludur? Və zatən şimdi Yevropalıların ruh və qəlbi olmuş «insaniyyət», «mərifət», «hürriyyət», «müsavat», «ədalət» kəlmələri haman yuxarıda zikr olunan Kətəbi-müqəddəsdən əxz olunmamışmı?»[1]

Aydın olduğu kimi Ə.Ağaoğlunun ictimai-mədəni və ədəbi-tarixi görüşlərində azadlıq-hürriyyət xüsusi əhəmiyyət daşıyır, Şərq və Qərbin sintezinə əs-aslanan mədəni-tarixi sivilizasiya yoluna üstünlük verilirdi. O, islamiyyat və sosial həyat, ümumbəşəri mədəniyyət, dövlətçilik və hakimiyyət məsələlərinə münasibətdə də həmin mövqedə dayanır, dünyada gedən ictimai-siyasi prosesləri, köhnəlik və yenilik,

[1] Əhmədbəy Ağaoğlu. Osmanlıda qanuni-əsasi. «Tərəqqi» qəzeti, 18 iyul 1908-ci il, №12.

«atalar və oğullar», Xeyir və şər, realizm və romantizm, milli və ümumbəşəri, real və ideal olana işıqlandırmağı hər şeydən üstün tuturdu. İctimai-tarixi görüşlərində və ədəbi-mədəni axtarışlarında «azadlıq, ədalət və bərabərlik» duyğularına gen-bol yer ayırması Ə.Ağaoğlunu bir mütəfəkkir kimi tanıdırdı.

***

Ə.Ağaoğlunun publisistik yaradıcılığı və ədəbi-tənqidi axtarışlarında XIX əsrin sonu və XX əsrin əvvəlləri üçün səciyyəvi olan ictimai-siyasi ideyalar, bədii-estetik cərəyan və sənət nəzəriyyələri əhəmiyyətli yer tuturdu. Gökəmli mütəfəkkir dövrün modernist təfəkkür tərzinə, sosializm, liberalizm, kommunizm, türkçülük, islamçılıq, müasirlik (Avropaçılıq), konservatizm, islahatçılıq-reformizm, realizm, simvolizm, romantizm və s. bu kimi fikir cərəyanlarına, sənət nəzəriyyələrinə istinad edərək hər şeydən öncə azadlıq və millimədəni tərəqqini məqsəd seçirdi. Buna görədir ki, Rusiyadakı inqilabi-demokratik hərəkat, Avropadakı azadlıq uğrunda mübarizə tarixi, Osmanlıdakı tənzimatçılıq, İrandakı məşrutə hərəkatı Ə.Ağaoğlunun diqqət mərkəzində idi. O, dünyada feodalizmin dağılması, monarxizmdən qurtuluş, konstitusiyalı monarxiya uğrunda mübarizə, kapitalizmə keçidlə əlaqədar olaraq ictimai-siyasi düşüncədə Solçuluq və iqtisadiyyatda liberalizm prinsiplərinin güclənməsini dərindən müşahidə edir və həmin konteksdə doğma vətəni Azərbaycanın azad gələcəyi barədə qayğılarını dilə gətirirdi. Bu da diqqətəlayiqdir ki, Azərbaycanın azadlığını mütəfəkkir-ədib islam mühiti və tərəqqipərvər dünyadan kənarda deyil, əksinə Avropa və Şərqin qovşağında dəyərləndirir, Azərbaycanı Şərqin Avropası, Avropanın Şərqi kimi yüksək qiymətləndirirdi. Azərbaycanın demokratik və hürriyyətpərvər qüvvələrini vahid ideya, azadlıq uğrunda mübarizə ideyası ətrafında birləşməyə çağıran Ə.Ağaoğlu bu baxımdan Qərb

və Şərq təcrübəsini mənimsəməyi vacib bilirdi. O, mənəvi-ruhani azadlığı və ictimai-siyasi azadlığı, hüquq bərabərliyini arzulayaraq deyirdi: «Doğrudur, bu pərdələri ruhlarından götürmək üçün, şu kəsafətləri qəlblərindən silmək üçün müsəlmanlar uzun və qeyri-müstəqim bir yol gedib rüsum və adati-təməddünü, süluk və qəvaidi-hürriyyəti Yevropadan əxz etdilər!

Lakin, əsl mətləb şunda degil, əsl mətləb buradadır ki, ruhi-islam, qəlbi-islam bu rüsum və adatı, bu süluk və qəvaidi əxz etməgə müstəid idi! İslam ilə təməddün və tərəqqinik arasında ziddiyyət və müğayirat olamayıb tərəqqi və təməddün islamdan ibarətdir!!

Odur ki, hürriyyət və təməddün islamə şövkət və əzimət və islam hürriyyət və təməddünə əzimət və şövkət veriyorlar!!»[1]

Ə.Ağaoğlu tarix təcrübəsinə istinad edir, insanın mənəvi azadlığı ilə birgə onun ictimai haqq və hüquqlarının qorunmasını yaradıcılığının baş mövzusuna çevirirdi. Ədibin Londonda Şərqşünasların 9-cu Beynəlxalq Konqresinin sənədlər toplusunda (1892) fransızca nəşr olunan «Şiəlikdə məzdəki inancları» əsərindən tutmuş Türkiyədəki son məqalələri və ictimai-siyasi azadlıq mövzusunda yazdığı «Sərbəst fiqrə xatirələri»nədək hər bir əsərində insanın mənəvi azadlığı və hüquqi sərbəstliyi ən mühüm mövzu kimi araşdırılır. Ədibin çoxsaylı əsərlərindən «İslama görə və islamlıqda qadın», «Zərdüşt belə deyirdi», «İslam və hürriyyət» və başqalarının adını çəkmək yetərlidir ki, onun bu istiqamətdə düşüncələrinə aydınlıq gətirilsin. Azadlığı fikirdə, sözdə, ideyada deyil, həm də gerçək həyatda, işdə-əməldə görməyi arzulayan Ə.Ağaoğlu yenə də islam dininin təşəkkülü dövrünü xatırladır, «Darülnədva», yəni məclisi-məsləhət, şura evi tərəfindən Məkkənin idarə olunmasını XX əsrin əvvəlləri üçün

[1] Əhməd bəy Ağaoğlu. Aləmi-islam. «Tərəqqi» qəzeti, 11 sentyabr 1908-ci il, №49.

örnək bilirdı. O yazırdı: «Hürriyyət və azadlıq insaniyyətin ən əla mərtəbəsidir: - nəuzubillah, islam, şəriət insanlığa zidmidir? Xeyr! Xeyr! Necə ki, zeyldə sübut edəcəkdir azadlıq özü islamın rüknü və binasıdır!

Cabbar və zalimlərə Allah bəndələrinin can və mallarına, irz və namuslarına əl atanlara xəlayiqləri əsir və qul edənlərə Zillülallah, (Allah kölgəsi) deyən həriflər sübhan allah, cənab həqq həzrətlərinin özünə ləkə vururlar.

Çünki dinimizcə əvvəlimci sifəti ədalət dediyimiz allah həzrətlərininmi kölgələri və cabbarlar allah bəndələrinin mallarına, canlarına, irz-namuslarına əl atanlarmıdır!?..

Xeyr! Xeyr! Böylə fikirləri cəmaət arasına salıb, camaatı kor qoyub cabbar və zalımlara əsir edənlər həman o dəni əksik şəxslərdir ki, bir nişanə, bir gülüşə, bir əl tutuşuna millətlərini, dinlərini, allahlarını satmağa hazırdırlar?

Əvvələn, burasını düşünməliyiz ki, Ərəbistan ərəblərinin arasında hökumət - müstəqiulə olmayıb. Ərəbistan ərəblərinin hər şəhr, hər qəbiləsi (el məclisi) tikib öz-özlərini dolandırırdı: Məsələn, Həzrəti-rəsul Əkrəmdən qabaq Məkkədə qəbilələrin böyükləri, şura edib Məkkənin əhalisini idarə edirdilər. Bu şuranın cəm olduğu yerə (Darul nədva), yəni məclisi-məsləhət, şura evi deyirdilər; Cəmaətə dair hər nə iş düşsə idi, cəmaət, yığılmış adamlar bu darulnədvayə cəm olub məsələləri qət edirdilər.

Bu idarənin bu qaydanın nə yaxşı, nə dərəcədə nəflu olmasına dəlil bircə bu bəsdir ki, Ərəbistanın qonşuları olan iki böyük və müəzzəm dövlətlər (İran və Rum) cəmi dünyanı təhti və təsərrüfünə alıb da ancaq yavuqluqlarında olan bu Ərəbistan qitəsini nə qədər çalışdılar isə də təsriflərinə ala bilmədilər; bunun səbəbi həman (el hökuməti) qaydasıdı.

Çünki hürr və azad, öz-özünü idarə edən millət həmişə hazır idi ki, kişi və övrət, böyük və küçük müttəfiqən öz vətənlərini müdafiə və mühafizət etsinlər»[1].

Hər bir fərdin, vətəndaşın hüquq və azadlığını cəmiyyətin ən mühüm göstəricisi hesab edən Ə.Ağaoğlu söz, mətbuat, fikir, vicdan-din, əməl və mülkiyyət azadlığını yüksək qiymətləndirir, Azərbaycanın siyasi və hüquqi azadlığı uğrunda mübarizəni vətəndaşlıq vəzifəsi bilirdi. Ədibin silsilə məqalələrində özünü göstərən azadlıq konsepsiyasının başlanğıcında şəxsiyyət azadlığı, onun mənəvi kamilliyi, idraki yetkinliyi, özünün haqq və hüquqları uğrunda mübarizə əzmi dayanırdı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində «Aləmi-islam»da qadınların azadlığı məsələsinin («Təsəttüri-nisvan») ən ciddi problemə çevrilməsi, xüsusilə Azərbaycanda «əmələ və köylü qadınların hüquqsuzluğu» Ə.Ağaoğlu ciddi düşündürürdü. Belə ki, dövrün Ə.Hüseynzadə, C.Məmmədquluzadə, Ə.Haqverdiyev və digər ziyalıları kimi Ə.Ağaoğlu da «Cənnət anaların ayaqları altındadır» fikrinə istinad edir, islam dinində və Azərbaycan cəmiyyətində qadınların tarixi rolunu aydınlaşdırmağa mühüm əhəmiyyət verirdi. Ədib vətənində millətinin tərəqqisi naminə qadınların kişilərlə bərabər hüquqda olması fikrini müdafiə edir, islamın cəmiyyətdə rolunu danan yerli və əcnəbi bədxahları ifşa edirdi. Ə.Ağaoğlunun 1901-ci ildə Tiflisdə rus dilində çap olunan ilk kitabı – monoqrafik tədqiqatı olan «İslama görə və islamlıqda qadın» əsəri buna parlaq misaldır. Əsər qonşu İran və Türkiyə oxucuları tərəfindən də maraqla qarşılanıb. 1959-cu ildə Həsən Əli Edizin Türkiyə türkcəsinə çevrilməsiylə İstanbulda da nəşr edilib.

Əsər zəngin elmi-tarixi mənbələr əsasında yazılıb və bütövlükdə islam aləmini əhatə edir. Müəllif «Şərqdə qadın

[1] Ə.Ağaoğlu. İslam və Hürriyyət. «İrşad» qəzeti, 17 dekabr 1905-ci il, №1.

necə idi?», «Orta çağda Qərb islamlığı necə görürdü?» suallarına cavab verdikdən sonra, Qərbdə müsəlmanlıq haqqında düşüncələri, dinlərə insanların təsiri, ərəblərdə islamdan öncə qadın, İran və ərəblərdə, Türk-tatarlarda, Misir, Hindistan, ispaniyada qadın, Əməvilər və Abbasilər dövründə qadın məsələsinə aydınlıq gətirir, «Quran»ın qadını yüksək tutmasını, Məhəmməd peyğəmbərin qadın hüquqlarını tanımasını, onun qızına məhəbbətini, çarşaf məsələsini tarixi faktlarla şərh edir. Qərb və Şərqin dinşünas alimlərinin əsərlərinə istinadən Ə.Ağaoğlu yazırdı: «Məhəmmədi islamlığa çarşafı gətirməkdə suçlandıranlar da eyni dərəcədə haqsızdırlar. Əslində çarşaf Məhəmməddən çox öncə Şərqdə vardı. Ancaq qadınların örtünməsi və çarşaf azadlıq vurğunu olan ərəblər arasında yoxdu. Məhəmməd də onu gətirməyib. Etibarlı din qaynaqlarından öyrənirik ki, Peyğəmbərin və çağdaşlarının həyat yoldaşları səyahətlərdə və din savaşlarında ərlərinə yoldaşlıq edirdilər».[1]

Ə.Ağaoğlu tayfa, qəbilə, sinif-silk, din və təriqətin təəssübkeşliyinin yaratdığı fərqlər və məhdudiyyətlər əleyhinə çıxır, «gözü kor təəssübkeşlərin» fanatizmi səbəbindən cəmiyyətdə və mənəviyyatda azadlığın boğulmasını ürək ağrısı ilə qeyd edirdi.

Ə.Ağaoğlu islam dininin təməl faktorlarını müəyyənləşdirərkən onun azadlıq duyğularına meydan açdığını xüsusi qeyd edir, insanın mənəvi və əqli dəyərlərini sərbəst ifadə baxımından «Quran»dan gətirdiyi misallara məqalələrində əhəmiyyətli yer verirdi. İslam dininin təşəkkülü dövrünə böyük rəğbət və heyranlıqla işıq salan Ə.Ağaoğlu, sonralar «islamın rövrəqinin pozulması»nı daxili-mənəvi ağrılar, iztirablarla təsvir edir, təriqətlərarası ziddiyyətlərin əleyhinə çıxır və göstərirdi ki, müsəlman sivilizasiyasının tarixi tərəqqisində və qorunmasında həlledici rol oynayan türklər

[1] Ə.Ağaoğlu. İslama görə və islamlıqda qadın. Bax: «Ulduz» jurnalı, 1998, №3, s.73.

özünəməxsus azadlıq ruhunu islamın mütərəqqi dəyərləri ilə birləşdirərək onun daha geniş dairədə yayılmasına təsir göstərdilər. Bu mənada müxtəlif tarixi faktlara istinadla Ə.Ağaoğlu bildirirdi ki, islam dini ilə türk ruhunun azadlıq, ədalət, humanizm, həqiqətpərəstlik kimi dəyərləri bir-birinə uyğun gəldiyindən onlar bir-birinin inkişafı və qorunmasında misilsiz tarixi rol oynadılar.

İslam tarixində azadlıq və türklük ruhunun vəhdətini nəzərə çatdıran məqalələrindən birində Ə.Ağaoğlu yazırdı: «Necə ki, məlumdur beyti-nəbiyyədən sonra, həzrət Ömərin xilafətindən başlayaraq bəni-əməviyyənin və bəni-abbasiyyənin zamanında ərəb mücahidləri İranı təsxir etdikdən sonra Turanə də yürüş edib Türküstanda sakin türklərə müsadif oldular.

Türklərin daireyi-xilafətdə və Asiyayi-Qərbdə zühur etməsi iştə bu vəqtdə oldu.

Əvvəlcə ərəb mücahidləri türklər ilə dava edib qələbə etdikdən sonra türklərdən əsir edib satırdılar.

Türklərin qabiliyyəti və vəcahəti cəhətinə bu əsirlərin qiyməti cümlə qeyri taifələrin əsirlərindən artıq idi. Türk ləfzi şuluqət və köyçülügün və vəcahət, nəzakət mənasını ifadə ediyor idi. Hafiz Şirazinin bu sözləri cümlənin xatirindədir:

Əgər an torke-Şirazi bədəst-dərde-dele ma ra
Be xale hindiyəs bəxşəm Səmərqəndo Buxara

Ələlxüsus ərəblərin əyan və əşrəfi türk övrətlərinə mayil idilər; bunların qiymətləri xəyalə gəlməyən dərəcəyə çıxırdı. Əyan və əşrəf bunları satın alıb da evlərində mükəmməl surətdə tərbiyə verirdilər. Ərəbcə, farsca ədəbiyyat, musiqi və qeyri ülum təhsil etdirib evlərində onlara böyük-böyük məqamlar veriyordular. Onların bəziləri öz əql və kamalları ilə xəlifəni məftun edib validə xanım oluyordular.

O cümlədən məşhurə Zübeydə xanımdır ki, Harun-ər-Rəşidin mənkuhəsi və Möminin validəsi idi.

Bu Zübeydə xanım türk əsirlərindən birisi idi; lakin sonra xəlifənin övrəti olub da validə xanım olduqda öz danişi və zəkası ilə, öz əşar və təsnifatı ilə və ələlxüsus özünün ehsan və xeyratı ilə məşhurə afaq oldu. Əlan da Məkkeyi-mükərrəmədə işlənən «Eyn-əl-zübeydə» adlanan su haman bu xanımın ehsan və xeyratı ilə uzun-uzadı yollardan Məkkəyə aparılmış bir yadigardır.

Nəql edirlər ki, bir gün xəlifə buna zarafat təriqilə dedi ki:

«Sən mənim qulumsan». Zübeydə xanım cavab verdi. «Ya əmir-əl-möminin! Sən xətadasan! Mənim əslim türk olduğundan mən anadan azadə olmuşam və heç bir türk qul olamaz».[1]

Ə.Ağaoğlu azadlıq məsələsinə münasibətdə də Qərb-Şərq sintezini əsas götürür, yalnız milli-etnik tarix faktları, hadisə və şəxsiyyətləri ilə məhdudlaşmır, dünya təcrübəsini mənimsəməyi vacib bilirdi. Bu mənada o Şərqin zəngin təcrübəsi ilə Qərbin nəzəri fikrini əlaqələndirməyə çalışır, elmi-texniki tərəqqiyə və praqmatik düşüncəyə malik Qərblə ictimai-fəlsəfi və bədii fikir sahəsində qədim ənənəsi olan Şərqin vəhdətini nəzərə çatdırırdı. Ən qədim mifoloji mətnlərdən tutmuş çağdaş elmi-nəzəri və bədii materiallaradək hər bir əsərə Şərq-Qərb kontekstində və azadlıq kredosu tələbləri ilə yanaşan Ə.Ağaoğlu məsələyə ictimai haqq və hüquq normaları ilə yanaşmağın zəruriliyini dönə-dönə vurğulayırdı. O, Prometey, Spartak, Çaveyi-Ahəngər, Simurğ və Səmməndər quşu, Janna Dark, Molla Süavi, Midhət paşa, Ziya paşa, Namiq Kamal, Əbdülhəqq Hamid, Tofiq Fikrət, Viktor Hüqo, O.Balzak, A.S.Puşkin, K.Marks, L.N.Tolstoy, F.M.Dostoyevski, M.Y.Lermontov, Ş.C.Əfqani, Səttar xan və başqalarını həmin məqsədlə tez-tez xatırladırdı. Azadlıq uğrunda mübarizənin Avropa (Fransa) və Asiya (İran) təc-

[1] Əhməd bəy Ağaoğlu. Türkiyənin keçmişi və al-Osmanın əziməti-şanı. «İrşad» qəzeti, 30 mart 1907-ci il, №56.

rübəsinə daha çox istinad edən Ə.Ağaoğlu «Zülm, cəbr və cəhalət»in aradan qaldırılmasında elm və dinin gücünə arxalanır, «zəka səltənətinin yaradılması»na inanırdı. O bildirirdi ki, «Brunolar, İspinozalar, Leybnislər, Paskallar, Dekartlar, Volterlər, Jan-Jak-Rüssolar, Adam Smitlər vücudə gəldilər və gəldikcə min il qabaq islam deyən «Əl-dünya məzərrətə əl-axirətə» kəlimatının mənalarına dürüst mültəfit olub təxəyyülat və tövhimatdan əl çəkib göydən yerə endilər və dünya və axirətə mənfəəti olan məsələlərə məşğul oldular! Cəmaət xabi-qəflətdən və kəsalət-cəhalətindən ayılıb qandı ki, hər kəsin dünyası məmuridir, axirəti də məmuridir! Zülm, cəbr, məəddi, cəhalət olan yerdən həm allah, həm rəsul bizardırlar!»[1]

Digər müasirləri kimi Ə.Ağaoğlu da dini-klerikalizmin əleyhinə çıxır, din xadimlərinin dövlət işlərinə qarışmasını tənqid edir, onların vəzifəsini ruhanilikdə görürdü. O dini mənbələrə istinadən sübut etməyə çalışırdı ki, idealist və realist dünyagörüşlərin sintezi insanın azadlıq duyğularının ifadəsi üçün yetərli deyil, bunun üçün həm də ictimai-tarixi təcrübə əsasdır. Ədib həmin məqsədlə Fransa və İranın tarixinə, buradakı azadlıq uğrunda mübarizənin elmi-nəzəri və praktik həqiqətlərinə diqqət yetirirdi. O deyirdi: «Франция не перестаеть идти в главе человечества в политических и социальных нововедениях. Вот уже три века, как вес мир питается ее идеялами и чувствами. Чреватый своими последствами XVIII-ый век, веке Вольтера, Жан-Жака Руссо, Дидро, Даламбера и других энциклопедистов, был французскими вькомь **пар ехъелленъе**. XIX-ый век открылся Великою Французскою Революцией, перевернувшею весь мир вверх дном, разносящею французския идеи и мысли от одного конца земли до другого и продолжающую

[1] Əhmədbəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 18 iyul 1906-cı il, №168.

не только питать весь цивилизационный мир, но и воодушевлять на подвиги и на новую жизнь народы, еще не вступшие на путь культуры».[1]

Ə.Ağaoğlu Avropada qanun, dövlət, hakimiyyət, cəmiyyət və s. bu kimi sosial-siyasi mövzular ətrafında gedən mübahisələrin tarixinə aydınlıq gətirməklə azadlıq haqqında düşüncələrini əsaslandırırdı. O, 1789, 1793, 1848-ci illər Fransa inqilabları, 1908-ci il İran inqilabı barəsində bəhs açarkən həmin mövqedə dayanır, bildirirdi ki, bu işin əsasında «İctimai yazıçıların atəşin fikirləri» dayanır. Dini-klerikal düşüncəli islam aləmi üçün dinin dövlətdən ayrılması uğrunda mübarizə aparan Fransanın təcrübəsini əsas götürərək Ə.Ağaoğlu deyirdi: «Robespyer adlı vəkilin təklifi ilə şurayi-vükəla katolik məzhəbini fəsx edib «təbii məzhəbə» qulluq etməni elan etdilər. Bu təbii məzhəbin üsulu «əqli-küllə», «ruhi-aliyyə» (odurasiyon la superm dizon) pərəstiş etmək idi. Tazə məzhəbə görə əsl xaliq, sitayiş və pərəstişə layiq olan müdrik haman o əqli-küllüdür ki, dünyaları, fələkləri yaradıb bir qəribə ahəng və mizan ilə dolandırıyor. Bu bir qüvveyi-müdrikədir ki, cümlə mövcudata məstuli olub cümləyə ruh verir...»[2]

Göründüyü kimi Fransa kimi bir mədəniyyət mərkəzində də «əqli-küllün» hakim olduğunu Ə.Ağaoğlu nəzərə çatdırır, «dünyaları, fələkləri yaradıb bir qəribə ahəng və mizan ilə dolandıran»a sitayiş etmənin təcrübəsini xatırladırdı. Lakin eyni zamanda o, dini düşüncə ilə dünyəvi təfəkkürün əsrlərcə mübarizə aparmasına, yalnız mənəvi sərbəstlik deyil, həm də ictimai azadlığın təmin olunması yolundakı məhrumiyyətlərə, iztirab, intellektual axtarış və inqilabların tarixi təcrübəsinə aydınlıq gətirirdi.

[1] А.Агаев. Отделение церкви от государства во Франции. г.»Каспий», 3 ноябрь 1903, №245.

[2] Əhmədbəy Ağaoğlu. Qosudarstvennı duma, ya padşahlıq şura. «İrşad» qəzeti, 24 aprel 1906-cı il, №97.

Ə.Ağaoğlu Avropa və Asiyanın dövlətçilik tarixinə tez-tez müraciət edir, hər iki tərəfdəki monarxizmin, sülalə hakimiyyətinin doğurduğu haqsızlıq və zülm ilə yanaşı «Ədalət və həqqaniyyət» faktlarına da diqqət yetirirdi. O «zülm və zalım»lara qarşı mübarizənin nəticəsində Avropanın «ictimai yazıçılarının» azadlıq konsepsiyasını formalaşdırdığını nəzərə çatdırır və bu işin başında «Firəngistan hükəmalarının» dayandığını bildirirdi. Həmin məqsədlə «İrşad» qəzetində Ə.Ağaoğlu yazırdı: «Keçən nömrəmizdə Firəngistan hükəmalarının üsuli-hökumət və idarə barəsində nəşr etdikləri əfkar və xəyalatı bəyan etdik.

Hökumət isə bu yazıçıları təqib etməgə başladı. Lakin onlara nə qədər artıq əziyyət və zəhmət olduysa o qədər də onların yazdıqları fikirləri, xəyalları cəmaət arasında intişar oldu.

Bir az müddətdə külli-Firəngistanın hökumət barəsində əqidə və fikri dəgişildi. Monteskuyelərin, Volterlərin və ələxüsus Jan-Jak-Russoların yazıları hər Firəngin adətən mütaliə kitabları oldu. Yavaş-yavaş cəmiaət həyəcanə gəldilər. Şimdiyədək fasid əqidələr və məzmum qaidələr sayəsində səbr etdigi zülm və cəfalərə daha artıq taqəti qalmadı. Xalqın bəsirəti açıldı».[1]

Ə.Ağaoğlu XVIII fransız maarifçi-materialistlərinin irsini dərindən öyrənib, XIX əsrdə burada formalaşan sosiologiya və psixologiya elmlərinin nəzəri əsasları ilə yaxından tanış olub və nəticədə öz «Avropalı qafası» ilə Azərbaycana xidmət etmək qismətini yaşayıb. Onun əsərlərində Anri Berqson, Ernst Renan, Emil Dürkhaym, Qustav Levon kimi filosof, psixoloq və sosioloqların, eləcə də alman, ingilis, rus mütəfəkkirlərinin sadəcə adı çəkilmir, həm də onlarla fikir tərəf-müqabilliyi yaradılır, Avropanın elm və sənət nəzəriyyələrinə xas olan məntiq məqamları qısa xülasə şəklinə

[1] Əhmədbəy Ağaoğlu. Qosudarstvennı duma, ya padşahlıq şura. «İrşad» qəzeti, 28 mart 1906-cı il, №79.

Azərbaycan oxucusuna çatdırılırdı. Bu sırada ictimai azadlıq məsələsi hər şeydən öndə dayanırdı. Ə.Ağaoğlu Avropada azadlığı ictimai mədəniyyət, sosial davranış əxlaqı kimi qiymətləndirən J.J.Russonun əsərlərinə məhz həmin niyyətlə tez-tez istinad edir, onun ədalət əsasında ictimai birlik, təşkilat və cəmiyyət quruculuğu ideyasına diqqət yönəldərək yazırdı: «Fransız filosofu Jan-Jak-Russo öz məşhur «Beytül-ictimaiyyə» (Contrat Sosial) adlı kitabında deyir: «Təbiət əfradi-insanı mütləq azad yaratmış. Yəni insan haləti-təbiiisində əqlən, fikrən, xəyalən, cismən və hərəkətən heç bir qeyd və hüdudə tabe degil. Hər nə istəsə edər, hər nə istəsə deyər! Lakin bu günə tərzi-təyin sırf vəhşilik məqamında mümkündür... İnsanın bu halətində heyvan ilə heç bir təvafütü yoxdur...

Lakin genə haman təbiət insanı heyvanlardan mümtaz edib mədəni yaratmış, yəni insanda heyvanın xilafı olaraq bir qüvveyi-əqliyyə və fikriyyə var ki, insan təcrübə vasitəsilə yavaş-yavaş ictimai və heyət təşkil etməgə müqtədir və müstəid oluyor».[1]

İctimai təşkilatların və sivil cəmiyyət qanunlarının yaradılmasında Avropa yazarlarının xüsusi rolu olduğunu nəzərə çatdıran Ə.Ağaoğlu Azərbaycan ədiblərindən də həmin istiqamətdə çalışmağı tələb edirdi. Bunun üçün Azərbaycan və Şərq tarixinin zəngin təcrübəsi olduğunu bildirən Ə.Ağaoğlu milli gerçəklikdə hökm sürən konservatizm – mühafizəkarlıq ənənələri, «mey və məhbubə aludəçilik» əleyhinə barışmaz mübarizə aparır, bir sıra hallarda isə hissə qapılaraq Avropanı ideallaşdırır, «bizim pedaqoqlarımız»ın yaratdığı dialaktik dram əsərləri əvəzinə V.Şekspir, F.Şiller kimi dramaturqların əsərlərinin tövsiyə edirdi. Bu tənqid mövqeyi ədibin sosial-fəlsəfi axtarışlarında daha aydın

[1] Əhməd bəy Ağaoğlu. Bunun axırı nə olacaq? «İrşad» qəzeti, 8 iyun 1908-ci il, №83.

özünü göstərirdi. Belə ki, o Azərbaycanda «ictimai yazıçıların» az olduğu fikrinə istinad edərək, bu yolda böyük uğur qazanmış Avropanın (xüsusən Fransanın) təcrübəsini örnək bilirdi. O yazırdı: «Yevropanın cümlə üləma və üdəbasının tərcüməsini əqidəsi bunadır ki, Fransanın 1879-cu ildə vüquə gəlmiş inqilabi-Kəbirinin mənşəyi haman «Beytül-ictimaiyyə» və «ruh-əl-qəvanin» kibi təsnifatdə nəşr olunan tazə fikirlər və həqiqətlərdir. Bu fikirlər, bu həqiqətlər heyəti-ictimaiyyənin nə əsas üzrə tərtib olunmasını, ədalət, müsavat, hürriyyət, hüquq, qanun nədən ibarət olmalarını əvvəlinci dəfə olaraq xəlayiqə bildirib, xəlayiqi bir dərəcədə alışdırdı ki, əvvəlcə Fransa və sonra cümlə Yevropa bir tənivahid kibi qalxıb məzkur həqiqətlər və fikirlərin vücudə gəlmələri yolunda canlar, mallar, qanlar nisar edib axırda özlərinin və özlərindən sonra çox millətlərin xilas və nicatına səbəb oldular!!

Halbu ki, şu həqiqətlər... peyğəmbər ziəlşanımızın vasitəsilə biz müsəlmanlara min il qabaq təlqin olunmuşdular!!

Lakin genə va-əfsa!?»[1]

Ə.Ağaoğlu ictimai şüurda və cəmiyyət həyatında dəyişməni, yeniləşməni hər şeydən vacib sayır, milli mədəniyyətdə islahatlar aparmağın zəruriliyini ona görə vurğulayırdı ki, ictimai həyatda və yaradıcılıqda azadlıq ideyasını gerçəkləşdirə bilsin. Elə buna görə də o, «azadlıq, ədalət, müsavat... yolunda canlar, mallar, qanlar nisar» edənlərin tarixi roluna aydınlıq gətirir, müsəlman və xristian aləminin təcrübəsinə istinad edir, insanın təbii müstəqilliyi və ictimai-siyasi azadlığı, Qanuni haqları barədə geniş bəhs açır, «şəhidi-hürriyyət» olan şəxslərin kimliyini nəzərə çatdırırdı.

Azadlıq, dövlət, hökumət, qanun və ictimai davranış mədəniyyəti məsələlərinə münasibətdə islam aləminin, o

[1] Əhməd bəy Ağaoğlu. Bunun axırı nə olacaq? «İrşad» qəzeti, 12 iyun 1908-ci il, №86.

cümlədən İranın «Quran» ənənələri və Peyğəmbər sözündən uzaqlaşdığını tənqid edən Ə.Ağaoğlu həmin anlayışları müsəlman mədəniyyətinin təməl faktorlarından sayırdı. Ədib islam aləminin azadlığa münasibətini tarix təcrübəsi və müasir gerçəklər əhatəsində izah edir, keçmişin və bugünün tələbləri ilə insanın azadlıq haqqına işıq salırdı. O göstərirdi ki, «Aləmi-islam nə qədər tədənni və tənəzzül etmişsə də, şu aləmdə əxlaq nə qədər pozğun isə də, üsuli-istibdad, zülm, cövrü-cəfa, cəhalət, cəhd nə qədər müsəlmanları çulğayıbsa da, Yezidlərin, Şümrlərin ədəd və hesabı nə qədər layəd və latəhhiss olubsa da islam arasında həqiqəti-hissiyyənin əsər və nüfuzu baləmrrə tərk və zay olmamışdır!! Əsrlərcə qəlb və ruhumuz üzərinə mütərakim olan kəsafət və mənəvi-vicdan islamiyyəyi-idealə (ideal) əfkari-ali və hissiyyati-ülvi tərəfinə təmayüldən salmamış. İslam vicdanının ən xəffi, ən gizlin əmiqində həqq və həqqaniyyət eşqi, tərəqqi və təali sevdası azadə olsa cuş ediyoruz!

Türkiyədə şəhidi-hürriyyət Midhət paşalar, Misirdə şəhidi-milliyyət Ürbi paşalar, İranda şühədeyi-insaniyyət Mələk-əl-Mütəkəlliminlər, Cahangir xanlar bu sevda və eşqin mücəssəməsi olub da həmin əmiq vicdani-islamiyyənin ləmayəb olub ibrazi-vücud etməsidir».[1]

Ə.Ağaoğlu «aləmi-islam» haqqında bəhs açarkən bütövlükdə müsəlman dünyasını nəzərdə tutsa da, onun tərkib hissəsi olan Azərbaycan haqqında konkret mülahizələr söyləyir, özünə doğma bildiyi İran və Türkiyənin də taleyini düşünürdü. Bu mənada Rusiya müsəlmanları üçün mədəni-mənəvi dayaq nöqtəsi olan İran və Türkiyənin azadlıq uğrunda mübarizəsi, xüsusən də «tənzimat» və gənc türklər hərəkatı, habelə «Məşrutə»çilik Ə.Ağaoğlu yaradıcılığının baş mövzularından idi. Ədib vətəndaşı olduğu Rusiyada, İran və Türkiyədə avropasayağı «konstitusiya», yəni qanunçuluq

[1]Əhmədbəy Ağaoğlu. Rük və Kərbəla. «Tərəqqi» qəzeti, 3 iyul 1908-ci il, №1.

haqq və ədalət, milli müstəqillik, parlament uğrunda mübarizənin zəruriliyini vurğulayır və göstərirdi ki, yalnız bu yolla vətən, millət və dövlətin varlığını qorumaq mümkündür. O İranı nəzərdə tutaraq müstəmləkə həyatı yaşayan həmvətənlərinə deyirdi: «Əsl iş, əsl əşkal bu xərabanı tazədən təmir etməkdir... Əcəba, bu yolda İranda iş görülürmü?...

Konstitusiyon (constitution) kəlməsini «məşrutə» kəlməsi ilə qarışdırıb əvvəlincisini ikinci kəlmə ilə ifadə edirlər. Halbu ki, konstusiyon kəlməsinin mənası bu degil, bu kəlmə Fransa sözüdür, əsl mənası təmir, tikmək, bina etmək deməkdir. Filan taifənin hökuməti konstusiyon üsulundadır demək, yəni filan taifənin öz ümuri-millət və məmləkətini özü təmir, özü bina etməgə ixtiyar və hüququ var deməkdir. İran milləti konstitusiyon aldı, yəni İran milləti özü üçün ixtiyar hasil etdi ki, öz vəkillərinin, öz nümayəndələrinin vasitəsilə ümuri-hökumət və milləti təmir etsin».[1]

Ə.Ağaoğlu Rusiya, Fransa, İngiltərənin müstəmləkəçilik siyasətini əsərlərində tənqid edir, azadlıq uğrunda mübarizə aparan ölkə və xalqların həyat təcrübəsini Azərbaycanda təbliğ etməyə mühüm əhəmiyyət verirdi. Onun «İngiltərə ilə dövləti-aliyəyi-osmaniyyənin mücadiləsi», «Rusiya ilə İngiltərənin ittifaqı», «Aləmi-islam: İran və Hindistan», «Yeni türklər, panislamizm və osmanlı materializmi», «Hindistanda iğtişaş», «İngiltərə Əfqanıstan davası» kimi çoxsaylı məqalələrində Qərb impenrializminin müstəmləkəçilik siyasəti ifşa və tənqid olunur, millətlərin azadlığı yolunda maneəyə çevrilən dövlət və siyasətçilərin niyyəti ifşa edilirdi. Mövzularını beynəlxalq aləmdən alsa da Ə.Ağaoğlu bu tip məqalələrində Azərbaycanın birliyi, bütövlüyü ideyasından çıxış edir, ümumislam və türk dünyasının taleyi ilə qayğılandığını açıq-aşkar söyləyirdi. O azadlıq uğrunda mübarizənin dünya təcrübəsinə istinad edir və bu sırada Səttərxanın rəhbərliyi

[1] Əhməd bəy Ağaoğlu. İranə dair, İranə nə lazımdır. «İrşad» qəzeti, 17 noyabr 1907-ci il, №116.

ilə İranda baş verən inqilabi hərəkatı müsəlman dünyasının haqq və ədalət uğrunda mübarizəsi kimi qiymətləndirirdi. O deyirdi: «Təbrizlilər və Səttərxan tənha hürriyyəti, məşrutəyi və İranı ehya etməyirlər. Ümum müsəlmanların qəlblərini, ruhlarını ehya edirlər».[1] Ə.Ağaoğlu İran inqilabını yalnız Azərbaycan türklərinin adı ilə bağlayan, imperialist qüvvələrin dəyirmanına su tökən siyasətçilərin mövqeyini tənqid edir, irticaçı və müstəmləkəçi beynəlxalq güclərə güvənən İran hakimlərinin fitnə-fəsadına uymamağa çağırır və İranın Səməndər quşu tək yenidən diriləcəyini bədii dillə təsvir edirdi. Səttərxanın rəhbərliyi ilə meydana gələn azadlıq mübarizəsinin «ruhi-islamı» təzələyəcəyinə inanan Ə.Ağaoğlu bu hərəkatı müsəlman dünyasında ictimai-mədəni tərəqqinin başlanğıcı kimi qiymətləndirirdi. Bu mənada sevincini gizlətməyərək ədib deyirdi: «Nə qəribə halət! Nə əcibə övzai!! İki sənə bundan əqdəm ümum dünyanın məsxərəgahı, cəmi Yevropanın və Amerikanın və ümum miləli-mütəməddinənin mayeyi-rişxənd və sərzənişi, qəsbü-qarət amalında olanların cövləngahi-təşəbbüsatı olan aləmi-islam şimdi haman Yevropa və Amerikanın, haman miləli-mütəməddinənin təhəyyür və təəccübünü, təəşşüq və qibtəsini cəlb etməkdədir! Ümum aləmin şimdi nəzəri iki süadi-əzim islamə, yəni İstambul ilə Təbrizə qütb olunub. Bir az zaman bundan əqdəm mədun və həşt və dəniyyatə, maniyi-zülm və fəsad hesab olunan yerlər əlan mətluyi-nuri-həyat, məşriqi şəmsi-insaniyyət ədd olunuyorlar.

Əcəba nə oldu?! Hankı möcüz, hankı xarüqələdə zühür etdi?!

Heç bir şey! Fəqət islam etdi! Fəqət ruhi-islam qiyamət etdi!

Yüz illərcə zülm və istibdad, idareyi-keyfi-mayeşai, məzxərəfat, mövhumat, şarlatanlıq pərdələri altında basılıb

[1] Ə.Ağaoğlu. Səttərxan və Təbriz əhalisi «Tərəqqi» qəzeti, 1908, №67.

əzilən və məhv olunmaq dərəcəsinədək təzyiq olunan ruhi-islam haman islamın bərəkətində tülü eyləyib özünü görkəzdi!!

Və görkəzib də aləmi təhəyyür və təəccübə qərq etdi!»[1]

Ə.Ağaoğlu İranda baş verən məşrutə inqilabına iki cəhətdən xüsusi qiymət verirdi. Birincisi insanların «ictimai-iqdamat və təşəbbusat»a qoşulması, yəni sosial-siyasi hadisələrdə fəal iştirak etməsi idi. Daha doğrusu ölkədə demokratiktəşmə hərəkatını hökumət adamlarının ixtiyarına buraxmayıb, hər bir şəxsin öz ictimai taleyini düşünməsi idi. Digər tərəfdən xalqın səadətinin öz əlində olmasına inam, yadelli sərmayədarların zülmündən qurtulmaq iddiası idi.

Ə.Ağaoğlu Səttərxan hərəkatını həmin tələblər baxımından yüksək qiymətləndirir, şəxsiyyət və xalq azadlığını ön plana çəkirdi. O deyirdi: «Hər bir işi, hər bir iqdamatı hökumət dediyimiz, ricali-dövlət adlandırdığımız həyulələrə buraxıb özümüzü hər bir vəzifədən azad, hər bir iqdamat və təşəbbüsatdan bəri hesab edəriz! Və hətta bu yolda bütpərəstlik dərəcəsinədək varıb öz iqbalü səadətimizi bir tağım əfsunlardan, bir taqım əfsanələrdən, bir tağım pir deyib budaqlarına açdığımız əskilərdən gözləyiriz! Halbu ki, hər bir şəxsin, hər bir millətin səadət və nikbəti, xoşbəxtlik və bədbəxtliyi, izzət və xarlığı, şərafət və zilləti öz əlindədir, öz məsai-şəxsiyyəsinə, öz həmiyyəti-zatiyyəsinə bağlıdır».[2] Yerli qəsbkarlar, «risali-dövlət adlandırdığımız həyulələr» və yadelli imperialistlərin istismarçılıq niyyətini, beynəlxalq müstəmləkəçi qüvvələrin mövqeyini tənqid edərkən Ə.Ağaoğlu Avropa və ingilis, habelə rus dövlət rejimlərinin köhnəldiyini nəzərə çatdırır, onların yeni demokratik islahatlara ehtiyacı olduğunu vurğulayırdı. Bu üsulla rus çarizmi və monarxist idarəçiliyinin də reformalar yolu ilə dəyişdi-

[1] Əhməd bəy Ağaoğlu. Aləmi-islam. «Tərəqqi» qəzeti, 11 sentyabr 1908-ci il, №49.

[2] Ə.Ağaoğlu. Səttərxan və Təbriz əhalisi. «Tərəqqi» qəzeti, 1908, №67.

rilməsi ideyasını ortaya atan Ə.Ağaoğlu hadisələri İran, Hindistan, Misir və s. ölkələrdən almaqla öz vətəninin – Azərbaycanın taleyini ümumşərq kontekstindən ayırmır, bütövlükdə «Məşriqin oyanması və ayılması» probleminin həllini məqsəd bilir, Şərq xalqlarının azadlığı ideyasını irəli sürürdü. Ədib Hindistanı nümunəvi gətirərək deyirdi: «Bir ingilis aliminin təşəbbüsatından anlaşılan budur ki, ingilis milləti hər iyirmi beş ildə tənha Hindistandan qırx milyard, yəni qırx min milyon pul götürüyor!

Şimdi isə bu qullar, bu rəiyyət baş qalxızıb ibrazi-həyat, izhari-vücud, iddiayi-ənənayət ediyorlar!

«Biz də adam övladıyız! İnsan kibi hürr və azadlıq istiyoruz!» - diyorlar.

Bədihidir ki, bu sədalər, bu avazlar Avropa ağalarını təşvişə salıb gələcək üçün əndişənak olmağa sövq ediyorlar!»[1] Göründüyü kimi Ə.Ağaoğlu «hürr və azadlıq» təşnəsi olan insanların tərəfində dayanır, çarizmin hökmfərma olduğu Azərbaycanda «Biz də adəm övladıyız!» nidasını yüksəkdən söyləyərək müasirlərinə azadlıq haqqının tanıdılmasına çalışırdı.

Çar Rusiyasında millətlərin öz müqəddəratını təyin etmək yolundakı təşəbbüsləri və bu niyyətlə solçu qüvvələrin siyasi aksiyalarını təqdir edən Ə.Ağaoğlu hökumət və dövlətin də bəzi addımlarını, o cümlədən 1905-ci il 17 oktyabr manifestini, Dövlət Dümasının təşkilini, torpaq islahatı ideyasını, konstitusiyalı monarxiya təşəbbüsünü, çoxpartiyalılığa meydan verilməsini də demokratik cəmiyyətə doğru atılan addımlardan sayırdı. Bu baxımdan Ə.Ağaoğlunun silsilə şəklində «İrşad» qəzetində nəşr etdirdiyi «Rusiyanın hal-hazırı, Rusiyada olan firqələr», «Bizə nə lazımdır?», «Qosudarstvennı duma, ya padşahlıq şura», «Tülu edən ay par-

[1]Ə.Ağaoğlu. Məşriq ayılıyor, Məşriq oyanıyor. «Tərəqqi» qəzeti, 9 sentyabr 1908, №47.

çası», «Əlahəzrət imperator və dövlət duması», «Hökumətlə dövlət dumasının mücadiləsi», «Qafqazda yer məsələsi», «Qafqazda idarəyi-bələdiyyə» kimi məqalələri ictimai-tarixi əhəmiyyətə malikdir. Ə.Ağaoğlu bu və digər əsərlərində Rusiyanın azadlıq mübarizəsi tarixinə aydınlıq gətirir, rus xalqının mütləqiyyət və istibdadla barışmazlığını izah edir, onlarla birgə əsarət və cəhalət əleyhinə vuruşmağın vacibliyini nəzərə çatdırırdı. O yazırdı: «Bu gün padşahlıq duma açılacaq; Petro-Kəbirdən bəri iki yüz əlli sənə müddətində Rusiyanın ziyalı, bəsirətli, insaniyyətpərvər, tərəqqi-məslək, insaf və ədalət tərəfdarları olan övladının iki yüz əlli sənə müddətində səltənəti-mütləqə və hökuməti-müstəbidə əleyhində çalışıb hədsiz-hesabsız fəda etdikləri qanların, malların, canların əvəzinə bu gün nail oldular!! Nə uzun müddət!! Nə qədər fədakarlıq!! İştə insanlar böylədirlər! İnsan baltəbii ülvi və tərəqqipərvər isə də, məratibi-tərəqqi və insaniyyəti seyr etmək yolunda hər qədəmi, hər nəfəsi minlərcə əziz canların, dəryalarca qanların bahasına ötürüyor!

Çünki hər insanda insanlıqdan savayı bir heyvanlıq da, bir şeytanlıq da var! Biri-birinə zidd və əks olan bu iki ünsür nur ilə zülmət kibi əli-əldəvam çarpışmaqda və vuruşmaqdadırlar...

Nə gözəl demiş həkimi-dəqiq, ədibi-ərz cənab Renan:

«İnsaniyyətin tərəqqisi ümmanlarca dəryaların qanları ilə təqdir olunar!!»[1]

Ə.Ağaoğlu çar Rusiyasının ictimai-siyasi həyatını təhlil edərkən onun tarixi mənzərəsinə nəzər salır, müstəmləkəçilik siyasəti yürüdən dövlət xadimlərinin imperiyapərəst xəyallarını ifşa edir, ölkənin iqtisadi tənəzzülünə səbəb olan məsələlərə diqqət yönəldir, habelə Rusiyada olan siyasi firqələrin – partiyaların fəaliyyətini işıqlandırırdı. O, «Rusiyanın hal-hazırı» məqaləsində «İstibdadiyyun və məşrutiyyun»

[1]Əhmədbəy Ağaoğlu. Qosudarstvennı duma ya padşahlıq şura. «İrşad» qəzeti, 28 aprel 1906-cı il, №100.

növündən olan partiyalar, başqa sözlə desək istibdadpərəst, yəni monarxist məşrutəpərəst, yəni konstitusiyapərəst inqilabi partiyalar haqqında məlumat verir, onların yaranma səbəblərini və fəaliyyət yönlərini aydınlaşdırırdı. Ə.Ağaoğlu adı çəkilən məqaləsində «monarxist obsolyutist», «monarxist konstitusionalist» və «konstitusionalist demokrat» firqələrinin Rusiyada yaranması və ictimai həyatdakı yeri barədə məlumat verir, Rusiyadakı islahatların, ictimai-siyasi reformanın zəruriliyini diqqət mərkəzinə çəkirdi. Ədib bu mənada müasirlərinin diqqətini «konstitusionalist demokrat»ların üzərinə yönəldir və yazırdı ki, «bu firqə Rusiyada ən böyük, ən güclü firqələrdəndir; cəmi Rusiyanın pişrovları, üqələsi, ərbabı-qələm və zəkası, bəyləri, xanları, professorları, yazıçıları və qəzetələri bu firqədəndirlər; şimdidən demək olar ki, gələcəkdə hökumət və idarə bu firqənin əlində olacaq».[1]

Ə.Ağaoğlu Rusiyada gedən ictimai-siyasi prosesləri və ədəbi-mədəni hərəkatı dərindən müşahidə edir, onun tərkibində müstəmləkə həyatını yaşayan Azərbaycanın, eləcə də ümumrusiya müsəlmanlarının «zülm və cəbr boyunduruğundan» qurtulması yollarını arayırdı. Elə buna görədir ki, Ə.Ağaoğlu dünyanın elm və mədəniyyət yeniliklərini, sənət və siyasət nəzəriyyələrini Azərbaycanda təbliğ edir, mətbuat və ədəbiyyatın, partiya, şəxsiyyət və ictimai təşkilatların roluna böyük ümidlər bəsləyirdi. O da müasiri Ə.Hüseynzadə kimi «türk hissiyyatlı, islam etiqadlı, müasir qiyafəli» vətəndaş-ziyalı formalaşdırmaq və mövcud vəziyyəti onun köməyi ilə dəyişdirmək yolunu tuturdu. O bildirirdi ki, «burasını dürüst düşünməliyiz ki, küllü Rusiyanı və o cümlədən biz müsəlmanları əsirlik, cəbr və zülm boyunduruğundan xilas edən iki firqədir.

[1] Əhməd bəy Ağaoğlu. Rusiyanın hal-hazırı. «İrşad» qəzeti, 28 dekabr 1905-ci il, №9.

Əvvəlimci ərbabi-qələm və əhli-elm, ikiminci fəhlə, kəsbü-sənət və ziraətkarlar.

Əvvəlimciləri bu işə vadar edən onların birliyi, elmi, mürvəti, insafı, insaniyyət, ədalət və müsavatpərvərliyi olub.

İkimincilər isə, onları da vadar edən hökuməti-sabiqədə olan cəbr və zülmdən çəkdikləri əziyyətdir».[1]

Göründüyü kimi Ə.Ağaoğlu azadlıq uğrunda mübarizə aparan qüvvələri düzgün müəyyənləşdirir, «ərbabi-qələm, əhli-elm, fəhlə, kəsbü-sənət və ziraətkar»ın birlik, bərabərlik əsasında mübarizə aparmasını mühüm vəzifə bilirdi. Bir məqama da xüsusi fikir verilməlidir ki, Ə.Ağaoğlu Rusiyada geniş vüsət alan sosializm ideyasına, sinfi-silahlı mübarizəyə birmənalı yanaşmır, bolşevik düşüncəsi ilə terrorizmə, milli münaqişəyə meydan açan siyasətə, partiya, mətbuat adamlarına qarşı çıxır, ictimai-siyasi tədbirlərdə dərin məzmunlu kəskin məqalələr yazırdı.

***

Ə.Ağaoğlu ictimai-mədəni axtarışlarında, sosial-fəlsəfi mühakimələrində ədəbiyyat və mətbuatın roluna yüksək qiymət verir, hər ikisində cəmiyyət həyatının inkişafına təsir göstərə biləcək güc olduğunu vurğulayırdı. Mətbuat və ədəbiyyatı ictimai tərəqqinin və milli-mənəvi intibahın ən mühüm vasitəsi sayan Ə.Ağaoğlu milli maarifçilik ideyalarından çıxış edərək göstərirdi ki, yazarlarımız xalqa dünyanı tanıtmaq üçün doğru olanı söyləməli, «həqiqətdən qorxmamalı, onu aşkar» etməyi bacarmalıdırlar. XIX əsr Azərbaycan ədəbiyyatında formalaşmağa başlayan realizmin bədii-estetik tələblərini Ə.Ağaoğlu ictimai-siyasi görüşləri və nəzəri-estetik düşüncələrində uğurla davam etdirir, ədəbi-tənqidi mühakimələrində realist təhlil prinsiplərinə üstünlük verirdi. O hər bir sənət adamına fakt, hadisə və problemlərə

[1] Ə.Ağaoğlu. Qəzetəmizin məsləki. «İrşad» qəzeti, 17 dekabr 1905-ci il, №1.

pozitiv mövqedən yanaşmağı tövsiyyə edir, həyatı olduğu kimi təsvir, təhlil, tənqid və təqdim etmənin faydalı olduğunu nəzərə çatdırırdı. Ədib bildirirdi ki, «Pəs hər öz millətinin qeydinə qalan, hər bu qədər kəndlərimizdə, şəhərlərimizdə müsəlman qarındaşlarımızın firqə-firqə olub öz-özlərinin sərənkuluğuna, bədbəxtliyinə, pəsmandalığına səbəb olan inqiraqı götürmək fikrinə düşən sahibi-qələmimiz, ərbabi-əql və zəkamız gərək bu qədər əzim və mühüm vaqiəni hər tərəfdən bədun mülahizeyi-təfhiss edib, haqqı nahaqdan seçib əsl iş meydanə atsın. Ancaq bu vasitə ilə bu bizim evimizi yıxan, dünya və axirətdən məhrum edən təfriqəni məhv edə biləriz. Həqiqətdən qorxmamalı, onu aşkar və doğru söyləməli, ancaq bu həqiqət və doğrunun vasitəsilə bizim gözümüz açılacaq! Ancaq onların köməgilə əvam-əl-nasın başından bəzi övhamat və xəyalatı çıxarıb əvəzinə haqqı yerləşdirmək olar: eylə ki, cümlə xəlq haqqı nahaqdan seçib cümlə həqqə iqrar edib nahaqqı tulladılar, cümlə yekrəng olub, yek di, yek cəhət bir yola düşəllər».[1] Məhz doğrunu yazmaq tələbinin, realist düşüncəyə üstünlük verməyinin nəticəsidir Ə.Ağaoğlunun əsərləri onun dövründə dünyanı mifik-mistik planda təsvir edən dini düşüncə xadimləri tərəfindən ciddi etirazla qarşılanır, ədibin şəxsiyyəti və yaradıcılığı barədə ziddiyyətli fikirlər söylənirdi. Lakin bunlara baxmayaraq Ə.Ağaoğlu nəinki çağdaş ədəbi prosesə, eyni zamanda tarixi-mədəni həyata və bir sıra klassik sənətkarlara dair tənqid və təhlillərində də realizmə və müasirlik prinsiplərinə əməl edir, ədəbi-tarixi keçmişin mövcud gerçəkliyə uyğun olub-olmadığı barədə düşüncələrə meydan açırdı. Ümumiyyətlə, Şərq ədəbiyyatında, o cümlədən də Azərbaycanın klassik divan ədəbiyyatında «əlfaz və kəlimatın...istemal» qaydası ilə razılaşmayan Ə.Ağaoğlu elm və sənət xadimlərinin «heç əqlə yerləşməyən rənglərə» üstünlük verməsini tən-

[1]Əhməd bəy Ağayev. Əmir-əl-möminin Əli ibn Əbu Talib Həzrətlərinin vəfatı. «Həyat» qəzeti, 9 noyabr 1905-ci il, №98.

qid edir, xalqın «ayılması və oyanması» qeydinə qalmamalırını təəssüf hissi ilə bildirirdi. O, deyirdi: «Hükəma və ariflərimiz daha artıq çaşdılar. Böylə zülm və istibdad meydanında nə desinlər, nə yazsınlar? Aşkar həqiqəti söyləsələr «kafir» deyilib ləkədkub olacaqlar! Deməsələr, zülm və istibdadə məddah olsalar, insaf caddəsindən çıxıb bimürvətlər və bidinlər zümrəsinə daxil olacaqlar!

Nə etməli! Labüdən hükəma və ürəfa özlərini o məsələlərə verdilər ki, nə dünya və nə axirətə zərrəcə dəxli yoxdu! Əfkar və hissiyyatlarına bacardıqca qəribə və əcibə və heç əqlə yerləşməyən rənglər verdilər. Əlfaz və kəlimatı qəsdən öylə istemal etdilər ki, əvam-əl-nas anlamaqdan məəttəl qaldı, onları öz təbii mənalarından çıxarıb məxsus mənalar verdilər. **Kətman**[1] denilən əsrari-əlfaz və kəlimat ortalığa çıxdı. Ancaq mümtaz və mümtəhən şəxslər onların batini mənalarına aşina idilər. Əvam-əl-nas və ümum-cəmaət isə hükəma və ürəfa yazılarından bibəhrə qaldılar. Məazalik ürfan və hikmət denilən yazılar caddeyi-nicat əvəzinə rahi-həlakət və fəlakət oldular. Cəmaətin əxlaqını günbəgün fəsadlandırdılar. Çünki ümum-əl-nas fövqdə zikr olunan kətiman və əsrari-kəlimatə vaqif olmayıb əefazın ancaq mənayi-zahirisin götürdülər. Oxucuların əksəri «beyt», «mey», «meyxanə», «mütrib», «deyr», «dəf», «cəng» və qeyri islahat nə ibarət olub, nəyə işarə olmağını bilməyib, ancaq onlardan mənayi-zahirlərin götürdülər və götürüb də onları istemal etməkdən təbərra etmədilər.

Günbəgün cəmaətin əxlaqı fəsadlandı, ləhvü ləbi-türab və eyş və qeyri insanın ruh və vicdanı xərab edən mənahi getdikcə rövnəqə düşdü.

...Əlfaz və zahirdən məzmun və batinə gələndə irfan və hakim denilən yazılar daha artıq müzirr oldular».[2]

[1] Kətman – sirr saxlama, sirr verməmə

[2] Əhməd bəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 12 iyul 1906-cı il, №163.

Göründüyü kimi Ə.Ağaoğlu klassik ədəbiyyatın, xüsusən də poeziyanın obrazlar sistemi əleyhinə çıxır, onları yeni lirik qəhrəmanlarla əvəz etməyi mühüm vəzifə sayırdı. Ədib tarixən bir-birini təqlid edən və «nəzirəguluq, həcvguluq»dan uzağa getməyənləri daha kəskin ifadələr ilə xatırladır, onların «bədii yalan»larını cəmiyyət üçün zərərli sayırdı. Ə.Ağaoğlu XX əsrin əvvəllərində də qədim və orta əsrlərdə olduğu kimi «gülə, bülbülə aludəçiliyin» hökm sürdüyünü ziyanlı hesab edir, M.F.Axundovun davamçısı kimi davranaraq, mədh, həcv və tərifnamələrlə məşğul olmanın tarixi ənənələrini aradan qaldırmağa çalışırdı. Bu baxımdan kəskin tənqidi mövqedə dayanan Ə.Ağaoğlu yazırdı: «Xudadadi qabiliyyətlər haqqa, dinə, millətə, elmə və sənətə qulluq əvəzinə başladılar, gədalıq edib qəsidələrə, tərifnamələrə, mədhlərə sərf olmağa! Bir nəzləguluq edib və ya bir həcv deyib, xanı, şahzadəni küsdürmək yüz elmi və ya irfani kitab yazmaqdan artıq nəflu oldu. Cümlə gəda olduqda qabiliyyətli şüəra və üdəbalarə də gədalıqda nəfun edib ən zalım adamları, ən dəni sifətləri tərif və təncib ilə göylərə çıxardılar. Riya, dirilik, diriğguluq, əlfazbazlıq, ədəmi-sidq və səfi-ümumi sifət oldu!

Daha bu halətdə həqqə, həqiqətguluğa, ali və nəcib fikir və hissiyyatə nə yer qalar?! Onları bizim şüə'a və üdəbamızdan təmənna etmək bimürvətlik degilmi? Biçarələr onları harda görüblər ki, özləri də oxşasınlar?»[1]

Ə.Ağaoğlu klassik ədəbiyyatın çağdaş ictimai-mədəni həyat ilə uzlaşmasına çalışan və bu vaxt ədəbi-bədii tənqid meyarlarına istinad edən mütəfəkkir idi. Sovet dövrü tədqiqatçılarının dediyi kimi o inkarçılıq etmir, yeni zamanın ehtiyaclarını ortaya qoyur, onlara cavab axtarmağın zəruriliyini düşünürdü. Belə olduğuna görədir ki, elmi-nəzəri görüşlərində, Şərq-Qərb sintezinə əsaslanan Ə.Ağaoğlu hər iki tə-

[1] Əhməd bəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 12 iyul 1906-cı il, №163.

rəfin klassikləri arasında tarixi müqayisələr aparır, Avropanın ictimai-siyasi məzmun daşıyan ədəbiyyat nümunələrinə üstünlük verirdi. Lakin bu bir tərəfin üstün tutulması, digər tərəfin əxlaqi-didaktik ədəbiyyatının aşağılanması demək yox, Qərbin tərəqqisinin, ədəbiyyat və elminin ictimai faydalı olmasının səbəblərini öyrənmək iddiasından irəli gəlirdi. Ə.Ağaoğlu deyirdi: «Keçmişdə elmi-islamiyyədən bu məsələyə layiqincə diqqət və etina edən fəqət iki alim olub, birisi İbn Xəldun öz tarixinin müqəddiməsində, - ikincisi Nasir Tusi öz «Əxlaqi-Nasiriyyə»sində, lakin bu alimlər məsaili-həyatiyyəni, yəni hər bir fərdin, hər bir taifənin, millətin tərəqqi və təalisinin tənəzzül və tədənnisinin əsbab və qəvanini-sini mükəmməl bir surətdə bəyan etməgə nail olmamışlar, əsrlər, qərinələr keçdikdən sonra Qərb – yəni Yevropa ülaması bu əşkalı həll etmişlər. Bunlar islam ülamasının zəhmətlərindən bila istifadə öz təhqiqat və tədqiqatları, öz təfəkkürat və təəqqülatları sayəsində qəvanini-həyatiyyəni mükəmməl bir surətdə təyin və bəyan etmişlər».[1]

Ə.Ağaoğlu dünya elmi-ictimai fikrinə, xüsusən Avropa praqmatizminə istinad edərək Azərbaycan yazıçılarının diqqətini onların yaradıcılığındakı milli təəssüb hissinə, xalqa faydalı əməllərə yönəldir, ölkənin, dövlət və millətin yeni zaman meyarları ilə yaşamasını mühüm vəzifə bilirdi. Bu zaman klassik və müasirlər, Qərb və Şərqlilər, varlı və kasıblar, dindar və dinsizlər, müsəlman və xristianlar arasında fərq qoymur, ümummilli vəzifələrin müəyyənləşdirilməsinə çalışır, ümumxalq ehtiyaclarından çıxış edirdi. Həmin konseptual mövqedən klassik ədəbiyyata yanaşdığına görədir ki, o «nəvadiri-cahan olan» sənətkarları «dövlətin maliyyə büsatını» tərtib edə bilməməkdə, «Xəlqdən vergilər və bədələr» almaq qaydasını öyrətməməkdə ittiham edirdi. O yazırdı:

[1] Əhmədbəy Ağaoğlu. Aləmi-islamə bir nəzər. «İrşad» qəzeti, 17 noyabr 1907-ci il, №116.

«...adam öz-özündən soruşur: Nə olardı ki, nəvadiri-cahandan olan Mollayi-Rumilər, Ömər Xəyyamlar, Şəms Təbrizilər, Şeyx Bəhayilər, Molla Sədralər və qeyrilər kibi vücudlər bu tövhimat və təxəyyülat əvəzinə insan oğluna lazım olan və dünya və axirət mənfəəti olan məsələlərə məşğul olaydılar? Məsələ, ədlü-ədalət nədir? Məhkəmələr nə cür gərək tərtib olunsunlar? Elmi-idarəyi-mülk nədir? Hüquqi-dövlət və millət nədən ibarətdir? Elmi-sərvət nədir? Dövlətin maliyyə büsatı nə cür gərək tərtib olunsun? Xəlqdən vergilər və bədələr nə cür alınsın?»[1]

Göründüyü kimi Ə.Ağaoğlu klassik mütəfəkkirlərə ümumşərq miqyasında yanaşır, onların «elmi-idarəyi-mülk» barədə ciddi əsərlər yazmamasını tənqid edirdi. Ə.Ağaoğlu klassik Azərbaycan filosofları, şair və digər sahənin tanınmış şəxsiyyətləri barədə tənqidi mülahizə söyləyərkən onların fərdi yaşam tərzini, bioqrafik məqamları yox, ictimai faydalı ideya, arzu və əməllərini diqqət mərkəzinə çəkirdi. Bu isə XX əsrin əvvəllərində ictimai-siyasi şüur təzadlarının aradan qaldırılmasına, milli intibah hərəkatının elmi-məntiqi əsaslara söykənməsinə təsir göstərir, vətən, millət və dövlət uğrunda mübarizənin gücləndirilməsinə səbəb olurdu. Görkəmli publisist və tənqidçi Ə.Ağaoğlu XX əsrin başlanğıcında onun «ictimai səviyyəsini» düzgün müəyyənləşdirməyi tələb edir, ədiblərimizdən – «sahibi-fikir şəxs»lərimizdən mövcud gerçəklərə, milli həyat həqiqətlərinə doğru-düzgün münasibət bildirməyi tələb edirdi. O ümumşərq ədəbiyyatı və bədii fikri üçün, habelə klassik Azərbaycan poeziyası üçün xarakterik olan epiqonçuluq, təqlidçilik, həcv və «başdan ayağa yalan olan» şer nümunələrini həmin məqsədlə tənqid hədəfinə çevirir və müasirlərinin yaradıcılıq istiqamətini ictimai mövzulara yönəldərək deyirdi: «Ürəfa, üdəba, hükəma və şüəramıza gəldikdə onlar da yavaş-yavaş tənəz-

[1] Əhmədbəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? 18 iyul 1906-cı il, №168.

zül edib çaşdılar. Şüəra və üdəbamız təfəkkür və təəqqüldən usanıb «meyi-gülgün», «ruxi-lalə», «ləbi-ləl», «çeşmi-xumar», «zülfi-siyah» və bunlar kibi qeyri-qeyri məzxərəfat və əlfazbazlığa məşğul oldular. Lakin insaf məqamına gəldikdə onlara artıq məzəmmət yoxdur. Çünki, hər yerdə, hər taifədə şüəra, üdəba o taifənin ayinəyi-ruhani və qəlbisidirlər. Onlar qövmün hissiyyati-qəlbi və təfəkkürati-əqllərin izhar edənlərdir.

Bizim hansı ali hissiyyati-qəlbimizi, təfəkkürati-əqlimizi bizim şüəra və üdəba izhar etsinlər?! Vətənə olan məhəbbətimizimi? Millətə olan xülusumuzumu? Həqqə olan təmayülatımızımı? Ülum və sənayedə etdiyimiz tərəqqiyyat və ictihadatımızımı? Əgər balərz bir şair və ya bir ədib bu günə şeyləri oxşuya kimdir bizlərdən ona qədr-qiymət qoyan? Labüdən şüəra və üdəba da o şeyləri oxşuyorlar ki, bizim aramızda rövnəqi və rəvacı var. Hərzəguluq, əlfazbazlıq, hədyanat və məzxərəfat cümləmizin müqtəziyyati-ruhaniyəmizdən degilmi?! Kobud, söyüşlü bir həcv, başdan ayağə yalan olan bir qəsidə və ya bir təmcid bizə artıq xoş gəlir nəinki, bir mənalı, qəlbə və ruha pərvəriş verən bir yazı! Fikirli, hisli bir yazı bizim yüngül başımız üçün ağır bir xörəkdir! Onu əxz edib həzm etmək bizim üçün müşkül bir əmrdir! Odur ki, hərzəngu məhil bir müqəllid bizim aramızda artıq möhtərəm və əzizdir, nəinki bir sahibi-fikir şəxs !»[1]

Ə.Ağaoğlu klassik və müasir ədəbiyyatdan milli həqiqət və mənəvi dəyərlərin tələbi, habelə ictimai reallıqların əksi və tənqidi zamanı «təxəyyülün yox, təfəkkürün» gücünə arxalanmağı, ümummilli geriliyi göstərməkdən çəkinməməyi, «alturist» olmağı, yəni özünü cəmiyyətinə həsr etməyi milli «mücahidlik», qəhrəmanlıq sayırdı. Bu mənada ədib «milli eqoizm» əleyhinə çıxır, özünümədh ənənəsinin milli tarixi «zəhərli dumanlara qərq etməsini» aydınlaşdırır, milli-

[1] Əhmədbəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 12 iyul 1906-cı il, №163.

etnik düşüncədəki seperatçılıq və ziddiyyətləri göstərir, regionçuluq meyllərinin ictimai-mədəni tərəqqiyə ziyan vurmasını ədəbiyaytın baş mövzusuna çevirməyi və bu kimi halları təsvir və tənqid etməyi təxirəsalınmaz vəzifə bilirdi. O dil, din, tarix, etnik ayrılıqların əleyhinə çıxır, «öz nəfsinə qul olmanın» ictimai zərərindən danışır, millətin «nam və şərəfini, hüquq və ixtiyaratını hifz etmək üçün» çalışmanın faydasını anlatmağı müasiri olan yazarlara tövsiyə edirdi. O deyirdi: «...vətəni ancaq öz nəfsimizdən ibarətədd edirik və əgər bir az uzaq getsək öz evimizdən, öz məhəlləmizdən və intahi-məratib öz şəhrimizdən hesab edirik. Odur ki, bizim aramızda İçərişəhərli, bayır şəhərli, filan məhəlləli və yainki Gəncəli, Bakılı, Şamaxılı və bu kimi qeyri-qeyri istilahlar məmludur. Bədihidir ki, vətən ləfzini böylə annayıb da vətənə xidmət etməyi öz nəfsimizə, öz evimizə və intəhi-məratib öz küçəmizə və öz şəhrimizə qulluq etməkdən ibarət bilmiriz...hər kəs işi, hadisəni öz nəfsinə, öz ailəsinə, öz məhəlləsinə, öz şəhrinə tərəf çəkir, axırda nəzai, cəngü cidal zühür edir...

Lakin bizim əksimizə olaraq Yevropalılar, məsəla, bir ingilis vətən mənasını qeyri bir surətdə düşünürlər; onlar üçün vətən ibarətdir onların qövmündən, bu qövmün lisanından, dinindən, tarixindən, bir fransız hər cürə də olsa fransızdır, daha filan məhəlləli, filan şəhərli degil, bu fransız hər yerdə olsa bir qeyri fransız bir qeyri işə şüru etdikdə ona təqviyyət və kömək etməgi özü üçün fərz edər, daha soruşmuyor ki, bu nə şəhərlidir!

Həmçinin hər yerdə olmuş olsa fransız nam və şərəfini, hüquq və ixtiyaratını hifz etmək üçün malını, canını bəzl etməyə hazırdır».[1]

Ə.Ağaoğlunun ədəbi-tarixi araşdırmaları və elmi-nəzəri düşüncələrində diqqəti çəkən məsələlərdən biri də Şimali

[1]Əhməd bəy Ağaoğlu. Aləmi-islamə bir nəzər. «İrşad» qəzeti, 17 noyabr 1907-ci il, №116.

və Cənubi Azərbaycanın vəhdətdə götürülməsi, Azərbaycanın İranla müştərək ədəbiyyat, mədəniyyət və din sahibi olmasına həssaslıqla yanaşmasıdır. Tarixən İrana türkəsilli şəxsiyyətlərin hakimlik etməsini fakt və sənədlərə istinadən söyləyən Ə.Ağaoğlu Azərbaycan və İran xalqlarının ortaq mədəniyyət yaratmasından bəhs açarkən farsdilli Azərbaycan poeziyasından ətraflı danışır, bu ərazidə yaşayan millətlərin Manna, Midiya dövlətlərini qurmasını tarixi nailiyyət hesab edir. Zərdüştün «Avesta»sını, Atəşpərəstliyi, Mani yazılarını, Bisitun kitabələrini, İslam mədəniyyətinin böyük bir coğrafiyada yayılmasını müştərək uğur kimi qiymətləndirirdi. Əbülqasim Firdovsinin «Şahnamə»sinə istinadən Ə.Ağaoğlu deyirdi. «Qədimdə İranın tarixi və təbii hüdudu bir tərəfdən dəryayi-Hind və Xəlici-Fars, bir tərəfdən Fərat, bir tərəfdən bəhri-Xəzər və Kuhi-Qaf və bir tərəfdən də Ceyhun idilər; «Şahnamə»də Firidun öz məmləkətini öz oğlanları arasında böldükdə dəmavənddən üç ox atır. Oxun birisi Ceyhundan o tərəfə düşüb Turə verilir, o biri Fəratdan o tərəfə düşür. Səlmə verilir və birisi də bu iki çayın arasına düşüb Ayrıca verilir.

İştə bu haman İrəcdir ki, öz adı ilə İranı adlandırıb!

İranın və iranlıların banisi İrəc olbuğu kibi, Türklərin, Türküstanın banisi Tur imiş və ərəblərin banisi də Səlm idi. Firdovsinin hekayə və nəql təriqilə bəyan etdiyi bu həqiqət min illərcə sonra Yevropa alimlrinin ənvayi-əqsam təftişat və təhsisatilə sabit və mübrəhən olub».[1] Qədim və zəngin tarixə, ədəbiyyata, mədəniyyətə malik İranın, iranlıların yeni dövrdə tənəzzül səbəblərini araşdıran Ə.Ağaoğlu hər şeydən öncə ictimai şüurun, dövlət quruluşunun, sosial-siyasi mühitin «reformasını, yəni tənzimatını» arzulayırdı. Bu işdə tarixi təcrübənin və müasir dünya həqiqətlərinin rolunu yük-

[1]Əhməd bəy Ağaoğlu. İranda reforma, yəni tənzimat. «İrşad» qəzeti, 4 may 1906-cı il, №104.

sək qiymətləndirən Ə.Ağaoğlu göstərirdi ki, tarixi yaddaşla müasir düşüncə arasında sağlam əlaqə yaradılmalı, irs-varislik əsasında formalaşan yeni dövr ədəbiyyatı milli ruh, dövlətçilik şüuru və vətənpərvərlik ideyasının daşıyıcısı olmalıdır. Elmi-tənqidi və publisistik məqalələrində İran, Rusiya və Türkiyədəki islahat hərəkatına haqq qazandıran Ə.Ağaoğlu «şimdi İrandan ancaq bir həyulə, bir xəyal, bir Əmir Bahadırlar qalmış» - deyə obrazlı şəkildə İran monarxizmini, buradakı mühafizəkar qüvvələri tənqid edir, «bahadır-seyf və qələm və hikmətlər» yaradan klassik şəxsiyyətlərin azadlıqpərvər ruhundan güc almağı vacib bilirdi. Elə buna görədir ki, o «salari Milli Səttarxan» hərəkatını alqışlayır, Tehrandakı inqilaba haqq qazandırırdı. O deyirdi: «Əlbəttə! Bu qədər dögülməyin axırında bir ayılmaq da olacaq idi! Ən əvvəl ayılmaq siti Osmanlıdan gəldi, bu vilayətdə «yeni türklər» ünvanında bir firqə zühur edib, ədalət, müsavat, hürriyyət, şərəfi-vətən, qürbəti-milliyyə adı ilə özünü qanlı meydanlara atdı! Min illərcə kök salmış istibdad və keyfi-mayeşai üsulu ilə mübarizəyə girib minlərcə mücahidlər canlarını fəda etdilər. Lakin tökülən qanlar hədər olmadı. İstibdad və zülmün binayini qırılıb üsuli-keyfi-mayeşai mütəzəlzəl olmaqdadır.

Lakin məahəza Osmanlının mövqeyindən və Asiya müsəlmanlarından uzaq düşməsindən naşı orada zühur edən əfkar və cünbişlər aləmi-islamə sirayət edəmiyordu! Ümum müsəlmanlar bu tazə fikirlərdən bixəbər idilər! Lazım idi ki, islamın mənbeyi-cünbəş və ğələyini hesab olunan İran da bu fikirlərə alışaydı! Şimdi əlhəmdülla, səm-əlhəmdülla ki, bu da vücudə gəldi! Tehranda da hürriyyət, müsavat, ədalət, hifzi-hüquq və şani-namusi-millət üçün qurbanlar kəsildi!

Daha bundan sonra külli-islamın ayılmasında, külli-islamın bir cünbiş və hərəkəti-fövqəladəyə gəlməsində şəkk qalmıyor!!

Çünki bu tarixən sübut olunmuş bir həqiqətdir ki, islam arasında İran əlal-dəvam mərkəz və mənbəyi-cuş və hərəkət olub!..

...Odur ki, Tehranda kəsilən qurbanlar tənha İran üçün kəsilməyib. Cümlə islam üçün və əlalxüsus biz Qafqazlılar üçün kəsilib, çünki, Qafqaz müsəlmanları ruhən və mənən İranə bağlıdırlar.[1]

Cəmiyyət həyatında durğunluğun əleyhinə çıxaraq Ə.Ağaoğlu «hürriyyət, müsavat, ədalət, hifzi-hüquq və şani-namusi-millət üçün» çalışmanın vacibliyini irəli sürür, bu yolda şəhidliyə qovuşanları alqışlayır, «atəşin fikirli ictimai yazıçıların», o cümlədən Zeynalabdin Marağalı, Əbdürrəhim ağa Talıbov kimi sənətkarların ədəbi-tarixi rolunu yüksək qiymətləndirirdi.

Əhməd bəy Ağaoğluna və «İrşad» qəzeti redaksiyasına göndərdiyi məktubda Əbdürrəhim Ağa Talıbov «heykəli-istibdadın təzyiqi-iqtidarına əsbab olan əmmaməli jandarmlar»[2]dan şikayət edir, onların «təkfir və təlyin» komissiyası aparmasına ciddi etirazını bildirirdi. «Bir pir» məqaləsini həmin məktubla birgə çap etdirən Ə.Ağaoğlu yazırdı: «Dildə üdəbayi-İranın ən adlısı, ərbabi-vətənpərəstanın ən alovlusu tərəfindən gəlmiş vərəqəyi-cansuzi və səhifəyi-fəryadı çap ediyoruz.

Bu vərəqənin müsənnifi ədibi-şəhir, alimi-fazil, mücahidi-sabit və qaim molla Əbdürrəhim Talıbov həzrətləridir.

Həşdad il ömrünü bir millətin yolunda bəzl etmiş, belini vətən qeydilə bükmüş, gözünü millətin tərəqqi və təalisi intizarında nurdan salmış, qələmini, istedadını, qəlbini, hissiyyatını millət və vətən deyə-deyə sərf etmiş bir mücahidi-salxordə üçün daha bundan artıq bir qəm, bir ələm, bir yəs

[1] Əhmədbəy Ağaoğlu. Tehran şəhidləri. «İrşad» qəzeti, 17 iyul 1906-cı il, №167.

[2] Əbdürrəhim Təbrizi. Məktub. «İrşad» qəzeti. 18 mart 1907-ci il, №47.

olarmı ki, haman vətən və millətin rüəsası adlanan ərbabi-qərəz və əshabi-fitnə cürət edib ali-rüus laşəhad, minbərlər başından o mücahidi təkfir və təlyin etsinlər!!

Aya, bu haman o molla Əbdürrəhim degil ki, cümlə İran onun vücudu ilə fəxr edərdi?! Aya, bu haman o Molla Əbdürrəhim degil ki, şahlardan başlamış gədalaradək məftun olub yazılarını əlbəəl gəzdiriyordular?!

Aya, bu haman o molla Əbdürrəhim degil ki, bir qəlil mücahidlərlə bərabər, əlli ildən bəri vurduqları naqus fəryad və dad ilə İranın bu günkü ayılmasına səbəb olmuşlar?!

Aya, bu haman o molla Əbdürrəhim degil ki, Təbriz əhalisi onu millət məclisinə intixab etdikdə külli-İran özünə bəşarət verib, əhali balkülliyyə onun Tehrana azim olmasını tələb etdilər!!»[1] Rusiya, İran və Türkiyədəki istibdad rejimini, monarxizm və mütləqiyyəti tənqid edərkən Ə.Ağaoğlu hər şeydən əvvəl buradakı türk-müsəlman əhalinin milli-mənəvi varlığını düşünür, bu ölkələrdə söz, fikir, vicdan azadlıqlarının qayğısına qalırdı. İrandakı «keyfi-mayeşayi»ni tənqid edən Ə.Ağaoğlu ümumislam aləmində özünü göstərən «istibdad və zülm tüstüsündən» qurtuluşu vacib bilir, milli kimlik duyğularının qorunmasına çalışırdı. Bu mənada Ə.Ağaoğlunun türkçülük təəssübünü ifadə etməsi mühüm ictimai-tarixi və ədəbi-mədəni əhəmiyyət daşıyır. XIX əsrin sonu və XX əsrin əvvəllərində kapitalist iqtisadı münasibətlərinin gücləndiyi müsəlman Bakısında Ə.Ağaoğlunun «ümmətdən millətə» keçid hərəkatının öndərlərindən olması diqqəti cəlb edir. Lakin, o bədii türkçülüklə məhdudlaşmır, elmi-publisistik yazıları və ədəbi-tənqidi məqalələrində ictimai-siyasi türkçülüyün parlaq nümayəndəsi kimi tanınırdı. Türkçülük tarixinə və onun təkamül dövrlərinə aydınlıq gətirən Ə.Ağaoğlu yazırdı: «Bəni Abbasilərin vəqtində, yəni İranı ərəblər təsxir etdikdən yüz iyirmi il keçməmiş cümlə xilafət düşüyor İranilərin əllərinə. Xilafətin ətrafında olan

[1] Əhmədbəy Ağaoğlu. Bir pir. «İrşad» qəzeti, 13 mart 1907-ci il, №47.

cümlə əyan, əşrəf, vəzir, vüzəra və hükəma fars qövmündəndir. Ali-Bəraməkanın əhvalı cümləyə məlumdur. İrqi-əcəmdə, cənubi-farsda, Xorasanda, Deyləmdə, Azərbaycanda hökumətlər sırf milli İran hökumətləri oluyorlar. Al-Saman, Al-Tahir bunlara imtisal ola bilirlər. Hətta xəlifələrdən birisi hökm vermişdi ki, İran dairəsində fars lisanı rəsmi hökumət lisanıdır.

Xülasə bəni Abbasilərin o ilindən inqirazınadək xilafətin külli vaqiəyi-hökuməti və idarəsi İranilərin əllərində idilər.

Sonra türk-moğol dövrəsi gəliyor. Ərəblər o gündən bu günə kibi məhv və nabud oluyorlar. Lakin farslar genə fövrən tazə əsrin, tazə zəmanənin müqtəziyyatını düşünüb də türkləşiyorlar. Lakin türkləşiyorlar ki, türkləri farslaşdırıb onların vasitəsi ilə özlərinə istiqlaliyyəti-hökumət, səltənət hasil etsinlər.

Hülakilərin ətrafını Nasir Tusilər, Əmin Səbbahlar alıyorlar. Alıb da farslaşdırıyorlar. O gündən bu günədək İranda səltənət edən cümlə böyük silsilələr türk qövmündəndir.

Lakin bunlar fəqət adamlar türkdürlər. Ruhən, qəlbən, adətən-əxlaqən sırf farslaşıblar!!»[1]

Ə.Ağaoğlu türklük əleyhinə tarixən müxtəlif üsullarla mübarizə aparan qüvvələri ifşa edir, xristian missionerləri, yerli kosmopolit ziyalıları tənqidə mühüm əhəmiyyət verir, ərəb, fars, rus təsirindən xilas olmanın yolunu göstərirdi. O, «əcəmlik möhürü» əleyhinə çıxır, ədəbi-bədii şüurda və ictimai-tarixi həyatda özünü göstərən «acı təcrübələrdən» ibrət almağa səsləyirdi. O deyirdi: «Qəribə degilmi?! Əlan İranda səltənət edən silsileyi-qacar sırf türk qövmündəndir. Sultan türk, qoşunun əksəri və əhəmiyyətlisi türk, vilayətlərin Azərbaycan kibi ən ümdə və ən sərvətlisi türk qövmü ilə məskun

[1] Əhməd bəy Ağaoğlu. Aləmi-islama bir nəzər. «İrşad» qəzeti, 11 dekabr 1907-ci il, №126.

və lakin məaküll-həza hökumət, səltənət, lisan, ədəbiyyat, adat-əxlaq, məkatib, mədaris cümləsi farsdırlar.

Tamam altı yüz ildir ki, bu halət davam ediyor».[1]

Yalnız İranda deyil, Rusiya, Misir və hətta Türkiyədə belə türklüyün, «türkxahan» və millətpərəst olanların taleyini düşünən Ə.Ağaoğlu «istibdad və keyfi-mayeşayi üsulu» əleyhinə çıxır, əxlaqi-mənəvi kamillik, milli-etnik dəyərlər uğrunda mübarizənin vacibliyini irəli sürürdü. Ədib belə hesab edirdi ki, ədəbiyyat, sənət, mədəniyyət və siyasətin başlıca vəzifəsi millətə öz tarixi köklərini tanıtmaq, yaşanan milli təcrübədən ibrət almaqdır. Bu mənada yaxın və uzaq tarixin fakt, hadisə və problemlərinə tez-tez müraciət edir, nəticə etibarilə türklüyün mövcud ictimai-tarixi durumuna aydınlıq gətirməyi tələb edirdi. O yazırdı: «Qabaqda istibdad və keyfi-mayeşai vəqtində biz İran şahlarını və İran hökumətini tənqid edib lazım olan məzəmmətləri edərdiz, əlhəmdulla şimdi İran istibdad və zülm çəngəlindən xilas olub tərəqqi yoluna düşmüşlər.

Türkiyə isə bədbəxtanə zülm və istibdadın əlində boğulub qalmaqdadır, böyük müəzzəm, şanlı, şövkətli bir xilafət, bir millət günü-gündən tənəzzül edib məhv olmaqdadır. Bu axırıncı iyirmi yeddi ilin ərzində Türkiyəni parça-parça bölüb Misiri, Ərəbistanı əlindən aldılar və bunlar degil, məgər istibdad və keyfi-mayeşai üsulunun nəticəsi.

Bir millətpərəst, bir türkxahanı bu işləri görüb də necə yürəgi yanmasın, necə gözləri yaş ilə dolmasın, necə bunların səbəblərini görkəzib də rəf olunmasına çalışmasın».[2]

Ə.Ağaoğlu hər bir müsəlman-türk yazıçısının ictimai həqiqətlərə, siyasi problemlərə, ümummilli tale məsələlərinə aydınlıq gətirməsini tələb edirdi. Türkiyədə «təcəddüd» hə-

[1] Əhmədbəy Ağaoğlu. Aləmi-islamə bir nəzər. «İrşad» qəzeti, 11 dekabr 1907-ci il, №126.

[2] Əhmədbəy Ağaoğlu. Rəfi- iştibah. «İrşad» qəzeti 4 mart 1907-ci il, №38.

rəkatını formalaşdıran İ.Şinasi, Ziyapaşa, Ə.Hamid, M.Ə.Rəcaizadə, N.Kamal, T.Fikrət, C.Şəhabəndin, M.Ə.Yurdaqul, M.A.Ərsoy, X.Ə.Adıvar kimi onlarla sənətkarın bədii irsinə Ə.Ağaoğlu həmin meyarla yüksək qiymət verirdi. O göstərirdi ki, millətlər də fərdlər kimidir, bunların da «eqoist» və «alturist»i olur. Ə.Ağaoğlu deyirdi: «bizim bəzi yazıçılarımız, ələlxüsus mütəqəddimin hər işi, hər feli ictihadi-şəxsiyyəyə məhvəl edib, hər adamı, hər amili səhhətə çıxarmışlar. «Filankəs öz ictihadına görə əməl etmiş» deyib dururlar; daha bu ictihad nə surətdə olmuş, yaxşıdırmı, yamandırmı, islama müvafiqdirmi, islama müzirdirmi, qərəzi-şəxsaniyə ilə məlus degilmi məsələlərinə etina etmişlər»[1]. Ə.Ağaoğlu mədəni-mənəvi tərəqqi yolunu tutmuş Avropanı nəzərdə tutaraq bildirirdi ki, xoşbəxt o xalq və millətdir ki, özünü ictimai dəyərlərinə həsr edir, millət, xalq və cəmiyyəti üçün çalışa bilir, «nəfsinin qulu deyil» cəmiyyətinin xadimi olmağı hər şeydən üstün tutur. Bu mənada Ə.Ağaoğlu Türkiyə daxilində və mühacirətdə yazıb-yaradan osmanlı-türk ədəbiyyatı və mətbuatının görkəmli nümayəndələrini misal gətirir, onların «millət xadimləri...vətən fədailəri» olmasını diqqət mərkəzinə çəkirdi. O deyirdi: «İştə baxın Midhət paşa kibi bir şəhidi-məzlumun xaka-pak vətənə saçılan bir qətrə məsum qanı nə qədər millət xadimləri, nə qədər vətən fədailəri yetişdirdi!

İstanbulda və qeyri məmluki-şahanədə boğazlanan mətbuat birinin əvəzinə Türkiyədən xaric yerlərdə Ttürklərin nə qədər şayani-təqdir və iftixar olan mətbuatını artırdı. Abdulla Cövdətlər, Əbdülhəqq Hamid bəylər, Heydər Midhətlər, Əhməd Rzalar, Turanilər vətənlərindən zahirən təbyid olundular isə də batinən vətən ilə daha artıq, daha ya-

[1] Əhməd bəy Ağaoğlu. Əmir-əl-möminin Əli ibn Əbu Talibin vəfatı. «Həyat» qəzeti, 9 noyabr 1905-ci il, №98.

vuq bir rabitəyi-ruhanidə olub vətənin qeydinə daha artıq müddətli bir surətdə qalmaqdadırlar».[1]

Görkəmli mütəfəkkir olan Ə.Ağaoğlu ədəbi-tarixi mülahizələrində fəlsəfi mühakimə ilə müasir ictimai-siyasi həqiqətləri vəhdətdə təqdim edir, bəşəriyyətin ən qədim dövrlərindən bu günədək azadlıq axtarışını, onun mübarizə yolunu Azərbaycan cəmiyyətinə tanıtmağa çalışırdı. Ən yaxşı nümunə kimi Türkiyə tənzimat (konstitusiya) hərəkatında iştirak edən yazıçı və ictimai xadimləri göstərən .Ə.Ağaoğlu azadlığı Xeyir və Şər, Adəm və Şeytan arasında mübarizədə qazanılan həqiqət hesab edir, onun yolunda tökülən qanları şəhid qanına bərabər tuturdu. Molla Əli Süavini bu mənada nümunə gətirən Ə.Ağaoğlu N.Kamalın «Vətən mənzuməsi»ni yüksək qiymətləndirir və onun haqqında düşüncələrini belə şərh edirdi:

«İnsaniyyət yolu qanlı bir izdir; bu izə düşən millət əfradının ayaqları degil, başları gedər!

Ah! Ədibi-əzim Namiq Kamal bəy bu bir kaç sətrdə övzaimizi nə gözəl təyin və tərif etmiş:

Get, vətəni-Kəbədə siyahə bürün
Bir qolun rövzeyi-nəbuyə uzat
Bir qolun Kərbəlada Məşhədə at.

***

De ki, ya Rəbbi, bu Hüseynindir
Şu həbibi-zişanın.
Bu kəfənsiz yatan şühədanın
Kimi Bədrin, kimi Həsənindir.

[1] Əhməd bəy Ağaoğlu. Sultan Əbdül Hamidin «İrşad»a mərhəməti. «İrşad» qəzeti, 23 fevral 1907-ci il, №32.

***

Tazələnsinmi qanlı yarələri,
Mey tökülsünmü qəbri-əshabə,
Yaraşırmı sənəm bu mehrabə?

***

Adəm övladı bir takım cani,
Səndən alsınmı nari-şeytani?»[1]

Ə.Ağaoğlu dünya ədəbiyyatından danışarkən onu müxtəlif bölgə və regionlara ayırmasa da, Avropa haqqında ayrıca danışır, onu dünya ədəbi-mədəni həqiqətlərini özündə ehtiva edən intellektual mərkəz kimi dyərləndirirdi. Bunun üçün o ən qədim insan cəmiyyətlərinin, mədəniyyətlərin ibtidai formaları və dövlətlərarası dialoqlara, Şərq və Qərbin sintezinə mühüm əhəmiyyət verir, antik dövrün yunan, qədim dövrün ərəb və fars ədəbiyyatları arasındakı struktur və mövzu oxşarlıqlarına diqqət yönəldirdi. Dünya mədəniyyəti, elm və sənətini vahid «yaşıl ağac» timsalında təsəvvür edən Ə.Ağaoğlu «əql və ruhun yaratdığını» harada meydana gəlməsindən asılı olmayaraq bütün bəşəriyyətə-insanlığa aid olduğunu bəyan edirdi. O yazırdı: «Qədim yunan ədəbiyyatını müftəxir və ziynətbəxş edən «Ğomera»nın (Homer) «İliya»sından (oxu – «İliada») başqa heç bir millətin ədəbiyyatında misli olamayan «Şahnamə» millətin arasında cərəyan edən min illərcə zehnlərdə boş qalıb tövhimat və xəyalat ilə növbənöv rənglər, əlvanlar əxz edən bir takım hekayələrdən, rəvayətlərdən, nağıllardan və bəlkə xəyallardan belə ibarət olub da Firdovsi kibi dahiyi-əzimin, bir qəlbi-kərimin ayineyi-sənikarında əks-əndaz olmuş bir təraneyi-milliyyədir!

Lakin bu təraneyi-milliyyə nə qədər xarüqələdə, nə qədər qərib-əl-vüqui olmuş olsa da genə bir əsası var və bu əsası aramaq, tapmaq asandır».[1]

[1] Əhməd bəy Ağaoğlu. Rük və Kərbəla. «Tərəqqi» qəzeti, 3 iyul 1908-ci il. №1.

Ə.Ağaoğlu azadlıqpərvər Avropa ədəbiyyatından danışanda da həmin təhlil və tənqid mövqeyində dayanır, «əql və ruhun yaratdığı xarüqələri», sülh və asayiş, haqq və ədalət, bolluq, sərvət və zövqlər mənbəyi hesab edirdi. Belə olduğuna görədir ki, azadlıq uğrunda inqilabi mübarizələr tarixi və təcrübəsi ilə «dünyanın gözünü qamaşdıran» Fransa haqqında xüsusi heyranlıqla danışır, onun XVIII əsr mütəfəkkirlərini və «Napoleon» dövrünü böyük ehtiramla xatırladırdı. Ə.Ağaoğlu yalnız şüurda deyil, həm də ictimai həyatda «təğyirat və təbəddulat» edən, reforma-islahat aparılmasına kömək edən Avropanın mütəfəkkir yazıçılarını nümunə bilir, onların cəmiyyətin inkişafına təkan verməsini, «özlərinə müvafiq tazə tərtibat və qaidələr tələb» etmələrini yüksək qiymətləndirirdi. O yazırdı: ...Çötürün Fransayı və Almaniyayı. Fransa barəsində dəfəat ilə bəyan etmişik ki, inqilabi Kəbirdən əqdəm yüz illər müddətində böyük filosoflar, alimlər, yazıçılar öz zəhmətləri sayəsində fransızların səltənət, hökumət, din, ümuri-məişət barəsində əfkar və hissiyatları bilmərrə təğyir və təbdil etmişdilər və bu təğyirat və təbəddülat özlərinə müvafiq tazə tərtibat, qaidələr tələb edirdilər və lakin hökumət buna razı olmadığından millət labüd və naçar inqilaba rücu etdi.

Almaniyada isə eyni surətdə millətin əfkarı bir tərəfdən fransız filosoflarının, bir tərəfdən də nemsə filosoflarının təhti-nüfuzunda bilmərrə digər gun olmuşdular. Höteyi, Şilleri, Kantı, Gegeli, Gerderi yetirmiş taifə daha padşahların zillüllah olmalarına, nücəbanın göydən enməsinə, ruhanilərin cənnət kilidinə malik olmalarına, bavər edib də bu gunə övhamat sayəsində ənvayi-əqsam cövr və zülmlərə tab edəməzdi! İnqilab labüddü və məcburi idi!»[2]

[1] Əhməd bəy Ağaoğlu. Aləmi-islamə bir nəzər. «İrşad» qəzeti, 20 dekabr 1907-ci il, №130.

[2] Əhməd bəy Ağaoğlu. Yəsmi? Şəəfmi? «İrşad» qəzeti, 22 iyun 1908-ci il, №93.

Ə.Ağaoğlu Avropanın «azad insanlar ruhundan ilham alan» söz sənətkarlarını bir sıra hallarda Azərbaycan ədibləri ilə qarşı-qarşıya qoysa da, təzadlı fikirlər söyləsə də Qərbin inqilabi-demokratik düşüncəli yazarlarını, «cəmaətin bəsirətini açan... cürət və hümmət sahiblərini» diqqət mərkəzində saxlayırdı. Buraya Volter, D.Didro, J.J.Russo, Ş.Montesküye, Dalamber, V.Hüqo, P.Verlen, S.mallarme, Ş.Bodler, V.Şekspir, C.Bayron, H.Heyne, İ.V.Höte, E.Zolya, E.Renan kimi sənətkarlarla yanaşı, Hamlet, Karl Moor, Otello, Prometey, Robin Qud, Bismark, Napoleon, Yan Qus kimi ədəbi qəhrəman və tarixi şəxsiyyətlər də daxil idi. Həmin ədəbi-tarixi simaların mükəmməl xarakter sahibi olmalarını Şərqin, o cümlədən də Azərbaycanın laübalı-passiv qəhrəmanları ilə qarşılaşdıran Ə.Ağaoğlu milli ədəbiyyatdakı kvietizm – xaraktersizlik əleyhinə mübarizə aparır, mübariz ruhlu qəhrəmanlar və «hökumət barəsində növbənöv kitablar və risalələr» tələb edirdi. O nümunə olaraq Şarl Montesküyenin əsərləri haqqında deyirdi: «Axırələmr iki yüz il bundan əqdəm əvvəl dəfə olaraq Fransada cürət və hümmət sahibləri yazıçılar zühur edib başladılar hökumət barəsində növbənöv kitablar və risalələr yazıb cəmaətin bəsirətini açmağa, o cümlədən Montesküye adlanan bir şəxs «Ruh-əl-qəvanin» (esprit des lois) adlı bir kitab, «İran məktubatı» (Persanes Lettres) adlı bir qeyri kitab və «Rum səltənətinin əzimət və məzəlləti» (Romain la grandeur et la decadence de l'empe) adlı üçüncü bir kitab nəşr etdi.[1]

Bir müddət Avropaya heyranlıqla meyl edən Ə.Ağaoğlu əvvəllər burada gördükləri və oxuduqları haqqında yüksək təsvir və tərənnüm üsulu ilə danışsa da, sonralar ədəbi-tənqidi məqalələrində Avropanın Fransanın – Parisin haqqında analitik təhlil mövqeyindən çıxış edir, gözqa-

[1] Əhməd bəy Ağaoğlu. Qosudarstvennıe duma ya padşahlıq şura. «İrşad» qzeti, 26 mart 1906-cı il, №77.

maşdıran parlaq lövhələr içindəki əsl ictimai həqiqəti görməyə üstünlük verirdi. Bir nümunəyə diqqət edək. Parisin ədəbi gəncliyi haqqında o deyirdi: «Это настоящий чудак. Сын богатого фабриканта, оне получает большая деньги и числится по юридическому факультету, но никогда почти не посвещаеть его. От одной получки денег до другой он выходит из своей комнаты только для посешания театра, а все остальное время, читает и декламирует современных французских поэтов и романистов. Нужно видеть его в его комнате, в блуз с открытыми воротом, в длинных безпорядочных волосах, развываюшихся вокруг его головы, декламирующего Виктора Гюго или Верлана, чтобы имет преставление об этом странном, но крайне симпатическом типе, напоминающем мне не то нашего дервиша, не то средневекового миннензангера. С получкою денег он весь преобразуется, приводит себя в порядок, одвается в лучший свой костюм и теряется на двое или на трое суток. Куда он ходит, что делает – никому ничего неизвестно; но всякий раз возвращается он обтрепанным, бледным, безсильным и внов запирается в своей комнате со своими книгами, романами и поэтами до следующей получки».[1]

Ə.Ağaoğlu qədim və orta əsrlərdə, habelə XVIII-XIX əsrdə ədəbiyyatın Avropa cəmiyyətlərində rolunu diqqət mərkəzinə çəkir, xalq həyatının ayrılmaz tərkib hissəsi kimi inkişaf edən ədəbiyyat və mədəniyyətin səciyyəvi cəhətlərinə diqqət yönəldirdi. O, klassik saray-zadəgan həyatında və bütün Avropanın aristokratik düşüncəsində ədəbiyyatın mühüm yer tutduğunu söyləyir, ictimai-tarixi islahatlar, reformist hərəkatlar və inqilablar tarixində bədii sözün, sənətkar mövqeyinin təhlilini ön plana çəkirdi. Tarixin hər bir mərhələsində ədəbiyyatın inkişaf xüsusiyyətlərini, onun özəlliklərini incələməyi nəzərə çatdıran Ə.Ağaoğlu diqqəti əsas vəzi-

[1] А.Агаев. мусульманская письма. «Каспи», 13 май 1904-ъц ил, № 109

fələrdən birinə – ədəbiyyatın vətəndaş formalaşdırması, yeni insan tərbiyə etməsi məsələsinə yönəldirdi. Bu məqsədlə Napaleon dövrünün hadisələrindən birini xatırladaraq o fikrini belə əsaslandırır: «Мадам де Стаель, дочь манистра Людовика XVI-гг, Неккере, был, как известно, самою даровитою женщиною своего времена. Ея произведения составлют эпоху в истории французской литературы. Богатая, знаменитый политическо-литературный салонь в Париже времен революции; Наполеон был одним из постоянных посетителей. Однажды, когда Напалеон был первым консулом, он из одном блестящем вечере, обратилась в нему с вопросом:

- Кого вы признаете первою женщаною в мире? Она трепетно ожидала что услишить свое имя.

Но Наполеон, с обычной своей развязностью и женщинами, коснувшись с подбородка, сказал:

- Ту женщину, которая родит побольше солдат для Франции. (Эелле гуи прудуит ла плус до солдатс поур ис Франъо)».[1]

Ədəbi-tənqidi məqalələrində və publisistikasında Ə.Ağaoğlu Şərq didaktizmi ilə Qərbin rasionalizmini birləşdirərkən klassik dəyərlərdən imtina yolunu tutmur, əksinə bu əsasda modenist dünyagörüşün formalaşmasına, vətənpərvərlik ruhunun güclənməsinə, yeni tip və xarakterlərin meydana gəlməsinə çalışırdı.

Ə.Ağaoğlu klassik sənətkarların «fikir və xəyalları ilə alışmış adamlar»ın ictimai-tarixi rolunu diqqət mərkəzinə çəkir və onların yeni cəmiyyətin idarəçiliyindəki rolunu təqdir edirdi. Bu mənada Ə.Ağaoğlu klassik irsin müasir «zövqləri hərəkətə gətir»diyi məqamlara, müsəlmanların «əqli qənaətlərini, hisslərini tərbiyə» etməsinə xüsusi diqqət yetirir, müasir ədəbiyyatda güclü xarakterlər yaratmağa maneə olan səbəblərin aradan qaldırılmasına çalışırdı. Odur

[1] А.Агаев. Отголоски жизни. Г. «Каспий», 26 октябрь 1903 г, №230.

ki, tənqidçi «nəhayətsiz lirizm, yaxud duman və mistisizm kabusuna qərq olmuş»lara – klassik sənət adamlarına qarşı münasibətdə polemik mövqe tutur, onların yaradıcılığındakı kvietizm-xaraktersizlik barədə düşüncələrə dalırdı.

Ə.Ağaoğlunun ədəbi axtarışları və tənqidi düşüncələrində «Rus ədəbiyyatının ümumi səciyyələri» əhəmiyyətli yer tutur. Tənqidçinin eyni adlı monoqrafiyası və rus ədəbiyyatı klassiklərinə həsr olunmuş müxtəlif məqalələri də deyilənlərə parlaq nümunədir. Diqqətəlayiq haldır ki, Ə.Ağaoğlu müasiri olan digər tənqidçiləri, o cümlədən F.Köçərli, Ə.Hüseynzadə, A.Sur, S.Hüseyn, N.Nərimanov, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov kimi ədəbi-mədəni tərəqqini ictimai-tarixi proseslə eyni paraleldə təhlilə cəlb edir, bədii şüurla ictimai-siyasi düşüncənin vəhdətinə xüsusi diqqət yetirirdi.

«Rus ədəbiyyatının ümumi səciyyələri» sistemli ədəbi-tarixi araşdırmanın məhsuludur. Rus ədəbiyyatşünaslığının elmi-nəzəri uğurlarına əsaslanan Ə.Ağaoğlu Rusiyada ədəbi prosesi üç böyük dövr (xristianlığa qədər, A.S.Puşkinə qədər və ondan sonrakı dövr) hüdudlarında öyrənir, XIX əsr rus ədəbiyyatını isə dünya mədəniyyətinin zirvəsi sayır. Qədim dövr rus folkloru, «İqor alayı haqqında söz»dən başlayaraq M.Qorkiyə qədərki ədəbi-tarixi mərhələyə aydınlıq gətirən Ə.Ağaoğlu Rus ədəbiyyatını Avropa xalqlarının ədəbi-bədii irsi kontekstində şərh edir. Rus ədəbiyyatında romantizmin - «bayronizm»in təşəkkülü və inkişafına, xüsusən də A.S.Puşkinin azadlıq ruhunu ifadə edən poeziyasına mühüm əhəmiyyət verən Ə.Ağaoğlu şairin «üzərimizdəki zəncirin qırıldığını görəcəkmiyiz, arkadaşlar?» fikrini diqqət mərkəzində saxlayırdı. O, Rus ədəbiyyatında parlaq şəkildə tərənnüm olunan azadlıq ideyasına silsilə məqalələrində də aydınlıq gətirir, rus xalqının «milli hiss, fikir və xəyallarını» əks etdirən əsərlərin geniş təhlilini məqsədəuyğun sayırdı. Ədibin «Rus ədəbiyyatının ümumi səciyyələri» əsərində və «Əsir ruslar və islam», «Bobrinski və Purişkeviç», «Qorki və Bure-

nin», «Roskolnikovlar və kərəmlər», «Qorki və müsəlmanlıq» kimi məqalələrində Lomonos, Karamzin, A.S.Puşkin, L.Tolstoy, Turgenev, Belinski, Qoqol, A.P.Çexov, Dostoyevski, Solovyev və başqalarının ədəbi-tarixi rolu aydınlaşdırılırdı. Onların Rusiyanın taleyini düşünməsini diqqətə çatdıran Ə.Ağaoğlu rus xalqının azadlıq uğrunda tarixən mübarizə aparmasını, mühafizəkar-monarxist Rusiyanın islahına çalışmasını yüksək qiymətləndirirdi. Publisistik məqalələrində Ə.Ağaoğlu Rusiyanı «zülmətdə yaşayan əzabkeş»ə bənzədir, onun qurtuluşuna çalışan azadlıqpərvər qüvvələrin mövqeyini müdafiə edərək deyirdi: «Misirdə çıxan «Türk» rəfiqimiz yazmış olduğu «Hürriyyət» ünvanlı bir məqaləsində hürriyyətin həyati-insan olan əlaqə və münasibətinə dair bir məlumat verdikdən sonra Rusiyanın hal-hazırına nəqli-kəlam edib diyor ki; Dünənki günə qədər Rusiya yad olunduğu vəqt haman dörddən birisinə bərabər olacaq qədər böyük və 150 milyon candan ibarət bir vəhşətgah xatirə gəliyordu. Bu gün Rusiya adı çəkilincə fikrə səidabad gəziyor.

Dünənəcən Rusiya cəhim afət deyiləcək bir şuri-məzari-zülm və istibdad idi.

Bu gün bu məmləkət cənnətin bir gülüstani-hürriyyəti oldu.

Dünənəcən Rusiya cahani-mədəniyyətin başına bir bəla idi. Bu gün Rusiya aləmi-insaniyyətin ən böyük bir ümidgahıdır. Sabahkı Rusiya hürriyyətin hamisi, hürriyyəti əlindən alınmış bütün millətlərin mədədkarı olacaqdır.

Ruslar! Bu qəhrəman millət hürriyyət almaq üçün zülmə, istibdadə qarşı Mancuriyada əsgər sifətində canlarını qurban eylədikləri halda, bir tərəfində Peterburqun küçələrində sellər kibi qanlarını tökürlər, zülmkar hökuməti məhv etmək üçün iki atəş arasında buraxırlar.

İnsaniyyətin şanü-şövkəti olan hürriyyət hər tərəfdən və hər yerdən sellər kibi qan axmadıqca ələ keçən cövhərlər-

dən degildir. Nəşriyyat ilə, kağız parçaları ilə (yeni türklər kibi) iş görməgə çalışmanın iynə ilə qəbr qazmağa oxşadığını başa düşən ruslar (əl-seyf əs-sidq əbnayi mən-əl-kətəb) hikmətinə bali-misal əllərinə qılınc alıb zülmə, istibdadə qarşı elani-cahad etdilər.

İllərcə çalışıb-çapaladıqdan və yüz minlərcə adam o yolda qurban etdikdən sonra aqibət arzularına nail oldular – hürriyyətlərini aldılar, məclislərini açdılar!»[1] Rusiyanın müstəmləkəçilik siyasəti və imperialist niyyətlərini ardıcıl tənqid edən Ə.Ağaoğlu rus xalqının ədəbi-mədəni dəyərlərinə, milli müqəddəsat hüquqlarına ehtiramla yanaşır, tarixən «üç bahadır» nümunəsində haqqı qoruyan rusların «azadlıq, bərabərlik, qardaşlıq» duyğularını təqdir edirdi. Rus ədəbiyyatı tarixində və çağdaş ədəbi prosesdə həmin prinsiplərin irs-varislik hüdudlarında qorunmasını ön plana çəkən Ə.Ağaoğlu rus xalqının azadlıq ruhunu milli ədəbiyyatda yaşadan sənətkarlara xüsusi maraq göstərirdi. Rusiyada çarizmin əleyhinə mübarizə aparan mütərəqqi qüvvələrin yetişməsində ədəbiyyatın əhəmiyyətini araşdıran Ə.Ağaoğlu irticapərəst idarəçilik üsulunu, mühafizəkar qüvvələri aradan qaldırmaq, milli ruhu qorumaq üçün rus klassiklərinin həyatı və yaradıcılığını örnək sayırdı. O yazırdı: «...hökmdarlar bircə şeydə səhv etmişdilər! Onlar şu həqiqəti unutmuşdular ki, hər şeyə güc, zor olsa da, fikrə, xəyalə, hissiyyata güc olamaz. Tolstoy kəlisadən xaric olub da kəşişlər tərəfindən təkfir olunduqda hüzuri-hümayünə təqdim etdiyi bir ərzi-haldə yazıyor:

«Padşahım! Mənim hər yerimə güc olunar, mənim bədənimi öldürmək asandır, dilimi, əlimi, ayaqlarımı kəsə bilirlər, özümü bəndü zəncirə vura bilirlər.

Lakin, məndə bir şey var ki, ona güc etmək yerlərin və göylərin, cəmi dünyanın, cəmi hökumətlərin qoşunlarının,

[1] Ə.Ağaoğlu. Nə yazıyorlar; İslam mətbuatı. «İrşad» qəzeti, 3 iyun 1906-cı il, №130.

cəmi imperatorların nizlərinin mafövqündədir: bu şey mənim əqlim, mənim qəlbim, mənim fikirlərim və hisslərimdir! Bunlara zor və güc etmək təbiətin belə xaricindədir!» İştə əgər bir tək fərdin əfkar və hissiyyatına bu dərəcədə zor və güc mümkün degil isə bir millətin əfkar və hissiyyatına güc və zor milyonlarca artıq mümkün olamaz».[1]

Ə.Ağaoğlu «alçaldılmış və təhqir olunmuş» insanların mövqeyini qoruyan rus ədəbiyyatının əhəmiyyətini tarixi fakt, hadisə və müxtəlif əsərlər əsasında şərh edir, onu «millətin əfkar və hissiyyatını kamilləşdirmə» vasitəsi kimi qiymətləndirirdi.

Ə.Ağaoğlu rus ədəbiyyatında realizmin bir nəzəri-estetik cərəyan kimi təşəkkülü və inkişafına da xüsusi diqqət yetirir, rus ədiblərinin XIX əsrdəki satirik axtarışlarından bəhrələnməyi faydalı sayırdı. Bu mənada A.Krılov, Qoqol kimi satira ustaları və L.Tolstoy, A.P.Çexov, Çernışevski, F.M.Dostoyevski, M.Qorki kimi realistlərə Ə.Ağaoğlu tez-tez müraciət edir və «rus milli vicdanının tədricən təşkilini maddətən gerçəkləşdirən» sənətkarların milli azadlıq duyğularını hər şeydən uca tuturdu.

***

Ə.Ağaoğlu mətbuatın ictimai-tarixi roluna və ədəbi-mədəni əhəmiyyətinə yüksək qiymət verirdi. O, mətbuat işinin təşkili, publisistik düşüncənin güclənməsi, jurnalistikanın ictimai-siyasi nüfuzunun artması qayğısına qalırdı. Milli mətbuat və publisistikanın ictimai təsir gücünə ümid edən Ə.Ağaoğlu «Əkinçi», «Şərqi-Rus», «Kaspi», «Həyat», «Füyuzat», «Dəbistan» kimi qəzet və jurnalları ictimai-siyasi fikri tənzimləyən ən güclü vasitə bilirdi. Ədib mətbuatı sosial-siyasi «şüur mühərriki», məlumat, xəbər-informasiya vasitəsi hesab etməklə kifayətlənmir, onu həm də ictimai-

[1] Əhməbbəy Ağaoğlu. Yəsmi? Şəəfmi? «İrşad» qəzeti, 22 iyun 1908-ci il. №93.

mədəni mühiti formalaşdıran, liberalizmi, demokratiyanı, «azadlıq, bərabərlik və qardaşlıq» dünyasını mühafizə edəcək vasitə sayırdı. O mətbuatı yalnız «kollektiv təbliğatçı, təşviqatçı və təşkilatçı» (V.İ.lenin) deyil, həm də solçu meylləri qoruyan, cəmiyyətdə haqq və ədalət əsasında dialoq-ictimai ünsiyyət mədəniyyəti yaradacaq qüvvə hesab edirdi. Həmin məqsədlə Ə.Ağaoğlu «İrşad» qəzetinin fəaliyyət proqramını aydınlaşdırarkən yazırdı: «bizim qəzetənin ümdə məsləklərindən birisi əvvələn, ərbabi-qələm və əhli-elmə bacardıqca yardım və kömək edib səhifələri də onların yüzlərinə açıq etməkdir. Bu qəzetə bir-iki və ya neçə adamın degil. Bu bir milləti-ruznamədir. Millət əfradının hər bir əli qələm tutub, əqlində fikir olanının ona iştirakı var. Hər dəqiqədə, hər vaxtda qəzetəmiz onlara açıqdır. Hər kəsin millət və insaniyyət yolunda hər nə töhfəsi var isə gətirsin. Kamali-məmnuniyyət ilə qəbul olunacaq və heç kəs üçün təfavüt qoyulmayacaq. Bununla bərabər biz həmvarə ərbabi-qələmimizi və əhli-elmimizi ittihad və ittifaqa və millət yolunda çalışmağa dəvət edəcəkiz. Əgər şimdiyədək bizim qələm və elm sahibləri camaat arasına çıxıb əllərindən gələn qulluğu edə bilmirlər isə səbəbi, bir tərəfdən hökumətin manea və o biri tərəfdən də özlərinin aralarında ittihad və ittifaq olmamağı səbəb olmuşdur. Şimdi bu azadlıq zamanında qəzetəmiz bu idiadədir ki, qələm, elm, ürfan, fikir və xəyal sahiblərimizi insaniyyət və millətə xidmət etmək üçün müttəhid və müttəfiq edəcək».[1]

Həmin mövqeyi izlədiyinə görədir ki, Ə.Ağaoğlu klassik ədəbi-bədii ənənələrdən uzağa gedə bilməyən, lakin, «fikir və xəyal sahibi» olan müasirlərini «təhsili-kəmalat kəm alətlə olmaz» deyərək tənqid edir, onlara dünya ədəbiyyatını öyrənməyi, milli mətbuat yaradıcılığına qoşulmağı, yeni sənət sahələrini, mətbuatı inkişaf etdirməyi məsləhət bilirdi. O yazırdı ki, «təhsili-kəmalat kəm alətlə olmaz. Aləmi-mət-

[1] Qəzetəmizin məsləki. «İrşad» qəzeti, 17 dekabr 1905-ci il, №1.

buat, təməddüni-insanə bir böyük vəsilədir. Mətbuatla külli dünyanın övzaindən xəbər tutmaq olar. Mətbuatla hər kimsə öz dərdini xah cəmaətə, xah dövlətə izhar etməgə qadir olar. Hər millət ki, tərəqqi tapıb, ümdeyi-mətbuat vasitəsilə olub.[1]

Ə.Ağaoğlu mətbuat və jurnalistikanı ictimai şüur və həyatı dəyişdirən, təzələyən və tənzimləyən ən güclü vasitə hesab edir, Azərbaycan ziyalılarının kütləvi informasiya vasitələri – mətbuat uğrunda mübarizəsini təqdirəlayiq hal sayırdı. Elə bu məqsədlə ədib Şərq xalqlarının həyatında mətbuatın oynadığı rola diqqət yetirir, «Obzor jurnalistiki na Vostoke» («Kaspi» qəzeti 1899, №255), «Obzor Vostoçnoy jurnalistiki» («Kaspi» qəzeti, 1899, №262) məqalələrində gündəlik dövrü mətbuat orqanının vacibliyini irəli sürür və deyirdi: «Gündəlik və ya dövrü mətbuat yalnız o yerdə mümkündür ki, orada fərdin cəmiyyətə və ya hakimiyyətə münasibətdə hüquq və vəzifələri az-çox dəqiq müəyyən edilsin, vətəndaşların əmlakı və azadlığı qanunla qorunsun, bir sözlə, həyat qaydaları sarsılmaz təmələ əsaslansın».[2] Bütün yaradıcılığı boyu Şərqdə dini-fəlsəfi skeptisizm və mistikanı tərəqqiyə manea hesab Ə.Ağaoğlu mətbuatı və jurnalistikanı Avropa sivilizasiyasına qovuşma vasitəsi kimi qiymətləndirirdi. O deyirdi ki, «dövrü mətbuat və xüsusən gündəlik jurnalistika çeviklik, icrada sürətli, işdə dəqiq və səliqəli olmağı tələb edir, bu isə, əlbəttə, Şərqin mürgülü təbiətinə uyğun gəlmir. Burada «times is money» (vaxt puldur) ingiliszərb məsəlini anlamırlar; şərqli elə bilir ki, «zaman hər şeyə dözər», o, qərblinin çılğın fəaliyyətini, onun başgicəlləndirici «va a vient» həyat tərzini hələ başa düşmür».[3] Bu mənada ilk mütəfəkkir Şərqli kimi Şeyx Cəmaləddin Əfqani, Mirzə

[1] Qəzetəmizin məsləki. «İrşad» qəzeti, 17 dekabr 1905-ci il, №1.
[2] Ə.Ağaoğlu. Şərqdə jurnalistikaya bir nəzər. «Günay» qəzeti, 23 iyul 2005-ci il, №29.
[3] Yenə orada.

Mülküm xan, Mirzə Fətəli Axundovun adını yüksək qiymətləndirən Ə.Ağaoğlu mətbuatı Avropalıların işgüzarlığının əsas vasitəsi sayır, ictimai dialoqun yaranmasında jurnalistikanın əhəmiyyətini xüsusi vurğulayırdı. Ş.C.Əfqaninin Parisdə ərəb dilində «Ürvatul vuska» (Nicat sapı), M.Mülkün xanın Parisdə «Qanun», Mirzə Tahirin İstanbulda «Əxtər», məşhur ilahiyyatçı alim Höccətül-islamın Kəlküttədə farcsa «Həblül mətin» adında mətbuat orqanları çıxarmasını alqışlayan Ə.Ağaoğlu jurnalist işinin nəzəri əsaslarına da mühüm əhəmiyyət verir, mətbuat işinin ictimai səciyyəsini şərh edərək yazırdı: «ideal həmişə mövcud qaydalarla ziddiyyət təşkil edir və təbii ki, ideyanın daşıyıcılarının həyatı və azadlığı yoldan ötənin birisinin istəyindən asılı olan yerdə nə arta bilər, nə də inkişaf edə bilər. Bu şəraitdə gənc və əzmkar xalqlar arasında mətbuat gizli xarakter kəsb edir və qələm əhli zəruri hallarda təkamülə deyil, inqilaba xidmət edir».[1]

Ə.Ağaoğlu İran, Türkiyə, Rusiya və Avropa ölkələrinin mətbuatını sistemli şəkildə izləyir, jurnalist araşdırması, informasiya siyasəti işi ilə yaxından maraqlanır, publisistikanın ictimai rolunu ön plana çəkirdi. Mətbuatşünas – tədqiqatçı kimi tanınan Ə.Ağaoğlu İran mətbuatını iki kateqoriyaya ayırırdı. Birincilərə «Ettela», «Tehran», «İran» (Tehranda) və başqalarını, ikincilərə isə Kəlküttədə nəşr edilən «Həblülmətin», Bombeydə çıxan «Hekmat», Qahirədə çıxan «Sürəyya» və s. aid edirdi.

Ə.Ağaoğlu Azərbaycanda mətbuatın təşəkkülü və inkişafına mühüm əhəmiyyət verir, onu xalqın ədəbi-mədəni tərəqqi vasitəsi sayırdı. Ədib müxtəlif məqalə, nitq və monoqrafiyalarında H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Topçubaşov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov kimi fəal publisist və yazıçıların adını rəğbətlə çəkir, onların mətbuatı ictimai ünsiyyət vasitəsinə çevirən mücahidlər kimi qiymətləndirirdi.

[1] Ə.Ağaoğlu. Şərqdə jurnalistikaya bir nəzər. «Günay» qəzeti, 23 iyul 2005-ci il, №23.

O, H.Zərdabinin dəfn mərasimində çıxış edərkən deyirdi: «vaxtını pul qazanmağa sərf etmək əvəzinə, bizə bir millətə qulluq etməyə sərf edirdi. Lakin bu mücahid, bu millətpərəst bizim heç bir cövrü-cəfamızdan geri durmayıb öz tutduğu yolunda qəribə bir səbat ilə davam edib milləti ayıltmaq işi ilə taifəsinə xidmət etmək üçün əlindən gələn cümlə səyi bəzl edirdi».[1] Ə.Ağaoğlu mətbuatın «Əkinçi»dən sonrakı dövrünə aydınlıq gətirir, milli ruh və düşüncənin formalaşmasında, ictimai ünsiyyət mədəniyyətinin inkişafında qəzet və jurnalların işini önəmli sayırdı. O, mətbuatı milli birlik, ictimai-siyasi tərəqqi, elm və siyasət vasitəsi hesab edir, ümumxalq intibahının ən təsiredici qüvvəsi kimi qiymətləndirirdi. Ə.Ağaoğlu yazırdı ki, «qəzetə bu gün olub sabah olmayacaq və həm yazıçılarımız pərakəndə olacaqlar və həm millətimiz irfan və mətbuatın mənafeyindən bibəhrə olacaq!!»[2]

XX əsrin əvvəllərində Azərbaycan mətbuatının sürəkli inkişaf yoluna düşdüyünü görən Ə.Ağaoğlu ölkədə siyasi, pedaqoji, elmi, bədii, leqal və qeyri-leqal mətbuatın ictimai funksiyasını artırmağı tövsiyyə edir, mollanəsrəddinçi satiriklərin, füyuzatçı romantiklərin, habelə uşaq mətbuatı nümayəndələrinin ədəbi-tarixi mövqeyini işıqlandırırdı. Ədib ölkədə mətbuat mühitinin yaradılmasını vacib sayır, oxucu auditoriyası, abunə qayğıları, yaradıcı ziyalı potensialı və s. barədə fikirlərini açıq-aydın söyləyirdi. O, mətbuatın xalqın həyat və düşüncəsinə, haqq və hüquqlarına, sosial-siyasi azadlıqlarına təminedici olduğunu bildirir, bu sahədə çalışan ziyalıların əməyini ümummilli xidmət hesab edirdi. «Dəbistan» və «Molla Nəsrəddin» haqqında danışarkən Ə.Ağaoğlu deyirdi: «Mən «Həyat» və «İrşad» qəzetələrinə şüru edəndə bir az vahimə ediyordum ki, əcəba, millətimizdə

[1] «İrşad» qəzeti, 2 dekabr 1907-ci il, №122.

[2] Əhmədbəy Ağaoğlu. «Dəbistan» və «Molla Nəsrəddin», «İrşad» qəzeti, 16 aprel 1906-cı il, №90.

layiq və dana yazıçılar olacaqmı?! Lakin bir az keçdikdə mənə məlum oldu ki, böyük səhv edirmişəm, çünki millətimiz o qədər layiq, dana, müxbir, zəkalı köməkçilər meydanə gətirdi ki, iki qəzetə degil, onlarca qəzetə aparmağa müstəiddirlər.

Şimdi «Molla Nəsrəddin» və «Dəbistan»ın da zühura çıxması bunu sübut ediyor!! Baxın «Molla Nəsrəddin»ə! Bu cəridə nə gözəl cəridə! Nə qədər əql, zəka, məharət və zövq göstəriyor!! Nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi taifələr böylə cəridələr ilə fəxr edə bilirlər! Onun nəqşələri, sözləri o qədər gözəl, o qədər pürməna, o qədər tənbihamiz nəqşlər və sözlərdir ki, insanın baxdıqca xoşu gəlib, baxdıqca bəsirəti artıyor».[1]

Ə.Ağaoğlu mətbuatı cəmiyyətdaxili hadisələri tənzimləyən ən güclü vasitə sayır, onun köməyi ilə rus imperializminə, erməni-daşnak təcavüzkarlığına, yerli qaragüruhçulara, nadanlıq, cəhalət, ətalət, fanatizmə qarşı mübarizə aparmağın mümkünlüyünü dönə-dönə xatırladırdı. Onun «Mşak», «Nor-dar», «Taraz» kimi erməni, habelə çoxsaylı rus qəzetləri ilə yazışmaları bu baxımdan diqqətəlayiqdir. Azərbaycana qarşı yalan, böhtan kampaniyası açan qəzet redaksiyaları və yazarların mövqeyini ifşa etməyi vacib bilən Ə.Ağaoğlu informasiya mübadiləsində doğruluq, tərəfsizlik, qərəzsizlik, obyektivlik prinsiplərini əsas götürürüdü. Elə buna görə də ədibin «sözü keçir, zehinlərə əsər edir, təsirbəxş» olurdu. Misal üçün 1905-1907-ci illərdə Tiflisdə «sülh və islah verən şəxslərin məclisi» ilə bağlı qeyri-obyektiv məlumat və izahat verən erməni İspandaryan və rus Menşikov, Nemiroviç-Dancenko kimi müəlliflərin yazılarına münasibət göstərəndə Ə.Ağaoğlu həmin mövqedə dayanır, mətbuatın beynəlxalq normalara uyğun davranmasını vacib bilirdi.

[1] Əhmədbəy Ağaoğlu. «Dəbistan» və «Molla Nəsrəddin», «İrşad» qəzeti, 16 aprel 1906-cı il, №90.

Onun Nemiroviç-Dançenko haqqında mülahizələri bu mənada diqqətəlayiqdir. Ədib yazır: «Rusların məşhur yazıçılarından birisi Nemiroviç Dançenko padşahlıq dümadan sağ tərəf vəkili Şulkinin qovulması barəsində yazaraq bu vaqiəni hicrəti-kübra ilə, yəni Məhəmmədin (S.Ə.) Məkkeyi-mükərrəmədən Mədinəyi-münəvvərəyə hicrət etmələrinə təşbeh etmiş.

Şulkin xuliqandır. Bir xuliqanı 300 milyon müsəlmanların peyğəmbərinə təşbiyə vermək nə qədər qaideyi-ədəbdən xaric olması hər kəsə vazehdir. Bu cəhətdən daxili - Rusiyada olan ümumislam mətbuatı bu biədəbliyə qarşı şiddətli və mütəəssir bir halətdə izhari-nifrət edib, protesto etsinlər, müsəlləmdir ki, biz də bu protestə mülhəqq olub öz nifrətimizi izhar edəriz».[1]

Mətbuatın siyasi mübarizə vasitəsi kimi fəaliyyətinə müsbət qiymət verən Ə.Ağaoğlu, onu daha çox demokratik cəmiyyət, azad insan və müstəqil dövlət tərəfdarı kimi təqdir edir, mətbuat azadlığına qarşı duran qüvvələri «istibdadpərəst, mazipərəst»lər adlandırırdı. O göstərirdi ki, mətbuat bütün dünyada «azadlıq, müsavat, ədalət» carçısıdır və bu səbəbdən də geniş fəaliyyət imkanlarına malik olmalıdır. Rusiya, İran və Türkiyə mətbuatını müqayisəli şəkildə öyrənən Ə.Ağaoğlu monarxist qüvvələrin mətbuata qarşı təzyiqlər göstərməsini pisləyirdi. Türkiyədə mətbuata qarşı təzyiq və təqiblərə münasibət bildirən Ə.Ağaoğlu yazırdı: «Şurasını dürüst düşünməlidir ki, Sultan Əbdülhəmid xan həzrətləri bir az azadlığa, müsavata, ədalətə riayət etsəydi həm özü müqtədir olub, həm cümlə müsəlmanlara səadət rəhbəri olardı.

Haman bu yolda Misirdə, Türkiyədə və qeyri yerlərdə «Türk» kibi, «Şurayi-ümmət» kibi, «İctihad» kibi osmanlı qəzetələri çap olunub mücahidə etməkdədirlər.

[1] Əhmədbəy Ağaoğlu. Səbəb yenə özümüzük. «İrşad» qəzeti, 25 aprel 1907-ci il, №76.

Əcəba, bunlardamı Məhəmmədəli şahın xatirəsi üçün!?

Xeyr! Xeyr, əfəndim! Biz türk oğlu, türküz! Bizim yürəgimiz yandığından içərimizdə olan atəşlər dadü fəryad surətində zahirə çıxıb, qeyri bir qəsdimiz və ya niyyətimiz yoxdur».[1]

Ə.Ağaoğlu mətbu sözün ictimai təsir gücünə inanır və onun vasitəsilə mövcud vəziyyətin dəyişdirilməsi mümkünlüyünə böyük ümidlər bəsləyirdi. Ədib belə hesab edirdi ki, haqq və ədalət uğrunda mübarizənin yolu doğru sözün, ictimai məzmunu olan sözün qorunmasından başlayır. XX əsrin əvvəllərində sürətlə dəyişən zamanın və ictimai-siyasi hadisələrin axarında həmin mövqeyi qorumaq son dərəcə çətin idi. Hətta görkəmli ədib-filosof Ə.Hüseynzadə belə bəzən ümidsizliyə qapılır, vəziyyətdən çıxış yolunu «sehrdə, əfsunda» görərək yazırdı: «Bən istərəm ki, öylə bir sehr, ya əfsun bulunsun ki, onun qüvvətilə bütün millətimizi birdən-birə cəmi-füyuzati-vicdaniyyəyə məzhər etmək mümkün olsun. Heyhat, nə öylə bir sehr və əfsun vardır...»[2]

Ə.Ağaoğlu isə əqidə və qələm dostundan fərqlənir, mübarizlik göstərməyə çalışır, bədii sözün, mətbu fəaliyyətin sonunda məqsədə yetişməyin mümkünlüyünü xatırladırdı. Doğrudur Ə.Hüseynzadə də «ilərisi işıq və çəmənlikdir» deyir, romantik düşüncələrlə yaşayırdı. Lakin Ə.Ağaoğlu düşündükləri uğrunda gerçək mübariz kimi vuruşmağı üstün tutur, fədakarlıq nümunsi göstərirdi. O, dövrünün görkəmli mətbuat xadimi, mütəfəkkiri Əlibəy Hüseynzadəyə müraciətlə «Füyuzat» haqqında yazırdı: «Əsrimizdə İsalər, Musalər yox isə də Fironları naçar qoyan fəsahət və bəlağət, elm və hünər, istedad və qabiliyyət, sidq və səfanın, həmiyyət və fədakarlığın müəssiri-əfsungirləri var! Hötelər, Şillerlər, Bismarklar, Qarribaldilər, Mazizinilər, Qambitkalar sahiri-əfsungir degil idilər, nə idilər?! Eyni surətdə bizim zahirən ölmüş millət üçün əfsun və sehr haman sizin kibi mücahidlərin zühur etməsidir. Əmin olunuz millətimizin ayineyi-qəlbi, saf və safeyi-ruhi hər bir jəngdən pakdır. Liqayi-əməl və arzularımız millətimizin bu pak və səfalı ayineyi-qəlb və ruhunda cilvəgir olmadan ötrü, nə vəqt həmiyyət və fədakarənə ciddi, candan, maldan, rahatlıqdan keçərək nəfsəndazlıq olub?1! Xeyr, xeyr olamayıb! İştə «Füyuzat»ın əsl sehri, əsl əfsungirliyi bizlərə tərbiyə verib sidq və səfayə, hümmət və qeyrətə, fədakarlığa, millət və taifə yolunda fədakarlığa aşina olmaqdır»[1]

Göründüyü kimi istər klassik olsun, istərsə də müasir Ə.Ağaoğlu onlar arasında heç bir fərq qoymur, ədəbiyyat, sənət və mətbuat xadimlərini əsl «əfsungir və sehrbaz» adlandırır, onların «səfa, hümmət, qeyrət, millət və taifə yolunda fədakarlığa aşina olmalarına» diqqət yönəldirdi.

Həmin ictimai-tarixi və ədəbi-mədəni mövqeyi qoruduğuna görədir ki, Ə.Ağaoğlunun şəxsiyyəti Azərbaycanın ümummilli həqiqətlərini dərk etməyə ən etibarlı körpü rolunu oynaya bilir. Çünki Ə.Ağaoğlu bütün həyatı, yaradıcılığı və ictimai fəaliyyətində türklük duyğusu və təəssübünə, islam əxlaqı və dünyagörüşünə, daima yeniləşmə, çağdaşlaşma və dünyəviləşmə prinsiplərinə əməl edir, bu əsasda azərbaycançılığın bir təfəkkür modeli, ideal kimi formalaşmasına, ictimai-mədəni həyata tətbiqinə çalışırdı.

[1] Əhmədbəy Ağaoğlu. Rəfi-işənibah. «İrşad» qəzeti, 4 mart 1907-ci il, №38.

[2] Ə.Hüseynzadə. Həyat və meyli-füyuzat. «Füyuzat» jurnalı, 1906-cı il, №1, s.2.

[1] Əhməbdəy Ağaoğlu. Füyuzat! Füyuzat!! «İrşad» qəzeti, 2 noyabr 1906-cı il, №256.

ƏHMƏD BƏY AĞAOĞLUNUN VƏTƏNƏ QAYIDIŞI VƏ TƏRCÜMEYİ-HALI

Hörmətli redaksiya!

Artıq bir neçə ildir ki, görkəmli Azərbaycan mütəfəkkiri Əhməd bəy Ağaoğlunun vətənimizə qayıdışı davam etməkdədir. O XX əsrin əvvəllərində Azərbaycandan Türkiyəyə gedəndə dövrün ziyalıları böyük təəssüf hissi keçirmiş, bu böyük şəxsiyyəti «korların gözü, karların qulağı, lalların dili» (Əliabbas Müznib) kimi qiymətləndirmişdilər. Sonralar «Şimal küləyi» Azərbaycanda ideya-siyasi düşüncələrdə təzadlar yaratdığına, kommunist-bolşevik prinsiplərinə meydan açdığına görə milli ideoloq olan Ə.Ağaoğlunun şəxsiyyəti və yaradıcılığına qarşı total hücum başlamış, o «pantürkis, panislamist, kosmopolist, burjua, mühafizəkar» adlandırılmış, uzun müddət kommunistlərin siyasi tənqid hədəfinə çevrilmişdir...

Azadlıq ruhlu fikir mücahidinin vətənə qayıdışı «Fikrin karvanı» (1984) ilə başladı. Mərhum alimimiz Əziz Mirəhmədovun onun haqqında yazdığı portret-oçerk ilə yenidən Azərbaycana təqdim etdi. Sonra Kamal Talıbzadə, Xeyrulla Məmmədov, Vilayət Quliyev, Fəxrəddin Gülsevən, Şahnəzər Hüseynov, Xaləddin İbrahimli, Ülviyyə Hüseynova, Gülsərən Akalın və başqalarının məqalə, monoqrafiya və elmi-tədqiqat əsərlərində onun yaradıcılığı, şəxsiyyəti, ideyaları öz əksini tapdı. Ə.Ağaoğlunun «Seçilmiş əsərləri»nin Azərbaycanda nəşr olunması, onun adına Bakı şəhərində geniş prospekt açılması «vətəninə qayıdıb dünyasını dəyişmək» arzusunda olan, ömrü boyu mühacirət acılarını yaşayan mütəfəkkir şəxsiyyətin vətəninə gec də olsa qayıdışı deməkdir. Bu mənada uzun illər adı, ömür yolu, şəxsiyyəti,

yaradıcılığı barədə qeyri-dəqiq məlumat, «marksist-leninçi tənqid», qərəzli münasibət gördüyümüz Əhməd bəy Ağaoğlunun öz əli ilə qələmə aldığı «Tərcümeyi-hali-acizanəm» adlı bioqrafik yazının möhtərəm oxucularımıza çatdırılması da, zənnimcə məqsədəuyğundur. Mətnin fonetik prinsiplərinə qismən dəyişiklik edilsə də, orijinalın həcmi və üslubu olduğu kimi saxlanılır.

TƏRCÜMEYİ-HALİ-ACİZANƏM

İsmim Əhməd, pədərimin ismi Həsəndir. Qafqasiyə qitəsinin Gəncə vilayətinə tabe Qarabağ şəhərində 1868 sənəyi-miladi rəcəbində dünyayə gəldim. Pədərim abavü ən-cədd Qafqasiyə zadəgan ailəsinə mənsub olub Rusiyədə rəsmən tanılan «bəg» ünvani-əsilanəsini haizdir. Rusiyədə zadəgan sinfi başqa siniflərdən baimtiyaz təfriq edildigindən Rusiyə hökuməti nəzərində böylə bir hüquq və imtiyazatə malik ola gəlməkdəyiz.

Bidayət təhsilim ailəmiz daxilində xüsusi müəllimlər ilə bida olunmuşdur. O vəqtin üsuli-təhsilinə tabe olaraq lisanımadərzadımız olan türkcəyə əslən əhəmiyyət verilmədən dini və ədəbi ərəbcə ilə farsi lisanlərindən ibtidai tədrisə qoyuldum. Səkkiz yaşlarımda davam edən şu təhsilə hökumətiməhəlliyənin lisani-rəsmisi dəxi əlavə olunaraq ruscayi da ayrıca müəllimdən dərs aliyor idim ki, rusca müəllimin üsuli-tədrisi ötəkilərə təfəvvüq etməklə müddəti-qəlilə zərfində bu lisandə məlakə hasil etdigimi müşahidə edən pədərim bəni şəhrimizdəki rus məktəbinə vermişdir. İki sənə də şu məktəbdən bilimtahan çıxaraq əhalinin meyl və rəğbəti üzrə Rusiyə hökuməti tərəfindən Qarabağda ilk təsis və güşad olunan «realnıy jimnaziya» denilan mülkiyyəyi-edadi məktəbinə girmək əzmində olub fransızcadan, tarixdən, həndəsədən hazırlanaraq məktəbin proqramına tövfiqən imtahan verərək edadi sinfinə qəbul olundum. Bu məktəbdə ikmalitəhsil edüb doğruca Qəfqasiyanın məqərri-hökuməti əd olunan Tiflisə gəldim. Şəhri-məzkurdəki sinfi-ali realnıy gimnaziyayə bilimtəhan girdim. 1884 sənəsi məktəbi-məzkurədən şəhadətnamə istehsal edərək mərkəzi-hökumətə, Petersburga əzimət eylədim. Orada ekolqemu mühəndis məktəbi-alisanə girdim. İqlimin abü həvasilə imtizac edəmədi-

gimdən bir sənə sonra Parisə əzimət ilə hüquq məktəbinə girdim. Üç sənə imtidad edən təhsil nəticəsində imtahan verərək «lisaniyə amederuva» diplomun aldım. Bədə 1891-dən 1892 tarixinə qədər Sorbonun Kultur de Frans şöbəsində məşhur həkim və müəllim müsyö Renanın rəhleyi-tədrisində tarix və milləli başqa təhsil eylədigim kibi, digər tərəfdən də eqd de hotane jetodratiq şöbəsində məşahirdən professor Jeair Darmstern rəhleyi-tədrisatində milәl və əqvami-şərqiyyənin əbsənə və məzahib və adat və adabına kəsbi-vüquf eylədim. Bununla bərabər ixtilasi-vəqt etdikcə ədəbiyyat və mətbuatda iştigali-zehn etməkdən ilərləyərək fransızca nəşr olunan rəsaili-mövqutə və yövmiyyələrdə nəşri-məqalata girişdim. Müəllim Renanın təşviqati-alicənabanəsinin minnətdarı olaraq mətbuat aləminə qarışdım. Nəşr olunan məqalələrim müşarileyhin təqdiratı tilmizpərvəranələrinə məzhər olduğu əyyamdə bəzi məqalələrimin «Redonobil» məcmuəsinin sahibi madam «Adam»a bitəvəccoh göndəriliyordu. 1889 sənəsi təşrini-əvvəl və sanisində fransızca nəşr eylədiyim məqalələrim ənzari-amməyi calib eləməyə yüz tutmuşdu. Osmanlı məclisi-məbusani-rəyasətinə rövnəqtəza olan rəisi-möhtərəm Əhməd Rza bəg əfəndi həzrətlərinin təqdiratinə məzhər olaraq beynəhüma badiyi-vəsiləyi-məarifə olmuş idi. Tarixi-məzkurdən bəri mayeyi-iftixari aləmi-islam olan şu müəzzəz zati-cəlil qədrin tövtiqati-üxüvvətpərvəranələrinin məftun və təfəxxüri bulunmaqdayam. Bədə «Jurnal de Deba, «Jurnal de blu» kibi Paris mətbuatının mühim səhayifi asari-qələmiyyeyi-acizanəmə açıq bırakıldım. Şərq və aləmi-islamə dair məqalələrin nəşrinə davam eylədim. 1892 sənəsi Londrada güşad olunan müstəşriqin konfransına dəvət olundum. Xərei-rahim mütəvəffa İngiltərə kraliçəyi-Viktoriya namından cəmiyyət vasitəsilə verilmişdi. Bu konfrəyə təqdim edib qiraət eylədigim «Mənabei-məzhəbi-şii» nam əsəri-acizanəm şayani-diqqət görüldiğindən Kenbric darülfünun məsarifilə nəşr eylədigi kibi əlsəneyi-qərbiyədən

bir kaç lisanə tərcümə etdirilmişdi. 1894-də pədərimin irtihalı xəbərini almaqla məsqəti-rə sim olan Qarabağa övdətə məcbur oldum. Məxsus Dəri-Səadət yolunu tutduraraq şu paytəxti-üzmadə o vəqtin ilərı gələn ərbabi-fəzl və kəmali ilə şərəfi-məarifəyə nail oldum. O cümlə nam və iştihari Aləmi-islamcə məruf olan mərhum Şeyx Cəmaləddin Əfğani ilə müsafirxaneyi-Əbdülhəmid ilə mülaqat eylədim. Ümuri-xüsusiyyəmi bit-təsviyə vətənim Qafqasiyənin məqərri-hökuməti Tiflis şəhrinə əzimət eylədim. Burada nəşr olunan rusiyyül-ibarə «Qafqaz» qəzetəsinin heyəti-təhriyyəsi cümləsinə daxil olduğum kibi, bir tərəfdən də şəhri-məzkurədəki jemnaziya məktəbi-alisində bir-iki dərs öhdə eylədim. Mənsubi bulunduğum «Qafqaz» qəzetəsi vasitəsilə aləmi-islamə və məmləkətimə aid nəşr eylədim məqalələrim ifayi məramə qeyri-kafi göründiğindən kəndi lisanımızda türkiyyat-ibarə bir qəzetə əhdainə lüzumi-həyy etməkdə idim. Va əsəfa ki, o vəqtin hökuməti rus ünsüründən bulunmayan müsəlmanlara böylə bir vasitə verməgə müsaid bulmuyordu. Mə-mafih türkcə bir qəzetə əhdai məqsədilə rəci-aidiyyəyə vüqu bulan müraciati-müsirranəmin kaffəsi əqim qalmaqda idi. Şu əsnadə Baku şəhəri əhalisindən və niyyati-xeyriyyəsilə məruf olan, əğniyayi-islamiyyədən Hacı Zeynəlabdin Təğiyof həzrətləri şəhri-məzkurdə rusca nəşr olunan yövmi «Kaspi» qəzetəsi imtiyazını təhti-təsərrüfə keçirdi. Müşarileyh həzrətləri şu mühim qəzetəyi bilümum Rusiyə müsəlmanlarının vasiteyi-nəşri-əfkarı etməgə himmətgüzar olaraq həqiri də işin ərbabı bilməglə Bakuyə dəvət eyləmişdi. 1897 tarixində «Qaspi» qəzetəsinin sərmuhərrirligini dəröhdə edərək nəşriyyatə başladığım kibi eyni zamanda vüqu bulan təklif üzrə Bakudəki jimnaziya məktəbi-alisində rəhleyi-tədris dəröhdə eylədim. Baku sırf islam şəhridir. Buradakı əhaliyi-müsəllimənin qimi-əzəmi o həvalidə nəbyan edən qaz yağı mənabeın işlətməklə pək az zamanda sərvət və iqtisadca ilərüləmiş zənginlərdir. Burada islamdən milyonerlər çoxdur. Gə-

rək mövqeən və gərəksə felən haizi-əhəmiyyət olan böylə bir zəngin şəhr o tərəf müsəlmanlarının mənəviyyatına hizmət etməgə müsaid olmasıyla belə əhalisinin zülməti-cəhalətdə qalması öylə bir hizmətə maneə olmaqda idi.

Bakudan başqa bilümum Qafqasiyə müsəlmanları hər tərəfdə vadiyi-cəhldə qalmış əmalər kibi acınacaq izmihilal halində görünmiyor idi. Bununla böylə şu gözəl qitədə bulunan müsəlmanlardan şiələr ilə sünni məzhəblər arasında cahilanə bir təəssüb və tənəffür hökmfərma idi. Daima təfriqeyi-ənasürdən cəlbi-mənate etmək məsləkini təqib edən Rusiya hökuməti nasiki-cəhalət və təəssüb və ümmiligindən bilistifadə ziyayi-məarif və ürfani o vadidən külliyyən səlb eyləmişdi. Qonşularımız yanı başımızda gündən-günə tərəqqi və təali ediyor, ermənilərin, gürcülərin, müsəvilərin və baxüsus rusların təlimi-məarifə himmətgüzar olan cəmiyyətləri sayəsində ziyayi-məarif köylərdəki köçəbə nişin köylülərin pəncərələrindən içəri girdigi ruzi-rövşəndə bizim köylərimizdə, şəhrnişinlərinmizdə məsəllü bir zülməti-əbədiyi-cəhl aləmində məhv olub gediyordı. Ermənilərin mütəəddid mətbəələri, qəzetələri və hər köydə məktəbləri mövcud oldığı halda, Rusiya müsəlmanları həyatın bu kibi nemətlərindən külliyyən məhrum qalıyorlardı. Təkrar ediyorəm, Rusiya hökuməti Qafqasiyada şu halların şahidi olmaqla bərabər müsəlmanləri vadiyi-cəhalətdən çıkarmanın əsbabını var qüvvətilə mən etməkdə idi. Vətəndaşlarımın, vətəni-əzizimin şu kibi fəlakətini idrak eylədigim gündən həməfkar və məsləkdaş bildiklərimdən bir kaç ixvanı başıma toplayaraq, vətən və əbnayi-vətən haqqında əmiqən düşünməyi qurduq. Vətənimiz Qəfqasiya ilə bərabər bilcümlə Rusiya müsəlmanlarının məskun olduğu bəlvan idi ki, xəritəyə çiziliyor da əbnayi-vətən o xəritə üzərində bildigimiz islamdən ibarət idi. Bu əhalinin onda səkkizi türk oğlı türk idi ki, ilk mövqe bulan müzakirəmizdə təbəyyün etməklə haldən məsrur olaraq ilk vəzifəmiz bunları əvvəla kəndilərinə, bədə yekdigərinə tanıtmaq-

dan ibarət idi. Türklük məhəbbətini bunların qəlblərinə ilqa eyləmək, qəlblərində osmanlılıq hissiyyatını oyandırmaq kibi ikinci dərəcədə vəzifələr düşünülmüşdü. Şurasını da unutmayalım ki, Rusiyadakı türklər çirkin dəbi-dirinə qapılayaraq türkcə yazıb oxumayı bir ar bilmək kibi təhəqqa edə gəldiklərindən yazı bilənləri müxabirat və mühərriratlərin mütəkəllim olduqları farsicə şivədə kullanmaqda idilər. Kəndi madərzad lisanından məhcur olan türklərdən Rusi məktəbində təhsil və tərbiyə görənləri bir də rusca mühərrirat baş götürmüşdü. Hətta rusca təkəllüm və kitabət miqyasi-vasei də türk ünsürü üzərində tövsi-i-dairə eylədigi də ayrıca hiss edilməkdə idi. Məktəbi, mətbəəsi, qəzetəsi, məktəb kitabləri bulunmayan cahil bir qövmün ədəbi vəlov otuz milyon olsun məarifpərvər bir ovuc digər bir millət nəzdində məcburi olaraq mənən tabei-cüzv olacağı şübhəsizdir. Biz məsələnin şu mühim cəhətlərilə bərabər qətgasililərdən sünni ilə şiilər miyanında Rusiya intriqaları nəticəsi olaraq baş göstərmiş olan məzhəbi-nifaq və siqaqi bir an əvvəl ortadan qaldırmaq və oradaki türkləri zəhir və məlcə ədd təvəssül olunmanın carələrini də düşünmüş idik. Baladə təəd dad olunan mərahili-teyy edə bilmək üçün mətbəə, qəzetə və məkatib ilə cəmiyyətlərin ehdasi zəruri idi. Rusiya hökuməti ziri-idarəsində bulunan müsəlmanları ta Katerina dövründən bəri məhrum edə gəldiyimizi gördüyümüz üçün peyi-pərdədən iş becərmək üsulinə dərpiş etdik. Gürultusuz cəmiyyətlər ehdaiyyətilə məktum məramlər sayəsində rusları ürkütəcək ibtidayi məktəbləri köylərdə ehdas etməgə girişərək məktəblərdə lazım olan kütübi-təlimiyyə ilə maili-təlüm və tərbiyələri sadə məfhum lisandə təlif nəşr etdirərək bir tərəfdən də Rusiya müsəlmanlarını qıran xabi-ğətlətdən iqaz edəcək asar nəşrinə qərar-güzar olduq. «İslam və axund» ünvanı altında ilk nəşr etmiş olduğum əsəri-acizi az zaman zərfində Rusiya müsəlmanları miyanında nəşr olunca axundların hiddəti-tən və təərrüzü olduq. Bizlər də ictimagahlarda

axundlərin təlin və təftirinə məruz qaldıq. Əzhani-ari-ğəlyanə başladı. Vücudi-mənhusimizin fitvası verildi. Müddətimədidə mütəhəssinən məskəndə qaldım. Mə'əmafih tədricən tərəfdaran və həmfikaran təzayid eylədi. Axundlar ilə xacələrin məhzən cəlbi-mənafi üçün beynəl-əxvəneyl vəz etmiş olduqları səddi-mətin mütəzəlzin olmayayüz tutdu. Rusiyanın dövreyi-ixtilalə və inqilabə isal olunan şu hal və hərəkətindən az zamanda səmərati-müfidə ittihat olundu. Mətbuatə müsaid hallər baş göstərincə həman türkcə olaraq yövmi bir gəzetə nəşrinə rüxsət alındı. Tərəqqiyyati-mənəviyyəmizin məbdəvə başlanğıcı ədd olunan ilk ğəzetəmizi ərkanicəm'iyyətin təşviqilə şimdiki məşruteyi-Osmaniyyənin hürr padşahımızın namiyi-müqəddəsləri ünvan verildi. Qəzetəmizin Qafqasiyə qitəsinin üfüqi-şərqdən – Bakudən tülu etmiş bir «şəhrahi-irşadı» açdı. Bu qəzetə az zamanda Sibirya və Tatarstan və Türkistanları aşaraq İrani istila eylədi. Gərək İranda İrani əhrarın, gərəksə Yevropadakı fərari türklərin cövlangahi – amalı oldu. Bu gün daxiliyyə nəzarətinə rövnəqsaz olan Tələt bəglər, Bəkir Şakir, doktor Nazim kibi ərbabi-kəmal irşadımızın bir rəhbər və mürşidləri idi. Əli Heydər Midhət bəgin Əbdülhəmidə xitabən yazdığı açıq məktubları üçün səhayıfi-irşad daimən açıq idi. Yenə o tarixdə idi ki, islam hadiseyi-məluməsi baş göstərdi. «İrşad» həman meydanə atılaraq kəndinə tərəttüb edən vəzifeyi-vətənpərvərliyi ifa eylədi. Rusiyada qəzetələrə məqalə yaza biləcək ərbabi-qələm yetişmədigindən «İrşad»ın o vasi səhayıfi həp xameyi-acizanəmlə toluyordu. Gecələri gündüzlərə qatarag ələd-dəvam xamərani-səhayifi-irşad bulunuyor idim. Kəsrəti-məbağil və ğəvayil arasında həsbüd-vəzifə iki dəfə Qafqasiya müsəlmanları tərəfindən bil-vəkalə Petereburga getdim. Müsəlmanların müstədiyyətin biz-zat çar həzrətlərinə ərz eylədim. Məqsəd mühüm idi. Bakının ətrafında bulunan islam köylərinin ərazisini əllərindən alıb onları qaz yağı mənbələrindən külliyyən məhrum eyləməkdən ibarət idi.

Roçeld, Nobel kibi əğniya yerli erməni sərmayədaranın intriqasına qapılaraq İslam köylərini Bakı səfhəsindən silmək istiyorlardı ki, müdafieyi-hüquqə nail oldum.

Müsəlmanların cəhaləti hər gün hər addımda başlarına böyük-böyük fəlakətlər açdığını görməklə milləti bilcümlə fəlakətlərdən rəhayab edə bilmək məqsədilə «Cəmiyyəti-xeyriyyə», «Nicat», «Nəşri-məarif», «Səadət» və «İttihad» namı altında tədricən milli, fəal cəmiyyətlər ehdasına müvəffəq oldum. Bu cəmiyyətlərin Rusiya müsəlmanları ilə Krım, Qafqasiya və Türkistan qitələrində binlərcə əza və müşəvviqləri, şöbələri vardır. Bu cəmiyyətlər sayəsində Bakıda milli, müntəzəm tiyatro inşa olundu. Burada tərbiyeyi-müsəlmanə xidmət edən əsərlər mövqeyi-tamaşayə vəz olunuyor. Böyüklər üçün bir tərbiyəxanə şəklinə qonulmuş olan şu tiyatrodan faidə görülməkdədir. Şəhr və qəsəbələrdə qiraətxanələr, kütübxanələr ehdas olundu. Bəzi mərkəzi şəhrlərdə mətbəə və ğəzetələr ehdas edildi. İbtidai məktəblərə müəllimlər hazırlatma üçün darül müəllimin ilə ona müqabil proğramda qız məktəbləri güşad olundu. Bu kibi məktəblər üçün Dəri-səadət ilə Misirdən müəllimin və müəllimat və xacələr cəlbilə müddəti-qəlilə zərfində türkcə yazıb oxumaq, türkcə şivədə təkəllüm eyləmək kibi nəticeyi-həsənələrə nail olduq. Bu gün Qafqasyada türklər arasında türklük kəndini göstərmişdir. Vəqta ki, Rusiyada hərəkati-irticaiyyə başlayınca Rusiya hər tərəfdə müsəlmanlərdən əndişə eylədi. Əzcümlə Bakıda nəşr eylədiyim «İrşad»ı qapatdı, cəmiyyətlərimizə bədbinanə nəzərlə bakıldı. Məkatib və mədaris və qiraətxanə və tiyatrolarımız təhti-tərəssüdə alındı. Ərbabi-qələm təqib olundu. Bir müddət sonra yenə mətbuatə müsaidə verilincə «Tərəqqi» ünvanı altında yeni yövmi bir qəzetə ehdas eylədim. Əlyövm dəvami-nəşr edən «Tərəqqi»də Rusiya müsəlmanlarını osmanlılığa irtibat edər məqalələr dərc olunur. Dəri-səadət məktublərim ilə məqalələrim şahidi-əhvaldır. Qafqasyadakı məkatib və mədaris və cəmiyyətlərimizə gəlincə qanun dairə-

sində hərəkət eylədiklərindən təqibandan məsun olaraq mövcudini mühafizə ediyor. Qafqasya bu gün məcrayi-tərəqqisinə girmiş və hissiyyati-milliyyətini almışdır. Bir surətdə ki, bəd məmaniət əməlindən hərf etdirəməyəcəkdir. Osmanlı ilə olan irtibatı gündən-günə təşəyyüd etməkdədir. Qafqasya türkləri arasında müşahidə olunan Osmanlı hissiyatı Osmanlılar gələnəgindən az olmayacağını təyid edirəm. Tərəfi-digərdən, ötədən bəri İranın Rusiyanın daireyi-nüfuzi altına alındığı məlumdur. Rusiya şimdi İran ilə Azərbaycan qitəsində və Şərqdən Xorasan ilə Quçan tərəflərində və cənubən bəndər-Buşir və Xəlici-Fars səvahilində tərvici-amalə qonulmuşdur. Dövləti-müşarileyhanın şu vadidə önə almış olduğu tədabiri – durbinanəyi pək dəqiqanə olduğunə kəsri-nüfuzi üçün yenə İranda çarə aramaqdan başqa çarə qalmamışdı. Binaənileyh İrandəkı vətənpərvəran ilə həmiyyətməndanı əldə edə bilmək üçün müxtəlif bir firgə təsisi zəruri idi. «İran iranlılarındır» fikrini təqibə qalqişdıq. Müddəti-qəlilə zərfində İranda İranı bugünkü hali-tərəqqiyi-məşrutiyyətə gətirə biləcək qüvvət ehdasına müvəffəq olduq. Rusiya bit-təb aləmi-islamın böyləcə asari-həyat və təmayülat ehya-guşəsindən ən əvvəl kəndi həbteyi-təsərrütündəki türk ünsüri müsəlmanlardan küşqulandı. Rus mətbuatı vəsayeyi-günagün ilə meydani-fəaliyyətə atıldı. İlk hücumlara hədəf olan Qafqaziyə ocaqları gözlərə çarpan həqir məsəllü xamə bədəst olanlar idi.

Divani-ürfi və divani-əskərilər «qanun dairəsində» təfyiqanə qoyuldular. Ya Rusiya pəncəsində əzilmək, yaxud o vərtədən bir an əvvəl çəkilməkdən başqa bir çarə qalmamışdı. Binaənileyh Qafqasiya və İran və Türkiyə ittihadinə xidmət edən komitənin mərkəzi-fəaliyyəti Dəri-səadətə nəql bər təqrib müsaideyi-rəsmiyyə istehsal edərək burayə məlcəi-islam və paytəxti-xilafəti-üzmayə şitaban oldum. «İttihad və Tərəqqi» ərkan qanadına ixvanın təavün və himayə və təqviyyəsi sayəsində bu mərkəzdən daha qüvvətli bir müqabilə ilə ədayi-millət amalına qarşı davrana biləcəgimizi təyəqqün edərək tərki-

darü-diyar eylədim. Və zatən ötədən bəri əxti-amalım olan tabeiyyəti-Osmaniyyəyə girmək şərəfinə nail oldum. Bu gün Rusiya müsəlmanları ilə İran vətənpərvəranı əlindəki məqamı-ittihadı cərəyanilə bərabər məsləki-qədimdən səri-muinhiraf etdigim haldə ixvanı-din miyanında bulunmaqla kəsbi-mübahat eylərəm. «İttihad və Tərəqqi» komitəsilə mənən yenə ömrüm olduqca o vadidə xidmət etməkdən dur duramam. Netəkim şu mərkəzdən peydərpey «Müəllim» və «Müəllimə» namilə Rusiya müsəlmanları aləminə sövq etmək bugünkü vəzifəmdir. Son həftə zərfində kaç kişi buradan mühüm mərakizə göndərilmişdir. Məaşları ərbabi-sərvət və əğniyayi-islam tərəfindən təsviyə olan türk müəllimlərinə ruslar mümaniət etməkdən izhari-icz eylədigi hiss edincə pasaportlu müəllimlər müttəsilən Qafqasyaya akıtılıyor. Dəvətim üzərə qəribən dəri-səadətə məhzən xakpayi-xəlifeyi-müəzzəməyə nümunə olmaq üzərə mütəhiyyi-əzimət olan əğniyayi-islamdən bakuli milyoner Muxtar bəg burada nəşri-kütüb və rəsail üçün rəyaəsətini haiz olduğum komitə naminə bir mətbəə ehdas edəcəkdir. Bundan maəda islamdan və ərbabi-fəzl və hünərdən bir heyətin İran, Hindistan, Əfğanstan, Türkistan və Tatarıstan və Fas aləmində, ittihad nöqteyi-nəzərindən dəştü güzar etmək məsarilfini yenə müşarileyh Muxtar bəg dəröhdə etməkdədir. Durbingah gənc Türkiyənin tədabiri-ixvanpərvərisi sayəsi də Rusiya müsəlmanlarının milyonları həp şu nöqtəyə, şu mərkəzə mətufdur. Hələ qırğızlardan yeddi milyon türk oğlu türkün burada tərvici-amalına xidmət etmək vəkaləti-ərkani-komitəmizdən birinə tövdi olunduğu məqami-sədarətcə məlumdur. Haman cənab müsəbbibül-əsbab olan rəbbül-aləmin cümlə müsəlmanları əmri-cəlil «təəstəqim kəma umirtu»[1] qarşısında müttəhid eyləsin.

Əhməd Ağayev

"Xəzər" qəzeti, 7,14 iyun 2008-ci il.

[1] Qurani-Kərimdən ayə

ƏLİBƏY HÜSEYNZADƏ*
(1864-1940)

Azərbaycanın ədəbi-mədəni inkişafı tarixində əhəmiyyətli yer tutan Əlibəy Hüseynzadə eyni zamanda Şərq və Qərb dəyərlərinə dərindən bələd olan görkəmli mütəfəkkir, istedadlı nasir, şair, rəsam, tərcüməçi, publisist, musiqişünas, tənqidçi kimi tanınır. O dövrünün məşhur redaktor və müəllimi kimi də böyük rəğbət qazanmış, ictimai-siyasi həyatda və milli şüurda islahatların – reformaların aparılmasında ardıcıl fəaliyyət göstərmiş şəxsiyyət nümunəsidir.

***

Əlibəy Mola Hüseyn oğlu (Hüseynzadə) 1864-cü il fevral ayının 24-də Azərbaycanın Salyan qəsəbəsində anadan olmuşdur. Atası Molla Hüseyn 1863-cü ildə Qafqaz şeyxülislamı Axund Əhməd Səlyaninin (1812-1887) qızı Xədicə xanımla evlənmiş və həmin izdivacdan Əlibəy dünyaya gəlmişdir. Molla Hüseyn həmin ildə Qafqaz müsəlman-ruhani məclisinin Tiflisdəki altısinifli məktəbinə müəllim təyin olunduğu üçün Tiflis şəhərinə köçərək orada yaşamışdır. Əlibəyin iki yaşı tamam olmamış anası və az sonra atası Molla Hüseyn vəfat etmiş, bundan sonra onun babası Şeyx Əhməd Salyanlının himayəsində böyümüşdür.

Həmin vaxt Tiflis çar Rusiyası ucqarlarında ən çox inkişaf etmiş sənaye və mədəniyyət mərkəzlərindən biri sayılır, imperiyanın Qafqazdakı idarəçilik mərkəzi kimi diqqət mərkəzində dayanırdı. Qafqaz xalqlarının ziyalı oğulları müəyyən dərəcədə bu şəhərdə toplaşmaq, yaşayıb-yaratmaq məc-

* "Azərbaycan ədəbiyyatı tarixi"nin V cildi üçün yazılıb.

buriyyətində idi və belə də olmuşdu. Bir sıra həmvətənləri kimi Azərbaycanın görkəmli ictimai xadimi, dramaturqu, habelə polkovnik rütbəli məmur Mirzə Fətəli Axundovun taleyinə də həmin məcburiyyət yazılmışdı. XIX əsr Azərbaycan mədəniyyətinin tərəqqisində müstəsna rol oynayan, eyni zamanda milli inkişafımızın yeni mərhələsini açmağa əsaslı təsir göstərən M.F.Axundov Əlibəyin babası Şeyx Əhmədin yaxın dostu və həmsöhbəti idi. İlk uşaqlıq illərində M.F.Axundov kimi işıqlı bir ziyalının və babası kimi arif bir din xadiminin söhbətləri Əlibəydə dini və dünyəvi elmlərə güclü rəğbət oyatmışdı. Hər iki fikir adamının müxtəlif ictimai məzmunlu mübahisələri, «elmi-əbdan» və «elmi-ədyan»ə dair gərgin mükalimələrilə aydın izahları onun dünyagörüşünün zənginləşməsinə xidmət etmişdir. Sonralar həmin təsir Əlibəyin bütün yaradıcılığı boyu özünü göstərmiş, onun dini və elmi görüşlərindəki sinkretiklik, qovuşuqluq demək olar ki, hər yazısında təzahür etmişdir. 1875-1885-ci illərdə Tiflis gimnaziyasında oxuyan Əlibəy rus, fars və ərəb dillərini öyrənməyə başlamışdı ki, bu həvəs ona adı çəkilən hər üç xalqın mədəniyyətini öyrənməkdə ciddi kömək göstərmişdir. Gimnaziyanı bitirdikdən sonra Əlibəy elə həmin il məşhur Sankt-Peterburq Universitetinin fizika və təbiyyat fakültəsinə daxil olmuş və 1889-cu ildə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. Əlibəyin həyatı ilə maraqlanan tədqiqatçıların mülahizələrindən aydın olur ki, o hələ ibtidai təhsil illərindən dünya ədəbiyyatı klassiklərinin əsərlərini sevə-sevə oxumuş, incəsənətə (o cümlədən rəssamlığa) xüsusi maraq göstərmişdir. Lakin böyük nüfuz sahibi və dini elmlər bilicisi olan babası Şeyx Əhmədin razılığı, eyni zamanda M.F.Axundovun təbliği ilə Peterburq universitetinin fizika və təbiyayt fakültəsini seçmişdi. Universitet təhsili illərində Əlibəyin elmi-ictimai görüşləri daha da cilalanmış, onun cəmiyyət hadisələrinə dair sərbəst və müstəqil görüşləri formalaşmağa başlamışdır. O zaman imperiyanın paytaxtı özündə

müxtəlif ictimai-siyasi meylləri birləşdirir, gənclərin sosial fəallığına yenilikçi təsir göstərirdi. Əlibəy Mendeyeyev, Bavner, Menşutkin, Begetov, Jukovski kimi elm adamlarının mühazirələrini dinləyir, qaynar paytaxt həyatının ictimai ziddiyyətlərini yaxından müşahidə edirdi. O, Peterburq universitetinin Şərq fakültəsindəki mühazirələrə daha ciddi əhəmiyyət verir, burada rus şərqşünaslığında əzəmətli mövqeyi ilə seçilən Jukovskinin söhbətlərindən xüsusi zövq alırdı. Gələcəyin istedadlı şərqşünas-alimi, Şərq ədəbiyyatına dair orijinal mülahizələri ilə ictimaiyyətin diqqətini cəlb edəcək ədəbiyaytşünas Əlibəyin filoloji görüşlərinə beləcə münbit zəmin hazırlanırdı. Bu illərdə Ə.Hüseynzadə Qərbi Avropa və klassik Yunan ədəbiyyatına, ingilis klassikasına da biganə qalmır, orijinaldan oxuduğu Homer, Dante, Virgili, Milton, Şekspir, Şiller, Bayron, Heyne, Hötenin əsərlərini ana dilinə tərcümə etmək fikrinə düşür.

Rusiya inqilabının beşiyi sayılan Peterburqda Əlibəy rus-çar imperatoru III Aleksandra qarşı sui-qəsddə ittiham olunaraq edam edilən Şaşa Ulyanovla (V.İ.Leninin böyük qardaşı) eyni fakültədə oxuyur və tələbə mühitinin inqilabi ab-havasında yaşayaraq yeni demokratik düşüncəyə yiyələnir. Həmin dövrün hadisələrini xatırlayan Ə.Hüseynzadə yazır: «Vaxtilə Makedoniyalı İskəndər çəlləkdə oturmuş filosof Diogenin yanına gedib soruşur: «Məndən nə istəyirsən de, sənə verim». O cavab verir: «Günəşin qabağını tutma». 1887-ci ildə, mən Peterburqda tələbə olduğum zaman təbiyyatçı yoldaşlarımdan biri III Aleksandrın günəşin qabağından öz xoşuna çəkilmədiyini görüb, onu silahla kənar etmək qərarına gəlmişdi ki, sui-qəsdi mərhum Leninin böyük qardaşı Saşa Ulyanov hazırladı. Ertəsi gün Kazanski sobor yaxınlığında Kazanski küçənin 23 nömrəli evində olan dərnəyimizdə axtarış aparıldı və yoldaşlarımızdan şuşalı texnoloq

Aslan bəy Aslanbəyovu həbs edib Petropavlov qazamatına saldılar».[1]

Sankt-Peterburqda mükəmməl ali təhsil alması, ictimai-siyasi dairələrin işi və həyat tərzi ilə yaxından tanış olması, habelə dünyada baş verən azadlıq uğrunda mübarizələrə dair zəngin məlumat toplaması onun elmi-nəzəri yetkinliyinə və şəxsiyyət kimi formalaşmasına səbəb olur. Bu baxımdan tələbə hərəkatının tarixi rolunu qiymətləndirən Ə.Hüseynzadə o illəri xatırlayaraq deyirdi: «O vaxtlar yadımdadır, darülfünunda bir şuriş, tələbə şurisi oldu, tələbələr dövlətdən bir çox şeylər tələb edirlərdi. Əzcümlə istəyirlərdi ki, darülfünun naziri dövlətin keyfi ilə deyil, professorların, müəllimlərin intixabı ilə təyin olunsun... bu şuriş üzərinə o vaxtlar maarif naziri Delyanov darülfünuna gəlib başına yığışan tələbəyə dedi ki, «dövlətin üç-dörd milyon qoşunu var! Siz iki-üç tələbə nə edə bilərsiniz?»[2]

Sankt-Peterburqda təhsilini başa vuran Ə.Hüseynzadə az sonra İstanbula gəlir və burada ikinci ali təhsil almaq üçün bir sıra çətinliklərlə üzləşir. Rusiyadakı təhsilinin tanınmaması səbəbindən o osmanlı-türk təhsili qaydaları üzrə ibtidai və orta sinif imtahanları verir və ali məktəbə, İstanbul Əsgəri-Tibbiyəsinə (1890-1895) daxil olur, oranı dəri zöhrəvi xəstəlikləri üzrə hərbi həkim, yüzbaşı rütbəsilə bitirir. İstanbuldakı tələbəlik həyatında da Ə.Hüseynzadəni romantik inqilabi ruh müşayiət edir, o həmin dövrün tənzimatçı gənc türkləri ilə yaxından dostluq edir, hətta «İttihat və Tərəqqi» partiyasının ilk yaradıcılarından biri olur. Buna o zəngin biliyi, dərin təcrübəsi və ictimai fəallığı sayəsində nail olur. Tələbə dostlarından olan şair, tərcüməçi, redaktor Abdulla Cövdət onunla ilk görüşünü xatırlayaraq bildirir ki, «üzərimizdə bir rəsuli-həqq təsiri burakmışdı». İstanbulda

[1] «Bakinski raboçi» qəzeti, 7 mart, 1926-cı il.

[2] Ə.Hüseynzadə. «Rusiya camaatının vəsaiti-inqilabı». «Həyat» qəz., B., 1905, №111.

tələbə ikən siyasi problemlərə ardıcıl maraq göstərən Ə.Hüseynzadə milli-etnik dəyərlərə dair mülahizələri ilə də tələbə mühitində böyük rəğbət qazanır, ümumtürk dünyasının Turan idealını formalaşdırmaq yolunda ilk addımlarını atır. Onun Misirdə çıxan «Türk» qəzetindəki «Məktubi-məxsusi» adlı məqaləsi və «Turan» şeiri deyilənlərə parlaq sübutdur. Ə.Hüseynzadənin bu illərdəki fəaliyyətində əsas istiqamət ümumtürk maarifçiliyi və milli-etnik türkçülükdür. O türk millətinin özünü və dünyanı dərk etməsinə çalışır, «üsuli-cədid» məktəblərinin köməyilə türk dünyasının təcəddüd (yeniləşmə) yoluna çıxacağına inanırdı. Həmin illəri xatırlayan Ə.Hüseynzadə milli kimlik və vətəndaşlıq mövqeyindən çıxış edərək həm də özünün şəxsiyyət tipini müəyyənləşdirir və deyirdi: «İngilislər diyorlar ki, vətq nəqddir, yəni özünə sərvəti-mal və fəzlü-kəmal qazanmaq istəyən bir insan əsla vəqtini boş yerə sərf etməməlidir. Bən isə təhsil etdiyim məktəblərin münasibətsizliyi hesabi ilə vəqtimi pək çox boşa sərf edənlərin biri olduğum üçün nə malü-sərvətə və nə də istədiyim kibi bir kəmalü-fəzilətə malik olamadım. Bəncə hər bir insanın iyirmi yaşına qədər təhsil və tərbiyəsi xitam bulmalıdır, bəncə hər bir insan iyirmidən – otuza qədər həyat və məişətini təmin üçün müəyyən bir sərvətə malik ola bilib müstəqilən yaşaya bilməli və kimsəyə möhtac olmamalıdır, bəncə hər bir insan otuzdan, ya heç olmazsa qırxdan sonra öz fəzlü-kəmali ilə vətəndaşlarını müstəfid edə bilməlidir. Bən bu səadətə nail olamadım və zənn edərəm elm və ədəb təhsili həvəsində olan dindaşlarımın əksəri bənim halımdadırlar. Buna da səbəb özümüzə görə münasib bir məktəb bulmayacağımızdır. Bən **türkəm, qafqazlı** bir **türkəm**. Türk bir **müsəlmanəm**, müsəlman bir **insanəm**, demək ki, bən bu dörd sifətlə yaşamaq məcburiyyətindəyim»[1].

[1] Ə.Hüseynzadə. Nümunə məktəbi. «Həyat» qəzeti, 18 avqust 1906-cı il, №184.

İstanbul elmi -mədəni və ictimai-siyasi mühitinin zənginliyi içərisində öz intellektual səviyyəsini daha da təkmilləşdirməyə müvəffəq olan Ə.Hüseynzadə buradakı təcəddüd hərəkatının öncülləri ilə ideya birliyi qurur və yeni – «Üsuli-cədid» maarifçiliyinin, azadlıq və demokratiya uğrunda mübarizənin fəallarından biri kimi tanınır. «İttihad və Tərəqqi» partiyasının tarixinə dair tədqiqlərdə göstərilir ki, onun ilk «çəgirdəyini»-təşkilatını quran beş nəfərdən biri Ə.Hüseynzadə olmuşdur. Bunlar İstanbul Əsgəri-Tibbiyyə məktəbinin tələbələri İbrahim Temo, Harputlu Cövdət, Qafqazlı Məhəmməd Rəşid, Bakılı Hüseynzadə Əli, Diyarbəkirli İshaq Şükutidir. Türkiyəli Əhməd Bədəvi Kuran «İnqilab tariximiz və cön türklər» adlı fundamental tədqiqində bu məlumatı verməklə göstərir ki, həmin təşkilat (1308) 1892-ci ildə yaradılıb. Eyni fikir Kazım Namıdurunun «İttihad və Tərəqqi» xatirələrim» adlı (1957/1978) əsərində də öz təsdiqini tapır. Ə.Hüseynzadənin «İttihad və Tərəqqi» necə quruldu?» adlı xatirə yazısında bu təşkilatın qurulmasında Übeydulla Əfəndinin də rolu yüksək qiymətləndirilir və o yazır ki, «Şirvanda bulunan böyük validəmdən «Kredit Lyonnays» bankı vasitəsilə cibxərcliyi olaraq bir miqdar para olduğunu bilən dostlarım «cəmiyyətimizə bir az para verəcəksən, səni də əza qeyd etdik» - dedilər. Həmin xatirə yazısında Ə.Hüseynzadə hafizəsinə əsaslanaraq deyir: «Cəmiyyətin ilk əsası olaraq isimləri xatirimdə qalanların başlıcaları bunlardır: pr. İbrahim Temo (indi Rumıniyadıdar), diyarbəkrli mərhum pr.A.Cövdət, mərhum şair pr.Əhməd cövəl, göz təbibi pr.İsmayıl Şükrü (indi Misirdədir), Vaşinqton səfiri B.Minirin əmcəsi pr. Cəmaləddin (Üsküdarda Sultan təpəsində oturur), Fərit paşanın məşum dövründə intihar edən, mərhum pr. Çərkəz M.Rəşid, Berlində şəhid edilən mərhum prof. Baba Şakir, Misirdə vəfat edən mərhum

pr. Şərafəddin Mağmuni və bunlar haqqında yaxşı məlumat sahibi olan pr.Nəzmi (Əskişəhirli)».[1]

İstanbuldakı tələbəlik həyatını başa vurduqdan sonra Ə.Hüseynzadə siyasi hadisələrə qoşulur, tibb təhsili ilə məşğul olur və fəal maarifçi kimi tanınır. Türkiyənin əski ənənələr üzrə davam edən təlim və təhsili əleyhinə çıxan Ə.Hüseynzadənin «üsuli-cədid» tərəfdarları ilə bir sırada olması və Osmanlı-türk maarifçiliyində təcəddüd hərəkatına xidmət etməsi həmin fikri təsdiqləyir. Bu barədə «Dəbistan» jurnalında Əli İskəndər Cəfərzadə məlumat verir, mütəfəkkirin satirik mövqeyini nəzərə çatdırır: «Əlibəy Hüseynzadə cənabları İstanbulda bulunduğu zaman Osmanlıda məktəblərin qüsurları nəzərindən uzaq olmayıb yoldaşları arasında məşhur olan bir həcv yazmış idi ki, burada ancaq bir qitəsini zikr etmək ilə iktifa ediriz:

Qitə
Tərəqqi eyləmək hər şeydə əlzəm al-osmaniyə,
Yeni məktəb yapılsın var iradə əmri-şahanə.
Əlan yox ortada bir şey səbəb təxirə ayanə?!
Be təng əz soxtən amәd, deləm, fəryad əz in halət?!

(Ə.İskəndər. Təracimi-əhvali-məşahir. «Dəbistan» jurnalı, №4, 6 mart 1907-ci il, s.52).

Hərbi-həkim (yüzbaşı-dermetoloq) ixtisasına yiyələnən Ə.Hüseynzadə müxtəlif tibbi vəzifələrdə çalışmış, 1897-ci ildə Osmanlı-Yunan müharibəsi zamanı üç il burada iştirak etmişdir. 1902-ci ildə doktor M.Rəfi ilə birlikdə «Vəba və mikrobu» kitabı nəşr olunmuşdur. Həmin dövrdə gördüyü işləri Ə.Hüseynzadə yığcam şəkildə belə anladır: «Bulunduğum vəzifələrin və işlərin səhifələri Dürinq Paşa maiyyətində olaraq, Heydərpaşa əsgəri xəstəxanasında dəri mütəxəssisi

[1] «Tan qəzetəsi», 4-7 mart 1938-ci il.

(1895-1897); Tesaliya savaşında Çatalca (Farsala) və Dümekedə operator müavini – bəhriyə təbiblərindən operator Şükrü Bəyin (Paşa) maiyyətində – və sonra da əsgər həkimi (1897); Tesaliyani təhliyə sıralarında, əsgərə rəfaqətlə, müxtəlif Anadolu limanlarına səfər, İstanbula dönüşdə təkrar Heydərpaşa xəstəxanasında keçmiş vəzifəni davam etdirdim; 1900-cü ildə Əsgəri-Tibbiyyədə açılan müsabiqə imtahanlarını qazanmaqla bu məktəbdə il yarım müddətində Əmrazi-cildiyə və efrenciyə müəllim müavin (Cəlal Muxtar bəyin). O sıralarda vəba xəstəliyini yerində tədqiq üçün Hindistana ezam olunmaq üzrə Əsgəri-Tibbiyyə məktəbi tərəfindən intihab olundumsa, Yıldızın haqqımdakı vəhmi buna mane oldu...

«Vəba» kitabını bu münasibətlə yazıb nəşr etdirmişdik.

1903-də əvvəlcə bir müddət mərhum Əhməd Cəlaləddin Paşanın Çamlıcadakı köşklərində və Nişantaşındakı qonağında müsafir qaldıqdan sonra Əbdülhəmid və istibdad rejiminin dürlü bəhanələrlə təqibləri üzündən Qafqaza köçməyə məcbur oldum və ora qəzetlərində mühərrirliyə başladım».[1]

Ə.Hüseynzadənin Azərbaycana dönüşü 1903-cü ilin axırlarına təsadüf edir. 1904-cü ildən etibarən onun Bakıda rus dilində nəşr olunan «Kaspi» qəzetində məqalələri görünməyə başlayır. İstər rusdilli, istərsə də anadilli məqalələrində Ə.Hüseynzadə «gənc türkçülük nədir?» sualına geniş cavab verməyə çalışır, Azərbaycanda təcəddüd hərəkatının lideri kimi tanınmağa başlayır, yeni məktəb və təhsil sistemi, çağdaş səhiyyə, müasir milli mədəniyyət uğrunda mübarizənin alovlu təəssübkeşi kimi böyük rəğbət qazanır.

Məlumdur ki, Şərq siyasətində Yaponiyaya uduzan çar Rusiyası Port-Arturda, Susima ətrafındakı döyüşdəki məğlubiyyatdan sonra 1904-cü ildə Port-Smut sülhünə razı

[1] Ə.H.Turani. Bioqrafik müxtəsər məlumat. «Ədəbiyyat qəzeti», 23 noyabr 2007-ci il.

oldu və beləliklə də imperiya ərazisində «ikibaşlı qartalın» mifik-mistik qorxuncluğu aradan qaldırıldı, «millətlər həbsxanası» (V.İ.Lenin) olan bu böyük ölkədə mitinq, nümayiş, üsyan dalğası güclənməyə, istibdad əleyhinə çıxışlar, azadlıq, məşrutə, müstəqillik, konstitusiya tələbləri ön plana keçməyə başladı. Belə bir zamanda (1905) Azərbaycanın adından Peterburqa göndərilən on bir nəfərlik nümayəndə heyətinin tərkibində Əhməd bəy Ağaoğlu, Adil xan Ziyadxan, Əli Mərdanbəy Topçubaşov, Fərrux bəy Vəzirov və başqaları ilə birlikdə Ə.Hüseynzadə də vardı. Nümayəndə heyəti general Trepovun maneələrinə baxmayaraq tələbnamələrində cüzi dəyişiklik edərək onu «Başvəkil Vitteyə qəbul etdirə» bilmiş və az sonra Qafqaza yeni təyin olunan canişin Qraf Vorontsov-Daşkovla görüşərək «Rusiya islamlarının ilk yövmi qəzetəsi olmaq üzrə «Həyat» (1905-1906) adlı gündəlik anadilli qəzetin Bakıda nəşrinə icazə ala bilmişdilər. İlk redaktorları Əhmədbəy Ağaoğlu və Əlibəy Hüseynzadə olan «Həyat» qəzetini 102-ci nömrəyə qədər müştərək idarə etdikdən sonra, Ə.Hüseynzadə təkbaşına redaktorluq edir və onun məslək dostu Ə.Ağaoğlu «İrşad»ın nəşri ilə məşğul olur. Cəmi 325 sayı dərc olunan «Həyat» qəzeti bağlandıqdan sonra Ə.Hüseynzadə «Füyuzat» jurnalının nəşrinə (1 noyabr 1906-cı il) nail olur, onun müdiri və baş redaktoru kimi fəaliyyətə başlayır. Jurnal 32 sayı dərc olunduqdan sonra (1 noyabr 1907-ci il) qapanır və Ə.Hüseynzadə «Kaspi» qəzetinin baş redaktoru (1907) vəzifəsini icra etməyə başlayır. Çünki qəzetin redaktoru Ə.M.Topçubaşov Birinci Dövlət Dumasının dağılmasına görə bir çox müasirləri ilə birlikdə Rusiya müsəlmanları və kadetlər partiyasının nümayəndəsi kimi Finlandiyada «Vıborq bəyənnaməsi»ni imzalamış və buna görə də həbs edilərək qəzetçilik haqqından da məhrum edilmişdi.

Ə.Hüseynzadə Bakıda 1905-1910-cu illər arasında fəal ictimai xadim, redaktor, tənqidçi, filosof, həkim, publisist,

rəsam, şair, nasir, tərcüməçi, müəllim kimi tanınır, Azərbaycan elmi-nəzəri fikri və ədəbi-mədəni həyatında özünəməxsus romantik axtarışları ilə füyuzatçılıq hərəkatını formalaşdıra bilir. Buna ədib dərin zəkası, elmi erudisiyası, mütəfəkkir şəxsiyyəti ilə nail olur, müasirləri tərəfindən «ədəbi-müəzzəm», «həkimi-şəhir», «korların gözü, karların qulağı, lalların dili» (Ə.Müznib) kimi qiymətləndirilir. O «Həyat», «Füyuzat» və «Kaspi» redaksiyasında, habelə «Səadət» məktəbində dövrün ən məşhur ziyalıları ilə birgə çalışır, Azərbaycanın milli elitasının formalaşmasında yaxından iştirak edir. Ə.Hüseynzadə Azərbaycan hüdudlarından kənarda da elm və sənət adamı, ictimai-siyasi fikir nümayəndəsi kimi məşhurlaşır, Rusiya müsəlmanlarının liderlərindən biri kimi böyük rəğbət qazanır.

1905-ci ildə Peterburqda məşhur tatar alimi və publisisti Əbdürrəşid İbrahimovun evində Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Alim Məqsud, Bünyamin Əhmədin iştirakı ilə gizli surətdə keçirilmiş bir yığıncaqda «Müsəlman ittifaqı» adlı siyasi partiya yaratmaq haqqında fikir irəli sürülür və bu fikrə dəstək verən Rusiya müsəlmanlarının ziyalı təbəqəsi İ.Qasprinskinin «dildə, fikirdə, işdə birlik» şüarını bütün islam aləmində yaymağı proqram seçir. Ə.Hüseynzadənin ətrafında toplaşan ziyalılar onun intellektual imkanları və geniş erudisiya sahibi olduğunu yüksək qiymətləndirir, ədibin «türk hissiyyatı ilə mütəhəssis, islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-haziqəsilə mütəməddin» («Füyuzat» j., №23, s.356) olmaq fikrinə əsaslanaraq milli dünyagörüş və mədəni quruculuqda yeni istiqamət formalaşdırmağa, füyuzatçılıq xətti-hərəkatını yaratmağa nail oldular.

Bakı həyatı dövründə Ə.Hüseynzadə I və II müəllimlər qurultayının əsas təşkilatçılarından biri, II qurultayın sədri olur (1907-ci il avqustun sonu, sentyabrın əvvəli), «Rusiyada ilk olaraq Bakudə bir «Mühərririn ittifaqı»nın təşəkkül

etməsində» (Bax: «Füyuzat» Jur., 1907, №27, səh.28) yaradılmasında fəal rol oynayır. Xatırlatmağa dəyər ki, II müəllimlər qurultayının sədri Ə.Hüseynzadənin təklifi ilə (I qurultayın sədri Həsən bəy Zərdabi xəstə olduğuna görə II qurultayda iştirak etmirdi) rəyasət heyəti və idarə üzvləri seçilir. Bunlardan Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov sədr müavini, Əziz bəy Hacıbəyov, Abdulla Şaiq və Fərhad bəy Ağayev katib seçilirlər.

Ə.Hüseynzadə şəxsiyyətinin böyük rəğbət qazanması onun haqqında bir sıra hekayət və şayiələrin də yayılmasına səbəb olur, ədibin nüfuzunun daha artmasına təsir göstərirdi. Təsadüfi deyil ki, 1908-ci ildə Qafqaz şeyxülislamlığına yeni seçkilər zamanı bu vəzifəyə layiq adlar sırasında Əlibəy Hüseynzadənin adı daha çox hallanırdı. Bu barədə M.Ə.Rəsulzadə yazır: «Şəhərdə bəzi işi-gücü qurtarmışlar, söz buraxıblar ki, guya Ə.Hüseynzadə şeyxülislam olacaq... Ey Dubrovindən də axmaqlar belə xəbərə də inanmaq olar? Əlibəy həmin Əlibəy deyil ki, a... diyordu. «Avropa qiyafəli olmalı», indi necə olar ki, haman Avropa qiyafəsini dəyişib, götürüb başına zorba bir əmmamə qoysun? Belə iş beynimə girmiyor».[1] M.Ə.Rəsulzadənin həmin fikrindən iki gün sonra Tiflisdən «İrşad» qəzetinə göndərilən teleqramda deyilirdi:

«Tiflisdən idarəmizə gələn teleqram:

Müsəlman heyəti-vükəlası Xan İrəvanski, Ağayev, Qarabəyov, Əliyev, Atamalıyev, Rəfiyev, Əmircanov cənabları daxil olduğu halda canişinə təqdim olundu. Canişin heyət ərzi-halını eşidib, ərizəni və Zaqafqaziya müsəlmanlarına öz ruhanilərini seçmək üçün istədigi haqq barəsində heyətin tərtib verdigi yeni qərardadı qəbul eylədi və vəd Verdi ki, bu ərizə və qərardadı qanan icabı ilə lazım olan yerinə həvalə eyləsin. Heyəti-vükəla verdigi ərizəsində canişindən təvəqqə

[1] Marzadə (M.Ə.Rəsulzadə) Xırda-mırda. «İrşad» qəzeti, 17 yanvar 1908-ci il, №8.

ediyor ki, tazə şeyxülislam intixabı bu işə bir sərəncam qoyulana kibi təxir olunsun!

Qarabəgov»[2]

Ə.Hüseynzadə Azərbaycan ictimai-siyasi mühiti və ədəbi-mədəni həyatı üçün ən zəruri problemlərə toxunur, xalqın intibah qayğıları ilə yaşayır və ənənəvi, ehkamçı düşüncəyə qarşı tənqidi mövqe tutur, elə bu səbəbdən də onun fəaliyyəti müasirləri tərəfindən birmənalı qarşılanmırdı. Xüsusilə milli dil, ortaq türklük, yeni əlifba, qadın azadlığı, çağdaş mədəniyyət, islam dininə modernist münasibət və sair bu kimi məsələlər dövrü mətbuatda böyük rezonans doğurur, ona qarşı haqlı-haqsız «tənqidlərin» meydana gəlməsinə səbəb olurdu...

Ə.Hüseynzadənin Bakıdakı çoxşaxəli fəaliyyətində rəssamlıq işi də xüsusi rəğbət doğurmuşdu. Onun Türkiyəyə getməmişdən əvvəl çəkdiyi rəsmləri satmaq istəyi ilə bağlı diqqətəlayiq bir hadisə baş vermişdi. Belə ki, «1908-1909-cu illərdə ziyaziyyat, fəlsəfə, ədəbiyyat alimi, professor Əlibəy Hüseynzadə Şıxlar kəndindəki Hükeymə xatunun məqbərəsinə bitişik həmin məscidin şəklini akvarellə çəkib, böyük bir kətəbəyə (çərçivəyə) salmışdı. O şəkil o vaxtın puluyla 500 manat miqdarında qiymətləndirilmiş və Bəradaran Orucovun (Orucov qardaşlarının) Nikolay küçəsindəki kitab mağazasının vitrininə qoyulmuşdu. Qiyməti də üstündə yazılmışdı.

Bir gün ingilis konsulu Makdonald həmin mağazanın qarşısından keçərkən şəkli görür və içəri keçib deyir: «Bu şəkli mən alıram. Sabah onu mənim idarəmə göndərin, pulunuzu verim. Onu Londona göndərəcəyəm».

Təsadüfən həmin axşam Oruc Orucov Hacı Zeynalabdin Tağıyevin evində olur və Hacı ilə görüşür. Söhbət əsnasında şəkil əhvalatını Hacıya danışır və deyir ki, Makdonald sabah şəkli apartdıracaq. Bunu eşidən Hacı deyir: «Mən heç vaxt razı ola bilmərəm ki, biz müsəlmanların belə bir qiy-

[2] Şeyxülislamə dair «İrşad» qəzeti, 19 yanvar 1908-ci il, №9.

mətli əsəri ingilislərin əlinə düşsün. Al bu 500 manatı, ver Əlibəyə və de ki, şəkli satmısan. Amma şəkli mənə satdığını demə, çünki o, məndən pul almaz axı, məndən maaş alır. «Həyat» qəzetinin və «Füyuzat» məcmuəsinin mühərriri və redaktorudur. Mən naşiriyəm».

Beləliklə də, «Bibi-Heybət» məscidinin rəsmini Makdonalda vermirlər, onu gətirirlər Hacının evinə».

Ə.Hüseynzadə Ü.Hacıbəylinin «Leyli və Məcnun» operasının (1908) ilk səhnə rəsm tərtibatını vermişdir. Onun «Halü vətən» şeiri «Səadət» məktəbinin şagirdləri tərəfindən bir himn kimi oxunmuşdur. Deyilənə görə dövrün Heydəri dərvişləri arasında bu şeir ən populyar poetik nümunə olub[1].

Ə.Hüseynzadənin Bakı həyatı uzun sürmədi və o, 1910-cu ildə Azərbaycanı tərk edərək Türkiyədə yaşamağı seçdi. Bu seçim sovet tədqiqatçılarının dediyi kimi «vətəndən qaçış» deyil, məcburi mühacirət idi və həmin gediş çox böyük ziyafətlə qeyd olunmuş, dövrün ziyalıları tərəfindən təəssüf hissi ilə qarşılanmışdır. Ə.Hüseynzadə Bakıdan ayrılması haqda «Müxtəsər məlumat»da deyir: «1908-ci ildə Bakıda bir neçə dost və arkadaş tərəfindən «Səadət» məktəbi» adı ilə təsis edilən orta proqramlı milli məktəbdə bir müddət dərs naziri və türkcə müəllimi olaraq çalışdım (1908-1910). Həmin məktəbə, o sıralarda müdirlik edən Mirzə Ələkbər Xan Bəhmən idi ki, sonralar İranın Balkan və Misir səfiri olmuşdu...

Məşrutiyyət dövründə, 31 mart vaqəəsindən bir müddət sonra, mərhum Baha Şakirin və digər ittihadçı dostların dəvəti üzərinə, Qafqazdan İstanbula övdət etdim.

Bakıdan ayrılarkən bütün ev əşyamı – mebel, bufe takımı, kitablarımın bir qismi və sairəni «Səadət» məktəbinə hədiyyə etdim».[2]

[1] Xeyrulla Əliyev. Bir şəklin tarixi, yaxud, «Bibiheybət». «Ədəbiyyat qəzeti», 9 fevral 2001-ci il.

[2] Əlibəy Hüseynzadə. Bioqafik müxtəsər məlumat. «Ədəbiyayt qəzeti», 23 noyabr 2007-ci il.

Ə.Hüseynzadənin və füyuzatçıların ədəbi-ictimai fəaliyyətini C.Məmmədquluzadə və Mollanəsrəddinçilərlə ziddiyyətdə təsvir və təhlil edən, onları barışmaz, siyasət düşmənləri kimi qələmə verən sovet dövrü tədqiqatçıları bu tərəf-müqabillərin vahid milli mövqedə dayandığının fərqinə varmasalar da tarixi sənədlər, bir sıra fakt və hadisələr təsdiq edir ki, onlar arasında saf və səmimi dostluq, yaradıcılıq əlaqəsi, hörmət və ehtiram hissi olub. Bir-biri haqqında kəskin tənqidi məqalələr yazsalar da, ədəbi-estetik qarşıdurmada olsalar da biri digəri haqqında təqdirəlayiq fikir və mülahizələr söyləyib, əməyini qiymətləndirib, şəxsiyyətinə rəğbətlə yanaşıblar. C.Məmmədquluzadənin «Xatiratım» əsəri bu mənada diqqətəlayiqdir. O yazır: «Molla Nəsrəddin» dilini də yazmağı bacarmalıdır. Necə ki, bu sözü mən ilk dəfə ədib-möhtərəm Əlibəy Hüseynzadədən eşitdim. Əlibəy Bakıdan axırıncı dəfə Tükiyəyə köçüb gedən vaxt Tiflisə gəldi ki, buradan Batuma getsin. Tiflisə idarəmizə də təşrif gətirdi. Xoş-beş... Söhbət dildən düşdü və mənə belə dedi: «Yaxşı yazırsınız». Mən Əlibəyə ərz etdim ki, onun tək bir şəxsdən eşidilən bir sözü mən «havayı» danışılan sözlərin cərgəsinə qoya bilmərəm. Çünki Əlibəy Hüseynzadə kimi yazı ustadı mən tək bir cavan yazıçıya yazı barəsində dediyi sözü mən ciddi bir söz hesab edəm gərək. Əlibəy mənə dediyi sözü təkrar və təsdiq etdi və həmişə adət etdiyi kimi başını aşağı salıb, guya öz-özünə genə dedi: «Açıq yazmağı da bacarmaq lazımdır».[1]

Ə.Hüseynzadnin çağdaş ədəbi prosesdə C.Məmmədquluzadənin fəaliyyətinə dəfələrlə yüksək qiymət verməsi, eləcə də C.Məmmədquluzadənin Ə.Hüseynzadəni «yazı ustadı» adlandırması təsadüfi hal deyildi.

Ədib Türkiyəyə gəldikdən sonra İstanbulun qaynar həyatına qoşulur, «Türk ocağı» cəmiyyəti üzvləri ilə yaxından əlaqə saxlayır, onların nəşr etdirdiyi «Türk yurdu» jurnalın-

[1] Cəlil Məmmədquluzadə. Xatiratım. Bakı, «Gənclik» n., 1971, s.81.

da əsərlərlə çıxış edir. Buradakı rəsmi işlərinə aydınlıq gətirən Ə.Hüseynzadə deyir: «İstanbulda Tibb fakültəsi əski yeri olan Sarayburnundan Heydərpaşadakı binaya köçmüşdü, burada, bir müsabiqə imtahanı nəticəsində «Emrazi cildiyə və efrenciyə seririyat şefliyinə (1910-28 birinci qanun 1326) və bir neçə il sonra da müəllim müavinliyinə təyin olundum. Müəllimimiz Cəlal Muxtar bəy idi. 1925-ci ildə seririyati cildiyə və efrenciye müəllimi oldum. Eyni dərslərin müdərrisliyinə təyinimin tarixi 4 may 1926-cı ildir. Nəhayət, 24 sentyabr 1931 tarixində təqaüdə çıxdım, fəqət yenə bir müddət fakültənin təkrar İstanbul tərəfinə keçdiyi günlərə qədər (yəni 1933-cü ilin sonuna qədər) müəllimliyə davam etdim.

Fakültə hüzmətlərimin xaricində bəzi siyasi və ictimai vəzifələrdə də çalışdım: bir aralıq Eyyub Səbri, Midhəd Şükrü, mərhum Ziya Gökalp, mərhum hatib Ö.Naci və sairə ilə «İttihad və Tərəqqi»nin mərkəzi-ümumisi (və İstanbul mərkəzi) əzalığında bulundum – İstanbulda Selanikdə, sonra yenə İstanbulda.[1]

Görkəmli mütəfəkkir olan Ə.Hüseynzadə Türkiyədə «İttihad və Tərəqqi» hərəkatının yürüdülməsində fəal iştirakla yanaşı dövrü mətbuatda, o cümlədən «Xalqa doğru», «Məlumat», «Yeni məcmuə», «Tibb dünyası» kimi qəzet və jurnallarda çoxsaylı elmi-tibbi, ictimai-siyasi məqalələr, şeir və tərcümə materiallarını nəşr etdirmişdir. Ədib Türkiyədə yerləşdikdən az sonra evlənmiş, iki qızı və bir oğlu dünyaya gəlmişdir. Burada türklüyə və türk dünyasına geniş xidmət imkanı qazanan Ə.Hüseynzadə «Dünya müharibəsi zamanı Yusif Akçuraoğlu və başqa ittihadçı yoldaşları ilə bərabər «Turan heyəti» adı altında Qərbi Avropanın bir neçə ölkə-

[1] Əlibəy Hüseynzadə. Bioqrafik müxtəsər məlumat. «Ədəbiyyat qəzeti», 23 noyabr 2007-ci il.

sinə gedib, «türklük təbliğatı»[1] aparıb. Ə.Hüseynzadənin həmin dövrdə ictimai-siyasi fəaliyyətinə aydınlıq gətirən bir faktı da ayrıca nəzərə çatdırmaq lazımdır ki, o «1917-ci ildə Əbdürrəşid İbrahimov, Yusif Akçuroğlu və Əhməd Ağaoğlu ilə birlikdə ABŞ prezidenti V.Vilsona təqdim edilən və Rusiya imperiyasında türk xalqlarının dözülməz vəziyyətindən söz açan müraciəti imzalamışdı».[2]

Ə.Hüseynzadə Türkiyəyə mühacirətindən sonra Azərbaycana iki dəfə gəlib. Birinci dəfə o, çar Rusiyasının süqutu və Azərbaycanın müstəqillik əldə edərək sərbəst siyasət yürütdüyü vaxt vətənə gəlib. Bu barədə «müxtəsər məlumat» verən ədib yazır: «Mühüm bir səfər də, «Qafqaz Cümhuriyyətləri Federasionu» ilə bir sülh müahidəsi əqd etmək üzrə, xariciyyə naziri Xəlil bəyin Batumda bulunduğu sıralarda Ağaoğlu Əhmədlə bərabər, xüsusi bir vəzifə ilə, əvvəla Batuna (Xəlil bəyin nəzdinə), sonra oradan da, Federasiyondan ayrılıb ayrı bir hökumət halında təşəkkül etməkdə olan Azərbaycan Cümhuriyyətinin ilk paytaxtı olan Gəncəyə (Nuru Paşanın yanına) qədər getməmizdən ibarətdir...»[3]

Ə.Hüseynzadənin vətənə ikinci gəlişi isə Birinci Beynəlxalq Türkoloji qurultayda iştirakı ilə bağlıdır. Bu gəliş (1926-cı il 26 fevral – 6 mart) Ə.Hüseynzadənin böyük alim, ictimai xadim və türkoloqlarla birgə fəaliyyətinin beynəlxalq səviyyəsinə aydınlıq gətirmək baxımından son dərəcədə əhəmiyyətlidir. Dünya türkoloqlarının toplandığı bu məclisdə Ə.Hüseynzadə Banq, Mustafa Quliyev, N.Marr, A.V.Lunaçarski və Tomsenlə birgə qurultayın fəxri rəyasət heyətinə üzv seçilir, «Qərbin iki dastanında türk» adlı məruzəsi ilə çı-

[1] Ə.Mirəhmədov. Ə.Hüseynzadə. «Fikrin karvanı», Bakı, «Yazıçı», 1984, s.76.
[2] Vilayət Quliyev. Ağaoğlular. Bakı, «Ozan» n., 1997, s.34.
[3] Ə.H.Turani. Bioqrafik müxtəsər məlumat. «Ədəbiyyat qəzeti», 23 noyabr 2007-ci il.

xış edir." Bu gəlişi zamanı Ə.Hüseynzadə M.Quliyevlə birlikdə Gəncədə də olur, şəhər ziyalıları ilə görüşür və onların qarşısında çıxış edir (Bax: H.Araslı. Tarixi bir etiraf. «Bakı» qəzeti, 5 iyun 1967-ci il). Ə.Hüseynzadənin ikinci gəlişində diqqəti çəkən bir faktda ondan ibarətdir ki, o, Azərbaycan Ədəbiyyat Cəmiyyətinə fəxri üzv seçilir. Bu münasibətlə Əlibəy Hüseynzadə Azərbaycan Ədəbiyyat Cəmiyyətinin 5 martda olan təntənəli iclasında söylədiyi və sonra yazıb cəmiyyətə verdiyi nitqində bildirirdi: «Bundan igirmi sənə əvvəl burada çalışdığım zaman ədəbiyyatımızın geridə qaldığını şuna ətf etmiş idim ki, biz nümunəyi-məşq olaraq həp Şərq əsarını ittixaz ediyoruz. Daima Şərqə təvəccöh ediyoruz. Binaən əleyh Qərbə təvəccöh lüzumuna qail oldum.

Mən nə ədib, nə də şair idim, fəqət Qərb asarını nümunə ittixaz edərək göstərə bilirdim ki, bu yolda bir az çalışdım.

Ağac əyri idi, əks cəhətinə ikmal lazım idi ki, düzəlsin. Vaqiən ağac düzəldi. Fəqət bir də yüksəlməsi icab edərdi. Xəta edərək zənn etmiş idim ki, doğrudan doğru yüksək şeylərə müraciət etmək kafidir.

Xayır! Əvvəla aşağılara enmək lazım idi. Bunu məndən sonrakılar yapdılar.

Bir gün sokakda bir cocuq gördüm, topla oynayırdı, topu yuxarı atdıqca, top geri dönüb aşağı düşürdü. Fəqət topu əvvəla yerə vurduqca, top üqəbində yüksəlirdi. Əsatirdən məşhur bir hekayəyi xatırladım:

Bir pəhləvan, əsatiri bir pəhləvan digər pəhləvanlarla güləşdikcə bunlar onun arxasını daima yerə gətirərlərdi, fəqət yenəmiyorlardı və nəhayət kəndiləri məğlub olub təlef olurlardı. O pəhləvanlar küräşməyə, boğuşmağa, hazırlanan

* Bax: 1. Buludxan Xəlilov. Birinci Beynəlxalq Türkoloji Qurultayı. Bakı, «Elm» n., 1999. 2. Prof. Kamil Vəli Nərimanoğlu, Əliheydər Ağakişiyev. 1926-cı il Bakı Türkoloji qurultayı. Bakı, «Çinar-çap» n., 2006.

yeni bir pəhləvan bu hal hikmətini bir həkimdən sordu. Həkim dedi ki: Yer o pəhləvanın anasıdır. Arxası yerə gəldikcə yerdən qüvvət bulur və rəqibini çəkiyor.

Onu yenə bilmək üçün ayaqlarını yerdən üzməli, sonra havaya qaldırıb havada boğmalıdır və həqiqətən pəhləvanın ayağı yerdən kəsilincə tələf olub getdi!..

Ədəbiyyat da boylədir. Xalqa enmədikcə yüksələməz. Əvvəla xalqa, köylüyə, əmələyə vəlhasil böyük kütləyə qədər enməli, sonra bunlarla bərabər yüksəlməyə çalışmalıdır. Böyük ədiblər, böyük alimlər, həkimlər çoxun içindən çıxa bilir, yoxsa tək-tük yüksəlmə burjuanın, arestokrasinin içindən yetişəməz. Bütün millət ən aşağı təbəqatına qədər həyati-ümumiyyəsilə yüksəlməli ki, içindən ədiblər, şairlər, sənətkarlar, böyük-böyük millət xadimləri çıxsın!...»[1]

Ə.Hüseynzadə Türkiyəyə qayıtdıqdan sonra ömrünün axırınadək İstanbul universitetinin professoru kimi çalışmış, tibbə dair «Siflis», «Eksiklopedik tibb lüğəti» (professor Kamal Cənabla müştərək) əsərlərini, tərcümə, şeir və məqalələrini yazıb dərc etdirmişdir. Ədəbiyyata bağlı işıqlı bir ömür yaşayan Ə.Hüseynzadə İ.V.Hötenin vəfatının 100 illiyi münasibətilə nəşr etdirdiyi «Faust»dan bir parçanın tərcüməsi ilə əlaqədar Ə.Hamidin təqdirini ömrü boyu xoş xatirə kimə yad edib. Bu barədə özü deyir: «Böyük ozanımız A.Hamid Tarhan göndərdiyi bir məktubda bu tərcüməni belə təqdir etmişdi: «Əsli nəfis olan bu əsərin tərcüməsi də ənfəs olmuş, hikməti-ədəbiyyəniz şayani-təbrikdir»[2].

Ümumtürk coğrafiyasında ortaq dəyərlərin mühafizəsinə, zənginləşdirilməsinə çalışan Ə.Hüseynzadə 1940-cı ildə İstanbulda vəfat edib və ondan qalan ədəbi-bədii, elmi-nəzəri irs yalnız Azərbaycana deyil, bütün türk dünyasına məxsusdur. Çünki o həm də böyük Turan mütəfəkkiri idi...

[1] «Ədəbi parçalar» məcmuəsi, mayıs 1926, sayı 1, səh.8.
[2] Ə.H.Turani. Bioqrafik müxtəsər məlumat. «Ədəbiyyat qəzeti», 23 noyabr 2007-ci il.

***

Əlibəy Hüseynzadənin həyatı, şəxsiyyəti, dünyagörüşü, elmi-fəlsəfi, ictimai-siyasi, nəzəri-estetik mülahizələrini parlaq şəkildə əks etdirən və onun yaradıcılığının böyük hissəsini təşkil edən publisistik yazılardır.

Ə.Hüseynzadə tələbəlikdən ayrılıb müstəqil həyata başlayanda artıq yetkin bir fikir adamı idi. Türkiyədəki təqiblərdən sonra vətəni Azərbaycana qayıdan Ə.Hüseynzadə «Kaspi» qəzeti ilə əməkdaşlığa başlayır, bir sıra publisistik yazılarını burada dərc etdirir və «Gənc türkçülük nədir?» adlı məqaləsi ilə türk tənzimat hərəkatının mahiyyətini şərh edir. Ə.Hüseynzadə islahatçı-reformist ideya adamı kimi tanınmağa başlayırdı. Az sonra o dövrünün məşhur teoloq-alimi, ictimai xadim və publisisti Əhmədbəy Ağaoğlu ilə birlikdə və milyonçu Hacı Zeynalabdin Tağıyevin maliyyəsi ilə «Həyat» qəzetinin nəşrinə başlayır. Bu qəzet Ə.Hüseynzadəni Azərbaycana «ağır başlı» filosof, «sədrə şəfa verən» sözlər (ağla qida verən sözlər) söyləyən mütəfəkkir kimi tanıdır və burada əsərlərini dərc etdirməklə ictimai-mədəni mühitə yeni ab-hava gətirir, ümumxalq dünyagörüşünün məntiqi əsaslarını yeni prinsiplərlə zənginləşdirməyə çalışır. Ə.Hüseynzadənin fəlsəfi-publisistik mühakimələri bu mənada maraqlıdır. Məsələn o deyirdi:

- Həqiqətin də dadı və ləzzəti var.

- Hürriyyət!... O nə qüvvədir ki, zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını sövq ediyor!..

- Qalib olmaq o camaatındır ki, həyata açıq göz ilə nəzər edər, zəmanənin ruhunu, icabatını anlar, dərk edər...

- Türklər ya öllərlər, ya hicrət edərlər, fəqət qul olmazlar.

- Hər kəsə ki, uşaqlıqda ədəb və tərbiyə verilməsə, böyüklükdə onun nicatı olmaz. Yaş ağacı hər tövr istəsən əymək mümkündür, lakin quru ağacı ancaq od ilə düzəltmək mümkün olur...

Ə.Hüseynzadənin Azərbaycan ictimai-mədəni həyatı və milli jurnalistika tarixindəki xidmətlərindən ən çox diqqəti cəlb edəni onun ardıcıl olaraq söz və mətbuat azadlığı uğrunda mübarizə aparmasıdır. Ədəbi-tənqidi və publisistik məqalələri, şeirləri, bədii nəsri və siyasi-fəlsəfi pamfletində Ə.Hüseynzadə azadlığı – hürriyyəti obrazlı şəkildə təqdim edir, azad sözü «pəriyi-hürriyyət» (azadlıq mələyi) adlandırır və onu «Kuhi-Qaf və Simurq quşu» məqaləsində Qaf dağlarına zəncirlə bağlanmış məşhur «od oğrusu» Prometeyə bənzədirdi. Azad sözün cəmiyyətdə varlığını Prometeyin odu, işığı ilə müqayisə edən Ə.Hüseynzadə 1905-1907-ci illərdə Azərbaycanda mətbuat və fikir azadlığının cəfakeşlərindən biri, milli ziyalılıq simvolu idi. Elə buna görədir ki, o müasirlərinə hər bir insanın «baş tacı olan» azadlığın mahiyyətini anladır və deyirdi:

«**Hürriyyəti-vicdanın mənası budur ki,** hər kəs hər hansı etiqad və əfkarda bulunmaqda hürr və azaddır. Kimsənin, nə hökumətin və nə də bir fərdin etiqad və əfkarından naşı bir kimsəyə təcavüz etməyə haqqı yoxdur. **Hürriyyəti-kəlamə** gəlincə hər kəs etiqad və əfkarını aşkar surətdə söyləyib yazmaqda muxtardır» (Mövlude-nəbi «Füyuzat» jurnalı, 1907-ci il, №25).

Ədibin «Ey qələm!», «Kuhi-Qaf və Simurğ quşu», «Hürriyyət», «Zəmanəmizin Ömər Xəyyamı», «Rəmazən-əlmübarək və hürriyyət», «Sola, sola, sol tərəfə», «Vəlvələ və zümzümə» kimi məqalələri ədibin «azadlıq idealı»nın ifadəsi baxımından mühüm əhəmiyyətə malikdir. XX əsrin əvvəllərində ictimai-siyasi fikrin təşkili və tənzimlənməsində, informasiya mühitinin formalaşmasında milli mətbuat nümunələri əhəmiyyətli rol oynayıb. Jurnalstikanın ictimai fikir tribunasına çevrilməsi də həmin tarixi mərhələnin məhsuludur. Ə.Hüseynzadənin rəhbərlik etdiyi «Füyuzat» jurnalı və onun redaksiya heyətinin xidmətləri bu mənada diqqətəlayiqdir. Çünki onlar yalnız bir jurnal nümunəsi nəşr etməklə

məhdudlaşmadılar, füyuzatçılıq ədəbi-mədəni hərəkatını, «Füyuzat» jurnalistikası məktəbini yaratmaqla tarix səhifələrinə öz imzalarını həkk etdilər.

«Füyuzat» jurnalının 1-ci nömrəsi 1906-cı il noyabrın 1-də nəşr olunub. Jurnalın sponsoru maarifpərvər, milyonçu-messenat Hacı Zeynalabdin Tağıyev idi. «Füyuzat» kəlməsi mənşəcə ərəb sözü olub lüğəvi mənası həyat gerçəklərini duymaq, dərk etmək, onlardan həzz almaq, zövq almaq, feyz almaq, feyziyab olmaqdır. Jurnalın səhifələrində onun baş redaktoru Əlibəy Hüseynzadə ilə birgə Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səid Səlmasi, Abdulla Şaiq, Əhməd Kamal, Əhməd Raiq kimi onlarla müəllifin müxtəlif mövzulu yazıları dərc edilirdi. Jurnal Azərbaycanda ***neoromantizmi*** yaradan mətbuat orqanı kimi xarakterizə olunur. «Füyuzat»da Əlibəy Hüseynzadənin yazdığı məqalələrdən birində deyilirdi: «Bizə fədai lazımdır! Türk hissiyyatlı, islam etiqadlı, avropa (müasir) qiyafəli fədai!». Bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və «Tazə həyat», «İrşad», «Yeni füyuzat», «Həqiqət», «Tərəqqi», «İqbal», «Sədayi-həqq», «Şəlalə», «Açıq söz», «Bəsirət», «Qurtuluş», «Dirilik», «Azərbaycan», «Övlaqi-nəfisə» və s. mətbuat orqanları tərəfindən ***türkləşmək, islamlaşmaq, müasirləşmək=azərbaycançılıq*** şəklində formulə edilərək təbliğ olundu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət bayrağında üç rənglə (mavi, qırmızı, yaşıl) simvollaşan Azərbaycan vətəndaşının ideya-mənəvi dəyərlər sistemi Əlibəy Hüseynzadənin həmin fəlsəfi-publisistik tezisindən qidalanır və füyuzatçıların tarixi xidmətləri ilə bağlıdır.

«Füyuzat» jurnalı ***füyuzatçılıq jurnalistika məktəbindən*** əlavə, Azərbaycanda müstəqil dövlətçilik ideyasını, konstitusiyalı azad vətəndaş cəmiyyətini yaratmaqda mühüm rol oynadı.

Çar Rusiyasının monarxizmi və müstəmləkəçilik əleyhinə mübarizə aparan «Füyuzat»çılar rus inqilabçı-demok-

ratları, türk tənzimatçıları, İran məşrutəçiləri və başqalarının yeni cəmiyyət quruculuğu təcrübəsindən istifadə edir, Azərbaycanda ***demokratizmin*** qələbəsinə çalışır, ictimai həyatda, milli ədəbiyayt və mədəniyyətdə ***islahatların-reformaların*** aparılmasını məqsəd bilirdi. Bu mənada «Füyuzat» və füyuzatçıların məşğul olduğu əsas problemləri qısa şəkildə belə təsnif etmək olar;

- türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək) = ***Azərbaycançılıq***
- Demokratik axtarışların istiqamətinin müəyyənləşdirilməsi
- Neoromantik ədəbiyyatın yaradılması
- Füyuzatçı jurnalistika məktəbinin təsisi
- «Dildə, fikirdə, işdə birlik» konsepsiyasına əsaslanan otaq tütk dili, ədəbiyyatı və mədəniyyətinin yaradılması.
- «İttihad və tərəqqi» ideyasını yürütmək və Turançılığı təbliğ etmək.
- İctimai-siyasi şüurda reformaların aparılması, parlament və konstitusiya əsasında özünüidarə formasının yaradılmasına cəhd.
- Yenilikçilik – «təcəddüdçülük» hərəkatını gücləndirmək və bu əsasda dünyəvi məktəbdarlıq işini həyata keçirmək.
- Söz və mətbuat azadlığını müstəqil dövlət, sivill cəmiyyət və bütöv vətən ideyasına paralel şəkildə inkişaf etdirmək və sair.

«Füyuzat» və füyuzatçıların milli-tarixi və ictimai-siyasi xidmətləri sırasında onu da ayrıca qeyd etmək vacibdir ki, onlar ənənəvi epiqon-birtipli düşüncə tipindən imtina edir, yalnız «köhnə müsəlman» (M.Ə.Sabir) olaraq qalmır, Şərq və Qərb elmi-nəzəri fikri, ədəbiyyat və mədəniyyətləri arasında sərhədlər çəkmir, əksinə onların dialoquna meydan açırdılar. Bu və digər səbəblərdəndir ki, Ə.Hüseynzadənin irsi və onun formalaşdırdığı füyuzatçılıq hərəkatının tarixi

təcrübəsi milli ədəbi-mədəni hərəkatın daha da zənginləşməsinə səbəb oldu.

XX əsrin əvvəllərində başda Əlibəy Hüseynzadə olmaqla «Həyat» və «Füyuzat» redaksiyaları ətrafında toplaşan füyuzatçılar yeni mədəniyyət və ədəbiyyat axtarışları ilə dövrün ictimai-mədəni reformalarına ciddi təsir göstərir, sənətin bədii düşüncə normalarına – prinsiplərinə arxalanaraq Azərbaycanın istiqlal hərəkatının önündə gedirdilər. Həmin öncüllük bilavasitə yeni bədii şüurun formalaşması, «türkçü, islamçı, qərbçi» mədəniyyət metodologiyasının yaranması ilə gerçəkləşir, reallaşırdı ki, bu işə xidmət göstərənlər Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət, A.Sur, Ə.Kamal, A.Y.Talıbzadə, H.C.Ayvazov, S.E.İbrahimov, Ə.M.Qaragözov, S.Səlmasi, M.Ə.Rəsulzadə, S.Hüseyn, H.Vəzirov, Ə.Müznib və onlarla başqaları idi. Füyuzatçılıq hərəkatını mollanəsrəddinçilərə paralel şəkildə yürüdənlər Azərbaycan mədəniyyətini bir sıra keyfiyyət göstəriciləri baxımından zənginləşdirə bildilər. Belə ki, onların sayəsində Azərbaycan ədəbi-mədəni həyatında aşağıdakı tarixi həqiqətlər, düşüncə yönləri və bədii keyfiyyət yenilikləri formalaşa bildi. Bunlardan bəziləri xüsusi tədqiq və təhlilə layiqdir. Məsələn, Milli Azərbaycan romantizmi, Tarixi yaddaş bütövlüyünün bərpası prinsipləri, İstiqlal düşüncəsi konsepsiyası, Dünya standartlarına uyğun milli ədəbiyyat və mətbuat, Dövlətçilik və vətəndaşlıq meyarı.

Füyuzatçıların ideya-bədii rəhbəri Ə.Hüseynzadə ənənəvi düşüncə normativliyinin qorunması ilə yanaşı, həm də epiqonçuluğun, təqlidçiliyin, təkrarçılığın əleyhinə çıxır, milli şüurun dialektik inkişafına, təkamülçülüyə çalışır, yeni forma, məzmun və ideyaların, təsir və ifadə vasitələrinin ədəbiyyata, incəsənət dünyasına gətirilməsinə meydan açırdı. Azərbaycanda ədəbi-mədəni islahatın – reformanın başlıca vəzifə olduğunu vurğulayan Ə.Hüseynzadə etnogenetik yaddaşın bərpasını, milli özünüdərki mühüm bir konsepsiya

kimi müdafiə edir və həmin əsasda yeni düşüncə yönünün formalaşacağına inanırdı. Həmin məqsədlə böyük mütəfəkkir müasirlərinə deyirdi: «BİZ İNSANIZ: Məzhəb və qövmiyyət insanlığı, insaniyyət hüququnu müdafiə ediniz. Məzlum olan sinifləri zalım siniflərin təcavüzatından azad etməyə çalışınız, müsavati-tammə istəyiniz. Yersiz, yurdsuz əkinçilərimizə, kəndlilərimizə yer, torpaq tələb ediniz, füqərayi-kasibəmizin şəraiti-təəyüşünü təshihə çalışınız.

BİZ QAFQAZLIYIZ: Qafqaz əhlinin öz ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb ediniz.

BİZ MÜSƏLMANIZ: Binaənəleyh öz əqayidi-diniyyəmizə, hürriyyəti-vicdanımıza hər nə lazımsa onu istəyiniz, onu tələb ediniz.

BİZ TÜRKÜZ. Dilimizin, insanımızın tərəqqisinə mane olan hər növ sədlərin, divarların yıxılmasına, rəf olunmasına qeyrət ediniz».[1]

İnsanlıq, qafqazlılıq, müsəlmanlıq, türklük mövqeyini Ə.Hüseynzadə və bütün füyuzatçılar dövrü mətbuatda sistemli şəkildə ifadəyə, xüsusi əhəmiyyət verir, həmin əsasda çağdaş milli mədəniyyət konsepsiyasını formalaşdırırdılar. İstər bu, istərsə də digər məsələlərdə füyuzatçılar proqram xarakterli çıxışlar etməklə kifayətlənmir, konkret iş, təcrübə, əsər və ictimai əməl sahibi kimi tanınırdılar. Onlar ictimai-siyasi düşüncədə və bədii ədəbiyyatda «parçalanmış və talan olan» (M.Ə.Rəsulzadə) Azərbaycanın taleyini əsas götürür, rus çarizmi və İran monarxizmi hüdudlarında yaşayan soydaşlarının vətəndaşlıq hüquqlarını qorumağa çalışır, əxlaqi-mənəvi dəyərlərin zənginləşdirilməsini məqsəd seçirlər.

Ə.Hüseynzadənin ictimai-mədəni fəaliyyətinin əsas göstərici onun ümummilli ideyalarını əks etdirən publisistik əsərləridir. Ədibin yeni ədəbi məktəb yaratması, dildə, fikirdə və əməldə – işdə reformalara meyl etməsi, azadlıq carçısı kimi çıxışları, çağdaş milli ideologiya formalaşdırması,

[1] «Həyat» qəzeti, 2 iyun 1906-cı il, №119.

sünni-şiə qarşıdurması, Qərb-Şərq tərəfmüqabilliyinə düzgün şərh verməsi onun publisistik əsərlərinin mahiyyətini təşkil edir. Ə.Hüseynzadənin azadlıq barədə düşüncələri onun publisistikasının elmi-nəzəri keyfiyyət qazanmasına səbəb olur, məsələnin hüquqi tərəflərinin də araşdırılmasına təsir göstərirdi. Onun «Həyat» qəzeti və «Füyuzat» jurnalında dərc etdirdiyi «Tiflis erməni-müsəlman ictimainə dair birikı söz», «Milliyyət və insaniyyət», «Bakı vilayəti məbusları», «İcmal – 4 dekabr», «Həqayiqi-ictimaiyyə, yer və insan», «Əhvali-aləm və diri müstəhasələr» kimi məqalələri bu qəbildəndir. Ə.Hüseynzadənin publisistikası onu filosof, siyasətçi, teoloq, inqilabçı-demokrat, türkoloq kimi səciyyələndirməyə imkan verdiyi kimi, tənqidçi, ədəbiyyatşünasalim kimi də məşhurlaşdırmışdır.

Dövrünün mütəfəkkir tənqidçisi kimi tanınan Əlibəy Hüseynzadənin adı ədəbi-nəzəri fikir tariximizdə özünəməxsus yer tutur. Yaşadığı dövrdə burjuaziyanın imkan və imtiyazlarından istifadə edən Ə.Hüseynzadə sosial-siyasi məsələlərə münasibətdə mənəvi-əxlaqi təkamül konsepsiyasından çıxış edərək bəzən öz sinfi mövqeyi ilə kompromisə girsə də, azadlıq, zəka kultunun milli ədəbiyaytda əks-sədasına çalışmış, nəzəri-estetik axtarışları ilə ictimai-mədəni tərəqqidə mühüm rol oynamışdır.

Mövcud ədəbi prosesin inkişaf meylləri ilə yaxından maraqlanan Ə.Hüseynzadənin bir sıra məqalələri problematikası, elmi-nəzəri təhlil səviyyəsi, publisist gücü, siyasi sərrastlığı ilə tənqidi fikrin tərəqqi koordinatlarını dəqiqləşdirmək üçün mühüm əhəmiyyət kəsb edirdi. Onun «Zəmanəmizin Ömər Xəyyamı», «Tolstoyluq nədir», «Şiller», «Tolstoy», «Vəlvələ və zümzümə», «Nicat məhəbbətdədir», «İntiqad ediriz, intiqad ediliyoruz...» və s. məqalələri kimi «Qırmızı qaranlıqlarda yaşıl işıqlar»ı da bu qəbildəndir.

Üç hissədən ibarət olan bu məqalənin birinci hissəsində dünya ədəbiyyatında əmələ gələn yeni təmayüllərin spesifik

xüsusiyyətləri izah olunur. Eyni zamanda Şarl Bodler, Pol Verlen, Stefan Mallarme kimi məşhur sənət nümayəndələri, onların yaradıcılıq orijinallığı haqqında danışılır. XIX əsr Fransa mədəniyyətində meydana gələn dekadentizm və simvolizmin ictimai-siyasi səbəblərini araşdıran tənqidçi onun Rusiya, Amerika, Türkiyə və Yaponiya kimi ölkələrə keçdiyini göstərir, inqilabi axtarışlar zamanında milli ədəbiyyatın xeyrinə geniş yayılan bu yeni təcrübədən də istifadə etməyi lazım bilirdi.

Sənətin bədii əsaslarını şərh etməyə çalışan tənqidçi fikrin ifadəsində rəng, səs, rəmz, hiss və duyğuların rolunu yüksək qiymətləndirir, bu mənada yeni eksperimentlərin milli ədəbi fikirdə yoxlanmasını qarşıya məqsəd qoyurdu. Ə.Hüseynzadə simvolizmin ictimai tarixi mahiyyətini göstərməklə yanaşı, simvolistlərin arxaikləşən poetik normativlər əleyhinə çıxmasını təqdir edir, onların «bədii məktəblə sənətə lüzumsuz təqlidlərdən və köhnə sözləri təkrarlardan ibarət qalan yoları tərk ilə əşar və ədəbiyyat və sənayeyi-nafisədə kilitli bir təccəddid vücuda gətirmək» istəyini müdafiə edirdi. Fikrimizcə dekatentizmi «inhatat və zavala üz tutmaq» üsulu kimi qiymətləndirən tənqidçinin nəzəri-estetik qənaətləri «inkisari-xəyalə uğrayaraq hüzni-ümumini tərənnüm edən» Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşlərinin formalaşmasında müəyyən rol oynamışdır. Odur ki, Azərbaycan vətəndaşlıq romantizminin təşəkkülü və inkişafında həlledici rol oynayan Ə.Hüseynzadənin nəzəri düşüncələri müasirləri tərəfindən bədii ədəbiyyata tətbiq olunurdu.

Məqalənin ikinci hissəsində Ə.Hüseynzadə «Bəşəriyyət irəliyə doğru bir addım atmaq istəyir»[1] - deyə dövrünün inqilabi-tarixi xarakteristikasını müyyənləşdirir və yeni tipli məktəb, mədrəsə, qiraətxana, teatr binaları, tibb ocaqları təsis etmək, müasir ziyalılar yetişdirmək, bir sıra qəzet, jurnal,

[1] «Füyuzat» jurnalı, 1906-cı il, №5.

dərslik nəşrinə çalışmaq, mədəni tərəqqiyə xidmət edəcək cəmiyyətlər yaratmağı günün əsas tələbi kimi qiymətləndirirdi.

O, bu yolda dünya mədəniyyəti orbitinə çıxa biləcək kadrlar hazırlamağın mümkün olduğunu deyir və qazanılan ilk müvəffəqiyyətləri qaranlıqda yandırılan işıqla müqayisə edirdi.

Müəllif sonuncu hissədə «Nəşri - maarif» cəmiyyətinin təşkil olunmasını və Peterburqda tikiləcək orijinal arxitekturaya malik «Cameyi-kəbir» məscidinin tikintisinə kömək edənlərin işini təqdir edir, ictimai vətəndaşlıq hissinin gücləndirilməsinə dair ətraflı söhbət açırdı.

Ə.Hüseynzadənin türkçü, turançı, islamçı, avropaçı mülahizələri ilə yanaşı «İttihad və tərəqqi»yə dair düşüncələri də publisistik əsərlərində əhəmiyyətli yer tutur. O deyirdi: «İttihad etməliyiz, ittihad! İttihada doğru tərəqqi etməliyiz! İttihad və tərəqqi edərsək, o günləri də görəriz. Avropanın mədəniyyət qiyafəsinə bürünən bir takım vəhşi hərifləri nə «qələt etdim, tövbə etdim, bir daha yanmam» da dedirtdirəriz. Lakin o günlər gəlincəyə qədər hərifləri mədəniyyət naminə etmədikləri qəddarlıq qalmayacaqdır. Çünki həqq qüvvətlinindir».

İctimai həyatda, sosial-siyasi fikirdə, bədii sənət, ədəbiyyat və mədəniyyətdə təkamülün, islahatların, modernizmin tərəfdarı olan Əlibəy Hüseynzadə ortaq türk dili və coğrafiyası miqyaslarını müəyyənləşdirir, Turan hüdudlarında yaşayan xalqların birlik və bərabərlik, ədalət və asayişini qorumağı vacib bilirdi. Bunun üçün Turan coğrafiyasındakı xalqların ortaq tarixə, dilə, dinə, yaddaş və mədəniyyətə malik olmasını tez-tez xatırladan Ə.Hüseynzadə «Türk dilini öyrənməyin fəvaidi», «Xristov Kolumbmu, yoxsa türklərmi?», «Türklər kimdir və kimlərdən ibarətdir?» əsərlərini ictimaiyyətə təqdim edir, milli özünüdərk problemi ilə sistemli şəkildə məşğul olurdu.

Ə.Hüseynzadə elm, sənət və mədəniyyətin ictimai-siyasi əhəmiyyətini yüksək qiymətləndirir və buna görə də heç bir fərq qoymadan Şərq və Qərb ədəbiyyatını mükəmməl mənimsəməyi vəzifə bilirdi. O yazırdı: «Məlumdur ki, kətəbi-müqəddəsseyi-səmaiyyədən sonra heç bir şey ədəbiyyati-inmuziciyyə qədər talibə və şagirdanın əxlaq və tərbiyəsini islah və təhzib edəməz».[1] Həmin səbəbdəndir ki, elmi-nəzəri məqalələri və tənqidi mülahizələrində ədib Şərq və Qərb arasında «kafər-müsəlman» qarşıdurması yaradan, əski-ənənəvi yaddaşdan ayrıla bilməyənlərə köməyə çalışır, onları ümumbəşəri ədəbiyyatın əxlaqi-mənəvi dəyərlərinə sahib olmağa səsləyirdi. Görkəmli mütəfəkkir bu məqsədlə Homer, A.Dante, Virgili, İ.V.Höte, Volter, D.Didro, H.Spenser, V.Şekspir, C.Bayron, H.Heyne, V.Hüqo, S.Prüdom, Hartman, Ə.Firdovsi, Ö.Xəyyam, S.Ə.Şirazi, Hafiz Şirazi, L.Tolstoy, A.Puşkin, A.P.Çexov kimi onlarla dünya ədəbiyaytı klassikinin əsərlərinə müraciət edir, onların tərcümə, təhlil, tənqid və təqdimi ilə məşğul olurdu. Şərq və Qərb qarşıdurmasını, «İslam və xristian» düşmənçiliyini aradan qaldırmağı vacib bilən Ə.Hüseynzadə bu iki qütbün tərəf-müqabilliyinə aydınlıq gətirərək deyirdi: «Şimdi bizə deyirlər, madam ki, ingilislər, firənglər, filanlar belə imişlər, nə üçün siz də Səid paşalar, Salarüddövlələr kimi «Füyuzat»ınızda ingilislərə, firənglərə müaciət edirsiniz. Ortaya gah Hötenin «Faust»unu, gah Şekspirin Jül Sezarını, gah nə bilim hankı avropalının əsərini çıxarıyorsunuz! Avropalaşılım, firəngləşəlim deyirsiniz?! Lakin ey qare, müraciətdən müraciətə fərq vardır. Biz Avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyiriz; özlərinə deyil. Biz istəriz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın».[1]

[1] Ə.Hüseynzadə. Nümunə məktəbi – «Həyat» qəzeti, 25 avqust 1906-cı il, №189.

Ə.Hüseynzadə yaradıcılığının digər sahələrində olduğu kimi publisistikasında da üç prinsipli ideya düsturuna, Azərbaycan xalqının tarixi və həyat təcrübəsinə əsaslanan təfəkkür triadasına əməl edir, «türkləşmək, islamlaşmaq, avropalaşmaq» yolunda elmi və əməli fəaliyyət göstərirdi. N.Gəncəvi, Ə.Xaqani, M.Füzuli, Ş.İ.Xətai, Nədim, Naci, T.Fikrət, N.Kamal, M.Ə.Talıbov, Z.Marağalı və başqalarını islam aləmininin ədəbi-mədəni dəyərlərini qoruyan sənətkarlar kimi təqdim edir, Azərbaycan ədəbi prosesini müsəlman mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndirirdi. Ə.Hüseynzadə Azərbaycan klassiklərini Şərqin Ə.Firdovsi, Ö.Xəyyam kimi məşhur sənətkarları ilə bir müstəvidə təhlil edir, müsəlman intibahının nümayəndələri olan filosof-şairlərin ümumbəşəri mövqeyini diqqətə çatdırırdı. Bu məqsədlə o deyirdi: «Ey İbn Rüşd! Nafilə fəryad etmə, sənin fəryadlarını eşidən olmayacaqdır. Olsa-olsa onları Naci kimi dağlara, daşlara eşitdirə bilirsən! Bax Naci nə deyir:

Yox məncə şu dağ qədər süxəndan
Fəryadimə səs verər də hər an
Deyir hüzn ilə kuhsar: Heyhat!»[2]

Ə.Hüseynzadənin «Milliyyət və insaniyyət» barədə düşüncələri ümumbəşəri dəyərlərə əsaslanır, yalnız Şərqin deyil, bütövlükdə «dünyanın dərdi» ilə yaşayanların fəlsəfi mövqeyi ifadə edilir, planetin hər tərəfində müharibə, terror, təzyiq, istismar, təcavüz, qəddarlıq əleyhinə mübarizə aparanların işinə haqq qazandırılırdı. Məhz buna görədir ki, Ə.Hüseynzadə də formalaşdırdığı romantik ədəbi məktəbin digər üzvləri kimi «Hamımız bir günəşin zərrəsiyik» tezisinə

[1] Ə.Hüseynzadə. Kasablanka faciəsi və Osmanlı-İran komediyası – «Füyuzat» j., 1907-ci il, №24, s.
[2] Ə.Hüseynzadə. Kasablanka faciəsi və Osmanlı-İran komediyası. «Füyuzat» j., 1907-ci il, №24, s.

əməl edir, «Röya» məqaləsində obrazlı şəkildə «Mirqorod», «Sülhabad» şəhəri barədə arzularını ictimaiyyətə çatdırırdı.

***

Əlibəy Hüseynzadənin ilk irihəcmli əsəri 1905-ci ildə «Həyat» qəzetində (№4,9,16,22,35,52,81,82) silsilə nəşr etdirdiyi «Türklər kimdir və kimlərdən ibarətdir?» əsəridir. Bu əsər sonralar tədqiqatçı O.Bayramlı tərəfindən onun eyni adlı məqalələr toplusuna (1997), «Seçilmiş əsərləri» nə (2008, 2 cilddə, I) daxil edilib. Ə.Hüseynzadə bu əsərinə və türklüyün tarixi həqiqətlərinə bağlı digər əsərlərinə görə uzun müddət sovet ideoloqları tərəfindən pantürkist, milliyyətçi, turançı, irqçi, mürtəce və s. bu kimi damğalarla milli və elmi düşüncə dövriyyəsindən kənarlaşdırılıb. Lakin nəzərə alınmalıdır ki, XIX əsrin birinci yarısından etibarən milli özünüdərk prosesinə qoşulan bir sıra xalqlar kimi, azərbaycanlılar da «Biz kimik?» sualına cavab axtarır, ona verilən «tatar», «müsəlman» adının ümumiliyi içərisində özünün yerini müəyyənləşdirməyə çalışırdı. Ə.Hüseynzadədən öncə bu məsələyə bir çox Azərbaycan ziyalıları, o cümlədən M.F.Axundov, Axund Əhməd Səlyani, H.Zərdabi və «Əkinçi»lər, M.A.Şahtaxtlı, S.Ünsizadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov və başqaları öz əsərlərində fraqmental şəkildə toxunublar. Misal üçün, Ə.Hüseynzadənin babası, Qafqazın şeyxülislamı Axund Əhməd Səlyani özünün «Tarixi-ədəbiyyati-türki» adlı araşdırmasında dünya türklərinin tarixinə ilk konseptual baxışı nümayiş etdirir, «türk əqvamının başlıcaları» sırasında Yakut, Sibir, Altay, telaut türklərini göstərir, Tu-ku-yelər, Orxon-Yenisey abidələri, taciklər, uyğurlar, cığataylar və s. barədə danışır, «Qutadqu bilik», «Seracnamə», «Təzkirətül övliya», «Bəxtiyarnamə», «Baburnamə», «Tarixi güzidə», «Seybaniyət» və digərləri haqqında qısa məlumat verirdi.

Ə.Hüseynzadə isə «Türklər kimdir və kimlərdən ibarətdir?» adlı elmi-nəzəri araşdırmasında dünya türkoloqlarının,

arxeoloq və etnoqraflarının irsinə əsaslanır, «türkcə bir cəridəyi-islamiyyə olan» «Həyat» qəzetində yazırdı: «Lisanımızı, qövmiyyətimizi, tariximizi, tariximizə ziynət verən böyüklərimizi, qəhrəmanlarımızı, dinimizi, məzlum sifətlərlə ləkkədar etmək istəyən qərəzkaranə nəşriyyatə, rəqiblərimizə, çox kərə də biz aldanıb inanırız, bunların nə niyyət və məqsədlə yazılmış və yazılmaqda olduğunu bilmiyoruz. Hətta mətəssüf keçənlərdə türk qəzetələrindən birində belə tatarlara, türk və tatarların mədarifləri bulunan Çingizlər və Teymurlara dair nərəva sözlərə rast gəlmiş idik. Türklüklə iftixar etdikləri halda türkün kim və kimlərdən ibarət bulunduğunu bilməyən nə qədər türk mühərrirlərimiz vardır.. Şübhəsiz öz qövmünü ehya edən, öz məmləkətini abad edən, öz millətini təriqi-tərəqqiyə sövq ilə anı mədəniyyətin bala mərtəbələrinə çıxardıb, şərəf qazandıran böyük cahangirlərə öz qövm və milləti nəzərilə degil, başqa və rəqib millətlərin nəzərilə baxarsaq böylə cahangirlər haqqında, əlbəttə, yaxşı söz deyəməyiz. Səd ibn Vəqqasın mədəniyyətə xidmətini İranlılardan sormayın, ərəblərdən sorun! İranlıların, Zərdüştilərin mədəniyyəti-qədimələrini kökündən məhv etdiyi halda islam və ərəb mədəniyyətinin xadimi bulunuyordu...

Teymurun da türk mədəniyyətinə etdiyi xidmətləri dəşti-qıpçaq, İran, Osmanlı, Çin əhalisindən degil, Asiyayi-Vesti türklərdən, Səmərqəndi təzyin edən asari-memariyədən, öz nəsli bulunan Uluğ bəylərin, Babur Mirzələrin talifatından, ciğatay ədəbiyyatına şərəf verən şüəra və üdəbanın yazdığı kitablardan sormalıdır... Bu xüsuslarda kamil fikirlərimizi təshih etməliyiz».[1]

Ə.Hüseynzadə «ətrakşünaslardan» Vasili Radlov, K.Vamberi, Şarl Ejen, Vilhelm Tomson, Şəmsəddin Sami, Nəcib Asim, Jan Fransia Şampolyon, Pavele Kurtil, Deqin Jozef, N.M.Yadrinsev, Hekel, Fridrix Rodzel və başqala-

[1] Ə.Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir? «Həyat» qəzeti, 1905-ci il 10 iyun, №4.

rına istinad edir, Rusiya, Macarıstan, Finlandiya, Danimarka, Fransa alimlərinin türkoloji araşdırmalarını yüksək qiymətləndirir, göstərir ki, türkü tanımaq, türklüyü dərk etmək üçün «məsələyə elm və ürfan sahiblərinin qüvvəyi-müttəhidəsilə çalışmaq, məclislər, cəmiyyətlər, darülfünunda şöbələr güşad etmək, türk asari-ətiqəsini aramaq üçün uzaq məmləkətlərə fənni heyətlər göndərmək lazımdır!»[1]

XX əsrdə Azərbaycan türkologiyasının ilk nümunəsi sayılan bu əsərdə Ə.Hüseynzadə göstərir ki, türkologiya ilə məşğul olmaq üçün «bir neçə elmdə tətəbbö və ixtisas sahibi» olmaq lazımdır, xüsusilə, etnoqrafiya, antropologiya, arxeologiya, etnologiya, dilçilik, kulturologiya diqqət mərkəzində olmalıdır. Türklərin etnik mənşəyi, dini, elmi-mədəni nailiyyətləri, dövlətçilik tarixi və cəmiyyət quruculuğu kimi məsələlərə aydınlıq gətirən Ə.Hüseynzadə türkologiyanın gələcək vəzifələrini də müəyyənləşdirir və deyirdi: «İmdi türk ləhcə və şivələrindən hansının ziyadə türkcə olduğunu anlamaq üçün **əvvəla** hər birinin məzkur övsafi-əsasiyeyi-turaniyə ilə nə dərəcədə və nə nisbətdə mütəəssif, yəni qəvaidi-əsliyəyi-turaniyi nə nisbətdə mühafizə etmiş və özləri ilə qeyri-müktəcanis bulunan əlsəneyi-samiyə və ariyənin təsiratına nə qədər məruz bulunmuş olduğunu təyi. etməli, **Saniyən** vəsaiti-fənniyəyi-ləsaniyə və tarixiyəyi-coğrafiyə və sairə ilə ən qədim və ən xalis türklər kimlər olduğunu kəşf ilə bunların lüğətini, qəvaidi-sərfiyə və iştiqaqiyəsini gözəlcə zəbt etdikdən sonra türkün şimdiki ləhcələrindən hər birinin bu qədim və xalis türkcədən təbaədd edib-etmədiyini və etdi isə nə dərəcə etdiyini mütaliə etməlidir. Bundan başqa türkcə ləhcələr üzərinə həmcins və həmcavab bulunan sair turan lisanlarının da təsiratını unutmamalıdır. Heç şübhə yoxdur ki, lisani-əsliyi-türk müxtəlif səbəblər təhtində təhvilatə uğramaqdan və başqa dillərin təsiratına məruz qalmaqdan bir an xali qalmamışdır. Bu səbəblərin başlıcalarından olmaq

[1] Yenə orada.

üzrə mühitin şəraiti-iqlimiyə və təbiiyəsini, vəziyyəti-coğrafiyədən naşı münasibəti milliyəyi-həmcivariyi, ədvari-müxtəlifədə türklər tərəfindən qəbul olunan növ-növ məzhəb və ədyanı və bunlarla bərabər gətirilən xətt və lisani-ziniyəyi və əlhasil miləl və əqvamı yekdigərinə qarışdıran müxtəlif vüquati-tarixiyəyi zikr edəriz».[1]

Ə.Hüseynzadə irəli sürdüyü vəzifələri qismən yeinə yetirir, To-ku-ye, Oğuz, Uyğurlar haqqında məlumat verir, türklərin tarixində bu və ya digər dərəcədə özünü göstərən şamanizm, bütpərəstlik, Lama məzhəbi, buddizm, atəşpərəstlik, xristianlıq, islam barədə danışır, Zərdüşt, Mani, Budda və İsa peyğəmbərin türk ədəbi-mədəni həyatında oynadığı rolu diqqətə çatdırırdı. Runik əlifbalı qədim türk abidələrini, Orxon-Yenisey Daş kitabələrini, Uyğur xətti ilə tarixə həkk olunan yazıları Ə.Hüseynzadə türklərin ən qədim ədəbiyayt və mədəniyyət nümunələri kimi qiymətləndirir, onların köçərilik həyatı və şəhərsalma mədəniyyətinə dair biliklərin çin, ərəb, fars mənbələrində araşdırılmasını vacib bilirdi. Türklük tarixində iz qoyan ayrı-ayrı hökmdar, sərkərdə, alim, şair, vəzir, filosof və başqalarının elmi-nəzəri və ədəbi-bədii irsinə istinad edən Ə.Hüseynzadə türklərin müxtəlif sənət sahələrində uğur qazandıqlarına da mühüm diqqət yetirirdi.

Əlibəy Hüseynzadənin yaradıcılığı mövzu, ideya və bədii sənətkarlıq baxımından rəngarəng və zəngindir. O, müxtəlif bədii növ və janrlarda əsərlər yazmış, çoxsaylı tərcümələr etmişdir. Ədibin əsərləri ilk nəşr nümunələrindən başlayaraq böyük oxucu rəğbəti qazanmış, ədəbi prosesdə əks-səda doğurmuş, ona nəzirələr yazılmış, xüsusilə şeirləri dillər əzbəri olmuşdur.

Onun həcm etibarilə böyük olan əsərləri «Siyasəti-fürusət», «Əbdi-qlaf və məhfəzə qulu», «Türklər kimdir və kim-

[1] Ə.Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir? «Həyat» qəzeti, 1905-ci il, 4 iyul, №22.

lərdən ibarətdir?», «Qərbin iki dastanında Türk»dür, «Siyasəti-fürusət» bədii-fəlsəfi traktat, «Əbdi-qlaf və məhfəzə qulu» Anton Pavloviç Çexovun «Qlaflı adam» əsərinə nəzirə olaraq yazılmış povest, «Türklər kimdir və kimlərdən ibarətdir?» və «Qərbin iki dastanında Türk» əsərləri isə ədəbi-tarixi mənbələr əsasında yazılmış elmi-nəzəri araşdırmadır.

«Siyasəti-fürusət» yalnız Əlibəy Hüseynzadənin və Azərbaycan ədəbiyaytı tarixində deyil, eyni zamanda Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatında xüsusi əhəmiyyəti olan bir əsərdir. Belə ki, həmin regionda aparılan antimüstəmləkəçilik mübarizəsinə haqq qazandıran «Siyasəti-fürusət»də humanizm, azadlıq və sülh ideyaları tarixi həqiqətlər əsasında təsvir olunur. Xüsusən I Çar Rusiyası, İran və Türkiyədəki hadisələri əks etdirən bu əsərdə milli azadlıq və müstəqil dövlətçiliklə yanaşı dövrün ən ciddi ictimai-siyasi problemləri kəskin satirik-sarkastik üslubla təhlil olunur. Əlibəy Hüseynzadə özünə qədərki milli ədəbiyyat ənənələrindən bəhrələnməklə, həm də dünya ədəbiyyatının möhtəşəm sənət abidələrinə istinad edir, dərin fəlsəfi məna, psixoloji gərginlik, dramatik ziddiyyətlər, aydın məntiqi mövqe, müasir bəşəri ideyalar ifadə etməyə çalışır.

XIX əsrdə M.F.Axundov tərəfindən başlanmış yeni ədəbiyyat yaradıcılığı işini XX əsrdə Əlibəy Hüseynzadə böyük müvəffəqiyyət və novatorluqla davam etdirdi. Məlumdur ki, əsası M.F.Axundov tərəfindən qoyulan milli dramaturgiya, bədii nəsr (xüsusilə povest və hekayə yaradıcılığı), maarifçi tənqid məktəbi sonralar uzun müddət örnək seçildi və daha yüksək zirvəyə qaldırıldı. Belə isə M.F.Axundovun «Kəmalüddövlə məktubları» əsərinin (çox dəqiq deyildiyi kimi bədii, siyasi-fəlsəfi «traktatı»nın) ənənəvi təsiri niyə ədəbi hərəkatda özünü göstərmir?! Bu sualın cavabını Əlibəy Hüseynzadənin həmin ənənəni daşıyan «Siyasəti-fürusət» əsərində axtarmaq lazımdır.

Əsər orijinal struktura malik olub son dərəcədə geniş bir dövrü əhatə edir. Ən qədim zamanlardan XX əsrin əvvəllərinədək Qərb və Şərqdə yaşayıb-yaratmış görkəmli şəxsiyyətlər, yazıçılar, şairlər, şahlar, sərkərdələr, dövlət xadimləri, inqilabçılar, xalq müdrikləri və s. bu əsərin qəhrəmanlarıdır. Güclü müəllif fantaziyasının məhsulu olan bu əsərdə tarixi reallıqla bədii gerçəklik arasında sintetik bir əlaqə var və burada sehirli qüvvələrin nağılvari davranışı ilə həyati qəhrəmanların yaşantıları biri-digərini tamamlayır...

Əsərdə dövrün ictimai-siyasi hadisələrinə, xüsusilə, çar Rusiyasının müstəmləkəçilik və milli qızışdırıcılıq fəaliyyətinə, duma oyunlarına, habelə İrandakı sosial-siyasi problemlərə, məclisi-məbusanın işlərinə mühüm yer verilir.

«Siyasəti-fürusət» XX əsrin əvvəlləri Azərbaycan ədəbi mühitində ən çox oxucu marağına səbəb olan bədii sənət nümunəsidir. Bu əsər «İrşad», «Tərəqqi» və «Həqiqət» qəzetlərində silsilə (felyetonlar) şəklində çap olunmuşdur. Uzun müddət diqqətdən və tədqiqatdan kənarda qalan «Siyasəti-fürusət» Azərbaycan müstəqillik qazandıqdan sonra üç dəfə (1994, 2007, 2008) nəşr edilib. Əsəri Azərbaycan ədəbiyyatı nümunələri ilə müqayisə etsək yalnız Nizam-əl-mülkün «Siyasətnamə», Mirzə Fətəli Axundovun «Kəmalüddövlə məktubları», Zeynalabdin Marağalının «İbrahimbəyin səyahətnamə»sinin adını çəkmək olar. Lakin dünya ədəbiyyatı ilə analoji təhlil apararaq geniş danışmaq olar. Bu mənada Əlibəy Hüseynzadəni yaxından tanıyan görkəmli türk filosofu Hilmi Ziya Ülkenin mülahizələri diqqətəlayiqdir. O əsəri «alaylı (humoristiqul) və hicavli əsər» kimi qiymətləndirərək deyir: «Yazar tefrikanın başında bunu Oliver Swift gibi atların cemiyetine ait bir tasvir olduğunu ve konunun Rus yazarlarından Doroşevitchin yine Kazak atlarına dair alaycı bir eserinden mülhem olarak İslam Türk dünyası için kaleme alındığını söylüyor. Daha başta «siyaset» kelimesinin ceza ve idam anlamında kullanıldığını, «Siyaset-i Füruset»

ile de atların ölünceye kadar kırbaçlandıklarının kastedildiğini anlatıyor. Bu nükteli konunun içine Hüseyinzade bütün Şark (eski İran, Türk, İslam) tarihini, onun çözülmemiş meseleleini, sosyal krizlerini koymaktadır. Kitapta zengin bir İran edebiyatı, Türk tarihi bilgisi görülüyor. Yazar burada Erasmus, Anatole France gibi Batı humanistlerinin Yunan-Latın mifoloji ve tarihlerine dayanarak yaptıkları hiciv tarzını (tarih boyunca bağlı bulunduğumuz Şark hümanizmi içinde yapmaktadır. Burada Şehnamenin başlıca kahramanlarının ağzından en önemli siyasi ve ictimai meseleleri konuşuyor. Bazen Fazlullah ile Kiyumers öyle uzun bir konuşmaya giriyorlar ki, orada insan bütün günün sorularını, istibdat, hürriyet, sosyalizm, milliyet sorularının remizler halinde dile geldigini görüyor. *Renaissance* devrinin humanistlerinde başlayarak Fransız ve İngiliz edebiyatlarında sürüp giden bu tarzın Türk fikri edebiyatında ilk örnegini Hüseynzade bu eserle vermektedir. Eski hicvimizin küfürle karışık tarzi burakıldığı, Bahe Tevfikle Avropai polemik ve tenkit yoluna girildigi zamandan sonra da bu nükteli ince tenkit tarzi denenmiş degildi. Halbuki, fikrin inceliklerine girebilmek için Erasmustan Anatole Francea kadar gelişen bu tarzın da yerleşmiş olması gerekiyordu ki, bu bakımdan Hüseynzadenin eseri başarılı ilk örnek olarak durmaktadır)»[1].

«Siyasəti-fürusət»in son dərəcədə maraqlı məzmunu, orijinal süjet xətti və kompozisiyası vardır. Hadisələrin müəllif seçimi və süjet xətti boyunca düzümü ənənəvi səciyyə daşımır. Tarixi anoxronizmə yol verən Əlibəy Hüseynzadə müxtəlif dövrlərin hadisələri arasında əlaqə yaradaraq müasir zamanın ən ciddi siyasi problemlərini gündəmə gətirir, onlara təhlil və tənqid gözü ilə baxmağı bacarır. «Üçatlı gərdunə» ilə, üç hücrəli araba ilə səyahətə çıxan «heyəti-müsəlsələ»nin dialoqları dövrün hadisələrini tarixlə uzlaşdıraraq

[1] H.Z.Ülken. Türkiyede çağdaş düşünce tarihi (2 cilddə, I c), İstanbul, 1966, s.268.

təhlil hədəfinə çevirir. Rusiyanın mərkəzindən Qafqaza gələn və İrana keçən hadisələrin axınını Pruşkeviçin kölgəsi, Təbrizli Mir Haşım, Seyidəli Yəzdi və Şeyx Fəzlüllah daha da dramatikləşdirir, onlar mövcud ictimai-tarixi vəziyyəti şərh etməklə kifayətğlənmir, həm də ona müdaxilə edərək özlərinin istibdadpərəst maraqlarını ödəməyə çalışırlar. Beləliklə, əsərdə irticaçı və imperiyapərəst qüvvələrlə azadlıqsevər, hürriyyətpərəst qüvvələrin tərəfmüqabilliyi yaranır.

«Siyasəti-fürusət»də çağdaş həyatın qəhrəmanları, tarixi şəxsiyyətlər, alleqorik obrazlar, mifik surətlər, xəyal və yuxu aləminin varlıqları bir-biri ilə qarşılaşdırılır, azadlıq, işıq və nur axtarışında olanlarla qaranlıq yeraltı dünya, məhbəs, müstəmləkə tərəfdarları, «qaraüzlü» siyasətçilər arasındakı mübarizə Xeyir və Şərin əbədi mübarizəsi fonunda qiymətləndirilir. Əsərdə simvol və rəmzlərlə müşayiət olunan hadisələr monarxist üsul-idarənin aradan qaldırılması, onun yerində parlamenli dövlət quruluşunun bərqərar olması və konstitusiyon haqq və hüquqların təntənəsi ideyasını irəli sürür, ədəbi qəhrəmanlarla real ictimai şəxsiyyətlər arasında fərq qoyulmur. Beləliklə, onların hamısı müəllifin «siyasət» ləfzinin idareyi-məmləkət və münasibəti-düvəl elmi kimi digər mənaları daha vardır» - ideyasına tabe tutulurlar.

«Siyasəti-fürusət»in obrazlarından danışarkən çar naziri Pruşkeviçin kölgəsi, «Russkoye slova» (1902-1912) qəzetinin redaktoru Doroşeviç, Bayquş, Kəyumərs, Ömər Xəyyam, Xacə Nəsirəddin Tusi, Teymurləng, Şah İsmayıl Xətai, Şah Təhmasib, Şölə, «İran Napoleon»u Nadir Şah, Ağa Məhəmməd xan, Qacarların babası Babaxan Fətəli şah, Xosrov Mirzə, Abbas Mirzə, Çatski, Skolazub, Famusov, Zaqoretski, Səid Səlmasi (Qəlb), Mirzə Rza, Nəsrəddin şah və başqalarının haqqında xüsusi bəhs açmaq olar. Çünki adı çəkilənlər bədii dialoqlarda fəal iştirak edən və ən qədim dövrdən başlayaraq XX əsrin əvvəllərinədək dünya tarixində iz qoyan ictimai xadim, şəxsiyyət və sənətkarlardır. Onlar

mövcud gerçəkliyə, habelə keçmiş həqiqətlərə tənqidi münasibət aşkarlayan ədəbi qəhrəmanlardır. Misal üçün İran padşahlarını Pişdadiyanlardan Müzəffərəddin şaha qədər «sülalə-sülalə... bir silsilə şəklində» göz önündən keçirən Ə.Hüseynzadə ədəbi-tarixi bilgilərə əsaslanaraq Sasani hökmdarları Puranduxt, Azərimiduxt haqqında, habelə Hüşəng, Təhmurəs, Cəmşid, Zöhhak, Firidun, Dəmirçi Çavə, Mənuçöhr, Nuzər, Əfrasiyab, Astiyaq, Keyqubad, Kambiz, Keykavus, Səyavuş, Rüstəm Zal, Kir, Zərdüşt, Qəştasb, İsfəndiyar, Dara, Kserksis, Ərdəşir, Bəhram Gur, Xosrov Pərviz, Ənuşirəvan, Bozargmehr, Əbülqasım Firdovsi, qədim dövr türk məşhurları olan Səlcuqlar, Alp Arslan, Toğrul bin Mikayıl bin Səlcuq, Sultan Səncər, şair Ənvəri və sair buk imi çoxsaylı şəxsiyyətlərin həyat təcrübəsini bədii təhlil obyektinə çevirir. Tarixə tənqidi münasibətdə işıq, nur, azadlıq və ədalət axtarışını hər şeydən uca tutan Ə.Hüseynzadə bu mənada Çavəyi-Ahəngər, Simürğ quşu (Feniks), İran azadlığı uğrunda mübarizədə şəhid olan Səid Səlmasi haqqında böyük rəğbətlə danışır, müasirini ən qədim dövrdən bəri istibdad əleyhinə mübarizə aparanların işi, əməli və ideyasından ibarət götürməyə çağırırdı. Bu mənada Kəyumərslə «Qəlb» obrazında təqdim edilən Səid Səlmasi arasında romantik üslubda qurulan dialoq mühüm əhəmiyyətə malikdir. Diqqət edək: «Kəyumərs:

- Sən şu biməğz Məhəmməd şah tərəfindən qətl etdirilən ədibi fazil Mirzə Əbülqasim Qaimməqam Fərəhanimisən?

Qəlb: - Xeyr!... Məni o qədər tanımazsınız! Mən dəmin zikr etdiyiniz sözün qaili qeyri-məşhur kiçik bir adamam ki, rütbeyi-şəhadətə hənuz yeni nail oldum.

Mən axirən Xoy tərəflərində şu həriflərin (Sənani-səhmin istiqamətilə Şeyx Fəzlüllah ilə Kölgəni göstərərək) iltizam etdiyi istibdadın əleyhinə vaqe cahadda məhbubeyi-vətən yolunda fədayi-can edənlərdənəm. Mənə yoldaşlarım Səid Səlmasi deyərlər idi.

Kəyumərs: - Pək əla! Sən görünür ki, safdərun və xəyalpərəst, təzə bir qəlbsən. Ancaq hər eşq və məhəbbətin bir hədəfi olur. Sənin hədəfin, hədəfi-məqsudun nə idi?

Qəlb: - Mənim hədəfi-eşqim vətən idi. O məşuqə isə məni tiri-cəfasına hədəf etdi.

Kəyumərs: - Vətən nəyə deyirsən?

Qəlb: İrana!

Kəyumərs: - Mənim anladığıma görə eşq və möhnətin hədəfi ancaq hüsn ola bilir.

«Eşq behosn əst behəm dilnişin,
Mum dəramixte ba əngəbin».

Əcəba sənin vətən dediyin bu günkü İranda məğlub olan hüsn varmı?.. Mən vaxtı ilə bir çox gözəllər sevmiş idim. Onun üçün bu xüsusda bir xeyli təcrübə və məlumatım vardır. Hüsnün nə olduğuna vaqifəm. Şərtlərini bir-bir tedad edə bilərəm. Hüsn deyilən sirri-ilahinin altı-yeddi şərti var. Bunların birincisi səhhət və təndüristidir. Yəni bütün əzayi-bədənin ilələdən, əmrazdan, əsqamdan külliyyən bəri və salim olmasıdır».[1]

Bədii təfəkkürün çoxplanlığını və siyasi-ideoloji fikrin konseptuallığını əks etdirən «Siyasəti-fürusət»də Əlibəy Hüseynzadənin Şərq və Qərb qarşıdurmasına «barış və sülh» mövqeyindən yanaşması öz möhtəşəm ifadəsini tapır. Bu hər şeydən əvvəl Şərqə olduğu kimi Qərbə də tənqidi münasibətdə özünü göstərir. Mənası «at oynatmaq siyasəti» anlamına gələn «Siyasəti-fürusət»də Əlibəy Hüseynzadə Şərqdə dini xürafat, gerilik, ətalət, fanatizm, cəhaləti tənqid edərkən, Qərbdəki inkvizisiya faciələrini, «əski romanın Kolizey nam tamaşagahını» və «xunin əyləncələr icad edən Rum qeysəri Neron»u da yaddan çıxarmır. Eyni zamanda Şərqin musiqi, sənət və elm korifeylərini təqdim edərkən Qərbin və Rusiya-

[1] Əlibəy Hüseynzadə. Siyasəti-fürusət. Bakı, Elm, 1994, s.126.

nın Dante, Sen Sans, Şekspir, Kopernik, Qaliley, Bethoven, Motsart, Rossini, C.Verdi, List, Quno, Vaqner, Nyuton, Viktor Hüqo, rəqqasə Aysedora Dunkan, Aleksandr Qriboyedov kimi onlarla tanınmış simalarını da tarixi xidmətlərinə görə təqdim edir. Ümumiyyətlə, bədii-ensiklopedik səciyyə daşıyan «Siyasəti-fürusət» də müasirlik meyli, tarixi hadisələrə çağdaş həyatın zirvəsindən baxmaq və ötüb-keçənləri bugünün meyarları mövqeyindən təhlil etmək iddiası güclüdür.

Bu səbəbdəndir ki, əsərdə Əlibəy Hüseynzadənin müəllif obrazı arxa planda qalmır, hadisələrə fəal müdaxilə edir, ona vətəndaş mövqeyini aydın şəkildə ifadə etməyi bacarır. Əlibəy Hüseynzadənin orta əsr feodal Avropasının xaç, səlib yürüşlərinə, onun başqa forması kimi meydana çıxan «sionizm»ə tənqidi bu baxımdan diqqətəlayiqdir. İran şahı Nəsirəddinə Səid Səlmasinin dili ilə müraciət edən ədib əslində müasirlərinə sionizmin mahiyyətini aydınlaşdırırdı. Orada deyilirdi: «Şahım, bən iki sənə əqdəm bərhəyat ikən bir rəfiqim ilə Avropada səyahət ediyordum. O əsnada bir xeyli yəhudi ürəfası ilə görüşdüm. Bunların bir çoxu şu son zamanlarda «Sionizmə» deyilən bir məsləki milliye-siyasiyi təqibə başlamışlar.

Bu məslək Nəsirəddin şahın təklifinə müvafiq gələn «territorializmə» əfkarı xilafında yəhudilərin Afrikada, Amerikada, ya digər bir qiteyi-aləmdə ərazi iştirakı ilə müstəqil bir hökumət təşkili üçün çalışmalarını lüzumsuz əddedər... Sion Qüdsi Şəriflə bir təpənin adı olub, ələlitlaq bu şəhərin özünə dəxi deyilir. «Sionizmə» təbiri bundan müştəqdir. «Sionizmə» bir növ millətpərəstlikdən ibarətdir ki, yəhudilərə, din və məzhəblərini, lisan və qövmiyyələrini, məfaxiri-tarixiyyələrini, bütün övsaf və əxlaqi məmduheye-milliyyələrini mühafizə ilə ancaq vətəni-əsilləri bulunan Fələstin qitəsinə lüzum hicrət fikrini təlqin eylər. Onları qanun və hüquq dairəsində, məsələnin aid bulunduğu dövlət (yəni

Türkiyənin) rizasilə qiteyi-məzburənin iskanına təşviq və tərğib edər. Hürriyyət və məşrutiyyənin İstanbulda elanından sonra ümidləri artmışdır. «Sionizmə» əfkarının vasiteyi-mərkəziyyeyi nəşri Almaniyada, Hamburqda çıxan «Velt» («Welt») cəridəsidir. Bu məsləkin tabeləri beş-on sənədən bəri özlərinə aid məsail və məsaləhi müzakirə üçün Avropanın biladi müxtəlifəsində konqerələr əqd ediyorlar. Öylə konqerələr ki, iki-üç yüz milyon müsəlman hənuz birini belə yapmağa müvəffəq olmamışlar!

Birinci mötəmər 1897-ci ildə Bazel şəhərində vaqe olub bu mötəmərdə «Sionizmə»nin məramnameyi-əsasisi tərtib edilmişdir».[1]

Əlibəy Hüseynzadənin «Siyasəti- fürusət» əsərində Rusiya, İran və Türkiyədə hökmfərma olan feodal despotizmi tənqid olunur, monarxizmdən demokratik dövlət quruculuğuna keçidə qiymət verilir, dünyanın harasında olursa olsun azadlıq uğrunda mübarizə aparan hər kəsin işi ümumbəşəri fəaliyyət kimi qiymətləndirilirdi. Eyni zamanda görkəmli ədib digər müasirləri kimi «cənnət xəyalı ilə yuxuya gedən» (C. Məmmədquluzadə) həmvətənlərini dünyadan xəbərdar etmək istəyir, vətənində «azadlıq, bərabərlik, qardaşlıq» cəmiyyətinin qurulacağına böyük ümüd bəsləyirdi. Yazıçının tarix hadisələrini, ayrı- ayrı şəxsiyyət və problemləri gerçək həyatla əlaqələndirmək məharəti «Siyasəti- fürsət» əsərində romantizimlə realizmin bədii- estetik sərhədlərinin qovuşmasına səbəb olur, onun müasir həqiqətlərə işıq salmasına ciddi kömək göstərirdi.

Əlibəy Hüseyinzadənin bədii əsərləri sırasında Anton Pavloviç Çexovun «Qlaflı adam» əsərinə nəzirə şəklində yazdığı «Əbdi- qlaf və məhfəzə qulu» povesti əhəmiyyətli yer tutur. Bu əsər ilk dəfə «Həyat» qəzetidə hissə- hissə nəşr olunub. Əsərin süjet xətti ovdan qayıdan iki ovçunun (baytar Əhməd əfəndi ilə məktəbi- edadi müəllimi Kamal bəyin) bir

[1] Əlibəy Hüseynzadə. Siyasəti-fürusət. Bakı, Elm, 1994, s.154-155.

gecə dialoqu və xatirələri üzərində qurulub. Povestin bədii proloqunda köy kəhyası (kəndxuda) Muradın evində gecələməli olan ovçuların onun xanımı Fatmanın taleyi, «müddəti-ömründə heç doğub- böyüdüyü o köyün xaricinə ayaq basmamış, əsla şəhər, ya dəmir yolu görməmiş» olması barədə düşüncələr ön plana çəkilir, «qadın azadlığı» olmayan yerdə yaşamanın problemlərinə işarə vurulur. Beləliklə, Türkiyə ictimai mühütini tənqid hədəfi seçən ədib «ocaq başından» ayrılmayan Fatmanın timsalında dünyadan bixəbər, savadsız «ancaq gecələr dışarı çıxan» qadınların taleyini əsas götürərək sosial- fəlsəfi mülahizələrini də nəzərə çatdırır. Əsərdə ovçuların dialoqu davam etdikcə «Söz sözü çəkir» və Türkiyənin ictimai- siyasi gerçəkliyi, xüsusilə buradakı monarxist üsul- idarə obrazlı şəkildə, bədii ümumiləşdirmələr yolu ilə mühafizəkarlıq nümunəsi kimi tənqid olunur. Povestdə geriliyin mühafizəkarlığın timsalı kimi **Əbdülqədim Rakid əfəndi** əsərin baş qəhrəmanıdır. O öz qılafında yaşamağa adət etmiş, hər cür yeniliyə qarşı çıxan, xüsusilə gəncliyin təşəbbüskarlığına və azadlıq arzularına əngəl törədən tipdir.

Bu mənada görkəmli Ədəbiyyatşünas- alim Əziz Mirəhmədov doğru olaraq deyir ki:

«Çexovdakı kimi, Azərbaycan yazıçısı da zahirən heç kəsə əziyyət verməyən, pislik etməyən, lakin öz mühafizəkarlığı, qorxaqlığı, adamayovuşmazlığı, qeyri- səmimi xarakteri ilə hamını darıxdırıb zara gətirən, nəhayət, siyasi həyatda da eyni dərəcədə mənfi bir tipi qəhrəman seçmişdir».[1] Əbdülqədim əfəndinin dildə, dində içtimai şüur və həyat tərzində köhnəliyin, ənənəviliyin tərəfdarı olması, hər cür yeniliyə «qorxuram altından başqa şey çıxsın» deyə tərəddüdlərlə yanaşması əsərdə tənqid olunmaqla yanaşı, islahatçılıq, təşəbbüskarlıq, mübarizlik, azadlıq ideyaları romantik bir

[1] Ə.Mİrəhmədov. Əlibəy Hüseynzadə. «Fikrin karvanı» kitabında. Bakı, Yazısı, 1984, s.70.

dillə təsvir və təhlil olunur. Əsərdə yeniliyin, azadlığın tərəfdarları Əbdülittihad Əfəndi – Kamal bəy, Ləman xanım, Abdulla Cövdət, Aliyə xanım və başqalarıdır. Eyni zamanda əsərdə Adı çəkilən Namiq Kamal, Əhməd Müdhət, Murad bəy Kamal, Herbert Spenser, Viktor Hüqo, Lev Tolostoy, Xalid Ziya Üşşaqizadə, Hüseyn Rəhmi, Məhəmməd Əmin Yurdaqul, müəllim Naci, Tofiq Fikrət, Əbdülhaq Hamid, Mahmud Əkrəm Rəcaizad, Rza Tofiq, Nəcib Asim kimi tərəqqipərvər şəxsiyyətlərə istinad olunması, onların həyat və yaradıcılıq təcrübəsinin əsas götürülməsi «Əbdi-qlaf»ın poetik ruhunu müəyyənləşdirmə xidmət edir, «mazipərəst» Əbdülqədimin (mətnaltı qatda isə Türkiyə sultanı Əbdülhəmidin) xarakterik xüsusiyyətlərini təhlilə geniş meydan açır. Əsərin əsas bədii ideyası fonunda Türkiyənin mətbuatı, ictimai təşkilatları, ziyalıları, məktəb və maarifçiliyi, mədəni mühiti barədə də tənqidi mülahizələr yürüdən müəllif Əbdülqədimə qarşı qoyduğu povestin digər qəhrəmanı Kamal bəyin- Əbdülittihadın dililə deyir:

_Şimdi fikrimi sizə açıqca söyliyəyimmi? Əbdülqədim kibi hürriyyət düşmənlərini, istibdad qullarını qəbrə qoyub dəfn etmənin böyük bir zövqü vardır. Məzarlıqdan övdət edərkən hər kəs oruc tutmuş kimi surəti- zahirədə nəşəsiz görünməyə qeyrət eliyordu. Batinindəki hüsni- məmnuniyyətini izhar etmək istəmiyordi. Şu hiss çoxdan keçmiş çoçuqluğumuz əyyamında böyüklərin xanədən bir tərəfə gedib bizi kəndi halımıza sərbəst buraxdıqları vəqt duyduğumuz sevincə təşbih edilə bilir. Azadə qılıb baxçada istədiyimiz qədər, qoşar, sıçrar, saatlarca oynar, şu hüriyyəti- kamilədən keyfimizcə zövqiyab olurduq. Hürriyyət! Hürriyyət!

Heyhat! .. O nə qüvvədir ki, yalnız zikri belə inşirahidərunə, səfayi- qəlbə badi oluyor. Zehinləri, rühulbəşəri ülviyyata sövq eyliyor. Təcəllisinə bir şərareyi- ümid bəsləyən insanın qanadlanıb balalara pərvaz edəcəyi gəliyor deyilmi? Vaqeən o gün qəlbimizdə bir fərəh, bir sürur hiss edərək mə-

zarıstandan övdət etdik. Fəqət vaqiənin üzərindən bir kaç gün keçər- keçməz həyatımız yenə əski hamam, əski tas halına girdi. Yenə əşəddü- minənnar bir intizar içində dadsız-duzsuz o həyat bizi sıxıb əzməyə, yorub üzməyə, boğdurmağa, usandırmağa başladı. Gərçi yaşamanın, bərhəyat bulunmanın məmnuniyyətinə dair o əmri- rəsmiyyə südur etməmişdi, fəqət insan kibi yaşamanın da imkanı yox idi. Məişətimizdə eyiliyə doğru heç bir təbdil vüquə gəlmədi. Əbdülqədim Rakid kibi qlafpuş əbləhlər, tabutnişin dirilər, dilmurdələr, aramızda gəzib duruyorlar və nə qədər vəqtlər gəzəcəklərdir».[1]

«Siyasəti-fürusət»də olduğu kimi «Əbdi- qlaf»da da Əli bəy Hüseyinzadənin müəllif mövqeyi sosial- siyasi və fəlsəfi səciyyə daşıyır. Belə ki, ədib əsərə epiqraf seçdiyi misralarda ifadə olunan fikrin bədii- estetik konseptuallığını mətn boyunca izləyir və onun əsaslandırılmasını məqsəd bilir. Həmin mövqe məşhur türk şairi Mövlanə Cəlaləddin Ruminin

An ke mibini, xelaf-e adəmənd,
Nistənd adəm, qelaf-e adəmənd.

(tərcüməsi: Onları ki, görürsən adamlığa xilafdırlar, Adam deyil, adamın müqəvvasıdırlar) və

Abdulla Cövdətin
Qarşımda gəzən şu canlı tabut,
Aramıma zəhərdir, sipərdir –

misralarında ifadə olunan fəlsəfi prinsiplərdən qaynaqlanır, cəmiyyətdəki durğunluğun aradan qaldırılmasını məqsəd bilir, ictimai həyatdakı ətalət və cəhalətə qarşı yönəldirdi. Əlibəy Hüseynzadənin klassik şeir ənənələri və müasir poeziya nümunələrinə yaradıcılıqla yanaşaraq yeni nəsr nümunəsini ortaya qoyması, onu əlvan satirik-yumoristik üslub maneraları ilə zənginləşdirilməsi XX əsr Azərbaycan ədəbiyyatının uğuru kimi dövrün ədəbi tənqidi tərəfindən yüksək

[1] Əlibəy Hüseyinzadə. Seçilmiş əsərləri (2 cilddə, II c.), Bakı, «Çaşıoğlu» n., 2008, s. 68-69.

qiymətləndirilmişdir. Buna isə hər şeydən əvvəl ədibin bədii düşüncə imkanlarının genişliyi, lirik-psixoloji mühakimə müstəqilliyi, obrazlarının orijinallığı, ideya aydınlığı kimi keyfiyyətləri səbəb olurdu.

Əlibəy Hüseyinzadənin yardıcılığında «Qərbin iki dastanında türk» (1926) əsərinin də mühüm əhəmiyyəti vardır. Məlumdur Ki, 1925-ci ilin axırlarında Ə.Hüseyinzadə görkəmli türk professoru Mehmed Fuad Köprülüzadə ilə birlikdə Bakıda keçiriləcək I Beynəlxalq Türkoloji qurultayda iştirak etmək üçün dəvət məktubu almış və onlar 1926 –cı il fevral ayının 25- dən martın 5- dək davam edən həmin tədbirdə Türkiyəni təmsil etmişlər. Həmin qurultayda dünya türkləri və türklüklə bağlı çoxsaylı mühazirələr oxunmuş və ən məhşur türkkoloqlar iştirak etmişlər. Ə.Hüseyinzadə məruzəsini çap olunmaq üçün «Kommunist» qəzeti redaksiyasına təqdim etmiş və o, 1926- cı ildə redaksiya tərəfindən «Qərbin iki dastanında türk» adıyla ayrıca kitabça halında nəşr edilmişdir. Əsər 1998- ci ildə «Ağrıdağ» nəşriyyatı tərəfindən f.e.n. Ofelya Bayramlının tərtibi və müqəddiməsi, izahlar və lüğətlə, habelə Əziz Mirəhmədovun redaktəsi, ön sözü, Yaşar Qarayevin ön sözü ilə yenidən işıq üzü görmüşdür.

İlkin variantda məruzəsini «İtalyan şairi Tasso ilə Portəgiz şairi Komoensə nəzarən türk» adlandıran Əlibəy Hüseynzadə əsərin ilk cümləsində təhlil obyektini aydın şəkildə müəyyənləşdirərək deyir: «XI əsrin nəhayətindən XIII əsrin nəhayətlərinə qədər (1096-1270) Şərq ilə Qərb arasında hadis olan və ədədi səkkizə varan «Səlib müharibələri» o növ hadisatdandır ki, əkmiş olduğu müxasəmə və münafərət toxumlarının izlərini cahanın əsrimizdə belə cərəyan etmiş və etməkdə bulunan bir çox vəqayətində görməmək mümkün deyildir».[1]

[1] Ə.Hüseynzadə. Qərbin iki dastanında türk. Bakı, 1926, s.3.

XIX əsrin sonu, XX əsrin əvvəllərində sənaye kapitalizminin güclənməsi və xristian dünyasının əlində olan texnoloji imkanlardan istifadə edərək digər ölkələrə və xalqlara, o cümlədən islam aləminə, türk dünyasına müstəmləkəçi münasibəti əsərin əsas mahiyyətini təşkil edir. Burada Kamoens və Tassonun əsərləri bir vasitə olaraq götürülsə də, əslində türkə və türklüyə tarixi münasibətin «acı təcrübəsi» təhlil olunur, xristian aləmində yanlışlıqlara yol açan əsərlərin tənqidi məqsəd seçilir. Bu mənada Torkvato Tassonun «Qurtarılmış Qüds» və Kamoensin «Lusiada» əsərləri xarakterik nümunə kimi götürülür.

«Qərbin iki dastanında türk» əsəri bədii sənətkarlıq baxımından ənənəvi nəsr nümunələrindən fərqlənir. Burada bədii-poetik parçalarla elmi-tənqidi mülahizələr paralellik yaradır və mətn rəmzlər, simvollarla müşayiət olunur. Mövzu olaraq tarix əsas götürülsə də Əlibəy Hüseynzadə öz dövrünün hadisələrinə ciddi eyhamlar vurur, 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin XI Qızıl Ordu tərəfindən süqutunu «səlibçiliyi» yeni təzahürü kimi mənalandırırdı.

Ə.Hüseynzadə yaradıcılığında əsas ideya kimi ardıcıl şəkildə izlənən müstəmləkəçilikdən qurtuluş uğrunda mübarizə «Qərbin iki dastanında türk»də bütün kəskinliyi ilə ifadəsini tapır. Kamoensi «bir xristian bütpərəsti», Tassonu «təsəvvüfə-mistisizmə mayil bir xristian» adlandıran Ə.Hüseynzadə onların Şərq və Qərb ədəbiyaytı və mədəniyyəti tarixinə, islam və xristianlığa, dünya mifologiyasına bələd olmasını nəzərə çatdırmaqla yanaşı hər ikisinin müsəlmanlara həqarət gözü ilə baxmasını, xristian təəssübkeşi kimi bir tərəfli mövqe tutmasını, Məhəmməd peyğəmbər və Əmirəlmöminə «namünasib sifət əlavə etmələrini» tənqid edir. İtaliyanın və Portuqaliyanın intibah şairləri kimi qiymətləndirilən Tasso və Kamoensin mövqeyini aydınlaşdıran Ə.Hüseynzadə onların əsərlərindən nümunələr gətirərək Şərqə,

müsəlmanlara, türklüyə münasibətlərindəki yanlışlığı üzə çıxarır. Ə.Hüseynzadə Kamoensin "Məhəmməddəni, mələnətkar və islamı güruhi-cühəla dini sifəti ilə tövsif" etməsinə və türkləri "zalım, qəddar, vəhşi, barbar sifətində" təsvirinə qarşı çıxır, müqayisə üçün Tassonun "Xilas edilmiş Qüds" əsərində türkliyə rəğbətin parlaq boyalarla əksini nümünə gətirir. Lakin Kamoensin "Lüzida" sını təhlil edən və ona tənqidi münasibət bildirən Ə.Hüseynzadə göstərir ki, «Kamoensin türk və türklük haqqındakı nəzərindən bir nəbzə bəhs edəcəyəm:

"Ay Avropalılar, ay Almanlar, ay Fransızlar, ay İngilislər, ay İtaliyanlar Türklərlə mücahidə dururkən bir-birimizlə axmaqca nə boğuşursunuz, nə müharibə ediyorsunuz?..

Bu şair türkləri nə sevər, nə də tanır! İslamə nə qədər müxasəm isə türklərə karşı da o qədər müxasəmdir: Bir papas kibi Avropalıları, xristianları türklərə karşı yeni bir əhli-səlib müharibəsinə təşviq edər: əsərinin yeddinci fəslində nələr söyləyor: Sonra, İspaniya kralı Şarl Kent (Charles-Quint'd Espagne) yə karşı qanuni Sultan Süleymanla ittifaq edən birinci Franskaya (François I-er, ne 1494) də xitabən diyor ki;

(Ieruslaem) müdafiə üçün "pək xristian" (Tres-Chretien) ünvanını takındığın halda bunu təkzib və kəndini tərzil edərək müqəddəs şəhərə ihanət etdin!..."

Ay Avropalılar, ay xristianlar, madam ki, sizdə din qeyrəti qalmamışdır, barı altun və sərvət hərisilə Anatolunun, Assuriyanın və sairənin sərvətini çapul və yəğma üçün bir-birinizlə birləşib türklərə hücüm ediniz!..

..."Topçuluğun ən yeni, ən biəman ixtiratı sayəsində əldə edilən ən müdhiş, ən möhlik vasitəsilə İstanbulun və bütün Türkiyyənin başına bir bəla kəsiliniz! Və sizin məmur və zəngin Avropanızın mədəniyyəti ortasında təkəssür edən

türk irqini Kaspi dağlarının sis və soğuq Siktiya (Scythie) nın ən uğra, ən vəhşi İmakına qədər dəf ediniz..."

Bu zalım (cruel), bu hissiz və mərhəmətsiz (inhumain) xəlqə acımayınız! Və il axır..."[1]

Hər iki Avropa yazarının əsərini Homer, A.Dante, Virgili. Höte, Bayron kimi klassiklərin yaradıcılığı ilə eyni müstəvidə təhlil edən Ə.Hüseynzadə bunların bədii məziyyətindən daha çox ictimai-siyasi mahiyyətinə varır, istibdad, təcavüz, qəsbkarlıq məqsədlərini mətinaltı qatda şərh edirdi. Azərbaycanda sovet hakimmiyyətinin qurulduğu ilk illərdə "Qərbin iki dastanında türk" əsəri həmin səbəbdən mühüm əhəmiyyətə malik idi. Əsərdəki Vasqo de Qama , I Juan, II Juan Henri IV Alfons, Kral Manuel, Sultan Süleyman Aldəmir, Səlahəddin Əyyubi, Luz, Venera, Bakus, Adamastor, Merkuru və başqaları bədii şərtlik əsasında təqdim olunur və 1920-ci illərin bəzi tarixi şəxsiyyətlərinə işarə, eyhamları ifadə edilir. Əsərdə real tarixi şəxsiyyərtlər, bədii obrazlar, mifiq qəhrəmanlar iştirak edir, çoxsaylı ölkə və xalqların həyatından alınan hadisələrə münasibət bildirilir, xüsusən Portuqaliya, İspaniya, İtaliya, Hindistan, Türküyənin tarixi keçmişi haqqında ensiklopedik informasiyalar "Qərbi iki dsatanında türk"əsərinin müəllifinin obyektif təhlil mövqeyində dayanmasını təmin edir. Elə buna görə də Ə.Hüseynzadə bildirir ki, "Kamoensin türklərə karşı olan bu xüsumətinin əsbabını anlamaq kolaydır: bir dəfə türklər müsəlmandırlar, onları sevməmək üçün bu kafi! «Lakin T.Tassodan danışarkən Ə.Hüseynzadə mülahizələrini belə ümümiləşdirir». «Kamoensin əsərini bir türk və əlalmum» hər hangi bir müsəlman sinirlənmədən okuyub mütaliə edəməz! Halbu ki, «Xilas edilmiş Qüds» Mühəfriri Torkvato Tasso böylə degildir. Fiəlhəqiqə mərhum türk hekayənəvəsi Ömər Seyfəllədin bir gün bana dedi ki, "Bən hər daim bu əsəri masamın üzərində bulunduruyorum və daima sevə-sevə okuyorum"

[1] Ə.Hüseynzadə "Qərbin iki dastanında türk". Bakı, 1926, s.37-38.

Tasso islamı anladığı və təqdir etdiyi kibi türkü də tanımış və təqdir etmişdir; Çok dəfə onu ərəblə, yunanlı ilə qiyas edər və bunlar çok faiq və pək yüksək bulur: Türk qəhrəmanlarından məsələ Səmərqəndli (Altamore) dən yaxud İznik-Səlçuk hökmdarı Süleymandan bəhs edərkən, bu italyan şairinin hər hanki bir türk şairindən hiç fərqi olmaz.

Aldəmirin, Qüdsün müdafiəsinə getmək üçün, Səmərqənddə gözəl və dilbər zövcəsilə və cocuğu ilə vidalaşması pək məhic, pək müssər bir sürətdə təsvir edilmişdir, Şair pək epik, pək bitərəfdic, Bu kibi mövzulara girişirkən kəndini bir türkün vəziyyətinə koyur və onun ruhunu anlamaq istər, İznik tərəflərində hökümət sürmüş Süleyman bir gözəl mənzumənin qəhrəmanıdır»:[1]

Ə.Hüseyzadə türklüyə rəğbət hissini gizlətməyən həmin poetik fraqmenti tərcümə edərək öz əsərinə daxil edib və xristian şairin obyektiv tarixi qiymətini verməyə çalışıb. Ümimiyyətlə M.F.Axundovla başlayan tarixə tənqidi münasibət ənənəsinin daha da gücləndirilməsində müasirləri ilə birgə ardıcıl fəaliyyət göstərən Ə.Hüseynzadənin "Qərbin iki dastanında türk" əsərində elmi-tənqidi fikirlə bədii-estetik düşüncə vəhdət təşkil edir, xalqın ictimai-mədəni maraqlarını ödəmək, siyasi mühakimə meylllərini müəyyənləşdirmək baxımından ciddi əhəmiyyət daşıyır.

Ə.Hüseynzadə ədəbiyyat və mədəniyyətin tərəqqisi, ictimai-siyasi azadlıqların əldə edilməsi baxımından mətbuatın rolunu yüksək qiymətləndirildi. Onun mövcud şəraitdə mətbuatsız yaşamağın mümkünsüzlüyü barədə fəsəfi mülatizələri ilə bərabər, konkret qəzet və jurnala redaktorluq etməsi, müxtəlif redaksiyalarla, Bakıda yaradılan (1907) jurnalist təşkilatı ilə ardıcıl əlaqə saxlaması deyilənləri təsdiqləyir.

[1] 1.Ə.Hüsynzadə. Qərbin iki dastanında türk Bakı 1926. s.39
2.Yenə orada s.39-40

Ə.Hüseynzadənin mətbu fəaliyyəti və publisistikası sosial-fəlsəfi mühakimə tərzi ilə seçilir, ədibin elmi-nəzəri mülahizə və ümumiləşdirmələri müasirləri tərəfindən yüksək qiymətləndirilir, onun mövcud ictimai-tarixi vəziyyət, fakt və hadisələrə dair şərhləri böyük maraq doğururdu. Ə.Hüseynzadə müasirlərinə mətbuatın ictimai faydalığını dönədönə xatırladır, hər bir publisistdən aydın ideayalılıq tələb edir, yeni ədəbiyyat və mədəniyyət yaradılması yolunda mətbuatın müstəsna əhəmiyyət daşıdığını vurğulayır, qəzeti cəmiyyətin yol göstərəni hesab edərək deyirdi: «Qəzetə insan üçün adətən munis bir yoldaş, xeyirxah bir müəllim, nafe bir məktəb, hətta fərəhəfza xoş bir tamaşaxana kimidir. Zəlalətdə qalanlara doğru yolu, hidayət yolunu göstərir. Lakin, qəzetə sözünü hənuz yeni eşidən və qəzetin nə olduğunu layiqilə bilməyən bizim xəlqdə qərib bir fikir vardır. Bunlar və ələlxüsus içlərində bir az məktəb görüb, yazmaq, oxumaq bilənlər öylə zənn edirlər ki, hər qəzetə faydalıdır və balada te'ədad olunan ovsafi-çameədir. Xeyr! Qəzetə dəxi tutduğu məsləkə görə bir qism xalqın mübtəla olduğu əfyun və bəng kimi müzürr ola bilir. Fikrin sönməsinə, xəsaili-məmduheyi-milliyyə və insaniyyənin məhv olmasına, cavanların qəbləlvəqt fikrən qocalmasına xidmət edən qəzetlər də vardır. Avropa mətbuatının içində nə qədər qərəzkarənə məqalələr nəşr edən qəzetlər mövcuddur!.. Binaənəleyh qarein bir qəzetdən layiqi vəchlə fayda görmək üçün əvvəl əmrdə o qəzetin nə məsləkdə olduğunu, yəni, nə yol tutduğunu bilməsi lazımdır. Çünki, qəzetin əhali üçün nafeya müzürr olmağı o qəzetin ibtidadan tutduğu yola, məsləkə bağlıdır. Məsləksiz, ya məsləkini gizlədən bir qəzet dinsiz, ya din və məzhəbini gizləyən adamlar kimidir. Məslək demək-yol deməkdir». [1]

1905-ci il 17 oktyabr manifesti ilə verilən "Söz və mətbuat azadlığı" ndan səmərəli şəkildə bəhrələnməyi vacib bi-

[1] Ə.Hüseynzadə. Qəzetimizin məsləki "Həyat" qəzeti , 7 iyun 1905-ci il №1.

lən Ə.Hüseynzadə mətbuat haqqında danışarkən onu milli mədəni hərəkatın ən güclü vasitəsi kimi qiymətləndirir, "darülelmlər, darülfünunlar, qiraətxanələr, muzeylər açıldığı" bir zamanda qəzet və jurnalların da təsis olunmasını tələb edirdi. Mətbuatı azadlıq, müstəqillik uğrunda mübarizənin əsas vasitəsi sayan Ə.Hüseynzadə "Qəzetəmizin məsləki", "Qəzetəmizin dili haqqında bir neçə söz", "Yeni rəfiqimiz "Kazan müxbiri" ni təbrik ediriz", "İrşad", "Abdulla Cövdət "İctihad"ı ilə Müsirdə ictihada başlıyor", "Molla Nəsrəddin" və "Dəbistan", "Həyat"ın sənəyi-dövriyyəsi", "Molla Nəsrəddin" ə təşəkkür", "Həyat və meyli-füzuyat" kimi məqalələrində azad sözün, obyektiv fikrin cəmiyyətin formalaşmasında yerini müəyyənləşdirir, çağdaş ədəbi-mədəni həyatın zənginləşməsinə təsirini şərh edirdi.

Əlibəy Hüseynzadə mətbuatı cəmiyyətin aynası hesab etməklə kifayətlənmir, həm də onu təşkil və islah edən mühüm vasitə sayırdı. 1905-1907-ci illər dövründəki ziddiyyətli hadisələrin Azərbaycan ictimaiyyətinə ziyanlı təsirini təəssüf hissi ilə qarşılayan Ə.Hüseynzadə bildirirdi ki, ziddiyyətlər burulğanlarından "Qırmızı qaranlıqlardan" cəmiyyəti xilas etməyin ən mühüm vasitələrindən biri mətbuatdır. Bu mənada mətbuatı və ayrı-ayrı jurnalistləri «Qırmızı qaranlıqlar içində yaşıl işıqlar» adlandıran Əlibəy Hüseynzadə ictimai-siyasi qaranlıqlardan qurtuluş yoluna işarə edərək deyirdi: «Ancaq mənə elə gəliyor ki, qonşularımızın özləri kimi ibtida sərsəm bir halda ayılıb heç bir yol görməyib fövrən və kərəhən qanlı müsadimələrə uğradığımız, daha doğrusu, uğradıldığımız kimi indi də alaca qaranlıqlar arasında sezib kəşf etdiyimiz doğru yolların da biganəsi öz təbirimizlə «nabələdi» bulunuruz. Zənnimcə, bütün hüzn və kədərlərimiz, bütün məyusiyyətimiz bu üzdən təvəllüd ediyor: «Şərqi-rus», «Həyat», «İrşad», «Dəbistan» və sairə kimi qəzetlər çıxıyor, müştəri tapılmıyor, tapılmadığı üçün ya bağlanıyor, ya «İrşad» kimi Əhməd bəyləri şəhər-şəhər, kənd-kənd, qapı-

qapı gəzdirib əhaliyi vəz-nəsihətlərlə iyqaz etməyə, bu surətdə müştəri qeyd etdirməyə məcbur oluyor».[1]

Əlibəy Hüseynzadə mətbuat vasitəsilə qonşu ölkələrdə və dünyada baş verən proseslərə aydınlıq gətirir, xüsusilə Rusiya, İran, Türkiyə və Avropadakı siyasi proseslər haqqında ətraflı məlumat verirdi. Bunun nəticəsidir ki, ədibin rəhbərlik etdiyi «Həyat» və «Kaspi» qəzetlərində, «Füyuzat» jurnalında rus inqilabçı sosialistləri, Türk tənzimatçıları, İran məşrutəçiləri, habelə Avropa və İngiltərə ictimai-siyasi hərəkatları barəsində zəngin məlumat verilir, onların iş və düşüncə təcrübəsi öyrənilirdi. Əlibəy Hüseynzadə mətbuatı dünyanın dərki üsulu və vasitəsi hesab edir, habelə Azərbaycanı dünyaya tanıtmanın ən səmərəli yolu kimi qiymətləndirirdi.

Əlibəy Hüseynzadə mətbuat və jurnalistikanı hər şeydən əvvəl azadlıq, müstəqillik vasitəsi sayır, azadfikirliyin ictimai göstəricisi kimi qiymətləndirirdi. Lakin Ə.Hüseynzadənin elmi əsərləri və ədəbi tənqidi məqalələrində mühafizəkar, «qaraüzlü», irticapərəst, şovinist mövqeli, intriqaçı, qaragüruhçu, «mazipərəst» - köhnəpərəst mətbuat orqanları və jurnalistlər də diqqətdən yayınmır, layiq olduqları tənqidə məruz qalırdılar. Bu mənada ədibin «Siyasəti-fürusət» əsərində də maraqlı mülahizələr yer almaqdadır. Əsərdə Ə.Hüseynzadə «Russkoye znamya», «Novoye vremya», «Doğru söz», «Kaspi», «İrşad», «Füyuzat», «Qolos Moskvı», «Əxtər», «Sur-e İsrafil», «Mücahid», «Həblül-mətin», «Fəryad», «Nidayi-vətən», «Molla Nəsrəddin» kimi mətbuat orqanlarının, Vlas Mixayloviç Doroşeviç, Əhməd Kamal, Ürfi (Mehdibəy Hacinski), Məhəmməd ağa Şahtaxtinski, M.O.Menşikov, Xatisov, P.A.Kruşevan kimi müxtəlif mövqeli jurnalistlərin fəaliyyətinə işıq salır, onların ictimai-tarixi xidmətlərinə istinadən maraqlı mülahizələr söyləyir, mətbuatın hürriyyət, məşrutə, parlament və konstitusiya uğrunda

[1] «Füyuzat» jurnalı, Bakı, «Çaşıoğlu» n., 2006, s.68.

mübarizəsini başlıca vəzifə sayırdı. Rusiyada «həqiqi ruslar» hərəkatını və İrandakı həyat tərzini tənqid edən Ə.Hüseynzadə hər iki ölkədə azad mətbuatın sıxışdırılmasına qarşı çıxır, «Mücahid» qəzetəsi sahibinin fələqqəyə yatırılıb döyüldüyünü görə bildik! Lakin bundan nə çıxar?»[1] – deyərək İranda mətbuata göstərilən təzyiqlərin aradan qaldırılmasını vacib bilirdi. Ə.Hüseynzadə İran mətbuatının və jurnalistikasının Cənubi Azərbaycan əhalisinin taleyinə bağlı olduğunu nəzərə alaraq yalnız ictimai-siyasi problemlərlə kifayətlənmir, həm də yaradıcılıq və sənətkarlıq məsələlərinə ciddi fikir verirdi. «Siyasəti-fürusət»in qəhrəmanlarının, xüsusən Kölgənin dili ilə İran mətbuatı və onun yaradıcılıq səviyyəsini şərh edən Əlibəy Hüseynzadə deyirdi: «Kölgə iddia etdi ki, İran mətbuatı qəlbən hürriyyət və tərəqqi tərəfdarı olmaqla bərabər, elmsizligi, vüqufsuzluğu, bacarıqsızlığı cəhətilə irticapəsəndan üçün o qədər təhlükəli olmayıb, hətta halətləri bunlar üçün bir az təsəllibəxşdir belə.

Çünki bunların yazılarında ülum və fünuna və bilxassə ülumi-iqtisadiyyə; ictimaiyyə və tarixiyyəyə dair məlumat çox az olub, çoxu bağırıb-çağırmadan, fəryaddan, nalə-vü-fəğandan ibarətdir, çox kərrə qəzetələrin adları da buna dəlalət ediyor: «Fəryad», «Suri-İsrafil», «Nidayi-qərran», «Vaveyla», hətta «Yayğıra» namilə dəxi qəzetələrin meydani-intişarə çıxması ehtimaldan bəid deyildir. İranilərin hankı məqalələrini ələ alsanız, mütləq mərsiyəyə bənzəyor.

Cümləsində bir ağlamaq havası vardır. İran mühərrirləri hər nəyə dair yazı yazsalar, mütləq ağlamaq, ya ağlatmağa həvəs ediyorlar, diyorlar ki, «biz ağlamasaq quşlarmı, balıqlarmı halımıza ağlayacaq?! Bunlar «ağlamayan cocuğa məmə verməzlər» zərb-məsələni bir qaideyi-külliyyə ittixaz etmişlər. Lakin atadan-babadan qalma bütün köhnə zərb-məsələlərimiz kibi bu söz dəxi bir intiqadi-səlim qarşısında duramaz.

[1] Ə.Hüseynzadə. Siyasəti-fürusət. Bakı, «Elm» n., 1994, s.48.

Əvvələn, Şərqin üsuli-tərbiyeyi-ətfalə ədəmi-vüqufundandır ki, cocuq ağlamayınca məmə vermiyorlar. Avropalılar məmə verməyi bir qayda təhtinə alıb əsla cocuğun ağlayıb ağlamamasına əhəmiyyət verməzlər. Saniyən, unutmamalıdır ki, bu zərb-məsəldə cocuqdan, yəni tifildən bəhs olunuyor. Yoxsa qəzetə mühərrirləri, ya sair mücahid ictimailəri kimi bığlı-saqqallı qocaman adamlardan bəhs olunmuyor!»[1]

Ə.Hüseynzadə İran mətbuatından danışarkən göstərirdi ki, «Hankı iranlının məqaləsini yoxlasaq başdan-başa klerikalizmə qoxusu gəlir».[2] Ədib məzhəbpərəstlik səbəbindən mətbuatdakı geriliyi, ətalət və cəhaləti tənqid edir, söyüş, təhqir, böhtan söyləmənin dözülməz olduğunu bildirirdi. İran mühərrirlərinin digər bir qüsuru da budur ki, bunlar bir şəxsdən, ya firqədən, yaxud qoca bir heyəti-ictimaiyyədən bəhs edərkən haqlarında ədəbə, ədəbiyyata tamamilə müğayir əlfazi-qəlizə istemalından əsla çəkinmiyorlar. Milyukovu söyməkdə şöhrət qazanmış olan Kölgənin belə həya edəcəyi şu ibarələrə baxınız «İt, qurt»... «Bəsdir, bu qədər namərdlik, ay Təbriz?!...Şahımız yüz min dəfə Qurana and içəndə hərdən bir şuluqluğu tutanda sözündən çevrilər də!» Daha nələr, nələr! Nərədə qaldı Sədinin, Hafizin ədəbiyyatı? Nərədə qaldı Ömər Xəyyamın o nazik, zərif «homuri», şətarətli, müstəhzi nüktələri?[3]

Mətbuatı mədəni-mənəvi tərəqqinin, maarifçiliyin və ictimai mübarizənin qiymətli vasitəsi hesab edən Ə.Hüseynzadə gül və bülbül, mey və məhbub ibarələri ilə ənənəvi lirik qəhrəmanlar yaradan sənətkarları tənqid etdiyi kimi, elm, məktəb, təhsil ibarələrini də «təkərrür» edərək istedadsız yazıları ilə mətbuatı əsas məqsədlərdən yayındıranların əleyhinə çıxırdı. Bu mənada «bəzi rəhbərlərimiz» deyə Həsən

[1] Ə.Hüseynzadə. Siyasəti-fürusət. Bakı, «Elm» n., 1994, s.49.
[2] Yenə orada, s.50.
[3] Yenə orada, s.49.

bəy Zərdabini nəzərdə tutaraq bədii sənəti bütünlükdə məktəb və məktəbdarlığa tabe tutmağa qarşı olsa da, Ə.Hüseynzadə Azərbaycan mətbuatının banisini milli-tarixi xidmətlərinə görə yüksək qiymətləndirirdi. H.Zərdabinin vəfatı münasibəti ilə tərtib edilən matəm mərasimində Ə.Hüseynzadənin nitqi bu fikri əsaslı şəkildə təsdiqləməkdədir. Həmin nitqi 1907-ci il 28 noyabrda söylənən Ə.Hüseynzadə deyirdi: «Mərhum Həsən bəyin gördüyü işlər barəsində, millət yolunda çəkdiyi zəhmətlər xüsusunda məlumat verildi. Mən bunu demək istiyoram, keçmişdə aləmi-islam bir qaranlıq içində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışıyordu, o məşəl nə idi? Əvvəlinci mətbu kəlam idi. Həsən bəy əvvəlinci şəxsdir ki, Qafqaz, bəlkə Rusiya, demək olar ki, bütün dünyada müsəlmanlar içində əvvəlinci türk müsəlmanları qəzetəsi nəşr etmişdir».[1]

Ə.Hüseynzadə bildirirdi ki, o yalnız görkəmli ictimai xadim və şəxsiyyət deyil, həm də ölkədəki bir sıra yeniliklərin, xüsusən də azad söz ideyasının və mətbuatın təsisçisi idi. Ə.Hüseynzadə onun ənənəvi ehkamçı-doqmatik mədəniyyət əleyhinə çıxmasını yüksək qiymətləndirir və göstərirdi ki, H.Zərdabinin «Bizim nəğmələrimiz» adlı milli şərqilər məcmuəsi bu mənada diqqətə layiqdir. O yazırdı: «Biz Qafqaz türklərinin öhdəsində bu adamın artıq haqqı vardır. Çünki bu şəxs bizim üçün dil yaratmışdır. Ədəbiyyata qapı açmışdır. Həsən bəyin belə xidmətləri olmuşdur. Milli mahnılar məcmuəsi belə qayırmışdır ki, o yol ilə cəmaətimiz arasında ehsasi-milliyyəni oyatsın və təbi-şairlə iğaz etsin. Xülasə Həsən bəyin xədəmatı çoxdur. Bu barədə danışıldı».[2]

Ə.Hüseynzadə H.Zərdabinin xidmətlərindən danışarkən onu qədim və orta əsrlərin klassikləri ilə müqayisə edərək göstərirdi ki, bu «mədəniyyət ziyası» vətəni, xalqı və əhalisinə xidmətlərdə bulunan bu dahinin də qiyməti öz za-

[1] İrşad» qəzeti, 2 dekabr 1907-ci il, №122.
[2] Yenə orada.

manında layiqincə verilməmişdir. Ə.Hüseynzadə bu mənada H.Zərdabi ilə Şərqin görkəmli şairi, «Şahnamə» müəllifi Əbüllaqasim Firdovsinin şəxsiyyəti və taleyi arasında paralellik yaradaraq deyirdi: «İndi keçəlim bu zatın gördükləri xidmətlər əvəzində bizim göstərdiyimiz mükafata, İddə (nəticədə) nə görüyoruz? Burada şairi-əzəm Firdovsinin vəfatında edilən hərəkəti müşahidə ediyoruz. O böyük şair, o ədibi-ziqiymət sağlığında çoxlu məşəqqətlər çəkdi, fəlakətlə ruzigar apardı. Axır zamanlarda isə onun həməsri olan Sultan Mahmud onun qədrini, hörmətini düşündü. Bir karvan cavahirat cəmləyib ona yadigar və bəxşiş göndərməli oldu. Cövhərat karvanı Tus şəhərinin məşriq qapısından daxil olanda Firdovsi əleyhirrəhmənin cənazəsi şəhərin məğrib qapısından çıxıyordu.

İştə Həsən bəy də meydani-mühib həyatın məğrib qapısından çıxır. Əcəba məşriqdən gələn nədir? Bu məşriqdən gələn cövhərat karvanı deyildir, ziyayi-mədəniyyətdir gəlir. İştə Həsənbəyin qəlbpərvərdəsi olan mədəniyyət ziyası bizim həyatımıza budur daxil oluyor!!»[1]

Ə.Hüseynzadə dövrünün görkəmli mətbuat xadimləri olan Ə.Ağaoğlu, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Rəsulzadə, N.Nərimanov, Ü.Hacıbəyov kimi şəxsiyyətlərin fəaliyyətini yüksək qiymətləndiir, onların elmi-bədii yaradıcılığı ilə publisistik fəaliyyətini eyni müstəvidə təhlil edir, «mətbuat yolunda mal, pul və can nisar» edənlərin haqq işinə geniş meydan açmağa səsləyirdi. Onun «Mola Nəsrəddin», «Dəbistan», «Həyat», «Kaspi», «İrşad» və sairə haqqındakı mülahizələri deyilənləri təsdiqləyir. «Molla Nəsrəddin»in ümummilli ideallardan çıxış etməsi, satirik ədəbi məktəb yaratmaq təşəbbüslərini ilk olaraq müşahidə edən Ə.Hüseynzadə jurnalın dördüncü nömrəsini mütaliədən sonra onun «ağlar güləyən» xarakterini müəyyənləşdirərək deyirdi: «...yaxşı diqqət edilib dərin bir nəzərlə baxılırsa, görünür ki, bu zəhk və xəndə ancaq zahiri olub, onun təhtində bol-bol axan göz yaşları gizlidir.

[1] «İrşad» qəzeti, 2 dekabr 1907-ci il, №122.

Bu xəndənin üzündən pərdəyi rəf etsəniz, mavərasında ahu zar, giryə və büka görərsiniz!.. Bu Qoqolun, Sviftin, Dikkensin xəndəsidir... Xeyr, bu ürəgi yəs və ələmlə dolu «Mola Nəsrəddin» xəndəsidir.

Qarşımda «Mola Nəsrəddin»in üçüncü nömrəsi duruyor. Bu nömrə qırmızı və mavi rənglərlə müləvvən dörd ədəd gülünc rəsmlərlə müsəvvər və müzəyyəndir. Rəsmlərin dördü də qayət mənidardır. Biri dəraceyi-maarifimizi, biri dəraceyi-təməddünümüzü, biri əhvali-siyasiyyeyi-islamı, biri də nisvani-islamiyyənin vəziyyətini surəti-müstəhziyanədə iraə edər. Bunlardan əhvali-siyasiyyəyi göstərən lövhənin təhtində «sərhəd məsələsi» yerinə «panislamizm» yazılsa idi, daha münasib olurdu – zənn edəriz... Bu növ gülünc şəkillərə məxsus bir istilah bulmaq lazım isə, ya «xatir nigar» vəzninda «xəndənigar», yaxud «zəhrxənd» və «rişxənd» tərkibində «nigarişxənd» demək icab edər...

«Mola Nəsrəddin»in məzahlı məqalələri, lətifələri, həcviyyələri dəxi nigarişxəndələrindən geri qalmayır, böyük bir hünər və istedad ilə yazıldığı aşikardır...»[1]

Ə.Hüseynzadə ədəbiyayt və mətbuatda satirik düşüncənin müdafiəsi ilə kifayətlənmir, bir sıra əsərlərində satirik-sarkastik maneralar nümayiş etdirir, pamfletvari təhkiyəsi ilə fakt və hadisələrin mahiyyətini göstərməyə çalışırdı. O, mətbuat aləmində tənqid və özünütənqidin tərəfdarı kimi tanınır, məqalələrində «Müsadiməyi-əfkardən bariqəyi-həqiqət parlar» fikrini əsas götürür, həqiqətin, doğru sözün qorunmasını vacib bilirdi. Bunu ədibin «İrşad» redaksiyasına məktubunda aydın görmək olar. Orada deyilir: «Əziz məsləkdaşım, sənin 71 nömrəli və 17 mayıs tarixli nömrəndə «Etiraz» sərlövhəli və «Bir müəllim» imzalı şayani-diqqət bir

[1] Ə.Hüseynzadə. «Mola Nəsrəddin» və «Dəbistan». «Həyat» qəzeti, 1906-cı il, №91.

məqalə var idi. Bu məqalə: («Həyat» cəridəsinin doqquzuncu nömrəsini mütaliə edərkən və ilx.) sözləri ilə başladığından, bəni böyük bir zəhmətə düçar etdi. Oturub «Füyuzat»a məqalə yazacaq yerdə bir iki saətimi qayib edib «Həyat»ın birinci və ikinci sənə nömrələrini qarışdırdım. Nə Cabbar Cuqayev imzalı bir məqalə, nə də Sultan Həmidin mədhi sənasına dair bir şey bulamadım. Ertəsi günü heyrətimi və çəkdiyim müşkülatı qələm yoldaşlarına söyləyincə, bunlar gülərək dedilər ki, böylə bir məqalə «Həyat»da degil, «Tazə həyat»da mündəricdir. Binaəniliyyə rica edirəm ki, «Füyuzat»ın anası olan «Həyat»ı «Həyat» və yeni çıxan «Tazə həyatı» da «Tazə həyat» deyə zikr edəsiniz, yoxsa bəni hər dəfə böylə zəhmətlərə düçar etmiş olursunuz...

Ə.Hüseynzadə»

Ədibin haqlı iradı «İrşad» redaksiyası tərəfindən düzgün qarşılanır və təəssüflə bildirilirdi: «Bəyani-etiraz.

Möhtərəm «Füyuzat» rəfiqimizdən üzr istəyib tərəfimizdən əlavə ediyoruz ki, «Tazə həyat» əvəzinə qəzetəmizdə «Həyat» yazılması məhz bir təshih xətasıdır. Biz heç güman etməzdik ki, «Həyat» sütunlarında Cabbar Cuqayev imzalı Sultan Həmidin mədhini mütəzəmmin məqalə olarmış.[1]

Ə.Hüseynzadənin ədəbiyyat və milli mətbuat mühitində tənqidi təfəkkür tipini formalaşdırmaq iddiaları müasirləri tərəfindən daha da gücləndirilir, bütövlükdə füyuzatçılıq konsepsiyasının ictimai-mədəni gerçəkliyə təsirinə meydan açırdı. Ədibin söz və mətbuat uğrunda mübarizəsi, milli müstəqillik və azad vətəndaş cəmiyyəti barədə düşüncələri həmin bədii-estetik konsepsiyasının məntiqi əsasına çevrilir, Azərbaycanda ədəbiyyat, jurnalistika və mətbuatın ictimai-siyasi gerçəkliyi nəinki əks etdirmək, həm də onu yaxşı mənada dəyişdirməyə kömək göstərirdi.

[1] Ə.Hüseynzadə. «Füyuzat»ın «İrşad»a ixtarı. «İrşad» qəzeti, 29 may 1907-ci il, №99.

Ə.Hüseynzadənin yaradıcılığında «Öksüz, yaxud son busə» hekayəsi, lirik şeirlər, bədii tərcümələr də əhəmiyyətli yer tutur. Ə.Hüseynzadənin nəsr sənətkarlığını parlaq şəkildə əks etdirən «Öksüz, yaxud son busə» hekayəsinin mövzusu I Dünya müharibəsi illərinin həqiqətlərinə işıq salır. Əsərin qəhrəmanı Daşdəmir könüllü olaraq müharibəyə gedir, vətəni uğrunda vuruşur, köksündən yaralanır və qızı Altunsaçа məktub yazır, öz vəsiyyətlərini övladına göndərir, az sonra isə dünyasını dəyişir. Hekayənin ideyası da elə həmin məktubda ifadə olunur, «Vətən, Millət, Hürriyyət» idealını seçən Daşdəmirin türk gəncliyinə xitabı, xalqına inamı əsərin aparıcı xəttini təşkil edir. «Türk milləti-nəcibəsinin yüksək himmətli olmasına ümidəm» - deyən Daşdəmir qızı Altunsaçı uğrunda vuruşduğu Vətəni və Millətinə əmanət bilir, ona «türkə yaraşar əxlaq yiyəsi ol, həyanı saxla, canın çıxınca namusuna riayət et» - deyərək həyatla vidalaşır. Hekayədə sentimental ruh hakim olsa da, türklük düşüncəsinin, milli kimlik duyğusunun ifadəsi son dərəcədə güclüdür. Daşdəmirin yaralı halda tanrı qarşısında cavabdehliklə söylədiyi fikirlər bunu bir daha təsdiqləyir. O deyir: «Ey böyük yaradan! Bu ağlamam yaramın ağrısı, ölmək qorxusundan deyil. Zira ağlamaq ərlərin şanına yaraşır şeylərdən olmağı məlumdur. Burasını eyicə düşünür, gözəlcəsinə bilirəm ki, damarlarında cılqa türk qanı olanlar vətən, millət, hürriyyət uğrunda şəhid olurlarsa, cismən fəqət qayib olurlar, ruhən daima yaşayacaqlarına ümidəm. Pürkamaldır. Türkdüyüm bu həsrət yaşı ilə vətənə istədiyim kimi yardım etmədiyimdəndir. Bunu gözəl anlayıram ki, vətənini sevməyən millətini sevməz, millətini sevməyən hürriyyətini də layiqincə anlamaz».[1] Göründüyü kimi hekayədə yüksək vətənpərvərlik hissi nümayiş etdirilir, qızının taleyini «yalnız millətə» etibar edən vətəndaşın möhtəşəm obrazı təqdim olunur.

[1] «Bəsirət» qəzeti, 22 iyul 1917-ci il, №159.

Ə.Hüseynzadənin yaradıcılığında lirik-romantik şeirlər də əhəmiyyətli yer tutur. Onun ilk şeir nümunəsi türklük, turançılıq ideyasını ifadə edən və 1904-cü ildə «Məktubi-məxsusi» məqaləsi ilə birlikdə Misirdə «Türk» qəzetində çap olunan poetik parçadır. Orada deyilir:

«Sizlərsiniz, ey qövmi-macar, bizlərə ixvan,
Əcdadımızın müştərəkən mənşəyi Turan.
Bir dindəyiz biz həpimiz haqqapərəstan,
Mümkünmü ayırsın bizi İncil ilə Quran?
Çingizləri titrətdi bu afaqı sərasər,
Teymurları hökm etdi şahənşahlara yeksər,
Fatehlərinə keçidi bütün kişvəri-qeysər...»[1]

Ə.Hüseynzadənin digər bir mətbu şeiri 1905-1906-cı illərdə «Həyat» qəzetində silsilə şəklində dərc etdirdiyi «Əbdiqlaf və məhfəzə qulu» povestinin sonunda özünə yer tapıb. Şeir Ə.Hüseynzadənin Peterburq və İstanbul dövrü həyatını əks etdirməklə yanaşı, həm də onun milli poeziya ənənələrinə dərindən bələdliyini təzahür etdirir. Şeirdə klassik divan poeziyasının ruhu, heca vəzninin ahəngdar ritmi və obrazlılıq özünü göstərməkdədir. Şair lirik duyğular axarında qürbət acılarını təsvir etməklə məhdudlaşmır, eyni zamanda milləti, vətəni və azadlığının müqəddəratı ilə maraqlanan, onların qayğısını çəkən vətəndaş obrazını yaradır. O deyir:

«Zülmətü şər bulsa da bir dəm zəfər,
Pərtövə hökm etsə də zülmət əgər,
Sönsə də ənvari-kəmali-hünər
Qəm yemə, səbr et, bu da yahu keçər!

Haqqü ədalətdən əsər yoxsa da,
Harisi-qanuni bir ər yoxsa da,
Zülm edənə qarşı sipər yoxsa da
Qəm yemə, səbr et, bu da yahu keçər!

[1] Bax: Ali Heydar Bayat. Alibey Hüseynzade ve Türkiyede yayınldığı eserleri, İstanbul, 1992, s.136.

Millətə, milliyyətə, hürriyyətə,
Aşiq olan uğrasa da möhnətə,
Yari-vətən düşsə də gər qürbətə,
Qəm yemə, səbr et, bu da yahu keçər».[1]

Ə.Hüseynzadənin poetik axtarışlarında forma, vəzn, qafiyə elementlərindən daha çox məna, məzmun və ideyalar maraq doğurur. Onun sülh, bərabərlik, qardaşlıq, azadlıq, humanizm barədə poetik düşüncələri deyilənlərə parlaq sübutdur. Onun 1905-ci il erməni-müsəlman münaqişəsi dövründə yazdığı «Sahibi-«Tüluat»ın bir mənzuməsinə nəzirədir» başlıqlı şeirində nəqarat olan «Arkadaşlar sülh edin, sülh etmənin həngamıdır» misrası bu baxımdan diqqətəlayiqdir. Şairin «Hali-vətən» şeirini isə bir tək onun yaradıcılığında deyil, bütövlükdə Azərbaycan poeziyasında müstəsna əhəmiyyətə malikdir. İlk dəfə 1906-cı ildə «Dəbistan» jurnalında (1906, №16, s.12) dərc olunan bu şeir sonralar Azərbaycan və Türkiyənin müxtəlif mətbuat orqanlarında işıq üzü görüb. Ə.Hüseynzadənin vətəndaşlıq mövqeyi və bədii-fəlsəfi düşüncə istiqamətini işıqlandıran şeirdə deyilir:

Ucundadır dilimin
Həqiqətin böyüyü.
Nə qoydular deyəyim,
Nə kəsdilər dilimi.

Bilirmisən cühəla
Nə etdilər vətənə?!
Nə qoydular uyuya,
Nə qoydular oyana!

[1] «Həyat» qəzeti, 1906, №99.

Durur belə hərəkət,
Rəvamı bir diriyə?
Nə getmədə iləri,
Nə dönmədə geriyə!

Ədu qırar qapıyı,
Biz evdə bixəbəriz,
Nə başqa-başqa deriz
Nə ittihad edəriz.

Ayıltmadı qələmim,
Şu türk ilə əcəmi,
Nə qoydular yazayım,
Nə qırdılar qələmi!»[1]

«Turani» (Türk) imzası ilə çap olunan bu şeir sonralar ədəbi-elmi ictimaiyyətin böyük rəğbətinə səbəb olduğundan mətnə kiçik dəyişmələr edilərək dəfələrlə nəşr olunub. Şeirin populyarlığına səbəb onun mövzu və ideyası, yəni Azərbaycanın və ümumtürk dünyasının birliyi ideyası ilə yanaşı, həm də onun bayatı poetikası ilə yazılması və canlı xalq danışıq dili üslubunda olması ilə bağlı idi. Müxtəlif variantlarda nəşr olunsa da Ə.Hüseynzadənin «türklərin birliyi və bərabərliyi» ideyasını əks etdirən bu şeirin «Türk yurdu» jurnalındakı nümunəsi leksik tərkib baxımından qismən fərqlənir. Burada 3-cü bəndin birinci misrası «Böylə durmaq, uyumaq» şəklində verilib. Dördüncü bənd isə belədir:

Düşmən qırar qapıyı,
Biz içərdə qayğusuz
Nə özləri ayırır,
Nə bir evli oluruz.[2]

[1] «Dəbistan» jurnalı, 1906-cı il, 1916, s.12.
[2] Ə.Hüseynzadə. Yurd qayğusu. «Türk yurdu» jurnalı, 17 təşrini-əvvəl, 1328, №1, s.2.

Lirik-psixoloji tutumu, obrazlılığı, sadə dili və aydın məntiqi, birləşdirici ideyası ilə diqqəti cəlb edən bu şeir Ə.Hüseynzadənin poetik axtarış və ideya-siyasi düşüncə istiqamətini işıqlandıran mükəmməl bədii sənət nümunəsidir.

Ə.Hüseynzadənin bu və digər şeirlərində ideya, mövzu, bədii ifadə, obraz yeniliyi ilə yanaşı klassik əruz vəzni ilə aşıq şeiri üslubunun, heca vəzninin sintezi də açıq-aydın görülməkdədir. Bu isə XX əsr Azərbaycan şeirinin yalnız forma imkanlarını deyil, həm də obrazlar qalereyasını, ideoloji-siyasi motivlərini zənginləşdirməyə, bədii-estetik şüurda və ictimai-mədəni həyatda islahatlara təsir göstərirdi.

Azərbaycan ədəbiyyatı və mədəniyyətinin M.F.Axundovdan sonra yeni istiqamətdə inkişafına Ə.Hüseynzadənin göstərdiyi təsir inkaredilməz olmaqla, onun həm də klassik Şərq ənənələrinə, qədim mədəni irsimizə sədaqəti də təqdirəlayiqdir. O iki regional mədəniyyətin qarşılıqlı zənginləşməsi və bu əsasda Şərqdə bəşər mədəniyyətinin inkişafında yeni bir epoxanın yaranması ehtimalını irəli sürmüşdür. O, türk-islam xalqlarının Qərb mədəniyyətinə və sivilizasiya nailiyyətlərinə yiyələnməklə bərabər, öz mənəvi-ruhi, dini-etnik əsaslarından ayrılmaması ideyasını müdafiə və təbliğ etmişdir. Buna görə də, Ə.Hüseynzadə tərəfindən yeni-avropatipli mədəniyyətin təbliği birtərəfli xarakter daşımamış və bu cəhətdən o, öz sələfi M.Axundovdan da qabağa getmişdir. Digər tərəfdən, öz müasirlərindən fərqli olaraq lap əvvəldən Qərb mədəniyyətinə və sivilzasiyasına münasibətdə illüziyalara qapılmamış, ona tənqidi yanaşa bilmişdir.

Ə.Hüseynzadə öz tərcümələri, tənqidi məqalə və oçerkləri, publisist məqalələri ilə Avropatipli mədəniyyətin təbliğində, intişarında o dövrdə hər kəsdən artıq iş görmüş, ədəbi fəaliyyətinin əsas istiqamətini buna yönəltmişdir. Onun tərəfindən dahi alman şairi və mütəfəkkiri İ.V.Hötenin «Faust» əsərinin tərcümə edilməsi (bu Qərb ədəbiyatından dilimizə orijinaldan ilk bədii tərcümədir) dövrün ədəbi mühitində

mühüm bir təbəddülat yaratmış, bir sıra ziyalılarımızın yaradıcılığında möhkəm iz buraxmışdır.

Dünya ədəbiyyatı və mədəniyyətinə dərindən bələd olan Ə.Hüseynzadə Avropanın intibah dövrü ədəbiyyatına, «azadlıq, bərabərlik, qardaşlıq» ideyası ilə böyük rəğbət doğuran romantizm nümunələrinə ardıcıl maraq göstərir. İ.V.Höte A.Dante, Virgili, C.Bayron, H. Heyne, C.Milton, F.Şiller, V.Şekspir, A.P.Çexov, A.Smit və başqalarından tərcümələr edir, onlara nəzirələr yazır, yaxud da həmin klassiklərin bu və ya digər əsərindən faydalanaraq öz fikirlərini daha dəqiq, mükəmməl ifadə üçün ayrı-ayrı süjet, hikmətli söz, obraz, ideya, mövzu və hadisələrə istinad edirdi. Bu baxımdan ədibin istənilən əsəri tədqiqat üçün gen-bol material verir. Onun «Faust»dan başqa, «Kəfalət, yaxud vəfəkar dostlar» (F.Şiller),»Sərvəti-miləl» (A.Smit), « Troya pərisinin hekayəsi» (Homer), «Cənnəti-qaibə» (C.Milton), «Bir nəğmə» (H.Heyne), «Troyanın son gecəsi» (Virgili) kimi tərcümələrindən başqa, rus klassiklərindən etdiyi tərcümələr də mövcuddur.

Ə.Hüseynzadə tərcümə fəaliyyətində də azadlıq, demokratiya, müstəqillik mövqeyindən çıxış edir, mütləqiyyətin, istibdadın əleyhdarı kimi tanınırdı. Bu mənada görkəmli türk şairi Abdulla Cövdətin tərcümələrini yüksək qiymətləndirən Ə.Hüseynzadə deyirdi: «Bu gün türkcədən başqa dil bilməyənlər dəxi Lord Bayron kimi müəzzəm bir ingilis şairinin asari-hürriyyətpərvəranəsindən, müstəfiz və zövqiyab ola biləcəklər».[1]

Ə.Hüseynzadə əsarət və istibdadı tənqid edərkən rus, Avropa klassiklərinə üz tutur, onların əsərlərindəki azadlıq ideyasını Şərqin M.C.Rumi, N.Gəncəvi, H.Şirazi, Sədi, Ə.Firdovsi, F.Əttar və başqaları ilə uzlaşdıraraq şərh edirdi. Bu zaman hər şeydən əvvəl millətlərin öz müqəddəratını tə-

[1] Ə.Hüseynzadə. İngilis əşarı türk dilində və yaxud «Şilyon məhbusu» «Həyat» qəzeti, 1906-cı il, № 68

yin etməsi, müstəmləkəçilikdən qurtuluş, zülm və əsarətin aradan qaldırılması əsas götürülürdü. «Şilyon məhbusu» barədə sosial-fəlsəfi düşüncələrə üstünlük verən Ə.Hüseynzadə bədii tərcümədən istifadə edərək siyasi məqsədlərin də ön plana çəkilməsinə mühüm əhəmiyyət verirdi. «Şilyon məhbusu» Bonivarın dili ilə söylənən azadlıq barədə fikirlər buna parlaq misaldır. Orada deyilir: «Ey zəncirlərin zəbt və təqyid edəmədiyi dühayi-əbədi ruh, ey hürriyyət! Sənin rövnəq və cəlalın zindanlarda daha müşəşədir. Könüldən yapılmış olan aramgahını orada bünyad edirsən... Sənin məhəbbətindən başqa heç bir şey o könülləri müqəyyəd qılamaz. Aşiqlərin zəncirində olduqları və bir məhbəsin rütubətli zülmətinə müstəqrət bulunduqları zaman vətənləri onların fədakarlıqları sayəsində məzhəri-zəfər olur və tairi-isteqlal hər ruzigardan qanad istearə edər».[1]

Ə.Hüseynzadənin C.Svift, Ç.Dikkens A.S.Puşkin, L.Tolstoy, M.Y.Qoqol, A.P.Çexov, Turgenev, İbsen, N.Kamal, T.Fikrət, Ə.Namiq kimi dünya ədəbiyyatı klassiklərinin əsərlərinə müraciət etməsi də onların azad ruhunun ifadəsi ilə bilavasitə bağlıdır. Ə.Hüseynzadə öz tərcümələri və məqalələri ilə dünya ədəbiyyatının sadəcə bədii-estetik özəlliklərini təbliğ etməklə kifayətlənmir, həm də onların ictimai dəyərinə diqqət yönəldir, sosial-mədəni faydasını nəzərə çatdırırdı.

[1] Ə.Hüseynzadə. İngilis əşarı türk dilində, yaxud «Şilyon məhbusu, «Həyat» qəzeti, 1906-cı il № 69

ƏLİBƏY HÜSEYNZADƏ VƏ FÜYUZATÇILIQ

XIX** əsrin ikinci yarısında (1864-cü il 24 fevral, Salyan şəhəri) Ə.Hüseynzadə dünyaya gələndə Azərbaycanda ictimai-mədəni düşüncə epiqonçu ənənələr əsasında davam edirdi. Ölkədə çarizmin monarxist idarə üsulu hökm sürür, kəndlərdə təhkimçilik hüququ öz təsirini hələ də göstərir, ümumxalq təfəkküründə «zillüllah» (padşahı allahın kölgəsi saymaq) fəsfəsəsi əsaslı yer tuturdu. Ə.Hüseynzadə Tiflisə babası Qafqaz şeyxülislamı Axund Əhməd Səlyaninin yanına gedib orada gimnaziya tələbəsi olanda da (1875-1885) ictimai-mədəni şüurun səviyyəsi təxminən belə idi. Doğrudur «az-az ayılanlar» (C.Məmmədquluzadə) var idisə, yenə də «xabi-qəflət qaranlığında allahü əkbər» sədasından başqa bir şey eşidilmirdi. Belə bir vaxtda Tiflisdə Şərqin maarifçi-materialist filosofu, dünyəvi elmlərə böyük rəğbət bəsləyən mütəfəkkir M.F.Axundov şəxsiyyəti ilə babasının məclislərində tanış olan Ə.Hüseynzadə təbiət elmlərinə böyük maraq göstərməyə başladı və bu həvəs onu Sankt-Peterburq universitetinin fizika və təbiət fakültəsinə (1885) gətirdi. Bir müddət burada dövrün məşhur elm adamlarından, o cümlədən Mendeliyev, Baqner, Menşutkin, Jukovsksi və başqalarından dərs alan Ə.Hüseynzadə imperiyanın paytaxtında gedən ictimai-siyasi proseslərlə də yaxından tanış olur, «xalqçılar» hərəkatına rəğbət bəsləyir və nəhayətdə bir sıra inqilabçı tələbələr kimi o da Sankt-Peterburqdan uzaqlaşmaq məcburiyyətində qalır...

Ə.Hüseynzadə İstanbula gəlir və burada darülfünunda «Əsgəri-tibbiyyə» fakültəsində oxumaqla dermotoloq (dəri zöhrəvi xəstəlikləri) ixtisası və yüzbaşı hərbi rütbəsi qazanır. 1897-ci ildə o «Qırmızı ay» heyətinin tərkibində İtaliyaya gedir, üç il sonra geri qayıdır və müsabiqə yolu ilə İstanbul darülfünunda əsgəri-tibb fakültəsində professor köməkçisi

olur. Ə.Hüseynzadə burada da təqib olunur, çünki o darülfunun tələbəsi ikən artıq inqilabçı gənc türklər hərəkatına qoşulmuş, onlar üzərində «bir rəsuli-həqq» – peyğəmbər (Abdulla Cövdət təsiri buraxmış və «İttihat və tərəqqi» partiyasının ilk özəyini yaradanlardan biri olmuşdu.

Ə.Hüseynzadə tələbəlikdən ayrılıb müstəqil həyata başlayanda artıq yetkin bir fikir adamı idi. Türkiyədəki təqiblərdən sonra vətəni Azərbaycana qayıdan Ə.Hüseynzadə «Kaspi» qəzeti ilə əməkdaşlığa başlayır, bir sıra publisistik yazılarını burada dərc etdirir və «Gənc türkçülük nədir?» adlı məqaləsi ilə türk tənzimat hərəkatının mahiyyətini şərh edir. Ə.Hüseynzadə bu zaman artıq yeni ampulada çıxış edir, islahatçı-reformist ideya adamı kimi tanınmağa başlayırdı. Az sonra o dövrünün məşhur teoloq-alimi, ictimai xadim və publisisti Əhmədbəy Ağaoğlu ilə birlikdə və milyonçu Hacı Zeynalabdin Tağıyevin maliyyəsi ilə «Həyat» qəzetinin nəşrinə başlayır. Bu qəzet Ə.Hüseynzadəni Azərbaycana «ağır başlı» filosof, «sədrə şəfa verən» sözlər (ağla qida verən sözlər) söyləyən mütəfəkkir kimi tanıdır və burada əsərlərini dərc etdirməklə ictimai-mədəni mühitə yeni abhava gətirir, ümumxalq dünyagörüşünün məntiqi əsaslarını yeni prinsiplərlə zənginləşdirməyə çalışır. Ə.Hüseynzadənin fəlsəfi mühakimələri bu mənada maraqlıdır. Məsələn o deyirdi:

– Həqiqətin də dadı və ləzzəti var.

– Hürriyyət!... O nə qüvvədir ki, zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını sövq ediyor!...

– Qalib olmaq o camaatındır ki, həyata açıq göz ilə nəzər edər, zəmanənin ruhunu, icabatını anlar, dərk edər...

– Türklər ya ölkələr, ya hicrət edərlər, fəqət qul olmazlar.

– Hər kəsə ki, uşaqlıqda ədəb və tərbiyə verilməsə, böyüklükdə onun nicatı olamaz. Yaş ağacı hər tövr istəsən əy-

mək mümkündür, lakin quru ağacı ancaq od ilə düzəltmək mümkün olur...

Ə.Hüseynzadənin Azərbaycan ictimai-mədəni həyatı və milli jurnalistika tarixindəki xidmətlərindən ən çox diqqəti cəlb edəni onun ardıcıl olaraq söz və mətbuat azadlığı uğrunda mübarizə aparmasıdır. Ədəbi-tənqidi və publisistik məqalələri, şeirləri, bədii nəsri və siyasi-fəlsəfi pamfletində Ə.Hüseynzadə azadlığı-hürriyyəti obrazlı şəkildə təqdim edir, azad sözü «pəriyi-hürriyyət» (azadlıq mələyi) adlandırır və onu «Kuhi-Qaf və Simurq quşu» məqaləsində Qaf dağlarına zəncirlə bağlanmış məşhur «od oğrusu» Prometeyə bənzədirdi. Azad sözün cəmiyyətdə varlığını Prometeyin odu, işığı ilə müqayisə edən Ə.Hüseynzadə 1905-1907-ci illərdə Azərbaycanda mətbuat və fikir azadlığının cəfakeşlərindən biri, milli ziyalılıq simvolu idi. Elə buna görədir ki, o müasirlərinə hər bir insanın «baş tacı olan» azadlığın mahiyyətini anladır və deyirdi:

«Hürriyyəti-vicdanın mənası budur ki, hər kəs hər hansı etiqad və əfkarda bulunmaqda hürr və azaddır. Kimsənin, nə hökumətin və nə də bir fərdin etiqad və əfkarından naşı bir kimsəyə təcavüz etməyə haqqı yoxdur. **Hürriyyəti-kəlamə** gəlincə hər kəs etiqad və əfkarını aşkar surətdə söyləyib yazmaqda muxtardır». (Mövlude-nəbi «Füyuzat» jurnalı, 1907-ci il, №25) XX əsrin əvvəllərində ictimai-siyasi fikrin təşkili və tənzimlənməsində, informasiya mühitinin formalaşmasında milli mətbuat nümunələri əhəmiyyətli rol oynayıb. Jurnalistikanın ictimai fikir tribunasına çevrilməsi də həmin tarixi mərhələnin məhsuludur. «Füyuzat» jurnalı və onun redaksiya heyətinin xidmətləri bu mənada diqqətəlayiqdir. Çünki onlar yalnız bir jurnal nümunəsi nəşr etməklə məhdudlaşmadılar, füyuzatçılıq xətti-hərəkatını, «Füyuzat» jurnalistikası məktəbini yaratmaqla tarix səhifələrinə öz imzalarını həkk etdilər.

«Füyuzat» jurnalının 1-ci nömrəsi 1906-cı il noyabrın 1-də nəşr olunub. Jurnalın sponsoru maarifpərvər, milyonçu-messenat Hacı Zeynalabdin Tağıyev idi. «Füyuzat» kəlməsi mənşəcə ərəb sözü olub lüğəvi mənası həyat gerçəklərini duymaq, dərk etmək, onlardan həzz almaq, zövq almaq, fəyz almaq, feyziyab olmaqdır. Jurnalın səhifələrində onun baş redaktoru Əlibəy Hüseynzadə ilə birgə Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səid Səlmasi, Abdulla Şaiq, Əhməd Kamal, Əhməd Raiq kimi onlarla müəllifin müxtəlif mövzulu yazıları dərc edilirdi. Jurnal Azərbaycanda ***neoromantizmi*** yaradan mətbuat orqanı kimi xarakterizə olunur. «Füyuzat»da Əlibəy Hüseynzadənin yazdığı məqalələrdən birində deyilirdi: «Bizə fədai lazımdır! Türk hissiyyatlı, islam etiqadlı, avropa (müasir) qiyafəli fədai!». Bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və «Tazə həyat», «İrşad», «Yeni füyuzat», «Həqiqət», «Tərəqqi», «İqbal», «Sədayi-həqq», «Şəlalə», «Açıq söz», «Bəsirət», «Qurtuluş», «Dirilik», «Azərbaycan», «Övraqi-nəfisə» və s. mətbuat orqanları tərəfindən ***«türkləşmək, islamlaşmaq, müasirləşmək» = azərbaycançılıq*** şəklində formulə edilərək təbliğ olundu. Azərbaycan Xaq Cümhuriyyəti dövründə dövlət bayrağında üç rənglə (mavi, qırmızı, yaşıl) simvollaşan Azərbaycan vətəndaşının ideya-mənəvi dəyərləri Əlibəy Hüseynzadənin həmin tezisi və füyuzatçıların tarixi xidmətləri ilə bağlıdır.

«Füyuzat» jurnalı ***füyuzatçılıq jurnalistika məktəbindən*** əlavə, Azərbaycanda müstəqil dövlətçilik ideyasını, konstitusiyalı azad vətəndaş cəmiyyətini yaratmaqda mühüm rol oynadı.

Çar Rusiyasının monarxizmi və müstəmləkəçilik əleyhinə mübarizə aparan «Füyuzat»çılar rus inqilabçı-demokratları, türk tənzimatçıları, İran məşrutəçiləri və başqalarının yeni cəmiyyət quruculuğu təcrübəsindən istifadə edir, Azərbaycanda ***demokratizmin*** qələbəsinə çalışır, ictimai hə-

yatda, milli ədəbiyyat və mədəniyyətdə ***islahatların-reformaların*** aparılmasını məqsəd bilirdi. Bu mənada «Füyuzat» və füyuzatçıların məşğul olduğu əsas problemləri qısa şəkildə belə təsnif etmək olar;

– türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək) = ***Azərbaycançılıq***

— Demokratik axtarışlar

– Neoromantik ədəbiyyatın yaradılması

– Füyuzatçı jurnalistika məktəbinin təsisi

– Dildə, fikirdə, işdə birlik konsepsiyasına əsaslanan ortaq türk dili,

ədəbiyyatı və mədəniyyətinin yaradılması.

– «İttihad və tərəqqi» ideyasını yürütmək və Turançılığı təbliğ etmək.

– İctimai-siyasi şüurda reformaların aparılması, parlament və konstitusiya əsasında özünüidarə formasının yaradılması.

– Yenilikçilik - «təcəddüdçülük» hərəkatını gücləndirmək və bu əsasda dünyəvi məkğəbdarlıq işini həyata keçirmək.

– Söz və mətbuat azadlığını müstəqil dövlət, sivil cəmiyyət və bütöv vətən ideyasına paralel şəkildə inkişaf etdirmək və sair.

«Füyuzat» və füyuzatçıların milli-tarixi və ictimai-siyasi xidmətləri sırasında onu da ayrıca qeyd etmək vacibdir ki, onlar ənənəvi epiqon-birtipli düşüncə tipindən imtina edir, yalnız «köhnə müsəlman» (M.Ə.Sabir) olaraq qalmır, Şərq və Qərb elmi-nəzəri fikri, ədəbiyyat və mədəniyyətləri arasında sərhədlər çəkmir, əksinə onların dialoquna meydan açırdılar. Bu və digər səbəblərdəndir ki. Ə.Hüseynzadənin irsi və onun formalaşdırdığı füyuzatçılıq hərəkatının tarixi təcrübəsi indiki dünyaya inteqrasiya zamanında mühüm aktuallıq kəsb edir.

"Füzuyat" jurnalının 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, BDU nəşriyyatı, 2007, c.6-11

«HƏYAT»DAN BAŞLANAN YOL

Azərbaycanın ictimai-mədəni həyatında elə hadisələr var ki, onların baş verməsi xalqın tale həqiqətləri kimi qiymətləndirilib və bunlar yaddaş materialına çevrilərək milli-mənəvi enerjinin güclənməsinə səbəb olub. Klassik Azərbaycan mətbuatı nümunələrinin varlığı bu fikri əsaslı şəkildə təsdiqləyir. Bütün XIX əsr boyunca və XX əsrin əvvəllərində özünüdərk, özünütəşkil və özünütəsdiq mərhələlərindən keçən Azərbaycan xalqı bu ümummilli vəzifələrin yerinə yetirilməsində mətbuatın roluna mühüm əhəmiyyət verib. Bu mənada «Həyat» qəzetinin nəşri tarixi və ictimai-mədəni mövqeyi, müəlliflər heyəti və onların ideya-siyasi fəaliyyəti ciddi aktuallıq kəsb edir. Qəzet Bakıda «Kaspi» mətbəəsində nəşrə başlayıb. Azərbaycan dilində nəşr olunan («Şərqi-Rus»dan sonra) «Həyat» qəzetinin ilk nömrəsi 1905-ci il iyunun 7-də, sonuncu nömrəsi isə sentyabrın 3-də çapdan çıxmışdır. Qəzetin cəmi 325 nömrəsi işıq üzü görüb. «Həyat» məşhur milyonçu-messenat Hacı Zeynalabdin Tağıyevin sponsorluğu, Əlimərdan bəy Topçubaşovun naşirliyi, Əlibəy Hüseynzadə və Əhmədbəy Ağaoğlunun redaktorluğu ilə nəşrə başlayıb. Lakin 102-ci nömrədən sonra Ə.Ağaoğlu qəzetdən ayrılıb və Ə.Hüseynzadə qəzetin redaktoru kimi tək fəaliyyət göstərib. Az sonra Ə.Ağaoğlu «İrşad» qəzetinin (1-ci nömrə 1905-ci il 17 dekabrda çıxıb) nəşrinə başlayır və bu XX əsrin əvvəllərində 3-cü Azərbaycandilli qəzet olur. Elə buradaca xatırlamaq lazımdır ki, Ə.Ağaoğlu «Həyat»da islam modernisti, mütəfəkkir-filosof kimi tanınırdı və «Əmir-əl-Möminin Əli ibn Əbu Talib

həzrətlərinin vəfatı» adlı yazı onun bu qəzetdəki son məqaləsidir.

«Həyat» qəzeti elə bir zamanda nəşrə başlamışdı ki, Azərbaycanda Cəlil Məmmədquluzadənin xatırladığı bir qaranlıq dünya vardı və bir də orada eşidilən ən uca səs «Allahu-Əkbər» səsası idi. Belə bir vaxtda «Həyat» öz məsləkini elan edir və birinci nömrədə bildirirdi ki, biz vətəndaşlarımıza «həyatın mənayi-həqiqisi nədir?» sualını anladacağıq. Sonralar «Həyat»ın davamı kimi «Füyuzat»ı nəşrə başlayan Ə.Hüseynzadə «Həyat»ın tutduğu yolu şərh edərək yazırdı:

«Məcmuəmizə «Füyuzat» adı əlaltəsadüf verilmiyor. Bu nam «Həyat»dan təbii olaraq təvəllüd ediyor. Həyatın mənası, mənayi-həqiqisi nədir?... «Həyat» qəzetsəinin birinci nömrəsində «Qəzetəmizin məsləki» ünvanilə bir məqalə vardır. O məqalədə bir vəcə aci mətləbədə bulunmuş idik: «Məsləkimiz qəzetəmizin adından da istedal oluna biləcəyi vəchilə həyatın mənayi-həqiqəsinə xidmətdir. Həyat isə mənən, fikrən və maddətən daimi bir hərəkətdən, bir fəaliyyətdən, cismani və ruhani bir nəşvü-nümadan, bizi bir dürri-kəmala yaxınlaşdıran mütəmadi bir nəşvü-nümadən ibarətdir»... Digər tərəfdən məlumdur ki, dünya və həyat bir meydani-cəngdir. Bütün zühəyat daima yekdigərləri ilə rəqabət və mühiti-təbiyyələri ilə mübarizədə bulunur. İştə qəzetəmizin əsl vəzifəsi bu cəhətdədir».

Bu sözlərə gözəl diqqət edilirsə görülür ki, burada həyat bir dərəcəyə qədər tərif edilmiş isə də lakin, «həyatın mənayi-həqiqisi nədir?» sualı cavabsız qalmışdır. Hərəkət, fəaliyyət, rəqabət, mübarizə nə üçündür? Nəşvü-nüma, dürri-kəmal nəyə lazımdır? Həyatın mənayi-həqiqisi nədir?...

Pək hükəma və üdəba bu xüsusda zehinlərini yormuşdur.Bizə qalırsa həyatın mənayi-həqiqisi meyli-füyuzatdır!...

Sözümüzə diqqət buyurulsun: «Həyat füyuzatdır» – demiyoruz, «Həyat meyli-füyuzatdır» – diyoruz!.. Təbiri-axərlə həyat füyuzatü vicdaniyyəyə meyl arzusudur. Həyatın övsafından olan bütün mücahidat və mübarizatımız bu şövqü-mənəvinin sövqi ilə vüquə gəlməkdədir» («Füyuzat», 1906, № 1).

Göründüyü kimi Əlibəy Hüseynzadə müasirlərinə «Həyatın mənayi-həqiqisi»ni anladırkən onun «meyli-Füyuzat» olduğunu bildirir və fəaliyyət, mübarizə, mücahidlik yolunu tutmağı tövsiyyə edirdi. Bəs, Əlibəy Hüseynzadənin və «Həyat»çıların mübarizə və mücadiləsi nə uğrunda idi? Heç şübhəsiz ki, hər şeydən əvvəl «azadlıq, bərabərlik, qardaşlıq» cəmiyyəti uğrunda mübarizə aparırdı «Həyat»ın mühərrirləri, qələm fədailəri. Həmin cəmiyyəti qurmaq üçün «Həyat»dan «Füyuzat» doğulurdu XX əsrin əvvəllərində, o yolu tutmaq, davam etmək üçün...

Məhz həmin yolu tutduğuna görədir ki, sovet dövründə ictimai fənn sahəsində çalışan marksist-leninçi materialist metoda istinad edənlərin demək olar ki, hamısı (bəzi müəlliflər istisnadır) «Həyat»ın pantürkist, panislamist, kosmonolit, mühafizəkar, milli-mürtəce, burjua və bu kimi ideyaları təbliğ etməsini «əsaslandırmağa» çalışmışlar. Bu ona görə edilirdi ki, «Həyat»ın inqilabi-demokratik ideyaları, milli müstəqillik-istiqlal arzularını, müstəqil dövlət, vətən uğrunda mübarizəni və s. ardıcıl təbliğ etməsi SSRİ-nin sovetoloji prinsipləri və kommunist ideologiyası ilə üst-üstə düşmürdü.

«Həyat» qəzeti nəşrə başladığı gündən dövrün ən ciddi ictimai-mədəni problemlərinə toxunur, həyatdan

doğan ideyaları tərənnüm edir, tarix, yaddaş, millət, dil, din, vətənə bağlı məsələlərin şərhini məqsəd bilirdi. Bu istiqamətdə H.Zərdabi, N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, S.M.Qənizadə, A.Sur, Ü.Hacıbəyli, M.Ə.Sabir, M.Hadi, F.Köçərli, H.S.Ayvazov, A.Əbuturab, Y.Z.Talıbzadə və onlarla başqalarının «Həyat»dakı fəaliyyəti xüsusilə diqqətəlayiqdir. H.Zərdabinin elmi biliklərə, Ə.Ağaoğlunun din tarixinə, islam mədəniyyətinə, F.Köçərli, A.Şaiq və A.Səhhətin klassik ədəbi irsə və çağdaş prosesə dair məqalələri, habelə adı çəkilən və çəkilməyən müəlliflərin bədii əsərləri, hekayə, povest, şer və felyetonları bu mənada maraq doğurur. Qəzetin **gündəlik** çıxması, **ictimai-siyasi, iqtisadi və ədəbi** yön götürməsi imkan verirdi ki, müəlliflər mövcud vəziyyətə dair konseptual yazılarla çıxış etsin, ən ciddi ictimai-siyasi mövzulara əl ata bilsinlər. «Həftə fəryadı» rubrikasında «Nər»» imzası ilə ardıcıl çıxış edən Nəriman Nərimanovun məqalələrinə baxmaq yetərlidir ki, «Həyat»ın ictimai-tarixi və analitik mövqeyi barədə təəssürat əldə edilsin. Qəzetin əsas vəzifələri sırasında Azərbaycan xalqının tarixi taleyinə aydınlıq gətirmək mühüm yer tuturdu. Həmin vəzifədən çıxış edən Əhmədbəy Ağaoğlu müasirlərinin mövqeyini açıqlayaraq məqalələrindən birində deyirdi:

«Pəs hər öz millətinin qeydinə qalan, hər bu qədər kəndlərimizdə, şəhərlərimizdə müsəlman qarındaşlarımızın firqə-firqə olub öz-özlərinin sərənkuluğuna, bədbəxtliyinə, pəsmandalığına səbəb olan inqiraqı götürmək fikrinə düşən sahibi-qələmimiz, ərbabi-əql və zəkamız gərək bu qədər əzim və mühüm vaqiəni hər tərəfdən bədun mülahizeyi-məfhiss edib, haqqı nahaqdan seçib əsl işi meydana atsın. Ancaq bu vasitə ilə bu bizim evimizi yıxan, dünyavü axirətdən

məhrum edən təfriqəni məhv edə bilərik. Həqiqətdən qorxmamalı, onu aşkar və doğru söyləməli, ancaq bu həqiqət və doğrunun vasitəsilə bizim gözümüz açılacaq! Ancaq onların köməgilə əvam-əl-nasın başından bəzi övhamat və xəyalatı çıxarıb əvəzinə haqqı yerləşdirmək olar: eylə ki, cümlə xəlq haqqı nahaqdan seçib, cümlə həqqə iqrar edib nahaqqı tulladılar, cümlə yegrəng olub, yek dil, yek cəhət bir yola düşəllər» (Əhməd bəy Ağayev. Əmir-əl-möminin Əli ibn Əbu Talib həzrətlərinin vəfatı. «Həyat» qəzeti, 9 noyabr 1905-ci il № 98). Göründüyü kimi qəzetdə yeni təfəkkür tərzi müdafiə olunur, xalqın «yekdil, yekcəhət bir yola düşməsi» arzulanır, milli mentalitetdə özünə yer tutan arxaik ənənələrin – ehkam və doqmaların tənqidi əsas götürülür, «övhamat və xəyalat» əvəzinə haqq, ədalət istənilirdi. Gerçək həyatda bunların təntənəsini görmək istəyən «həyat»çılar yaradıcılığında milli istiqlal və Azərbaycanın bütövlüyü ideyasına, fəlsəfi mühakiməyə, sosial-siyasi düşüncəyə, yeni sənət axtarışları və nəzəriyyələrinə xüsusi önəm verirdilər. Onlar dövrün böyük ziyalısı «Tərcüman» qəzetinin redaktoru İsmayıl bəy Qaspıralının «dildə, fikirdə, işdə birlik» ideyasını müdafiə edir, «qələmi üç qəpiklik mürəkkəbə deyil, ürəyinə batırıb qanı ilə» (İ.Qaspıralının Ə.Hüseynzadəyə məktubunda deyildiyi kimi) yazırdılar. Buna görə də yazdıqlarının mükəmməl bir təsiri olur, nəticədə xalqın mədəni-mənəvi təkamülü baş verirdi. Həm də ona görə «Həyat» uğur qazanırdı ki, ictimai-siyasi problemlərin gerçək həyatdakı mahiyyətinə varır, fakt və hadisələrin analitik təhlilinə, dərkinə, monarxizm əvəzinə konstitusiyalı dövlət qurulmasına üstünlük verirdi. Qəzetin birillik fəaliyyəti münasibətilə yazdığı «Həyat»ın sənəyi-dövriyyəsi» məqaləsində («Həyat» qəzeti, 19 iyun 1906-cı il, № 124) Ə.Hüseynzadə həmin

mövqeyi aydınlaşdıraraq yazır: «Həyat və həyatın qareləri min kərə şükr etməlidirlər ki, onun ibtidai-zühuri inqilab və təcəddüdün ibtidasına rast gəldi. Bu kitabı ibtidasından oxumayıb, ortasından və ya nəhayətindən qiraətə başlasaq əlbəttə o kitabı anlayamazsın. Bu kitabın nə demək istədiyini anlamaq üçün onu ibtidasından oxumalıdır. Bu inqilabı, bu inqilabın hikmətini də anlamaq üçün onun iqtizaatı, əsbabını, etdiyi hadisatını, onun təciyyatını bir-bir ibtidadən müşahidə və təqib etmək lazımdır... Qanuni-əsasi və məşrutiyyət islahatı, hürrüyyət, muxtariyyət və müsavat nemətləri nədir, nədən ibarətdir bilmək, anlamaq istiyor isən məclisi-məbusanda, dövlət dumasında söylənən sözləri, cərəyan edən müzakirə və mübahisələri ibtidadən, məclisin yövmi – güşadından etibarən mütaliə etməlidir... İştə illərdən bəri uyumuş, uyuşmuş, bir nöqtədə donub qalmış olan Rusiya, Ümumrusiya bu il oyandı, bu il başını qaldırdı, ayağa qalxdı... İştə «həyat» da bir hüsni-təsadüf olaraq böylə bir zamanda ortaya çıxdı, fəryadə başladı. Fəryadə başladı ki, müsəlman camaatı da ümumxalqın oyandığı bir zamanda oyansın, ayılsın. Yoxsa yatanlar oyananların ayağı altında qalıb əziləcəkləri mühəqqəqdir...

İnqilab öz-özünə vüquə gəlmiyor, o bir mübarizə, qəhrəmanə bir mübarizə qüvvətilə vüquə gətiriliyor:

Meydani-mübarizənin bir tərəfində mazipərəstlər, köhnəpəsəndlər, hökuməti-mütaliqə tərəfdarları, əhli-divanlər, digər tərəfdə isə hürriyyət və müsavat aşiqləri, məşrutiyyət, muxtariyyəti-cəmaət, səadəti-müstəqbələ mücahidləri duruyorlar... Mübarizə bir ildir başlamışdır, hənuz tamam olmamışdır... bu günlərdə isə yenidən təşəddidə belə başlıyor. Bizə hər nə zülm, cəfa, afət, bəla gəldi isə birincilərdən, yəni mazipərəstlərdən gəldi... Bizə hər nə sürur, şövq və şadimani üz veriyorsa ikincilərdən gəliyor... Erməni-müsəlman məqatiləsi, yəhudi-rus qitalı gürcü əsgər qırğını, inqusi-kazak faciəsi və ilx. həp birincilərin əsəridir, mübarizə meydanında istemal edtdikləri vəsaiti-mübarizədən biridir... bunları bilməliyiz, aldanmamalıyız...»

«Həyat» qəzeti yeni həyatın gerçəklərini örnək seçərək təhlilə üstünlük verir, milli yaddaş, irs, sələf, tarixi şəxsiyyət, sənətkar, klassik əsər və s. barəsində bəhs açmağı məqsədəmüvafiq sayırdı. Ən əsas məsələ isə əsrlərcə təqlidi yolla formalaşan milli təfəkkür ehkamlarının dağıdılması, müasir dünyəvi düşüncə prinsiplərinin cəmiyyət arasında populyarlaşdırılması idi. Bunu həm ictimai-siyasi aləmdə, həm də mədəniyyət və sənət sahəsində həyata keçirməyə çalışan «Həyat» müəllifləri dünyada gedən sosial-siyasi prosesləri əks etdirən məqalələr yazır, elm, sənət və mədəniyyət yeniliklərinin Azərbaycan mühitinə gətirilməsinə üstünlük verirdilər. Dünyada gedən demokratikləşmə prosesi, inqilabi ideyalar və ictimai-mədəni islahatlar bu mənada maraq doğurur, analitik təhlil hədəfinə çevrilirdi. Başda Ə.Hüseynzadə olmaqla «Həyat» yazarlarının Azərbaycan neoromantizmini formalaşdırması və inkişaf etdirməsi, zənginləşdirməsi həmin yöndə aparılan işlərin səmərəli nəticəsi idi. Ə.Hüseynzadə «Gənc türkçülük nədir?» («Kaspi» q., 1905, № 55), «İngilis əşarı türk dilində və yaxud Şilyon məşbusu» («Həyat» q., 28 mart 1906, № 68), «Hürriyyət» (3 noyabr 1905), «Sola, sola, sol tərəfə!...» (30 iyun 1906), «Kuhi-Qaf və Simurğ quşu» (2 iyul 1906), «Vidanamə» (1906, № 194) kimi məqalələrində yeni publisistik təhkiyə tərzi və təfəkkür prinsipləri nümayiş etdirir, ictiami-siyasi və fəlsəfi mühakimə ilə bədii üslüb maneralarını birləşdirir, beləliklə də Azərbaycanda həm romantik publisistikanın əsasını

qoyur, həm də romantizmin nəzəri-estetik əsaslarını təlbiğə çalışırdı. Ə.Hüseynzadə «Şilyon məhbəsi»nin qəhrəmanı Bonivarı ədəbi mühitə təqdim etməklə yeni romantik tip və xarakterin kim olduğunu göstərir, onun ardınca Karl Moor, Hamlet və Fausta milli mühitdə meydan açır, azadlıq və qəhrəmanlıq ideyalarına diqqət yönəldirdi. Ə.Hüseynzadənin «Həyat» vasitəsilə formalaşdırdığı romantizm nəzəri-estetik konsepsiyasının bəhrəsidir ki, indi biz dünya standartlarına uyğun gələn Azərbaycan romantikləri və onların zəngin yaradıcılığı barədə fəxrlə danışa bilirik, A.Səhhətin «Tazə şer nasıl olmalıdır?» sualına cavab olaraq Azərbaycan romantizminin zəngin bədiiyyat arsealını nişan verə bilirik. («Həyat» q., 1905, № 14).

«Həyat»çıların Azərbaycan ictimai-siyasi və ədəbi-mədəni mühitinə gətirdikləri müasir düşüncə bir sıra yeni idyea-bədii tendensiyaların təşəkkülü və inkişafına səbəb oldu. Bunların sırasında milli romantizm sənəti ilə yanaşı, «Lisani-ümumi» (ortaq turk dili), «ideal national» (milli ideya və əməllər), üsyankar, mücadiləçi, romantik qəhrəman, «ildırımlar saçaraq fırtınalar icad» edən vətəndaş, daxili mənəvi zənginliyi ilə seçilən Azərbaycan insanı barədə geniş danışmağa əsasımız var. «Həyat» qəzetinin mühərrirləri – müəllifləri Azərbaycan insanını yalnız müasir cəmiyyət sıxıntıları içində boğulan adam kimi təhlil etmir, tarixi yaddaşı, yaşayış tərcübəsi, böyük vətəni, müstəqil dövləti olan həmvətən kimi onun taleyinə işıq tuturdular. Belə olduğuna görədir ki, Ə.Hüseynzadə və qələm yoldaşlarının idye-estetik axtarışları diqqətəlayiq bəhrə verir, çağdaş Azərbaycan insanının monumental obrazının cizgiləri ortaya çıxırdı. Tarixən Azərbaycan insanının türklüyünü qoruması, islami etiqadlarla yaşamasını və hər zaman yeniləşmə, müasirləşmə

iddiasında olmasını vurğulayan «Həyat»ın yolu «Füyuzat»da davam etdirildi. «Füyuzat»da deyilirdi:

«Fədai lazımdır, fədai!... Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai!» («Füyuzat» jurnalı, 1907, № 23)

«Həyat»dan başlanan yolun üçməntiqli düstur halında formalaşması və Azərbaycançılıq halında ideya-siyasi platformaya çevrilməsi, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində və müasir istiqlal mərhələsində dövlət bayrağında üç rənglə rəmzləşməsi - Azərbaycan insanının kimliyini ifadə etməsi, onun intellektual yetkinliyi və əxlaqi-mənəvi aləmindən, onun hansı əsaslar üzərində zənginləşdiyindən xəbər verir. Bu yol, əlbəttə, asan olmamışdır, özünəməxsus çətinliyi və ağrı-acıları vardır. Təkcə «Türklər kimdir və kimlərdən ibarətdir?», «Bizə hansı elmlər lazımdır?», «Elmi-əbdanmı, elmi-ədyanmı?», «Nədən bu hala qaldıq?», «Bunun axırı nə olacaq?», «Dil müşkülatı», «Yolumuz hayanadır?» və bu kimi mövzularda aparılan diskussiyaların «Həyat»da özünəməxsus yer tutması dediklərimizə parlaq sübutdur.

«Həyat»dan başlanan yol müstəqil dövlət, azad söz, sivil xalq, bütöv vətənə aparan bir yol idi və bunun da əsasında istiqlalçılıq dayanırdı. İstiqlalçılıq xalq, dövlət və vətənin taleyini düşünmək qeyrəti kimi qəbul edilir, «hürriyyət-pərisi» kimi tərənnüm və təsvir olunurdu. Onun yolunda «yunan Rüstəmi Herakl» («Kuhi-Qaf və Simürğ quşu» məqaləsində, «Həyat» 2 iyul 1968-ci il) kimi mübarizə aparmağı məsləhət görən Əlibəy Hüseynzadə deyirdi: «Hürriyyət!... O nə qüvvədir ki, yalnız zikri belə inşərhidərunə, səfayi-qəlbə badi oluyor. Zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını ülviyyətə sövq ediyor... Yalnız zikrini eşidən insanların qanadlanıb uçacaqları gəliyor! O nə

qüvvədir ki, onun yolunda neçə-neçə fikirlər, zəkalər, dühalər, dühayi-müəzzəmilər, Dostoyevskilər, Çernışevskilər məhbəslərdə, qürbətlərdə, mənfalərdə, Sibirya çöllərində hər növ iztirabı, hər növ əza və cəzayı qəbul etdilər». («Həyat» qəzeti, 3 noyabr 1905-ci il) Bu səbəbdəndir ki, «Həyat» qəzetinin bağlanması münasibətilə «Vidanamə» yazan Ə.Hüseynzadə XX əsrdə Azərbaycan istiqlalı yolunda dönməz mübarizə və mücadilə aparan əzabkeş qəhrəman Faust və Prometey kimi xatırlanır, çağdaş istiqlal həyatımızı qurmaqda, ideya-mənəvi dünyamızı qurmaqda onun xidmətləri «Yunan Rüstəmi Heraklın» zəhmətinə bərabər tutulur. Bu həm də onunla əsaslanır ki, Ə.Hüseynzadə və qələm dostlarının yaratdığı «Həyat» qəzeti o dövrdə Azərbaycan gerçəkliyində geniş yayılır, oxunur, müzakirə və təhlil olunur, ümumxalq problemlərinin həllini məqsəd seçir və ən vacibi «fikir fabriki» rolunu oynayırdı. Azərbaycan satirik ədəbiyyatının məşhur xadimi M.Ə.Sabir məhz həmin səbəbdən «Həyat»ın qapanmasına təəssüflənir və «Cavablar cavabı» şerində («Molla Nəsrəddin» jurnalı, 6 oktyabr 1906-cı il, № 27) deyirdi:

Elm ayineyi-surəti-hal idi, nədən bəs,
Əcsamdə ərvahə misal idi, nədən bəs,
Elm ilə vətən nikməal idi, nədən bəs,
Təhsili-ədəb, kəsbi-kəmal idi, nədən bəs,
Millət ümənasi bu gözəl rütbəyi dandı?
Əfsus, «Həyat» isə məmat oldu, qapandı!

Elm idi əgər bəxş edən insanə şərafət –
Millət nə səbəbdən ona göstərmədi rəğbət?
İslam ülumunda gər olsaydı ləyaqət
Rusi oxumuşlar bə neçin etdilə nifrət?

Bu nifrəti hər gündə görüb axır utandı,
Əfsus, «Həyat» isə məmat oldu, qapandı!

Mey nəşəsini zövq bilir, cam nə bilsin?
Ruh anladığı ləzzəti əcram nə bilsin?
Ustadın işin, işlədiyin xam nə bilsin?
Elmin, hünərin qiymətin islam nə bilsin?
Getsin qabağa qonşular, islam dayandı,
Əfsus, «Həyat» isə məmat oldu, qapandı!

Qoy qonşular alsın hələ min dürlü fəvaid,
Qoy qonşular etsin hələ təzyidi-cəraid,
Sən söylə, qəzetdən nə olur bizlərə aid,
Ancaq ikini bir elə, qoyma ola zaid,
İslamda bilmək, oxumaq çünki ziyandı,
Əfsus, «Həyat» isə məmat oldu, qapandı!

Əğyarlər imdi sənə faiqmi, deyil ya?
İslamını məhv etməyə şaiqmi, deyil ya?
İbzali-himəm millətə layiqmi, deyil ya?
Ancaq əməlin qəti-əlaiqmi, deyil ya?
Çün qəti-əlaiq oldu hər guşədə yandı,
Əfsus, «Həyat» isə məmat oldu, qapandı!

Gopnan əməl aşmaz, işə qeyrət gərək olsun,
Millət düyünün açmağa hümmət gərək olsun,
Min elm deməkdənsə həmiyyət gərək olsun!
Sözdən nə bitər, işdə həqiqət gərək olsun!
Həqsizliyi hər gündə görüb axır usandı,
Əfsus, «Həyat» isə məmat oldu, qapandı!

Ağrıtma əbəs başını, meyl etmə ülumə,
Yox vəq qoyan elmə, kəmalatə, rüsumə,
Hər kəs cibini güdmədədir baxsan ümumə,
Xərc etsə edər dolma-badımcanə, lühumə;
Hop-hop, yeməyə, içməyə bu qövm yarandı!
Əfsus, «Həyat» isə məmat oldu, qapandı!

«Həyat» məmat olub» qapansa da, onun yolunu davam etdirənlər tapıldı, ideyalarına, iş, əməllərinə sahib çıxanlar oldu. Ən vacib məsələ isə bundan ibarət oldu ki, «Həyat» yeni Azərbaycan jurnalistikasına bir həyat dərsi bəxş edə bildi. Xalqın fikrini cilalamaq, mübarizə ruhunu artırmaq, müstəqilliyini anlatmaq, onu dünyaya tanıtmaq, yaddaşını oyatmaq, vətənin tarixi və müasir coğrafiyasını müəyyənləşdirmək və s. baxımdan iş görənlər XX əsrin əvvəllərində «Həyat»a doğrudan-doğruya bir «fikir fabrikası» kimi baxır, onun yolunu davam etdirməyi hər bir Azərbaycan vətəndaşının vicdanişi sayırdılar. Çünki «Həyat» və onun söz, qələm fədailəri xalqının «imzasını imzalar içində» görmək istəyir, həmvətənlərinin mənəvi-ruhani kimliyini qoruyur, azad Azərbaycana aparan yola işıq saçırdılar. Belə olduğuna görədir ki, XX əsrin əvvəllərində meydana gələn ziyalalar «Həyat»da formalaşan elmi-publisistik üslubu, qəzetin sənətkarlıq təcrübəsini örnək seçdilər və davam etdirdilər. Ə.Hüseynzadənin «Həyat»dan sonra «Füyuzat»ı nəşr etdirməsi bu fikrin parlaq sübutudur.

Dövrün tanınmış ziyalısı Həsən Səbri Ayvazov «Həyat»ın qürubudan «Füyuzat»ın tüluindən hasil olan təəssüratım» məqaləsində yazırdı: «Həyat» cəridəsinin aləmi-mətbuata acı bir vida çəkib müvəqqətən tətilə məcbur olaraq Güşeyi-inzivayə çəkilişi bütün

qarelərini, bəlkə əfradi-müsliminin kaffəsini son dərəcə məhzun və mükəddər etmiş idi.

Həyatımıza həyatbəxş zavallı «Həyat», hənuz son səbavətində bir buçuq yaşında olduğu halda mübarizə və mücahidə meydanından ağlaya-ağlaya çıxdığı zaman bütün mətbuati – İslamiyyəyi bir yas və hürri-vicdan sahiblərini əzim bir təəssür və hüzn qaplamış idi...

Əvət, aləmi-mətbuat pək məyus, cəraidi-milliyyəmiz pək məhzun və mütəəssir olmuş idi. Çünki pək gənc və fəal bir arkadaşlarını qaib etdilər.

Fəqət bu hüznün, bu təəssürün ən böyügü, ən şiddətlisi, ən acısı «Həyat» ilə yaxın münasibatda bulunanlara, daha doğrusu «Həyat» yüzündən qələm hərəkət etdirməgə, «Həyat» vasitəsilə millət və Vətən uğruna qələm çəkənlərə aiddir.

Bunun üçün «Həyat»ın vidaından ən ziyadə mütəəssir və mütəllem olanların biri də şu sətirləri qaralayan acizdir... «Həyat»ın «Vidanamə»sini oxuduğumda şiddəti-təəssürümdən acı-acı ağladım. Axıtdığım göz yaşları nə üçün idi?... Altı-yeddi milyonluq bir cəmaəti – İslamiyyənin yeni qəzetəyi maddətən idarə və mütəzmən dava etdirəcək qədər müavinət, qeyrət, himməti-ibraz edəmədikləri, daha doğrusu xabi-qəflətdən hənuz oyanmadıqlarına idi!...

Əvət, cocuq kibi hönkür-hönkür ağladım...

Nə üçün? Çünki öksüz qalmış idim. Səsimi, sədamı, fəryad və əfqanımı, sihhə və növhəmi əks etdirəcək səhnə qapanmış, əfkar və təsvir etmək ayineyi-inikas bulunan «Həyat» səhiflərini qara bulutlar əhatə etmiş idi... («Füyuzat» j, 1906, № 1)

O zaman «Həyat»ın bağlanması nisbi və müvəqqəti səciyyə daşıyırdı, çünki az sonra həmin yolu, «türklük, islamçılıq, müasirləşmək» - azərbaycançılıq yolunu tutan «Füyuzat», Molla Nəsrəddin» və digər çoxsaylı

mətbuat orqanları davam və inkişaf etdirdilər. «Həyat»dan pərvazlanan mühərrirlər, ziyalılar Azərbaycan həqiqətlərini qoruya bildilər. Lakin sovetləşmə dövründə «Həyat»ın yasaq edilməsi, sosialist mühitində onun «mürtəce burjua», «pantürkist», «panislamist» elan edilməsi bir ayrı təəssüf və ağrı-acılara səbəb oldu. Nəhayət, yeni istiqlal dövrü ərəfəsində və indi bir daha «Həyat» vasitəsilə millət və vətən uğruna qələm çəkənlərə» qayıdış öz bəhrəsini verdi, onun ideyaları əbədiyyət haqqını təsdiqlədi.

"Yeni Azərbaycan" qəzeti, 3 iyun, 2005-ci il

«İRŞAD» YOLGÖSTƏRƏN DEMƏKDİR

Çar Rusiyası zamanında 1905-ci il 17 oktyabr manifestindən sonra Azərbaycanda ictimai-siyasi fikirdə təbəddülatlar baş verdi və xalqa «söz, mətbuat və vicdan azadlığı» vədi gerçək həyatda islahatlara geniş meydan açdı. Artıq Azərbaycanda **Azad Sözün** hikməti ictimai şərvət kimi qiymətləndirilir, xalq mətbu sözün dəyərinə, həqiqiliyinə inanır, sözün mənəvi aləmdə və dövlət idarəçiliyində, milli özünüdərkdə əvəzsiz silah olduğuna hər kəs inanırdı. Bu elə bir vaxt idi ki, Çar Rusiyası sərhədləri içərisində yaşayan Azərbaycan hər gün Port-Arturdan gələn kədər dolu informasiyanı izləyir, Sankt-Peterburqdakı inqilabi etiraz hadisələrini özünün ömür-gün həqiqəti bilir, gözünü dünyaya dörd açır və dörd cəhətdən gələn informasiyanı səbirsizliklə gözləyirdi...

1905-ci il payızın son günləri. Azərbaycan xalqı və onun paytaxtı Bakı özünün ictimai-siyasi hadisələr və informasiyalarla dolu iztirablı günlərini yaşayır. Belə günlərin birində, 1905-ci ilin dekabr ayında, daha doğrusu 1905-ci il dekabr ayının 16-da **ucuz, gündəlik fəhlə qəzeti** – «İzvestiya Soveta Raboçix Deputatov» (Qəzet Bakıda çıxırdı və redaktorları İ.N.Şendrikov, F.Q.Zaytsev, Y.Şendrika idi) meydana gəlir, mövcud vəziyyəti anlatmağa çalışır, xalq hakimiyyəti ideyalarını, proletar düşüncəsini irəli sürməyə başlayır və ən vacibi digər mətbu orqanlar kimi çarizm xofunu aradan qaldırmaqda mühüm rol oynayırdı. Sosializm ideyalarının və «kommunizm kabusu»nun hökm sürdüyü və sosial-siyasi stress yaratdığı bir zamanda **«İzvestiya Soveta Raboçix Deputatov»** qəzetindən (1905, № 1, 16.XII-1905-№ 3 (18.XII) 1906, № 4 (01.01) - № 6 (4.01) bir gün sonra məşhur mütəfəkkir Əhməd bəy Ağaoğlunun redaktorluğu ilə «İrşad» («Yolgöstərən») – Putevoditel Azərbaycan mətbuatı aləminə qədəm qoydu. Bu gün 17 dekabr 1905-ci il idi...

«İrşad»ın nəşri həmin dövrün Azərbaycan ziyalıları tərəfindən böyük sevinc və rəğbətlə qarşılandı. Tanınmış müəllim, Azərbaycanda maarifçilik hərəkatının liderlərindən biri, yazıçı Süleyman Sani Axundov «Yuxu» adlı əsərində özünün və müasirlərinin sevincini, mövcud tarixi duruma bədii münasibətini belə ifadə edirdi:

«Yuxumda özümü bir qaranlıq yerdə gördüm. Gözlərim heç şey seçmirdi. Lakin ayaqlarımın altında torpaq olduğunu hiss edirdim. Bir müddət keçərkən gözlərim zülmətə öyrəşdi. Yavaş-yavaş ətrafımdakı əşyanı seçməyə qadir oldum. Müqabilimdə bir səhra açıldı, orada qoyun sürüsü göründü. Sürüyə tərəf yönəldim, yaxınlaşdıqda belə bir şəkil gördüm: qoyunlar başlarını yerə əyib, gözlərini ota dikib guya otlamaq istəyirlər, lakin hərəkətsiz durmuşlar. Çobana gəldikdə o da çomağının ucunu ovuclarına alıb çənəsinə dirsək vermişdi. Onda da heç bir hərəkət yox idi. Mən təəccübdə ikən gözlərimə meşə və çay sataşdı. Oraya getdim. Meşədə çoxlu heyvan və quş var idi. Fəqət bunlar də hərəkətsiz, sükuta getmişdilər. Hətta çayın suyu görünərək sanki yuxuya dalıb dayanmışdı. Məni heyrət götürdü. Bu anda sağ tərəfimdə qəbiristan və orada insanlar göründü.

– Gedim, onlardan harada olduğumu soruşum, - deyə yola düşdüm. Gəlib çatdıqda gördüm ki, qəbirlər arasında əmmaməli, fəsli, papaqlı, sarıqlı insanlar dərin yuxuya getmişlər.

– Xudaya, bu nə məxluq və nə məkandır ki, mən rast gəlmişəm?.. Bu fikirdə ikən gözümə bir günbəd dəydi. Yanına getdim. Günbədin heç bir qapısı yox idi. Lakin mərmər divarın üzərində barmaq işarəsi, qapının burda olduğunu göstərirdi. Diqqətlə baxdıqda bu yazını seçdim. «Bura zülmət aləmidir. İşıqlığa çıxmaq istəyənlərin yolu buradır».

Yazının altında belə bir üçbucaq çəkilmişdi: I D m Onun hər guşəsindən qızıl qarmaqlar asılmışdı. Bu tilsimi açmaq qəsdi ilə sağ qarmağı çəkib sol və üst qarmaqla bitiş-

dirdim, qapı açılmadı. Sonra sol qarmağı üst və sağ qarmaqla bitişdirdim yenə də açılmadı. Axırda üst qarmağı sol və onu da sağ qarmağa tərəf çəkib bitişdirdim, o saat qapı açıldı. Mən girdim, qapı yenə üzümə örtüldü. Bir qədər getdikdən sonra bir meydana çıxdım. Buradan 72 yol ayrılırdı.

Bunların hansı məni işıqlığa çıxarar – fikrində ikən yol başında, dirək üzərində barmaq şəkli «İ» hərfini işarət etdiyini gördüm, o yolu tutub getdim. Başqa bir meydana çıxdım. Orada da yol başında qondarılmış dirək üzərində «R» hərfi yazılmışdı. Bu minval ilə hər meydanda, dirək üstündə «Ş», sonra «A» və axırda «D» hərfləri göstərişi ilə gəlib qapıya çıxdım. Bu qapının üzərində direklər üstündə yazılmış hərflər mürəkkəb olub, «İrşad» ləfzi yazılmışdı. Qapını açdıqda günəş pəncərədən gözlərimə düşüb məni oyatdı.

Küçədən:

– «İrşad», «İrşad» təzə qəzet səsası gəlirdi. (S.S.Axundov. Seçilmiş əsərləri, Bakı, «Gənclik» n., 1968, s. 7-8)

«İrşad» təsadüfən yaranmadı, dövrün, zəmanənin zərurətindən meydana gəldi. Qəzetin redaktoru Əhmədbəy Ağaoğlu «Həyat» qəzetindən ayrıldıqdan az müddət sonra, yəni 1905-ci il dekabrın 17-də «İrşad»ın birinci nömrəsini ictimaiyyətə təqdim edə bildi. Ə.Ağaoğlu «İrşad»ı «İzvestiya Soveta Raboçix Deputatov» qəzetindən cəmi bir gün sonra xalqa çatdıra bildi və bu ilin, 2005-ci ilin dekabr ayında hər iki qəzetin 100 illik yubileyi tamam olur. «İrşad»ın redaktoru «Həyat»dan 102-ci nömrədən sonra ayrılmışdı və bu ayrılığa səbəblər var idi. Əvvəla, ən vacib səbəb heç şübhəsiz ki, Əlimərdan bəy Topçubaşovla olan müəyyən fikir ayrılıqları, siyasi-taktiki fərqlər, dünyabaxış məsələləri idi. İkincisi Ə.Ağaoğlunun «Həyat»da nəşr etdirdiyi sonuncu «Əmir-əl möminin Əli ibn Əbu Talibin vəfatı» (birinci yazı 96-cı nömrədə çıxıb) məqaləsindən sonra (yəni 102-ci nömrədən sonra) bu qəzetdə senzor nəzarətinin gücləndiyini göz qabağında idi. Quran ənənələri və islami modernizm mövqeyin-

dən yazılan həmin məqalədə Ə.Ağaoğlu müsəlman dünyasının «birlik, bərabərlik, qardaşlıq» ideyasını irəli sürür, Şərq əxlaqi-mənəvi dəyərlərinin tarixi qədimliyi və zənginliyi ideyasını qoruyur, islamın təməl faktorlarına haqq qazandırır və onun müasirliyini qabarıq şəkildə nəzərə çatdırır. Kişmişov, Qaragözov kimilərin danos yazmasına səbəb olan məqalələr çap etdirirdi. Elə bu və digər prinsipial məsələlərə, çarizmi açıq tənqidinə və s. görə o, «Həyat»ın rəhbərlərindən olsa da Ə.Topçubaşovdan ayrılmalı olur. Qəzetin redaktoru, digər rəhbəri Ə.Hüseynzadə və işçilər Ə.Ağaoğlunun ayrılığını «böyük narahatlıq və narazılıqla» (A.Zeynalov. «İrşad» qəzetinin naşiri, «525-ci qəzet», 31 oktyabr 2001-ci il) qarşılasalar da Ə.Ağaoğlu ayrılıq fikrindən dönməmişdi, az sonra «İrşad»ı meydana gətirmişdi.

Əhmədbəy Ağaoğlunun «Həyat»dakı mövqeyi çar təəbəliyi, imperiyapərəst qüvvələr tərəfindən ardıcıl yoxlanır, təhlil edilir, müvafiq orqanlara danoslar yazılırdı. Odur ki, Ə.Ağaoğlunun birmənalı, açıq mövqeyi «Həyat»ın Sahibi-imtiyazı və sponsoru üçün həm də gerçək təhlükə yaradırdı. Yəni bu ayrılıq zəruri idi. Onun qəzetdən ayrılmasını Ə.Hüseynzadə belə qiymətləndirir: «Keçən 1905 sənəsi noyabrın 16-da Əhməd bəy Ağayev kimi müqtədir və qabil bir yoldaşdan məhrum olduq. Bu isə idarəmiz üçün əzim bir ziyan oldu. Lakin idarəmiz üçün ziyan sayıla bilən bu hadisə cəmaətimiz üçün bir qazanc oldu. Cəmaətimiz bir «İrşad» qazandı». (Bax: Ağarəfi Zeynalzadə. «İrşad» qəzetinin naşiri. «525-ci qəzet», 31 oktyabr 2001-ci il).

«İrşad» meydana gələndə artıq Rus-Yapon müharibəsində Port-Artur faciəsi baş vermişdi, keşiş Qapon başda olmaqla «9 yanvar» hadisəsi Sankt-Peterburqda həyata keçirilmişdi, üsyan, mitinq və sosialist inqilabı dalğaları imperiyanı bürümüşdü. Çar Rusiyasının sərhədləri daxilində deyil, ondan çox-çox uzaqlarda olan siyasi qüvvələr də buradakı monarxizm əleyhinə çıxır, Karl Marks, Fridrix Engels, Vla-

dimir İliç Leninin yürütdüyü sosializm-kommunizm nəzəriyyəsini, inqilabi-demokratiya, proletar diktaturası, bolşevizm təlimini ölkəyə yayırdılar. Artıq Çar Rusiyası Romanovlar sülaləsinin nəzarətindən yavaş-yavaş çıxır, ikibaşlı imperiya qartalının caynaqları zəifləyir, inqilabi şüarlar, azadlıq ideyaları, xalqların müstəqilləşməsi prosesi gündən-günə güclənirdi. Belə bir vaxtda «İzvestiya Soveta Raboçix Deputatov» (16 dekabr) və bir gün sonra, 1905-ci il 17 dekabrda «İrşad» işıq üzü gördü.

«İrşad» sözünün lüğəvi mənası «yolgöstərmə», yolu işıqlandırma deməkdir. Qəzet 1905-ci il dekabrın 17-dən 1908-ci ilin 25 iyununadək Bakıda Azərbaycan dilində nəşr olunub. Gündəlik çıxan «İrşad» ədəbi, siyasi, elmi, iqtisadi və ictimai qəzet idi. «İrşad»ın sahibi-imtiyazı Ə.Ağaoğlu idi. O, qəzetin 1905-1907-ci illərdə 116 nömrəsinin redaktoru olub. 1906-cı ilin fevral nömrələri Üzeyir Hacıbəyovun müdirliyi, mart ayında isə bir neçə nömrəsi, müvəqqəti baş müharrirliyi ilə çap olunmuşdur. Sonra 1907-ci ildə 1-15-ci nömrələrin Haşim bəy Vəzirov, 1908-ci ildə isə № 46-57-ci nömrələrin müvəqqəti redaktoru Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Qəzetin birinci nömrəsində elan olunduğu kimi «hər həftə fars dilində dəxi bir vərəqəsi» çap olunub. Fars dilində çap olunan «İrşad»ın redaktoru Əhməd bəy Ağaoğlu ilə Ədibül-Məmalik Fərəhani idi. Azərbaycan dilində «İrşad»ın dörd il ərzində cəmi 536 nömrəsi işıq üzü görüb.

Azərbaycanda xalqın gedəcəyi yol artıq bəlli idi. Bu azadlıq, müstəqillik, suveren dövlət və bütöv vətən yolu idi. Xalqın seçdiyi yolu XIX əsrdə Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi və «Əkniçi»lər, XX əsrin əvvəllərində «Şərqi-Rus», və «Həyat», habelə Azərbaycanın tanınmış ziyalıları müəyyənləşdirmişdi. Xalqı azadlıq və müstəqilliyə, dövləti suverenliyə, vətəni bütövlüyə qovuşdurmaq yolunda «İrşad»

məhz adına layiq iş görür, sözün əsl mənasında yolgöstərən rolunu oynayırdı.

«Hürriyyət, müsavat, ədalət» şüarı ilə nəşr olunan «İrşad» qəzetində müdir və sahibi-imtiyaz Əhməd bəy Ağaoğlu idi. Onun naşiri İsa bəy Aşurbəyov, fəal mühərrirləri isə Ə.Ağaoğlu ilə yanaşı Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, F.Ağazadə, Ö.F.Nemanzadə, Q.Qarabəyov, A.Y.Talıbzadə, M.S.Axundov, A.Sur, S.M.Əfəndizadə, M.Hacınski, H.S.Ayvazov, H.Vəzirov, M.Hadi N.Nərimanov, F.Köçərli, M.Ə.Sabir, və onlarca başqaları idi. Qəzetin naşiri İsa bəy Aşurbəyov 1881-ci ildə yanvar ayının 30-da Bakının Sabunçu kəndində neft mədənləri olan milyonçu Mehdiqulu bəyin ailəsində dünayaya gəlib. O, Azərbaycan tarixində naşir, publisist, xeyriyyəçi kimi tanınır. 1906-cı ildə «Dəvət»in redaktor-naşiri, 1910-1912-ci illərdə «Nicat»ın redaktoru, 1913-1914-cü illərdə «Şəlalə» jurnalının naşiri, 1913-cü ildə rus dilində «Baraban» satirik jurnalının naşiri və redaktoru idi. Burada bir məlumatı xüsusi nəzərə çatdıraq ki, 1908-ci ildə «İrşad»ın naşiri Bəşir bəy Aşurbəyov olub. Bax: Ağarəfi Zeynalzadə. «İrşad» qəzetinin nəşri tarixinə dair. Bakı, Azərb. MEA «Xəbərlər»i (Ədəbiyyat, dil və incəsənət seriyası) 2001, № 3-4, s. 63.

Dövrün ədib, şair, publisist və ictimai xadimlərini birləşdirən «İrşad» təkcə yolu göstərməklə kifayətlənmir, həm də qurulacaq dövlətin, birləşəcək vətənin, azadlığa çıxacaq Azərbaycan vətəndaşının naminə çalışır, gündəlik işin, yaşanacaq ideyaların «düsturüləməlini» müəyyənləşdirirdi. Bu düstur, yaşam və düşüncə formatı da bəlli idi: «dildə, fikirdə, işdə birlik» (İsmayıl bəy Qaspıralı). Az sonra bu məntiq zəminində formalaşan və Əli bəy Hüseynzadə tərəfindən formulə edilən «türkləşmək, islamlaşmaq və müasirləşmək (avropalaşmaq)» = azərbaycançılıq isə «İrşad»ın getdiyi ideoloji istiqamət, vətəndaşlıq yolu idi. Bu yolun axıradək davam etdiriləcəyinə əmin olan Əlibəy Hüseynzadə ondan

ayrılsa da Əhməd bəyin işini alqışlayır və «İrşad»ın birinci nömrəsi haqqında deyirdi: «İrşad» haqqında bir neçə söz söyləmək istəriz. Biz «İrşad»ın zühur və intişarını ən səmimünqəlb təbrik edəriz. Çünki «İrşad»ın zühuri həyati-milliyyəmizdə qayət mühüm bir xütvəyi-tərəqqidir. Hətta deyə bilərəm ki, bu xütvənin əhəmiyyəti əxirən sair şəhərlərdə sahəyi-intişarə çıxan qəzetələrin zühurundan dəxi ziyadədir. Bu dərəcəyi-mühüm bir vəqeə bizim şəhərimiz üçün olsa-olsa «Əkinçi» qəzetinin zühuru idi. «Əkinçi» qəzetəsi bir zamanda çıxmış idi ki, o vaxt müsəlmanca heç bir qəzetə yox idi. Hətta cəmaətimiz qəzetə nədir? Anı belə bilməyirdi. Əgər qəzetə millətin, cəmaətin gözü isə, o cəmaəti birgözlü edən Həsən bəy Həzrətləri idi. İştə cəmaəti ilk dəfə də ikmali-məxluqat olan insan kimi «Həyat» ilə bərabər iki gözlü edən «İrşad» olmuş oluyor. Gərçi cəmaət üçün insan kimi ikigözlü olmaq da az olub, Yunan xürafatındaki (Arqos) kimi «Yüzgöz», «Sədçəşm» olmaq lazımdır. Lakin bugünki halımızda bizim üçün ikigözlü ola bilmək də bir səadət sayılmalıdır. (İtereskop) Müsəlmancə «Mücəssəmbin» denilən aləti şübhəsiz qarələrimizdən çoxu görmüşdür. Görmüşsə bilir ki, əşya və əcsamı hal-təbii və həqiqəsindən mücəssəm göstərə bilmək üçün bu alət ciftə məsəlli fotoqraflara müraciət ediyor. Bu iki fotoqrafdan biri sağ və digəri sol gözə məxsusdur. İştə şəhərimizin cəmaəti də hadisati-dəhri, şüuni-aləmi iki qəzetə vasitəsilə ikitərəfli seyr və təmaşa edərsə şübhəsiz o şüuni, o hadisatı daha dürüst, daha mücəssəm və mükəmməl bir surətdə görmüş olur. Ələlxüsus böyük bir inqilab dövrü olan bu günlərdə hər halda bir neçə gözlü olmaq zərəridir! Şəkk və şübhə yoxdur ki, «İrşad» ilə «Həyat»ın fikirlərində çox kərələr ixtilaf olacaqdır. Məbadə, cəmaətimiz bu ixtilafi-əfkarı idtihadsığlığa, ittifaqsızlağı həml edə! Xeyr! Ancaq ixtilaflarının vücudilə həqiqət təcalla və təzahür edər, müsadiməyi-əfkardən bariqəyi-həqiqət parlamaqda olduğu hər kəscə müsəlləmdir. Elm və həqiqətin ən

böyük, ən şərəfli dostlarının belə hər zaman əfkar və arasında ixtilaf olmuşdur. Binaən əleyh cəmaətə, millətə lazım olan, mücahidlərin, mürşidlərin, dəlillərin ittihadi-əfkari degil, bəlkə ittihad qılıb, ittifaqi-hissiyyati-qəlbiyyələridir!... Qəlbən «Həyat»ın «İraşd» ilə müttəhid və müttəfiq bulunduğuna və bulunacağına kimsə şübhə etməsün!..

«İrşad»ın bu gün çıxan birinci nömrəsini böyük bir zövqü-ruhani ilə mütaliə etdik, möhtəviyyatı, mündəricatı pək gözəl və müfid, üslub və şivəsi pək şirin!.. (Ə.Hüseynzadə. İrşad. «Həyat» qəzeti, 19 dekabr 1905-ci il, № 121.)

Göründüyü kimi Ə.Hüseynzadə Azərbaycanın mətbuat aləminə ilk qədəmini atan «İrşad»ın nəşrini böyük sevinclə, rəğbətlə qarşılayır, ona uğurlu yol arzulayır, mövcud vəziyyətdən – müstəmləkə həyatından qurtuluş uğrunda mübarizə aparacağına ümid bəsləyirdi. Qəzetin birinci nömrəsində Əhməd bəy Ağayevin «İslam və hürriyyət» adlı məqaləsinə münasibət bildirən Ə.Hüseynzadə qəzetin ümumi istiqamətini yüksək qiymətləndirir, Azərbaycan jurnalistikasında «İrşad»ın yerini müəyyənləşdirirdi. Qəzetin birinci nömrəsində Bakı Ruhani Məclisinin üzvü, fazil və möhtərəm Axund Molla Ağa Əlizadənin təbrik naməsini, Molla Məhəmmədzadənin «zəngin mənalı» məqaləsini təqdir edən Ə.Hüseynzadə qələm dostu və ideya yoldaşı Ə.Ağayevin «islam və hürriyyət» mövzusuna toxunmasını xüsusi olaraq nəzərə çatdırır, onun məqaləsində «hürriyyət neməti- islamın şərtlərindən biri olduğu mükəmməl isbat edilir» deyirdi.

«İrşad» qəzeti Ə.Hüseynzadənin dediyi kimi «Yüzgöz», «Sədçeşm» oldu, müasirlərinə «aləmin övzayi-halını» anlatdı, xalqın özünüdərk, özünü təşkil və özünütəsdiq işinə xidmət edə bildi. Əlibəy Hüseynzadənin qədim yunan mifologiyasındakı yüzgözlü nəhəng Arqosu Əhməd bəy Ağaoğluna xatırlatmasında xoş bir ehyam da diqqətəlayiqdir. Məlumdur ki, Ə.Ağaoğlu çar müstəmləkəçiliyinə qarşı açıq-aydın siyasi fikirlər söyləyir, qətiyyətli və çılğın xarakter sahibi

olduğu səbəbindən kəskin inqilabi mövqeyi ilə diqqəti cəlb edirdi. Əlimərdan bəy Topçubaşov isə təkamülçülüyü ilə fərqlənirdi və bu onların «Həyat» redaksiyasında ayrılığının əsasını qoymuşdu. Əslən Qarabağ bəylərindən olan və üsyankar – çılğın xarakteri ilə fərqlənən Ə.Ağaoğluna yüzgözlü Arqosu xatırladarkən Ə.Hüseynzadə həm də qələm və ideya dostumun şər qüvvələrə qarşı ehtiyatlı olmasını tövsiyə edirdi.

Burada haşiyə çıxaraq Ə.Ağaoğlunun xarakterindəki mübarizlik və çılğınlıqla bağlı iki məqamı xatırlatmaq fikrimcə kifayətdir. **Birincisi**: Məmməd Səid Ordubadi «Qanlı sənələr» əsərində 1905-1907-ci illərdə Tiblis sülh danışıqlarını təsvir edir, erməni-müsəlman nümayəndələrinin gərgin mübahisələr apardığını yazır və belə bir məqamı vurğulayır ki, «Söz bura yetişəndə cənab Əhməd bəyin başı gicəlib oturur yerə, onu aparırlar sarayın bir otağına, bir az keçdikdə özünə gəlib məclisə daxil olur... Cənab Əhməd bəy Ağayevin milləti uğrunda bu qədər ciddi-cəhlə çalışdığını görüncə onun nə dərəcədə millətsevər olduğu hamıya məlum olar. Burasını da söyləyirəm ki, Əhməd bəy cənablarının bu qədər çalışmağına millətimizdən bir çox razılıq edildisə də, yenə haqqınca olmayıb yüzdən bir haqqa riayət edilmədi. Bu isə hələ də millətimiz arasında bir parə gecəquşlarının (yarasaların) vücudilədir. «(M.S.Ordubadi. Qanlı sənələr». Bakı, Qarabağa Xalq Yardımı Komitəsi, 1991, s.109-110). **İkinci** məqam ondan ibarətdir ki, Əhməd bəy Ağaoğlunun oğlu Səməd Ağaoğlu «Babamın arkadaşları» kitabında Əlibəy Hüseynzadənin belə bir xatirəsini qələmə alaraq deyir: «Qafqasiyada barəbər qəzet çıkarıyorduq. Bir gün mən hər günki məqaləmi yazmadım. Əhməd bəy gəldi. Nədən yazmadığımı soruşdu. Bəlkə bir az sınırlıydım, sərt bir cavab verdim. O da sərtləndi və münaqişə ağır bir hal aldı. Necə oldu bilməm, birdən-birə qalxdım və iskəmləni yaxalayaraq Əhməd bəyin üstünə yürüdüm. Bunu yaparkən onun da eyni şəkildə

müqabilə etməsini gözlədim. Fəqət o koşdu, önümdə durdu və boynunu bükdü: «Vur, amma ki, yazını ver» – dedi. Azərbaycan jurnalistikasında, «yüzgözlülüyün» – fikir plüralizminin, azadfikirliyin formalaşmasına xüsusi önəm verən Ə.Hüseynzadə «İrşad»ın meydana gəlməsinə bir də ona görə sevinirdi ki, onun redaktoru Ə.Ağaoğlunun əsrlərcə davam edən ehkamçılığa, doqmatizmə qarşı çıxacağına inanır, onun «övham, xəyalat və mövhumat vadisində» çapalayan vətəndaş və dindaşlarına xidmət göstərəcəyinə inanırdı. O inanırdı ki, «İrşad» və onun müəllifləri həyata realist baxışı ilə həmvətənlərini «yaşıl bir vadiyə» – nicata çatdıracaq, xalqın və vətənin xilasına nail olmaq üçün əlindən gələni edəcəkdir. Buna görədir ki, Ə.Hüseynzadə «İrşad»ın Yunan mifologiyasındakı Arqos kimi «Yüzgöz», «Sədçeşm» olmasını, yəni açıqgözlü, ayıq, tizfəhm – realist olmasını arzulayır və bildirirdi ki, «İrşad» hadisə və faktlara mikroskop (mücəssəmbin) dəqiqliyi ilə yanaşmalı və gerçəklikdə olanları realist prinsiplərlə təhlil etməyi bacarmalıdır. Ə.Hüseynzadənin milli mətbuata qarşı realist tələbləri onun demokratik təfəkkür sahibi olması ilə şərtlənir və ədibin «İrşad»a, onun redaktoru Ə.Ağayevə inamından doğurdu. O göstərirdi ki, «Həyat» ilə «İrşad»ın «fikirlərində çox kərələr ixtilaf olacaqdır. Mabəda, cəmaətimiz bu ixtilafi-əfkari ittihadsızlığa, ittifaqsızlığa həml edə! Xeyr!» Bu Azərbaycan milli mühitində və mətbuat aləmində azadfikirliyin, demokratizmin canlı təcrübəsi, tarixi həqiqəti idi. Elə bu mətbuat və ictimai fikir demokratizminin nəticəsi idi ki, Ə.Hüseynzadənin söylədiyi **«ixtilafların vücudilə həqiqət təcəlla və təzahür edər, müsadimeyi-əfkardən həqiqət parlar»** fikri XX əsrin əvvəllərində Azərbaycanın çoxsaylı mətbuat orqanlarında tez-tez manşetə çıxarılır, ədəbiyyat, mədəniyyət, sənət və siyasət adamlarının zərbi-məsəlinə çevrilirdi. Sonralar milli tarix sübut etdi ki, «İrşad» həqiqətən də doğru yolda idi və göstərdiyi yol doğru idi. «İrşad»ın ictimai-siyasi mövqeyini və milli əx-

laqi-mənəvi strategiyasını yüksək qiymətləndirən Əlibəy Hüseynzadə yazırdı: **«Qəzetinin məsləki** Əshabi-kəhfin yüzlərcə yıl yatıb oyandıqdan sonrakı övza və əhvalını bəyan edər kimi olacağından «Qım-qım ya əyyühəlqafilun» sözünü virdi-zəban edib, təkrar etməkdən ibarətdir. Niyyətimiz deyir «İrşad» millətimizi, cəmaət hürriyyəti, cəmaət muxtariyyəti nemətlərindən bəhrədar etmək və bu nemətlərin bizə bəxş olunmasına bais olan ərbabi-elm və qələmin, fəhlə və əmələnin, kasıbların, əhli-sənət və ziraətin hüquq və mənafeyini müdafiə eləməkdir. Bundan başqa «İrşad» Qafqaziyadə sakin tayifələri, ələlxüsus ermənіləri və müsəlmanları sülh və müsalimətə, ittifaq və ittihadə dəvət edəcəkdir ki, vətənimiz bu surətlə irəlidə böyük bir təhlükədən xilas olub hürriyyət və mədəniyyətin cəmi nemətlərinə nail olsun.

«Həyat» «İrşad»ın bu niyyətlərinə təhsinxan olub cənab həqdən təmənna və istirham edir ki, «İrşad»ı məsləkində müvəffəq buyursun!.. Ancaq «İrşad» qəzetəsi əshabi-kəhf fəqərəsində bir maddəyi xatirələrindən çıxarmasınlar. Məlumdur ki, Əshabi-kəhf oyandıqdan sonra «karvanın dalınca sürətlə getsələr» dəxi karvanə yetişəməyəcəklərini bildiklərindənmi, yoxsa başqa bir səbəbdənmi, hər nədənsə təkrar mağarayə gedib bəstəri-xabə yatmağı tərcih etdilər!..

«İrşad» millətimizi naümid etməsin. Bildirsin ki, bu gün atla, ya dəvə ilə səyahət edilməyir, dəmir yollar, avtomobillər kibi vəsaiti-nəqliyyə mövcuddur. Binaənəleyh hər an surətlə teyyi-mərahil edib irəlidə gedən qafilələrə yetişmək mümkündür... Təkrar Əshabı-kəhf kimi uyumağə heç lüzum yoxdur!» (Ə.Hüseynzadə. İrşad, «Həyat» qəzeti, 19 dekabr 1905-ci il, № 121.

«İrşad» dörddillik nəşri müddətində bir sıra çətinliklərlə rastlaşdı, lakin izlədiyi yolu və məsləki dəyişmədi, xalq mövqeyinin, milli mənafenin ifadəsinə xidmət göstərdi. Çar Rusiyasını bürüyən inqilablar, üsyan və etiraz dalğaları zamanında fəaliyyətə başlayan «İrşad» yalnız Azərbaycanda

deyil, ümumrusiyada olan müsəlman əhalinin tarixi müqəddəratı ilə maraqlanır, onlara Ə.Hüseynzadənin söylədiyi kimi «qım-qım ya əyyühəl-qafilun sözlərini virdi-zəban» edərək mövcud zamanın, ictimai-siyasi vəziyyətin mahiyyətini anladırdı. Şərqdə, müsəlman aləmində geniş yayılmış Əshabi-kəhf haqqında mifik-mistik həqiqətlərə, «Quran» məntiqinə əsaslanan Ə.Hüseynzadə «İrşad»ın mövzu dairəsi, ideya-siyasi istiqaməti barədə də danışır, onun hürriyyət, sülh və müsalimət, ittihad və ittifaq, muxtariyyət, xalqın hüquq və mənafeyi, elm, sənət və mədəniyyət barəsində bəhs açmasını tövsiyyə edirdi. «İrşad» fəaliyyəti dövründə senzura nəzarəti, abunəçi qıtlığı, maliyyə çətinliyi və s. çətinliklərlə rastlaşsa da göstərdiyi yola doğru inamla gedir, milli istiqlal ideyalarının tərənnüm və təbliğinə meydan açırdı. Məhz bu mənada «İrşad»ın «xabi-qəflətdə» qalan həmvətənlərini oyatmaq iddiası, dünyanın sivil xalqları ilə bir sırada dayana bilmək arzusu qəzetin səhifələrində gedən şeir, məqalə, icmal, xəbər, reportaj və başqa janrda olan yazılarda əhəmiyyətli yer tuturdu. Həmin mövqedən çıxış edən Ə.Ağaoğlu məqalələrindən birində yazırdı: «Tez-gec bizi oyandıracaqlar və biz özümüz də oyanacağız! Övlə şimdidən bunun əsərləri görünür. Orda-burda qara buludlar yırtılıb işıq ucları görünür! Hatif-əl-qeyblərdən «sədayi-ğım-ğım ya əyyühəl-qafilun» eşidilir.

Bir zaman olur ki, Məşriq mərifət və elmdən aftabi-hidayət tülu edib «və cayi-əl-həqq və zəhi-əl-batil» kəlimatının şəfəqləri cümlə qəlbləri işıqlandırıb ayıldacaq! Lakin bu nerədən və nəyin vasitəsilə gələcək?» (Əhməd bəy Ağaoğlu. Nədən bu günlərə qaldıq? «İrşad» qəzeti, 18 iyul 1906-cı il № 168)

Ə.Ağaoğlunun arzuladığı vasitə, «qəlbləri işıqlandırıb ayıldacaq» vasitə XX əsrin əvvəllərində «İrşad» və o qəbildən olan milli mətbuat orqanları oldu. «İrşad»dan sonra mətbuat aləminə qədəm basan «Molla Nəsrəddin»çilər və

«Füyuzat»çılar həmin məsələlərin həllini vəzifə bildilər, Azərbaycanın ictimai-siyasi, ədəbi-elmi və mədəni həyatında bir sıra nüfuzlu imzaların görünməsinə, şəxsiyyətlərin tanınmasına çalışdılar, milli ədəbi-bədii prosesi formalaşdırmağa müvəffəq oldular. Ə.Hüseynzadə və Ə.Ağaoğlunun «qım-qım ya əyyühəl-qafilun» deyərək oyatmaq istədiyi «xabi-qəflət»də yatanları, ölüm yuxusuna qərq olanları, «Ölülər»i Cəlil Məmmədquluzadə «Molla Nəsrəddin»in 1-ci nömrəsinin üz qabığındakı karikaturada təsvir etdi və sonralar məşhur «Ölülər» dramında «ricəti-əmvat» üsulu ilə oyatmağa, ayıltmağa müyəssər oldu.

XX əsrin əvvəllərində mətbuat ictimai-siyasi proseslərin və ədəbi-bədii hərəkatın obrazlı desək mühərriki rolunu oynayır, daha çox milli-mənəvi və ictimai-siyasi məsələlərin həllinə meyl göstərirdi. Bu sırada «İrşad» müstəsna xidmətləri ilə diqqəti cəlb edən bir qəzetdir. «İrşad» İran, Türkiyə, Rusiyanın mərkəzi və əyalət şəhərləri, Sibir, Dağıstan, Vladiqafqaz, Orta Asiya, Gürcüstan, Misir və başqa yerlərdə yayılırdı. Qəzetin ilk dövrdə abunəçilərinin sayı minə yaxın olmuşdur.

«İrşad» nəşrə başlayanda istər çar Rusiyası ərazisində, istərsə də qonşu İran və Türkiyədə, eləcə də Avropa ölkələrində klassik dövlət quruluşları əleyhinə mübarizə aparılır, ictimai-siyasi gerçəklikdə islahatların həyata keçirilməsi əsas məsələ kimi qarşıda dururdu. Xüsusilə feodalizm qalıqları tənqid olunur, monarxist sülalə dövlətlərinin əleyhinə konstitusiyalı hakimiyyət irəli sürülür, kapitalizm təqdir olunur, parlamentarizm ideyası gücləndirilirdi. Siyasətdə solçuluq hərəkatı özünün yeni mərhələsinə daxil olur, demokratik cəmiyyət uğrunda mübarizə sistemli xarakter alır, beynəlxalq aləmdə siyasi partiyaların təcrübəsi örnək seçilir, bu yolda qarşıya çıxan uğur və uğursuzluqlar ətraflı təhlil olunurdu. «İrşad»ın redaktoru Ə.Ağaoğlu və onun qələm dostları da həmin istiqamətdə fəallıq göstərir, Türkiyədəki I Tənzima-

tın, Rusiyadakı dekabristlərin, xalqçılar və sosialistlər hərəkatının, Fransada baş verən inqilablar tarixinin həqiqətlərinə tez-tez istinad edirdilər. Qəzetdə «Təbib Həsən Ağayev» imzalı «silk, sinif, firqə» adlı iri həcmli, silsilə felyeton-məqalə dərc olunur, bu anlayışların geniş elmi-nəzəri şərhi verilir, yeni dövrün sosial-siyasi fəlsəfəsində əhəmiyyətli yer tutan «sosializm» barədə mülhizələr diqqət mərkəzinə çəkilirdi. Bu əsərin müəllifi haqqında xatırlatmağa dəyər ki, əslən Gəncədən olan Həsən bəy Ağayev Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin sədri Əlimərdan bəy Topçubaşov sülh missiyasının rəhbəri kimi xaricdə olduğundan onun əvəzinə müavin kimi həmin vəzifəni icra etmişdir.

Ə.Ağaoğlu çar Rusiyasının ictimai-siyasi həyatını təhlil edərkən onun tarixi mənzərəsinə nəzər salır, müstəmləkəçilik siyasəti yürüdən dövlət xadimlərinin imperiyapərəst xəyallarını ifşa edir, ölkənin iqtisadi tənəzzülünə səbəb olan məsələlərə diqqət yönəldir, habelə Rusiyada olan siyasi firqələrin – partiyaların fəaliyyətini işıqlandırırdı. O, «Rusiyanın hal-hazırı» məqaləsində «İstibdadiyyun və məşrutiyyun» növündən olan partiyalar, başqa sözlə desək istibdadpərəst, yəni monarxist və məşrutəpərəst, yəni inqilabi partiyalar haqqında məlumat verir, onların yaranma səbəblərini və fəaliyyət yönlərini aydınlaşdırırdı. Ə.Ağayev adı çəkilən məqaləsində «monarxist obsolyutist», «monarxist konstitusionalist» və «konstitusionalist demokrat» firqələrinin Rusiyada yaranması və ictimai həyatdakı yeri barədə məlumat verir, Rusiyadakı islahatların, ictimai-siyasi reformanın zərüriliyini diqqət mərkəzinə çəkirdi. Ədib bu mənada müasirlərinin diqqətini «konstitusionalist demokrat»ların üzərinə yönəldir və yazırdı ki, «bu firqə Rusiyada ən böyük, ən güclü firqələrdəndir: cəmi Rusiyanın pişrovları, üqəlası, ərbabı-qələm və zəkası, bəyləri, xanları, professorları, yazıçıları və qəzetləri bu firqədəndirlər; şimdidən demək olar ki, gələcəkdə hökümət və idarə bu firqənin əlində olacaq. (Əh-

məd bəy Ağaoğlu. Rusiyanın hal-hazırı. «İrşad» qəzeti, 28 dekabr 1905-ci il № 9)

«İrşad»çılar Azərbaycanın istiqlalı naminə əzmlə mübarizə aparır, qonşu ölkələrdə gedən ictimai-siyasi prosesləri izləyir, onlara aid analitik səciyyə daşıyan icmal yazılar yazırdılar. Bu zaman Yaxın və Uzaq Şərq ölkələri, Avropa və Amerika həyatına da ciddi maraq göstərilir, rus, fars, ingilis, türk, fransız mətbuatına istinadən beynəlxalq həyat barədə xəbərlər çatdırırdılar. Dünyada gedən proseslər və çar Rusiyasındakı hadisələrdən çıxarılan ən əsas nəticə milli müstəqillik, azadlıq duyğuları idi. «İrşad»ın müəllifləri publisistik yazı, bədii əsər və xəbərlərdə müstəqil dövlətçilik, hürriyyət ideyasını tərənnüm və təbliğ edir, dünyanın mütərəqqi ölkələrinin dövlətçilik təcrübəsi, hüquqşünaslığı, siyasi idarəçilik sistemləri barədə ətraflı bəhs açırdılar. Ə.Ağaoğlunun qəzetdə silsilə şəkildə dərc olunan «Qosudarstvennı duma, ya padşahlıq şura» məqaləsi bu mənada diqqətəlayiqdir. O Fransanın zəngin tarixi təcrübəsinə istinad edərək Azərbaycanda ilk dəfə olaraq azadlığın siyasi məzmun və mahiyyətini aydınlaşdırırdı. Fransanın gerçəklərindən çıxış edən Ə.Ağaoğlu müasiri olan azərbaycanlılara deyirdi: «Vəkillər özlərini daimi surətdə məclis hesab edib... Əvvəlinci vükəla məclisində rusca (учредительни собрания) yəni tərtibverici şura adı qoydular. Şurada Robespeyr, Dantin və Marat adlı üç şəxsin əla dərəcədə nüfuz və təsirləri var idi. Onların hürriyyətpərəst, odlu, atəşli nitqləri cümlə vəktlanı və firəngistanı qəribə bir təxdiş və həyəcanə gətirirdi.

Şurayi-vükəla Robespyerin təklifinə görə məclis günlərinin birində qət etdi ki, insana baltəbii müxtəss olan hüquq və ixtiyarat barəsində müzakirə edib bu hüquq və ixtiyaratı həm Firəngistana və həm də külli-aləmə elan etsin... hüquq və ixtiyarat ibarətdir;

1. Sərbəsti-milliyyədən
2. Hürriyyəti-kəlimədən

3. Hürriyyəti-qələmdən
4. Hürriyyəti-vicdaniyyədən və diniyyədən
5. Hürriyəti-şirkətdən və icmaədən. (Əhməd bəy Ağaoğlu. Qosudarstvenı duma, ya padşahlıqşura. «İraşad» qəzeti, 19 aprel 1906-cı il, № 93)

«Gülüstan» (1813) və «Türkmənçay» (1828) müqavilələrindən sonra ikiyə parçalanan Azərbaycanın tarixində ilk dəfə idi ki, azadlığın hüquqi əsasları geniş ictimai miqyasda şərh olunur, onun beynəlxalq aləmdə, o cümlədən inqilablar beşiyi olan Fransada hürriyyətpərəstlər tərəfindən qorunması aydın şəkildə nəzərə çatdırılırdı. Ümumiyyətlə «İrşad»ın sahibi-imtiyazı və baş redaktoru Əhməd Ağaoğlunun sayəsində Azərbaycan ictimai-siyasi fikri və ədəbi-mədəni hərəkati öz yönünü sürətlə Avropaya yönəldir, «Məğrib günəşləri»nin (Abbas Səhhət) tanıdılmasına geniş meydan açılırdı. Doğrudur ki, «İrşad» Əlibəy Hüseynzadə, Əhməd Kamal, darülmüəllimini – islam müəllimi Midhət Cövdət və başqalarının islam və şərq tarixinə dair çoxsaylı yazılarını da dərc edir, Şərqin möhtəşəmliyi və mədəni zənginliyi barədə tez-tez məqalələr verirdi, lakin burada Şərqlə Qərb qarşılaşdırılmır, bütöv bir dünyanın iki fərqli tərəfləri kimi təqdim olunurdu. Qəzetin ümumbəşəri azadlıq ideyasına ardıcıl şəkildə xidmət etməsi, romantik «azadlıq, bərabərlik, qardaşlıq» cəmiyyətinin qurulmasına inamı da elə buradan qaynaqlanırdı. Xristian dünyası və islam aləmi tarixində azadlıq anlayışına münasibət bildirən «İrşad» yazarları dövlət və cəmiyyət münasibətlərinə aydınlıq gətirir, bu mənada Avropanın xeyli irəli getdiyini Qərb mütəfəkkirlərinin əsər və mülahizələrinə istinadən şərh edirdilər. XX əsrin əvvəllərində Fransaya, ümumiyyətlə Avropaya münasibət meyarlarını müəyyənləşdirən Ə.Ağaoğlu «İrşad»da dövlətçilik tarixi və nəzəriyyəsi haqqında danışarkən həmin mövqedən çıxış edir, Azərbaycanda demokratik cümhuriyyət ideyasını ortaya atırdı. O demokratik dövlət tipi barədə yazırdı: «Ruh-əl-qə-

vanin» kitabında Montesküye bu fikri cari edər ki, dünyada üç cür hökumət olar.

Birincisi: istibdadidir: böylə hökumətdə külli-ixtiyar bir şəxsin əlində olar...

İkinci: məşrutidir ki, hakimlər müstəbid olub da qanunlar yaparlar və özləri də haman qanunə itaət edərlər; böylə hökümətin binası namusdur...

Üçüncü: cümhuriyyət hökumətidir; böylə hökumətdə külli-ixtiyarat cəmaət əlində olar...» (Əhməd bəy Ağaoğlu. Qosudarstvennı duma ya padşahlıq şura. «İrşad» qəzeti 26 mart. 1906-cı il, № 77)

«İrşad»da silsilə şəklində nəşr olunan bir sıra elmi-nəzəri, bədii və publisistik yazıların müasir əxlaqi-mənəvi ehtiyaclarımıza uyğun gəlməsi qəzetin yalnız milli jurnalistikamız üçün deyil, həm də çağdaş ictimai-mədəni həyatımız üçün gərəkli abidə olduğunu təsdiqləyir. Xatırladaq ki, Azərbaycan ədəbiyyatında analoqu olmayan, rəmz və simvollarala dolu «Siyasəti-fürusət» əsərini Ə.Hüseynzadə silsilə şəklində burada nəşr etdirməyə başlayıb. Ə.Ağaoğlunun «Rusiyanın hal-hazırı», «Bizə nə lazımdır?», «Tiflisdə erməni-müsəlman şurası», «Qosudarstvennı duma, ya padşahlıq şura», «Tülu edən ay parçası», «Hicrəti-kübra», «İranda reforma», «Nədən bu günlərə qaldıq?», «Aləmi-islamə bir nəzər», «Dövli-müəzzəmə və Türkiyə», «Bunun axırı nə olacaq?», «İngiltərə və Əfqanıstan davası» adlı silsilə yazıları, Üzeyir Hacıbəyov və Məhəmməd Əmin Rəsulzadənin məqalə, məktub və felyetonları da həmin əhəmiyyəti daşımaqdadırlar.

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi fikrində islamdaxili təriqət parçalanmaları pislənir, dini təfəkkürdə vəhdət ideyası güclənir, istər bədii ədəbiyyatda, istərsə də publisistik düşüncədə islam modernizmi, təməl faktorların bərpası məsələsinə xüsusi diqqət yetirilirdi. Bunun nəticəsidir ki, M.Ə.Sabir hələ uşaqikən satirik üsulla «Babam sünni,

nənəm şiə dürəngəm» söyləyir, Ə.Hüseynzadə «Füyuzat»ın son nömrəsində, «pərdə eniyor – son tamaşa» məqaləsində

Can düşməni təhdid ediyorkən tərəfini,

Ey xacə, nədir, məsələyi-şiəvü sünni? – sualını ortaya atır, müasirlərini bu məsələ ətrafında düşünməyə səsləyirdi. «İrşad» başda Ə.Ağaoğlu olmaqla həmin ümummilli problemi həll etməyə çalışır, dini təfriqə ayrılıqlarının ümumxalq intibahına tarixən ziyan vurduğunu diqqət mərkəzinə çəkirdi. «İrşad»dan əvvəl «Həyat» qəzetində bu yolu izləyən Ə.Ağaoğlu yazırdı:

«...Əli həzrətlərinin xilafətində zühurə gələn fəsad və şuriş günündən rövnəqi-islam pozuldu, birlik və yeganəlik ipi qırıldı... əgər bu vaqiə olmasaydı vaqeəyi-hövlnak Kərbalada olmazdı, islam arasına bu qədər inşiqaq, bu qədər ixtilaf və iftirat düşməzdi, o gündən bu günədək başımıza bu qədər bəlalar gəlməz idi, islam min parça olub abad vilayətlərimiz viran qalmazdı». (Əhməd bəy Ağayev. Əmir-əl-möminin Əli ibn Əbu Talib həzrətlərinin vəfatı. «Həyat» qəzeti, 9 noyabr 1905-ci il, № 98)

Ə.Ağayevin həmin mövqedə dayanması və Azərbaycan mətbuatında ardıcıl olaraq islami dəyərləri təbliğ etməsinin nəticəsidir ki, onun irsi və eləcə də «İrşad» qəzeti də daxil olmaqla rəhbərlik etdiyi digər mətbuat orqanları sovetoloji təhlil və tənqid hədəfinə çevrilib, uzun müddət obyektiv elmi-nəzəri tədqiqatdan kənarda qalıb. Azərbaycanda sovet hakimiyyəti illərində, xüsusən də ateist təbliğatı, kommunist ideologiyası, çekist prinsipləri dövründə şübhəsiz ki, islam təfəkkürü və «Quran» məntiqinə yer ola bilməzdi. Ən vacibi isə super dövlət olan SSRİ-nin monolist birliyi və ideoloji sarsılmazlığı dövründə bu dövlətin ərazisində yaşayan müsəlman əhalinin ideoloji «seperatizmi» yolverilməz idi. Yəni müsəlmanların «yekrəng olub, yekdil, yekcəhət bir yola düş»mələri mərkəzçilik prinsipləri ilə idarə olunan super dövlət üçün ziyanlı idi və qadağan olunmalı idi. Bu fikir-

ləri islami modernizm yolunun tutan «İrşad»ın indi saralmış səhifələrini oxuduqdan sonra söyləmək mümkündür. «İrşad»da Qafqaz müsəlmanlarının mənəvi deqradasiyasına qarşı çıxan Ə.Ağaoğlu yazırdı: «Necə ki, çox adamlara məlumdur bu axırlarda bəzi fəsad və fitnəçilər çalışırdılar ki, Qafqaz şiə və sünni müsəlmanlarının arasına büğz və ədavət salıb ortalarına cədəl və cidal salsınlar. (Əhməd bəy Ağayev. Bizim istifşa. «Həyat» qəzeti, 10 noyabr 1905-ci il, № 99)

Eyni mövqeyi real həyat faktorları əsasında təhlil edən Ə.Ağaoğlu Azərbaycanın ayrı-ayrı bölgələrinin həqiqətlərinə üz tutur, milli gerçəkliyin ağrı-acılarını «Birlik, bərabərlik və ədalətlə» aradan qaldırmağa səsləyirdi. O deyirdi: «Biz diyorduq ki, min bəd sünni və şiə sözləri aralıqdan götürülüb?! Cümləmiz müsəlmanız, cümləmiz həblülmətin olan ayini-islam üzrə cəm olub birlikdə bəradəranə dolanacağız!! Dögülmüş, sögülmüş, viran və zəlil olmuş qardaşlar öz halətlərinin səbəbini və ümdə maddəsini haman nifaq və təfriqədə bulub bu nifaqı, bu təfriqəni qətiyyən dəf edib götürməyə səy və guşiş edəcəklər! Xülasə biz hesab ediyorduq ki, daha bundan sonra bizim aramızda Yezid ibn Müaviyyələr qalmayıb. Lakin va əsfa!! Va əcəba!! Hələ Yezid ibn Müaviyyələrimiz də çox imiş! Hələ onların ruhu diri imiş! Hələ onlar öz dığ-dığı və vəsvəsələrindən əl çəkməyiblər və çalışıyorlar ki, islamın bu axırıncı nəfəsini də, rəmiqini də əlindən alsınlar.

Bizə yetişən xəbərlərə görə Quba və Şəki şəhərlərində olan bu günə Yezid ibn Müaviyyələr dəğdəğə və vəsvəsə etməkdədirlər. Guya oralarda sünni və şiə sözləri o dərəcəyə çatıb ki, təzədən bu min illərcə ayrı düşüb şimdi bir-birlərin tapan qardaşların arasına xüsumət və ədavət salmaq fikrəndədirlər: (Əhməd bəy Ağaoğlu. Əsrin Yezid ibn Müaviyyələri. «İrşad» qəzeti, 2 fevral 1906, № 37)

1905-1907-ci illərdə «manifest»lə verilən şərti azadlıqlar Rusiyanın ucqarlarına da mütərəqqi təsir göstərdi və

yerlərdə «Azadlıq!» nidaları yüksəlməyə başladı. Qafqaz bu sırada əhəmiyyətli yer tuturdu və buranın yazarları min illərcə əvvəl «Kuhi-Qafə» – Qafqaz dağlarına zəncirlənən azadlıq simvolu Prometeyin obrazını meydana gətirir, onun əzablardan qurtulacağına inanırdılar. Bu Qafqazda milli azadlığın rəmzi idi. Lakin onlar xəyal qırıqlığına uğradılar. Çünki Qafqazı əldən vemək istəməyən imperiyapərəst qüvvələr «parçala, hökm sür!» siyasətini Qafqazda bütün yaşayış və fəaliyyət sferalarına tətbiq edir, sünni-şiə, erməni-müsəlman, varlı-kasıb, xristian-müsəlman, ziyalı-savadsız qarşıdurmaları yaradır, mürtəce seperatçılıq siyasəti yürüdür, Qafqazı zəiflədirdilər. Bu ziddiyyətlərdən bəhrələnən erməni-müsəlman münaqişəsi Azərbaycanın tərəqqisinə güclü maneə olur, onun dünyəvi proseslərə qoşulmasını əngəlləyirdi. Erməni ziyalılarının da bu qaragüruhda iştirakını görən Əhməd Ağaoğlu böyük təəssüf hissi keçirir, Qarabağla bağlı ermənilərin seperatçılıq hərəkatını ifşa edirdi. Bu işdə bütün «İrşad»çılar birlik və mövqe aydınlığı nümayiş etdirirdilər. Erməni yazarlarının fəaliyyəti ilə bağlı Ə.Ağaoğlu fikirlərini belə açıqlayırdı: «Müsəlmanlar insaniyyət nəzərində bir mənfur, məkrəbə, dərində, vəhşi heyvan surətində nişan verildi. Hətta minillik qonşumuz olan və ələldəvam aramızda təbii təsayül və məhəbbət olan gürcülər də bizim barəmizdə bəd gumanlarə düşdülər. Nə etmək?! Qələm dər keyfe doşmən bud! Müsəlmanların yazıçıları, pulları, qəzetələri yox idi. Müsəlmanlarda heysiyyati-milli oyanmamışdı! Ortalıqda kəmali-zillət ilə dolanan iki-üç yazıçılarının, qəzetələrinin nə oxucusu və nə qədr-qiymətləri yox idi. Ermənilər isə meydanı keçən görüb pullar, qələmlər qələmlər, yazılar sərf edirdilər ki, müsəlmanları aləm içində rüsvay etsinlər! Amma min-min şükürlər olsun! Tiflisdəki məclis hər işləri açdı! Cümlə eşidənlər və oxuyanlar işlər nə cür olmasını düşündülər. Bir gürcü yazıçısının mənə dediyi söz heç yadımdan çıxmayacaq. Bu yazıçı ilə görüşdükdə mənə buyurdular: «Doğ-

rusu qəzetələri oxuyanda biz şimdiyədək siz müsəlmanları bir vəhşi, dərində heyvan hesab edərdiz. Bizim heç gümanımız yox idi ki, müsəlmanlarda bu cür adamlar var. Şimdi sizi təbrik edirəm: bu məclis sabit etdi ki, müsəlmanlar bir qabil, müstəid taifədir və bu hadisatın ümdə təsirləri sizdə degil imiş». (Əlibəy Ağaoğlu. Müfsidlər. «İrşad» qəzeti, 16 mart 1906-cı il № 69)

Əhmədbəy Ağaoğlu Tiflisdə keçirilən erməni-müsəlman sülh danışıqlarından sonra erməni mətbuatını diqqətlə izləyir və ayrı-ayrı bədii əsərlərin və publisistik yazıların mahiyyəti və məqsədi ilə maraqlanırdı. «Nor-dar» (Yeni zaman) qəzetində erməni-müsəlman sülh danışıqlarına dair çap olunan «Tragediya!... Komediya!...» (Nor-dar 11 mart № 25 1906) adlı yazıya münasibət bildirən Ə.Ağaoğlu yazırdı: «məqalə sahibi müsəlman vükəlasını tərif edərsə də tərifini kizb və iftira ilə qarışdırıb erməni oxucularının qəlbi-ədavətini qalxızmaq istəyir. Məqalə sahibi diyor: «Müsəlman vəkillərinin cümlə məqsədləri tamam və kamal hüsulə gəldi. Onlar cəlal ilən vücudə gətirdikləri hər bir zakonsuzluqların günahlarını ermənilərə bağladılar. Hökuməti və Rusiyada bulunan qeyri cəmaətlərin təsvirlərini təhrik etdilər və cümlə müsəlman vilayətlərində cəmaətin rəyini ermənilərin əksinə təhrik edib on bir ayda olmuş işlərin üstünə bir böyük daş saldılar.

Bu sözlərdən görünür ki, erməni yazıçıları müsəlmanları günahlandırmaq sülukindən əl çəkməyib öz kizb və iftiralarında sabit qalıb ermənilər əqva etməkdən əl götürməyəcəklər. (Əhməd bəy Ağaoğlu. Müfsidlər. «İrşad» qəzeti, 16 mart 1906-cı il, № 69)

«İrşad» Azərbaycana qarşı «erməni kartı» ilə mübarizə aparan imperiyapərəst qüvvələrin gizli niyyətini ifşa edir, erməni yazıçıları və erməni mətbuatının onların əlində oyuncağa çevrildiyini mövcud hadisələrlə əlaqəli şəkildə təhlilə cəlb edirdi. Bunu həmin dövrün rus və ermənidilli mətbua-

tına Ə.Ağaoğlu və «İraşad»çıların münasibətində, xüsusilə «Mşak» «Nor dar» və «Arşalyus» qəzetələrinə münasibətdə aydın görmək mümkündür. Bir sıra hallarda ermənilərin haqsız, qaragüruh, irticaçı və düşmənçilik mövqeyini onların öz məqalə və fikirlərinə istinadən ifşa edən Ə.Ağaoğlu «İrşad»da Spandaryanın fitnəkarlığını üzə çıxararkən həmin prinsiplərə üstünlük verirdi. Ə.Ağaoğlu Spandaryanın Tiflis erməni-müsəlman sülh konfransından dərhal sonra fitnəkarlıqla yazdığı məqaləni tərcümə etdirib olduğu kimi oxucunun öhdəsinə buraxır, erməni şovinizminin iç üzünü açırdı.

Erməni jurnalisti, «Nor-dar» qəzetinin müdiri Siandaryan öz şovinist mövqeyindən çıxış edərək yazırdı: «Görünüz müsəlamn ruhanisi mütərənnim təhəyyürlük ilə təklif ediyor ki, müsəlman ilə erməni yekdigərini erməni-müsəlman adlandırmasınlar. Çünki, belə olduqda şuriş əmələ gələ biliyor. Bir-birlərini **Qafqazlı** adlandırsınlar, bu ism ilə erməni-müsəlman yekdigərinə çox yavuq olarlar...

Məgər müsəlman ruhanisindən erməni vardapeti gerimi qalar idi? Vaxt yetişmiş idi və vəzifəsini bitirmək yeri idi, yəni SÜLH. Və bu vardapet ən uca olan adamiyyət məqsədinə müvafiq bir erməni-müsəlman qəzetəsi nəşr etməgi təklif ediyor, yanıki bir erməni-müsəlman icmayi-xeyriyyəsi bina etmək. (Hərgah bir iyirmi il bundan əqdəm müsəlmanlar ermənilərı qırmış olsa idilər, şimdi biz belə idarələrin meyvəsindən mənfəətbərdar olar idik...) Ruhani vəkil nə itiriyor, ona nə? Ha! Əl çalırlar və müsəlman vəkilləri öpüşürlər! Komediyaçılar...» (Erməni-mətbuatı. «Nor-dar» 11 mart № 25, 1906.) Tragediya!... Komediya!... Bax: «İrşad» qəzeti, 16 mart 1906-cı il, № 69.)

Ə.Ağaoğlu «Mənim səyahətim» adlı silsilə yol qeydlərini «İrşad»da çap etdirməklə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Quba, Gəncə, Şəki, Yevlax və Qarabağda maarifin, mədəniyyətin, elmin, təhsilin vəziyyətini işıqlandırır, xalqın məişət tərzi, ictimai görüşləri barədə tənqidi

qeydlərini nəzərə çatdırırdı. Eyni zamanda ədib əhali arasında tez-tez olur, «İrşad»ın oxucuları ilə görüşür, onların ictimai ehtiyaclarına bələd olur, tənqidi qeyd və təkliflərini dinləyir, milli mətbuatın əhəmiyyətini onlara başa salır, xalqın köməyinə arxalanaraq mətbuat işinin tərəqqisinə çalışırdı. Bu mənada ədibin «İrşad»da çap etdirdiyi bir elan diqqətəlayiqdir. Orada deyilirdi: «Cümlə Şimali Qafqazı, Dağıstanı və Zaqafqazın çox yerlərini «İrşad» xüsusunda gəşti-güzar edib əhalinin «İrşad»a hər bir təqvit və kömək etmək vədəsini alıb və hər yerdə abunə dəftəri açdıqdan sonra elan edirəm ki, «İrşad»ın davam etməsində daha şəkk qalmayıbdır».

«İrşad»ın nəşrinin çətinləşməsi müxtəlif səbəblərlə bağlı idi. Qəzetin abunəsinin azalması onu maddi ehtiyaclarla üzləşdirir və redaksiya heyətinin təşvişinə səbəb olurdu. Lakin bu qəzetin jurnalistik axtarışları, peşəkarlığı ilə deyil, bilavasitə mövcud cəmiyyətin obyektiv həqiqətləri ilə bağlı idi. XX əsrin əvvəllərində «İrşad»ın rastlaşdığı çətinliklərlə XIX əsrdə «Əkinçi», XX əsrdə «Şərqi-Rus», «Həyat», «Molla Nəsrəddin», «Füyuzat» və basqıları da dəfələrlə rastlaşmışdı. Bu çətinliklər maddiyyat, abunə və senzor başqasından əlavə, həm də milli biganəlik, savadsızlıq, dini xurafat, fanatizm, cəhalətlə səciyyələnirdi. Ə.Ağaoğlunu və «İrşad»çıları narahat edən də həmin məsələ idi. Bu tanış problemlər barəsində Ə.Ağaoğlu yazırdı: «İş bundadır ki, qırx il bundan əqdəm nəşr və təbə qoyulan «Əkinçi» qəzetəsi eyni surətdə fövt olub getməsi və o vəqtdən bu vəqtədək nəşr olunan «Kəşkül», «Şərqi-Rus», «Həyat» və «İrşad» genə haman minval ilə haman dərdlərə düçar olub fövt olmaları hər sahibi-qeyrət və namus adamını böyük-böyük qəm dəryalarına batırsa rəvadır.

Çünki görünür ki, bu qırx ilin müddətində millətimiz başına gələn bəlalərə, özünə, dininə, şan və ehtiramına vurulan zərbələrə baxmayaraq qırx il bundan əqdəm olduğu kibi

genə xabi-qəflətə uyub əsla özünə nicat, fəlahət yolu aramaq fikrində degil!!» (Əhməd bəy Ağaoğlu. Ümum müsəlmanlara! «İrşad» qəzeti, 26 noyabr 1906-cı il, № 272)

Ə.Ağaoğlu qəzetin işini yalnız peşəkarlıq, ictimai-siyasi xidmət, yaradıcılıq axtarışları ilə əlaqələndirmir, onu həm də vətəndaşlıq qeyrəti kimi qiymətləndirirdi. O da M.Ə.Sabir kimi: «Az-az ayılanlar var isə də həqq dadına çatsın» – deyir, həmvətənlərinin vətən, xalq və dövlət naminə çalışması ümumxalq vəzifəsi bilir, milli mədəniyyətin dünya sivilizasiyasına inteqrasiya olunmasına mühüm əhəmiyyət verirdi. «İrşad»ın bu istiqamətdə çalışmasına ton və yön verən Ə.Ağaoğlu ilə həmfikirlərinin işi heç də həmişə rəğbətlə qarşılanmır, onların fəaliyyətinə xor baxan, əngəl törədənlər də tapılırdı. Lakin «İrşad»çılar yolundan dönmür, mübarizə əzmkarlığı göstərir, xalq, vətən və dövlət üçün çalışmanın zövqünü yaşayırdılar. «İrşad»çıların əsərlərində «İnsanlığın ayrı zövqü vardır» misrasının da təkrarən işlənməsi həmin yaşayış və yaradıcılıq niyyətləri ilə bağlıdır. Bu istiqaməti izlədiyinə görədir ki, Ə.Ağaoğlu «İrşad»ın rəqiblərinə xitabən yazırdı: «Müzəffərəddin şahın ziyayi-əbədisi millətə göz yaşı tökdürüyor, nə məsuddur o kimsə, o şah ki, cənazəsi bir milləti dümui-matəmilə islanıyor.

Yadındamı doğulduğun zamanlar,
Sən ağlar idin, gülürdü aləm.
Bir öylə ömür keçir ki, olsun
Mövtün sənə xəndə, xəlqə matəm.

Ay mənə töhmət edənlər!! Bu naləni eşidiyorsunuzmu? Bunudamı **abunənin artmasından nəşət edən təkəbbür** və yainki, **millət arasına təfriqə salmaq** niyyəti-maziyətkaranəsi yazıyor və yainki, yürəkdən gələn bir atəşi-mürəkkəb ilə nəqş bağlamış bir səhifəyi-dərd və ələmdir? Cavab veriniz!! Cavab veriniz, ey heç bir işdə fikr etməyib həvavü həvəslə evlər yıxanlar! (Əhməd bəy Ağaoğlu. Məqsudimiz nəyə idi?! «İrşad» qəzeti, 7 mart 1907-ci il, № 40)

Ə.Ağaoğlu «İrşad»ı Azərbaycan jurnalistikasının ən ciddi problemləri ilə məşğul olmağa yönəldirdi. Mövcüd cəmiyyətin, elm, sənət, dövlət və vətənin cari və strateji məsələlərini publisistik axtarışların hədəfinə çevirən «İrşad»çılar milli ədəbi prosesə təkan verir, müxtəlif ictimai-siyasi problemlər ətrafında müzakirələr aparır, dil, din, elm, sənət, siyasət, azadlıq, türklük, islamçılıq, müasirlik və s. barədə silsilə məqalələr dərc etdirirdilər. Qəzet həmin sahələrdə çalışanları bir tribuna-redaksiya ətrafında birləşdirir, onların xalqla birbaşa ünsiyyətini qurmağı vəzifə bilirdi. Ə.Ağaoğlu həmin məqsədlə «İrşad»ın nəşrə davamlığını ciddi-cəhdlə qorumağa çalışır və deyirdi: «...qəzetə bu gün olub sabah olmayacaq və həm yazıçılarımız pərakəndə olacaqlar və həm millətimiz irfan və mətbuatın mənafeyindən bibəhrə olacaq!!» (Əhməd bəy Ağaoğlu. «Dəbistan» və «Molla Nəsrəddin», «İrşad» qəzeti, 16 aprel 1906-cı il, № 90)

Ə.Ağaoğlu «İrşad»ı eləcə də «Əkinçi», «Şərqi-Rus», «Həyat», «Kaspi», «Molla Nəsrəddin» və «Füyuzat»ı dövrün aynası hesab edir, milli jurnalistikanın yaranmasında onların «əfsungir» rol oynadığını bildirir, mətbuatı cəmiyyət həyatının barometri, ən əsas keyfiyyət göstəricisi kimi qiymətləndirirdi. Buna görədir ki, o «İrşad»çıları həmişə şəxsi məsələlər və intriqalardan uzaqda durmağa səsləyir, dünyəvi məsələ, beynəlxalq problemlərdən tutmuş ən adi məsələlərədək hər bir işdə obyektiv olmağa çağırır, mətbuatda özünə yer alan şəxsi-qərəzlik, əsassız mübahisə, «büğz və inad», şantaj kimi hallara ürək ağrısı ilə yanaşırdı. «İrşad»ın abunəsinin aşağı düşdüyü vaxtlarda ona qarşı «piar» kompaniyası hallarını görən Ə.Ağaoğlu dözümlülük – tolerantlıq nümayiş etdirir və yazırdı: «Mən səmimi qəlbdən diyorum: əgər millətim məndən narazıdır, əgər məni qəzetə aparmağa layiq görmüyorsa mən «İrşad»ı hər kəs istəsə ona verərəm, qoy məndən yaxşıları, məndən layiqliləri aparsın, təki aparsın, təki bu mənbəyi-feyz və tərəqqi olan sərmayə əlimizdən

çıxmasın! Axtarın, vuruşun, tapın, biz bu qədər zəhmətlər ilə düzəlmiş büsatı özgələrə millət namına təslim etməyə hazırıq». (Əhməd bəy Ağaoğlu. Ümum müsəlmanlara. «İrşad» qəzeti, 26 noyabr 1906-cı il, № 272)

«İrşad»ı bir «mənbəyi-feyz və tərəqqi» hesab edən Ə.Ağaoğlu və həmfikirləri qəzetin ictimai-mədəni səmərəsini, faydalılığını diqqət mərkəzinə çəkir, onun milli mentaliteti qorumasına çalışır, ümumxalq təfəkküründə və bədii sənətdə realizm, romantizm, demokratizm prinsiplərinin formalaşmasına mühüm əhəmiyyət verirdilər. Buna görədir ki, «İrşad»ın fəaliyyəti «mənbəyi-feyz və tərəqqi» tərəfdarları ilə «mazipərəst»lərin, köhnəfikirli mühafizəkarlar və ənənəçilər, ehkamçıların mübarizəsi şəraitində davam edirdi. Həmin «mazipərəst» qüvvələr «İrşad»ın tərəfdarları tərəfindən əsaslı şəkildə tənqid olunur, istər bədii ədəbiyyatda, istərsə də ictimai-siyasi fikirdə epiqon təfəkkürün qüsurlarını aradan qaldırmaq ciddi vətəndaşlıq vəzifəsi sayılırdı. «İrşad»ın Azərbaycan ictimai-mədəni həyatı və müsəlman dünyası üçün əhəmiyyətli işlər görəcəyinə inanan İsmayıl bəy Qaspralı Ə.Hüseynzadəyə yazdığı məktubunda deyirdi: «Şükr xudaya, maşallah zəmanəyə! İyirmi sənəlik bir həsrətimə qarşı «Həyat» görüldü, «İrşad» eşidildi. Ümidvaram ki, «Həyat» «İrşad»a, «İrşad» «Həyata» xadim olub məmati ta Qaf dağlarına qədər sürməyə cəhd və qeyrət edərlər. (İ.Qaspralı. Açıq məktub «Həyat» qəzeti, 1906-cı il) «İrşad»ın qarşılaşdığı çətinliklərə işarə edən M.Ə.Sabir satirik dillə deyirdi:

«Rəhbər» yorulub, yuxladı «İrşad»ü «Təkamül».
Aslanlara ox dəydi neyistan da qapandı.

Başqa bir şeirində isə M.Ə.Sabir yazırdı:

Sən nə qəzet qan və nə də «İrşad» al!
Qoy babalın boynuma, get arvad al! (M.Ə.Sabir. Məsləhət (şeir) «Bütün əsərləri» kitabında, Bakı, 1934, s.223)

XX əsrin əvvəllərində çar Rusiyasında və dünyada baş verən ictimai-siyasi hadisələr Azərbaycan mətbuatında ətraflı şəkildə əks etdirilir, mövcud ictimai epoxanın siyasi nəzəriyyələri, elmi yenilikləri, ədəbi-bədii axtarış istiqamətləri, inqilabi-demokratik mahiyyətli, islahatçılıq meylləri milli jurnalistikanın əsas mövzuları kimi səciyyələnirdi. «İrşad» qəzetinin materialları ilə tanışlıq bu fikri söyləməyə diqqətlayiq faktlar verir. Beləki, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, Ə.Kamal, H.S.Ayvazov və başqa müəlliflərin icmal, reportaj, məktub, müsahibə, yol qeydləri, xatirə-memyar tipli yazılarında sosializm, bolşevizm, liberalizm, parlament, duma, məclisi-məbusan, məşrutə, demokratizm, qanuni-əsasi (konstitusiya) haqqında tez-tez danışılır, çoxsaylı analitik yazılarda İran, Rusiya, Türkiyə, Fransanın dövlət quruculuğu, siyasi həyat mənzərəsi, bu ölkələrin azadlıq uğrunda mübarizə-mücadilə təcrübəsi öyrənilir, təbliğ olunurdu. «İrşad»ın bu istiqamətdəki fəaliyyəti və onun dünyada gedən siyasi proseslərə, xüsusilə azadlıq, müstəqillik, suverenlik uğrunda mübarizəyə həsr olunan yazıları böyük narahatlıq doğururdu. Qəzetin fəaliyyətinə təsir göstərən həmin məsələyə aydınlıq gətirən Ə.Ağaoğlu yazırdı: «İrşad» qəzetəsinin Türkiyəyə keçirilməsi şiddətli surətdə yasaq edildi, qadağan olundu. Mabini-hümayundan (yəni Sultan sarayından) Rusiya səfarətinə bu xüsusda rəsmi işarət vüqui bulmuş, bunun üçündür ki, iki həftədən bəri Rusiya postaxanələri kimsəyə bir şey vermiyor, bana göndərilən rüznamələr dəxi yetişmiyor. Bizə yetişən xəbərlərə görə bu binagüzarlıq tənha «İrşad» barəsində degil, Rusiyada nəşr olunan ümum hürriyyətpərəst məsləkində olan islam qəzetləri üçün də olub». (Əhməd bəy Ağaoğlu. Sultan Əbdül Həmidin «İrşad»a mərhəməti. «İrşad» qəzeti, 23 fevral 1907-ci il, № 32.)

Qəzetin fəaliyyətinin məhdudlaşdırılması yalnız abunə azlığı, dil qəlizliyi, fikir mürəkkəbliyi, jurnalistika təcrübəsi və s. ilə əlaqələndirənlər bu fikrə xüsusi diqqət yetirməlidirlər. Elə həmin səbəbdəndir ki, XX əsrin əvvəllərindəki mət-

buat nümunələri haqqında xatirələrində A.Şaiq o dövrün qəzet və jurnallarını qaranlıq gecədə bir-birinin ardınca yanıb-sönən ulduzlara bənzədirdi. Bu dövrdə Azərbaycan mətbuatının ən parlaq nümunəsi olan «İrşad» fikir və informasiya «istehsalı» baxımından məhsulldar rol oynayır, üzərinə götürdüyü addakı mənanın ictimai-siyasi miqyasda ifadəsinə çalışırdı. «İrşad» dünya xalqlarının və milli tarixin təcrübəsindən çıxış edərək Azərbaycanı demokratik cəmiyyətə və azad dövlətə qovuşduracaq yolu göstərir, tarixin sisli-dumanlı keçmişindən aydın sabahlara doğru aparan istiqaməti müəyyənləşdirirdi. Qəzetin rəhbəri Ə.Ağaoğlu həmin mübarizə əzmini belə ifadə edirdi: «Bir sahibi-fikir və xəyal, bir ərbabi-bəsirət və kəmal tarix aləminə nəzər qıldıqda mənzərəyi-xəyalında şu nöqtəyi-qəribə peyda oluyor: Dəryayi-bisahil həyatda insanlar, ümum miləl və cümlə taifələr tufan içrə düşüb bihədd və təhsa mövclər, ləpələr, girdablar arasında əli-əldəvam çarpışıb əl-ayaq vurmaqdadır; nerəyə baxıyorsun xəşəmlənmiş, köpüklənmiş, mövclənmiş sudur, nə əvvəli, nə axırı görünüyor. Vahimə, qorxu, heyrət və pərişanlıq insanın qəlbini sıxıb əziyor; nəfəs tutulub, öz-özünə həsrətlə diyorsan: «Ha, budur, cümlə qərq olub, məhv və nabud olacaqlar».

Lakin bir az da dürüst diqqət edəndə bir qeyri mənzərə nəzərə gəliyor: Üfqi-mənzərədə məşəllər, nişangahlar görünür, tufanı-həyatə qərq olmuşlar və hətta mövclər və ləpələr belə bir ahəngi-qəribə, bir mizani-əcibə ilə bu məşəllərə, bu nişangahlara tərəf hərəkət və cövlan etməkdədirlər; əsnayi-hərəkətdə mövclər, ləpələr və əl-ayaq çarpan insanlərdən bəziləri vərteyi-hərəkət və girdabi-bəlayə qərq olub məhv və nabud olursalar da, qeyriləri bir dəvam və səbati-qəribə ilə haman məşəllərə və nişangahlarə tərəf səyr ediyorlar.

Bir az da ümman nəzər olsa aşikar olar ki, bu məşəllərdə, bu nişangahlərdə bir qüvvəyi-cazibə, bir maddəyi-«həyatiyyə» vardır ki, bu dəryayi-həyatə qərq olmuş cümlə insan-

lar və hətta həyatın mövc və ləpələrini belə özlərinə cəlb etmək ilə bərabər onların hərəkət və seyrlərinə bir ahəng, bir mizani-əcibə bəxş ediyorlər.

İştə adəm oğlunun tarixi-tərəqqisi, dəftəri-təalisi haman bu məşəllərdən, bu nişangahlardan ibarətdir. Onlardır insanların dəryayi-həyat içrə etdikləri seyr və səfərlərin dərəceyi-tərəqqi və təalisini bəyan edib təyin edən. (Əhməd bəy Ağaoğlu. Mövludi-nəbəviyə dair. Həzrəti-rəsuləkrəm Məhəmməd-əl-Mustafa (ə.s.) zühuri. «İrşad» qəzeti, 26 iyul 1905-ci il, № 98)

«İrşad» və irşadçılar XX əsrin əvvəllərində Azərbaycan cəmiyyəti və ictimai-siyasi fikri üçün həmin «məşəl və nişangah» rolunu oynayır, «bir güvvəyi-cazibə, bir maddəyi-həyatiyyə» ilə müstəmləkəçilikdən qurtuluşun, azadlığa qovuşmağın mübarizə yolu göstərirdilər...

«İrşad»ın göstərdiyi yol ümumxalq yolu olduğundan sonralar istər «Molla Nəsrəddin»çi satira orqanları, istərsə də «Füyuzat»çı romantik nəşrlər onu daha geniş miqyasda davam etdirdilər, Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji əsasını yaratmaqda müstəsna rol oynaya bildilər. «İrşad»dan sonra onun müəllifləri müxtəlif qəzet və jurnal redaksiyaları ilə əməkdaşlıq edərək milli jurnalistikanın, ədəbiyyat və mədəniyyətin inkişafına diqqətəlayiq xidmətlər göstərdilər. Dövrün bir sıra aparıcı mətbuat orqanları ilə yanaşı «İrşad»dan sonra nəşrə başlayan «Yeni İrşad» və «Çarıxçı» deyilənlərin təsdiqinə parlaq sübutdur. «Yeni İrşad» gündəlik ədəbi, elmi, siyasi, iqtisadi qəzet, «Çarıxçı» isə «Yeni İrşad»a əlavə kimi nəşr olunan həftəlik satira vərəqəsi idi. «Yeni İrşad»ın redaktoru və imtiyaz sahibi Y.Əhmədov, baş redaktoru Mehdibəy Hacınski idi. Qəzetin 1911 və 1912-ci illərdə cəmi 153 nömrəsi çapdan çıxmışdır. «Çarıxçı»nın isə məsul müdiri: **Həvəng**, baş yazarı **Pələng** idi. Onun isə 1911-1912-ci illərdə cəmi 21 nömrəsi işıq üzü görüb.

Ə.Ağaoğlu başda olmaqla «İrşad» və irşadçıların ictimai-siyasi və publisistik fəaliyyəti müstəqil dövlət, azad cəmiyyət və bütöv vətən ideyasına xidmətdən ibarət olduğuna görədir ki, onlar öz dövründə mühafizəkar qüvvələrin təsirinə məruz qalır, sovet dövründə isə materialist marksist-leninçi metodologiyanın tələblərinə uyğun olaraq təftiş və tənqid olunur, panislamist, pantürkist və kosmopolist kimi qiymətləndirilir, Azərbaycanın elmi-nəzəri düşüncə dövriyyəsindən sıxışdırılıb çıxarılırdı.

"525-ci qəzet", 10,14,15,16,17 dekabr 2005-ci il
"Azərbaycan mətbuat tarixi antologiyası" (2 cilddə II cild)
Bakı, "Elm və təhsil", nəşriyyatı, s. 261-283

ANADOLUYA SƏSLƏNİŞ, YAXUD BİZİ TARİXDƏN SORUN

Möhtərəm oxucu! Belə bir fikir var ki, insan övladı öz qani-genində əvvəlki nəsillərin yaşam həqiqətlərini, psixologiyasını irs-varislik əlaqəsi ilə yaşadır, İrsiyyət yolu ilə ata-babalarının ağrı-acılarını hifz edir, yaddaş enerjisi onun həyat yolunda və taleyində özünü göstərir. Hər bir fərdin, soyun, nəslin deyil, həm də bütöv bir millətin tarixi taleyində bu qanunauyğunluğu görmək mümkündür. Cəmiyyətlərin, icmaların, insan topluluqlarının yaşam fəlsəfəsində də tarixi yaddaş enerjisi tənzimləyici, yolgöstərici əhəmiyyətə malikdir. Ruhu Yer kürəsinin bütün bucaqlarına işıq salan Türk superetnosunun tarix və yaddaş həqiqətləri buna ən parlaq misaldır.

Mən bir türkəm, dinim, cinsim uludur,
İnsan olan vətəninin quludur –

deyə vətəni Anadolunun beynəlxalq imperialist qüvvələr tərəfindən işğalı zamanı onu qurtuluşa səsləyən Məhəmməd Əmin Yurdaqul türkün kimliyini anladarkən, onun azadlıqsevər, ədalətli və fədakar olmasını hər şeydən üstün tuturdu. O deyirdi:

Bu məmləkət böyüklüyün vətənidir
Əllərində silahlarla ölənlərin,
Son nəfəsdə ümidlərlə, gülənlərin,
Haqqa qurban olanların Turanıdır.

Bu saf ruhlar şu dünyadan ayrılarkən
Yanıq səslə «Vətən!» deyə haykırmışdır,

Yanlarına halallaşmaq üçün gələn
Yoldaşları intiqama çağırmışdır.

Burdan keçən hər qürurlu baş əyilsin,
Bu qan, gətik dolu olan torpaqları,
Böyük, kiçik gəmilərin sancaqları
Salamlarla oxşamağı bir borc bilsin!
Zira bu yer ən fədakar bir millətin
Qəhrəmanlıq, şərəf, namus qalasıdır;
Burda hər səs o ilahi hürriyyətin
Əsrlərə bizi söylər nəğməsidir.[1]

11 eylul 1331.

Türk ruhunun böyüklüyü, onun mədəni-mənəvi zənginliyi ilə süslənən abidələr indi planetin yalnız ayrı-ayrı coğrafi nöqtələrində – ölkələrində bərq vurmur, həm də bəşəriyyətin tarixində, müxtəlif millətlərin yaddaşındakı qaranlıqları işıqlandırır, məchulluqlara aydınlıq gətirir.

Bəşər tarixi yarananda günümüzədək insan oğlu haqqa-ədalətə tapınıb, özünün kimliyini, soyunun-nəslinin diriliyini yaşatmağa çalışıb. Yaratdığı mədəniyyət zənginliyi, uzun ömürlü və çoxsaylı dövlətlər tarixi ilə dünyanı heyrətə salan və tarixdə qılıncla qələmin vəhdətindən doğan gücə arxalanan türklər bizim eradan hələ çox-çox əvvəllər Altay, Pamir, Ural, Tyan-Şan dağları ətrafından, Orxon-Yenisey vadilərindən, Çin səddi civarından Qərbə doğru köç edəndə artıq yazısı, fəlsəfi-estetik görüşlərinin bütövlüyü, aydınlığı ilə tanınır, özünün tikib-qurduğu abidələr, körpü, minarə, şəhərlər və s. ilə qoca

[1] M.Ə.Yurdaqul. Şerlər – Ankara, Türk tarix kurumu basımevi, 1989, s.195.

tarixinin səhifələrinə möhürünü vururdu. Ən vacibi isə «əlinə, dilinə, belinə qadağa qoy» kimi deyimləri ilə əxlaq mükəmməlliyini, ruhani dəyərlərinin duruluğunu, şəffaflığını yaşayır, tarixi törəyiş və irs-varislik əlaqələrində mühafizə olunan ruh bütövlüyü XX əsrin əvvəllərində ümumtürk romantizminin təsirilə ədəbi mənbələrdə daha qabarıq şəkildə özünü göstərməyə başlayır. Bunu Anadolu-türk ədəbiyyatının tənzimatçılığında, Azərbaycan füyüzatçılığında, Türkmənistan və İran divan ədəbiyyatında parlaq şəkildə müşahidə etmək mümkündür. «Türk milləti zəkidir, çalışqandır»(M.K.Atatürk) fikrinin birmənalı söylənilməsi və qəbul edilməsi də məhz türklərin tarixi təkamülünə bağlı həqiqətdir.

Lakin türklər, eləcə də bizlər – Azərbaycan türkləri birlik və bütövlüyümüzə asanlıqla nail olmamışıq. Bu yolda kədər və göz yaşları da az deyil. Sovet hakimiyyətinin ideoloji prinsipləri və siyasi xətti-hərəkatı üzündən uzun illər bizdən gizli qalan Azərbaycan Xalq Cümhuriyyəti dövrünün həqiqətləri buna parlaq misaldır. 1918-1920-ci illərin ictimai tarixi həqiqətlərini təsvir edən görkəmli yazar Mirzəbala Məhəmmədzadə həmin hadisələrin dramatikliyinə diqqət yönəldərək yazırdı: «Cümhuriyyətlərimizin nemətlərindən bizdən daha artıq istifadə edən ermənilərin nankoranə xəyanətinə ilk zərbə vuruldu. Əsgəran və Yevlax-Şuşa yolu üzərində hakimiyyətlər qəhrəman ordumuz tərəfindən zəbt və üsyançılardan təmizlənmişdir.

Belə bir zamanda xarici dövlətlərin müdaxiləsini eşidiyoruz.

Gürcüstan cümhuriyyəti rəisi Jordaniya müttəfiq dövlətlərin nümayəndələrinə böylə mühüm və təhlükəli zamanda erməni-müsəlman vuruşmasının önünü almağı rica etmişdir. Bu rica üzrə müttəfiqlər hökumətlərinə müraciətlər etmiş və Zaqafqaziya cümhuriyyətlərinə hərəkati-hərbiyyənin saxlanmasını əmr etmişdir.

Müzəffər ordumuz Şuşa, Xan kəndinin xilası üçün daha irəli yürüyor.

Zaqafqaziya cümhuriyyətləri konfransı dəvəti ərəfəsində ikən böylə bir zamanda ki, Tiflisdə üç cümhuriyyətdən ibarət bir konfrans dəvəti və rəsmən razılıq izhar edilmişdir. Böylə bir zamanda hər bir məsələni silah gücü ilə həll etmək, həqiqətən, yersiz olurdu.

Məsələ səthi düşünülsə, bu mülahizə bir qədər haqq və doğru görünərdi.

Zaqafqaziya cümhuriyyətləri bu saat qanlı şimal təhlükəsi qarşısında bulunurlar. Bu münasibətlə daxili ixtilafı bərtərəf etmək qüvvətli tadafem (müdafiə) vəziyyət almaq vacibi bir məsələdir.

Fəqət bir qədər diqqət verilsə, bir qədər ermənidaşnaq siyasətinin əsası nəzərə alınsa, o vaxt anlaşılar ki, İrəvan, Qars, Şərur, Naxçıvan, Zəngəzur qırğınlarının eyni və mabədi olan bu erməni çıxışı heç bir beynəlmiləl qanunları nəzərə almaz qanlı və xainanə bir üsyandan ibarət bir şeydir.

Şürayi-ali Ermənistan məsələsi üzərində məşğul ikən süni bir Ermənistan yaratmaq, Amerikanı əmri-vaqiə qarşısında bulundurmaq üçün Ermənistan bukünkü üsyanı yaratmağı lazım bilmişdir. Zənn edilməsin ki, dəvət ediləcək Zaqafqaziya konfransının alacağı qərarları Ermənistan zamana gətirəcəkdir.

O heç bir vaxt böylə beynəlmiləl qərarlara əhəmiyyət verməmişdir.

Keçən dəfəki konfrans hənüz məşğul ikən müsəlləh erməni qüvvələrinin Zəngəzur, Naxçıvan tərəflərində talana başladıqları unudulmamışdır.

...O vaxt dəxi ordumuz vətənimizin cüzi layənfəkkini (ayrılmaz hissəsi) qoşarkən böylə bir müdaxilə vaqiə

olmuşdu və onun nəticəsindən yeni Ermənistan istifadə etmişdir.

Zənn edilməsin ki, Ermənistan Zaqafqaziyanın şimalından məruz qalmış olduğu təhlükəni nəzərə alıb da doğru yola gələcək. Nəinki imperialist planlarından əl çəkəcək, bəlkə bizimlə müttəfiq belə ola bilçəcəkdir.

Bu fikir yanlışdır, bu dövləti işlərdə, diplomatiyada səhv və ya naşılıq erməni siyasətinin ruhunu anlamamaq deməkdir.

Biz həmişə görmüşük: vətənimiz şimal təhlükəsinə məruz qalarkən erməni iştahası baş qaldırır. Denikin Samurdan, Soçidən cənuba gəlmək istəyərkən yenə biz böylə bir xəyanətə məruz qaldıq. O vaxt Ermənistan nəinki silah və qurşundan əl çəkmədi, bəlkə Denikin qarşısına müttəhid çıxışından belə imtina edib kəndisini Denikinin cənub ordusu elan etməyə cəsarət etdi.

İndi yenə şimal təhlükəsinə məruz ikən cənubdan erməni çıxışına şahid oluruq.

Zaqafqaziya, ümumiyyətlə, qurğu qarşısında ikən ermənilərin Qarabağ, Zəngəzur tərəflərdə vəhşətlərini eşitməkdə, daxilimizdə xainanə üsyanlarını görməkdəiz.

Bu belə bir vəziyyət içərisində hərəkəti – hərbiyyəni saxlamaq, üsyan etmiş zərərləri əsirlərcə sakit etməmək, məmləkəti macəraçı daşnak cəlladlarına mühəvvəl etmək deməkdir ki, buna heç bir azərbaycanlı türkün vicdanı yol verməz.

Büna heç bir vicdanlı insan da razı olmamalıdır.

Zatən, burada hərb deyiləcək bir şey yoxdur. Burada asayişi-ümumiyyəni xələldar etmiş asi bir quldur dəstəsi var, bir də məmləkəti və camaatı asilərdən xilas və müdafiə etmək istəyən bir hökumət yersiz çıxışlara birdəfəlik son qoymalıdır.

Vətənimizin cənub-qərb hissələri qəti surətdə Ana yurda ilhaq edilməyincə silah əldən buraxılmamalıdır. Zaqafqaziyanın asayişini istəyənlər Ermənistanı türk xalqının hesabına qurmaqdan ictinab etməlidirlər.

Erməni çıxışı. İstiqlal qəzeti, Nisan, 1920».

XX əsrin əvvəllərində «Asiyanını oyanması» (V.İ.Lenin) Azərbaycan və Anadolu-türk mühitində də yeni ictimai-siyasi iqlimin yaranmasına səbəb olur, türk ruhunun və kimliyinin bir daha sıqağına meydan açırdı. Bu isə hər şeydən əvvəl ayrı-ayrı şəxsiyyətlərin taleyində, müxtəlif ədəbi-bədii əsərlərdə və mədəniyyət nümunələrində öz əksini tapırdı. Yazıqlar olsun ki,həmin dövrün milli mədəni həqiqətlərinə sovet ideoloji sistemində yasaqlar qoyuldu. Lakin türkün səsi, kimliyini danmaq olmadı. Sovetoloji siyasi məntiqin nəticəsidir ki, bu gün biz əsrin əvvələrində araya-ərsəyə gələn bədii materiallar, milli ədəbiyyat nümunələri, fəlsəfi, publisistik mətnlər və s. kimi ümumxalq mədəni sərvətlərinin böyük bir qismi ilə tanış deyilik. İndi onlara qayıtmaq həm də yaddaşımızın təzələnməsi, ruhani dəyərlərimizin ehyasına bərabərdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamda deyilir: «Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci Dünya müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirdi.

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən Cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə,

bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır».

Tarixi öyrənmədən, milli-etnik yaddaş həqiqətlərini, tale yaşantıları bilmədən sabaha addımlamağın nə qədər çətin olduğunu SSRİ-nin süqutundan sonrakı ilk illərin ağrı-acıları bir daha təsdiq etdi...

Tarix sübut edir ki, Türk millətinə bütün dövürlərdə ziyan vuran, onu tənbəlləşdirən, intellektual və mənəvi zənginliyinə kölgə salan yaddaşsızlıq sindromu olub. Ən qədim dövrlərdə də belə idi, indi də bunu danmaq mümkün deyil. Lakin o yaddaşı «ana südü və dağ çiçəyinin ətri», yovşan ətri bərpa edib, minillərin sınağından keçən Ruh bütövlüyünün zənginliyi həmişə milli qürur, güvənc yerimiz olub.

Həmin bütövlüyün və zənginliyin gücü ilə böyük türk şairi Məmməd Akif Ərsoy deyirdi:

Mən əzəldən bəridir hürr yaşadım, hürr yaşarım
Hansı sərsəm bana zəncir vuracaqmış, şaşarım.

Vətən və millət naminə çalışmaq, vətəndaşlıq düşüncəsini xalqın ali məfkurəsi həddinə çatdırmaq hər bir kəsin – vəzifə, peşə və məşğuliyyətindən asılı olmayaraq müqəddəs borcdur. Lakin bunun öhdəsindən yalnəz mükəmməl mənlik şüuru olan, özünün milli-tarixi taleyini, hazırki ictimai-mədəni vəzifələrini aydın dərk edənlər gələ bilər. Ən yaxın tariximizin bir sıra uğursuzluqları təsdiq etdi ki, yad düşüncə, ekspansion təfəkkür tərzi ilə yaşamaq nə qədər baha başa gəlir. Xüsusilə milli hiss, duyğu və düşüncə tariximizdən məhrumluq çağdaş vətənpərvərliyimizə sarsıdıcı zərbələr endirir... İqtisadi böhran, müharibə uğursuzluqları, mənəvi deqradasiya, elmi durğunluq, epiqon maarifçilik... və şairin bir əsas səbəbi də bu zərbələrdir. Həyat və fəaliyyətimizin müxtəlif sahələrindəki tənəzzülün qarşısını almaq üçün milli-tarixi təcrübəyə sahib olan

soydaşlarımızın səsini, sözünü mütləq eşitməli, onların yaşantılarını hökmən bilməliyik. Belə soydaşlarımızdan birisi XX əsr Azərbaycan mətbuatında geniş fəaliyyət göstərmiş Feyzulla Saciddir. Onun Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaldırdığı problemlərin bu günümüz üçün də səciyyəvi olduğunu nəzərə alaraq bir neçə il öncə Azərbaycan arxivlərində çalışarkən rastlaşdığım əsərlərindən nümunələri «Ədəbiyyat qəzeti» və «Vətənpərvər» qəzetlərində nəşr etdirdim. Lakin az sonra şairin «Fəryad» adlı şeirlər toplusu ilə tanışlıq onun kamil şair-vətəndaş olduğunu, türk ruhunun daşıyıcısı olduğunu təsdiqlədi.

Kimdir Feyzulla Sacid? Bax, bunun üçün Anadoluya səslənməliyiz. Çünki onun əsərlərinin az bir qismi, həyatının qısa bir müddəti Azərbaycan həqiqətlərində təzahürünü tapır. Azərbaycana gələnə qədər və Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövr fəaliyyəti bəs necə olmuşdur? Bu suala mükəmməl cavab almaq üçün Anadoluya səslənməliyiz...

Feyzulla Sacidlə mənim ilk tanışlığım «Türk yurdu» jurnalında nəşr etdirdiyi «Yurdumuzun torpağı» adlı «Qırıq kasa», «Gecə yarılarında» şeirləri vasitəsi ilə oldu. Sonra « Azərbaycan» qəzetinin 1919-cu il 350-ci sayında nəşr etdirdiyi «Türkün kitabı» şeirindəki türklük ruhunun bütövlüyünə heyran qaldım. O yazırdı:

Yıldızların altında vicdanıma bənzəyən
Abidələr, qübbələr, binalar bənim!
Yıldırıma bakdım bən qılıncımı çəkərkən;
Öldüräməz ruhumu cəfalər mənim.
Tutuşdurur fikrimi oyandırır irqimi;
Məsihimdir tufanlar, bəlalər bənim!

Şairin «Fəryad»ı şəxsi deyil, həm də ictimai və ümummilli səciyyə daşıdığından Azərbaycan ədəbi mühitində yüksək rəğbət qazanmışdı. 1920-ci ildə «Qurtuluş» jurnalında deyilirdi: «Bu günlərdə düşman təxribatına uğrayan Aydın, Zəngəzur və Naxçıvan məzlumlarına yardım komitəsinin nəşriyyatı olmaq üzrə möhtərəm şair Feyzulla Sacid bəgin «Fəryad» adlı bir kitabçası nəşr edilmiş füruşə konulmuşdur. «Fəryad» gözəl və nəfis bir surətdə on mənzuməyi havi 32 səhfəlik bir kitabçadır.

«Fəryad» həssas bir şairin lisanilə millətin ruhundan qopan fəryadları təsvir ediyor.

«Fəryad»ın satışından hasil olan faidə qaçqınlar üçündür».[1]

I Dünya müharibəsindən məğlub çıxan Türkiyə «fəlakətzədələri» - kimsəsizləri, habelə 1918-1920-ci illər hadisələri dövründə yurd-yuvasından didərgin düşmüş həmvətənlərimizə ianə kompaniyası başlamış, yardım komitələri yaranmış və xeyriyyəçilik hərəkatı güclənmişdi. Feyzulla Sacid də həmin hadisələrdən kənarda qalmayıb.

Şairin «Fəryad» şeirlər toplusu və digər əsərləri ilə tanışlıq, buradakı mövzu və ideyaların pafoslu təsviri və ifadəsi söyləməyə əsas verir ki, onun əsərləri yalnız bir şəxsin duyğuları deyil, bütöv bir xalqın «haqq bağıran səsi»dir (Ə.Cavad).

Ümumiyyətlə, həmin dövrün ədəbiyyatı və poetik düşüncəsindəki millilik ictimai hadisələr və ədəbi prosesin əsas keyfiyyət göstərici kimi maraq doğurur. Həmin illərdə Türkiyəli şair və yazarlardan Arif Ürfan Qaraosman, Rövşən Əşrəf Ünaydın,Səlma Səlim, Səriyə və bu kimi digər «əhli-qələmin» düşüncələri çağdaş ortaq türklük dəyərləri baxımından da mühüm əhəmiyyət kəsb edir. Misal üçün A.Ü.Qaraosmanın «Artıq oyan», «Həqqdən ürk», «Haydı qalx», «Çiçəklərə», «Yanmış anamın külləri qarşısında», R.Əşrəfin «Lalə», «Hüsnü-dai», «Dəyirman» kimi şeirləri

[1] Yeni kitab. Fəryad – «Qurtuluş» j., 1 nisan 1920-ci il, sayı 1, s.10.

həmin qəbildəndir. A.Ü.Qaraosmanın 1918-ci ildə Qafqaz-türk islam ordusunun Bakını erməni-daşnak və bolşevik hərbi birləşmələrindən azad etməsi münasibəti ilə yazdığı «Gül, sevin» adlı şeiri də deyilənlərə parlaq sübutdur. Anadolu və Qafqaz türklüyün mənəvi birliyini ifadə edən şair yazırdı:

Ay Qafqasyanın nurlu siması!
Ay əcdadımın şirin yuvası!
Ay türk irqinin böyük anası!
Ay yuca dağın münbit obası!
Gül, sevin artıq sana biz gəldik,
Səni qurtarmaq üçün yüksəldik.
Həp ormanların matəm ağlardı,
Dərələrində qanlar çağlardı,
Yavrularını atəş dağlardı,
İxtiyarü gənc qara bağlardı
Gülsün, sevinsin onlar biz gəldik,
Sizi qurtarmaq üçün yüksəldik.
Dünki hal, dünki atəş, dünki qan,
Dünki ələmlər, dünki ah, hicran,
Dünki əsarət, çəkilən xüsran.
Artıq yok onlar. Həp bitdi inan.
Gül, sevin Qafqaz, sana biz gəldik
Səni qurtarmaq üçün yüksəldik[1].

34/7/6

Tarixin bu günü ilə səsləşən və bu günümüzün tarixini parlaq şəkildə əks etdirən, çağdaş arzularımıza, Qarabağ dərdimizə ayna tutan həmin misralar, nə yazıq ki, vaxtında

[1] Arif Ürfan. Qiraosman (türk dyğuları, Qafqaz türklərinə), Gül, sevin. « Azərbaycan» qəzeti, 1918-ci il, №13.

bizlərə öyrədilməyib. Bizə nədən «Fəryad»dakı şeirlər öyrədilməyib? Niyə biz ata-babalarımızın sosial-psixoloji yaşantıların vaxtında və olduğu kimi aşina deyilik? Bu və buna oxşar sualların cavabını isə «Fəryad»la tanışlıqdan sonra tapa bilərsən, «bizi tarixdən sorun» deyən kişilərdən eşidərsən, möhtərəm oxucu!

"Sorun bizi tarixdən" kitabında , Bakı, "Nurlan" nəşriyyatı, 2008-ci il. səh. 3-13

"Yeni nəfəs" qəzeti, 04-17 oktyabr, 2008-ci il

"AZƏRBAYCAN" - 90
TARIXIN YADIGARLARI

Xalqımızın tarixində elə möhtəşəm abidə, şəxsiyyət, hadisə və digər həqiqətlər var ki, zaman-zaman onlara istinad etməklə biz özümüzün həyat və fəaliyyət tərzimizi müəyyənləşdirir, ümummilli inkişaf istiqamətlərimizi dəqiqləşdiririk. Belə tarixi abidələrdən biri Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) nəşr olunan "Azərbaycan" qəzetidir. Doğma Azərbaycanın birliyi, bütövlüyü, azadlığı uğrunda mübarizənin, istiqlal savaşımızın salnaməsi olan "Azərbaycan" qəzetinin 23 ay ərzində 400-dən çox sayı işıq üzü görüb. Qəzet dövrün ən populyar mətbuat orqanı olmaqla yanaşı, xalqımızın dövlətçilik, parlametarizm axtarışları, demokratik cəmiyyət quruculuğunun tarixi təcrübəsini özündə əks etdirir. Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamda deyilir: "Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci Dünya müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirirdi.

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən Cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə, bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır".

Tarixi öyrənmədən, milli-etnik yaddaş həqiqətlərini, tale yaşantılarını bilmədən sabaha addımlamağın nə qədər çətin olduğunu SSRİ-nin süqutundan sonrakı ilk illərin ağrı-acıları bir daha təsdiq etdiE

Bizi tarixdən xəbərdar edən ən etibarlı körpü milli mətbuat nümunələridir. O cümlədən, bu il 90 illik yubileyi tamam olan "Azərbaycan" qəzetidir. Azərbaycan mətbuatı tarixində eyni adlı qəzet və jurnal çox olub, indi də var, sabah da yəqin ki, olacaq. İndi biz varisi olduğumuz "Azərbaycan" qəzetinin ənənələrinə əsaslanır, müstəqil dövlətçilik, azad vətəndaş, demokratik cəmiyyət prinsiplərini əsas götürərək ölkədə gedən prosesləri əks etdirməyə çalışırıq. Odur ki, 90 illik yubiley ərəfəsində irs-varislik haqqına tapınaraq "Azərbaycan"ın Gəncədə çıxan birinci, Bakıda nəşr olunan birinci (ümumi sayda beşinci) və Azərbaycan Xalq Cümhuriyyətinin birillik yubileyinə həsr olunan xüsusi sayını yenidən Azərbaycan oxucusuna təqdim edirik. Xatırladırıq ki, qəzetin birinci nömrəsi 1918-ci il sentyabrın 15-də Qafqaz-türk islam ordusu tərəfindən Bakının erməni-daşnak və bolşevik qüvvələrindən azad olunduğu gün Gəncədə nəşr olunub. O vaxtın texniki çətinlikləri, mətbəə və mürəttib çatışmazlığı üzündən qəzet çağdaş poliqrafik tələblərə cavab verməsə də, "vilayətin və dövrün ayinəsi" (H.Zərdabi) olmaq etibarilə son dərəcə qiymətlidir. Həmin səbəbdən qəzetin adı çəkilən üç nömrəsini orijinala mümkün qədər toxunmadan, vətənsevər oxucularımıza tarixin yadigarları kimi ərməğan edirik.

"Azərbaycan" qəzeti (yubiley buraxılışı), 1998-ci il

"AZƏRBAYCAN" QƏZETİNİN NƏŞRİ TARİXİNDƏN*

Azərbaycan siyasi şüurunda istiqlal düşüncəsinin möhkəmləndirilməsi istiqamətində Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən milli demokratik mətbuatın xüsusi xidmətləri olmuşdur. Bu mətbu orqanlar arasında "Azərbaycan" qəzeti daha çox demokratik ideya istiqamətinin aparıcı orqanı olmuş və öz dəst-xətti ilə fərqlənmişdir. Çünki bu dövrdə Azərbaycan jurnalistikasının mütərəqqi ənənələrini qoruyan və cəmiyyətin demokratik əsaslar üzərində maariflənməsinə çalışan qəzet olmuşdur.

"Azərbaycan"ın nəşri milli mətbuatımızın tarixində əlamətdar bir hadisəyə çevrildi. Qəzetin adının "Azərbaycan" adlandırılması heç də təsadüfi deyildir. Dəfələrlə azərbaycanlı ziyalılar "Azərbaycan" adında qəzet nəşr etmək istəsələr də, buna nail ola bilməyiblər. Çar Rusiyası hökuməti nümayəndələri bu fikrin gerçəkləşməsinə qətiyyətlə mane olurdular. Çünki buna yol vermək, Azərbaycan adında bir ölkənin varlığını etiraf etmək idi. 1918-ci ildə isə yeni yaranmış müstəqil Azərbaycan Cümhuriyyətinin adını Azərbaycan və rus dillərində çıxan "Azərbaycan" qəzetinin adı vasitəsilə dünyaya yaymaq şansı əldə edilmişdir.

Beləliklə, "Azərbaycan" qəzeti 1918-ci il sentyabr ayının 15-də Gəncə şəhərində Yelizavetpol qubernatorunun mətbəəsində nəşrə başlayır. Gəncədə qəzetin cəmi 4 nömrəsi çap edilir. Dörd səhifədən ibarət olan birinci nömrənin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində buraxılmışdır. Milli mətbuatımızın cəfakeş tədqiqatçısı Ataxan Paşayev bu haqda

* Filologiya elmləri namizədi Q.Dünyamin qızı ilə müştərərk yazılıb.

yazır: "İkinci və üçüncü nömrələr rus dilində hərəsi iki səhifə, dörd səhifədən ibarət, axırıncı, dördüncü nömrəsinin isə üç səhifəsi rus dilində, bir səhifəsi isə Azərbaycan dilində idi. Görünür ki, ya mətbəə işçiləri və ya şriftlərin çatışmazlığı üzündən, yaxud da redaksiya işçilərinin olmamasına görə Gəncədə nəşr olunan "Azərbaycan" qəzeti əsasən rus dilində buraxılmışdır.

Yeri gəlmişkən, qeyd edək ki, Gəncədə nəşr edilən qəzetin Azərbaycan dilində buraxılmış səhifələrinin başında qəzetin adı ilə yanaşı belə bir yazı da verilmişdir: "Türk və islamçılığa müfid məqalələrə "Azərbaycan" səhifələri açıqdır".

Qəzet birinci nömrəsində bu haqda yazırdı: "Türklük və islamlıq - iştə bu şüarlar ilə müstəbid Rusiya çarlığının cəngəlindən qurtarmış gənc Azərbaycan hökuməti isbati-vücud etməyə iqdam etdi.

Həqq-təala müvəffəqiyyətlər versin!"

Amma çox təəssüflər ki, sovet dövründə yazılan tədqiqat əsərlərində "Azərbaycan"ın nə vaxt və neçə nömrəsinin çap edilməsi haqqında bir-birini təkzib edən faktlar vardır. Məsələn, professor Nazim Axundov hələ 1965-ci ildə nəşr etdirdiyi "Azərbaycanda dövri mətbuat (1832-1920)" kitabında qəzetin 1918-ci ilin iyun ayında Gəncədə dörd nömrəsinin çapdan çıxdığını qeyd edir.

Doğru deyil. Çünki "Azərbaycan"ın Gəncədə çıxan birinci nömrəsində "8 zilhəccə 1336" tarixi yazılıb. Bu tarixi miladiyə çevirəndə 15 sentyabr 1918-ci ilə düşür.

Bunu birinci nömrədə verilən yazılar da bir daha sübut edir. Qəzetin birinci sayında həm rus, həm Azərbaycan dillərində çap edilmiş "Bakının süqutu" haqqında olan materiallar daha önəmlidir. Birinci nömrədə "Azərbaycan istiqlalının mübəyyin əqdnaməsi", Məhəmməd Hadinin "Türk nəğməsi" şeiri, hökumətin yeni qanun və qərarları, xəbərlər, teleqramlar və s. verilmişdir.

Bakının alınması münasibətilə Azərbaycan Cümhuriyyəti hökumətinin sədri Fətəli Xan Xoyski tərəfindən Nuru Paşaya göndərilən bir təşəkkür teleqramı diqqəti daha çox cəlb edir: "Qafqaz İslam Ordusunun Komandanı səadətli Nuru Paşa həzrətlərinə. Təhti komandanımızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşmənlərdən xilas edilməsi münasibətilə millətin zatihəmiyyətpərvəranələrinə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm, əfəndim. Heyəti - vükalə rəisi Fətəli xan".

Qəzetin birinci nömrəsində türk əsgərlərinin igidliyi haqqında belə yazılıb:

"EAzərbaycan türkləri dəxi yüz illərcə adları ağızlarında söylənilən pənahgah və ümidgahları olan Turan qardaşlarına pənah apardılar. Ömürlərin əksər vaxtını islam düşmənlərilə mübarizədə keçirmiş türkün arslan oğulları, türkün qəhrəmanları Şimal qardaşlarının imdadına yetib hətta Gəncəyi belə təhdid edən düşməni bir azca zamanda münhəzim (məğlub) edib də hal-hazırda Azərbaycanın paytaxtını düşməndən təmizləməkdədirlər:

Böylə ki "hər bir millət kəndi - kəndisini idarə etməyə haqqı olsun"- əsası biz Azərbaycan türklərinə dəxi yetişdi. Azərbaycanın istiqlaliyyəti, onun Rusiyadan ayrılması röya olmayıb, həqiqətdir".

Bütün bunlar bir daha sübut edir ki, "Azərbaycan"ın birinci nömrəsi 15 sentyabr 1918-ci ildə çap edilib.

Bəzi tədqiqatçılar isə qəzetin nəşri tarixi ilə bağlı Ceyhun bəy Hacıbəylinin xatirələrinə əsaslandıqlarını bildirirlər. Amma unutmaq olmaz ki, Ceyhun bəy xatirələrini uzun illər keçdikdən sonra 1951-ci ildə yaddaşına əsaslanaraq yazmışdır. Ona görə də bəzi qeyri-dəqiq məlumatlara yol verilmişdir.

Məsələn, Ceyhun bəy xatirələrində yazırdı: "Azərbaycan"ımızın ilk sayı sentyabrın 15-də çıxdı. "Azərbaycan"ımız Azərbaycan paytaxtının qurtuluşu günü nəşrə başladı.

Üç-dörd gündən sonra Bakıya gəldik. "Azərbaycan" ikiləşdi. Biri türkcə, biri rusca çıxırdı".

Əslində, "Azərbaycan" Gəncədə ikiləşmişdi. İlk nömrədən Azərbaycan və rus dillərində çap edilmişdir.

Bakıda "Azərbaycan" qəzetinin Azərbaycan dilində beşinci nömrəsi 1918-ci il oktyabrın 3-də, rus dilində isə oktyabrın 7-də çap edilir. Bu haqda "Azərbaycan"da yazılıb: "Sabiqdə Gəncədə rus dilində nəşr olunan "Azərbaycan" qəzetəsi şənbə günündən (7 oktyabr 1918) etibarən Bakıda nəşr olunmağa başlayacaqdır".

Və bu nömrədən başlayaraq qəzetin adı altında "Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir" sözləri yazılmağa başlamışdır.

"Azərbaycan" qəzeti Azərbaycan dilində 6-cı nömrəyə qədər "heyəti- təhririyyə" imzası ilə çap edilib. Altıncı nömrədən Azərbaycan və beşinci nömrədən isə rus dilində çıxan qəzetlərdə mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfibəy Rüstəmbəyli, 50-ci nömrədə müdir göstərilmir, 51-ci nömrədən ta 1919-cu il 16 yanvarda çıxmış 89-cu nömrəyə qədər müdir və baş mühərrir Ceyhun bəy Hacıbəyli, 89-cu nömrədən 1919-cu il 4 iyul tarixli 216-cı nömrəyə qədər müvəqqəti müdir Üzeyir bəy Hacıbəyli, 4 iyul 216-cı nömrədən 1 sentyabr 265-ci nömrəyə qədər müvəqqəti müdir Xəlil İbrahim, 1 sentyabr 265-ci nömrədən 31 dekabr 1919-cu il tarixli 358-ci nömrəyə və 1 yanvardan ta 28 aprel 1920-ci il tarixli (85-ci nömrə də daxil olmaqla) müdir Üzeyir bəy Hacıbəyli olmuşdur.

1919-cu il dekabrın 28-də Azərbaycan hökuməti parlamentin ağsaqqallar şurası üzvlərinin iştirakı ilə Paris sülh konfransında iştirak etmək üçün Ə.M.Topçubaşovun rəhbərliyi ilə Azərbaycan Cümhuriyyəti hökumətinin nümayəndə heyətinin

tərkibini müəyyən edir. Nümayəndə heyətinə müşavir sifətilə "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli də daxil edilir.

Beləliklə, "Azərbaycan"ın bütün məsuliyyəti Ceyhun bəyin böyük qardaşı Üzeyir bəy Hacıbəylinin üzərinə düşür. Bu dövrdə onun jurnalistlik və publisistik fəaliyyəti əsasən "Azərbaycan" qəzeti ilə bağlı olur. Üzeyir bəy qəzetin bütün saylarında çıxış edirdi. Ü.Hacıbəyli demokratik ideyaları təbliğ edən ən aktiv jurnalist, publisist kimi fərqlənmiş, AXC-nin istiqlal savaşında mübariz mövqedən çıxış etmiş, rəhbərlik etdiyi mətbu orqanı da bu istiqamətə yönəltmişdir.

"Azərbaycan"ın ətrafında C.Hacıbəyli, Ü.Hacıbəyli, Ş.Rüstəmbəyli, Xəlil İbrahim, M.Ə.Rəsulzadə, F.Ağazadə, M.Hadi, H.İ.Qasımov, M.Şahtaxtlı, A.Ziyadxanlı, Ə.Müznib, Ə.Cavad kimi istedadlı qələm əhli toplaşmışdı. Qəzetin fərqlənməsində onların böyük xidmətləri olmuşdur. Mükəmməl siyasi məslək, milli əqidə daşıyıcıları olan bu şəxsiyyətlər Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinə çalışmış, milli dövlətçilik şüurunun inkişaf etdirilməsində, milli azadlıq ideyalarının yayılmasıda müstəsna xidmət göstərmişlər.

Rus dilində çıxan "Azərbaycan"ın redaktoru olan Şəfibəy Rüstəmbəyli həm də Azərbaycan parlamentinin deputatı idi. Ş.Rüstəmbəyli Azərbaycanın milli istiqlalı uğrunda gedən mübarizənin ən fəal nümayəndələrindən olmuşdur. O, 1919-cu ildə ilk dəfə Azərbaycan mətbuatı haqqında nizamnamənin hazırlanmasında çox böyük xidmət göstərmişdir.

"Azərbaycan"ın digər redaktoru Ceyhun bəy Hacıbəyli də dövrünün tanınmış, istedadlı gənc qələm sahiblərindən idi. O, "Azərbaycan"ın nəşrə başlaması və davamı üçün bütün varlığı ilə çalışmışdır.

Xəlil İbrahim dövrünün tanınmış jurnalistlərindən idi. "Açıq söz", "İstiqlal", "Bəsirət", "Qurtuluş", "Qurtuluş yolu", "Azərbaycan" kimi milli demokratik ruhlu mətbu orqanlarında

müntəzəm çıxış etmiş, hətta bəzilərinə qısa müddətdə redaktorluq da etmişdir.

M.Ə.Rəsulzadənin siyasi çıxışlarının əksəriyyəti "Azərbaycan" qəzetində çap olunmuşdur. O, dövrün siyasi hadisələrinə aktiv şəkildə münasibət bildirib. Bu çıxışlar xalqı səfərbər etmək, iqtisadi-siyasi problemlərin müvəqqəti olmasını sübut etmək, müstəqilliyin ağır sınaqlarına dözmək və digər məsələlərə həsr olunmuşdur. Bu siyasi məqalələr ideya dolğunluğu və məzmun zənginliyi ilə bərabər, ciddi şəkildə ümumiləşdirilmiş həyati faktlara əsaslanırdı.

"Azərbaycan" qəzeti həm də jurnalistikanın prinsipləri baxımından kifayət qədər professional səviyyəli bir nəşr idi. Azərbaycanda demokratik dəyərlərin bərqərar olmasında qəzetin böyük rolu olmuşdur. Qəzet ölkədə baş verən bütün ictimai, siyasi, mədəni, iqtisadi hadisələri işıqlandırmağa can atırdı.

Azərbaycan Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də fəaliyyətə başladıqdan sonra qəzetin səhifələrində onun fəaliyyəti geniş işıqlandırılmış, müntəzəm olaraq oxucunu məlumatlandırmışdır. "Azərbaycanın - Məclisi-Məbusanında" rubrikası adı altında müntəzəm olaraq parlamentin iclasının hesabatları dərc edilirdi. "Hökumət qərarları", "Rəsmi xəbərlər", "Xarici xəbərlər", "Azərbaycanda", "Türkiyədə", "Teleqraf xəbərləri", "Qəzetlərdən", "İrəvan müsəlmanlarının halı" və başqa bu kimi daimi rubrikalar da var idi.

Bunlarla yanaşı, "Azərbaycan"ın səhifələrində poeziyaya da yer verilirdi. "Əsgər şeiri" adlı ayrıca guşə də açılmışdı. Ə.Cavadın "Gəlmə", "Qardaş", "İngilis", A.Şaiqin "Vətənin yanıq səsi", "Əsgər şərqisi", Mürşidin "Qarabağda həlak olmuş arkadaşlarımızın ruhuna ithaf", Davudun "Əsgər şeirləri", "Azərbaycan ordusuna", Ə.Şövqinin "Azərbaycana", Umugülsümün "Əsgər anasına", "Bir mayıs günündə" əsərlərində milli istiqlalın

qorunmasına, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinə çağırışlar səslənirdi.

Türk ortaq mədəniyyəti ideyasının təşkili məqsədilə "Türk şərqiləri", "Türk duyğuları", "Türkün dərdi" kimi rubrikalar da qəzetdə özünə yer tapmişdir.

"Azərbaycan"ın "Teatro və müsiqi" adlı şöbəsi teatr, aktyor və tamaşaçı probleminə dair müntəzəm yazılar, xəbərlər dərc edirdi.

90 il bundan əvvəl "Azərbaycan" milli müstəqilliyimizi, istiqlalımızı qoruyub saxlamaq üçün əzmlə mübarizə aparmış, bu amal uğrunda xidmət etmişdir.

"Azərbaycan"ımızın varisi, davamçısı olan bugünkü "Azərbaycan" da həmin amallar uğrunda mübarizə aparan azad fikir tribunasıdır.

"Azərbaycan -90" kitabında,
Bakı, Azərnəşr, 1998, c. 59-62.
"Azərbaycan" qəzeti, (xüsusi nömrə) 1998-ci il,
yubiley buraxılışı.

BÖYÜK BIR ÖRNƏK

İnsanın kimliyi onun nəyə can atmağında, nəyi sevməyində, nəyə nifrət etməyindədir. İnsanın zövqü, şövqü, sevinci, kədər, əzab və qəmi bu mənada hər şeydən çox maraq doğurur və onun yaşamaq qüdrətini ifadə edir. Bu mənada böyük Azərbaycan müəllimi, yazıçı, şair, dramaturq və ictimai xadimi Abdulla Şaiqin həyat yolu sözün tam mənasında bir örnəkdir.

Abdulla Şaiqi ilk uşaqlıq illərindən, dilimiz söz tutandan tanımışıq. İlk şeiri söyləyəndən, ruhumuzu ifadə etməyə başlayandan tanımışıq o böyük Azərbaycan ədibini. Həmişə onu xatırlayanda ən doğma adam, ən müdrik şəxsiyyət kimi tanısmışıq o böyük «ruh doktoru»nu (A.Musaxanlı), elə bilmişik ki, o, bizimlə birgə kənddə, məhəllədə, şəhərdə, eyni küçədə yaşayır, hər bir işimizə diqqət yetirir. Elə bilmişik ki, bizim düşüncələrimizə ən çox bələd olan, hamıdan artıq bizi gələcəyə səsləyən, hər gün səhər tezdən günəş kimi könlümüzə işıq saçan Dədə Qorqud misallı bir türk müdrikidir. Aradan xeyli keçəndən, uşaqlığa vida edəndən, yaşlaşandan, uşaqlarımızın uşaqlarının da Abdulla Şaiq adına heyranlıqla bağlılığını görəndə indi həm yanılmadığımıza sevinir, həm də bunun sirrini bilməyə çalışırıq. Abdulla Şaiqin – o nadir şəxsiyyətin, görkəmli müəlimin, romantik şairin, istedadlı naşirin, ədəbiyyatşünas-alimin, tərcüməçinin, tənqidçinin, nəzəriyyəçinin, ictimai xadimin əbədiyyən var olmasının sirri nədir? Bu sualın cavablandırılması üçün, şübhəsiz ki, onun işi, əməli, ideyası, xidmətləri, əsərləri ən etibarlı mənbədir. Çünki, onun özünün də inandığı, dəfələrlə təkrarladığı «hər bir insanın dəyəri onun işi, əsərləri ilə ölçülür» fikri hər zaman cəmiyyətdə şəxsiyyətləri seçmək üçün meyar sayılır.

Uşaqlıq illərindən əsərlərini sevə-sevə oxuduğum, əzbərlədiyim, «Köç» hekayəsində özümün və böyüdüyüm bölgənin adamlarının həyatını, məişət və məşguliyyətini gördüyüm Abdulla Şaiqin obrazı xəyalımda möhtəşəmliyi ilə seçilir, onun çinar kimi iri gövdəli, nağıl qəhrəmanları kimi yenilməz biri olduğunu sanırdım. Lakin zaman keçdi. Tale məni xəyalımın qəhrəmanı olan Abdulla Şaiqin oğlu – ədəbiyyatşünas- alim, Azərbaycan tənqid tarixinin tədqiqatçısı, akademik Kamal Talıbzadə ilə tanışdırdı. Onun rəhbərliyi ilə ədəbiyyatşünaslıq tədqiqatına başladım. Azərbaycan tənqidinin tarixi təcrübəsi, nəzəri xüsusiyyətləri, şəxsiyyətləri barədə əsərlər yazdım və zaman-zaman Abdulla Şaiqin əsərlərini yenidən mütəxəssis gözü ilə, həm də akademik Kamal Talıbzadənin qeyri-rəsmi, yəni çap olunmamış, belə də demək olar, şifahi şərhlər, kommentariyaları ilə yenidən oxudum. Oxuduqca uşaqlıq xatirimdəki obrazın cizgiləri daha da işıqlanmağı, dəyişməyə başladı, millətinin, vətəninin əzablarını taleyində yaşadan, nurani sifəti və qocalığının kədərli çöhrəsində parçalanmış vətəninin şırımları ilə daha çox maraq doğurmağa başladı. Və gördüm ki, o böyük romantik Şaiq elə gənclik illərində də yaşlı nəslə məxsus müdrik məntiqi ilə vətənin əzablarına könül dünyasında ayna tutub. Buna əmin olmaq üçün 1905-ci ildə yazmış olduğu «Vətən» şeirini oxumaq kifayətdir. Orada deyilir:

Ey çeşmimin önündə mücəssəm, vətən, vətən!
Qəlbim kimi ələmlərə həmdəm, vətən, vətən!
Fikrim sarayını dolaşırsan zaman-zaman,
Qanlı kəfənlə, dərd ilə toəm, vətən, vətən!
Baxdıqca həsrət ilə solğun camalına,
Çeşmimdə tar görsənir aləm, vətən, vətən!
Axşam-səhər o gül üzünü isladan nədir?
Göz yaşlarınmı, yoxsa ki, şəbnəm? Vətən, vətən!
Dəhşət içində cismi-şərifin donub durur,

Nolmuş vücudi-pakinə bilməm, vətən, vətən!
Baxdıqca gül-çiçəkli o gülgün çəmənlərə,
Möhnət evi sanır onu adəm, vətən, vətən!
Sənsən səbəb bəqayi-dilü cani-natəvan
Canım kimi nolar səni sevsəm, vətən, vətən!
Gördükcə dərdini əriyir cismi-natəvan,
Ney tək sızıldayır dili-pürqəm, vətən, vətən!
Qarşımda dərd, matəmə batmış gözəl mələk,
Səslər həzin səda ilə hərdəm: vətən, vətən!
Ey xaki-pak, söndümü parlaq ziyaların?
Oldunmu zülmə, möhnətə hərdəm, vətən, vətən?
Övladi-naxələfmi səni saldı bu günə?
Eyvah, bu dərd, möhnətə dözməm, vətən, vətən!
Aç, aç o qəmli köksünü, ey məxzəni- məlal,
Bas bağrına bu Şaiqi möhkəm, vətən, vətən!

Abdulla Şaiq XX əsrin əvvəllərində Azərbaycanda meydana gələn məşhur füyuzatçılar hərəkatına mənsub yaradıcı şəxsiyyətlər sırasına daxildir. Elə buna görə də onun əsərlərində «türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək)»= azərbaycançılıq konsepsiyası parlaq şəkildə ifadə olunur. Bu dəyərlər mövqeyindən çıxış edən Abdulla Şaiqin ortaq dil, din, tarix, mədəniyyət, gələcək tale barədə düşüncələri onu Turan coğrafiyasına bağlayır, «dildə, fikirdə və əməldə birlik» (İsmayıl Qaspiralı) ideyasının daşıyıcılarından biri kimi məşhurlaşdırırdı. Ədibin bu istiqamətdəki yaradıcılıq axtarışlarına, Anadolu – türk ədəbiyyatına istinad etməsi, xüsusilə Əbdülhəqq Hamid, Mahmud Əkrəm Rəcaizadə, Tofiq Fikrət, Namiq Kamal, Məhəmməd Əmin Yurdaqul kimi ümumtürk dahilərindən bəhrələnməsi onun vətən, torpaq, millət, dövlət, insan, xalq, azadlıq, romantik gələcək barədə düşüncələrinin konkretləşməsinə, gerçəkçi-realist boyalar, inandırıcılıq qazanmasına səbəb olur, tarix və yaradıcı şəxsiyyət qarşısında sənətkar taleyinin ağrı-acılarını, sevinc və kədərini daha canlı izhar etməyə

təsir göstərirdi. Bunun nəticəsidir ki, Abdulla Şaiq Mahmud Əkrəm Rəcaizadənin poetik intonasiyasına uyğun şəkildə 1908-ci ildə «Yad et» şeirində deyirdi:

Vəqta ki gülər bahari-amal,
Hər yerdə yaşıllanar çəmənlər.
Vəqta ki, olar müsaid iqbal
Bülbüllər ötər, susar zəğənlər,
Parlaq bir işıq alar fəzanı,
Dünyanın üzü dönər cinanə,
Gəzdikcə o aləmi-ziyanı,
Baxdıqca o gülşəni-cəhanə,
Yad et, məni- şairanə yad et!

Vəqta ki, gələr sevimli ati,
Bir dairəyə girər həqayiq.
Nuri bürüyər bütün cihati,
Ulduzlar ilə yanar rnəşariq.
Vəqta ki, bulud durnan görünməz,
Olmaz daha zülümdən nişanə,
Yerlərdə bəşər üzü sürünməz,
Qurd-quş sığınar bir aşiyanə,
Yad et məni-Şaiqanə yad et!

Atəşli, münir əməllərimlə,
Bir gün düşərəm soyuq məzarə.
Əşari- təranəpərvərimlə
Bir gün susaram dönüb qubarə.
Vəqta ki, bu şairi-vətəndən
Dünyada nə iz qalar, nə də nam,
Üzdükcə səadət üçrə şən-şən.
Süzdükcə dəmadəm ötrü-xoşkarn,
Yad et məni- qaibanə yad et!

Abdulla Şaiq ümumtürk tarixinə böyük qiymət verir, onun tədqiq və tədrisinin əhəmiyyətini tez-tez nəzərə çatdırırdı. Ədəbiyyata dair dərsliklərində, publisistik yazılarında, nəsr, dramaturgiya və poeziyasında bu işi ardıcıl və sistemli şəkildə davam etdirən Abdulla Şaiqin yaradıcılıq və həyat təcrübəsi indi müasirlərimizə böyük bir örnəkdir. Abdulla Şaiq ortaq türk tarixi həqiqətilərini dilə gətirərəkən sadə onunla öyünmür, qürurlanmır, ona uğurlu-uğursuz təşbehlərlə yanaşıb obrazlı ifadələrlə tərənnüm orijinallığını ortaya qoymağı yeganə məqsəd bilmir. Ədib daha çox türk tarixinin tale ağrılarına ayna tutmağı, şanlı-şöhrətli türk dövlətlərinin müasir yaşam problemlərini çözməyi məqsəd və vəzifə bilirdi. O çar Rusiyası ərazisində əzilən türklüyün iztirablarını yaşayır, dünyada ən uzunömürlü və möhtəşəm imperatorluğun- Osmanlı imperatorluğunun çökməsini kədərlə qarşılayır, beləliklə müasir türklüyü başı kəsilmiş qocaman palıd ağacının nəhəng kötüyünə bənzədərək 1914-cü ildə Bakıda «Şəlalə» jurnalında (bu jurnal sovet hakimiyyəti illərində türkçü mətbuat kimi ən ağır ifadələrlə ittiham olunub) «Pöhəran» (Pöhrələr) adı ilə çap etdiyi şeirində deyirdi:

Kötüklərin arasında ulu, sağlam bir kötük,
Ağır, kəskin baltalarla qanadları qırılmış,
Tüfanlarla çarpışaraq, qalib gəlmiş, yorulmuş,
Uca, sağlam və kölgəli dalları qalmış tək-tük.

O dalların damarında, soyundakı əsalət,
Şanlı, keçmiş tarixini anlatıyor hər yarpaq
Bayraq kibi kölgəsində bəsləmiş bir «oymaq».
Şimdi bir az qocalmış, qalmamış əski qüvvət.

Qoca kötük o dallarla lakin məğrur deyildir,
Rişəsindən sürmüş olan bir çox sağlam pöhrənə
Məğrur baxışlarla bakar, fəxr edər artıq yenə
Gələcəyə şanlı ümid, şanlı tarix doğurur.

Bu pöhrələr həpsi sağlam bir kötükdən cücərmiş,
Bir damardan ayrılmış, həp bir torpağın fidanı,
Bir döldən, bir yataqdandır, həpsinin birdir qanı,
Bir çeşmədən su içmişlər, bir bağban becərmiş.

Uca, sağlam və kölgəli ağac olur bir zaman,
Kölgəsində bir çox insan ömür sürər asudə;
Fırtınadan, tufanlardan sən bunları əsirgə,
Ay mehriban, ulu tanrı, ay sevimli yaradan.

Burada bir xatırlatmanı söyləmək vacibdir ki, həmin şeiri Abdulla Şaiq 1930-cu illərdəki nəşrlərindən sonra həmişə «Fidan» adı ilə təqdim edib və beləliklə də qoca türkün taleyini əks etdirən şeirin ilk məna və məzmun özəlliyi gizlədilib. Nəinki şeirlərinin, əsərlərinin məna və məzmununu, hətta özünün kimliyini də gizlətmək 1930-cu illərdə siyasi repressiyalar səbəbindən məqbul sayılırdı. Bu xof İ.V.Stalinin ölümündən bir müddət sonra da aradan qalxmamışdı. Ədibin oğlu Kamal Talıbzadə danışırdı ki, 1940-cı illərdə, müharibə illərində söz yayılmışdı ki, Hüseyn Cavid Sibirdə sağdır və haçansa Bakıya qayıda bilər. Günlərin birində evimizə telefon zəngi oldu, kimsə atamla danışdı. Bir neçə gün sonra atam kiçik əl çantasını götürüb dəmiryolu vağzalına getdi. Az sonra qanı qaralmış və qorxmuş halda qayıtdı. Məsələ belə olubmuş ki, telefonda danışan adam dövlət təhlükəsizlik idarəsinin işçisi imiş və atamı yoxlamaq üçün zəng edibmiş ki, Hüseyn Cavid filan qatarla Bakıya gəlir, onu qarşılamaq lazımdır. Vağzalda qatarları gözləməkdən yorulan və Hüseyn Cavidin gəlmədiyinə əmin olan Abdulla Şaiqə bir nəfər yaxınlaşır, özünü təhlükəsizlik xidmətinin əməkdaşı kimi təqdim edir və onun «pantürkist» kimi təqib, ifşa olunduğunu nəzərinə çatdırır. Kamal müəllim söyləyirdi ki, atam bir müddət qorxu içində yaşadı və əl çantasını açmadı. Aradan bir müddət keçəndən sonra çanta açıldı. Onun içindən

kiçik dəsmal, ağ parçadan kişi alt paltarı və üz qırxmaq üçün ləvazimat çıxdı. Demə, atama zəng edən adam bildirib ki, mən Hüseyn Cavidin sürgün yoldaşıyam, şair xahiş edib ki, məni Abdulla Şaiq qarşılasın. Çünki pal-paltarı pis gündədir və üzünü qırxmayıb. Doğmaları ilə belə görüşmək istəmir. Kamal müəllim deyirdi ki, o çantanın gec açılmasının bir səbəbi də Abdulla Şaiqin öz həbsini gözləməsi idi. Yəni həbs olunsa çantasındakılar gedər-gəlməz üçün lazımdır.

Azərbaycan Xalq Cümhuriyyəti birdən-birə, fövrən yaranmayıb. Yəni ikibaşlı qartalın təmsilçi olan çar Rusiyası çoxmillətli ölkənin, «millətlər həbsxanası»nın məşhur inqilabçı-demokrat oğullarının əməli və siyasi fəaliyyəti nəticəsində süqut etdi. Tarixin bu təbii axarında çar Rusiyası imperiyasının digər bölgəldərində olduğu kimi Qafqazda, o cümlədən də Azərbaycanda ictimai-siyasi hadisələrin dramatizmi son dərəcədə güclü idi və bir sıra faciələrlə müşayiət olunurdu. Azərbaycana ermənilərin torpaq iddiaları və bir sıra seperatçılıq hərəkətləri milli münasibətləri gərginləşdirmiş, Bakıda və digər ərazilərdə qırğınlara səbəb olmuşdu. Erməni quldur dəstələrinin başda S.Şaumyan olmaqla törətdiyi qanlı hadisələr Azərbaycanı sarsıtmışdı. Bolşevik-daşnak işbirliyinin nəticəsində 1918-ci ilin mart soyqırımı həyata keçirilmiş, Bakıda qırğın və talanlar olmuşdu. İkibaşlı qartalın süqutundan sonra yaranan Bakı Xalq Komissarları sovetinin fəaliyyfətinə son qoyulması (1918-ci il iyulun 31-də) və Sentrokaspi diktatorunun yaranması, habelə müxtəlif hakimiyyət qüvvələrinin fəallaşması, onların bir-birinə qarşılıqlı ittiham şəraitində yanaşması həm ümummilli faciələrə səbəb olur, həm də hakimiyyətsizlik sindromu xalqın sosial-psixoloji yaşantılarında ziddiyyətlər yaradırdı. Məhz həmin vaxtlar Bakıda məşhur «İsmailiyyə» binası və «Kaspi» mətbəəsinin də yandırılması, çoxsaylı insan tələfatı xalqın səbr kasasını daşırmış, ziyalılarda qəzəb, hiddət və ümidsizlik hisslərini coşdurmuşdu. Mövcud vəziyyəti Bakının Yüxarı Dağlıq

(Verxni-Naqorni) küçəsində yaşayan Abdulla Şaiq yaxından müşahidə edərək türk qardaşlarına müraciətlə «Neçin böylə gecikdin?» deyə yazırdı:

Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, xırpalanmış,
Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri,
Yakılar da, yakar bütün qayğı vurmuş elləri.
Şu təpənin öksüzləri, gəlinləri, dulları,
Göz yaşıyla sulanmış həp keçdiyiniz yolları.
Yolunuzu bəkləməkdən bənizləri saralmış,
Heç gəlmədin. O şən, gülər ürəkləri qəm almış.
Sən gəlməsən, dolumsanmış ürəklər heç şad olmaz,
Sən gəlməsən, xərabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz,
Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.
Başqasını istəməm də, ey türk, çabuq sən gəl, sən,
Bəkləməkdən yoruldum, eh, iştə gec qaldın, nədən?
Yollarına daşmı qalanmış? Ya azgın quldurlar
Burakmıyorlar? Daş, dəmir, ya polad olsa da onlar,
Ürəyində şölələnən mətin, qızğın atəşlə
Yak onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala!
Xain, alçaq düşmənlərə yol gücünü həp göstər,
Aç yolları, çabuk gəl ki, qəlbim səni pək istər.

Şair türk ordusunun, türk əsgərinin Azərbaycana gəlməsini arzulayır: «Başqasını istəməm də, ey türk, çabuq sən gəl, sən» deyir. Onu qardaş, sirdaş, yoldaş bilir, xilaskar kimi qiymətləndirir. İntizar çəkir ki, vətəni azğın quldurlar tərəfindən xarabaya çevrilib, ürəklər qəmlə dolub, vətənin evsizləri, gəlinləri və dullarının bənizləri saralıb, yollara baxan gözlər ağlar qalıb. Abdulla Şaiqin «Neçin böylə gecikdin?» şeirini yalnız ideya-bədii məziyyətləri baxımından deyil, həm də ümumxalq

taleyini əks etdirməsi, Azərbaycanın milli-tarixi həqiqətlərinə ayna tutması baxımından da yüksək qiymətləndirmək lazımdır. Çünki bu tarix həqiqətlərini uzun müddət yaddaşdan silməyə çalışmaqla sovet ideoloji strukturları milli təfəkkürdə yarımçıqlıq kompleksi yaratmağı məqsəd bilib. Elə həmin səbəbdəndir ki, «xain, alçaq düşmənlərin» mövqeyini ifşa edən Abdulla Şaiq həmfikirləri olan məşhur cümhuriyyətçi şair Əhməd Cavad, habelə Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Əlibəy Hüseynzadə, Əliabbas Müznib, Salman Mümtaz, Əmin Abad və onlarla başqalarının bu qəbildən olan şeirləri, nəsr və publisistika nümunələri tədqiq və təhlildən kənarda saxlanılıb.

Böyük ədibin oğlu akademik Kamal Talıbzadə ilə XIX əsrin sonu, XX əsrin əvvəllərində baş verən hadisələr barədə tez-tez və geniş söhbətlər edir, onun məsləhəti ilə bu dövrün fakt, sənəd, hadisə, problem, şəxsiyyət və əsərləri haqqında daha aydın təsəvvür əldə etməyə çalışırdım. Xüsusilə bu dövrün intibah səciyyəsi məni maraqlandırır, Azərbaycanın «neft və milyonlar səltənəti»nə çevrilməsi, ortaq türklük dəyərlərinin formalaşması, milli mətbuat və jurnalistikanın ictimai fikir institutu statusu qazanması, yəni müasirlik düşüncəsinə rəvac verməsi və «dördüncü hakimiyyət» kimi fəaliyyət göstərməsi doğrudan da cəlb və cəzbedicidir. Çünki bu dövrün xaosu içindən, «iki od» arasından Azərbaycan Xalq Cümhuriyyəti Simurğ quşu kimi təzahür edib. Bu yolda Abdulla Şaiqin də öz xidmət payı var; əsərləri, tələbələri, dostları, düşüncə və əməlləri ilə. Lakin biz bunlardan xəbərdarıqmı, onları olduğu kimi tanıyırıqmı? Dövrün ədəbi-nəzəri materiallarına, xüsusən də mətbuatına dərindən bələd olan və Abdulla Şaiqin əsərlərinin sovet dövründə nəşrinə böyük əmək sərf edən akademik Kamal Talıbzadə ilə bu mövzuda söhbətlərimizdə o, həmişə özünü qınayır, atasının əsərlərinin çoxcildliyində yol verdiyi «xətalar»dan danışır və kədərlənirdi. Misal üçün o bədii-poetik mətnlərin nəşrində fonetik dəyişmələrin edilməsini yolverilməz sayır və bunun ciddi

qüsur olduğunu nəzərə çatdırırdı. Mən «Həpimiz bir günəşin zərrəsiyiz» şeirini niyə ilk variantlarından fərqli şəkildə nəşr etdirdiyini soruşunda demişdi bu fikirləri. Hətta çoxcildliyin redaktoru olan görkəmli bir yazıçının bu təkidlə tələb etdiyini, qlavlitin-senzuranın da belə istədiyini kədərlə xatırlamışdı. Əsas səbəb isə xatırlanan şeirin misralarından, fonetik səslənməsindən, fikir, ifadə və məzmunundan türklük duyğusunun, ruhunun, milli kimliyinin açıq-aydın görünməsi idi. Sovet hakimiyyətinin totalitarizmi ilə, ideya-siyasi doktrini ilə bir araya sığmayan və bu səbəbdən də sıxışdırılan türklük həqiqətlərini gizlətmək dövrün «ədəbi redaktəsinin» boynuna düşmüşdü. Bütün bunlara baxmayaraq həmin şeir qosqoca türk etnosunun dünyaya baxış mövqeyini çox parlaq ifadə edir. Abdulla Şaiqin 1910-cu ildə yazdığı həmin şeirin «Hamımız bir günəşin zərrəsiyik» variantı ilə çap olunmuş mətnində deyilir:

Əsrlərdən bəri zülmə alışan
Qan içən, qan qusan, ey şər insan!
Aldımı qəlbinizi qisvəti-şum?
Yakdımı ruhunuzu badi-səmum?
Görünürmü sizə xoş qanlı həyat?
Unudulmuş bəşəriyyət, heyhat!
Hamımız bir yuvapərvərdəsiyik!
Hamımız bir günəşin zərrəsiyik!
Ayırmaz bizləri təğyiri-lisan,
Ayırmaz bizləri təbdili-məkan,
Ayırmaz bizləri İncil, Quran,
Ayırmaz bizləri sərhəddi-şəhan.
Ayırmaz bizləri ümmanü mühit,
Ayırmaz bizləri səhrayi-bəsit
Ayırmaz bizləri həşmətli cibal
Ayırmaz: şərq, cənub, qərb, şimal.
Yetişər kinü ədavət daşımaq,
Qoxumuş məzbəhələrdə yaşamaq.

Uzadın dəsti-üxüvvət sıxalım.
Rüşeyi-zülmü, nifaqı yıxalım!
Qəlbimizdə yaşasın möhrü vəfa.
Verəlim bir-birinə dəsti-vəfa.

Xatırlayıram ki, günlərin birində Kamal müəllim Azərbaycan Milli Elmlər Akademiyasının Nizamı adına Ədəbiyyat İnstitutunun elmi şurasında Birləşmiş Millətlər Təşkilatının (BMT) insan hüquqları üzrə Azərbaycandakı nümayəndəsi Paolo Letmbonun həmin şeiri rəsmi məclislərin birində oxumasını, ondan sitat gətirməsini xüsusi sevinclə söyləyir, qürurlanır, atasının müasirlik ruhu ilə seçilən şeirinin beynəlxalq əhəmiyyətini vurğulayırdı.

Abdulla Şaiq könlündə Turan duyğuları yaşadan romantik şair idi. Onun əsərlərinin ideya-bədii məzmununda, ruh bütövlüyündə, məqsəd aydınlığında bunu görmək mümkündür. Ədibin romantikası sənətin bədiiliyinə bağlı, estetik idealın mahiyyətindən doğan və sentimental duyğuların təkamülündən yaranan pafoslu romantizm deyil. Bu fransız inqilabçı-demokratlarının «azadlıq, bərabərlik, qardaşlıq» prinsipləri ilə süslənən siyasi üsyankarlıq da deyil. Abdulla Şaiqin romantizmi gerçək həyat mənzərələri, insan taleləri və ictimai-siyasi təzadların yaratdığı yaradıcılıq keyfiyyətidir. Bəlkə elə buna görədir ki, A.Şaiqin irsi uzun müddət realizm prinsipləri ilə də təhlil edilib. Real həyatın gözəllikləri və səfaləti içərisində, tale burulğanında min bir sevinc və əzablarla qarşılaşan Azərbaycan insanının romantik duyğuları üzərində formalaşıb Abdulla Şaiqin romantizmi. Elə buna görədir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1918-ci ildə ümumtürk duyğularını romantik dillə ifadə edən Abdulla Şaiq deyirdi:

Birləşəlim, türk oğlu, bu yol millət yoludur,
Ünlə, zəfərlə, şanla tariximiz doludur.
Yürüyəlim irəli, haydı, millət əsgəri,
Keçdiyimiz şan, zəfər, durmayalım biz geri.
Yıldırımlı gözünüz qan ağladar düşmənə.
Qorxaq, alçaq, xainin bu meydanda işi nə?
Dəniz kibi coşalım, dalğa kibi qoşalım,
Altun ordu irəli! Dağlar-daşlar aşalım!
Türk qafasında qorxu yuvalamaz, düşmənim!
Həp dəmirdən yapılmış ruhum, qəlbim, bədənim.
Süngümüzün ucundan damlar qətrə-qətrə qan.
Hürriyyətdən, vətəndən ölüncə keçəm, düşman.
Dalğalanar üstümdə şanlı Turan bayrağı,
Alovlanar qəlbimdə «Ərgənəqon» ocağı.
Haydı, yola çıxalım, haqsızlığı yıxalım,
Turanda gün doğunca zülmətlə çarpışalım!
Arş irəli, irəlidə cənnət kibi cahan var.
Günəş orada həp doğar, səadət orda parlar!
Türk firqəsi «Müsavat».
Açalım quş tək qanad.
Sarılıb hürriyyətə,
Bulalım şanlı həyat.

Və yazıqlar olsun ki, bizlər, hətta bizdən öncəki ədəbi nəslin nümayəndələri də bu və buna oxşar əsərlərin bədii-estetik məziyyəti, ideya-siyasi məzmunundan xəbərsiz olmuşuq. Çünki marksist-leninçi tənqidin «alovlu və fədakar» nümayəndələrinin, sovet senzurasının qılıncının dalı da, qabağı da hər şeyi kəsirdi. Nəticədə, bizlər irsimizə layiqli varis ola bilmirdik. İndi müstəqillik illərində bu çoxlarına inanılmaz gələ bilər. Lakin bu belə idi.

Abdulla Şaiq Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra 1920-ci illlərdən etibarən demokratik bir dövlət rejiminin yerinə totalitar prinsiplərə əsaslanan yeni

siyasi hakimiyyətin gəlməsini yaxından müşayət edir, xalqının haqq və hüquqlarının boğulduğunu görürdü. O «millətlər və siniflər bərabərsizliyi»ni elan edən sovet hakimiyyəti təbliğatçılarının kommunizmə dair xəyalpərvərliyini də görür, 1920-ci ildə «dostu və bəradəri» hesab etdiyi məşhur Azərbaycan maarifçisi Firidun bəy Köçərlinin daşnak-bolşevik qaragüruhlu tərəfindən sorğu-sualsız Gəncədə güllələndiyini, AXC liderlərindən Nəsib bəy Yusifbəylinin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin və başqalarının güllələndiyini, bir sıra milli dövlət xadimlərinin həbs və sürgün edilməsi və mühacirətə zorlanmasını ürək ağrısı ilə qarşılayırdı. Nəinki adı çəkilən AXC qurucularının, həm də Azərbaycan kommu-nistlərinin «ağsaqqalı» Nəriman Nərimanovun (ondan Moskvaya donos yazanlar bildirirdi ki «starik nam meşaet») vaxtsız və qəfləti ölümünü böyük kədərlə qarşılayırdı. Abdulla Şaiqin bu və ya buna oxşar kədər duyğularını xatırlayanda nədənsə Türkiyəli şair Abdulla Cövdətin «dəryanı biçərani içməyə məhkum quşcuğaz» obrazı yada düşür. Böyük ədib özü əzabkeş obrazını 1913-cü ildə dostu Firudin bəy Köçərliyə göndərdiyi şəklin altyazısında belə ifadə edirdi:

Bəradərim Firudinbəyə təqdim etdiyim rəsmimin altına

Qəlbinə yəs, iğbirar açan
Gözlərimdə əməllərimdir uçan.
Bəllidir hər baxışda dərd, qəmim,
Baxma, əks eyləyər sənə ələmim.
Ürəyimdə coşan bu fırtınalar
Səni də mən kimi məlul eylər
Məni ağlar görüncə, sən gül, gül!
Çünki əbr ağlayar, gülər sünbül.
Donuq bir çöhrədən dolğun üzüm bir lövheyi-müğbərr
Sönük bir didədən sönmüş gözüm bir bərqi-seylavər.

O, dostu Firudin bəy Köçərli ilə birgə kütlənin xalq səviyyəsinə yüksəlməsi yolunda çalışan ən işıqlı simalardan biridir. Bu ideyanı ədibin «İki kötük, yaxud iki familiyanın məhvi. Bəradərim Firudin bəy Köçərliyə» başlığı ilə 1916-cı ildə (avqust, sentyabr, oktyabr) «Doğru söz» qəzetində silsilə şəklində nəşr etdirdiyi əsərində açıq-aydın görmək mümkündür. Nədənsə bu əsərin də sonrakı nəşrlərində «iki kötük» və «bəradərim Firudin bəy Köçərliyə» ifadələri ixtisar olunub. Fikrimcə iki kötük, iki familiyanın nadanlıq səbəbindən bir-birinə düşmən kəsilməsi, nəsillərin qan davası səbəbindən bir-birini qırmasının tənqid olunması, bütövlükdə millətin faciəsinin təsviri və tənqidi məsələlərini qabartmamaq üçün bu addım atılmışdır. Lakin el ağsaqqalları demişkən «Cidanı çuvalda gizlətmək olmaz». Əsərin sonluğunu oxuyan bəsirətli oxucu xalq taleyinin acı həqiqətləri içərisində müəllif mövqeyini mütləq görür və şairin vətən və xalq təəssübünü yüksək qiymətləndirir. Orada deyilir:

Qanlı bu işlərin sonu noldu?
Borçalı ah-fəqan ilə doldu.
Yenə getdikcə kin alovlandı,
İntiqam macərası başlandı.
İki adlı familiya bitdi,
Bir-birini qırdı, əzdi, məhv etdi.
Oldu bir çox igid bu yolda fəda,
Artıq ərşə dayandı zülm, cəfa.
O iki dudiman yanıb söndü,
Susdu artıq o gurlayan səslər,
Bir çoxunu çürütdü məhbəslər.
O böyük nəsildən nişan olaraq,
Bir uçuq köşkdür qalan ancaq.
O da olmuş xərabə, viranə,

Sanki matəm tutur o kaşanə.
Elə bil qanlı didiman ocağı
İndi olmuş qoyun-quzu yatağı,
Bir zaman gurlayan o təntənələr,
Köşkü şənləndirən o qəhqəhələr
Yerinə indi qəm məkan etmiş,
Çünki bayquşlar aşiyan etmiş.
İndi də o uçuq xərabə durur,
Qanlı bir macəraya tənə vurur.

Şaiq şövqlü, işə həvəsi, yazıb yaratmağa, yaşamağa zövqü, həyata meylli olmaq deməkdir. Bu mənada onun götürdüyü ədəbi təxəllüs böyük Azərbaycan mütəfəkkiri Əlibəy Hüseynzadənin «Həyat meyli- füyuzatdır» məqaləsinin əsas tezislərinə cavab verir. Abdulla Şaiqin qələm və ideal dostu Əlibəy Hüseynzadə deyirdi: «Həyat» bir dərəcəyə qədər tərif edilmiş isə də, lakin «Həyat»ın mənayi-həqiqisi nədir?»-sualı cavabsız qalmışdır. Hərəkət, fəaliyyət, rəqabət, mübarizə nə üçündür? Nəşvü nüma, dövrü-kəmal nəyə lazımdır? «Həyat»ın mənayi-həqiqisi nədir?.. Pək çox hükəma və übadə bu xüsusda zehinlərini yormuşlardır. Bizə qalırsı, «Həyat»ın mənayi-həqiqisi meyli –«Füyuzat»dır!..

«Füyuzat» ləfzən «feyz»in cəmül-cəmi olub və bərəkətə, bolluğa, maddi və mənəvi nemətlərin bolluğuna, tərəqqiyyat və kəmalatın şəşəəyi-təcəllisinə dəlalət edərsə də, fəqət əsli məfhumu səadət və ələlxüsus səadəti-mənəviyyədir, həqiqi zövq və səfalərdən ibarət bir səadəti-mənəviyyədir.

«Həyat» isə mənayi-batinisilə daimi bir meyli-səadət, bir meyli – «Füyuzat»dır!..

Sözümüzə diqqət buyurulsun: «Həyat» «Füyuzat»dır demiyoruz, «Həyat» meyli-«Füyuzat»dır diyoruz!.. təbiri-axərlə «Həyat» füyuzati-vicdaniyyəyə meyl arzusudur. «Həyat»ın övsafından olan bütün mücahidat və mübarizatımız bu şövqi-mənəvinin sövqi ilə vüqua gəlməkdədir. Bir fərddə, bir cəmaətdə,

bir millətdə bütün bəşəriyyətdə şövqü-füyuzat yox isə, o fərdi, o cəmaəti, o milləti, bütün bəşəriyyəti ölü saymalıdır. Hərəkət və fəaliyyət göstərsə dəxi ölü bir bədənin çürüyüb abü xakü həvayə mübəddəl olması dəxi bir növ hərəkət və fəaliyyətdir. «Həyat»ın dərəceyi-əkməliyyəti, şövq və arzunun şiddətilə və nailiyyəti arzu olunan füyuzati- vicdaniyyənin ülviyyət və səfvət və imtidadı ilə ölçülə bilir... Şübhə yoxdu ki, hər bir fərdi-zihəyət füyuzatı bir növlə anlar: ola bilir ki, şikəmpərvərin biri füyuzatı gözəl-gözəl və bol-bol yeyib-içməkdə görər. Ya dünyapərəstin biri xanəndə və sazəndələr arasında, bağ və bağça içində kamili-sihhət və afiyətlə müddəti-mədidə yaşamaqda bulur. Lakin o bağçanın, səfaxanənin qapusi önündə yığylan bir sürü ac və çıplaq, məsələn, Zəngəzur fəlakətzədələrinin, dərbədərlərinin ahü fəğanlarından vicdanınız müzəzəb olmazmı? ...Müəzzəb bir vicdanla bağ və bağçanın nə səfası ola bilir?.. Yeyilən təam sühulətlə həzmə gedərmi? Həyatın əkməliyyəti üçün arzu olunan füyuzati-vicdaniyyənin imtidadı şərtdir, dedik. Bunu izah edəlim: Bir fəqir mömin vicdanının paklığı və saflığı sayəsində bədül-məmat füyuzati-əbədiyyəyə dəxi nail olacağından əmindir. Bir zəngin mülhid, ya bədül-məmat füyuzata məzhəb olacağından əmin değildir, yaxud öylə bir həyati-sərmədiyi-səadətin varlığına əsla mötədil değildir. Bu iki həyatdan hansı mükəmməldir? Şübhə yoxdur ki, birinci həyat, çünki vicdanları bu aləmdə saf və pak olanlar füyuzati-müvəqqətə ilə degil, füyuzati-sərmədiyyə şövqi ilə yaşayorlar... İştə əsli ülviyyətvə səfvət də bu füyuzati-sərmədiyyədədir. Budur, vəlvələəngiz inqilabatda kəsrətlə görüb heyran olduğumuz bütün o əzəmətli qəhrəmanlıqlar, bütün o ülvi fədakarlıqlar, ancaq böylə füyuzati-sərmədiyyə şövqünün saiqəsilə təcəllinüma olmaqdadır...». Ə.Hüseynzadədən böyük bir sitat gətirdiyimizə görə oxucumuzdan üzr istəyərək bildirməyi vacib bilirəm ki, bu düşüncə, yaşam, yaradıcılıq və fəaliyyət mövqeyi sonralar Azərbaycanın füyuzatçı-romantiklərinin ictimai və bədii axtarış kredosunu müəyyənləşdirdi.

Göründüyü kimi Əlibəy Hüseynzadə həyatın həqiqi mənasını onun zövqlər mənbəyi olmağında görür, insanın zövq və şövqlə yaşamasını onun ictimai əhəmiyyətində görürdü. Həmin səbəbdəndir ki, «Həyat»ən mənayi-həqiqisi meyli- «Füyuzat»dır deyir. Yəni, həyatın həqiqi mənası onun feyzlər, zövqlər, o şövqlər mənbəyi olmasıdır. Başqa sözlə desək insana mənəvi səadət verməsindən ibarətdir. Lakin o insan mənəvi səadət sahibidir ki, səfalət və xoşbəxtlikdən, rəzalət və ədalətdən kədərlənə və sevinə bilir. O insan «səadəti-mənəviyyə» sahibidir ki, həyatı tam, bütöv görür, şərə və xeyirə, qaranlığa və işığa, tənəzzülə və tərəqqiyə, zalıma və məzluma, cəhilə və aqilə, kasıba və varlıya doğru dürüst münasibət bildirir, onların yaratdığı mənəviyyat iztirablarını yaşayır, sevinə və kədərlənə bilir, bütün bunları şəxsi, fərdi həyatı üçün deyil, milləti, xalqı, cəmiyyəti naminə edir. XX əsrin əvvəllərində Abdulla Şaiqin də üzvü olduğu füyuzatçılar Ə.Hüseynzadə başda olmaqla həmin mövqedə olduğuna görədir ki, onlar yeni əsrin başlanğıcında sosialist ideoloqlarının sifitik nəzəriyyəsinə uyğun gəlmir və sonralar Azərbaycanın füyuzatçı-romantikləri olan H.Cavid, M.Hadi və başqaları daha çox tənqid olunurdular. Həmin «səadəti-mənəviyyə» sahibi olduğuna görədir ki, Abdulla Şaiq «Zəngəzur fəlakətzədələrinin, dərbədərlərinin ahü fəğanlarından... müəzzəb» olaraq «müəzzəb bir vicdanla» əzab və iztirab içində qovrularaq 1910-cu ildə «Molla Nəsrəddin» jurnalına göndərdiyi «Bir mələkə» adlı şeirində deyirdi:

Mahtablı gecə... Kənari-dərya,
Əsməkdə nəsimi-xoş, müəttər.
Titrədi yaşıl-yaşıl çəmənlər.
Qəlbimdə cahan-cahani-sevda.

Bu anda mələkdi,yoxsa huri.
Vicdanını inlədirdi bir qəm.

Səslərdi həzin səs ilə hərdən:
"Aclıq bürüyübdü Zəngəzuri".

Ay,ulduz olub da dərdə qəmxar
Sanki baxışırdı mat-məbhut.
Bir qəmli sükut içində lahut
Dinlər o həzin sədanı təkrar.

Xatırladım ki, şeir «Molla Nəsrəddin» jurnalının Zəngəzurdakı aclığı təsvir edən sayına həsr olunub.

Abdulla Şaiq 1937-ci il repressiyalarının şahidi olmuş, onun ağrılarını canında hiss etmiş söz ustadıdır. Onlarla istedadlı tələbəsinin, Azərbaycanın ən məşhur ədib, şair, ictimai xadimləri olan dostlarının gedər -gəlməzə göndərilməsini gözləri ilə görmüş, onların həbsə, məhbəsə düçar olduqlarını, Sibirə sürgün edilməsini, qırmızı terrorçular tərəfindən yaradılan məhbus «üçlüyün» (troykanın) «məhkəmələr» tərəfindən alçaldıldığını əzablar içində qarşılamış, xalqının, dövləti və vətəninin taleyinin təhlükədə olduğunu mətnaltı fikirlərində, gizli əlyazmalarında ifadə etmişdir. Repressiyanın qurbanı olan Ruhulla Axundov, Tağı Şahbazi Simurğa həsr edilən şeirlər, «Xalq düşməninə», «Vətənin yanıq səsi», «Gəmirik», «Arazdan Turana» kimi əsərlər bunu təsdiqləyən parlaq yaradıcılıq nümunəsidir. Qırmızı terrorçuların təqibindən yaxa qurtarmaq istəyinin nəticəsidir ki, heç vaxt biblioqrafiyasında bir zaman «Açıq söz» qəzetində redaktoru olduğunu xatırlatmağa belə çəkinmişdir. Bu çəkinmə və ehtiyat ömrünün axırınadək davam etmiş, hətta oğlu, irsinin varisi, tərtibçi və redaktoru, akademik Kamal Talıbzadənin fəaliyyətinə təsir göstərmişdir. Bu təsir yalnız siyasi motivlərlə məhdudlaşmır, həm də fiziki cəhətdən «yox olmaq» qorxusunu genetik şəkildə təlqin edirdi. Ayrıca xatırlatmaq lazımdır ki, həmin qorxu hissi valideynləri 1937-ci ildə cəzaya məruz qalanları bütün ömrü boyu izləyib. Eyni zamanda SSRİ miqyasında yaşanan bu qorxu hissi 1960-cı illərin «yeni dalğa» ədəbiyyatında nifrətlə əvəz olundu və «qırmızı imperiyanın» totalitar rejiminin çökməsinə təsir göstərən enerji mənbəyinə çevrildi. Bir faktı xatırlamağa dəyər. Azərbaycan mətbuatının görkəmli araşdırıcısı professor Şirməmməd Hüseynov söyləyir ki, Sovet hakimiyyətinin süqutu ərəfəsində, milli dəyərlərə qayıdışın sürətləndiyi vaxtlarda akademik Kamal Talıbzadəyə Abdulla Şaiqin «Açıq söz» qəzetinin müəyyən müddət redaktoru olduğunu dedim. O isə birmənalı inkar etdi və bildirdi ki, bu faktı açıqlamağa ehtiyac yoxdur.

Sovet hakimiyyəti illərində Abdulla Şaiqi daima narahat edən, qorxu yaşadan bir məsələ də qardaşı Axund Yusif Talıbzadənin taleyinə bağlı həqiqətlər idi. Dövrünün görkəmli ictimai-siyasi xadimi, ilahiyyatçı mütəfəkkiri, publisisti, olan Axund Yusif Talıbzadə (ədəbi imzası Müslümzadə) həm də hərbçi kimi tanınmış, Türk-islam ordusunun Qafqaza gəlişi zamanı fəallıq göstərmiş, sovet hakimiyyəti qurulduqdan sonra Nəriman Nərimanovun tövsiyyəsi ilə bir müddət Naxçıvanda hərbi komissarlıqda işləmiş, 1920-ci ildən sonra Orta Asiyada baş qaldıran antisovet hərəkatda Ənvər paşa ilə birlikdə iştirak etmişdir. Kamal müəllim söyləyirdi ki, əmim Axund Yusif döyüşlərin birində sonadək vuruşaraq yaralanıb özünü çaya atdığını atasına bildirmişdilər və onun qanlı köynəyi ilə üzərində gəzdirdiyi kiçik həcmli «Quran»ını gizli şəkildə atama çatdırmışdılar. Buna görə də atam həmişə daxili narahatlıq və qorxu hissi keçirirdi.

Abdulla Şaiq Azərbaycan və Türkiyə ədəbiyyatları arasında ortaq dəyərlərin müəyyənləşdirilməsi və tərənnümünə ömür sərf edən şəxsiyyətdir. Sovet hakimiyyəti illərində özünün bu tərəfini məcburən gizlətməyə məcbur olsa da, kimliyində «Arazdan Turana» qədər böyük bir ərazidə məskunlaşan türkün taleyinə bağlı duyğuları yaşadıb, bu mövzuda yazdığı əsərləri, misraları arxiv küncündə gizlətməyə gücü yetib. Ən çox

qorxduğu isə 1937-ci il repressiyaları zamanında antitürk hərəkatın terrorla müşayət olunması, buna sovet dövlətinin sosialist siyasəti donu geyindirməsi idi. Sadə, sakit, mülayim davranışı, ahəstə nitqi, müdrik təfəkkür tərzində Azərbaycan türklüyünün tarixi yaddaş həqiqətlərini qoruyan, onun qəhrəmanlıq, mübarizlik, döyüşkənlik, üsyankarlıq salnaməsini yazmağı vəzifə bilən Abdulla Şaiq «pantürkizm» pərdəsi altında aparılan qorxunc «qırmızı terror» alovlarının körükləndiyini görür və bununla bağlı yazılarını «sandıq ədəbiyyatı»na çevirirdi. SSRİ-nin dağılması ərəfəsində bir sıra respublikalarda dissident ədəbiyyat nümunələri çap olunanda bizim yazarların arxivlərindən böyük populyarlıq qazanan bədii əsərlər çıxmışdı. Hətta bir sıra ünlü yazarlarımız publisistik yazılarında bunu təəssüflə o zaman qeyd edirdilər. Bu boşluğu doldurmaq üçün Azərbaycan mühacirət ədəbiyyatına üz tutduq və bəzi xatirə-memuar nümunələrinə istinad edə bildik. Həmin vaxtlarda akademik Kamal Talıbzadənin Abdulla Şaiqin «sandıq ədəbiyyatı»nı gündəmə gətirməsi elmi ictimaiyyətimizə böyük ədəbiyyat töhfəsi oldu. Həmin ədəbiyyatın sırasında «Arazdan Turanə», «Xalq düşməninə», «Vətənin yanıq səsi», «Gəmirik» mühüm yer tutur. «Gəmirik» şeirində ac atların qoşulduğu köhnə arabanın sərxoş sürücüsü olan Gəmirik Əlibəy Hüseynzadəninin «Siyasəti-fürüsət» əsərindəki «üçatlı gərdunənin» sürücüsünü xatırladır və «üçatlı» qəhrəmanın kimliyi, onun yolunu sapması təsvir edilir. A.Şaiqin «Gəmirik» adlandırdığı bədii qəhrəmanın gerçək siması və kimliyi «Xalq düşməninə» (1937) şeirinidə daha da dəqiqləşir və onun mifik cizgilərinin yerini realist boyalar alır. 1937-ci illərin repressiyası dövründə «Xalq düşmənini» xalqın içində axtaranlardan fərqli olaraq A.Şaiq onu xalqı idarə edənlərin başçısı kimi təqdim edir və dövrün totalitar rejimini yaradan, əyri bina, otaq tikən cahil memarın rəyasətə iştahını ifşa edir, onun əsassız məğrurluğunu tənqid hədəfinə çevirirdi. Abdulla

Şaiq 1937-ci ildə istedadlı və görkəmli Azərbaycan ziyalılarının «siyasi terror» qurbanı olduğunu görür və «müəzzəb bir vicdan» ağrıları içində «Xalq düşməninə» müraciətlə yazırdı:

Dayan, dayan, cahil memar, bina, otaq əyridir
Çünki o əl, o göz, qulaq, o baş, ayaq əyridir.
Bacarıqsız bir memarsan yeni bina qurmaqda.
Ancaq məharətin vardır dağıtmaqda, qırmaqda.
Rəyasətə iştahan var, budur səni qudurdan.
Bu rütbəyə bir təsadüf atdı səni çuxurdan.
Yoxsa səndə nə bilik var, nə şüur, nə bacarıq.
Niyə, rütbəpərəstliyin verdi sənə koxalıq?!
Sən də bunu duyduğunçün tutdun yanlış bu yolu,
Dost adına qırdın, yıxdın, taladın sağı-solu.
Rəyasətdə qalmaq üçün yeritdiyin siyasət
Hər addımda, hər sınaqda verdi min-bir fəlakət.
Tarix bunu göstərəcək nələr, nələr yapdın sən!..
Ölkəmizdə qulaq batdı acı matəm səsindən.
Cahil, məğrur insanlarda nə ürək, nə vicdan var.
Təbii, boş təbillərin səsi şiddətlə gurlar.
... Xaqanlarda görünməmiş bu mənəmlik, bu mənlik,
Xalqın qanlı göz yaşları sənə oldu toy, şənlik.
Cəhalətdən,dayazlıqdan doğar qürur və inad,
Boz dalğalar sahillərdə açar ancaq qol-qanad.
Şahin yerin tutmaq üçün çırpındın, ey yapalaq,
İstəyirdin boş baş ilə tarixdə ad qazanmaq.
Bunu sənin hər addımın, hərəkətin göstərdi,
Tarlasında tikan əkən nə zaman sünbül dərdi?
Göz yaşıyla suvarıldı bu göy tarla, bu xırman,
Yetimlərin ahı ilə işlədi hər dəyirman.
Ziyafətsiz, mey-məzəsiz bir günün varmaz başa.

Sür şüursuz eşşəyini hər enişə-yoxuşa.
Qəhqəhəylə gülər sənə qədəhlərə axan mey,
Dövlət nədir, millət nədir sənin kimi sərxoşa?

İndi aradan illər, onilliklər keçib, tarix şəxsiyyətəpərəstişin acı təcrübəsini saxlayır və total hakimiyyət dövrünün faciələrinə səbəb olanlara lənət oxunur, şair işıqlı gələcəyə, haqqa, ədalətə inama haqq qazandırır.

Şeirin sonunda romantik şair Abdulla Şaiq bulanlıq suların durulacağına inanır, kinli, qan içən xainin boynunun vurulacağını gözləyir, «Sənə də məhkəmə qurulmazmı?» deyə haqqın qələbə çalacağını bildirsə də mövcud siyasi regimin və dövlət başçısının «kin ilə çapdığı zülm atına bir çidarlı yüyən» vurulmadığından əziyyət çəkir, göz yaşları ilə müşayiət olunan kədərlə deyilir:

Kim itirmiş mənim itirdiyimi?
Bu xəzan yoldu hər bitirdiyimi.

Şairin itirdiyi köhnə dostları, tələbələri, ideya və əməl yoldaşları idi: Hüseyn Caid, Əhməd Cavad, Salman Mümtaz, Seyid Hüseyn, Bəkir Çobanzadə, Atababa Musaxanlı, Mikayıl Müşfiq, Məmməd Kazım Ələkbərli, Əli Nazim və onlarla başqaları...

Abdulla Şaiq yaradıcılığını, şəxsiyyəti və sosial-psixoloji yaşam həqiqətlərini ictimai-mədəni inkişafın tarixi kontekstində araşdıranda bir daha əminlik yaranır ki, Şaiq fenomeni Azərbaycan insanının vətəndaşlıq haqlarını ifadə etməyi ən mühüm vəzifə bilib. Görkəmli ədib milli kimlik və bəşərilik duyğularını tərənnüm edən dünya klassiklərinin tutduğu yolu seçərək özünün və həmvətənlərinin azad və müstəqil yaşaması, Azərbaycanın əbədi var olması üçün tanrının müqəddəs pay kimi verdiyi bir ömrü şövqlə ona həsr edib.

2010

SÖZ RƏNCBƏRİ

Azərbaycanın poeziya aləmində, şeir kəhkəşanında hər ulduzun öz yeri, işığı, nuru var. Orada yalnız özü olanlar əbədi qalır. Bu gəlimli-gedimli dünyada «mənim bu dəryada bir sandalım var» (M.Müşfiq) haqqını yaşayanlar qalib gəlir, dərd dəryasını bir qurtum su kimi içə bilir. Özü olmayanlar isə qaranlıq gecələrdə bir-birinin ardınca yanıb-sönən çıraqlar kimidir, işığı, nuru olsa da ətrafını isitmir, qızdıra bilmir. Yalnız həyatın və zamanın sınağından çıxanlar, özünün kimliyini qoruya bilənlər, Vətəni, torpağı və millətinə sadiq olanlar, yediyi çörəyin dadı-tamını unutmayanlar çevrəsinə işıq sala bilir, hissi-duyğuları ilə həmvətənlərinin sirdaşı olmaq haqqını qazanırlar. Bu yol insanın «beşikdən məzara qədər» haqq axtarışı, özünün tanrı dərgahında yerini bulmaq yoludur. Həmin tale yolunun adamı olduğuna görədir ki, şair Kələntər Kələntərli deyir:

Mən bir kiçik qayıq, həyat bir ümman,
Hər gün atıb-tutdu dalğalar məni,
Vermədi bir aman, sınadı yaman
Yazda yağış məni, qışda qar məni.

Əzablı yollara çıxdım elə ki,
Sirdaşım gah günəş, gah duman oldu.
Gənclik illərimi sınadı sevgi,
Onun da sınağı çox yaman oldu.

Vüsallı günləri hanı ömrümün,
Niyə hər gün məni hicran sınadı?
İradəm dəmirtək döyüldü hər gün,
Dağ kimi səbrimi zaman sınadı.

(Duymaq üçün yaranmışam, Bakı, «Yazıçı» n., 1979, s.4)

Əsl şairlik insanın ömrü boyu özünü axtarışı və cəmiyyətdə kimliyini təsdiqdir. Hər şeir yazana, qafiyə qoşana nəsib olmur bu tale. Ənənəvi səslənən bir fikir var. Şairlik tale işidir. Ancaq bu yetərli deyil. Şairlik həm də başqalarının, vətən və dövlətinin taleyi uğrunda özünü yandırmaq qəhrəmanlığıdır. Şair taleyi hər kəsin yüklənə bilmədiyi haqqın yoludur. Şairlik dərd «çiçəkləmək», kədər dənizini içməyə məhkum olmaqdır. Şairlik yaşlı qoca ikən şəxsiyyətində uşaq sadəlövhlüyünü yaşatmaq, gənclik illərindən qocalıq, müdriklik sevincini tapmaqdır. Elə bu səbəbdəndir ki, tanınmış Azərbaycan şairi Kələntər Kələntərli deyir ki, «Ən kədərli Sevinc – şair olmaqdır».

Bu kədərli sevincin içərisində xeyirxah «od oğrusu Prometey» kimi özünü əzab-iztirablara məhkum etmək fövqəladəliyi, dünyanın naz-nemətindən imtina bəsirəti, kimliyini sözündə görmək istedadı var. Hər yaradılana qismət olmayan bu «kədərli sevincin» dərd ortaqlığından güc alır Kələntər Kələntərli və tanrının ona pay verdiyi tale yolunun istisoyuğuna məmnuniyyətlə dözərək deyir:

O zaman ki, şeri anladım, duydum,
Nə şöhrət istədim, nə ada uydum.
Zamanla sazladım qədəmlərimi,
Şeir yaza-yaza gəzdim yerimi.
Neçə yol ağardıb yola varmışam,
Özümdə özümü çox axtarmışam.
Təzə söz həsrəti sıxıb qəlbimi,
Min yol öz-özümə deyinmişəm mən.
Təzəcə açılan tumurcuq kimi
Təzə söz tapanda öyünmüşəm mən.
Sözü ürəyimlə isitmək üçün
Alovla, atəşlə qucaqlaşmışam.

Fikrimdən keçəni söz etmək üçün
Masa arxasında min dağ aşmışam.
(Mənə deyirlər ki,... «Duymaq üçün yaranmışam»,
Bakı, «Yazıçı» n. 1979, s.67)

Kələntər Kələntərli özünün söylədiyi sözün məntiqini yaşayan şairdir. Şeirin, poeziyanın məntiqi ilə yaşamağın nə qədər çətin və Titanik əzablar doğurduğunu isə min illərdir ki, dünyanın bəlli ədəbiyyat tarixi təsdiqləməkdədir. Azərbaycan ədəbiyyatı mühitində doğulub boya-başa çatan, öz könlüncə qocalan, iki xalqın (ləzgi və Azərbaycan türkü) bir şair oğlu kimi məşhurlaşan Kələntər Kələntərlinin «ən kədərli sevinci» onunla bağlıdır ki, özünün «söz rəncbəri» ifadəsini həm də həyat məramı, kredosu bilir və inanır ki, dünya xali deyil, bir zaman gələcək ürəklərə, könüllərə pay verdiyi söz toxumları cücərəcək, çiçəkləyəcək, sarı sünbül tarlası kimi barlı-bəhərli olacaq, bol meyvəli bağ-bağata çevriləcək. Onu poetik duyğularının gerçək məntiqini yaşayan vətəndaş-şair kimi tanıdan da elə budur.

Şair Kələntər Kələntərli həmin vətəndaşlıq amallarından çıxış edir, poetik mövqeyini açıqlayır:

Qaynar bir bulağın gözü tutulsa,
Nəğməsi kəsilsə, dili lal olsa,
Aşıb zirvəsini qayanın, dağın,
Yellərə qoşulub mən əsməliyəm.
O gözü tutulmuş büllur bulağın
Gözünü açmağa tələsməliyəm.
Susmuş bir ürəkdir nəğməsiz bulaq,
Kimlərə gərəkdir nəğməsiz bulaq?
O nəğmə eşqilə çox yanmışam mən,
Duymaq, duymaq üçün yaranmışam mən.

Vüqarlı bir palıd yaralanarsa,
Qəfildən budağı paralanarsa,

Çatıb harayına bir loğman kimi
Onun yarasını sarımalıyam.
Mənə dərd olmalı ağacın qəmi.
Dar gündə dərdliyə yarımalıyam.
Ağac da vədəsiz-vaxtsız ölməsin,
Hərcayi küləklər ona gülməsin,
Baxıb utanmasın öz görkəmindən,
Duymaq, duymaq üçün yaranmışam mən.

Yurdumda bir səhra susuz yanırsa,
Qızmar gün altında alovlanırsa,
Hansı bir çayınsa kəsib yolunu,
Təşnə sinəsinə əndərməliyəm.
Qanqalın əlindən qurtarıb onu,
Qızılgül bağına döndərməliyəm.
Bəzəsin qoynunu güllər, çiçəklər,
Yolunu azanda dəli küləklər,
Göz yaşı axmasın gülün üzündən,
Duymaq, duymaq üçün yaranmışam mən.

(K.Kələntərli. Duymaq üçün yaranmışam.
Bakı, «Yazıçı», 1979, s.12)

Poeziya tarixi min illərdir ki, şeirin mayasında hiss və duyğunun olduğunu təsdiqləyir və bu duyğular dənizində dərdi çiçəkləyənlərin şair olduğunu nişan verir. Odur ki, «duymaq üçün yaranan» şairin poetik kredosu dünyaya sevgi, məhəbbət, qayğı bəxş edir, insanın özü və mühiti haqqında düşünməsinə əsas olur. Nümunə gətirilən poetik parça şairin duyğular səltənəti, oradakı rəngarənglik haqqında tam təəssürat yaradır, mütəfəkkir şairin ümumbəşəri düşüncələrini sərgiləyir və ən vacibi onun barı-bərəkətini daddığı torpaqla həmnəfəs olmasını göstərir. Kələntər Kələntərli torpaq, vətən, yaddaş, xalq, dövlət, millət və s. mövzularda

yazanda şüarçılıqdan, deklorativ intonasiyadan qaçır, beləcə sadə, səmimi duyğularını, şəxsi insani yaşantılarını cəmiyyətin ümumi problemləri səviyyəsində görməyə üstünlük verir, fərdi duyğularını poeziyanın dili ilə xalqın dünyabaxışını ifadə edən ürək döyüntüləri kimi təqdim edir. Odur ki, Kələntər Kələntərlinin poeziya haqqında fikirləri ciddi maraq doğurur. Şair deyir: «Poeziya adlı bu müqəddəs sözün eşqilə yaşayıram. İndii «şeir» sözünü çox nadir hallarda işlədirəm. Ona görə ki, şeir yazan beş deyil, on deyil, minlərlədir. Çoxu bilmək istəmir ki, əsl poeziya möcüzədir. Dünyada mövcüd olan bütün rənglərdən, rəng çalarlarından əmələ gəlmiş göy qurşağıdır. Onu yaratmaq hər yüzillikdə bir, ya iki nəfərə qismət ola bilən xoşbəxtlikdir. Şeir bir günlük, beş günlükdür, Poeziya isə əbədi. O şey ki, ölməzdir, əbədidir, onu hər «mən də şairəm» deyən yarada bilməz». (Güllələsin dablar məni... Bakı, 2000, s.6)

Kələntər Kələntərli sözün həqiqi mənasında «Rəncbər şairdir», halal zəhməti, doğma, duru-aydın düşüncələri, müdrik kəlamları, xoş ünsiyyəti ilə çevrəsindəkilərə sevgi bəsləyən, həyatını başqalarının xoşbəxtliyinə sərf etməkdən feyz alan sənətkardır. Bu həm şairin fitrəti, həm atadan-babadan aldığı ömür-gün təcrübəsi, həm də taleyinə yazılan ağrı-acılı, şirin-xoş anların, təhsili, dünyagörüşü, mütaliəsi, zamanla ayaqlaşmaq iddiasına bağlıdır. K.Kələntərli mükəmməl mütaliəsi olan sənətkarlarımızdan olsa da, «həyat dərslərinə» inanan və onu tərənnüm edən şairdir. Mənim fikrimcə Kələntər müəllimin poetik uğuru ən çox bu məqama əsaslanır. Onun zəhmətkeşliyi, halal zəhmət duyğusu bütün əsərlərində, hətta konkret misra və sətirlərinin müxtəlif məna qatlarında şairin obrazını canlandırır. Şairin gerçək həyatı və yaradıcılığını yaxından müşahidə edənlər «Bulud üstündə əyləşən Budda» (Əlisəmid Kür) deyimindəki obraz mükəmməlliyini qəbul edərək, onun ağsaqqal vaxtında gənclik enerjisi ilə yazıb-yaratmasına böyük rəğbətlə yana-

şırlar. Bu mənada məşhur səkkizliklərinin birində şair özünün poetik portretini belə yaradır:

İmzalı, möhürlü kağızlar çin-çin,
Yazanın vicdanı hanı bəs, allah!
Cızdağı nə yaman çıxdı qəlbimin,
Bu qədər ağ zülmü götürməz allah...
Neçə ağ Qayanı yardım sinəmlə,
Neçə qara dağın altından çıxdım;
Ürəyim dil tapdı bal kimi qəmlə,
Həyat məni sıxdı, mən sözü sıxdım!..

(K.Kələntərli. Güllələsin dağlar məni... Bakı, 2000, s.233)

Şair Kələntər Kələntərli yaddaşa, yaşanan ömür-gün həqiqətlərinə bağlı sənətkardır. Yaxın və uzaq tarixin gerçəkləri sübut edir ki, yaddaşsızlıq faciələr yaradan bir sindromdur. Yaddaşsız həyatda uğur qazanmaq mümkün deyil. Bu mənada K.Kələntərlinin ömür yolu, zəhmət və həyat dərsləri örnək məqamındadır. O yeganə qardaşını və atasını itirəndə də, «dilsizlik»dən əziyyət çəkəndə də özünə, yaddaşına və zəhmətinə güvənib, sənət uğurlarına göz yumanların tənəsinə tuş gələndə, ağa qara deyildiyini görəndə də susmayıb, əksinə bu və buna oxşar həyat faktları onun poetik yaşantılarını, iztirab, kədər və sevincini ovxarlayıb, gücləndirib, şairin dünyanı duymaq, təsvir və təhlil etmək işinə – sənətinə rəvac verib. Onu yorulmağa, usanmağa qoymayıb. Şair «Mən nə üçün şeir yazdım?...» sualına cavab verərkən mövqeyini daha dəqiq aydınlaşdırır: «Bu suala cavab vermək üçün bir qədər uzaqdan başlamalı olacağam. Şahdağın ətəyində, təbiətin dilbər bir guşəsində – Sudur kəndində dünyaya gəlmişəm. Gözümü açanda güllü-çiçəkli çöllər, çəmənlər, dərin dərələr, sıldırım qayalar, qaynar bulaqlar,

qoynunda ağlı-qaralı sürülər, naxırlar, ilxılar bəslənən yaylaqlar görmüşəm. Ömrümün 15 ilini indiki zamanda yox, keçmişdə, təxminən Homerin, Nizaminin, Dantenin, Şekspirin, Puşkinin, Tolstoyun, Dostoyevskinin və xalqımın istəkli şairi Yetim Eminin yazıb yaratdığı zamanlarda yaşamışam. Belə ki, zülmət maqara da, hisli çıraq da qismətimə düşüb; Bellə yer belləyib kartof da əkmişəm, külünklə qaya çapıb yol da açmışam, oraqla taxıl da biçmişəm, dəryazla ot da çalmışam; Xışın dəstəyindən də yapışmışam, kamanın maçından da tutmuşam; qoyun da otarmışam, quzu da güdmüşəm, həftələrlə başımdan quzu dərisindən tikilmiş papaq, əynimdən yun çuxa, ayağımdan gön çarıq çıxmayıb; yorğa atın belinə də qalxmışam, arabaya da minmişəm, kirşəyə də...» (K.Kələntərli. Güllələsin dağlar məni... Bakı, 2000, s.3)

Şair Kələtər Kələntərlinin haqqında çoxdandır ki, yazmağı düşünürdüm. Mənimlə söhbətlərini yalnız ədəbiyyata həsr edən şairin sanki başqa bir problemi yox, dərdi-səri yox kimi görünür. Xüsusən də şeirində, sözündə qəlp ifadəyə rast gəldiyi adamları möhkəm qınayır, yarımçıq fikirli, zövqsüz, pinti «düşüncəli yazarlara» kəskin münasibət bildirir, Azərbaycan dilini bütün incəliklərinə qədər bilməyinin sevincini yaşayır. Mən ona həmişə iki xalqın bir şairi deyir, Azərbaycanın ictimai-siyasi problemlərinə həssas münasibətini qiymətləndirir, klassiklərimizdən bəhrələnərək yeni poeziya buketi yaratmasını təqdir edirəm. Şair mənə nəşr olunacaq çoxcildliyi barədə söhbət açanda buraya ön söz yazmağa məmnuniyyətlə razı oldum və ondan tərcümeyi-halını, əsərlərinin külliyyatını istədim ki, daha yaxından tanış olum. Şair özünün yazdığı bu qısa tərcümeyi-halı təqdim etdi. Orada deyilir:

1933-cü il mart ayının 20-də Azərbaycan Respublikasının Qusar rayonu Sudur kəndində kolxozçu ailəsində dünyaya gəlmişəm. Həmin kəndin Qənərçay qazmaları deyilən

yerdə 7 illik kənd məktəbini bitirmişəm. 1944-cü il fevralın 8-də atam vəfat edib. Ailə vəziyyətim ağır olub. 1945-ci ildən 1950-ci ilə kimi təhsilimi davam etdirə bilməmişəm. Sovxozda işləmişəm. 1950-ci ildə Quba Pedaqoji Texnikumuna daxil olub, oranı 1954-cü ildə başa vurmuşam. 1954-cü ildən 1958-ci ilə kimi Bakıda V.İ.Lenin adına APİ-nin dil-ədəbiyyat fakültəsində təhsil almışam. 3-cü kursu bitirəndən sonra öz ərizəmlə institutdan çıxmışam. Natamam ali təhsilliyəm. Azərbaycan və dünya ədəbiyyatını müstəqil oxumaqla yanaşı ədəbi yaradıcılıqla məşğul olmuşam. İlk şeirim «Arzu» «Ədəbiyyat və incəsənət» qəzetində 1955-ci ilin 30 aprel sayında dərc olunub. Birinci kitabım «Dəniz nəğmələri» 1963-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında xalq şairi Osman Sarıvəllinin redaktəsi ilə çapdan çıxıb. 1962-ci ilin fevral ayının 17-də SSRİ Yazıçılar İttifaqına qəbul olunmuşam. 45 ildir Yazıçılar Birliyinin üzvüyəm. «Dəniz nəğmələri», «Öz qitəmi axtarırım», «Qatar gedir», «Dəniz və məhəbbət», «Şirin nubar», «Duymaq üçün yaranmışam», «Güllələsin dağlar məni», «Bu səfər bitən deyil» və başqa kitabların; «Övlad həsrəti», «Onun yadigarı», «Dəniz və məhəbbət», «Bənna idi atam mənim», «Ağrımın ad günü», «Məhəbbət olan yerdə», «Muğan nəğmələri», «Mən inasanam», «Ay bəri bax», «Kövrək nəğmələr», «Başı bəlalı ürəyim mənim», «Əl kirşəsi» kimi epik-lirik poemaların; «Dağlar silkələndi», «Lənət şeytana», «Şöhrət axtaran xanım» adlı üç mənzum (şeirlə yazılmış) pyesin; Səməd Vurğun, Əliağa Vahid, Nazim Hikmət, Süleyman Rəhimov, Mehdi Hüseyn, Şıxəli Qurbanov, Əkrəm Cəfər, İlyas Əfəndiyev, Hüseyn Arif, Rəsul Rza, Məmməd Rahim, Osman Sarıvəlli, Xəlil Rza, Nəbi Xəzri, Sərdar Əsəd, Vilayət Rüstəmzadə və başqa sənətkarlar haqqında yazılmış, dövrü mətbuatda çap olunmuş memuarların müəllifiyəm. Müxtəlif vaxtlarda Azərbaycan Elmlər Akademiyasının kitabxanasında, «Azərbaycan gəncələri», «Mübariz keşikdə», «Amal»

qəzetlərində şöbə müdiri, Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Qızıl Şərq mətbəəsində korrektor, yazıçıların Natəvan adına klubun müdiri və s.i. vəzifələrdə işləmişəm. 5 il Respublika «Bilik» cəmiyyətinin mühazirəçisi olmuşam. 1959-cu ildən 1969-cu ilə kimi Komsomolun Mərkəzi Komitəsinin Sabir adına kitabxanasında təşkil etdiyi Ədəbiyyat dərnəyinə rəhbərlik etmişəm. 1980-ci ilin mayın 28-də tutulmuşam, heç nədən. 3 il azadlıqdan məhrum olunmuşam. 1983-cü ilin aprel ayının 30-na kimi Gürcüstanda həbsxanada yatmışam. 20 il çap olunmamışam. 1993-cü ilin yanvar ayının 1-dən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində (indiyi QSC) Radionun Ləzgi redaksiyasında böyük redaktor vəzifəsində işləyirəm. Ömürlüyümün qalan tərəfləri əsərlərimdə öz əksini tapıb.

Göründüyü kimi yazdığı əsərlər, ədəbi aləmdəki şəxsiyyətlərlə dostluğu, əbədi prosesə qayğısını qabardan şair elə həyatının mənasını da onlarda görür və «ömürlüyümün qalan tərəfləri əsərlərimdə öz əksini tapıb» deməyi fəxr bilir. Məgər biz ömürlüyü ilə əsərləri arasında təzad, ziddiyyət olan azmı şair, yazıçı, dramaturq, publisist, ədəbiyyatşünas görmüşük? Bütün bunlardan çıxıb edib deyə bilərik ki, K.Kələntərli «Poeziyanın düşməni mənim şəxsi düşmənimdir» deyimində haqlıdır.

O deyir ki, «Şair və Poeziya sözlərinin mənasını anlayandan sonra, ancaq ürəyimin səsinə qulaq asmışam; ürəyimdə olmayanı istəmək iddiasına düşməmişəm. Poeziyanın düşməni mənim şəxsi düşmənim; birinci növbədə tarixi ədalətsizliyin qurbanı olub iki yerə parçalanmış iki xalqın ləzgilərlə azərbaycanlıların, sonra da bütün insanlığın dərdləri və ağrıları isə şəxsi dərdlərim və ağrılarımdır. Ürəyimi köklayən də, mizrab vurub onun sarı simini dilləndirən də onlardır. Bu mənada bütün poetik əsərlərimi «Dərdli-ağrılı nəğmələr» adlandırmaq olar. Yaşım ustadım Vurğunun yaşını çoxdan keçib. Özümü tam, yetkin şair saymağa, çox güman ki, hələ-

lik haqqım yoxdur. Çünki yazdıqlarımın müqabilində az çap olunmuşam. Bunun da əsas səbəbi odur ki, milliyyətcə ləzgiyəm; ona görə də paxıllığımı çəkənlər çox olub; məni olduğum kimi görünməyə qoymayıblar. Əgər işıq üzü görmüş əsərlərimin içində əsl Poeziya nümunəsi ola biləcək beş-on şeir, bir-iki poema varsa, ona da min şükür. Başqa nə deyə bilərəm. Bir də:

Bu neçə tufandır ürəyimdəki, -
Mənə elə gəlir, elə gəlir ki,
İlləri ağrısız yola salmışam,
Həyat yollarında azmamışam mən;
Əlimə ilk dəfə qələm almışam,
Hələ də bir misra yazmamışəm mən!..

(Kələtər Kələntərli. Güllələsin dağlar məni... Bakı, 2000, s.7)

Baxışında, yerişi-duruşu və deyim tərzində sadəlövh uşaq təmizliyi yaşadan K.Kələntərli təvazökarlıq göstərib belə demir. Onun düşüncə və həyatı bu notlar üzərində qurulub. «Hələ də bir misra yazmamışam mən!» - söyləyən şairin yaradıcılığının janr mənzərəsi, mövzu müxtəlifliyi onu təkzib edir. Lakin bu narahat dünyadan, onun taleyindən nigaran olan şairin iztirabları diqtə edir ki, yurddaşları, həmvətənləri barədə fikirləşsin, üstündə yaşadığı torpağın dərdlərini şəxsi kədəri kimi yaşasın. Axı, o ustadlarından «Nə böyük şərəfdir şair doğulmaq» fikrini mənimsəyib, elinyurdun kədərini şəxsi kədərinə çevirməyi sənətinin əsas məramı bilir. Buna görədir ki, onun şeirlərində Azərbyacan, Şah dağı, Şalbuz dağ, Qusar, Qarabağ, Şuşa və şairə bağlı düşüncələr fərdi səciyyə daqşımır, bir vətənin və xalqın tale həqiqətləri kimi yadda qalır. Böyük Azərbyacan şairi Xəlil Rza Ulutürk onun poetik istedadını qiymətləndirərək deyir:

«Kələntərli – şairdir!» - deməmək mümkün deyil. Kələntərlinin şairliyi anadan gəlmədir, fitridir; bununla bərabər o, bu fitri iksiri qüvvətləndirmək uğrunda zəhmətini əsirgəmir, daim çalışır, daim oxuyur, daim səyahət edir, mübarizədən çəkinmir, özünü mübaqişə alovlarının içinə atır, yorulmur, usanmır. Məncə bu şair üçün ən başlıca keyfiyyətdir. Şairin bütün hal-tərcüməsi – ömürlüyü onun şeirlərində silinməz izlər buraxır» (Xəlil Rza. Şeirin səviyyəsini yüksəltmək uğrunda K.Kələntərlinin «Axtaran tapar» kitabına rəy. Bax: K.Kələntərli. Güllələsin dağlar məni... Bakı, 2000, s.5-14)

K.Kələntərli poeziyanı elmi-nəzəri ədəbiyyatdan, kitablardan deyil, həyatın özündən öyrənir, onun şeiriyyətini sənət aləminə gətirir. Belə olduğuna görədir ki, onun təsvir etdiyi obrazlar yadda qalır, qəhrəmanları xarakterik cizgiləri ilə sevilir.

* * *

Kələtər Kələntərlinin poeziyasında incə, zərif lirizm, məhəbbət lirikası, kövrək intonasiya, qəriblik duyğuları, yaşamaq, yaratmaq ehtirası özünə möhkəm yer tutub. Onun lirikası çoxçalarlıdır. Burada məhəbbət, təbiət lirikası, sosial həyat düşüncələri, fəlsəfi lirika diqqətəlayiq əhəmiyyət daşıyır. O bir çox lirik-psixoloji şeirlərində başqaları kimi platonizmə qapılmır, «idealist» şüarlar söyləmir, pafos burulğanında çırpınmır, əksinə oxuduğu, öyrəndiyi, yaşadığı gerçəklərdən çıxış edir, «hali-tərcüməsinin» - ömürlüyünün şairlik haqqını qoruyur. Şairin məhəbbət lirikasının əsasında da həmin real yaşantılar dayanır. Bu mənada K.Kələntərli haqlı olaraq deyir ki, «əsil şairlər könlündən keçəni gizlətmək istəsələr də gizlədə bilməyən uşaq kimi sadəlövh olurlar. Dahi Lev Tolstoyun təbiri ilə desək: Əsil şairlər – ağ saçlı körpələrdir» (K.Kələntərli. Petrarka ilə Lauranın məhəbbət macərası. «Yeni nəfəs» qəzeti, 18-31 avqust 2007-ci il). Şairin lirikası zəngin ənənəsi olan Azərbaycan poeziyasının bədii sənətkarlıq təcrübəsindən, folklordan və divan

ədəbiyyatından qaynaqlanır. Anadilli Azərbaycan şeirinin M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, M.Ş.Vazeh, A.Ələsgər, S.Vurğun, O.Sarıvəlli, Ə.Kərim kimi məşhur nümayəndələrinin irsinə yaradıcılıqla yanaşan K.Kələntərli özünün poetik intonasiyası, fərdi üslubu, novator təhkiyəsi ilə maraq doğurur. Onun M.Ş.Vazehin «Süsəni» şeiri mövzusunda yazdığı «Susanna» bu baxımdan maraq doğurur:

Yaşıl xiyabanda qarşıma çıxdın,
Göyərçin əlinlə əlimi sıxdın;
Gözəllik önündə dilim lal oldu,
Cavab axtardığım min sual oldu.
Saçımın çal vaxtı, gəl salma qana
Məni, Susanna...

Bütün gözəllərin gözü sənmisən?
Ülvi gözəlliyin özü sənmisən?
Adını qəlbimə mən nurla yazdım,
Günəşli bir gündə yolumu azdım,
Qara gözlərində atdın ümmana
Məni, Susanna...

Göyərçin əlini əlimdən çək sən,
Hələ dərilməmiş tər bir çiçəksən.
Cavan ha deyiləm, könlümü verəm,
Həm də ki, qonağam, gəldi-gedərəm,
Xoşbəxt ol, könlünü ver bir cavana,
Xoşbəxt, Susanna!..

(K.Kələntərli. Duymaq üçün yaranmışam.
Bakı, «Yazıçı» n., 1997, s.16)

Göründüyü kimi K.Kələntərli lirik şeirlərində portret yaratma məharəti ilə diqqəti cəlb edir. Burada gözəl Susan-

na ilə «öz nəfsini cilovlamış bir kişi» (X.R.Ulutürk) portreti qabarıq əksini tapıb. Ümumiyyətlə K.Kələntərlinin təsvir etdiyi dağ, dərə, bulaq, çay, meşə, tala, kənd, aul, gül, ağac və s. özünün təfərrüatı ilə, rənglərinin aydınlığı ilə yadda qalır. Fikrimcə bu şairin bədii-poetik istedadı ilə yanaşı, həm də aydın müşahidələrinin, reallıq hissinə sədaqətinin nəticəsidir. Belə olduğuna görədir ki, onun təsvir etdiyi «ləzgi qızı» yalnız özünün deyil, bütövlükdə Azərbaycan poeziyasının möhtəşəm bir obrazı kimi yadda qalır. O deyir:

Doğma kəndimizə qonaq gələndə,
Hər il qabağıma çıxırsan lalə.
Qırmızı rəngini bütün çöllərin
Elə bil üzünə yığırsan, lalə.

Doğma kəndimizin yaylaqlarında
Yayın sonlarında itirsən, lalə.
Ləzgi qızlarının yanaqlarında
Amma qarlı qışda bitirsən, lalə.

(K.Kələntərli. Öz qitəmi axtarıram.
Bakı, Azərnəşr, 1965, s.13)

K.Kələntərlinin poeziyasında fəlsəfi lirika insanın və dünyanın taleyinə bağlı düşüncələrdə öz əksini tapır. Uşaqlığı II Dünya müharibəsinin aclıq və məhrumiyyətlər dövrünə təsadüf edən şair kəndini yer kürəsi boyda görür və təsvir edir. Doğma ata ocağı ilə böyük Azərbaycan arasında oxşar tale yaşantılarını təsvir və tərənnüm edən şair dar milliyyət hüdudlarında məhdudlaşmır, «bəni-növi-bəşərin» ağrı-acılarına şərik olur, humanist fəlsəfi mühakimələrə poeziyasında meydan açır. Həmin mühakimə və lirik düşüncələr mücərrədlikdən uzaqdır, konkret mövzu və problemlərdən aydın qənaətlər əldə etməyə kömək olur. Şairin fəlsəfi lirikasının əsasında folklor məntiqi, xalq yaddaşı, etnoqrafik mü-

hakimələr dayanır. Budur «sonucu ölümlü dünya» haqqında Qorqudsayağı kədərini ifadə edən şair yazır:

Bu dünyanın çöl-çəməni hər yaz çağı gülər, gülüm.
Bu dünyanın hər qarğası özünü quş bilər, gülüm.
Bu dünyanın hər bülbülü bir gül üçün ölər,
Gülüm.
Bu dünyada bircə insan ölümdən can dilər, gülüm.
Bu dünyaya gələn ağlar, bu dünyadan gedən ağlar.

Paxıllıqlar, xəbisliklər, təşəxxüslər qəlbi didər,
Qəlbində mar gəzdirənin qapısında yarpız bitər,
Əl tutanı itirməyə əldən gedən özü itər,
Qara düşən od istəyər, dara düşən fəğan edər,
Kimin səsi kimə çatar, kimin hayı kimə yetər,
Gələn bilməz niyə gələr, gedən bilməz niyə gedər, -
Bu dünyaya gələn ağlar, bu dünyadan gedən ağlar!...

(K.Kələntərli. Güllələsin dağlar məni... Bakı, 2000, s. 82)

K.Kələntərlinin əsərlərində mükəmməlliyi ilə yadda qalan obrazlar saysız-hesabsızdır. Lakin bunların içində birinin – Şah dağın öz yeri var. Şairin təbiətə, doğma Azərbaycanın gözəlliklərinə həsr olunan şerləri yetərincədir, onun ata yurdu, geniş vətən düzləri, qocaman palıd ağacı, bənövşə, xallı kəpənək kimi obrazları buna parlaq misaldır. Bunlar şairin təbiət lirikasını dünyanın ən ünlü lirik-romantik şairlərinin yaradıcılığı ilə müqayisəyə əsas verir. Dünya liriklərində olduğu kimi burada da səmimi hisslər, real mənzərələr, nostalji-xiffət, saf sevgi, humanist mövqe, yaddaş təmizliyi, bəşəri kədər ön plandadır. Şairin ata yurdu – Sudur kəndinə həsr etdiyi şerdə olduğu kimi:

Ey dağlar, ey çöllər, gəlmişəm budur,
Ey doğma Sudurun əlvan düzləri,
Sizin sinənizə həkk olunubdur
Atamın, babamın ayaq izləri.

Dünyadan yapışıb kim qalacaq, kim?
Kimdir görüşdürən bir daha bizi?
Məndən inciməz ki, həmyerlilərim,
Bir gün ürəyimdə aparsam sizi?!.

(K.Kələntərli. Öz qitəmi axtarıram.
Bakı, Azərnəşr, 1965, s. 19)

Şairin təbiət lirikasında ümumiyyətlə bir narahlıq, kədər və nisgil ifadə olunsa da, Şah dağına həsr etdiyi şeirlərdə bir qürur, güvənc, fəxr və iftixar özünü göstrməkdədir. Elə burada xatırlatmaq yerinə düşər ki, K.Kələntərlinin təbiət lirikası təxəyyülə əsaslanan «kabinet şerləri» deyil, vətənin torpağı, daşı, quşu, ağacı ilə həmdərd, həmnəfəs olan bir şairin gerçək həyat yaşantılarıdır. Ona görə də bu şerlər bir günün, bir ədəbi mərhələ və «sezonun» şeri deyil, əbədiyyətə aparan yolun şeridir. Şah dağına həsr olunan bu şerlər onun özü və adı var olduqca, Şah dağına pənah gətirən insanlar var olduqca yaşayacaq. Çünki, bu şerlər idrak nuru ilə mənəviyyat enerjisindən yoğrulub, gerçək insan taleyinin iztirablarına ayna tutur:

Şah dağı, yaz çağı yaşıl çəməndə
Səs-səsə verərək mələr quzular.
Doğma analardan ayrı düşəndə,
Səsilə dağları dələr quzular.

Şah dağı, oğlunu yaxşı başa düş,
Səsimlə dağları dələrəm sənsiz.

Doğma anasından aralı düşmüş
Körpə quzu kimi mələrəm sənsiz!..

(K.Kələntərli. Öz qitəmi axtarıram.
Bakı, Azərnəşr, 1965, s. 42)

Şah dağa həsr etdiyi başqa bir şerində isə K.Kələntərli onun möhtəşəm obrazını və şəxsi arzularını belə ifadə edir:

Dağların döşündə gəldim dünyaya,
Dağların döşündə gözümü açdım.
Güldən-gülə qonan kəpənək kimi
Bir zaman çəməndən-çəmənə qaçdım.

Deyirəm o çəmən, o dağ, o dərə
Hər zaman, hər yerdə sirdaşım olsun!
Dünyadan köçəndə, qoca Şah dağı
Mənim əbədilik başdaşım olsun!...

(K.Kələntərli. Öz qitəmi axtarıram. Bakı, Azərnəşr, 1965, s. 17)

Şair Kələntər Kələntərlinin yaradıcılığında müasir Azərbaycan ədəbi dili və canlı xalq danışığı özünün şəhdi-şirəsini göstərir, ən dərin qatlarda gizlənən fikir və məna ehtiyatlarının asanlıqla ortaya çıxarır. Onun «Sözü həssaslıqla sıxması» sayəsində könlündə gəzdirdiyi mübhəm duyğular dağ şəlaləsi, bulaq suyu kimi dumduru, şəffaf şəkildə əks etdirilir.

* *
*

Kələntər Kələntərlinin şeirlərini oxucuya sevdirən, o cümlədən mənə doğmalaşdıran şəxsiyyətindəki bütövlük, comərdlik, sədaqət duyğusu və «ağsaçlı körpəlik»dir. O indiki 75 yaşın zirvəsində də bir zamanlar yazdığı «Atam bənna idi...» şeirindəki kimi işi-əməli, sənəti ilə dünyada bir iz, nam-nişan qoymaq arzusu ilə yaşayır. Sənətə sədaqət andını

unutmayan qoca şairin mənim üçün bir doğmalığı da onun bənna atasının xatirəsinə ehtiramıdır. Mənim də atam bənna, daşkəsən, daşyonandır və o bizim ailənin çörəyini daşdan çıxartması ilə həmişə öyünüb, halal zəhməti bizə – övladlarına tövsiyyə edib. K.Kələntərli atası Şıxkərim kişinin yolunu tutaraq sənətində doğruluq, halallıq və bir işəməl, əsər sahibi olmağı ən böyük insanlıq vəzifəsi sayır. O deyir:

Atam bənna idi...
Dərd verib mənə
Onu öz qoynuna vaxtsız çəkdi yer.
Doğma kəndimizdə seçilir yenə,
Onun əllərilə ucalan evlər.

Bir şey düşündürür məni hər zaman:
Duymaqda, yanmaqda ürəyim təkmi?
Mən köçüb gedəndə bir gün dünyadan,
Şerim şerlərdən seçiləcəkmi?..

(K.Kələntərli. Öz qitəmi axtarıram.
Bakı, Azərnəşr, 1965, s. 10)

Kələntər Kələntərli Qusarın uca dağ kəndlərindən birində dünyaya gələn ləzgi balasıdır. Sözlə zərgər dəqiqliyi ilə işləyən bu dağlı şairin kövrək duyğular aləmində ləzgi, dargi, gürcü, osetin, avar, saxur, tat, balkar, kürd, qaraçay, çərkəz, çeçen eyni rəğbətlə vəsf edilir, hər birinin dili, dini, məzhəbinə hörmətlə yanaşılır. Şair Azərbaycanda yaşayan dağlıların etnik dəyərlərinə, adət-ənənəsinə, dilinə ehtiram bəsləyir, onların sayəsində Azərbaycanda beynəlmiləl təbiiliyi yüksək qiymətləndirir və hər birinin etno-psixoloji rəngarənglik yaratmaqda mühüm rol oynadığını nəzərə çatdırır. Bunun üçün müxtəlif etnik qrupların dil dəyərlərini qorumasını faydalı sayan K.Kələntərli ləzgi dilini və ləzgilik

düşüncəsini qorumasını özünə fəxr bilir. O deyir:

Yetimlik çəkəndə məni çarmıxa,
Kövrək ürəyimi qəm sıxa-sıxa,
Əynimdə bir çuxa, başımda papaq,
Dağlardan ayrıldım neçə il qabaq.
Dağlara düşəndə yolum təzədən,
Nə olsun onları gətirməmişəm;
Ləzgi libasımı itirsəm də mən,
Ləzgi ürəyimi itirməmişəm!..

(K.Kələntərli. Güllələsin dağlar məni....
Bakı, 2000, s. 224)

K.Kələntərli daxilən, ruhən azad adamdır və azadlıq tərəfdarıdır. Onun şer, poema, pyes və memuarlarında azadlıq duyğusu qırmızı xəttlə keçir. Şair «İnsanlara azadlıq, millətlərə hürriyyət» söyləyən Azərbaycan maarifçi-demokratlarının davamçısı kimi çıxış edir, «xeyir fikir, xeyir söz, xeyir əməl» (Zərdüşt) ideyasının müasir gerçəkliyə təbliğinə xidmət göstərir, «birlik, bərabərlik, qardaşlıq» dünyasının qurulmasına çalışır. Çünki məhz belə bir dünyada, azadlıq və bərabərlik dünyasında hər bir insanın, hər bir millətin haqq və hüquqlarının tanınacağına inanır. Bu azad Azərbaycan dünyasıdır. Hələ sovet hakimiyyəti illərində ləzgi dilinin işlədilməsi uğrunda mübarizə aparan K.Kələntərli işinin haqlı olduğuna inanır, bu yolda məhrumiyyətlərə dözürdü. Çünki o «mənim dilim hanı?» sualı ilə rastlaşır, hərdən doğma ləzgi millətinin tənəsinə də tuş gəlirdi. Bunu şair aşağıdakı kimi təsvir edir:

Havalanıb çıxdım evdən, Kərəm kimi yana-yana,
Tüstülənə-tüstülənə üz çevirdim qəbristana.

Şıx nəvəsi Şıxkərimin -- öz atamın qəbri üstə,
Başqa dildə dərdli sözlər pıçıldadı
doqdaqlarım.
«Mənim dilim hanı?» deyə bir səs gəldi
lal qəbirdən,
Burdan qaçmaq istəsəm də tərpənmədi
ayaqlarım...
Ləzgicə yox, başqa dildə şeir dedim
ləzgilərə,
Bir ağsaqqal yorma dedi sən özünü əbəs yerə;
Danışdığın bu dil ki var, deyil mənə
tanış dedi,
Bir ağbirçək: ləzgisənsə öz dilində
danış dedi.
Ləzgicə yox, başqa dildə məhəbbətdən,
sədaqətdən,
Şeir dedim qızlara mən.
Susdu qızlar... hanı alqış?
Qəlblərində dil açmışdı gizlin nifrin,
gizlin qarğış,
Üzlərində min bir tənə,
Gözlərində sonsuz nifrət,
Biri mənə söz də atdı:
Öz dilini unudanda nə məhəbbət, nə sədaqət?!

(K.Kələntərli. Güllələsin dağlar məni.
Bakı, 2000, s. 62)

Çox şükürlər olsun ki, Azərbaycan yenidən istiqlalını əldə etdi, müstəqil dövlət atributlarının bərpasına müvəffəq oldu. Bunun sayəsində də indii Azərbaycanda yaşayan bir sıra millətlər kimi ləzgilər də öz dilində yazıb-yaradır, dövlət və vətəninin qorunmasını vətəndaşlıq vəzifəsi sayırlar.

***

Kələntər Kələntərli ideyalı şairdir. O gündə bir fikrə düşən, mövqe dəyişənlərə qarşıdır. Şairin ideyalılığı sözə, sənətə münasibətindəki prinsipiallığında, vətəndaşlıq mövqeyinin aydınlığında özünü göstərir. O bir çoxları kimi ideya-fəlsəfi yükü olan əsərlərin mütaliəsi ilə ideyalılıq qazanmayıb. Şairin həyat yolu, çəkdiyi əziyyətlər və həyat təcrübəsi onu ideyalı şəxsiyyətə çevirib. Kələntər Kələntərli Azərbaycançılıq ideyası ilə böyüyən və onu qoruyan ağsaqqal şair, mərd və mübariz vətəndaşdır. Onun bu yola qədəm qoymasında çağdaş Azərbaycan poeziyasının mütəfəkkir şairi Səməd Vurğunun müstəsna təsiri olub. S.Vurğunla Qubadakı ilk görüşünü K.Kələntərli süjetli şerlərinin birində belə xatırlayır:

Necə də xoş idi şairin səsi:
Doğma Azərbaycan dilə gəlmişdi,
Onu dinləyirdi bu yer kürrəsi...
«Mən tələsmirəm»i yetəndə sona
Əllər işə düşdü, qopdu alqışlar.
O bir də üzünü tutdu salona:
- Bəlkə aranızda şer yazan var?
Xəyalən kimlərlə dayandım qoşa,
Arzular qatarla keçdi könlümdən.
İndi də bilmirəm onda birbaşa
Bircə «var» sözünü necə dedim mən.
- Gəl oxu...
Oxudum şerə oxşarı,
Bir misram könlünə yatdımı barı?
Nələr çəkdiyimi bilən mən oldum,
Qarlı dağlar aşıb gələn mən oldum.
Sanki dağ çayları sinəmdən axdı,
Üzündə təbəssüm üzümə baxdı:
- Aya, ləzgisənmi?
- Bəli! Necə ki?

Kövrəldim südəmər körpə sayağı...
- Ay ləzgi balası, deyirəm axı,
Şerində fikir var, dil niyə yoxdur?

Xeyir-duasını dinlədim onun,
Mənə qanun oldu sözü Vurğunun.
Dilinə bağlandı ürək də, can da,
Sözə ürək verdim, sözə can verdim.
O gündən hər təzə şer yazanda
Mən Vurğun önündə imtahan verdim
Xoş günü çox oldu bu xoş ömrümün,
Onlardan birini gərək ayıram.
Ona ilk şerimi oxuduğum gün
Ömrümün ən əziz günü sayıram.

(K.Kələntərli. Duymaq üçün yaranmışam.
Bakı, «Yazıçı» nəşr., 1979, s. 15-16).

K. Kələntərlinin dəfələrlə etiraf etdiyi kimi bu görüş onun həyatında bir əsaslı dönüş nöqtəsi olub və həmin gündən özünü «Səməd Vurğun məktəbinin davamçısı hesab edib. Əslini heç vaxt danmayıb, fəqət Azərbaycan xalqını, onun dilini heç də ləzgi xalqından, öz doğma dilindən az sevməyib. O həmişə öz içini yazıb, dostlarının, atasının hisslərini qələmə alıb, dağın, dənizin, daşın, qayanın, insanın təsvirini verib. Həm öz millətinin, həm də Azərbaycan xalqının dərdinin şəklini çəkib» (M.Məsimoğlu. Rəsul Rza və Kələntər Kələntərli haqqında beş – ön söz. «Yeni nəfəs» qəzeti, 18-31 avqust 2007-ci il)

Kələntər Kələntərlinin yaradıcılığında müasirlik ideyası güclüdür. O nədən yazırsa yazsın müasirlik hissini əsas götürür, həmişə təzə-tər olana arxalanır. Şairin müasirlik axtarışlarının mayasında həyatın özü dayanır. Bu sadəcə real olanların tərənnümü demək deyil, daha çox zamanla ayaq-

laşmağı bacarmaq, əbədi olanları axtarıb tapmaq, ona yeni poetik don geyindirməyi bacarmaq, «sözün üzərindəki tozu silmək» (M.Füzuli) qabiliyyətidir. Elə həmin səbəbdəndir ki, şairin gündəlik yaşantıları, poetik duyğuları vətəndaşlıq meyarı səviyyəsinə yüksəlir, Azərbaycan insanın daxili-mənəvi, sosial-psixoloji sarsıntılarını əks etdirir. Bu mənada günümüzün ən ağrılı problemi olan Qarabağ hadisələrinə və ondan doğan ictimai-siyasi gərginlik və təzadlara ayna tutması şairin çağdaş yaşantılarını sərgiləyir.

Günlər günə calanır, ay dolanır, il keçir,
Beynimdə od qalanır, qəlbimdən nisgil keçir,
Ağrımı yükləməyə fikrimdən min fil keçir,
Gözümün qabağından gündə min səfil keçir,
Dərdimə dərd yüklənir, dərd sinəmə çəkir dağ,
Dərdlər burulğanında yaddan çıxır Qarabağ.

Quldurluq məktəbini bitirmişlər nə qədər,
Namusunu, arını itirmişlər nə qədər,
Bir tapşırıq yerinə yetirmişlər nə qədər,
Məmləkətə fəlakət gətirmişlər nə qədər,
Qananların gözündən yaş yerinə qan çıxır,
Torpağı qan fışqıran Qarabağ yaddan çıxır.

Bilən yox hansı yolsuz hansı yola satılır,
Əqidə, amal, məslək, vicdan pula satılır,
Fabrik, zavod, dağ, meşə, çəmən, tala çatılır,
Qurdbasar bazarında əbləh tula satılır,
Ortalığa dürəklər hər yerdə, hər an çıxır,
Onlar üzə çıxdıqca Qarabağ yaddan çıxır.

Qeyrətdən kasad olan qeyrət dərsi keçməkdə,
Bir tükü dəbərməyən heyrət dərsi keçməkdə,
Tülküdən qorxan əfəl cürət dərsi keçməkdə,

Milliyəti naməlum millət dərsi keçməkdə,
Dərs deməklə baş qatan bayquşa bax, sara bax,
Onların ucbatından yaddan çıxır Qarabağ.

(K.Kələntərli. Güllələsin dağlar məni...
Bakı, 2000, s. 31)

Kələntər Kələntərlinin bu şerini oxuyanda nədənsə unudulmaz romantik şairimiz Məhəmməd Hadinin aşağıdakı misralarını xatırladım.

... Bu insanlar ki, qardaşdır və lakin yad şəklində,
Bu matəmgahı kim görmüş sürürabad şəklində!...

Bu kövrək, kədərli, ağrılı, fəlsəfi sətirlər XX əsrin əvvəllərində əbədiyyətə qovuşan bir ruhun «göz yaşı içində hekayətidir» və eyni «hali-tərcümə» K.Kələntərlinin misralarında, təkcə bu günə deyil, həm də sabaha ünvanlanan misralarında əksini tapıb.

K.Kələntərli bütöv xarakterlər, lirik qəhrəmanlar, dramatik vəziyyətlər, romantik təsvirlər, pafoslu ifadələr şairidir. Onun şerlərini, poemalarını və digər janrda olan əsərlərini sabaha daşıyacaq keyfiyyətlərdir bu sadalananlar. Sovet dövründə yaradıcılığa başlasa da, o dövrün xırda-para epitetləri əl-ayağına dolaşsa da şair bütün siyasi konyukturalardan – postulatlardan yüksəkdə dayanır, insan, təbiət və cəmiyyətin asudəliyini, azadlığını tərənnüm edir. Doğma Azərbaycanın azadlığına sevinən şair deyir:

Xainlər haqq sözümə
Qara yaxsın, nə olar.
Çəp baxanlar üzümə,
Bir də baxsın, nə olar.
Baxdığım səmtə baxan,
Hər kəsin yoldaşıyam;
Tikanlıqda gül tapan,
Bəm içində zil tapan,

Dilbilməzlə dil tapan,
Azad Azərbaycanın,
Azad vətəndaşıyam.

Mən cahanın qoynunda,
Yeni cahan qurmuşam;
Qeyrətimlə onun da
Keşiyində durmuşam.
Cansız daşa can verən,
Canlı məhək daşıyam;
Ağlayanı güldürən,
Hədsizə həd bildirən,
Ölümü də öldürən, -
Azad Azərbaycanın,
Azad vətəndaşıyam.

(K.Kələntərli. Güllələsin dağlar məni...
Bakı, 2000, s. 215)

Kələntər Kələntərlinin formaca müxtəlif, mənaca rəngarəng, ideyaca aydın yaradıcılığı haqqında günlərlə danışmaq olar. Onun «Dağlar silkələndi» (Müqtədir) adlı mənzum pyesi, «Kövrək nəğmələr», «Ay bəri bax», «Bənna idi mənim atam» poemaları, çoxsaylı memuarları, publisitik yazıları şairin zəngin irsindən xəbər verir, yaxın dövrün bədii salnaməsi səciyyəsini daşıyırlar. Çünki nədən və necə yazmasından asılı olmayaraq hər bir əsərində Kələntər Kələntərlinin parlaq şair obrazı, bütöv vətəndaş «mən»i görünür...

Şairin səkkiz cilddə nəşri nəzərdə tutulan indiki çoxcildliyinin 1-ci, 2-ci və 3-cü cildlərinə həm dövrü mətbuatda, həm müxtəlif illərdə işıq üzü görmüş: «Dəniz nəğmələri», «Öz qitəmi axtarıram», «Qatar gedir», «Dəniz və məhəbbət», «Şirin nubar», «Duymaq üçün yaranmışam», «Güllələsin dağlar məni» kitablarında yer almış, həm də heç bir yerdə çap olunmamış yüzlərlə şeiri daxil edilmişdir.

4-cü və 5-ci cildlərdə yer alacaq poemaların və dram əsərlərinin adları: «Dəniz və məhəbbət», «Bənna idi atam mənim», «Muğan nəğmələri», «Məhəbbət olan yerdə», «Ağrımın ad günü», «Kövrək nəğmələr», «Ay bəri bax», «Başı bəlalı ürəyim mənim», «Mən insanam», «Əl kirşəsi» adlı poemalar; yarımçıq qalmış bəzi poemalardan parçalar; «Dağlar silkələndi», «Belə-belə işlər, yaxud lənət şeytana», «Şöhrət axtarır məni» adlı mənzum pyeslər daxildir. 6-cı cildə «Mənim Səməd Vurğunum» və Əli Kərimə həsr olunmuş «Bu səfər bitən deyil» adlı monoqrafiyaları, 7-ci cildə Əliağa Vahid, Nazim Hikmət, Süleyman Rəhimov, Mehdi Hüseyn, Osman Sarıvəlli, Hüseyn Arif, İlyas Əfəndiyev, Xəlil Rza, Əkrəm Cəfər, Nəbi Xəzri, Məmməd Rahim, Məmməd Araz, Tofiq Bayram, İslam Səfərli, Vilayət Rüstəmzadə, Rəsul Rza, Məmməd Əkbər, Əkbəır Ağayev və s. haqqında xatirə-memuar səpkili yazılar, 8-ci cildə həm dövrü mətbuatda çap olunmuş, həm də çap olunmamış məqalələr (məs. «Şei rvə poeziya», «İstedad, ilham və bir də zəhmət», «İstedad – nadir hadisədir», «Nəğmələrimiz haqqında», «Gənclik, ənənə və novatorluq», «Söz yaşamaq istəyir» və s.) daxil ediləcəkdir.

Əlbəttə son söz kimi bu nəşrin zəhmətini çəkənlərə minnətdarlıq düşür və biz də öz tərəfimizdən sənətsevər həmvətənlərimizə minnətdarlığımızı bildiririk.

"Yeni Nəfəs" qəzeti, 15-28 sentyabr,
29 sentyabr-12 oktyabr 2007-ci il

AZƏRBAYCAN İNFORMASİYA MÜHİTİNİN LİDERİ

Azərbaycanda jurnalistikanın meydana gəlməsi ilə informasiya işinin təşkili mühüm ictimai-tarixi əhəmiyyət kəsb etməyə başlamışdır. «Əkinçi»dən başlayaraq günümüzədək böyük təkamül yolu keçən milli jurnalistika özünün çoxsaylı mətbuat orqanları, qəzet, jurnal, radio, televiziya, İnternet şəbəkəsini yaratmış, ayrı-ayrı rəsmi və qeyri rəsmi informasiya agentliklərini, təşkilatlarını qurmuşdur. Bu tarixi zənginlik içrisində və jurnalistikamızın inkişaf mənzərəsində Azər TAc-ın «mürəkkəb və şərəfli yolu» var. Belə ki, təsis günündən hazırkı vaxta qədər Azər TAc müxtəlif siyasi rejim, ideologiya, dövlət qurumu görsə də, müxtəlif nəsilli, müxtəlif dünyagörüşlü yaradıcı kollektivə malik olsa da «doğru olan»ı söyləmək məsuliyyətini daşıyıb və hər zaman tarixin sınağından çıxmaq, səlahiyyətli söz sahibi olmaq istəyini gerçəkləşdirib, ümumxalq və dövlət mənafelərinin qorunmasına çalışıb, etibarlı informasiya mənbəyi rolunu ləyaqətlə ifadə etməyə üstünlük verib.

«Azər TAc»-dan Azər TAc-a mürəkkəb və şərəfli yol» (2008) kitabı ilə tanışlıq ilk təəssürat kimi bunları söyləməyə imkan verir. Lakin burada ümumxalq taleyinə və tarixinə bağlı həqiqətlərin arxasındakı mənzərə isə daha çox maraq doğurur. Elə bu səbəbdəndir ki, kitab rəngli və şəkilli olmaqla yüksək professionallıq və poliqrafik səviyyədə hazırlanması ilə yanaşı, həm də ensiklopedik tutumu ilə diqqəti cəlb edir. Azər TAc-ın yarandığı gündən ötən 90 ilin fakt, hadisə, problem və şəxsiyyətləri haqqında yığcam məlumat verən kitabda göstərilir ki, «Agentliyin təkcə adının 7 dəfə dəyişdirilməsi – 1920-ci ildə Azər TAc, yenə də həmin ildə Az QAF ROSTA, 1921-ci ildə Azər TA, 1922-ci ildə Zaq

TA, 1936-cı ildə yenidən Azər TA, 1972-ci ildə Azərinform, nəhayət 1992-ci ildə Azər TAc adlandırılmasının özü keçilmiş tarixi yolun mürəkkəbliyini təsdiq edən faktlardan biridir».

Azər TAc Azərbaycanın ilk rəsmi və ən uzunömürlü informasiya agentliyidir. İnformasiya işinin müstəqil dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılmasında əhəmiyyətini yüksək qiymətləndirən Azərbaycan Xalq Cümhuriyyəti xadimləri onun rəsmi təşkilat – agentlik tərəfindən tənzimlənməsinə şərait yaratdılar və təsadüfi deyil ki, Azərbaycan Nazirlər Şurasının iclasında belə bir agentliyin yaradılması ilə bağlı məsələ müzakirə edilmiş, Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin məruzəsi dinlənilmiş və 1919-cu il mart ayının 3-də Azərbaycan hökumətinin qərarı ilə Azərbaycan Teleqraf Agentliyinin təşkil edilməsi o zamankı Xalq Maarif naziri Nəsib bəy Usubbəyova tapşırılmışdır.

Kitabda göstərilir ki, bu qərar hansı səbəbdənsə icra edilməmişdir. Ona görə də bir il sonra, 1920-ci il fevralın 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Camo bəy Hacınskinin başçılıq etdiyi Poçt və Teleqraf Nazirliyi yanında «geniş daxili və xarici xronika, habelə dövlət idarəçiliyinin bütün sahələri üzrə hökumət xəbərləri şöbələri olan» Azərbaycan Teleqraf Acanslığının – Azər TAc-ın təşkil olunması haqqında yeni qərar qəbul etmişdir...

1920-ci il fevralın 23-də AXC parlamentinin iclaslarından birində də agentliyin yaradılmasının vacibliyindən söhbət getmişdir. Parlamentdə «Bakı sahil radiostansiyasının ştatı haqqında» qanun layihəsinin müzakirəsi zamanı məruzə ilə çıxış edən deputat Ağa Eminov bildirmişdir ki, radiostansiya (simsiz teleqraf) üç aparatdan ibarətdir. İkisi qəbuledici, biri isə həm qəbuledici, həm də vericidir. Ona görə də Avropanın üç böyük stansiyasından eyni vaxtda gələn xəbərləri qəbul etmək mümkün olmur. Beləliklə, Azərbaycan haqqında xəbərlər yalnız bir apparat vasitəsilə gön-

dərilir. Radiostansiyadakı aparatların sutka ərzində 70 min sözdən çox qəbul edə bilmədiyini xatırladan məruzəçi məlumat vermişdir ki, hökumətin teleqraf agentliyi yaratmaq niyyəti var və bunun üçün layihə də hazırlanmışdır.

Müzakirələrdə çıxış edən deputat Ağa Aşurov məruzəçinin fikirlərini dəstəkləyərək demişdir ki, teleqraf agentliyinin «yoxluğundandır ki, düşmənlərimiz haqqımızda və Bakı xüsusunda cürbəcür yalan və həqiqətdən kənar şayiələr və xəbərlər nəşr edirlər. Əgər bizim agentliyimiz olsa idi, o zaman biz onun vasitəsilə haqqımızda nəşr olunan xəbərləri də bilərdik və lazım gələn cavabları da verərdik».

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və sovet hakimiyyətinin qurulması ilə informasiya işinə diqqətin daha da artdığını əks etdirən kitabda bir sıra obyektiv tarixi həqiqətlərə diqqət yönəldilir, agentliyin adı dəyişdirilsə də onun vəzifəsinin icrası məsələsi yüksək qiymətləndirilir. Bunun üçün bir sıra tarixi sənədlər, qəzet məqalələri, rəsmi teleqramlar, xatirələr, ayrı-ayrı şəxsiyyətlərin ömür yolu və yaradıcılığı təhlil obyektinə çevrilir. Bu mənada Azər TAc-ın direktoru Qubad Qasımovun xatirəsi jurnalistika tarixi baxımından maraq doğurur. Xüsusən onun «işıq qəzeti», teleqrafla – Mirze əlifbası ilə Bakıya gətirilən xəbərlər, 1932-ci ildə «Kleynşmidt» markalı ilk teletaypın qurulması haqqında xatırlamaları Azərbaycan KİV-inin tarixini işıqlandırmağa kömək edir. Bu isə yalnız KİV-in texnoloji imkanlarının artmasının deyil, Azərbaycanda məlumat, xəbər, informasiya işinin təşkilində yeni mərhələnin, ictimai ünsiyyətin, sosial mədəniyyətin formalaşmasına meydan açan faktdır.

Sovet hakimiyyəti illərində, II Dünya müharibəsi dövründə və son müstəqillik mərhələsində Azər TAc-ın vəsiqəsi ilə çalışan redaktor, korrektor, stenoqrafçı, makinaçı, müxbir və başqaları haqqında da yığcam bioqrafik məlumat verilir. Onlardan Rəsul Rza, Qılman Musayev, Abbas Zamanov, Cəmşid Əmirov, Nüsrət Bağırov, Mixail Pleskaçevski,

İsmayıl Hüseynov, Aslan Aslanov, Vaqif Musayev, Dağbəyi İsmayılov, Oqtay Məmmədov, Elman Cəfərli, Elmira Əliyeva, Oqtay Bayramov, Əsgər İbrahimov, Nərgiz Sadıqova, Yaşar Xəlilov, Sabir Yusifov, Ağaqulu Niftəliyev, Azər Bağırov, Gülnarə Rzayeva, Nazim Xıdırov, Sevil Höcətova, Ülviyyət Dadaşova, Aleksandra Flamina kimi əməkdaşların əməyi xüsusi qeyd edilir, bir qrupunun «Tərəqqi» medalı ilə təltif edilməsi, digərlərinin «Əməkdar mədəniyyət işçisi» adına layiq görülməsi şərəfli əməyin nəticəsi kimi nəzərə çatdırılır.

Azərbaycanın ən uzun ömürlü informasiya təşkilatı kimi dünyada tanınan Azər TAc-a həsr edilən kitabın qiymətli tərəflərindən biri də odur ki, azərbaycan, rus və ingilis dillərində oxucuya çatdırılır. Onun fəaliyyəti xronoloji ardıcıllıqla təsvir olunmaqla yanaşı, beynəlxalq əlaqələri və qonaqları barədə də müfəssəl məlumat verilir. Göstərilir ki, informasiya agentliyinin rolunu yüksək qiymətləndirən Heydər Əliyev müstəqil Azərbaycanın dövlət informasiya orqanının işinin müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət yetirirdi.

Azər TAc isə bu işdə agentliyə həmişə xüsusi qayğı ilə yanaşan ümummilli liderimizin layiqli köməkçisi olmağa çalışmış, Azərbaycan həqiqətlərini yaymaqla ölkəmizi dünyaya tanıtmışdır.

1995-ci il martın 3-də Prezident Heydər Əliyev Azərbaycan Teleqraf Agentliyinin yenidən təşkil edilməsi haqqında Fərman imzaladı. Həmin Fərmanla agentliyin tarixi adı saxlanılmaqla ona dövlət informasiya orqanı statusu verilərək, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi yaradıldı. Azər TAc-ın maliyyələşdirilməsi müəyyən edildi. Nazirlər Kabineti Prezidentin Fərmanının icrası ilə bağlı qərar qəbul edərək, konkret tədbirlər işləyib hazırladı. Həmin Fərmanla Azər TAc-ın həyatında yeni bir dövrün başlanğıcı qoyuldu. Dövlət büd-

cəsindən maliyyələşdirilməyə keçirilməsi, kreditor borcların silinməsi, agentliyin bütövlüklə kompyuterləşdirilməsi üçün xüsusi vəsait ayrılması, bir sıra xarici dövlətlərdə agentliyin ilk müxbir məntəqələrinin yaradılmasına başlanması Azər TAc-ın fəaliyyətinin səviyyəsini xeyli yüksəltmiş oldu.

1996-cı il iyunun 29-da isə «Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Azərbaycan Dövlət Teleqraf Agentliyinin (Azər TAc) işinin yaxşılaşdırılması haqqında» Prezidentin Sərəncamı verildi və onun icrası ilə əlaqədar Nazirlər Kabinetinin müvafiq qərarı qəbul olundu. Həmin qərarla işin spesifik xüsusiyyətləri nəzərə alınmaqla Azər TAc-ın maddi-texniki bazası yaxşılaşdırıldı, onun fəaliyyətini gücləndirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirildi, agentliyin tarixində ilk dəfə olaraq bir neçə xarici ölkədə müxbir məntəqələri açıldı, xarici dillərdə xəbər hazırlayan və yayan baş redaksiya yaradıldı.

2000-ci il yanvarın 17-də, Azər TAc-ın 80 illiyinin yaxınlaşdığı bir vaxtda Prezident Heydər Əliyev Azər TAc-ın fəaliyyətinin təkmilləşdirilməsi barədə Fərman imzaladı.

İndiyədək Azər TAc İTAR-TASS (Rusiya), Anadolu Agentliyi (Türkiyə), Sinxua (Çin), Rompres (Rumıniya), Ukrinform (Ukrayna), BTA (Bolqarıstan), ANSA (İtaliya), İRNA (İran), TANYUQ (Serbiya), BELTA (Belarus), ATA (Albaniya), MTİ (Macarıstan), MENA (Misir), PETRA (İordaniya), ANTARA (İndoneziya), informasiya agentlikləri ilə əməkdaşlıq haqqında sazişlər imzalanmışdır.

2004-cü ilin sentyabrında agentliyin həyatında çox əlamətdar hadisə baş vermiş, Azər TAc Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü olmuşdur. Bunun sayəsində Azər TAc-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə bilir. 2007-ci il dekabrın 12-də OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən iclasında Azər Tac bu

qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvü seçilmişdir.

Azər TAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin milli informasiya agentlikləri assosiasiyasının (PANİA) təsisçilərindən biridir.

2008-ci il aprelin 18-də Azər TAc-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul olunması agentliyimizin həyatında ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir.

Azər TAc 2008-ci ildən «AsiaPulse»Nin – Asiya xəbər agentlikləri konsorsiumunun üzvüdür.

Azər TAc bir sıra beynəlxalq tədbirlərin nəinki iştirakçısı, həm də təşkilatçısıdır. Bunu 2008-ci il aprelin 29-u may 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi Baş Məclisinin Bakıda keçirilən VII iclası da təsdiq etdi.

Artıq Azər TAc regional xəbər agentliyi kimi tanınmır, milli coğrafiya sərhədləri ilə məhdudlaşmır, əksinə dünyəvi miqyası əhatə edir, planetin bütün nöqtələrinə xəbər göndərə bilir, onlardan aldığını ölkədə yayır. Bu isə texnogen səciyyəsi ilə diqqəti cəlb edən XXI əsrin qloballaşma mühitində Azərbaycanın informasiya məkanını şəffaflaşdırmağa əsaslı kömək göstərir. İndi Azərbaycan informasiya kasadlığı və blokadası dövrünü arxada qoymuş «özünü dünyada, dünyanı özündə görmək» imkanı qazanmışdır. Çağdaş Azərbaycanda intellektual dəyərlərin artması, sivill dünya ilə ünsiyyət – dialoq mədəniyyətinin yaşayış tərzimizdə əks olunması, habelə, söz azadlığı və informasiya təhlükəsizliyi yolunda atılan addımlar deyilənlərə ciddi əsasdır. Bunların gerçəkləşməsində isə Azərbaycan informasiya mühitinin lideri Azər TAc-ın tarixi rolu əvəzsizdir.

"Azərbaycan" qəzeti, 30 oktyabr 2008-ci il

AZƏRBAYCAN NƏSRİNDƏ YENİ ƏSƏR – «NADİR ŞAH» ROMANI

Azərbaycan romanının tarixi dünya xalqları ilə müqayisədə çox qədimlərə getməsə də salnaməçilik, dastan ənənələrində onun elementlərini müşahidə etmək mümkündür. Bizim ədəbiyyatşünaslıqda «mənzum roman», «epik mənzumə», «epik roman»lardan da bəzən geniş danışılır və müasir Azərbaycan romanının formalaşmasında Avropa modeli ilə yanaşı Şərqin epik təfəkkür ənənələrinin də müstəsna rolu olduğu qeyd edilir. Azərbaycanda müasir nəsr örnəklərinin – hekayə və povestlərin formalaşdığı XIX əsrdən günümüzədək epik tutumlu əsərlər yoruculuq, üzücü ağırlıq, oxucu üçün «beyin yorğunluğu» yaratsa da hər zaman gündəmdə olub və «romanın ölməzliyi» fikrinə haqq qazandırıb. II Dünya müharibəsindən sonra modernist və postmodernist meyllərin güclənməsi bir sıra ölkələrdə olduğu kimi Azərbaycanda da klassik romanları «ölüm», ya «qalım?» sualı qarşısında qoyanda milli nəsrin poetikasında bir sıra yeniliklər özünü göstərməyə başladı. Kiçik həcmli romanlar, miniatür romanlar, lirik-psixoloji romanlar əski ənənələrin dağılması, yeni estetik prinsiplərin əyaniləşməsinə səbəb oldu. Diqqətəlayiq olan isə budur ki, istər həmin illərdə, istərsə də indi Azərbaycan romançılığında nə qədər yeni təfəkkür möcüzələri baş versə də hər dəfəsində klassik nəşr elementləri bir ayrı cilvədə təzahür edir, nağıl və dastan təhkiyəsi müasir üslubların mənzərəsini sərgiləyir, ona bədii-estetik zəmin rolunda çıxış edir. Bu mənada Yunus Oğuzun «Nadir şah» romanı ətraflı düşünməyə səbəb olur. Roman həm də «Ən yaxşı təzə ən çox unudulmuş köhnələrdir» məntiqindən çıxış edərək Azərbaycanın nəsr düşüncəsindəki arxetipi aramağa meydan açır, nağılvari mühakimənin, mif

əvə mistikaya, sehrə və caduya, fanatizmə – qəzavü-qədərə inamı, ön plana çəkir. Gözlənilməz hadisələr, mümkün olmayanın bədii düşüncənin gücü ilə gerçəkləşməsi, real və ireal aləm hadisələrinin yaratdığı təzadlar «Nadir şah»ın tarixi roman səciyyəsini şərtləndirir, onu müasir Azərbaycan ədəbiyyatının ən məşhur tarixi romanları ilə müqayisəli təhlil etməyə haqq verir.

II Dünya müharibəsindən sonra Avropada başlayan «yeni dalğa» hərəkatının, Fransada «Yeni roman» məktəbi, İngiltərədə «Hiddətlənmiş cavanlar», ABŞ-da «Düşüncələr axını», «Eksperimental romançılar» axtarışının keçmiş SSRİ məkanına gəlişi, 1960-cı illərdən sonra Azərbaycanda da nəsrin lirik-psixoloji axtarışları romanın ölməzliyini təmin etdi. Azərbaycanda İsa Hüseynov, Əbülhəsən Ələkbərzadə, İlyas Əfəndiyev, Ənvər Məmmədxanlı kimi təcrübəli yazıçılarla yanaşı Anar, Əkrəm Əylisli, Elçin, Çingiz Hüseynov, Yusif Səmədoğlu, Mövlud Süleymanlı, Fərman Kərimzadə kimi istedadlı nasirlərin roman janrına müraciəti yeni bədii-estetik düşüncə konsepsiyasını formalaşdırdı. Bu yaradıcılıq ənənəsində meydana gələn nəsr nümunələri, xüsusən də romanlar müstəqillik ərəfəsi və sonrakı illərdə milli bədii düşüncənin miqyaslarını daha da genişləndirdi və yeni ədəbi nəslin meydana gəlməsini şərtləndirdi. İndiki modernizm və postmodernizm qovğalarının gücləndiyi bir vaxtda irs-varislik prinsipinə arxalanan Yunus Oğuz həmin ədəbi nəslin ən istedadlı nümayəndələrindəndir.

Yunus Oğuzun nəsr dili sadə, səlis və aydındır, canlı xalq danışıq dili ilə müasir ədəbi dilin sintezi əsasında formalaşıb. Ona görə də «Nadir şah» romanında dil özəlliyindən, buradakı bədii dilin anlaşıqlı olmasından məmnunluqla danışmaq mümkündür. Ədibin dilindəki obrazlığın təminatçısı, lirik-psixoloji tutum, eyham, kinayə və yumoristik nəql imkanları da həmin dil qovuşuğundan qaynaqlanır. Romanda özünü göstərən geniş miqyaslı təsvirlərin, tarixi yad-

daş mənzərələrinin asanlıqla və tam dolğunluğu ilə canlandırılması da milli dilin tarixi resursları ilə müasir elementlərin sintezinə söykənir. Ən vacibi isə ondan ibarətdir ki, yazıçı-tarixçi Yunus Oğuz yalnız tarixə şahidlik etmir, zəngin Azərbaycan dilinin və xalq yaddaşının gücündən bəhrələnərək müasir oxucunun etibarlı həmsöhbətinə çevrilir. Çünki Yunus Oğuzun təsvirlərində realist maneralar və lirik-romantik duyğuların duruluğu tarix gerçəklərini işıqlandırmağa vasitə olur, müəllif-əsər-oxucu arasında ünsiyyətin məhrəmliyini şərtləndirir. Əsərdən götürülən kiçik bir təsvir nümunəsində bunu aydın görmək mümkündür. Nadir şahın dili ilə müəllif deyir:

«...Şirazdan yaxşı əhvalla qayıdırdım. Orada qaldığım iki ay yarım müddətdə, tapşırığımla Təhmasib xan Cəlair Kəngər körfəzi sahillərinin əhalisini tam ram eləmişdi. Bu körfəzin sahilləri mənə tabe olduqdan sonra artıq hərbi dəniz ordusunu yaratmaq və gücləndirmək lazım gəlirdi. Bu barədə fikirləşsəm də, qəti qənaətə gələ bilməmişdim. Çünki dövlətin pulunu hesablamaq lazım idi, nə qədər xərc çəkmək, neçə müddətə bu gəncləri hazırlamaq və nəhayət, gəmiləri kimin və neçəyə düzəldəcəyi mühüm şərtlər idi.

Şirazdan geriyə yol boyu ordu arxamca gəlirdi. Məndən qabaqda xüsusi mühafizə, ondan öndə isə xüsusi kəşfiyyat dəstəsi hərəkət edirdi. Altımdakı kəhər at yorğa gedir, sanki düşündüyümü hiss edirmiş kimi hətta məni yırğalamaq belə istəmirdi. Mən isə hər şey barədə düşünməyə və eyni zamanda gerçək aləmdə də hər şeyə diqqət verməyə alışmışdım. «Gör kim idin, kim oldun, Nadir!» - deyə fikirləşirdim».

Mətndən göründüyü kimi ümummilli tarix və yaddaş miqyasında təqdim olunan Nadir şah etno-psixoloji dəyərlərin daşıyıcısı kimi qiymətləndirilir, yaşadığı fərdi ömür yolunun əzablarına qatlaşan şəxsiyyət tipində özünü ifadə edir. Bu isə müəllif təhkiyəsinin səmimiyyəti, onun ədəbi-bədii di-

lin imkanlarından məharətlə istifadəsi ilə bilavasitə bağlıdır. Əks təqdirdə «Şirazdan geriyə yol boyu ordu arxamca gəlirdi» - cümləsindəki tarix mənzərəsini, konkret bədii lövhəni və buradakı fərdi əhval-ruhiyyənin səmimiyyətini təcəssüm etdirmək mümkünsüz olardı.

Əsərdəki obrazlar tipologiyasına görə müxtəlif keyfiyyəti özündə əks etdirir. Bunların əksəriyyəti real tarixi şəxsiyyətlərdir və olduğu kimi də öz adlarını daşıyırlar. Digərləri müəllif təxəyyülünün məhsuludur və mifik xüsusiyyətə malikdirlər. Onlardan doqquz yaşlı oğlan, Nadir şah Avşar, Ağbiləng, Qarabiləng, Boz qurd, Nadirin anası və qardaşı İbrahim, Babaəli, Sona xanım, Rzaqulu, Təhmasib Mirzə, Fətəli xan Qacar, Mahmud Qəndəharlı, Salman, Şah Soltan Hüseyn, Qələmnaz, Murad, I Pyotr, Aleksandr Vasilyeviç Neplyuyev, Əhməd paşa, İsmayıl bəy, Fatimə Soltan bəyim, Rizə bəyim, topçu Şəmsəddin, Əşrəf xan, Cəlal bəy, Cəfər kişi, Məmməd xan Bəluc, Soltan III Əhməd, Həşəm xan, Topal Osman, Knyaz Qolitsin, Anna İvanovna, Təhmasib xan Cəlair, Surxay xan, Katolikos Abram, Krım xanı Qaplan Qirey, Mola Əli Əkbər, Qazi Leyli Əbdül Əfəndi, Əli Murad, Ziyad xan, Səadət xan, Dauran, Nizamül-Mülk, Nəsrullah xan, Azər, Cəmil, İlbars xan, Məhəmməd Hüseyn xan, Rəhim Sultan, Buxara hakimi Əbül-Feyz, Qadam, Məhəmməd Tağı xan, Van Baster, Əliqulu xan, Sultan I Mahmud, habelə səfəvilər, qacarlar, avşarlar, hindlilər, ermənilər, qızılbaşlar, osmanlılar, əfqanlar, özbəklər, türkmənlər, ərəblər, ruslar, ləzgilər, farslar, oğuzlar, kürdlər, gürcülər «Nadir şah» tarixi romanında təsvir olunan monumental obrazlardır. Göründüyü kimi yazıçı ayrı-ayrı personajlarla yanaşı bütöv xalq obrazının da yaradılışına mühüm əhəmiyyət verib.

Romanın baş qəhrəmanı Nadir şahdır və o bir neçə cəhətdən maraq doğurur; doqquz yaşlı yetim – bir çoban uşaq, döyüş taktikasını mükəmməl bilən sərkərdə, valideynə,

qardaşa sadiq olan ailə üzvü, hakim-monarx, istedadlı ideoloq, strateji düşüncəyə malik fateh, nəhayət xalqının tarixi taleyini şəxsi qayğıları kimi yaşayan vətəndaş və faciəli ata, bədbəxt ailə başçısı...

Nadir şah «Tarixi-Nadir»dəki, Nəriman Nərimanovun «Nadir şah»ındakı «quldurluğu, qoçaqçılığı bilmərrə, buraxıb canımı, gücümü və ağlımı millət və vətən yolunda sərf edəcəyəm. Bəsdir əbəs yerə qan tökdürm» - deyən obrazdan tipik cəhətlərinə görə fərqlənir. N.Nərimanovun dram əsərində obraz dövrün maarifçilik və xalqçılıq ideyalarına tabe tutularaq pərdə və səhnə mizanları daxilində təqdim olunur, Yunus Oğuzun romanında isə o epik nəsrin məntiqi ilə fəaliyyətdədir və daha çox milli tarixin yaratdığı duyğular kompleksini ifadə edir, Yaxın və Orta Şərqin «hərb dahisi» kimi tanınır. Bunu bizə Azərbaycan tarixinə dair həqiqətlər və Yunus Oğuzun lirik-psixoloji nəsr təhkiyəsindəki bədii informasiya bir daha təsdiqləyir. Nadir şahın Muğanda (Suqovuşanda) tacqoyma mərasimi ilə bağlı qurultayda səslənən fikirlər həmin məqama daha da aydınlıq gətirir. Orada deyilir:

«...Təhmasib xan Cəlair növbəti iclası açıq elan etdi:

- Ağalar, hörmətli qurultay nümayəndələri! Məlumatınız var ki, torpaqlarımız ruslar, əfqanlar, osmanlılar və firənglər tərəfindən uzun müddət işğal olunmuşdu. Ölkdə vətəndaş müharibəsi gedirdi. Sərhəd əyalətlərində basqınlar olurdu. Səfəvilər xanədanı dünya xəritəsindən silinmək üzrə idi. Hərbi qüdrətimiz, dövlətin şərəfi və ləyaqəti ayaqlar altına atılmışdı. Ruslar və osmanlılar Həmədana gəlib çıxmış, hətta bizim iznimiz olmadan Azərbaycanın yarısını öz aralarında bölüşdürmüşdülər. Firənglər Kəngər körfəzinin bir hissəsini tutmuşdular. Əfqanlar tərəfindən paytaxtımız İsfahan alınmış və yeddi il onların əsarətində qalmışdı. Yalnız böyük sərkərdəmiz Nadir xanın iti qılıncı sayəsində torpaqlarımız yağılardan təmizlənmiş, səltənətimizin sərhədləri bərpa edil-

miş və düşmənlər gücümüzü və qüvvətimizi görüb bizimlə mehriban qonşuluqda yaşayacaqlarını bəyan etmişlər».

N.Nərimanovun dram əsərində Nadir şah «zəka səltənətinin» islahatçı qəhrəmanı kimi çıxış edir; iki düşməni – sünni və şiə məzhəblərini birləşdirməyi, dinlərarası dialoq yaratmağı (İncilin tərcüməsi misalında), dini dövlətdən ayırmağı, dövlətin qanunçuluq yolu ilə idarə olunmağını, kasıblığın aradan qaldırılmasını məqsəd bilir. Yunus Oğuzun romanında isə həmin cizgilər saxlanmaqla Nadir şah meydan döyüşlərində iştirak edən cəsur sərkərdə, əlisilahlı cəngavər, müdrik diplomat, hiyləgər-tədbirli dövlət adamı və fateh kimi maraq doğurur, hətta macəra tipli hadisələrin içində belə qeyb olmur, özünün obraz-bədii qəhrəman kimi möhtəşəmliyini saxlayır. Elə buna görədir ki, «kiçiklərin böyüklük iddiası onu bezdirir və qəzəbləndirir», çevrədəki dövlət, ölkə və xalqların qarşılıqlı anlaşma, sülh və rifahda yaşaması üçün hərbi yürüşlərə başladığını bəyan edirdi.

Romandakı tarixilik, bədii şərtilik, müasirlik və sənədlilik Nadir şahın xeyrinə işləyir. Müəllif təhkiyəsinə inandırıcılıq, sərbəstlik, üslub sinkretliyi gətirən bu amillər epik düşüncənin strukturunda aydın şəkildə ifadə olunur. Yazıçının belə bir yaradıcı mövqedə dayanması həm klassik təcrübəyə, o cümlədən milli ədəbiyyat («Qılınc və qələm», «Saçlı», «Şamo», «Yoxuşlar», «Budağın xatirələri», «Məhşər», «Ağ dəvə», «Ölüm hökmü» və s.) ənənəsinə söykənir, həm də çağdaş Azərbaycan və dünya romanında işlənən yaradıcılıq texnologiyasına və onun verdiyi bədii-estetik informasiyaya əsaslanır.

Romanda Nadir şah yalnız gözlərini çıxartdığı oğlu Rzaqulunun, ailəsinin və Azərbaycanın faciəsini yaşamır, o həm də türk superetnosunun iztirabları canında daşıyır. «Osmanlı üləmaları arasında gedən mübahisələr» onun həmrəylik təklifini rədd edirdi. Əsərdə deyilir:

« - Topqapı sarayında bir neçə ay idi, Nadir şahın göndərdiyi elçilərlə Sultan I Mahmudun ayırdığı nümayəndələr arasında Muğandan göndərilən müqavilənin birinci iki bəndi barəsində qızğın mübahisələr gedirdi.

Muğandan gələn elçilər Topqapıda təmtəraqla qarşılandılar. İndiyə qədər heç bir kimsə üçün belə şərəfətli rəsmi qəbul olmamışdı. İstanbula girər-girməz elçilər ta Topqapıya qədər fəxri qarovulun düzüldüyünü, əhalinin onları salamladığını gördülər. Topqapıda Nadir şahın elçilərinin və tacqoyma mərasiminin şərəfinə toplardan yaylım atəşi açıldı. Bütün xarici ölkələrin elçilərini saraya dəvət etməklə sultan Avşar elçilərinin şərəfinə Topqapıda böyük bir ziyafət verdi. Lakin müqavilə şərtlərinə baxandan və onu öyrənəndən sonra osmanlı üləmaları arasında qızğın mübahisələr başlandı. Nadir şahın göndərdiyi müqavilədə yazılmasa da, Əbdülbəy xan şahın göstərişi ilə yeni bağlanacaq müqaviləyə üçüncü tərəf kimi Rusiyanın da adının yazılmasın istəyirdi. Nadir şah bilirdi ki, osmanlılar Rusiya ilə müharibəyə hazırlaşırlar və heç vəchlə Rusiyanın adını bu müqaviləyə yazmayacaqlar. Belə olacağı təqdirdə Nadir şah Rusiya qarşısında götürdüyü öhdəlikdən azad olacaq, eyni zamanda osmanlılarla da atəşkəsə əməl ediləcəkdi».

Atabəylər, Eldənizlər, Səfəvilər tarixini bilən Nadir şah əsərdə sıradan bir «şahpərəst» deyil, o həm də öz qövmünün tarixini bilən, Avşar dövlətini yaratsa da türk birliyinin olmamasından daxili-mənəvi əzablar çəkən, Əmir Teymur və İldırım Bəyazid, Sultan Səlim və Şah İsmayıl qarşıdurmasının, Çaldıran döyüşünün milli tarixə və türklüyə hansı faciələr gətirdiyinin ağrılarını yaşayan, daim ideoloji düşüncələr burulğanında olan mütəfəkkirdir. Elə buna görədir ki, Makedoniyalı İskəndərin, Çingiz xanın, Əmir Teymurun fəth edə bilmədiyi Hindistanı Nadir şah məğlub edə bilir. Ağlın və gücün qətiyyətli birliyini canında və ruhunda gəzdirən

Azərbaycan fatehi Nadir şahın obrazı onun öz düşüncələrində ifadə olunur. Hindistana yürüş ərəfəsində o deyir:

«...Mənim Hindistana, yaxud Moğol imperiyasına yürüşümün bir çox səbəbləri vardı.

Birincisi, bilirdim ki, osmanlılarla müharibəmiz hələ bitməyib. Çünki mənim təklif etdiyim Cəfəri məzhəbi sultan tərəfindən qəbul olunmamışdı. Topqapı müxtəlif bəhanələrlə məsələnin həllini uzadırdı. Başım şərq ərazilərinə qarışdığı üçün hər dəfə özümü elə aparırdım ki, guya bu məsələlərin bəzilərilə razıyam. Halbuki mənə vaxt udmaq lazım idi. Şimal sərhədlərimizi də genişləndirmək istəyirdim. Ruslarla hər an müharibə başlana bilərdi. Mərkəzi Asiyadan bəzi əraziləri Avşar dövlətinin torpaqlarına qatmaq fikrim vardı. Amma bunun üçün külli miqdarda pul gərək olacaqdı. Fikirləşdiklərimi həyata keçirmək üçün daxili ehtiyatlar bəs etmirdi. Təkcə əsgərlərin muzdunu verməyə nə qədər pul gərəkdi. Odur ki, bu pulu yalnız Hindistandan gətirə bilərdim. Dehlidən gələnlər orada saysız-hesabsız daş-qaşın, qızıl-gümüşün olduğunu deyirdilər.

İkincisi, Məhəmməd şahın vəziri Nizamül-Mülk mənə ismarıc göndərmişdi. Bu ismarıcda Moğol imperiyasının daxili vəziyyəti müfəssəl göstərilmişdi. Vəzir bildirmişdi ki, imperiya dağılmaq ərəfəsindədir və bundan istifadə edib Böyük Turanı yaratmaq olar. Zatən, onun Böyük Turan yaratmaq ideyası mənim ürəyimcə idi. Bir halda ki, buna şərait var, niyə də yaratmayaq?

Üçüncüsü isə, uzun müddət mənə qarşı saymazyana və etinasız olduğu üçün Məhəmməd şahı cəzalandırmaq istəyirdim. İndi buna da şərait yaranmışdı.

1738-ci ilin iyun ayında Məhəmməd şahdan cavab gözləmədən Moğol imperiyasının sərhədlərini keçərək qoşunumla Qəznəyə doğru irəliləməyə başladım».

Romanda Nadir şahın dilindən söylənən monoloqlar, yalnız müəllif fantaziyasının məhsulu, təxəyyül materialı

deyil, onun əsasında həm də konkret tarixi hadisə, fakt, sənəd və real şəxsiyyət dayanır. Bu isə Nadir şahın tarix və müasir zamanla bədii dialoqunu yaratmağa kömək edir, yazıçının çağdaş oxucuya müraciətinin ideya-bədii yönünü müəyyənləşdirir. Belə olduğuna görə də Yunus Oğuz əsər-müəllif-oxucu üçbucağında müəllif mövqeyini açıq-aydın ifadə etməyə haqq qazanır və həmin mövqe müəllif haşiyələri ilə birlikdə onun yazıçı-vətəndaş statusunu müəyyənləşdirir, kamil bir tarixçinin ədibanə düşüncələrini söyləməyə əsas olur, 235 illik Səfəvi hakimiyyətinin acınacaqlı sonluğu ilə bağlı xiffət, nostolji düşüncələrdən nikbin nəticələr çıxarmağa, tarixdən bəhrələnməyə yardımçı olur. Yazıçının əminliklə dediyi «Beləliklə, 235 il davam edən Səfəvi sülaləsinin hakimiyyətinə çevriliş, qiyam və ya xarici istila nəticəsində deyil, ümumtürk adəti və səsverməsi nəticəsində son qoyuldu. Əgər sonuncu Səfəvi şah Təhmasib Mirzə bir azca öz əcdadına layiq olardısa, Səfəvilər hakimiyyəti davam edərdi. Ancaq Səfəvilər dövlətinin əvəzinə Avşarlar dövləti tarix səhnəsinə qədəm qoyurdu. Əsas o idi ki, bir türk sülaləsini bir başqa türk sülaləsi əvəz edirdi» - fikri Nadir şah hakimiyyətinin tarix və xalq qarşısında qiymətini dəyərləndirir. Lakin tarix heç də hər zaman şəxsiyyətlərin iradəsindən asılı olmur, onların arzu və istəklərinin əksinə olaraq gözlənilməzlik və təsadüflərlə qarşılaşır. Nadir şahdan sonra Azərbaycanda xanlıqların yaranması kimi...

Yunus Oğuzun Azərbaycan ədəbiyyatına gəlişi «Nadir şah»la başlamır. O, «Attila» pyesinin müəllifidir, oğuz türklərinin tarixi haqqında araşdırmaları, habelə çoxsaylı elmi-nəzəri və siyasi-publisistik məqalələri ilə özünü xeyli vaxtdır ki, zəhmətkeş qələm adamı kimi təsdiqləyib. Yunus Oğuz «Olaylar» informasiya agentliyinin və eyni adlı mətbuat orqanının – qəzetin rəhbəri, liik-fəlsəfi şeirlərin müəllifidir. Azərbaycan mühitində informasiya işinin təşkilində və sivil vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirakı ilə tanınan

Yunus Oğuzun son orta əsrlər Azərbaycan tarixinə retrospektiv baxışı və onun çoxşaxəli bədii mənzərəsini canlandırması, «tarixi-Nadiri» yenidən müasir oxucuya təqdim etməsi yalnız yazıçılıq deyil, həm də vətən, xalq və dövlətinin qayğıları ilə yaşayan vətəndaşın sosial-siyasi arzularının ifadəsidir. Bu arzular bolluğunda isə hər şeydən öndə bütöv, qüdrətli Azərbaycan idealı dayanır. «Nadir şah» romanında tayfalar, bölgələr, təbəqələr vahid Azərbaycan təəssübünü yaşaması ilə yadda qalır, ölkənin çevrəsindəki dövlətlərlə müharibə, diplomatik iş, iqtisadi əməkdaşlıq və sair həmin ideala tabe tutulur. Çünki bu ideal Azərbaycan insanının qan və gen yaddaşında yaşatdığı həqiqətdir. Ululardan, əsrlərdən əmanət qalan, milli-tarixi həyat təcrübəmizin doğurduğu Azərbaycan idealını tarixə diaxron və sinxron baxış planında təcəssüm etdirən yazıçı-tarixşünas Yunus Oğuzun həmin məsələyə münasibətdə müəllif mövqeyi aydındır, təqdirəlayiqdir, varislik səciyyəsi daşıyır. Bunu Nadir şahın qaynatası Babaəli ilə dialoqda ətraflı müşahidə etmək mümkündür. Diqqət edək: «- Səfəvi dövlətinin banisi Şah İsmayılı deyirəm. – Bir Salavat çevirdi. – Azərbaycanda bütün Oğuz tayfalarını birləşdirdi. Sonra isə türk olmayan tayfaların ərazilərini də öz torpaqlarına qatdı.

- Yaxşı, mənim xanım, indiyə qədər niyə bunu danışmamışdın?

- Ona görə ki, zamanı yetişməmişdi. İndi o zaman gəlib çatıb. Diqqətlə qulaq as! Səfəvi dövlətinin əsasını avşarlarla yanaşı daha altı türk tayfası qoyub. Bunlar Şamlı, Rumlu, Təkəli, Ustacalı, Zülqədər və Qacarlardı. Şah babamızın əsas vuran qolu, görən görən gözü bu yeddi türk tayfası olub. Bu tayfalar dövlətin bel sütunu idi. Şah babamız da bu tayfalarla yaxşı davranar, onları özünə yaxın tutardı. Allah dərgahına qovuşanda da səfəvilərə vəsiyyət etmişdi ki, bu tayfaların birliyini qorusunlar. Bu səbəbdən Şah babamız nəinki Azərbaycan torpaqlarını vəhdət halına gətirdi, həm

də ərəb İraq, Behreyn, Türküstan torpaqlarını da dövlətimizin ərazisinə qatdı».

Yunus Oğuzun «Nadir şah»ı bir daha təsdiqləyir ki, ədəbiyyata cəmiyyət və dövlət quruculuğu işində arxalanmaq olar. Çünki o sadəcə olanları göstərmir, tarixi və müasir hadisələri təsvir etməklə kifayətlənmir, eyni zamanda bədiiyyatın gücü ilə olanlar və olacaqlar arasında körpü salır, deyilənlərin başa gələcəyinə inam yaradır», bədii sözün enerjisi ilə tarixin və mövcud həyatın qaranlıqlarını işıqlandırır, məchulluqdan xəbər verir, Firidun bəy Köçərli demişkən «yoxdan var icad» edir. Yazıçını Nadir şahın uğuru və uğursuzluğu bütöv milli tarix müstəvisində düşündürür. Burada Nadir şahın hərbi səfərlərinin marşrutu və coğrafiyası mükəmməl əksini tapır. Daha çox diqqəti cəlb edən məqamlardan biri isə odur ki, qədim türk yazılı abidələrində ifadə olunan RUH bütövlüyü qorunur, tarixin o üzündən gələn, Bilgə xaqan, Attila, Gültəkin, Tanyukuk, İltəriş kimi ümumtürklük simvollarına çevrilən şəxsiyyət, ədəbi qəhrəmanların milli duyğuları romanın lirik-psixoloji mühitini formalaşdırmağa yardımçı olur. Onların uğuru və kədəri, «Vətəni, dövləti olan xalq idim!» nidasındakı iztirablar Nadir şahın varislik haqqının və cahangirlik şöhrətinin təminatçısı kimi nəzərə çatdırılır. Bunu Nadir şahın həyatı və fəaliyyəti, daxili-mənəvi yaşantıları, əsgərlərinə, çevrəsindəki dövlət adamlarına göstərişləri, diplomatik danışıqları, oğlu Rzaquluya nəsihəti, vəsiyyəti və sairdə aydın görmək olur. Milli tarixə varislik haqqını yaşayan Nadir şahın nəsihətləri Rzaqulu, eləcə də növbəti nəslin nümayəndələri üçün milli tarixin diqtə etdiyi yaşam məramnaməsi məqamındadır. Müəllif yazır: «Rzaqulu xan atasının adını eşidən tək ayılan kimi oldu. Atası onu Avşar dövlətində şahın səlahiyyətli nümayəndəsi təyin edərkən yanına çağırıb nəsihət vermişdi:

«Sən bu ölkənin şahı olacağın zaman özünün ən inanılmış adamlarından, ev dustağı olan Təhmasib şaha xüsusi

gözəştçilər qoy və heç kimin onunla görüşünə icazə vermə. Hara hakim, yaxud hakim müavini təyin etməyindən asılı olmayaraq onlara diqqət və qayğı göstər. Xüsusi diqqəti səhrada yaşayan özbəklərə ayır. Əgər Allah eləməsin, Türküstan, osmanlı və rus qoşunları avşar torpaqlarına girsələr, sən müharibəyə başlamazdan əvvəl ağsaqqallar və tayfa başçıları ilə məsləhətləş. Axmaq olma! Bir şeyi ki, sülhlə həll etmək mümkündür, onu müharibə ilə həll etmə. Oğruları, quldurları və yaramazları həmişə ciddi cəzalandır. Tacirlər, xüsusən də xaricdən gələn tacirlərlə yaxşı davran, onlara iltifat göstər. Qoy onlar sənin şöhrətin, mərhəmətin haqqında dünyanın hər yerində danışsınlar. Bədxərclik etmə... Əgər dövləti fəlakət gözləyirsə, o zaman düşünmədən xəzinənin qapılarını aça bilərsən».

«Nadir şah» romanında milli tarixin fəlsəfəsi bədii kompozisiyanın əlvan notlarla ifadəsinə təsir göstərir. Belə ki, Nadir şah dövrü lirik-psixoloji ricətlər, monoloqlar, müllifdən başlığı ilə verilən tarixi arayışlar vasitəsi ilə sadəcə «qələbələr marşrutunu» müəyyənləşdirmir, həm də obrazın – tarixi şəxsiyyətin – dövlət xadiminin taleyi və daxili-mənəvi yaşantılarını təcəssümə kömək edir. Nadir şahın Böyük Azərbaycan fatehinin faciəsi, daxili-mənəvi dünyasındakı dramatizm bu zaman ortaya çıxır və müəllif göstərir ki: «...Nə qədər ki, Nadir şah torpaqların azad olunması uğrunda müharibə aparırdı, xalq bütün çətinliklərə, məhrumiyyətlərə dözürdü, onu sevirdi, ona qoşulurdu və ona hər cür kömək də edirdi. Bu torpaqlar qaytarıldıqdan və hələ üstəlik də yenilərinin qatılmasından sonra xalqın hisslərində bir dəyişiklik əmələ gəlməyə başladı. Bu hisslər əvvəlki çox şeyin üzərindən çarpaz xətt çəkə bilirdi. «Hər şey vətən üçün», «Hər şey Azərbaycan üçün» şüarları da daha işləmirdi. Çünki hər ev kasıblaşmışdı, hər evdə ya bir müharibə əlili, ya da şəhid vardı».

Nadir şahın faciəli sonluqla həyatını başa vurması yazıçının «bədii yalanı» deyil, tarixin gerçək hadisəsi, təəssüf və kədər doğuran faktıdır. «Öz qövmünün başına əngəlkələf» (M.Ə.Sabir) olan xalqın tarixində buna oxşar hadisələr yazıqlar olsun ki, az deyil. Hələ də soydaşları tərəfindən başı kəsilən Ağa Məhəmməd Şah Qacarın son nəfəsdəki «Ey Xanəxərab, İran Rza viran kərd» nidasındakı ağrılar hələ də öz fantom gücü ilə milli yaddaşa əzablar verməkdədir. Nadir şahdan sonra yaranan mənzərə isə həmin ağrı və əzabların gerçək məhsulu idi.

Müəllif əsərin epiloqunda həmin məsələni sadə və aydın dildə oxucuya çatdırır və deyir: «Nadir şahın zamanında ölkədə mükəmməl dövlət aparatının qurulmaması, hər şeyin bir nəfər tərəfindən idarə olunması, daxili siyasətdə hər şeyin zora və qılınca söykənməsi, milli ideologiyanın düzgün formalaşdırılmaması ondan sonra özünün mənfi təzahürlərini göstərdi. Digər işğal olunmuş əraziləri nəzərə almasaq, böyük və qədim Azərbaycanın tarixi torpaqlarında Borçalı, Qazax, Şəmsəddin, İlisu, Tabasaran sultanlıqları, Dərbənd, Quba, Bakı, Şamaxı, Qarabağ, Şəki, Gəncə, İrəvan, Maku, Salyan, Cavad, Qaradağ, Lənkəran, Ərdəbil, Təbriz, Xoy, Urmiyə, Sərab, Marağa, Gilan və Zəncan xanlıqları, Car-Balakən camaatı yarandı».

Əsərdə milli tarixin anatomiyası təqdim olunur və onun dərki texnologiyası müəyyənləşdirilir. Belə ki, Azərbaycan tarixşünaslığının sovet dövrü prinsipləri kənara atılır, onun yanlış ənənələrindən imtina olunur, bütöv Azərbaycan tarixinin obyektivlik meyarları ilə təsvir olunan mənzərəsində hadisələr işıqlandırılır, milli şəxsiyyət və obrazlar təhlil müstəvisinə gətirilir. Belə olduğuna görədir ki, Azərbaycan tarixinin son orta əsrlər dövrü, Nadir şaha qədərki, Nadir şah zamanı və sonrakı dövrün ictimai-siyasi hadisələri ilə çağdaş milli həyatımız arasında irs-varislik əlaqəsi, bədii-estetik körpü yaradılır. Oxucu çağdaş hadisələrin

geneologiyası barədə ziddiyyətli düşüncələrdən müəllifin körəyi ilə qurtara bilir, tayfa, bölgə, nüfuz ayrılıqlarının, dini təfriqə, təriqət düşüncəsinin nihilizmindən imtina etməyi bacarır. Bu isə təbiidir ki, tarixə yeni baxış texnologiyasının formalaşması deməkdir. Əsərdə bütöv Azərbaycanın tarixi coğrafiyası və ictimai-siyasi mənzərəsinin sərgilənməsi həmin düşüncə meyarlarına müəllifin ardıcıl və sistemli əməl etməsi ilə bağlıdır.

Yunus Oğuzun "Nadir şah" romanına ön söz "Həftə içi", "Ədalət", "İki sahil", "525-ci qəzet", "Olaylar", "Şərq", "Bakı xəbər" qəzetləri, 22, 23 oktyabr 2008-ci il

«BROY AND PANOPTİKUM»DA BƏDİİ SÖZÜN ENERGETİKASI

Söz də insanlar kimidir. Onlar da yaranır, yaşlaşır, arxaikləşir, istifadədən çıxır, başqa şəkildə desək dünyasını dəyişirlər. Bu gəlimli-gedimli dünyada əbədi qalan da elə sözdür. Əbədi söz diri sözdür. Onun sahibi olmaq isə özünü tarixin səhifələrində görməyə bərabərdir.

İndi WWW. Bomba. Kom – nəqaratı ilə dünyanın dərkinə çalışan və onun feyzini dadmaq, zövqünü yaşamaq istəyən gəncliyin meydanda olduğu və popülyarlıq qazandığı bir vaxtda, bir sıra dürlü-dürlü azlıqlar kimi nahaqlar, haram yeyənlər və sair bu kimi azlığın da dəbə mindiyi zamanda qədimdən-qədim ənənələri yaşatmaq, söz sahibi, səlahiyyətlisi olmaq böyük hünərdir. Çünki söz insan qəlbinin, könül evinin açarıdır. Söz insanı açıq səma altında muzeyə – panoptikuma çevirən ilahi həqiqətdir. Könlündə söz gülüstanı olan hər bir şair bu mənada panoptikumdur.

Azərbaycanın açıq səma altında muzeyləri - panoptikumu çoxdur. Bunun canlı misalı «Qobustan», «Gəmiqaya» və «İçərişəhər» muzey kompleksləridir. İndi canlı tarix olan həmin qədim yaşayış məntəqələri kimidir, əsl şair könlü...

Şairlər təkcə söz pərvanəsi deyil, həm də köksündə köz gəzdirən, özünün ölməzliyi ilə cəmiyyətinə yol göstərən, sözüylə xalqının zövqünü oxşayan, həmvətənini qaranlıqdan aydınlığa səsləyən, onun idrakını işıqlandıran fövqəlvarlıqdır. Başqa yeri, xalq və məmləkətləri deyə bilmərəm, amma min illərdr ki, Azərbaycanda belədir və yəqin ki, yaxın əsrlərdə də belə

olacaq. Nədənsə şair dostum Etimad Başkeçidin «Broy and Panoptikum» (Bakı, 2006) adlı şeirlər kitabını oxuyanda ilk təəssürat kimi bunlar ağlıma gəldi və mən özümdən asılı olmayaraq çox sevdiyim romantik şairimiz Məhəmməd Hadinin əzbər bildiyim şeirindən bir parçanı öz-özümə təkrar etdim.

«Ümid səhneyi-tamaşayi – həyatın ruhudur» («İqbal» qəzeti, 25 sentyabr 1914, №747) adlı həmin poetik nümunədə yüksək pafos olsa da fəlsəfi dərinlik daha çox diqqəti cəlb edir. Romantik şair deyir:

Mən bir günəşəm, yerdə əyandır ləməatım
Şerimdə parıldar, duruyor çöhreyi-zatım.
Yoxdur zərəri keçsə də fəqr ilə həyatım,
Kim olduğumu bildirəcək bil ki, məmatım.
Fərdayi-üfulumda bu qövm ağlayacaqdır,
Lakin gözümü dəsti-əcəl bağlayacaqdır.

Mən solmalıyam ta ki, açılsın da baharım,
Mən sönməliyəm şəşələnsin də naharım.
Mən ölmədən əvvəl vətənim oldu məzarım,
Ərbabi-zəka düşmənidir indi diyarım.
Söndükdə zəka əhli-vətən ağlayacaqdır.
Göz incisi yaşlar o zaman parlayacaqdır.

Varlığı, ruhunun genişliyi, içinin zənginliyi ilə Azərbaycan boyda panoptikum olan Məhəmməd Hadi şəxsiyyəti ilə, onun poetik mövqeyi və təhkiyəsindəki incə lirizmlə Etimad Başkeçidin danışıq, ifadə özəlliyi, ən vacibi obrazları arasında bir doğmalıq gördüm. «İçim bir sovrulmuş xırman, bilirəm» şeirindəki müəllif «mən»i hadiyanə bir doğmalıqdan yoğrulub.

Şair deyir:

– içim bir sovrulmuş xırman, bilirəm,
sən sitəm yapırsan –
dərman bilirəm.
nə gördüm, nə çəkdim – bir mən bilirəm,
tək bir mən bilirəm, bir Allah bilir.
o nəydi, yeridi, yendi taxtını,
ağı de, asılan, qına baxtını,
yüz fal aç, yüz kərə sına baxtını,
tək bir mən bilirəm, bir Allah bilir.

yollara tikilmiş gözlər yatammaz,
həddini bulsa da, yerini almaz,
mənim yaralarım nədən qapanmaz –
tək bir mən bilirəm, bir Allah bilir.

Bu şairanə, ruhani azadlığın deyil, həm də insanın cəmiyyətdəki hüquqi azadlığının bəhrəsidir. Azərbaycan vətəndaşı tarixən fövqəladə statuslu vəziyyətə malik insandır. Bu status azadlıqdır.

Lakin təəssüf olsun ki, Azərbaycanda prokuror elə bilir ki, onu istədiyi vaxtda və vəziyyətdə istədiyi qədər mühakimə edə bilər, polismen elə düşünür ki, onu istədiyi vaxtda və istədiyi vəziyyətdə həbs edə bilər. Məmur elə bilir ki, onu istədiyi vaxtda və istədiyi qədər təhqir və istismar edə bilər... Ən acınaqlısı isə odur ki, adi bir insan elə bilir ki, istədiyi vaxtda, istədiyi qədər onu aldata, təhqir edə, istismar edə bilər... Bu dəhşətli bir haldır... Və o, bunu etməyin həm hüquqi, həm də mənəvi baxımdan cinayət olduğunun fərqində deyil. Bu isə ən böyük nadanlıqdır. «Hamıya hər şeyi etmək olar azadlığı cinayətdir» – fikrini heç kəs nəzərə almır. Həmin topluma şair Etimad Başkeçid qədim olduğu qədər də təzə-tər olan, unudulsa da bəşəri əhəmiyyət

kəsb edən əxlaq kompleksini xatırladır. Məhz xatırladır. Bax beləcə, «məcazlar» formasında.

dost ordusumu, düşmanmı –
hər baxdığın yerdə
bozqırlara səpələnmiş intəhasızlıq,
eynən bir cocuq misalı ölümsüz,
cocuq dilimin ucundakı söz misalı.

söz bir arı misalı, gen dünyaya inad,
bircə yol sancmağı üstlər yaşamaqdan.
azmı duyduq bu öfkəli vızıltıları
arı yeşiyi misalı açılan hər kitabdan.
kitabsa...
evi tikilsin kitabın,
neçə adla, ayamayla çağrılarmış.
nəymiş kitab –
qoca şəhvət zor gələndə gözlərdən oğurlanıb
üzünü köçürtdüyün yüngül əxlaqlı qadın.

dost ordusumu, düşmanımı,
hər baxdığın yerdə!
bozqırlara səpələnmiş intəhasızlıq,
eynən bir cocuq misalı ölümsüz,
cocuq dilimin ucundakı söz misalı...

Poeziya qeyri-adi düşüncələrin və yaşanan həyat iztirablarının yaratdığı bir dünyadır. Buranın öz insanları, öz həqiqətləri və qanunları var. Min illərdir ki, gerçək həyatın insanları bu olağanüstü, sirli-sehrli poeziya aləminin adamı olmağa çalışır, kimisi nail olur, kimi isə bəxtinin kəmliyi ilə barışır, «Kandan məkana qədərki» yolun nədən ibarət olduğunun fərqinə varmadan yaşayır.

Ürəyini köksünə köz kimi basan və onun hökmünə tabe olanlardır poetik dünyanın adamları. Bu nə tam gerçək həyat, nə də virtual dünyadır. Bu hər iki dünyanın həqiqətlərini birləşdirən, onları vəhdətdə ifadə edən, ölçüsüzlük və zamansızlıq içində əbədi zaman anlayışı kimi qəbul edilən poeziyanın gerçəklərə söykənən rəngarəng mənzərələri, insanların real və irreal aləmə bağlı yaşantıları, həyat və tale lövhələridir. Bu ürəyini günəşə sərənlərin tale payıdır. Etimadın «Necə ki...» şeirində olduğu kimi:

necə ki, insan ətiylə qidalanır ümidlər,
görükməz od misalı can evində.
necə ki, birər səni tərk etdilər
adsız bir köşədə,
meyxana dibində.

necə ki, ayağı çidarlı atın
astarında özgə bir at cıdırır.
necə ki, tamu tarlasıdır həyatın –
hər nə əksən təkrar zəqqum bitirir.

elə də yazdıqların, pozduqların.
bir ümid,
bir dost kimi,
qardaş kimi,
astar üzündəki sən, tamu tarlası təkin,
yazıb pozduqların, pozub yazdıqların.

necə ki, çarmıxa çəkdilər İsanı
sırtına yükləndiyi xaçın üstə,
bir-bir hamını hesaba çəkəcəklər
yazdıqlarının, pozduqlarının üstə.

necə ki, insan ətiylə qidalanır ümidlər,
görükməz od misalı can evində,
necə ki, birər səni tərk etdilər
adsız bir köşədə,
meyxana dibində...

Etimadın şeirləri uzun illər sevilə-sevilə oxunacaq, yadda qalacaq, yaddaşlara ötürüləcək. Çünki bu şeirlər çağdaş Azərbaycan insanının özü qədər qədim-qayım və müasirdir. Bu səbəbdən Etimadın şeirləri əsrlərcə yaşayacaq, oxunacaq, dərk olunacaq. Onun dilinə irad tutmaq təşəbbüsündə bulunacaq kimsə tapılarsa, yəni şairin şeirlərini mövcud qrammatika normaları ilə təhlil edib, onu xalqdan kənarda görənlər, milli-ədəbi dilə biganəlikdə suçlayanlar olursa, folklora, milli adət-ənənələrə bağlı söz ustasının belə bir poetik parçasına diqqət yetərlidir. Şair Etimad Başkeçid deyir:

Başkeçid, kəndini yorma boşuna,
Yetimə şəlalən yetir yaşına,
Yetir ki, yetimdi, alsın başına
Satsın bu dünyanın anasını, gör.

İstər bu, istərsə də digər şeir parçalarında ifadə olunan dil sadəliyi, aydınlığı, poetik ahəng, fikir dərinliyi əsaslı şəkildə təsdiq edir ki, Etimadın şeirlərindəki bədii ruh onun mənsub olduğu xalqın tarixi qədər qədim, müasir durumu qədər rəngarəng və əbədidir.

Etimad Başkeçid gördüyü həqiqətlərin, yaşadığı gerçəklərin, düşündüyü problemlərin şairidir. O həqiqətlər, problemlər ki, min illərdir insan oğlunu düşündürür, mövcud zamana dəxli var, onlar Etimadın mövzuları sırasındadır. Etimad özü ilə zamanı arasında dialoqu bu şəkildə qurur. O tarixi anaxronizmə meyl etmir, özünü tarixin və zamanın hüdudlarında görməyi

bacarır və bu yaradıcılıq keyfiyyəti təsdiqləyir ki, Etimad Başkeçidi müasiri olduğu şairlərdən fərqləndirən əsas əlamət onun yetərli bilgi, savad sahibi olmasıdır. Şairin şeirlərindəki poetik ruh aydınlığı və «bəşəri kədər»in doğurduğu iztirablar onu qədim dini kitablara, mif və əsatir aləminə, Quran məntiqinə, Qərb-Şərq mədəniyyəti ənənələrinə bağlayır, orta əsrlər türk irfan şeirinin bədii energiyasından bəhrələnməyə kömək edir, Şəms Təbrizi, Mövlana Cəlaləddin Rumi, Şeyx Mahmud Şəbüstəri və başqa mütəfəkkirlərin təsəvvüf fəlsəfəsinə, Oğuz-türklərinin aşıq poeziyasına vaqifliyini təsdiqləyir. Şairin bir yaradıcı şəxsiyyət və vətəndaş kimi həmin mövqedə dayandığına görədir ki, onun düşündüyü və söylədikləri xəyalın məhsulu kimi deyil, yaşanan ağrı-acılar, kədərli duyğular, sevinclər kimi qəbul edilir. Bu mənada Etimadın itirilən günlər, uğursuz talelər, parçalanan və talan edilən vətən, unudulan dil, danılan din, qəm-qüssə dolu sevgi, üzüdönük dostlar və sair haqqında kədərli notlarla danışması, onları fantom ağrılar kimi qiymətləndirilməsi «şair sözü əlbəttə yalandır» kimi çoxəsrlik xoş bir kəlamı təkzib edir, onu «sarı-boz ədəbiyyat», «buludsuz səma rəngli tənqid», «mas-mavi irişmələr», «qızıl-qırmızı təhdid», «havanı korlayan postmodernist» coğrafiyasından kənarda saxlayır, şairə çağdaş Azərbaycan milli poeziyasının dumduru dağ çayı kimi köpüklənib axan dağ çayının məcrasını qorumaq səadətini bəxş edir. Çünki Etimad sözündə, fikrində, ifadə tərzində, bədii təşbehdə şair deyil, həyat tərzi və kimliyində – şəxsiyyətində şairdir. Odur ki, Etimadın gündəlik qayğıları ağ vərəqlərə köçürüləndə bəşəri kədərin, fantom ağrıların istisi adamın – oxucusunun üz-gözünü qarsalayır, onu düşündürür. İtirilmiş dost haqqında şair belə deyir:

...dost, dost deyə,
könül verdim neçəsinə,
qapdılar, qamarladılar,
neçəsinin könlün aldım, bilmədilər.
öz qanımın izi ilə geri döndüm,
ötən gündən nə nişan var, nə əlamət.
üfüq kimi,
hər gələn gün
üfüq kimi
fantom, miraj.

Etimad pessimist, nihilist şair deyil. O ölümünü və ölümsüzlüyünü dərk edən, bunların arasındakı məsafəni görən xoşbəxt şairdir. Əlbəttə şair hər kəsə bunu arzulayır, lakin o bilir ki, hər kəs ölümün həqiqət olduğunu qəbul etsə də bunun özünə də aid olduğunu düşünəndə tərəddüdlərə qapılır. Etimad həmin tərəddüd və iztirabların, «cançəkişmələrin» şairidir. Belə olduğuna görədir ki, onun misraları sadəcə insanın könlünə təzətər duyğular axıtmır, həm də düşündürür, fəlsəfi mühakimələr yürütməyə sövq edir. Şair «duyğular və düşüncələr dünyasının imperatoru»olmağa yox, «könüllər fatehi» kimi fərqlənməyə yox, oxucusu ilə həmdərd, sirdaş olmağa üstünlük verir. Etimadın həcmcə kiçik olan, lakin dastan poetikası normaları ilə qələmə alınan «Dosye» şeiri bu mənada maraq doğurur. Tanıdığı «Qırmızı Vəli»nin kədərli taleyini ümumiləşdirir və şair qürbətdə – heçlikdə çörək pulu qazanaraq yaşayanların dərdinə şərik olur. Bu şeir avtobioqrafik səciyyə daşımır, amma gördüklərindən sosial-fəlsəfi mühakimə gücü ilə real nəticə çıxaran şairin ölüm və ölümsüzlüyə ayna tutmasıdır. Şeirin yalnız bədii məzmunu deyil, həm də təhkiyəsi, ağı-elegiya üslubu çox ciddi mətləblərə diqqət yönəldir. Rəvayət, nağıl intonasiyası ilə, «biri varmış, biri

yoxmuş» ifadəsinin milli-etnik yaddaşdakı təsir imkanlarına arxalanan şair bir gəncin faciəsində xalqa, millətə dəxli olan problemə toxunur, onun acısını yaşadığını göstərir. Belə «kədərli bir dastan» danışırmış kimi şair özünəməxsus ahənglə «Dosye» şeirində deyir:

Doğum ili 1970.
atası...
anası...
nə qardaşı var, nə bacısı
orta məktəbi 1988-də bitirmiş.

getmək varkən durub-durmağa nə hacət,
18 yaşında evi tərk edib getmiş
(hankı səmtə, hankı yana – Allah bilir),
Qırmızı Vəli derlərmiş adına –
hər kəsin haqqında üzünə deyirmiş.

ardı-sıra gələnə-gedənə, ötənə
atası şəklini göstərirmiş
anası həftədə, on gündə bir,
onun evdəki paltarlarını
yuyurmuş, sərirmiş...
öldüyü il 1995,
hər kəsin başına gələcək bir iş,
1995-in qışında
Rusiyanın hansı vilayətindəsə
vurub öldürüblərmiş...

Budur gerçəyin özü. Bu cür ölümün indi yalnız Rusiyada deyil, İranda, Türkiyədə, Avropada da gerçəkləşə bilməyəcəyinə kimsə qarantiya verə bilərmi? Hər kəsin bir tale bucağı, tale ulduzu var. Onun nə vaxt sönəcəyi, harada və necə qeyb olacağı əvvəldən kimsəyə bəlli deyil. Bəlli olan odur ki, «hər kəsin başına gələcək bir iş» var və o «iş» vaxtında, layiqincə sona

yetsin. O «işin» – ölümün ucuzu yox, şərəflisi insanın qismətinə yazılsın. Bu hər bir normal insanın arzusudur...

Etimad Başkeçid ölümü ucuzlaşdıranların, Allah dərgahını tanımayanların şairi deyil. Bəlkə də onu fatalizmdə ittiham edənlər ola bilər. Lakin mən bu fikirdəyəm ki, şair qəzavü-qədərin əsdirdiyi küləklərə dözür, ondan qurtula bilir, hətta ölümün üzünə dik baxmağı bacarır. O əski Şərq mifologiyası və buddizimdə olduğu kimi dünyaya dualist gözlə baxır, qəm və kədər selinin üstünə axdığını görsə də «ölüm bütün insan iztirablarına son qoyur» bədbinliyini deyil, «bu hər üzü bəlli dünyanın» gerçəklərinə inanır, şeirlərində ümid və nikbinliyi tərənnüm edir. Onun kədəri şəxsi-subyektiv kədər olmaqla, məhdudlaşmır, ümumbəşəri səciyyə daşıyır, çünki şair yalnız gördüyü həqiqətlərin bədii təsviri, poetik həlli ilə məşğul olmur, eyni zamanda yaşanan tarixin təcrübsindən çıxış edir, özünü, haqqında danışdığı nəsnələri tarixin əvvəli və axırında görməyə çalışır. Etimadın bu cəhdi əksər halda uğurla nəticələnir və ona kömək edən realist olması, dünyanı bütöv görməsi, Qərb-Şərq mədəniyyəti ənənələrinə, xüsusilə ümumtürk təfəkkürünün arxetipi, çağdaş axtarış meylləri və novatorluq təcrübəsinə mükəmməl vaqif olmasıdır.

Şairin sözdə deyil, təfəkkür tipindəki orijinallığın nəticəsidir ki, o müasir Azərbaycan linqvopoetikasının imkanlarından dostları kimi eyni dərəcədə istifadə etsə də, obrazları təzə və fərqlidir. O nədən yazırsa da yazsın, özünün poetik «mən»ini ortaya qoyur, oxucusuna fikir aşılamaqda çətinlik çəkmir, sanki gündəlik hyatını yazır. Bir qədər ənənəvi səslənsə də deyim ki, Etimad «Söz üçün cibə girmir», obraz üçün «ceyran belinə minib» axtarışa çıxmır. O düşündüyü və

danışa biləcəyi ilə məşğul olur. Həmin səbəbdəndir ki, Etimad Başkeçidin obrazlar silsiləsi yenidir, təzətərdir. Şair ənənəvi mövzularda yazsa da, yeni fikirlər, xarakterlər təqdim edə bilir, özünün müəllif mövqeyini gizlətmədən konkret bədii-estetik qənaətlərini söyləyir. Həmişə olduğu kimi, indi də ədəbiyyatımızın əsas mövzusu olaraq qalan məhəbbət, vətən, ayrılıq, nisgil, ölüm, xoşbəxtlik və s. münasibətdə şair tapdanmış yolla getmir. Xüsusilə «dövran istər ki, xar ola nəzm, biizzətü etibar ola nəzm» (M.Füzuli) misrasındakı vətəndaşlıq nidasının daha da yüksəldiyi bir zamanda, şeirimizdə modernist və postmodernist axınların çirkli sularının bir-birinə qarışdığı vaxtdı, ən pisi qrafomanların çoxaldığı mərhələdə, habelə «vardır ev dərdi, uşaqlar dərdi» deyən cəmiyyətin bir sistemdən digərinə keçdiyi anda bu işin çətinliyi birə min qat artır. Şair isə bunların heç birinə əyilmədən öz yolu ilə gedir, özünün dünyabaxışından çıxış edir, əxlaq tərzinə arxalanır. Həmin sadəliyin, sabitqədəmliyin nəticəsidir ki, yaşadığı vətəndaşlıq ağrı-acılarını şeirə çevirə bilir, daha doğrusu o şeir yazmır ki, «ürəkdən dərd atır». Kamal Abdullanın «Ey Nur daşı, daşların sevgilisi, sən sən ol, ol kafirin niyyətini dayandır» kəlamını epiqraf seçdiyi «Elə bir yurd, elə bir məmləkət ki...» şeirində Etimad Başkeçid vətənə bağlı duyğularını müasirlərinin pafoslu məntiqindən fərqli şəkildə təqdim edir, ömürgün ağrı-acılarına sığal çəkərək vətəninin taleyinə aydınlıq gətirir və yazır:

...yerdən yerə yapıxmış eni-boyu,
susqun,
daş kimi, kəsək kimi xamuş,
elə bir yurd, elə bir məmləkət ki,
daşı-torpağı torbayla daşınmış.

bilinməzin bitməyən şövqü,
işbu,
bir yol öcəşmiş çölünə-düzünə.
elə bir sevgili ki, ürəyi daş
elə bir dost ki, daş yamanmış üzünə.

harda pir,
harda niyyət,
harda Əhlət!
yolçu istməsə də yol gözləməz –
qədərilə baş-başa qalmış yolun
ən sadiq yolçusu daşdır əlbət.

yerdən-yerə yapıxmış eni-boyu,
susqun,
daş kimi, kəsək kimi xamuş.
elə bir yurd,
elə bir məmləkət ki,
daşı-torpağı torbaya daşınmış...

Etimad Başkeçidin yaradıcılığındakı fəlsəfilik elmi-nəzəri mahiyyəti ilə ona diqqəti cəlb edir ki, burada Şərq və Qərb mədəniyyəti ənənələrinə vaqif olan yaradıcı şəxsiyyətin praktik həyata, xalq təfəkkürü ənənələrinə istinad var. Şair özü demiş, sadəcə xalqına «mirzəlik» edir, ümumxalq həyatı, onun tarixi təcrübəsinə arxalanaraq cəmiyyətin birgəyaşayış düsturlarını araya-ərsəyə gətirir, mənəviyyat və əxlaq normalarına mühüm əhəmiyyət verir. Həmin formulların bir qismənə diqqət yetirməyə, onların üzərində дцшцнмяйя дяйяр:

– Kor quruşa altun kisə tutanlara
bir məmləkət türküsü de, qulaq assın

*

– Qələm şamdı, bəxt kəpənək,
*
– Hərə öz qəbri boydadı.
*
– Tüm dünyanın qaranlıqları
Cəm olsa bir mumun vecinə olmaz.
*
–...İnsanlar bir-birinin üzünə tüpürməyə yığışır –
ara meydanına
edama baxmaq adına.
*
– Ölüm hələ heç kəsə heç nəyi sübut eləyə bilməyib!
*
– bu sevdanı mövlam ehsan eyləmiş,
Kimdə uçuq könül görsən ol mənim.
*
– Uçuq könül kor bayquşun piridi.
*
– Allahın üstünə tökülən yerdə
Hər dərdin duzundan dadar ağlarsan
*
– Borcuna sədaqətli qulların
hesabına düşür axşamlar,
Tanrıya açılan əllərin,
hörmətinə açılır sabahlar,
bütün müqəddəslərin üzu suyuna,
yer günəşin başına fırlanır...
günəş də başqasının.
*
– Banlaya bilməyən xoruz olmaqdan ölüm yeydir.
*

Etimad Başkeçidin şeirləri milli yaddaş və etnopsixoloji dəyərlərin daşıyıcısı olduğuna görədir ki, onları hər dəfə oxuyanda doğma-tanış həqiqətlərlə

rastlaşırsan. Şairin poetik fəhmi, dərki və ifadəsi xəlqilik keyfiyyəti ilə seçilir, dilinin özünəməxsusluğu qan və gen yaddaşından süzülüb gəldiyinə görə duruluğu, şəhdi-şirəsi ilə ağıla qida verir, «paslı könülləri» cilalayır. Buna görədir ki, Etimad Başkeçid çağdaş Azərbaycan ədəbiyyatının və cari ədəbi prosesin sayılan-seçilən bir şəxsiyyəti kimi qiymətləndirilməyə layiqdir.

* * *

Etimad Başkeçid nəsr yaradıcılığında da uğurludur. Onun şeirlərindəki nəfəs genişliyi nəsrində yaşıl bir vadiyə qovuşmuş bulaq suyu kimi dincəlir. Bu dinclik bədii təhkiyənin təmkinində, süjet bitkinliyində, kompozisiya bütövlüyündə, hadisələrin doğmalığı və şirinliyindədir. Ona görə də Etimadın hekayələri («Panoptikum»da 5 hekayə təqdim olunur) bir dəfə oxumaqla yaddaqalandır. Həmin hekayələr hər dəfə oxunduqda təzəliyi, dadı-məzəsi ilə oxucusuna zövq verəcək. Etimadın hekayələri «Poçt qutusu» (C.Məmmədquluzadə), «Şeyx Şəban» (Ə.Haqverdiyev), «Cənnətin qəbzi» (Y.V.Çəmənzəminli), «Məktub yetişmədi» (A.Şaiq), «Buz heykəl» (Ə.Məmmədxanlı) və başqa şedevr hekayələr kimi dəfələrlə və təkrar-təkrar oxunacaq oxucusunu zaman-zaman düşündürəcək. Çünki onlarda «velosiped» yenidən icad olunmur, hekayənin bədii dəyəri və formatları yenidən kəşf edilmir, ancaq klassik bir həqiqət qorunur ki, doğru olanı yazmaq hünərdir. Etimad düşündüklərini deyil, gördüyü və yaşadıqlarını yazdığına görə hekayələrində yazıçı kimi tanınır, adi, sadə adamların gündəlik həyatında ciddi sosial mahiyyət tapmağı məqsəd bilir. Elə həmin səbəbdəndir ki, Etimad Başkeçid üçün bədii forma xüsusi önəm daşımır, o kiçik həcmli şeir mətnində böyük fəlsəfi mövzuya aydınlıq gətirməyə

çalışır, adi əhvalatlarda böyük məzmun ifadə etməyi məqsəd bilirsə, iri həcmli janrda, o cümlədən hekayələrində qısa və aydın nəticələr söyləməyi, doğru-dürüst mühakimə yürütməyi vacib sayır. Şair-hekayənəvis haqlı olaraq indiki «qarışıq mallar» satan postmodernistlər bazarında aydın müəllif mövqeyi nümayiş etdirir, ən vacibi isə doğru olana könül bağlayır. Onun bədii formaya münasibəti təxminən belədir: «Eşqin tərsi, avandı yoxdur, necə gəlirsə gəlsin, cana xoş gəlir». Yəni hansı formada yazılmasından asılı olmayaraq sənət əsərində mütləq doğru, həqiqət, həyat materialı olmalıdır. «Həyat materialı» ifadəsi nə qədər müasir tənqidimiz üçün köhnəlmiş söz birləşməsi olsa da, mövcud gerçəklərimizin var olması bir o qədər təzədir və onlara, gözümüzlə gördüyümüzə, içində yaşadığımız gerçək həqiqətlərə aydınlıq gətirmək, mövcud dünyanı yalnız təsvir, tərənnüm etmək deyil, həm də təhlil etmək və onu yaxşıya doğru dəyişmək hər birimizin borcudur. Etimadın yazıçı missiyası hekayəsində («Devri-aləm və bir gün», «Veyil dərəsi», «Velosiped», «Yuxusuzluq», «Tüklücə») bu fikirləri ön plana çəkir və təlqin edir ki, harada, necə yaşamağından asılı olmayaraq insan övladı (övladi-bəşər də demək yerinə düşər) beşikdən məzarə qədərki ömür yoluna kölgə salmamalı, adını-sanını qorumalı, özünün dediyi kimi «Xaçını daşımağı bacarmalıdır». Bu qeybdən təzə xəbər deyil, minillərin bəsbəlli həqiqətidir və indi qeyri-adilik də elə odur ki, minillərin həqiqətindən doğan iztirablı duyğulara dözə biləsən. Etimad şeirlərində olduğu kimi nəsrində də həmin bədii-estetik konsepsiyanın daşıyıcısıdır. O, oğlu Murad, yaşadığı şəhər, doğulduğu yer, jurnalist işlədiyi Komi vilayətinin «İnta» şəhəri, qardaşı Mehdi və onun velosipedi, «Tüklücə», həmkarları, dostları,

həmvətənləri və s. başqaları ilə bağlı bədii düşüncələrini şeirə, hekayəyə çevirəndə bütün bunları daha aydın nəzərə çatdırır. Etimad Başkeçidin sözünün işığında yaddaş həqiqətləri və yaşanan gerçək tarixin mənzərələri bir həyat tablosu kimi canlanır, oxucusuna xoş əhval-ruhiyyə, psixoloji analiz hissi aşılayır, ötən günlərin hadisələrini bütöv bir ömrün fonfom ağrıları kimi canında yaşatmaq gücünü artırır. Çünki «Broy and Panoptikum» sözün mifik mistik dəyərləri ilə gerçəklik arasındakı məsafəni, sərhədləri aradan qaldırır, bədii sözün energetikası ilə ruha və idraka qida verir. Bu səbəbdən «Panoptikum», yəni açıq səma altında bədii söz muzeyi olan Etimad Başkeçid indinin və sabahın, habelə gələcəyin şairi kimi həmişə ehtiram görəcək.

"525-ci qəzet", 1 dekabr, 2006-cı il

TALESİZ ŞAİRLİK YOXDUR

Əziz oxucu, Oruc Cəmiloğlunun bu yeni şer kitabını oxuyub başa çatdıqdan sonra düşüncələrim məni uzaqlara apardı, şer və şairliyin millətimizə verilən tanrı payı olduğuna bir daha inandım.

Xalqımızın kimliyini dünyaya tanıdan, onun içini-dışını bəlli-başlı təsvir edərək «qəlb şairi» (E.Gibb) adını alan dahi Füzulinin müəmmalarından birində deyilir:

Ahimin ey mah, eşit övsafını
Firqətindən tutdu göy ətrafını.

Bizə bəlli dünyanın, bizə görünən göy üzünün, tanış adamların, çiçəyin-gülün, ağacın və hər bir nəsnənin ağlımız çatdığı qədərincə dərki bizim üçün səadətdir. Özünü və dünyanı dərk etmək insanın xoşbəxtliyidir. Böyük xoşbəxtlik və səadət isə odur ki, özünün və dünyanın, habelə göy üzünün görünməyən tərəfini də görəsən: ahın göyün görünən yox, görünməyən tərəfini də bir yaz dumanı kimi tuta və sən bir ruh böyüklüyü ilə kainatı sarasan, yerdə və göydə, görünən və görünməyəndə var olasan. Könüllər fəth edəsən, zaman içində zaman yarada biləsən. Və bütün bundan sonra da sakitcə pıçıldayasan: «Bilən bilmədiyini biləndir». Çoxları soruşa bilər ki, «bu mümkündürmü?» Cavabını tarix verir: «Bəli, mümkündür! Bunun üçün gərək anadan şair doğulasan». Şair kimdir? Cavabı hamıya bəlli olan bu sualın içində gizlənən ən böyük həqiqət odur ki, «şair taleyinin qulu olan Şəxsiyyətdir». Talesiz şairlik yoxdur və şair tale həqiqətlərini, kədər və qəmini, hüzn və ələmini, həzz və iztirabını, sevinc və xoşbəxtliyini – ürəyindən keçənləri, duyğularının söylədiyini

ağlının gücü ilə xalq sərvətinə çevirə bilən Şəxsiyyətdir. Çünki, o öz ağrılarını – fərdi fiziki ağrıları və emosional duyğularını deyil, üzvü olduğu cəmiyyətin, mənsub olduğu xalqın ağrılarını yaşayır və bu onun taleyidir. Şairlik həmin tale yolunu tanımaq, yolçuluğunu əzmlə davam etdirmək, haqqa varmaq bəsirətidir. Belə olanda mövzu və ideyadan, forma və janrdan, təsvir və ifadə vasitələrindən asılı olmayaraq söylənən şer könüllərə yol tapır, ümummilli sərvətə, intellektual mülkiyyətə çevrilir. Demək, şairlik yalnız şer texnikası və nəzəriyyəsini bilməklə yox, həm də bu tale haqqını yaşamaqla müəyyənləşir. Şairin böyüyü, kiçiyi yoxdur. Şair elə şairdir. Bir misrasından bilinir şairin kimliyi, şəxsiyyəti. Bu sözün qüdrətiylə faş olur. Çünki, söz ki, ağızdan pərvaz eylədi, o artıq sahibinin deyil, eşidənindir, elindir və yol ayrıcına qoyulan ağır, qiymətli boxça kimi bir şeydir. Sahibi gəlib yiyə duracaq. Odur ki, sözə könül verənin işi, taleyi başqalarınkına bənzəməz, bir ayrı sevdadır, düçar olanlar bilər. Oruc Cəmiloğlunun bu kitabı hər şeydən öncə sözə könül vermənin həzzini əks etdirməsi ilə səciyyələnir və onun istedad sahibi olduğunu təsdiqləyir. Mən onun birinci kitabında – «Payız yelləri»ndə (2000) ruhunun bütövlüyü, şair şəxsiyyəti, sənət düşüncəsi, bəşəri idealları, lirik qəhrəman «mən»i ilə tanış olanda da bu fikirdə idim. Və həmin kitaba ön söz yazan həmkarım, ədəbiyyatşünas – alim Kamran Əliyevin yazdığı: «Oruc Cəmiloğlunun misraları içərisindən lirik qəhrəmanın bir başqa obrazı da tez-tez gözə dəyir. Ağacından ayrı düşən **Tənha yarpaq**, dənizinin suyu quruyan **Tənha ada**, payız yellərinin qisməti olan **Tənha bağ** kimi, tanınan bu obraz müəllifin özüdür və ömrün, həyatın çəkilə bilməyən ağrılarından doğulub. Bu misralar o qədər doğma, o qədər əzizdir ki, onların belə bir ünvanı da var: Pöhrələri misra olan ağrılar» - fikrinə səmimiyyətlə haqq qazandırdım. Orucun şerlərində ağrılar ona görə pöhrələyir, şaxələnir, misralara çevrilir ki, lirik qəhrəmanın «mən»ində olan idrak və irfan

dəyərlərini sərgiləsin, onun daxili-mənəvi zənginliyinin mənzərələrini canlandırsın, təcəssüm etdirsin. Bu halal niyyət, xoş məqsədin nəticəsidir ki, Oruc hansı mövzuya əl atırsa orıa yeni rövnəq verə bilir, ən adi, sadə görünəndə ülvini, əlçatmazı, qeyri-adini tapmağı bacarır. Onun bədii təfəkküründə, poetik düşüncələrində görünməyənlərə, fəhm olunanlara maraq güclüdür və şair bu mənada öz istedadına güvənir. Şairin istedadında, şəxsiyyətində həmin maraq onun poetik üslubunu, lirik «mən»indəki meyli aşkarlayır. Bu real həyatdan və gerçək hadisələrdən qanadlanan lirik-emosional üslubdur. Buradakı lirizm gerçəklərin, real olanların poetik duyğularda əks-sədasıdır və eyni zamanda arzu və xəyal vadisində yaşananların inikasıdır. Elə buna görə də Orucun poetik üslubunu lirik-emosional başlanğıc müəyyənləşdirir və gələcəkdə yəqin ki, onun daha əlvan rəngləri, çalarları ilə rastlaşacağıq. Bu fikri isə şair poetik ənənəyə yaradıcılıqla yanaşması ilə təsdiqləyir. O özünəqədərki ədəbi-bədii təcrübəyə sərbəst və sərrast yanaşması, səmimiyyəti ilə həmin təsdiq məqamında dayanır. Buyurun, diqqət edin:

Ceyran-cüyür Yal zəmini dolandı,
Al lalələr dağ döşünə qalandı.
Alma-armud bir-birinə calandı,
Verdi mənə ulu tanrı rəhmini
Çəkdim gülün göy çəmənə rəsmini.
(«Sevgi günü»)

və yaxud:

Mən nə yazdım, sənə saldım meylimi,
Axtarmaram özgə bağda Leylimi.
Bilməm bu eşq mələklərin feylimi?
Bircə səhər görəmməsəm süsəni
Dərd baltalar, qəm iynələr tən məni!
(Mən nə yazdım...)

Oruc Cəmiloğlu heca vəzninin formalarında yazır. Burada folklor ənənələri, bayatı havası, aşıq şerinin ritmi, Dirili Qurbaninin ruhu da var, Səməd Vurğun şerlərində parlaq ifadəsini tapan gerçək həyatın romantikası da. Ona görə bunu vurğulayaraq deyirəm ki, Oruc irsə layiqli varis olan, sələflərin yolu ilə gedən sabitqədəm şairdir. Əsl istedad keçilən yolun, görülən işin, bilinən həqiqətin keçilməyən, bilinməyən tərəflərinə maraqda ifadə olunur. Oruc bunu bacarır və bənövşə qoxulu klassik şerimizə –Qurbani şerinə müasir poetik düşüncənin möhrünü vura bilir. O deyir:

Yaşıl yamaclarda xallı kəpənək,
Hörübdü vüsaldan ormana çələng.
Deyir qan rəngiylə moruq, çiyələk
Hər zaman yanında qal bənövşənin.

Sığal çəkib telə baharda şahnaz,
Oynaq qaşlarıyla gülə satdı naz.
Dedi işvəsiylə boyu sərvinaz
Bihuş ol ətrindən tər bənövşənin.

Sevgi nəşəsiylə dolub piyalə,
Rəvayət söylədi çiçəkdən gülə.
Dedi gül ətriylə yasəmən, lalə
Səhər meh çağında dər bənövşəni.

(«Bənövşə sevgisi»)

İlk eşqin, sevdanın nuru hər kəsi şair edəcək bir gücdədir.Bunu bütün sevənlər gözəl bilir. İllah da bütün ömrünügününü o sevdanın nuru ilə yaşayanlar, şair olanlar, bu eşqin zərif, həssas gözüylə dünyaya, təbiətə, insana, gözələ, gülə-çiçəyə baxanlar. Xalqımız nə gözəl deyib:

Əzizim baxtı yarım,
Baxtımın taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı yarım.

Şair Oruc Cəmiloğlu şerlərində, poemasında bu həssas duyğuların tərənnümçüsüdür. O xalq yaddaşı və təhkiyəsinə, şer təcrübəsinə arxalandığına görə şairliyin qədim-qayım ənənələrini ifadə edir, xalq təfəkküründün poetik normativliyindən çıxış etdiyinə görə «hər gülə, çiçəyə təzə ad» verir, yeni yanaşma tərzi, obrazlı duyum və deyimi ilə oxucusunu maraqlandırır. Buna görədir ki, Orucun bayatıları ilk oxunuşdan yaddaşa hakim kəsilir. Bir neçəsinə diqqət edək:

Mən aşiqəm dan yeri,
Gözüm üstə can yeri.
Qopsa dodaq dodaqdan
Ləbdə qalar qan yeri.

Mən aşiqəm, qəlbi nə?
Uca nədi, qəlbi nə?
Gələndə göz-gözə yar
Dil nə dedi, qəlbi nə?

Mən aşiq durna teli,
Yan açıb burma, teli.
Atıb zülfün rüxsara
Ürəkdən qırma teli.

Sonuncu bayatının misraları yuxarıda xatırlatdığım xalq bayatısı ilə müqayisədə nə qədər yeni semantik imkanlardan danışmağa əsas verir? Orucun bayatılarındakı oxşar və fərqli cəhətlər hansılardır? Bu geniş söhbətin mövzusudur.

Oruc Cəmiloğlu həm də epik miqyasda düşünən şairdir. Onun «Eşqin səsası» poeması bu fikrin sübutudur. Lirik şerlərində olduğu kimi, poemasında da şair klassik dəyərlərə istinad edir və beləliklə, klassik məsnəvilərimizin forma əlamətlərindən sərbəst istifadə və ənənəyə təhtəlşüur itaətkarlıq əsərin janr xüsusiyyətlərini müəyyənləşdirir. Buna görədir ki, klassik «namə»lərdəki poetik təhkiyə, o cümlədən Ş.İ.Xətainin «Dəhnamə»sindəki giriş hissənin təbiət təsvirlərindəki nəfəs genişliyi, aydın mənzərələr, S.Vurğunun şeriyyət pafosu «Eşqin səsası» poemasında (xatırla «Şair, nə tez qocaldın sən?» və «Muğan» poemasının proloqu) yeni üslubda, lirik-emosional üslubda ortaya çıxmaqdadır. Poemadan alınan bir parça bunu təsdiqləyir:

Gəl, yaxın gəl mənə, sözlərim gerçək,
Məndən söyləməsi, səndən eşitmək.
Əbədi yaşamır o ali insan,
Gər insan olmaqsa deyildir asan.
Çünki, nəsib olmur o hər bir kəsə,
Səadət verməyir ucalan səsə.
Yaralı könlümün yuvası, yurdu,
Mənim ömrüm-günüm, istəyim budu,
Ucalsın səmaya eşqin ilhamı,
Yığılsın büsata el, oba, hamı.
Qursun halayını dostlar, tanışlar,
Şəfəqlə süzülsün yağan yağışlar.
İllərcə uzansın insanın ömrü,
Dəyişsin tanrının ölümçün hökmü.
Yayılsın dünyaya coşğun bir xəbər,
Ki, qısa ömürdən qalmayıb ətər.
Sayılmadan keçsin günlərimiz şad,
Qoy eşidilməsin naləli fəryad.

Olmasın bir daha nə qəm, nə kədər,
Sevdanın günəşi batmasın hədər.
Gül açsın könüllər baharda, qışda,
Qoxlasın ətrini qaya da, daş da.

Lirik-psixoloji fraqmentlər, fəlsəfi düşüncələr, təbiət təsvirləri və daxili dialoq, xəyali yaşantılar, xeyirxah arzular, bütöv yaddaş səhifələri poemanın əsas göstəriciləridir.

Orucun yeni şerlərini, bayatılarını və poemasını oxuyub başa çatdırdıqdan sonra məndə yaranan bir təssüratı da demək istəyirəm. O nə qədər «qəmə yoldaş olan könlün»ün iztirablarından yaranan «simfoniya»ya aludə olsa da xoşbəxt şairdir. Çünki, indi modernist və postmodernist axtarışlar girdabından, tendensiyalı təfəkkürdən, intriqalarla müşayiət olunan ədəbi mübahisələrdən uzaqdadır və məhz özünün şerlərini yazır, özünü poyeziyaya həsr edir. Sonrası taleyin işidir, talesiz isə şairlik yoxdur.

Oruc Cəmiloğlunun "Eşqin sədası" kitabına ön söz. Bakı, "Gənclik", n., 2004, s.3-9.

1980-Cİ İLLƏR AZƏRBAYCAN NƏSRİNİN POETİKASI

Azərbaycan ədəbi-bədii təfəkkür sistemində roman öz struktur elementləri və ideya-estetik dəyərləri ilə yüz ildən artıqdır ki, iştirak edir. Milli roman təfəkküründə çoxşaxəli planda həyatımıza müdaxilə etməsi və Azərbaycan mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynaması XX əsr həqiqətidir. Bu əsrdə Azərbaycan romançıları milli mənəviyyatın gerçək əsaslarını yaratmağa, ictimai-tarixi mühitin bədii salnaməsini yaratmağa müyəssər ola bildilər. Roman janrı XX əsrdə Azərbaycanda milli «mənlik» şüurunun formalaşdırılmasında, tarixi yaddaş və müasir ictimai gerçəklik mənzərələrinin təsvirində əhəmiyyətli rol oynadı, xalqın azadlıq, müstəqillik hərəkatının enerji mənbələrindən birinə çevrildi. Doğrudur XX əsr Azərbaycanında romançıların axtarışlarında ideya-siyasi illüziyalar, kosmopolitik cəhdlər, nihilizm, konfliktsizlik, vulqar sosioloji meyllər və sair bu kimi dürlü-dürlü «ideya» və «izm»lər də oldu, lakin milli nəşrin aparıcı bədii forması kimi roman öz imkanlarını qoruya bildi və həmvətənlərimizin iç özəlliyinə ayna tuta, onun daxili tükənməzliyi və zənginliyi barədə əsaslı fikir yarada bildi. İndi XX əsrin müxtəlif onilliklərində yaşamış Azərbaycan vətəndaşının mənəvi dəyərləri, psixologiyası, tərəddüdləri, ictimai-siyasi həyat burulğanlarındakı dramatizmi ilə yaxından tanış olmaq istəyən hər bir kəs üçün o dövrün romanları etibarlı mənbə rolunu oynamaqdadır. Elə bu səbəbdəndir ki, Azərbaycan romanının tarixi və indiki vəziyyəti elmi-nəzəri aktuallıq kəsb edir.

1950-ci illərdə romanın öz ömrünü başa vurması haqqında geniş mübahisələr gedir, kiçik həcmli nəsr janrlarının tələbləri ilə ortaya çıxanlar yeni texnika və teknologiyalar

dövründə qısa, yığcam, lakonik mətnlərə üstünlük verirdilər. Azərbaycanda həmin dövrün diskussiyaları milli nəsrin inkişafında «yeni dalğa» yarada bildi və 1960-cıların meydana gəlməsi, nəsrdə yeni tendensiyaların təzahürü, üslub, tip, xarakter, şəxsiyyətlər baxımından rəngarəngliyin meydana çıxması sonrakı illərin ciddi əsası, məhsuldar zəmini oldu. Bunun nəticəsidir ki, indi biz çağdaş istiqlal ərəfəsi və dövrünün Azərbaycan nəsrindən qürurla danışa bilir, onun ictimai-mədəni dəyərini müəyyənləşdirə bilirik. Hələ tələbəlik illərindən ədəbi istedadına inandığım Təyyar Salamoğlunun (Cavadov) bu istiqamətdə uğurlu elmi-nəzəri tədqiqat aparması, «Müasir Azərbaycan romanının poetikası» (XX əsrin 80-ci illəri) adlı fundamental monoqrafiyasını məhz həmin problemlərə həsr etməsi söylədiklərimizi dövrün ədəbi-tarixi fakt, hadisə və həqiqətləri əsasında təsdiqləyir.

Məlumdur ki, B.Nəbiyev, K.Talıbzadə, Y.Qarayev, N.Cəfərov, P.Xəlilov, S.Əsədullayev, Q.Xəlilov, Ş.Salmanov, Anar, Elçin, K.Abdullayev, A.Hüseynov, H.Qasımov, A.Hacıyev, A.Məmmədov, Q.Kazımov, V.Quliyev, T.Hüseynoğlu, N.Paşayeva, V.Yusifli, H.Quliyev, A.A.Hacıyev, Ş.Alışanov, T.Əlişanoğlu, N.Cabbarov, C.Məmmədov, V.Sultanlı, N.Qəhrəmanov, M.Mustafa və b. kimi tənqidin müxtəlif nəsillərinin nümayəndələri bu romanları bədii təhlil süzgəcindən keçirmiş, onların ədəbi prosesdəki mövqeyi ilə bağlı mülahizələr söyləmişlər.

T.Salamoğlu 1980-ci illər Azərbaycan romanının özəlliklərini şərh edərək göstərir ki, onillikdə altmışdan çox roman yazılmışdır. Bu romanların, əlbəttə, hamısı janrın səksəninci illər səviyyəsinin bədii ifadəsi deyil. Bununla yanaşı, İ.Hüseynovun «Məhşər», «İdeal», S.Əhmədovun «Yasamal gölündə qayıqlar üzürdü», B.Bayramovun «Karvan yolu», F.Kərimzadənin «Xudafərin körpüsü», İ.Əfəndiyevin «Geriyə baxma, qoca», Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi», Y.Səmədoğlunun «Qətl günü», Ə.Əylislinin «Ağ

dərə», Elçinin «Mahmud və Məryəm», «Ölüm hökmü», «Ağ dəvə», Ç.Hüseynovun «Fətəli fəthi», M.Süleymanlının «Köç», «Ceviz qurdu», «Səs» və «Günah duası» əsərləri və s. Azərbaycan romanının problematikasının qloballaşması və fəlsəfiləşməsi, poetikasının zənginləşməsi təmayülünü göründürdüyü kimi, onun dünya romanına inteqrasiya cəhdini də ehtiva edir.

80-ci illərin romanı sosrealizm estetikasının prinsiplərindən uzaqlaşır. Lakin bu realizmdən imtina yox, onun xarakterinin əsaslı dəyişməsi idi. Bu illərin ədəbiyyatında həyat həqiqətinin bədii həqiqətə çevrilməsində ideoloji meyarlar, bu meyarlardan irəli gələn «estetik prinsiplər» yox, sənətkarlıq axtarışları ön plana çıxır. Bu axtarışların formalizmlə də heç bir əlaqəsi yoxdur. Dünya bədii nəsrinin poetika zənginliyinə və milli ədəbi ənənəyə söykənən Azərbaycan romanı sosial, əxlaqi-mənəvi və s. problemləri inikas edərkən onun fəlsəfəsinə nüfuz edir, milli və ümumbəşəri dəyərləri vəhdətdə ifadəyə çalışır. Azərbaycan romanındakı bu yaradıcılıq axtarışları 60-70-ci illərdə bu və ya digər dərəcədə özünü göstərmişdisə də, 80-ci illərdə bu artıq ədəbi meylə çevrilir.

Diqqətəlayiq haldır ki, T.Salamoğlu tədqiq etdiyi dövrün nəsrindən danışarkən analitik təhlil yolunu tutur, sovet dövründə deyildiyi kimi «Ədəbiyyat generalları»na büt kimi baxmır, onların milli nəsrin inkişafında mövqeyini müəyyənləşdirməyə mühüm əhəmiyyət verir. Həmin prinsipdən çıxış edən T.Salamoğlu düzgün olaraq yazır ki, «Fətəli fəthi»ndə Fətəlidən başqa heç bir obrazın taleyi axıra qədər izlənilməmişdir. Romanın çoxsaylı obrazları müəyyən məqamda əsərə daxil olub bir qədər «yol getdikdən sonra» oxucu ilə «xüdafizləşməli» olurlar. Ümumiyyətlə götürdükdə, bu «Fətəli fəthi»ndə özünü göstərən qüsurlardan biridir. Xüsusən İsmayıl bəy Qutqaşınlı haqqındakı təsvirlərin mahiyyəti lazımınca açılmır. İ.Qutqaşınlının bir yazıçı olaraq ədəbiyyat

tariximizdə özünəməxsus mövqeyi vardır. Müəllifin bu obraz haqqındakı çox «xəsis» məlumatı onu XIX əsr Azərbaycan yazıçısının obrazı kimi səciyyələndirməyə imkan vermir. Ç.Hüseynovun Təqdimatından İ.Qutqaşınlını ancaq çara sədaqətli bir general kimi təsəvvür etmək mümkündür. Bu isə «Rəşid bəy və Səadət xanım» hekayəsinin müəllifinin hüquqi tarixi obrazı ola bilməz.

1980-ci illər Azərbaycan nəsrini təkcə milli ədəbi proses daxilində deyil, keçmiş SSRİ-nin ədəbi-mədəni həyatı ilə əlaqəli araşdıran, digər milli mühitlərin bədii düşüncə həqiqətləri ilə uzlaşdıran ədəbiyyatşünas alim belə bir qənaətə gəlir ki, 80-ci illər romanında inkar pafosu çox güclüdür. İnsanı sosial və əxlaqi kataklizmə sürükləyən sistemin özü tənqid hədəfi kimi götürülür, insanla cəmiyyət, insan və mövcud siyasi sistem arasındakı ziddiyyət bədii konfliktin əsasında dayanır..

Sosial və siyasi ziddiyyətləri analitik təhlil obyektinə çevirən romanlarda «pislər» və «yaxşılar» əks qütblərdə, konfliktin əsasında dayanmır, onu yaratmırlar Əksinə, istər «mənfilər», istərsə də «müsbətlər» ictimai sistemin qurbanları kimi eyni bir qütbdə də birləşə bilir, tragik obrazlar kimi xarakterizə edilə bilirlər.

80-ci illər romanı patriarxal insanın urbanizasiya mühitində taleyini ön plana çıxarır. Patriarxal insan öz səciyyəsi ilə milli xarakteri əks etdirir. Patriarxal həyat və patriarxal insanın taleyi tarixi və çağdaş ədəbi prosesdə ciddi ədəbi qanunauyğunluq əsasında izlənilir. İlk növbədə sənətkarları həyat tərzimizin patriarxal ənənələr çərçivəsindən uzaqlaşaraq milli psixologiyaya yad taleyə qovuşması narahat edir.

Cahandar ağa (İ.Şıxlı «Dəli Kür») patriarxallığın pozulmiasının «başlanğıcı»nı Kərbalayi İsmayıl isə (F.Kərimzadə. «Qarlı aşırım») «son»unu təcəssüm etdirirlər. Cahandar ağa və Kərbalayi İsmayıl patriarxallığın faciəsini yaşa-

salar da, onlar öz mühitlərində idilər. M.İbrahimovun «Böyük dayaq» romanında patriarxal «qanunlar» əsasında yaşamaq istəyən insanın - Rüstəm kişinin faciəsi onunla müəyyən olunur ki, onun xarakteri öz mühitində deyil.

Ümumiyyətlə 1980-ci illərin Azərbaycan nəsri və onun poetikası haqqında danışarkən T.Salahoğlu yeni bədii-estetik normaların təşəkkülü və formalaşması ilə yanaşı haqlı olaraq, dövrün ictimai-siyasi mühit faktorlarını da diqqət mərkəzində saxlayır, mülahizələrini milli nəsrin yeni tip, xarakter və şəxsiyyət axtarışlarına istinadən söyləyir. Belə olduğuna görədir ki, Azərbaycan nəsrinin müasir istiqlaliyyət, azadlıq və demokratiya, milli dövlətçilik, çağdaş vətəndaş uğrunda mübarizəsinin də əksini monoqrafiyada görmək mümkündür. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, milli ədəbiyyatımızın inkişafına nihilist münasibət bəsləyənlərə və bir çox hallarda onu inkar edənlərə, modernizm və postmodernizm illuziyaları ilə özünü aldadanlara «Müasir Azərbaycan nəsrinin poetikası» çox dəyərli bir cavabdır.

"Kaspi" qəzeti, 7 dekabr, 2005-ci il

İŞIQ GƏLƏN TƏRƏFƏ DOĞRU

Adı müasir Azərbaycan ictimai-mədəni həyatında xüsusi hörmətlə qiymətləndirilən Abid Tahirlini nə vaxt, necə tanıdığımı xatırlamıram, amma ondan məmnunam ki, Abidlə bağlı yalnız xoş duyğuların şahidiyəm. Özünü tanımamışdan əvvəl sözünü tanımışam, imzasını görmüş, məqalələrini oxumuş, fikirlərini, duyğularını özümə doğma bilmişəm. O zaman hələ Azərbaycanda Sovet hakimiyyəti süqut etməmişdi, lakin artıq totalitarizmin prinsipləri zəifləməkdə, kommunist rejiminin yaratdığı sosial-siyasi steres tüğyan etməkdə idi.Azərbaycanda yeni gənclik formalaşır, tarixə, milli yaddaşa, klassik irsə dönüş sabaha gedən yolun başlanğıcı sayılır, xalqın özünüdərki, özünütəsdiqi, özünütəşkili ümummilli vəzifə, təxirəsalınmaz vətəndaşlıq işi sayılırdı.

Bu işin yerinə yetirilməsində mətbuat xadimləri, jurnalist, yazıçı və digər sahənin ziyalıları, xüsusilə fərqlənir, milli «»mənlik problemini qaldırır, vətəndaş kimliyi məsələsini diqqət mərkəzində saxlayırdılar. Çünki azadlığa aparan yol ruhən azad, kamil vətəndaş nümunəsi ilə mənzilə yetişir, xalqı «it hürən tərəfə yox, işıq gələn» ə çatdırır. Abid Tahirli 1980-ci illərin əvvəllərindən etibarən jurnalistika aləminə gəlməklə həmin istiqamətə ömür-gün sərf edən həmvətənlərimizdən biri oldu. O işi, əməli, ideyası, əsərləri ilə fərqlənən, başqalarına örnək olan dost, yoldaş, həmkar kimi tanındı. Əməyi, zəhməti hesabına ictimai-mədəni həyatda uğurlar qazandı, filologiya elmləri namizədi və doktoru olmaq üçün ciddi elmi-nəzəri axtarışlar apardı, monoqrafiyalar yazdı, ekranda, efirdə, mətbuat səhifələrində tez-tez göründü.

Mən Abid Tahirlinin imzasına ilk dəfə «Odlar yurdu» qəzetində rast gəlmişəm. Onun vətən duyğulu, yurd qoxulu

yazıları məndə təkcə xoş təəssürat yaratmayıb, həm də tarixən ikiyə parçalanan Azərbaycanın dərdlərinə aşina edib. Çünki onun elmi-publisistik yazıları məzmun və məündəricəsinə görə bütöv Azərbaycan idealına əsaslanır. Abidin əsərlərində vətənin ağrı-acıları doğma, cana yaxın bir insanın kədəri kimi yaşanır, onun çətinliklərini çəkməkdən qürur duyanların fəziləti görünür. «Mənim kimi balan ölsün, ay Vətən!» - deyənlərin harayı eşidilir.

Abidin Azərbaycan mühacirətinin müxtəlif problemləri, şəxsiyyət, fakt və hadisələrinə həsr olunan çoxsaylı məqalələri, «Deyilən söz yadigardır», «Azərbaycan mühacirət mətbuatı» (II hissəlik), «Sözlə yarananlar, sözü yaşadanlar», «Azərbaycan mühacirət mətbuatında publisistika» (1921-1991) kimi monoqrafiyaları onun yaradıcılıq axtarışlarını şərh etməyə geniş material verir. Bu əsərlər yalnız onun elmi-nəzəri mövqeyini deyil, həm də şəxsiyyət və vətəndaş kimliyini aydınlaşdırmağa ciddi əsaslar yaradır. Abid o şəxsiyyətlərdəndir ki, əqidəsi-amalı vətənə, yurda, haqq işinə xidmətin nümunəsi, ömür gün həqiqətidir Bu fikri mən ona görə birmənalı, açıq-aydın deyirəm ki, Abidi artıq «az-çox» tanıyıram, həm də əsərlərini diqqətlə oxuyaraq onun mülahizələrinə, düşüncələrinə yaxından bələd olmuşam. Onun hələlik sonuncu olan fundamental «Azərbaycan mühacirət mətbuatında publisistika» (1921-1991) monoqrafiyasını redaktə edərkən, Dövlət Universitetində həmin əsərin geniş müzakirəsində olarkən də bu qənaətdə olmuşam. O, Azərbaycan mühacirət mətbuatının ən sanballı əsərini ortaya qoymaqla bir sıra məsələlərin ilk dəfə elmi-nəzəri qiymətini verir. Belə ki, Azərbaycan mühacirətinin siyasi ideyaları, kültür siyasəti, milli dövlətçilik uğrunda mübarizəsi, onların həyat salnaməsi Abidin əsərində sərgilənir. Onun Azərbaycan mühacirət mətbuatının çoxçeşidli mənzərəsini işıqlandırması bu baxımdan diqqətəlayiqdir və gələcəkdə şübhəsiz ki, yeni tədqiqatlara təkan verəcəkdir. Odur ki, Abid müəl-

limin müəyyənləşdirdiyi və təsnifat verdiyi mühacirət mətbuatına diqqət yetirmək hər birimizin vətəndaşlığına və elmi-nəzəri axtarışlarına bağlı bir məsələdir. Abid öz tədqiqatında Azərbaycan mühacirət mətbuatından danışaraq bildirir ki,

- Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsindən sonra yaranan ilk satirik nəşr - «Molla Nəsrəddin» jurnalı (Təbriz, 1921). Jurnal kifayət qədər araşdırıldığından, tədqiqat işində bu nəşr barədə geniş bəhs edilməsi məqsədəmüvafiq sayılmamışdır.

- Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəni tərk etməyə məcbur olan mühacirlərin siyasi nəşrləri - «Yeni Qafqasiya» (1923-1927), «Azəri-türk» (1928-1930), «Yaşıl yarpaq» (1928), «Odlu yurd» (1929-1931), «Bildiriş» (1930-1931). 1923-1931-ci illərdə işıq üzü görən bu orqanları şərti olaraq İstanbul nəşrləri adlandırmaq olar. «Azərbaycan» (Paris, 1926).

- Azərbaycan mühacirlərinin elmi-nəzəri-mədəni nəşri «Azərbaycan yurd bilgisi» (1932-1934 və 1954).

- 1930-cu illərin Azərbaycan mühacirət mətbuatı: («İstiqlal» qəzeti (1932-1934), «Qurtuluş» jurnalı (1934-1939), «Milli Azərbaycan Müsavat Xalq Firqəsi» bülleteni, №1, 1936). Bunlardan başqa, həmin dövrdə 1-2 nömrəli çapdan çıxan məcmuələr: «Açıq söz» (1936, 2 nömrə), «Kutlu od» (1936-1937, 2 nömrə), «Aydın yol» (1937, 1 nömrə), «Doğru söz» (1937, 2 nömrə), «Vətən diləyi» (1937, 2 nömrə), «Milli atəş» (1938, 1 nömrə) , «Millət andı» (1938, 1 nömrə), «Yasamız» (1938, 1 nömrə), «İlham qaynağı» (1938, 1 nömrə), «Müqəddəs odlar ölkəsi» (1938, 1 nömrə), «Haqqın səsi» (1938, 1 nömrə), «Dilək» (1939, 4 nömrə), «Haqq» (1939, 1 nömrə), «Həmlə» (1939, 1 nömrə).

- İkinci Dünya müharibəsi dövründə legionerlərin Berlin nəşrləri: «Azərbaycan», «Hücum», «Milli birlik» (1943-1945).

- 1950-80-ci illərin mühacir nəşrləri: «Azərbaycan» (1952, Ankara), «Azərbaycan» (1952, Münhen), «Mücahid» (1955), «Türk yolu» (1951), «Ərqənəqon yolu» (1951), «Türk izi» (1951) və s. - 1980-ci illərin ikinci yarısından nəşrə başlayan mətbuat: «Ana dili» (Bonn), «Odlar ölkəsi» (Edinburq), «Dədə Qorqud» (İspaniya), «Qürbət» (Brüssel), «Aydınlıq» (London), «Azərbaycan türkləri», «Xəzər» (İstanbul), «Azərbaycan» (Stokholm), «Azərbaycan» (Vaşinqton), «Araz» (Lund, İsveç), «Azər» (Berlin), «Savalan» (Berlin), «Ərk» (Almaniya), «Ziya» (Moskva), «İnam» (Sankt-Peterburq), «Savalan» (Dnepropetrovsk), «Millət» (Simferepol), Araz (Kişinyov) və s.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə (1991-ci ildən) nəşr olunan mətbu orqanlar. Bu dövrdə ABŞ, Rusiya Federasiyası, Ukrayna, Almaniyada bir sıra mühacir nəşrlər fəaliyyət göstərirlər.

Bunlar Azərbaycanın mədəni-mənəvi sərvətidir və dünyada xalqımızın müasir sivil normalara layiq imicini yaratmağa xidmət edənlərin işinin nəticəsidir. Onlarla bizi ilk dəfə Abid hərtərəfli tanış edir. Sovet hakimiyyəti illərində, totalitar rejim dövründə dəmir pərdələr arxasında qalan, bələ deyək, «dünyanın o biri üzündə bizim üçün yaşayanlarla» Abidin əsəri sayəsində ünsiyyət qura bilirik. Abid müəllim indi ömrünün müdriklik çağını yaşayır və elmə, sənətə, ədəbiyyata, milli jurnalistikamıza dərindən bələd olan bir alim kimi, söz səlahiyyətlisi kimi tanınır. Çünki o irs-varislik əlaqəsinə və halal zəhmətinə güvənən bir həmkarımız, aydın sabahlara doğru yol gedən ziyalı alimimiz, vətəndə və qürbətdə yaşamasından asılı olmayaraq hər zaman Azərbaycana bağlı duyğuların yaratdığı «mənlik» şüurunun daşıyıcısıdır. Odur ki, bu yubiley günlərində, ömrünün 50-ci aşırımında ona dostları, həmkarları adından ən gözəl günləri, can sağlığı və uğurlu axtarışları mən arzulayıram.

"Ədəbiyyat" qəzeti, 2 dekabr, 2005-ci il.

AZƏRBAYCAN ELMİ HAQQINDA DƏYƏRLİ KİTAB

Azərbaycanın maddi və mənəvi sərvətləri sırasında ən qiymətlisi onun insanı, vətəndaşıdır. Ən qədim dövrlərdən günümüzədək kamilləşən soydaşlarımızın elmə, sənətə yüksək qiymət verməsi isə onun ictimai dəyərini daha da artırmaqdadır. Bu həm də onunla ölçülür ki, Azərbaycan insanı özünü dərk etdiyi gündən ətrafını, təbii və ictimai mühitini, onu əhatə edən flora və faunanı da öyrənməyə böyük maraq göstərib. Nəticədə Azərbaycan ictimai şüurunda və elmi fikrində çoxsaylı nəzəri konsepsiyalar, sənət məktəbləri, rəngarəng estetik prinsiplər, meyarlar və s. formalaşıb. Ən qədim dövrlərin «çadır mədəniyyəti»ndən günümüzün kompüter gerçəkliklərinədək tərəqqi yolu keçən elm Azərbaycanda daima dəyişən və yeniləşən dünyaya açar rolunu oynayıb, insanın içi və çölü haqqında çoxsaylı araşdırmaların, elmi-nəzəri qənaətlərin əldə edilməsinə meydan açıb, dünyanın dərkolunmazlığı haqqında mifik-mistik görüşləri dağıdıb, «40-cı otağın sirlərini» faş edib.

Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının «Elm» nəşriyyatı tərəfindən nəşr olunan «Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (Az DETİ) adlı kitab həmin həqiqətlərə aydınlıq gətirən ciddi elmi-nəzəri araşdırmanın məhsuludur. Azərbaycanda elmin və elmşünaslığın inkişafı tarixinə dair zəngin məlumat verən, onun təkamül yolunu işıqlandıran bu akademik nəşrin müəllifi t.e.n. Zemfira Əli qızı Hacıyevadır. Kitabda göstərilir ki, «Azərbaycan ərazisi şüurlu insanın ilkin meydana gəlmə və bəşər sivilizasiyasının təşəkkül ocaqlarından biridir. Hələ ən qədim zamanlarda Azərbaycan ərazisində – qədim Manna, Midiya, Qafqaz Albaniyası-Ağvan) dövlətlərində elmi biliklərin, yazı mədəniyyətinin ilk rüşeymləri yaranmış, burada antik yunan alimlərinin əsərləri öyrənilmiş, bədii sənət növləri, memarlıq inkişaf etmiş, irriqasiya sistemləri yaradılmış, qala və qüllələr inşa edilmişdir.

Orta əsrlərdə Ərəb Xilafəti də elmin inkişafına güclü təkan vermişdir. Öz mahiyyətinə görə elm həmişə beynəlmiləl olmuş və bu, xilafət dövründə xüsusilə hiss edilmişdir. Ərəb Xilafətinin idarəçiliyi altında olan böyük ərazidə yaşayan xalqların ünsiyyəti və qarşılıqlı zənginləşməsi güclənmiş, iqtisadiyyat, ölkələr arasında ticarət və mədəni əlaqələr genişlənmiş, coğrafiya, riyaziyyat, astronomiya, təbabət, fəlsəfə və digər elm sahələrində biliklər inkişaf etmişdir. Bunu isbatlanmaq üçün Əbu Əli ibn Sina, Nizami Gəncəvi, Bəhmənyar, Xaqani Şirvani, Xətib Təbrizi, Nəsrəddin Tusinin adlarını xatırlamaq kifayətdir. XIII əsrin ortalarında Cənubi Azərbaycanın Marağa şəhərində Tusi məşhur rəsədxananı yaratdı. İri elmi mərkəzə çevrilmiş Təbriz şəhəri XIV əsrin əvvəllərində tədris, tibbi və elmi müəssisələrin, rəsədxananın olduğu bir şəhər kimi tanınırdı. Bura təbiətşünaslığı, təbabəti, astronomiyanı, tarixi, fəlsəfəni, məntiq və şəriət elmini öyrənmək üçün bir çox ölkələrdən alimlər və minlərlə tələbə axışıb gəlirdi. Bu elmi mərkəzin kitabxanası Misir və Yunanıstan, Hindistan və Çin, İran və Azərbaycandan, habelə digər ölkələrdən olan böyük sayda əlyazmaya malik idi. Müasir elmi mərkəzlər üçün örnək olmuş bu elmi şəhərcik «Dar əş-şəfa» - «Şəfa evi» adı almışdı. Adından göründüyü kimi, əcdadlarımız insanların istər mənəvi, istərsə də fiziki şəfaət tapmasını elm və biliklərlə əlaqələndirirlər».

Kitab bir neçə cəhətdən maraq doğurur. Əvvəla, Azərbaycan elmi və elmşünaslığının tarixi qaynaqlarını araşdırmaq və isbatlamaq baxımından. İkincisi, Azərbaycan elminin institusional xarakterini izah etmək, onun təcrübi əsaslarını akademik səviyyə ilə əlaqələndirmək baxımından. Üçüncüsü və ən əsası Azərbaycanda Elmi İrsin toplanması

və sistemləşdirilməsi baxımından. Dördüncüsü, kitabın qiymətli cəhəti kimi onu demək lazımdır ki, bu nəşr «toplanmış və sistemləşdirilmiş elmi irs»i dünya elminə inteqrasiya niyyəti güdür və bu səbəbdən rus dilli mətnlə müşayiət olunur.

Əsərin elmi-nəzəri əhəmiyyəti, zəngin informasiyanı özündə əks etdirməsi, akademizmi, geniş oxucu kütləsini nəzərdə tutması kimi səciyyəvi cəhətlərindən geniş danışmaq olar. Lakin diqqətəlayiq odur ki, kitab Azərbaycan elminin konkret zamanda (1929-1932) təşkilatlanması, milli kadr potensialının formalaşması haqqında dolğun məlumat verir. Elə burada qeyd etmək yerinə düşür ki, kitabın «Əlavələr» adlanan hissəsində AzDETİ-nin kadrları, habelə bütövlükdə Azərbaycan elminin inkişafında əhəmiyyətli rol oynayan şəxsiyyətlər haqqında qısa bioqrafik məlumatın verilməsi də xüsusi maraq doğurur. Burada Ruhulla Axundov, Aleksandr Vasilyeviç Baqri, Mixail Vasilyeviç, Barinov, Mixail Vasilyeviç Brjezitski, İshaq Cəfərzadə, Bəkir Çobanzadə, Sadıq Dadaşov, Mustafa Əfəndizadə, Ələsgər Ələkbərov, Əli Nazim, Şamil Əzizbəyov, İbrahim Eminbəyli, İvan Fiqurovski, Vəli Xuluflu, Üzeyir Hacıbəyov, Juje Panteleymon Kresteviç, İsmayıl İsmayılov, İbrahim İsmayılzadə, İvan Karyagin, Aleksandr Qrossgeym, Aziz Qubaydullin, Müslüm Maqomayev, Xudadad bəy Məlik-Aslanov, İvan Meşşaninov, Qəzənfər Musabəyov, Həsənağa Mustafayev, Hacıbaba Nəzərli, Yevgeni Lakomov, İlya Petruşevski, Əhməd Rəcəbli, Sabsay Pyotr Vladimiroviç, Salman Mümtaz, Həmid Sultanov, Vladimir Tixomirov, Aleksandr Tuqanov, Ələsgər Şahbazov, Zöhrə Şahtaxtinskaya, İbrahim Vəkilov, İosif Yesman, Pavel Zdrodovski və başqalarının haqqında verilən bioqrafik məlumat belə bir qənaəti də söyləməyə əsas verir ki, sovet hakimiyyətinin ilk illərində, xüsusən də kollektivləşmə dövründə böyük çətinliklərlə də olsa Azərbaycan elmi həmin şəxslərin xidməti sayəsində təşkilatlana bilib. Bu

təşkilatın gördüyü işlərin nəticəsidir ki, sonralar SSRİ EA-nın nəzdində Azərbaycan filialını və II Dünya müharibəsi başa çatan kimi Azərbaycan Elmlər Akademiyasını yaratmaq mümkün oldu.

Diqqətəlayiq məqamlardan biri də ondan ibarətdir ki, kitabın müəllifi Zemfira xanım Hacıyeva Az. DETİ-nin yaranmasını mövcüd ictimai-siyasi və ədəbi-mədəni mühit kontekstində araşdırır, qarşıya çıxan obyektiv və subyektiv çətinliklərin tarixi səciyyəsini müəyyənləşdirir. O göstərir ki, «Az.DETİ respublikada elmi fəaliyyətin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə məşğul olmaqla yanaşı, yerli istehsal qüvvələrinin öyrənilməsini və mərkəzi ümumittifaq elmi idarələrin qarşıya qoyduğu ayrı-ayrı vəzifələrin icrasını təmin etməli idi. Ümumiyyətlə, müttəfiq respublikalarda elm tətbiqi səciyyə daşıyırdı. Bunun obyektiv və subyektiv səbəbləri mövcud idi.

Obyektiv səbəblər: zəif maddi baza (təcrübi-eksperimental, təcrübi-sənaye müəssisələrin, iri laboratoriyaların yoxluğu), mövcud laboratoriyaların köhnəlmiş avadanlığı, ölkədəki həyat səviyyəsinin ümumi geriliyi ilə bağlı tədqiqatların yetərincə maliyyələşdirilməməsi, elmi işçilərin əməyinin əhəmiyyətsiz dərəcədə stimullaşdırılması. Subyektiv səbəblərə isə elmi kadrların, ilk növbədə, milli kadrların azlığını, respublikanın ali təhsil ocaqlarında gənc kadrların aşağı səviyyəsini, respublika, yaxud SSRİ siyasi rəhbərliyinin elmi səciyyəli bir çox məsələlərin mövcud həll praktikasın, habelə kommunist ideologiyasının təzyiqi altında daha da dərinləşən (əsasən də hüquqi, iqtisadi, tarixi-etnoqrafik, filoloji elmlərdə) ümumittifaq əhəmiyyətli elmi mövzuların tədqiqinə Azərbaycan alimlərinin yetərincə cəlb edilməməsini və s.»

Ümumiyyətlə Azərbaycanda elmi işin təşkilatlanması tarixinə fakt, sənəd, hadisə, arxiv materialları vasitəsilə işıq salan kitabda AZ.DETİ-nin yaranması, məqsəd və vəzifələri, strukturu, fəaliyyət istiqamətləri, Azərbaycanın maddi

sərvətləri və xammal ehtiyatları, habelə tarixi və mədəniyyətinin öyrənilməsindəki rolu barədə gen-bol məlumat verilir. Bu isə kitabın Azərbaycan elminin müxtəlif sahələrini əhatə etməsi ilə bilavasitə bağlıdır və əsərə ensiklopedik səciyyə də əlavə edir.

Əsərin bir cəhətini də ayrıca vurğulamaq lazımdır ki, çoxsaylı elmi mənbə və faktlar əsasında yazılan bu əsəri həm elmlə məşğul olanlar üçün, həm də Azərbaycan ictimai-tarixi həqiqətləri ilə maraqlananlar üçün etibarlı bələdçi kimi qiymətləndirmək olar.

"Azərbaycan" qəzeti, 25 aprel 2009-cu il

YADİGAR YAZI, YAXUD FİLOSOF SAKİT BUDAQLI HAQQINDA BİR NEÇƏ KƏLMƏ

Yazılan hər bir söz yaxın və uzaq tarixə ünvanlanan həqiqətdir. Onun içində tale yaşantıları, hikmət və məntiq olanda daha aydın və parlaq olur, yadda qalır, yaddaşlarda yaşayır. Lakin hər kəs və hər şey haqqında yazmaq, söz söyləmək çətin və ağırdır. Çünki, sözün əsli, mayası haqdır, onsuz yazılanlar az müddətdən sonra payız vaxtı xırman üstə yığılan quşlar kimi uçub gedir və yerdə yalnız ömür-gün bərəkəti qalır.

Hər bir şəxsiyyətin həyatı nümunəsində bunu görmək mümkündür. Xüsusən də ömrünü elmə, maarifə, ailəsinə, dostlarına, millətinə, vətən və dövlətinə həsr etməyi özünə şərəf bilən, bunu şüarda, vəddə deyil, gündəlik işində, əməllərində gerçəkləşdirən insanların taleyi təsdiqləyir. Ona görə ki, belə insanlar öz ailəsini, cəmiyyətini, ictimai mühitini qurmaq-yaratmaq ideyasını sadəcə həyat normativi bilmir, həm də bu işdən həzz alır, gördüyü işin zövqü ilə yaşayır, başqalarının da bu hissi, məfkurəni qorumasını vacib bilir, ətrafındakılara nümunə olur və inanır ki, bu yol çətin olsa da xaqlın yüksəlişi, ailənin və millətin özünütəsdiq yoludur.

Sakit müəllimi uzun müddətdir ki, tanıdığımdan birmənalı deyə bilərəm ki, o hansı məqamda, mərtəbədə, vəzifə və işdə olmasına baxmayaraq həmişə insanlıq – vətəndaşlıq meyarına arxalanıb, özünün və dostlarının ailə və cəmiyyət adamı kimi tanınmasına çalışıb, onlara mənəvi dəstək verməkdən həzz alıb. Onun fəlsəfə sahəsində çalışmasından əlavə həm də təbiətindəki filosofluq, bir qədər də dəqiq desəm klassik Şərq kişilərinə xas müdriklik mənə çox mətləblərdən danışmağa əsas verir.

Bu gün Azərbaycan elmi-ictimai mühitində tanınan və

təqdir olunan S.Budaqlını 1980-ci illərdən tanıyıram və bu müddət 20 ildən artıqdır. Azərbaycan Milli Elmlər Akademiyasının əyani aspirantı olduğumuz günləri xatırlayır, onun ilk günlərdən filosofanə davranışı ilə ətrafdakı adamlarda rəğbət doğurduğunu qeyd etmək istəyirəm.

Aspirantura illərində və sonralar Sakit işə, zəhmətə dözümü ilə bizi heyrətləndirərdi. Onun diqqəti çəkən və ciddi maraq yaradan bir xüsusiyyəti də bundan ibarət idi ki, Sovet dövründə qadağan olunan, tənqid edilən, adı az çəkilən filosofların irsinə müraciət edər, bizi də onları oxumağa həvəsləndirərdi. O Sovet dövründə yalnız materialist marksist-leninçi filosofları deyil, eyni zamanda «ağacın barsız çiçəyi» hesab edilən idealist filosofları da təfərrüatlı öyrənir, konkret elmi mülahizələr söyləyir, müasir Qərbin və Amerikanın, eləcə də Şərq klassiklərinin fəlsəfi irsinə ardıcıl münasibəti ilə seçilirdi. O kommunist ideologiyasının yasaq bildiyi Qərbin burjua fəlsəfəsi, etika və estetikasına bələd olmağı dünyanın bütöv dərki kimi qiymətləndirir, filosofların ənənəvi siyahısına Covanni Centilen, Fridrix Hayek, Hanna Avendt, Barriton Mur, M.Xeber, A.Tokvil,İ.P.Sartr, A.Berqson, A.Şlesinqer, M.Rokar, T.Karleyl, R.Nibur, Y.Xabermas, X.Orteqa-i-Qasset, D.Talmon, Robert Dal və onlarla başqalarının da adını əlavə edərək bildirirdi ki, yalnız dünyanın tanınmış filosof, sosioloq, psixoloq, politoloqlarını, elmi-ictimai fikir adamlarını dərindən öyrənməklə sovet rejiminin formalaşdırdığı təfəkkür prinsiplərini dəyişdirmək, azad, demokratik cəmiyyət, müstəqil dövlət barədə fikirləşmək olar. Sakit inanırdı ki, fikrən, mənən azad olmayan insan və xalqlar heç vaxt müstəqil ola bilməz. Sovet dövründə yaşadığımız ümummilli arzular və çağdaş istiqlal həyatımızın problemlərindən baxanda o vaxt gənc olan, indi 50 yaşlı filosof qardaşımızın müdrikliyinə bir daha inam gətirirəm.

O yalnız elmi, savadı ilə deyil, həm də taleyi, təbiəti,

genetik imkanları ilə fəlsəfənin adamıdır. Fəlsəfədə atropoloji cərəyana xas olan məşhur bir tezis var: «İnsan hər şeyin meyarıdır». S.Budaqlının intellektual yetkinliyi və şəxsiyyət göstəriciləri onu həmin mərtəbəyə yüksəltdiyindən dostları, o cümlədən biz qürur duymuşuq ki, təbiət, cəmiyyət və idrak problemlərini həll etməkdə çətinliyimiz yoxdur, çünki yanımızda Sakit var. Fikrimi bilərəkdən bu şəkildə ifadə edirəm. Ona görə ki, Sakit təfəkkür universallığını özündə ehtiva edən, hər kəsə böyük hərfli İNSAN mövqeyindən yanaşmağı bacaran və bunu əxlaq kodeksi kimi yaşayan bir şəxsiyyətdir. İndiyə qədər tanış olduğum şəxsi keyfiyyətləri, elmi-nəzəri yazıları, praktik davranışı mənə əsas verir ki, onun kimliyi haqqında qürurla danışım. Sakitin «Praktiki – dəyişdirici fəaliyyət və sosial tərəqqinin sürətləndirilməsi dialektikası» mövzusunda dissertasiya müdafiə etməsi (1991) və Azərbaycan elmi-nəzəri fikrində özünəməxsus yer tuta bilməsi onun illərlə apardığı tədqiqat işinin və halal zəhmətinin bəhrəsidir. Onun yazıları təsdiq edir ki, tərəqqinin, intibahın sosial-siyasi islahatların, cəmiyyətin yeniləşməsinin və sivil normalara uyğunlaşmasının tərəfdarıdır. Filosof-alimin «Totalitar idarəetmə prinsiplərindən demokratik idarəetmə prinsiplərinə keçidin xüsusiyyətləri», «Vətəndaş cəmiyyətində və hüqqui dövlətdə siyasi partiyaların rolu», «Totalitarizmin mahiyyəti», «İdarəetmənin sosial-dəyişdirici mahiyyəti» və başqa əsərlərində Azərbaycan cəmiyyəti və dövlətinin son dövrlər təcrübəsi əsas götürülür, millimədəni tərəqqinin, idarəçilik işinin sosial-fəlsəfi mahiyyəti aydınlaşdırılır.

Sakit müəllim 1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Fəlsəfə və sosial psixologiya» kafedrasında çalışır. Bundan əvvəl 1994-1999-cu illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun «Sosiologiya» kafedrasında əvvəlcə baş müəllim, sonra isə dosent vəzifəsində işləmişdir.

O, fəlsəfə və sosiologiya sahələri üzrə 18 nəşr olunmuş elmi məqalənin, o cümlədən «Sosiologiya», «Beynəlxalq münasibətlərin sosiologiyası» və «Azərbaycanın ictimai-siyasi fikir tarixi» fənləri üzrə tədris proqramlarının müəllifidir.

Tədris etdiyi «Fəlsəfə», «Sosiologiya», «Azərbaycanın ictimai-siyasi fikir tarixi» fənlərini müasir elmi-metodik tələblər səviyyəsində aparan və həmişə öz üzərində çalışan bir pedaqoqdur.

Sakit DİA-nın elmi və ictimai həyatında fəal iştirak edir. O, DİA-nın Tədris-islahat komissiyasının üzvü, «Siyasi idarəetmə» fakültəsinin müəllim-işçi həmkarlar təşkilatının sədri, Magistraturada məsləhətçi-metodist kimi ictimai işlərdə çalışıb.

Sakit Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin, Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin alimlərinin birgə hazırladıqları «Sosiologiya» və «Politologiya» dərsliklərinin müəlliflərindən biri olub.

2004-cü ilin sentyabrından Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Siyasi İdarəetmə fakültəsinin dekanı vəzifəsində çalışır.

Sakiti tanıdığım gündən onun sakit, təmkinli təbiətində daxili sərbəstliyə, müstəqil fikir və mövqeyə güclü meyl gördüm. İstər elmi axtarış zamanı, istərsə də ictimai mülahizə və davranışlarında o heç kəsin təsirinə düşmədi, adi söhbətlərimizdə bacarığı, ətrafındakıları inandırmaq qüdrəti onu başqalarından həmişə fərqləndirib. SSRİ-nin dağıldığı dövrlərdə yaranan sosial-psixoloji təzadlar, metamarfozalar zamanında da Sakit milli tarixi ənənəyə istinad etməsi, tarixi şəxsiyyətlərin rolunu qiymətləndirməsi, milli kimlik hissinə sadiqliyi ilə özünün mövqeyini qoruya bildi, elmi axtarışları və publisistik yazılarında ümumxalq mənafeyinini hər şeydən uca tutmağı bacardı. Heç şübhəsiz ki, bunun əsasında

zəngin intellektual dəyərlər, həyat təcrübəsi və bir də genqan yaddaşı dayanır. Təsadüfi deyil ki, Sakit tarix fəlsəfəsinə mühüm qiymət verir, xalqın həyat təcrübəsinə arxalanmağı ən etibarlı mövqe və meyar bilir. Bu mənada Azərbaycanın istiqlal mübarizəsi tarixinə istinad etmək onun üçün başlıca şərtdir. Belə olduğuna görədir ki, «Biz keçmişin xərabələri üzərində gələcəyin qəsrini tikəcəyik» söyləyən Ş.M.Xiyabaninin elmi irsinə və mübarizə təcrübəsinə istinad etməklə yanaşı Sakit müəllim həm də onun sələfləri, müasirləri və silahdaşları olan Səttar xan, Bağır xan, Əli Müsyö, Heydər Xan Əmioğlu, Hacı Mehdi Kuzəkənani, Hüseyn Bağban, Hacı Əli Davaçı, Kirmanşahlı Yarməhəmmədxan, Hacı Məhəmməd Mirab, Məşədi Məhəmməd xan, Kərim Əsgəndani kimi şəxsiyyətlərin, azadlıq mücahidlərinin, xalq fədailərinin ömür-gün, tale həqiqətlərini dərindən öyrənməyi tövsiyyə edir. Səttar xan, Bağır xan, Ş.M.Xiyabani, S.C.Pişəvəri kimi milli azadlıq qəhrəmanlarının taleyini hər bir Azərbaycan vətəndaşının kimliyində axtaran filosof-müəllim Sakit Budaqlı vətən amalı, vətəndaş məqsədi barədə düşüncələrində Ş.M.Xiyabaninin «Bir millətin şərəfli olması üçün birinci şərt onun istiqlaliyyətidir» fikrini tez-tez xatırladır, azad-hürr olmağın zövqünü yaşamağı, hər bir Azərbaycan vətəndaşının haqqı sayır. Sakitin «Səttar xan sərdari-milli» («De faktor» qəzeti, 9, 17 oktyabr 1997-ci il), «Sərdari-milli Səttarxanın silahdaşları» («De fakto» qəzeti, 31 oktyabr, 14 noyabr 1997-ci il), «Xiyabani bu gün də Azərbaycanı istiqlala səsləyir» («De fakto» qəzeti, 28 noyabr 1997-ci il) kimi məqalələrində onun öz vətəndaşlıq mövqeyi və prinsiplərini aydın müşahidə etmək mümkündür.

Xalqının təfəkkürü və həyat təcrübəsinə kompleks şəkildə yaşadığına görədir ki, S.Budaqlı taleyüklü məsələlərdən danışanda birmənalı fikir söyəlyir, konkret tələb və təklifini cəmiyyətə bəyan edə bilir. Sakit bir filosof və müəllim kimi insanın daxili zənginliyi və tükənməzliyi, tarixi təcrübə-

nin və ənənənin etibarlığı ideyasını qoruyur. Elə buna görə də milləti, dövləti və vətəni ilə bağlı qayğılarını həmin tələblərlə şərh edir, milli genefondun bərpası imkanlarını cəmiyyət miqyasında gerçəkləşdirməyi vəzifə bilir. Xalq və cəmiyyət problemlərini həll etməyi vacib, təxirəsalınmaz vəzifələrdən hesab edən filosof S.Budaqlı Azərbaycanın qurtuluşu, xilası və dirçəlişi konsepsiyasına haqq qazandıraraq belə bir fikri xüsusi vurğulayırdı ki, «əgər yaxın vaxtlarda təcili və təsirli tədbirlər görülməzsə, Azərbaycan xəstə bir cəmiyyətə çevrilə bilər. Beləliklə, alimlərin və mütəxəssislərin həyəcanı sübut edir ki, gələcəkdə milli genefondun bərpası imkanı şübhə altında qala bilər.

Ən başlıca problem ondan ibarətdir ki, bu gün çoxlu qanlar və qurbanlar hesabına müstəqillik əldə etmiş və başı üzərindən Demokl qılıncı asılmış Azərbaycan özünün çətin günlərini yaşayır. Bildiyimiz kimi, torpaqlarımızın işğalında hakimiyyət uğrunda gedən çəkişmələrin, xainliklərin və satqınlıqların rolu az olmamışdır. Bu proseslərdən istifadə edən düşmənlərimiz isə Azərbaycanı yenidən parçalayaraq diz çökdürmək istəyir. Ona görə də «olum və ya ölüm» dilemması qarşısında qalan Azərbaycanı bu problemlərdən yalnız milli birliyimiz xilas edə bilər. Milli birliyə isə ziyalıların, millətsevərlərin və vətənsevərlərin birləşməsi əsasında nail olmaq olar. Tarixən bütün ölkələrdə həmişə Vətənin və torpağın ağır günlərində birləşən milli qüvvələr onu xilas etmişlər. Əgər bu çətin və ağır yolda milli birliyə nail ola bilməsək, onda bizi Ulu Atatürkün dediyi kimi»Milli birliyə nail olmayan milləti başqalarına şikar olmaq qisməti gözləyir». («De fakto» qəzeti, 26 sentyabr 1997-ci il)

Bu sitatın davamı kimi elmi-nəzəri məqalələrində söylədiyi fikirləri ilə gerçək həyatındakı prinsiplərin vəhdətini yaşayan S.Budaqlının şəxsiyyəti və xaraketrindəki bir keyfiyyət məqamını nəzərə çatdırmaqla fikrimi tamamlamaq istəyirəm. Yaxın yay günlərinin söhbətidir. Dostlarla dəniz

kənarında dincəlir, həmişə olduğu kimi romantik fikirlərə dalır, həyat və ölüm, xeyir və şər, ölkə, vətən, övlad, əbədiyyət barədə arzu və istəklərimizi bölüşürdük. Qəflətən dostlardan biri sövq-təbii dilləndi ki, «Yaxın vaxtlarda Sakit müəllimin 50 yaşı tamam olur». Həm fərəhli, həm də ömrün ikinci böyük mərhələsi haqqında xəbər idi. Dostlar xüsusi şəkildə qeyd etməyə qərarlaşdı. Mən isə bir yazı yazacağımı dedim. Sakit özünəməxsus təvazökarlıqla «mən nə etmişəm ki, yazasan» – deyə dilləndi. Mən «bu da məndən bir yadigar yazı olar» – deyib ona yaxşı bildiyi bir folklor materialını xatırlatdım. Orada söylənir ki, «Uzaq dağ kəndlərinin yanından iki çay axırmış. Bir kəndin yanından bol sulu, digər kəndin yanından isə sısqa, kiçik çay axırmış. Kiçik çay yayda quruyar, yazda qar əriyəndə, payızda yağışlar yağanda suyu artarmış. Lakin bu kəndin əhalisi vaxt və zamandan asılı olmayaraq, çay susuz olanda da şalvarının ayaqlarını çatlayar, çırmanıb çaydan keçərmişlər. Suyu çox olan çayın yanındakı kəndin adamları soruşanda ki, niyə belə edirsiniz? Onlar cavabında «Bizim çayı özümüz böyütməsək, kimsə böyütməyəcək» – deyə bildirərmiş. Mənim bu xatırlatmamdan sonra Sakit razılıq əlaməti olaraq sakitcə gülümsədi və bizdən sonra dostlara, övladlarımıza, eləcə də özünü Azərbaycanda elmə, maarifə, mədəniyyətə meylli qədirşünas insanlara qalacaq bu yadigar yazı meydana gəldi.

"Yeni Azərbaycan" qəzeti, 4 iyul, 2005-ci il

ƏDƏBİYYATŞÜNASLIĞA YENİ TÖHFƏ

XX əsrin əvvəllərindən satira, satirik ədəbiyyat, satirik sənətkarlarımızın bədii nəsrin çeşidli janrlarında yazdıqları əsərlər, satirik mətbuat ədəbiyyatımızın vacib problemləri kimi alimlərimizin diqqət mərkəzində olmuşdur. Müstəqillik dövründə bu problemlərin işlənilməsinə daha çox ehtiyac duyulur. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin formalaşması elmi və ictimai fikir tərəfindən haqlı olaraq təsdiq edilir, ədəbiyyatşünasların nəzərində birmənalı şəkildə intibah dövrü kimi qəbul olunur. Ədəbi prosesdə baş verən yeniləşmə nəzəri məsələlərin qoyuluş və təhlil metodologiyasında da müşahidə olunur. Lakin yeniləşmə heç də bədii təfəkkürdə təsbitləşmiş klassik ədəbi ənənələrin inkarı yox, onların bu və ya digər istiqamətdə dəyişmələrə uğraması, təkmilləşməsi deməkdir. Ona görə də klassik və poetik vasitələrin XX əsr ədəbi prosesində davam etdirilməsi, hətta bu gün – XXI əsrin əvvəllərində də fayda verməsi təbii qəbul edilməlidir. Etiraf etmək lazımdır ki, Azərbaycan klassik nəsrində satira və yumordan, digər komizm vasitələrindən, gülüş üsullarından bəhs edilsə də bütövlükdə, 1920-ci ilə qədərki dövrün satirası bir mərhələ, problem kimi indiyədək ədəbiyyatşünaslığımızda sistemli şəkildə öyrənilməmişdir. Filologiya elmləri namizədi, dosent Baba Babayevin yeni nəşrdən çıxmış monoqrafiyasında («Azərbaycan realist nəsrində satira», Bakı, Elm, 2008) haqlı olaraq belə nəticəyə gəlir ki, XIX əsrdən başlayaraq XX əsrin əvvəllərində satira tam formalaşaraq yüksək mərhələyə çatmışdır. Ən kəskin satirik əsərlər də məhz bu dövrdə meydana gəlmişdir. Beləliklə, ədəbiyyatımızda sözün həqiqi mənasında satira məktəbi yaranmışdır. Monoqrafiyada Azərbaycan klassik ədəbiyyatında 1920-ci ilə qədər yazıb – yaratmış M.F.Axun-

dov, N.Nərimanov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli, A.Şaiq, S.S.Axundov, S.M.Qənizadə, T.Şahbazi, S. Hüseyn, B.Talıblı, Qantəmir və başqa yazıçıların satirik nəsr əsərlərindən bəhs edilir. Müəllif yeri gəldikcə Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir və başqa şairlərin satirik şeirlərinə də toxunubdur. Folklor və qədim dövr ədəbiyyatımızdakı bəzi satirik, yumoristik örnəklərə, komik xarakterli nümunələrə də nəzər salır. Tədqiqatçı satiranın keçdiyi inkişaf yolunun nisbətən geniş elmi mənzərəsini yaratmaq üçün XIX əsrin son rübündə yaranan satirik hekayələri də müqayisə məqsədilə xatırlayır.

Kitabda müəllif realist Azərbaycan yazıçı və şairlərinin əsərləri ilə yanaşı yeri gəldikcə şifahi xalq ədəbiyyatı nümunələrindən problemlə bağlı bədii faktları da tədqiqata cəlb edir, onlara yerli – yerində münasibət bildirir. Azərbaycan ədəbiyyatşünaslığının mövcud mərhələsində satira, onun komponentləri, «Molla Nəsrəddin» ədəbi məktəbi və yazarlarının ədəbi irsinin tədqiqi elmi maraq doğurur. XX əsrin əvvəllərində yaranan Azərbaycan ədəbiyyatının əsas inkişaf istiqamətlərindən birini «Molla Nəsrəddin» jurnalı və onunla bağlı olan ədəbi məktəb müəyyənləşdirirdi. Həmin məktəbin uğurları satiranın da ictimai məzmun və mündəricəsinin ideya – estetik rolunu artırdı. Tədqiqatda XIX əsrin sonu, XX əsrin əvvəllərində (1920-ci ilə qədər) yazıb – yaratmış sənətkarlarımızın satirik nəsrinin sənətkarlıq məsələlərindən də bəhs olunmuşdur. XX əsrin əvvəllərində ədəbiyyatımızda satira məktəbinin, satira və yumorun, onun tarixinin, poetik xüsusiyyətlərinin, mahiyyətinin, ayrı – ayrı janrlarda təzahür formalarının küll halında, elmi şəkildə öyrənilməsini vacib və gərəkli olduğu üçün tədqiqatçı bu məsələni önə çəkir və lazımı nəticələrə gəlir.

Tədqiqat işində 1917 – 1920-ci illərdə satira və satirik ədəbiyyatın inkişafı, özünəməxsusluğu və sənətkarlıq məziyyətləri də imkan daxilində araşdırılır. Çünki bu illər cəmiyyətdə ciddi ictimai – siyasi dəyişiklik baş vermişdir. Azərbayca-

nın Sovet imperiyası tərəfindən yenidən işğal olunmasından sonra kommunist rejimi ədəbiyyatın, ədəbiyyatşünaslığın inkişafına da əngəllər törətmiş, kəskin satirik ifşanı yasaqlamışdır.

Dissertant doğru vurğulayır ki, komikliyin əsasını xalq gülüşündən götürən Ə.Haqverdiyev, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli kimi realist sənətkarların yaradıcılığında bədii gülüş yüksək səviyyədə görünür. İstehza satirik əsərlərdə ikrahedici, öldürücü gülüşün ifadəsidir. Bütün dövrlərdə böyük satirik sənətkarlar istehzadan məharətlə, məqamında istifadə etmişlər. İstehzaya satirik şeirlərdə də çox rast gəlinir. Azərbaycan ədəbiyyatında folklorun ən qədim nümunələri olan atalar sözü və məsəllərdən gələn gülüş də satirik ruhu ilə maraq doğurur. Atalar sözü və məsəllərə həddqoymaq, dövrləşdirmək çətindir. Xalq gülüşünü doğuran satiranın geniş yayılmış janrlarından biri də təmsil və ictimai – siyasi, fəlsəfi anlam kəsb edən bayatılardır. Lətifə, təmsil və qaravəllilərdə olduğu kimi bayatılarda da istehza, kinayə, qamçılama, ələsalma, məsxərə, eyham, dodaqbüzmə, acılama kimi satiraya məxsus cəhətlər görünür.

Monoqrafiyanın ikinci fəslində Azərbaycan realist satirik nəsrinin təzahür formaları və yeni inkişaf mərhələlərindən bəhs edilir.

B.Babayev doğru olaraq qeyd edir ki, M.Füzuli ilə A.Bakıxanov və Q.Zakir arasındakı mərhələdə satirik poeziya yeni mərhələyə qalxır. A.Bakıxanov isə «Nəsihətnamə», «Əmələn cəzası», «Ümidin boşa çıxması» kimi əsərlərində əyanların riyakarlığını, böhtançılığını, yalançılığını ifşa edirdi. Alimin bu iddiası da haqlıdır ki, XIX əsr Azərbaycan ədəbiyyatında satira M.F.Axundova qədər, sözün həqiqi mənasında, Q.Zakir poeziyasında öz əksini tapmışdır. S.Ə.Şirvani də satirik şeirə mövcud nöqsanları aradan qaldırmaq, hər cür özbaşınalığı, riyakarlığı ifşa etmək işində tutarlı vasitələrdən biri kimi baxırdı.

Azərbaycan ədəbi fikrinin, milli düşüncə tərzinin inkişafında H.Zərdabi və onun «Əkinçi» qəzeti, S.Əzimlə yanaşı

N.Vəzirov da xüsusi xidmət göstərmişdilər. Əsərdə realist satirik nəsrdə M.F.Axundov ənənələri və yeni motivlərdən bəhs olunarkən B. Babayev qeyd edir ki, mütəfəkkir ədibin ənənəsindən faydalanan C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Talıbov, Z.Marağalı və başqa yazıçılar XIX əsrin sonlarından ədəbiyyata gəlməklə böyük sənətkarın satirik, yumoristik ənənələrini mənimsəyərək çeşidli bədii nümunələr yaratmışdılar.

Tədqiqatçının M.F.Axundov ədəbi məktəbinin nümayəndələri Ə.Talıbov və Z.Marağalının əsərlərinə müraciət etməsi də təqdir olunmalıdır. «İbrahim bəyin səyahətnaməsi», «Talibinin gəmisi, yaxud Əhmədin kitabı», «Xeyirxahlar yolu» əsərləri dediklərimə nümunədir. Köhnə, ənənəvi mövzunun yeni səpkidə işlənməsi, ədəbiyyata yeni ruhani tiplərin gətirilməsi, bədii nəticənin novator həlli baxımından Y.Vəzirin «Cənnətin qəbzi» (1909) hekayəsi haqqında söylənən nəzəri fikirlər də diqqəti cəlb edir.

XX əsrin əvvəllərində Azərbaycan ziyalılarını düşündürən, ədəbiyyatın əsas mövzusuna çevrilən problemlərdən biri də xurafatın, «mövhumatın şüuru necə zəhərləməsinin» (A.Şaiq) tənqidi idi. Bu mövzuda yazılan əsərlərdən, xüsusilə N.Nərimanovun «Pir» povesti və Ə.Haqverdiyevin eyni adlı hekayəsi tədqiqatda təhlilə cəlb olunur.

Müəllif belə qənaətdədir ki, C.Məmmədquluzadə və Ə.Haqverdiyevin «Molla Nəsrəddin»ə qədərki hekayələri təkcə kəskin ictimai həyat hadisələrini deyil, həm də canlı insan xarakterləri, gərgin bədii müqayisələr, məharətlə qurulmuş kompozisiya cəhətdən də diqqəti cəlb edirdi. Ancaq yenilik, əsasən, mövzularda, dil və üslubda satiranın bütün komponentlərindən yerində və məharətlə istifadədə idi. Bunlar C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.Vəzir, A.Şaiq yaradıcılığında müxtəlif şəkildə özünü biruzə verirdi.

Tədqiqatda B.Talıblının «Tövbə», «Erkək Tükəzban», «Dirək», T.Şahbazinin «Aleksandr Eyniç», «Südçü qız», «Şə-

kərəli çoban», «Aclar» hekayələri də «Molla Nəsrəddin»in təsiri ilə yazılan satirik ruhlu miniatur hekayələr kimi xarakterizə edilmişdir.

«Kövkəbi - hürriyyət», «Qonaqlıq» və «Tutu quşu» hekayələrini S.S.Axundov XX əsrin ilk illərində inqilabi hadisələrin abı – havasının təsiri ilə yazmışdır. Əsərdə satira və gülüşün çalar və özünəməxsusluqlarından da söhbət açılır. Monoqrafiyada «Bədii nəsrdə satira və gülüşün problematikası, mahiyyəti və poetik xüsusiyyətləri» fəslinin birinci bölməsində satirik nəsrdə ideya, mövzu, süjet, komikliyin və gülüş üsullarının mahiyyəti kimi məsələlərə toxunulur.

İdeya – məzmunda təzahür edən gülüşdən, o cümlədən əsərin bütövlükdə süjetini əhatə edən gülüşdən söhbət açdıqda C.Məmmədquluzadənin «Quzu» hekayəsi ən bariz nümunə kimi canlandırılır. B.Babayevin fikrincə, «Qurbanəli bəy» hekayəsində isə yazıçının bir məqsədi də baş qəhrəmanın xarakterik xüsusiyyətlərini açmaq, eybəcər, xəstə, həris mənəviyyatını səciyyələndirmək üçün nəsrimizdə diqqəti çəkən bir mülkədar tipi yaratmaq olmuşdur.

Satirik nəsr əsərlərində süjetin qurulması M.Cəlil yaradıcılığında məqsədəuyğun və düşünülmüş bir hadisədir. «Zeynal bəy», «Göbələk», «Qiraət», «Quzu» və s. satirik hekayələrdə böyüklü – kiçikli çoxlu əhvalatları cazibəli süjet vasitəsilə oxucuya çatdırılır. Müəlliflər süjetin maraqlı və təsirli çıxması üçün həyat həqiqətlərini yaxşı öyrənir, tipik hadisələri seçib mənalandırır, ümumiləşdirirdilər. «Quzu» hekayəsində ümumləşdirmələr elə ustalıqla aparılır ki, təfərrüat hiss olunmur. «Bomba» hekayəsində qorodovoyun gülünc aqibəti ilə onun təmsil olunduğu zümrənin iflası təmaslı şəkildə öz əksini tapır. B. Babayev doğru qənaətdədir ki, süjet və mövzu rəngarəngliyi M.Cəlilin, Ə.Haqverdiyevin, A.Şaiqin, Y.Vəzirin, S.Hüseynin, Ü.Hacıbəyovun həyatı çox yaxşı bildiklərini göstərən başlıca əlamətlərdəndir.

C.Məmmədquluzadə fərdi xüsusiyyətləri, ictimai mənşələri, eləcə də dünyagörüşləri ilə bir – birindən seçilən tiplər, xarakterlər yaratmışdır (Novruzəli, Xudayər bəy, Qurbanəli bəy, Məşədi Qulamhüseyn və b.). Tip yaratma prinsipinə gəlincə, yazıçı əsərlərinin ideya – istiqamətinə uyğun olaraq müsbət və ya mənfi tip seçir, onun fərdi və ümumi cizgisini müəyyənləşdirirdi.

Əsərdə obrazların gülünclüyü və situasiyanın komikliyi haqqında da danışılır. «Bomba», «Qiraət», «Diş ağrısı» və başqa hekayələri oxuyan oxucu həm təəssüflənir, kədərlənir, həm də gülür. Amma o da vurğulanır ki, bu gülüş kəskin bir silaha çevrilən mənalı gülüşdür.

Obrazların düşdüyü vəziyyətlərdən asılı olaraq yaranan gülüş Y.V.Çəmənzəminlinin «Cənnətin qəbzi», «Ağ buxaqda qara xal», «Mərsiyəxan» və s. hekayələrində də müşahidə olunur. Tədqiqat işində müəllif göstərir ki, bəzi yazıçılar hekayələrinə qoyduğu adlar da gülüş doğurur, komik təəssüratlar yaradır. Hekayələrin başlanğıc və sonluqları da bəzən gözlənilməzlikləri ilə komik effekt üçün zəmin, şərait yaradır. C.Məmmədquluzadə başda olmaqla müasirləri bu ənənəni davam etdirmişlər. «Danabaş kəndinin əhvalatları» («Eşşəyin itməkliyi») povesti, «Pirverdinin xoruzu», «Kişmiş oyunu», «Zırrama», «Saqqallı uşaq», «İki ər», «Zəlzələ» və s. hekayələr buna misal ola bilər. Hekayələri gözlənilməz komik sonluqla yekunlaşdırmaq da klassiklərimizə xas olan uğurlu sənətkarlıq xüsusiyyətlərdəndir. Monoqrafiyada Ə.Haqverdiyevin «Seyidlər ocağı», «Çeşmək», C.Məmmədquluzadənin «Dəllək», «Pirverdinin xoruzu», «Yan tütəyi», «Saqqallı uşaq», B.Talıblının «Xortdan», «Qırx zopa», «Xeyir iş», T.Ş.Simürğun «Məşədi Qədimin evində bədbəxtlik», Qantəmirin «Buğda quyusu» və başqa əsərləri gözlənilməz komik sonluqlarla yekunlaşdırılmış əsərlər kimi təqdim edilir.

«Satirik nəsrin sənətkarlıq xüsusiyyətləri klassiklərimizin diqqət mərkəzində olmuş, onlar məqamında bu üsuldan isti-

fadə etmişlər. Dildə sadəlik, millilik, danışıq dilini bütün gözəllikləri və incəlikləri ilə ədəbi dilə gətirmək, satirik, miniatür hekayəni, novellanı rəngarəng şəkildə yazmaq, surətlərin özünəməxsus yığcam dialoqunu vermək, şərhdən qaçmaq bu sənətkarların bədii xüsusiyyətləridir» - deyən alimin fikirləri inandırıcıdır.

Satirik üslubda poetik obrazlılıq yaradan əsas vasitələr komizm və kalamburdur. Bu vasitələrdən poeziyada Q.Zakir və M.Ə.Sabir, nəsrdə M.F.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev və b. yaradıcılığında kifayət qədər istifadə olunmuşdur. Komizmlər və kalamburlar bədii üslubda estetikanın eybəcərlik kateqoriyasına uyğunluq yaradır, acı istehza, sərt kinayə və sarkazm mahiyyəti daşıyır, cəmiyyətə zidd halların kökünü kəsmək işində qüdrətli ideya silahına çevrilir. Söz sənətində satirik əsər adlarının («Bomba», «Çeşmək», «Qurbanəli bəy», «Cənnətin qəbzi»), mənfi xarakterli adların (Xudayar, Baqqal, Kosa Baxşalı və s.), yer adlarının (İtqapan, Qapazlı, Qurdbasar, Qaraqılçıq, Danabaş, Dəccalabad və s.) əksəriyyəti komizm mahiyyətli olur, xalq arasında tez yayılır, işlənə – işlənə simvola çevrilir. B.Babayev bildirir ki, realist nəsrimizin ən seçmə nümunələrindən olan, təxminən eyni dövrü və ictimai mühiti təsvir edən «Allah xofu» (1906, S.M.Qənizadə), «Usta Zeynal» (1909, M.Cəlil), «Pir» (1913, N.Nərimanov), «Şeyx Şəban» (1915, Ə.Haqverdiyev) hekayələri ilə «Cənnətin qəbzi» arasında bir ideya – məzmun səsləşməsi mövcuddur.

Ə.Haqverdiyevin «Şair» hekayəsi ilə Y.Vəzirin «Şair» və «Mirzə Əbdülvahab» hekayələri arasında oxşarlıq görünür. Səsləşmələr hər üç əsərin portret – hekayə xarakterində, yumşaq yumorunda və təhkiyəsində müşahidə edilir. Y.Vəzirin «Ağsaqqal» (1910), «1905-ci il» (1910) hekayələri ilə C.Məmmədquluzadənin «İranda hürriyyət» (1906) əsəri arasında mövzu – ideya cəhətdən yaxınlıq və səsləşmələrin olması da tədqiqatçının inandırıcı qənaətlərindəndir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, XX əsrin əvvəllərində Azərbaycan yazıçıları hekayə janrına üstünlük verirdilər. Bu prosesdə xüsusi diqqət yetirdikləri bədii vasitələrdən biri də bədii detaldır. C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, A.Şaiqin, Y.V.Çəmənzəminlinin əsərlərində bədii, psixoloji, məişət və ya fizioloji detalla yanaşı satirik detala da rast gəlinir. Bədii detalın intensiv mahiyyəti bütün məqamlarda süjetin dinamikasında təsdiqini tapır.

A.Şaiqin hekayələrində detallar satirik - yumoristik məna tutumunda da çıxış edir. Detalların «Vəzifə», «Baş üstə», «Dəyərli bir xatirə» hekayələrində böyük əksəriyyəti yumorlu xarakter daşıyır.

Uzun illərin, gərgin axtarışların nəticəsi olan «Azərbaycan realist nəsrində satira» monoqrafiyasını oxuduqdan sonra belə qənaətə gəlirsən ki, böyük bir dövrün realist satirik nəsrini əks etdirən bu fundamental əsər ədəbiyyatşünaslığımıza qiymətli töhfədir.

"Azərbaycan müəllimi" qəzeti,
10 oktyabr, 2008-ci il

«525-ci qəzet»in redaktoru Rəşad Məciddən bir rica. Xahiş edirəm «məktub» janrında yazdığım bu minnətdarlıq sətirlərini dərc edəsiniz.

«MƏKTUB» JANRINDA MİNNƏTDARLIQ

Əziz Elçin müəllim! Sizin 10 cildlik «Seçilmiş əsərləri»nizə ön sözdə çox sərrast deyilmiş bir fikriniz var ki, «mətbuat həvəskarın yox, professionalın əsərini çap etməlidir və mətbuat yazıçı olmaq istəyən adamın yazıçı olmasına qədər keçdiyi yolu öz səhifələrində əks etdirməyə borclu deyil!». İndi mətbuat azadlığı, söz və fikir müstəqilliyindən sui-istifadənin coşub-daşdığı bir zamanda, «sənətkar ordusunun» meydan suladığı dövrdə yalnız nəzəri fikirlə deyil, yüksək bədii-estetik səviyyəsi ilə seçilən, örnək olan əsərlə qarşıya çıxmaq əslində Siz və sizin kimi mütəfəkkir yazıçılarımızın, ədiblərimizin taleyinə yazılan əzablı, iztirablı bir tanrı payıdır... Əlbəttə bunu Siz-zəmanəmizin canlı klassiki (bu mənim birmənalı inandığım qənaətdir) olaraq çox gözəl bilirsiniz. Məni bu sətirləri yazmağa vadar edən «525-ci qəzet»in 4 aprel 2009-cu il şənbə sayında dərc olunan «Canavarlar» oldu. 1959-cu ildə dərc olunan «O inanırdı» adlı ilk hekayənizdən düz əlli il sonra yazılan bu əsər sizin Azərbaycan dilinə canü dildən xidmtinizin parlaq nümunəsidir. «Canavarlar»la tanışlıq «Külli-məxluqatın ən zəifi insandır...» (İlyas Əfəndiyev) fikrini təsdiqləməklə bitmir, həm də böyük ümid yaradır ki, Azərbaycan ədəbiyyatının 1960-cı illər mərhələsini yaradanlardan biri kimi məşhurlaşan xalq yazıçısı Elçin mütəfəkkir-filosof təbiəti ilə hələ, bundan sonra da oxucularının maraq dairəsində olacaq...

Əsər bir sıra məziyyətləri ilə yaddaşıma hakim kəsildi, lakin hər şeydən çox allahın yaratdığı hər bir məxluqun yaşamaq haqqına tərəfdarlıq ideyası rəğbət doğurdu. Bu mənada «Canavarlar» müasir Azərbaycan ədəbiyyatının güzidə

(şedevr) nümunəsi sayıla bilər və nədənsə E.Heminqueyin «Qoca və dəniz»ni və T.Drayzerin «Dahi», «Kerri bacı», «Cenni Herhard» romanlarını xatırlatdı. Yaranmışların yaşamaq haqqını qorumaq yaradanın da istəyincədir və onu bilməyənlərə anlatmaq, sabahkı nəsillərə çatdırmaq yenə də Sizin kimi görkəmli yazıçımızın nəsibidir. Düzünü deyim ki, bu «məktub» janrlı yazını Sizə «525-ci qəzet»də «Sarı gəlin» çap olunanda yazmaq istəyirdim. Lakin nədənsə vaxt uzandı. Şükür allaha ki, varsınız və daha böyük əzmlə yenə də yazıb-yaradır, ədəbiyyat təşnəsi olanların ruhuna təsəlli olursunuz. Və bir də onu deyim ki, 50 illik yaradıcılıq müddətində sübut etmisiniz ki, yalnız Azərbaycanın, Qafqazın, MDB məkanının deyil, dünyanın yazıçısısınız. İnanmayanlar «Canavarlar»ı oxusun və mənim fikrimi tərəddüdlə qarşılayanlar 10 cildliyə baş vursunlar...

Hörmətli Elçin müəllim, «Canavarlar»ın süjet xətti, kompozisiyası, bədii sənətkarlıq özəllikləri və orijinallığı kimi nəzəri-estetik məsələlərdən, onun ideya yönündən, əlbəttə, geniş bəhs açmaq olar. Xüsusən Sizin dərin qatlarda, geniş, əhatəli təsvir anlarında konkret-bədii məntiq məqamlarını təqdim etməyiniz, lirik-psixoloji təhkiyədə satirik-sarkastik fikir söyləmək məharətiniz yeni düşüncə üfüqləri açır, çağdaş ədəbiyyat və cəmiyyət qarşıdurmasında ədəbiyyatın ictimai faydalılığına bir daha haqq qazandırır. Bədii şərtilik, dramatik gərginliklə müşayiət olunan hadisələrin axarında çağdaş dünyanın yaşantılarına aydınlıq gətirilir, indiki qloballaşma dövrünün Şərq və Şimal tərəfmüqabilliyində yaşam haqqının tanrı payı olduğuna işarə edilir. Zənnimcə rəmz, simvol və bədii eyhamlar, alleqorizm əsərin obraz möhtəşəmliyinə və mürəkkəbliyinə xidmət etməklə yanaşı, həm də ideya-estetik axtarışın sadələşdirilməsinə vasitə olur. Belə ki, Boz və Ana canavarın Şərqə doğru «qurtarmaq bilmyən ac yolçuluğu» ilə «Şimala doğru gedən o insanlardan baıt iyi gəlmirdi» mülahizələri əsərin rəngarəng və təfərrüatlı təsvir

məqamları içərisində intellektual oxucunun yaddaş arxetipini qorumağa kömək edir, onda müasir dünya və ictimai hadisələr barədə əlvan duyğular oyadır...

Hörmətli Elçin müəllim, Sizin həm də tanınmış ədəbiyyatşünas-alim, tənqidçi və nəzəri fikir adamı olduğunuzu bildiyimə, daimi oxucunuz kimi prinsiplərinizi qiymətləndirdiyinə görə «Canavarlar» haqqında geniş danışmağı indi uyğun görmürəm. Sizə tanrıdan can sağlığı arzulayır, yeni-yeni əsərlərinizin yolunu gözləyir, «525-ci qəzet»in yaradıcı kollektivinə gözəl bir yaz gecəsində böyük məmnunluqla oxuduğum «Canavarlar»ı bizlərə – oxuculara təqdim etdiyinə görə minnətdarlığımı bildirirəm...

Mündəricat

XX əsrin əvvəllində Azərbaycanda ictimai-tarixi və ədəbi-mədəni mənzərə 3
XX əsrin əvvəllərində Azərbaycanda ədəbi-nəzəri fikir və tənqid 95
«Əkinçi»nin Azərbaycan idealı, yaxud tarixdən ibrət götürəkmi 143
«Əkinçi»nin jurnalistika dərsləri 156
Azərbaycanın şəxsiyyət simvollarından biri – Əlimərdan Bəy Topçubaşov 165
Əhməd Bəy Ağaoğlu 188
Əhməd Bəy Ağaoğlunun vətənə qayıdışı və tərcümeyi-halı 274
Tərcümeyi-halı-acizanəm 276
Əlibəy Hüseynzadə 285
Əlibəy Hüseynzadə və Füyuzatçılıq 350
«Həyat»dan başlanan yol 355
«İrşad» yolgöstərən deməkdir 369
Anadoluya səsləniş, yaxud bizi tarixdən sorun 399
«Azərbaycan" – 90 410
Tarixin yadigarları 410
«Azərbaycan» qəzetinin nəşri tarixindən 412
Böyük bir örnək 419
Söz rəncbəri 441
Azərbaycan informasiya mühitinin lideri 466
Azərbaycan nəsrində yeni əsər – «Nadir şah» romanı 472
«Broy and Panoptikum»da bədii sözün energetikası 486

Talesiz şairlik yoxdur 502
1980-ci illər Azərbaycan nəsrinin poetikası 509
İşıq gələn tərəfə doğru 514
Azərbaycan elmi haqqında dəyərli kitab 518
Yadigar yazı, yaxud filosof sakit budaqlı haqqında
bir neçə kəlmə 523
Ədəbiyyatşünaslığa yeni töhfə 530
«Məktub» janrında minnətdarlıq 538

ŞAMİL VƏLİYEV

AZƏRBAYCAN ƏDƏBIYYATI VƏ MƏTBUATINDAN ARAŞDIRMALAR

(2000-2010)

2 CİLDDƏ

II cild

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: **Zahid Mənımədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **25.08.2011.**
Çapa imzalanmış **14.10.2011.**
Şərti çap vərəqi **34.** Sifariş № **405.**
Kağız formatı **60x84 1/16.** Tiraj **300.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

Azf-3354186



Həmişə bizə elə gəlib ki, zaman su kimi axıb gedir, amma heç də belə deyilmiş. Axıb gedən bizlərmişik və bu axında insan taleyi kasıb süfrəsinə qoyulan quru çörək kimidir, onu yemək də olmur, yeməmək də. Bizim yaşıdların, ədəbi nəslin ictimai taleyində də bu qismət varmış. İstəsək də, istəməsək də gəncliyimizi sovetlər rejimi dövründə yaşadıq, yetkinliyimiz onun dağılması və azadlığın, müstəqilliyin əldə edilməsi zamanına düşdü. SSRİ-də doğulduq, böyüdük, təhsil aldıq. Postsovet coğrafiyasında araşdırmalar apardıq, özümüzü təsdiqə çalışdıq, azad Azərbaycanın vətəndaşı kimi yaşadıq. İşə bax ki, mənim irsini araşdırdığım şəxsiyyətlərin də əksəriyyəti müxtəlif ictimai-siyasi dövr və rejimlərdə yaşayıb, XIX əsrin sonu və XX əsrin birinci yarısında çar Rusiyasının monarxizmi, AXC dövrünün demokratizmi və SSRİ-nin totalitarizmini görüb, zamanın dramatizmindən yaranan "əzablı tale" sahibi, millət, vətən əzabkeşi, cəfakeşi kimi tanınıblar.

Hörmətli oxucu, mən və yaşıdlarım 1970-ci illərin ikinci yarısında filoloji təhsil aldıqdan sonra tədris və tədqiq işi ilə məşğul olduq. Həmin dövrdə materialist düşüncə, təfəkkür tərzi rəsmi dövlət ideologiyasının əsasını təşkil edir, ictimai arzu və xəyallarda kommunizm uzaq yaşıl ada misalında cənnət kimi təsəvvür edilir, gənclik bir çox milli tarix və yaddaş həqiqətlərini bilmir, bilənlər isə bildiyini açıq-aydın ifadə etməyə çətinlik çəkir, qorxur, "özünü işə salmaq" istəmirdi. O illərin xofu, azadlıq xiffəti, uğurlu və uğursuz günləri haqqında bundan sonra yəqin ki, hələ çox yazılacaq, bu günlərə tez-tez istinad olunacaq. Lakin dəyərli faktları şübhəsiz ki, sonra yazılanlar deyil, anında, zamanında yazılanlar sərgiləyəcək. Çünki bunlar düşünülən deyil, yaşanılan həqiqətlərdir. Ona görə də müstəqillik ərəfəsi və onun əldə edilməsi dövrünün yazılarını janrından asılı olmayaraq ilkin variantda necə idisə, nöqtəsinə-vergülünə dəymədən nəşr etdirməyin doğru yol olduğuna inamdan yarandı bu kitab. Bəziləri müasir dövrdə "izm"-lərə uymasını gizlətməyə çalışır, özünü redaktə ilə yenidən nəşr edir və yazıqlar olsun ki, tarixi simasını itirir, yaşadığı həqiqətləri unuda biləcəyini sanır. Zənnimcə bu böyük yanlışlıqdır. Biz gəncliyə bizi tənqid etmək şansını verməyi bacarmalıyıq ki, onlar öz inkişaf koordinatlarını düzgün müəyyənləşdirsinlər. Necə ki, bizdən öncə gələn, fikir və məfkurə yolunda, ədəbiyyat və mətbuat uğrunda can qoyan şəxsiyyətlər bizə tənqid və özünütəşkil şansını səxavətlə verdilər, kimliyini bizdən gizlətmədilər. İşin və yolun ən doğrusunun bu olduğuna inamdan yarandı bu kitab. Bir də o arzudan ki, bizdən sonra gələnlərin qismәti "qırmızı qaranlıqlar" və bənzəri olan yalanlar dünyası deyil, doğru söz, haqpərəst və ədalətli vətəndaş cəmiyyəti, azad, müstəqil və qüdrətli Azərbaycan olsun.

16 avqust 2011-ci il.